AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

HƏBİBƏ SOLTANOVA

# AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM VƏ ONUN İNKİŞAFI

*Bakı Dövlət Universiteti
Coğrafiya fakültəsinin Elmi Şurasının
10 sentyabr 2015-ci il tarixli iclasının
01 saylı protokolu ilə təsdiq edilmişdir.*

- 17230 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – 2015

**Müəllif:** **Soltanova Həbibə**

**Rəyçilər:** BDU, İqtisadi və sosial coğrafiya kafedrasının müdiri, c.e.d., prof. **T.G.Həsənov**

Azərbaycan Turizm və Menecment Universitetinin Biznes kafedrasının müdiri, t.e.n.dos.**B.Ə.Bilalov**

DAİR kiçik otellər və restoranların inkişafına kömək ictimai birliyinin sədri, **S.İ.Baba-zadə**

Azərbaycan Turizm Assosiasiyası sədrinin müşaviri, **M.M. Ağakərimov**

**Elmi redaktor:** BDU, Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, dos. **H.B. Soltanova**

**Azərbaycan Respublikasında turizm və onun inkişafı.** *Monoqrafiya* Azərbaycanda *qeyri-neft sektorunda prioritet sahə olan* turizm və *onun inkişafına həsr olunmuşdur. Strukturuna görə əsasən 5 hissədən, 20 fəsildən ibarət olan kitabda əlavələr də verilmişdir. Fəsillər* Azərbaycanda *turizmin inkişaf tarixi və amilləri, maddi-texniki bazası, turizm bazarı, iqtisadi rayonlar üzrə turizmin imkanları, müasir vəziyyəti və inkişaf istiqamətləri, respublikada turizmin perspektivlərinə həsr edilmişdir.*

*Monoqrafiya turizm ixtisasına yiyələnən bakalavriatlar, magistrantlar, doktorantlar, bu sahə üzrə peşə ixtisası alanlarlar, həmçinin aidiyyatı olan müəssisələrdə çalışanlar üçün nəzərdə tutulmuşdur.*



## MÜNDƏRİCAT

**ÖN SÖZ.........9**

**I H İ S S Ə. AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ TƏBİİ, TARİXİ-MƏDƏNİ VƏ SOSİAL AMİLLƏRİ.........12**

**I FƏSİL. AZƏRBAYCANDA TURİZMİN TARİXİ.........12**

1.1.Qədim və orta əsrlərin ticarət karvanları mərhələləri....... 12

1.2.XIV-XIX əsrin sonlarına qədər olan mərhələ.........13

1.3.XIX əsrin sonu XX əsrin ortalarına qədər olan mərhələ... 15

1.4.Müstəqillik dövrünə qədərki mərhələ (1950-1991).........18

1.5.Müstəqillikdən sonrakı mərhələ.........20

**II FƏSİL. TURİZMDƏ TƏBİİ TURİZM-REKREASİYA AMİLLƏRİNİN ƏHƏMİYYƏTİ.........24**

2.1.Rekreasiya potensialı və turizm-rekreasiya sistem lərinin öyrənilməsi .........24

2.1.1.Relyef.........34

2.1.3.İqlim.........38

2.1.4.Hidroqrafiya.........43

2.1.5.Flora və fauna......... 46

2.1.6.Milli parklar.........49

**III FƏSİL. TURİZMDƏ TARİXİ-MƏDƏNİ AMİLLƏRİN ROLU.........61**

3.1. Tarixi-mədəni turizm ehtiyatlarının təsnifatı.........61

3.2. Tarixi-mədəni abidələrin coğrafiyası.........67

3.3. Milli irs nümunələri.........71

3.4. Milli bayramlar və festivallar.........75

**IV FƏSİL. TURİZMDƏ SOSİAL-İQTİSADİ AMİLLƏRİN ROLU....77**
4.1. Turizmin inkişafına təsir edən makroiqtisadi amillər.......77
4.2. Turizmin inkişafına təsir edən mikroiqtisadi amillər........84
4.3. Sosial vəziyyət və bunun turizmlə əlaqəsi....................100

**II H İ S S Ə. AZƏRBAYCANDA TURİZMİN MADDİ-TEXNİKİ BAZASI....104**

**V F Ə S İ L. TURİZMİN MADDİ-TEXNİKİ BAZASI VƏ ONUN TƏRKİBİ....104**
5.1.Turistləri yerləşdirmə müəssisələri................................105
5.2. Nəqliyyat vasitələri.......................................................112
5.3. Qidalanma müəssisələri.................................................114

**III H İ S S Ə. AZƏRBAYCANIN TURİZM BAZARI VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ.....**
**VI F Ə S İ L. TURİZM BAZARI VƏ ONUN MAHİYYƏTİ....119**
6.1. Turizm bazarı anlayışı....................................................119
6.2. Turizm bazarının xüsusiyyətləri......................................122
6.3. Turizm bazarının yaranmasının mühüm şərtləri.............125

**VII F Ə S İ L. TURİZM BAZARININ MARKETİNQ TƏDQİQATLARI....128**
7.1.Turizm bazarının öyrənilməsində marketinq tədqiqatlarının əhəmiyyəti....128
7.2. Turizm bazarının vəziyyəti və tutumunun öyrənilməsi....131



**VIII F Ə S İ L. AZƏRBAYCANDA TURİZM BAZARININ ÜMUMİ VƏZİYYƏTİ....138**
8.1. Gəlmə turizm bazarı........................................................140
8.2. Getmə turizm bazarı........................................................142
8.3. Turizm bazarında şirkətlərin fəaliyyəti.............................148

**IV H İ S S Ə. AZƏRBAYCANIN İQTİSADİ RAYONLARINDA TURİZMİN VƏZİYYƏTİ....160**

**IX F Ə S İ L. ABŞERON İQTİSADİ RAYONU....160**
9.1. Rayon haqqında ümumi məlumat......................................160
9.2. Rayonun turizm-rekreasiya ehtiyatları.............................163
9.3. Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti.....172

**X F Ə S İ L. QUBA-XAÇMAZ İQTİSADİ RAYONU....178**
10.1.Rayon haqqında ümumi məlumat....................................178
10.2.Rayonun turizm-rekreasiya ehtiyatları...........................180
10.3.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti....189

**XI F Ə S İ L. ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONU....205**
11.1.Rayon haqqında ümumi məlumat....................................205
11.2.Rayonun turizm-rekreasiya ehtiyatları...........................207
11.3.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti....216

**XII F Ə S İ L. GƏNCƏ-QAZAX İQTİSADİ RAYONU....227**
12.1.Rayon haqqında ümumi məlumat....................................227
12.2.Rayonun turizm-rekreasiya ehtiyatları...........................229
12.3.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti....242

XIII F Ə S İ L. LƏNKƏRAN İQTİSADİ RAYONU.......247
13.1.Rayon haqqında ümumi məlumat.................................247
13.2.Rayonun turizm-rekreasiya ehtiyatları..........................249
13.3.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti....257

XIV F Ə S İ L. DAĞLIQ ŞİRVAN İQTİSADİ RAYONU..........................................................266
14.1.Rayon haqqında ümumi məlumat.................................266
14.2.Rayonun turizm-rekreasiya ehtiyatları..........................270
14.3.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti....284

XV F Ə S İ L. ARAN İQTİSADİ RAYONU....................293
15.1.Rayon haqqında ümumi məlumat.................................293
15.2.Rayonun turizm-rekreasiya ehtiyatları..........................296
15.3.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti....306

XVI F Ə S İ L. NAXÇIVAN İQTİSADİ RAYONU.........316
16.1.Rayon haqqında ümumi məlumat.................................316
16.2.Rayonun turizm-rekreasiya ehtiyatları..........................319
16.3.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti....329

XVII F Ə S İ L. YUXARI QARABAĞ İQTİSADİ RAYONU..........................................................343
17.1Rayon haqqında ümumi məlumat.................................343
17.2.Rayonun turizm-rekreasiya ehtiyatları..........................346

XVIII F Ə S İ L. KƏLBƏCƏR-LAÇIN İQTİSADİ RAYONU..........................................................350
18.1.Rayon haqqında ümumi məlumat.................................350
18.2.Rayonun turizm-rekreasiya ehtiyatları..........................352



V H İ S S Ə. AZƏRBAYCANDA TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ..........................................................355

XIX F Ə S İ L. AZƏRBAYCANDA DÖVLƏTİN TURİZM SİYASƏTİ VƏ ONUN İSTİQAMƏTLƏRİ.....358

XX F Ə S İ L. AZƏRBAYCANDA TURİZMİN PRİORİTET İSTİQAMƏTLƏRİ.......................................363
20.1.Ekoloji turizm..........................................................363
20.2.Kənd turizmi...........................................................369
20.3. Dağ turizmi............................................................377
20.4. Kurort-müalicə turizmi............................................382

ƏLAVƏLƏR..........................................................388
**Əlavə 1.** "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu..........................................................388
**Əlavə 2.** Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı. Avqust, 2002-ci il..........................................................402
**Əlavə 3.** "Azərbaycan kurortları" Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Fevral, 2007-ci il.................................................415
**Əlavə 4.** Azərbaycan Respublikası Prezidentinin "Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə"nin təsdiq edilməsi barədə Fərmanı. İyun, 2008-ci il.......................... .418

**Əlavə 5.** Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Aprel, 2010-cu il.................................................431

**Əlavə 6.** Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. Fevral, 2009-cu il........441

**DİOQRAMLAR........455**

**İSTİFADƏ OLUNMUŞ VƏ TÖVSİYƏ EDİLƏN ƏDƏBİYYAT........465**

**Annotation........473**

**Müəllif haqqında........474**



## ÖN SÖZ

Çoxsaylı tədqiqatlar göstərir ki, turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur. Hazırda turizm qlobal miqyasda sürətlə inkişaf edən biznes sahələrindəndir. Dünya üzrə ümummilli məhsulun 10 faizi, ixracatın 8 faizi beynəlxalq turizmin payına düşür, göstərilən xidmətlərin təqribən üçdə biri beynəlxalq turizm vasitəsi ilə həyata keçirilir. Dünyada əmək qabiliyyətli əhalinin 8.1 faizi turizm sənayesində və onunla bağlı sahələrdə məşğuldur. Dünyada gedən proseslər müstəqil Azərbaycana da təsirsiz ötüşməmişdir. Azərbaycanın turizmi müstəqillik dövründən götürülərək gənc hesab edilsə də, respublikamızda turizm ənənələrinin tarixi qədimdir. Ölkəmizdə bütün sahələrdə danılmaz xidmətləri olan ulu öndərimiz Heydər Əliyevin turizmin inkişafına da çox böyük töhfələri olmuşdur. Azərbaycanda turizmin inkişafı, turizm və ekskursiyaların coğrafiyasının genişlənməsi hələ 1970-1980-ci illərə aid edilir. Bu, ümummilli lider Heydər Əliyevin həmin sahəyə bilavasitə diqqətinin və qayğısının nəticəsində mümkün olmuşdur. Turizm fəaliyyəti üçün Azərbaycan əlverişli coğrafi şəraiti, tarixi-memarlıq və mədəniyyət abidələri, qonaqpərvərliyi, milli adət-ənənələri, zəngin mətbəxi və digər amilləri ilə seçilməsinə baxmayaraq, 1950-1960-cı illərdə SSRİ məkanında turizm infrastrukturunun ən zəif inkişaf etdiyi bölgələrdən biri idi.

Turizm Azərbaycanın regionlarının iqtisadi inkişafının prioritet istiqamətlərindən biri kimi qəbul edilib və beynəlxalq təşkilatların rəyinə görə də bunun həyata keçirilməsi üçün respublikamızda gözəl imkanlar var. Son on ildə ölkəmizin iqtisadi, siyasi, sosial, mədəni və turizm sahələrində əldə etdiyi nailiyyətlər Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin və bu gün onun daxili və xarici siyasətini layiqincə

davam etdirən Prezident İlham Əliyevin böyük zəhməti hesabına qazanılmışdır.

2003-cü ildə "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında", 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqında prezidentin fərmanları ölkə iqtisadiyyatının, o cümlədən turizm sektorunun inkişafı yolunda mühüm addımlar oldu. Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir. 2014-cü ildə Azərbaycana gələn turistlərin sayı 2,2 mln. nəfərə çatmışdır. Xarici turizmlə yanaşı, daxili turizmin inkişafına da diqqət yetirilir. Xüsusilə, bölgələrdə sosial turizmin aztəminatlı ailələrin, əlillərin istirahət və sağlamlıqlarının bərpasına yönəldilən turizmə önəm verilir. Turizmin bu növlərinin genişlənməsində AR Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Dövlət Sosial Müdafiə Fondu və digər əlaqədar təşkilatlar dövlətimizin siyasətini uğurla həyata keçirirlər. Əminliklə demək olar ki, Azərbaycan Respublikasında turizm tədricən iqtisadi siyasətin ən qabaqcıl istiqamətlərindən birinə çevrilir. Qeyd edək ki, təbiət Azərbaycanın turizm sənayesini beynəlxalq səviyyəyə qaldırmaq üçün bütün imkanları bəxş etmişdir, bundan sonrakı işlər isə insanların fəaliyyətindən və bu işə münasibətlərindən asılıdır.

Azərbaycanda turizm inkişaf etdikcə, mütəxəssis kadrlara tələbat artır. Bu, ilk növbədə otelçilik sahəsində qabarıq nəzərə çarpır. Bu problemin aradan qaldırılmasında respublika hökumətinin turizm sahəsindəki siyasəti mühüm rol oynayacaqdır. Belə ki, Azərbaycanın bir neçə ali təhsil ocaqlarında "Turizm və otelçilik" ixtisası üzrə mütəxəssis kadr hazırlığına başlanılmışdır. Ali təhsil alan bu kadrlardan hazırda respublikada beynəlxalq şəbəkəyə daxil olan otellərdə müxtəlif vəzifələrdə çalışanlar vardır. O da məlumdur ki, mütəxəssis kadr hazırlığında tədris olunan fənlər üçün azərbaycan dilində vəsaitin olması çox önəmlidir. Bu baxımdan Həbibə Soltanova tərəfindən yazılmış **"Azərbaycan Respublikasında turizm və onun inkişafı"** monoqrafiyası təqdirəlayiqdir.



Monoqrafiyadan turizm təhsili alan tələbə, magistrant, doktorantlar, həmçinin bu sahəsində fəaliyyət göstərən personal yararlana bilər. Kitabda Azərbaycanın turizm imkanları və onlardan istifadənin müasir vəziyyəti açıqlanmış, bu sahədə problemlər və onların aradan qaldırılması, turizmin inkişaf istiqamətləri və perspektivlər haqqında məlumat verilmişdir.

**Coğrafiya elmləri doktoru,**
**professor V.Ə.Əfəndiyev**

# I HİSSƏ
# AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ TƏBİİ, TARİXİ-MƏDƏNİ VƏ SOSİAL-İQTİSADİ AMİLLƏRİ

## I FƏSİL. AZƏRBAYCANDA TURİZMİN İNKİŞAF TARİXİ

Turizm fəal istirahətin geniş yayılmış və ən kütləvi növlərindən biridir. Hər il minlərlə insan istirahət həvəskarları sırasına qoşulur və bununla da turizm getdikcə daha geniş vüsət alır. Turizm sadəcə maraq da deyil. Bu, son 15-20 ildə respublikamızda insanların vərdiş etdikləri həyati tələbatına çevrilmişdir. Lakin Azərbaycanda turizmin tarixi göstərilən bu illərlə məhdudlaşmır. Əgər qədim səyahətləri xatırlasaq, aydın olur ki, Azərbaycan ərazisinə müxtəlif məqsədlər üçün səfər edən səyyahlar olmuşlar. Onlar turist sayılmasalar da, zaman keçdikcə bu ərazidə qonaqpərvərlik sənayesi formalaşmağa başlamışdır. Bunu nəzərə alaraq, Azərbaycanda turizmin inkişaf mərhələlərinə nəzər salaq.

### 1.1.Qədim və orta əsrlərin ticarət karvanları mərhələsi

Azərbaycana ilk səyahətlər ticarət, dini, siyasi və dərketmə məqsədləri ilə əlaqəli olmuşdur. Qədim Azərbaycan ərazisindən keçən ticarət karvanlarının hərəkətini ilk səyahətlər hesab etmək olar. Azərbaycan hələ qədim dövrlərdə Böyük İpək Yolunun (BİY) üzərində mühüm dayanacaq kimi tanınan bir ölkə olmuşdur. Antik müəlliflərin məlumatlarına görə, BİY-nun ən fəal hərəkətli hissələrindən biri Qafqaz Albaniyasının ərazisindən (müasir Azərbaycan Respublikasının ərazisində yerləşən qədim dövlət) keçirdi. Karvan ticarət yolu Çini Ön Asiya və Aralıq dənizi sahili ölkələri ilə əlaqələndirirdi. XIX əsrdə "İpək yolu" adlandırılmış karvan ticarət yolu Azərbaycanın tarixinə, mədəniyyətinə, iqtisadiyyatına böyük təsir göstərmişdir. Çin ipəyinin Azərbaycan vasitəsilə Avropaya daşınması bu istiqamətdə olan ölkələr və xalqlar arasında ünsiyyətin, mədəni əlaqələrin yaranmasına imkan vermişdir. Azərbaycan hələ qədim dövrlərdə Böyük İpək Yolu (BİY) üzərində mühüm dayanacaq məntəqəsi kimi tanınırdı.

Strabonun yazdığına görə, hind mallarının xeyli hissəsi Orta Asiya ərazisindən keçərək çaylarla Gürgan (Xəzər) dənizinə, sonra dəniz vasitəsilə Albaniyaya və Kir (Kür) çayı ilə İberiyaya (Şərqi Gürcüstan), oradan isə Pont Evksinskiyə (Qara dənizə) aparılırdı. BİY üzərində olan Təbriz, Marağa, Ərdəbil, Gəncə, Naxçıvan, Ordubad, Qəbələ, Mingəçevir, Nuxa (Şəki) və digər qədim şəhərlər Azərbaycanın şimalında mühüm beynəlxalq ticarət mərkəzi kimi formalaşmışdı. Ticarət karvanlarının sığınacaq yeri olan karvansara və rabatlar orta əsrlərin əsas ictimai tikililəri sayılırdı.

IX-XV əsrlərdə Azərbaycanda karvansaralar, "qonaq evləri", rabatların geniş şəbəkəsi yaradılmışdı. Həmin dövrdə Təbrizdə 200-300-dən çox, Şamaxıda 60-dan çox, Dərbənddə 100-dən çox karvansara fəaliyyət göstərirdi. Karvansaralar öz funksional təyinatına görə şəhər, yol kənarları və limanlarda tikilən gecələmə yerləri, müxtəlif əmlakların saxlandığı yerlər olmuşdur. Şəhər karvansaraları otaqlarının sayı çox olmaqla böyük idi. Tacirlər və müxtəlif səyahətçilərə xidmətlər göstərilməklə yanaşı, onlar həmçinin çeşidli ticarət, pul əməliyyatlarının aparılması üçün də əlverişli yer sayılırdı.

### 1.2.XIV-XIX əsrin sonlarına qədər olan mərhələ

Rusiyadan İrana və Hindistana gedən dəniz və quru yollarının ayrıcında yerləşən Bakının XIV əsrin ortalarında Qərblə Şərq arasında ticarət əlqələrində böyük rolu var idi. Ağ dənizdən Volqa çayı vasitəsilə Xəzər dənizinə və sonra İran və Hindistana aparan Volqa-Xəzər dəniz yolu, Bakıda yeni

karvansaraların tikilməsinə səbəb oldu. Bunların ölçüləri əvvəlki dövrlərdə inşa edilənlərə nisbətən daha böyük idi. Müxtəlif zamanlarda Azərbaycana səyahət edən tarixçilər və səyyahlar o dövrlərdə mühüm yerləşdirmə obyektləri sayılan karvansaraları öz səyahətnamələrində qeyd etmişlər. Bunlardan Multanı (XII-XIV), Buxara (XIV-XVI), Fars, Ləzgi və s. hazırda da qalmaqdadır.

Müxtəlif dövrlərdə Azərbaycanda olmuş səyyahların, tacirlərin, diplomatların (Marko Polo, Afanasi Nikitin, Aleksandr Düma, İosafat Barbaro, Ambrocco Kontarini, Antoni Cenkinson, Vincensi Alesandri, Sadko, Övliyə Çələbi, Fedor Kotov) səyahətnamələrində olan qeydlər xalqımızın hələ o zaman ümumdünya tarixi tərəqqi prosesində layiqli yer tutduğunu göstərir.

Beləliklə, qədim və orta əsrlərdə Azərbaycanda səyahətlərin genişlənməsində BİY-nun əhəmiyyəti və rolu əvəzsiz olmuşdur. Həmin dövrdə Azərbaycanda yaşayan xalqların dünyanın digər regionlarının (Avropa, Şimali Afrika, Şərqi, Mərkəzi və Cənubi Asiya) xalqları ilə ticarət əlaqələri genişlənmiş, mədəniyyətləri qovuşmuş, turizmin bünövrəsi kimi qonaqpərvərlik inkişaf etməyə başlamışdır. Digər tərəfdən, marşrut boyu iri şəhərlər formalaşmış, şəhərlərdə səyahətçilərə xidmət edən müxtəlif təyinatlı tikililər inşa edilmiş, sənətkarlığın müxtəlif növləri inkişaf etdirilmişdir.

Məhz buna görə də dörd əsrdən sonra bəşər sivilizasiyasının nadir nümunəsi sayılan İpək Yolunun yenidən bərpası məsələsi ulu öndərimiz Heydər Əliyev tərəfindən 2001-ci ildə gündəmə gəldi və onun yeni məcrada bərpasına başlanıldı.

XVI əsrin sonlarından BİY-nun fəaliyyəti tamamilə iflasa uğrayır. Orta əsrlərdə İpək Yolu üzərində olan şəhərlərdə, xüsusilə Təbrizdə ticarət azaldığına görə karvansaraların fəaliyyəti zəifləyir. Bununla yanaşı, həmin dövrdə Bakı Azərbaycanda, Yaxın və Orta Şərqdə tanınan ticarət mərkəzlərindən birinə çevrilir. Xüsusilə Abşeronda neft çıxarılması, duz hasilatı,



zəfəran yetişdirilməsi onun ticarət mərkəzi kimi formalaşmasına təsir edir. Bu məhsulların quru (karvan) və dəniz yolları ilə daşınması regionda feodal münasibətlərinin inkişafında mühüm rol oynamışdı. XVII-XIX əsrlərdə Bakıda 100-dən çox karvansara tikilmişdi.

XIX əsrin ortalarında Bakıda inzibati və ictimai müəssisələrin sayı çoxalırdı. Həmin dövrdə müxtəlif banklar, kredit müəssisələri, telefon-rabitə stansiyası, gecələmə yerləri istifadəyə verildi, Bakı-Tiflis dəmir yolu xətti çəkildi və s. Həmçinin bir sıra ölkələrin Bakıda konsulluqları açılırdı. Bakıda neft "hay-küyü"nün dünyaya yayılması da xarici ölkələrdən Azərbaycana gələnlərin sayının artmasına təsir edirdi. Bu isə xidmət sektorunun yaradılmasına imkan yaradırdı.

## 1.3.XIX əsrin sonu XX əsrin ortalarına qədər olan mərhələ

XIX əsrin sonlarında XX əsrin əvvəllərində Bakının karvansaralarında qonaqlar üçün komfort şərait yaratmaq məqsədi ilə karvansara binalarında yenidənqurma işləri aparılaraq onlardan mehmanxana kimi istifadə olunurdu. XIX əsrin sonu və XX əsrin əvvəllərində əcnəbi qonaqları qəbul edə bilən mehmanxanalara "Metropol", "İmperial", "Astoriya", "Bristol", "Qrand Otel", "Lion", "İtaliya", "Marsel", "Madrid", "Təbriz" və s. misal göstərmək olar. Şəhərin "Bolşaya Moskva", "Ermitaj", "Marsel" və "Madrid" mehmanxanaları xidmətin yüksək olması ilə seçilirdi. Şəhərin əhalisi gur olan Quba meydanında (hazırkı Füzuli meydanı) yerləşən karvansara və mehmanxanalarda Azərbaycanın müxtəlif bölgələrindən gələn tacirlər, ziyalılar, mədəniyyət xadimləri, əkinçilərə rast gəlmək olardı. XX əsrin əvvəllərində Bakıda 30-dan çox əyləncə müəssisəsi və restoran fəaliyyət göstərirdi ("Şəms", "Mübarək", "Dardanel", "Mikado", "İstanbul", "İslamiyyə", "Çikaqo",

"Tehran" və s.). Asudə vaxtlarını "Edisson", "Ermans", "Ermitaj" klublarında keçirən gənclər və şəhərin qonaqları da çox olurdu.

Rusiya imperiyası tərkibinə daxil olduqdan sonra Azərbaycanda turizm-ekskursiya işinin inkişafı Rusiya ilə bağlı olmuşdur. Azərbaycanda mütəşəkkil turizmin tarixini də 1908-ci ilə aid etmək olar. Belə ki, 1908-ci ildə Krım - Qafqaz dağ klubunun filiallarından biri Bakıda açılmışdı. Bakı bölməsi həm uzaq, həm yaxın ekskursiya səfərlərinin təşkili ilə məşğul olurdu. XIX əsrin sonu XX əsrin əvvələrində turizmin inkişafına elmi və həvəskar cəmiyyətlər (coğrafiya cəmiyyəti, təbiəti sevənlər cəmiyyəti, xalq universitetləri cəmiyyəti və b.) diqqət yetirməyə başladılar. Azərbaycanda sovet hökuməti qurulduğu ilk onillikdə turizm və ekskursiya hərəkatından daha çox siyasi təbliğat vasitəsi kimi istifadə edilməyə başlanılır. Turizm fəaliyyətinin siyasi təbliğat vasitəsilə əlaqələndirilməsi, turizm həvəskarlarının yeni hərəkatda birləşdirilməsi məqsədilə 1928-ci ildə "Sovtur" təşkilatı, 1929-cu ildə isə "Proletar Turizm Cəmiyyəti" yaradılır. Eyni zamanda 1929-cu ildə xarici turizmlə məşğul olan "İnturist" təşkilatı yaradıldı. 1930-cu ildə "Sovtur" və "Proletar Turizm Cəmiyyəti" birləşdirilərək Ümumittifaq Könüllü Proletar turizm və ekskursiyalar cəmiyyəti adlandırıldı.

1929-cu ildən başlayaraq "Proletar Turizm Cəmiyyəti" keçmiş SSRİ-də turizm hərəkatının əsas mərkəzinə çevrilməyə başlamışdı. Onun müxtəlif şəhərlərdə, o cümlədən Bakıda şöbələri yaranmağa başlamışdı. "Proletar Turizm Cəmiyyəti"nin əsas vəzifələri - zəhmətkeşlər arasında özfəaliyyət turizminin inkişafı, turizmə geniş, mütəşəkkil ictimai hərəkat forması vermək, diyarşünaslıq elementlərinin turizmə tətbiq olunması və s. idi. Cəmiyyətin əsas məqsədi isə turizmi kütləvi hərəkata çevirmək, zəhmətkeşlərin müxtəlif təbəqələrini (əsasən az təminatlı) əhatə etmək, turizmdən onların siyasi və mədəni səviyyəsininin artmasında vasitə kimi istifadə etmək



17230

idi. 1922-ci ildə Bakıda ilk ekskursiya dərnəkləri yaradıldı. Ekskursiyalar əsasən Bakının zavod, fabrik və neft mədənlərində çalışan fəhlələrin digər istehsalat sahələri ilə tanış olmaq mahiyyəti daşıyırdı. Yay aylarında Xəzər sahilinə - Mərdəkan, Şüvəlan, Buzovna, Türkan, Zığ, Artyom adası (indiki Pirallahı) və Şıx zolağına istirahət məqsədli eksursiyalar təşkil olunurdu. 1927-ci ildə bu məzmunda 450 esksursiya gəzintisi keçirilmişdi. Həmin illərdə Azərbaycanda turizm-ekskursiya fəaliyyəti ilə Həmkarlar İttifaqları daha fəal məşğul olurdu. Azərbaycanda 1929-cu ildən PTEC-in ("Proletar Turizm və Ekskursiyalar Cəmiyyəti") bölməsi kimi fəaliyyət göstərən Azərbaycan PTEC 1935-ci ildən Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi nəzdində fəaliyyətə başladı. Bununla əlaqədar Azərbaycan SSR Xalq Komissarları Şurasının 11 may 1935-ci il tarixli 476 saylı qərarı ilə turizm-ekskursiya işini daha da yaxşılaşdırmaq məqsədilə bir sıra tədbirlər görüldü.

1930-1935-ci illərdə Hacıkənddə turist bazası, Göy-göldə istirahət mərkəzi, Kirovabadda (Gəncə) ekskursiya bürosu yaradılmışdı. Həmçinin Proletar Turizm və Ekskursiyalar Cəmiyyəti (PTEC) müxtəlif maraqlı səyahətlər təşkil etmək üçün keçmiş İttifaq daxilində 10-dan çox yeni marşrutlar hazırlamışdı. 1936-cı ildə PTEC ləğv edildikdən sonra, Azərbaycan Həmkarlar İttifaqı Şurasının nəzdində turizm-ekskursiya bürosu fəaliyyətə başladı. Əvvəlki dövrlərdən fərqli olaraq, turizm-ekskursiya sektoru mərkəzləşmiş formada, planlı maliyyə əsasında fəaliyyət göstərirdi. Turizm "menecerləri" əsasən qısa müddətli turlar təşkil edirdilər. 1938-1940-cı illərdə Bakı zəhmətkeşləri üçün Buzovnada turist düşərgəsində, Kirovabad (Gəncə), Hacıkənd, Çirakidzor (hazırda Göygöl) müəssisələrinin işçiləri üçün Hacıkənd və Göy-göl turist bazalarında bir günlük kütləvi turizm tədbirləri təşkil edilirdi.

İkinci dünya müharibəsi illərində bütün SSRİ-də olduğu kimi, Azərbaycanda da turizm-ekskursiya fəaliyyəti dondurulmuşdu.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

## 1.4.Müstəqillik dövrünə qədərki mərhələ (1950-1991)

Bu dövrdə turizmin maddi-texniki bazası genişlənir, yeni istirahət mərkəzləri, turist bazaları, uşaq istirahət düşərgələri istifadəyə verilir. 1950-ci il sentyabr ayında Bakıda turist bazası yaradıldı. O, vaxtlar bu baza Nizami adına istirahət parkında yerləşdirildi. 1957-ci ildə Mingəçevirdə və Hacıkənddə, 1958-ci ildə Zaqatalada, 1960-cı ildə Şuşada və Göygöldə turist bazaları yaradıldı. Xatırladırıq ki, Azərbaycan Turizm və ekskursiyalar İdarəsi 1962-ci ildən Turizm üzrə Azərbaycan Respublikası Şurası adlandırıldı. Respublikada turizm-ekskursiya fəaliyyəti genişləndikcə və onun müxtəlif formaları yarandıqca, onun maddi-texniki bazasında da yeniliklər baş vermişdi. İstirahətin səmərəli və maraqlı təşkilində yeni nəqliyyat xidmətləri formaları (turist qatarları, çay gəmiləri, Xəzərdə kabotaj gəmiçilik və s.) yarandı. Yay istirahətinin təşkili üçün 1962-ci ildə Nabranda Bakı turist bazasının filialı kimi 150 yerlik "Sputnik" turist çadır düşərgəsi, 1963-cü ildə Bakıda Turist Klubu, Nabranda "Xəzər" turist bazası, 1965-ci ildə Bakıda, iki ildən sonra Kirovabadda (Gəncədə), Sumqayıtda, 1969-cu ildə Naftalanda və Bakının Mərdəkan qəsəbəsində ekskursiya büroları yaradıldı. Bununla yanaşı, ölkədə turist və istirahət bazalarının sayı sürətlə artırdı. Belə ki. 1970-ci ildə Zaqatalada və 1972-ci ildə Şuşada turist bazalarının yeni binaları, 1975-ci ildə Qəbələdə "Qafqaz", Nabranda "Dostluq" (Xaçmaz rayonu) turist bazaları, Bakıda "Qarabağ" turist mehmanxanası istifadəyə verildi.

XX əsrin 60-cı illərindən sonra ölkədə kurort-sanatoriya xidmətləri də genişlənməyə başladı. Xüsusilə, 1970-ci illərdə Abşeronda (Mərdəkan, Buzovna, Şüvəlan, Pirşağı) müxtəlif sanatoriya müəssisələri istifadəyə verilir. 1960-1990-cı illərdə sanatoriya və pansionatlarda yerlərin sayı 6000-ə çatdırılmışdı. Bu müəssisələrdə digər respublikalardan gələnlər də nəzərə alınmaqla, ildə orta hesabla 250-300 min nəfərə xidmət



göstərilirdi.

Keçmiş İttifaqda olduğu kimi, Azərbaycanda kütləvi turizm əsasən sosial səciyyə daşıyırdı. Müxtəlif müəssisə və təşkilatlar məzuniyyət dövrlərində işçilərinə Həmkarlar İttifaqının xətti ilə güzəştli yollayışlar verirdilər. Azərbaycanda daxili turizm geniş inkişaf etsə də, xarici turizm Moskvada yerləşən "İnturist" təşkilatı tərəfindən istiqamətləndirilirdi.

Azərbaycandan xarici turizm marşrutlarının keçməsi bu sahənin inkişafına təkan verirdi. Həmin dövr üçün çox tanınan Daşkənd-Səmərqənd-Buxara-Krasnovodsk-Bakı-Tiflis-Təl-Əviv marşrutu hazırda bərpa olunan İpək Yolu turizm marşrutunun keçdiyi yolları əhatə edirdi. 1980-ci illərdə Azərbaycanda turizmin şöhrəti bütövlükdə keçmiş İttifaqa yayılır. Azərbaycan Respublikasında turizmin inkişafında 1983-cü il yadda qalan olmuşdur. Həmin vaxtlar Qara dəniz sahillərində ittifaq və beynəlxalq əhəmiyyətli turizm obyektlərinin çoxalması və sahil zonanın ekoloji cəhətdən yüklənməsi, hakim dairələri turist axınının Azərbaycanın Xəzər sahillərinə yönəldilməsi tədbirlərini həyata keçirməyə sövq edir. Bu məqsədlə SSRİ Nazirlər Sovetinin sədrinin I müavini işləmiş ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə "Xəzərin Azərbaycan sahillərində ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması" barədə qərar qəbul edilir. Bundan sonra, Azərbaycan Respublikası Nazirlər sovetinin 1984-cü il 2 oktyabr tarixli 381 saylı qərarına əsasən, Azərbaycan Respublikasında 2000-ci ilə qədər turizmin inkişaf sxemi qəbul olunur. Bu qərara uyğun qəbul olunmuş proqrama əsasən Xəzərin Azərbaycan sahillərində 21300 yerlik müxtəlif turizm obyektləri tikilib istifadəyə verilməli idi. Bunun da əsas hissəsini istirahət və turist bazalarının genişləndirilməsi təşkil edirdi.

Müstəqillik illərinədək Azərbaycanda turizmin inkişafının ən yüksək səviyyəsinin 1987-ci ildə olması qeyd edilir. Həmin ildə respublikaya xarici ölkələrdən 50, sabiq sovet

respublikalarından 250 minə yaxın turist gəlmişdi. Tranzit marşrutlarda isə 20 min nəfər iştirak etmişdi. Həmin il Azərbaycan vətəndaşlarının 10 min nəfəri xarici ölkələrdə, 300 min nəfərə yaxını isə SSRİ ərazisində turist səfərlərində olmuşlar. 1988-ci ildə başlanan Ermənistan-Azərbaycan münaqişəsi turizm təsərrüfatında idarəolunma sisteminin pozulmasına səbəb oldu. Azərbaycanda fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olundu. Dağlıq Qarabağda baş verən məlum hadisələr, keçid dövrünün çətinlikləri, iqtisadi-mədəni əlaqələrin qırılması turizm hərəkatına mənfi təsir etdi və bu sahə tənəzzülə uğradı.

## 1.5.Müstəqillikdən sonrakı mərhələ

Müstəqilliyin ilk illərində Ermənistanın Azərbaycana təcavüzü, iqtisadi-siyasi qeyri-sabitlik, Yuxarı Qarabağ və ətraf rayonlardan məcburi köçkünlərin kütləvi axını və onların istirahət və turist bazalarında, sanatoriyalarda, uşaq istirahət düşərgələrində yerləşdirilməsi bu sahəni tamamilə iflic vəziyyətinə saldı.

Müharibə və qeyri-sabitlik, iqtisadi böhran, bəzi turizm obyektlərinin (2 turist bazası, 2 sanatoriya) işğal altında olan ərazilərdə qalması və ümumiyyətlə, turizmin idarə edilməsində mərkəzləşdirilmiş sistemin dağılması turizm sənayesində tənəzzülə səbəb oldu. 1988-1992-ci illərdə, xüsusilə Bakı şəhər əhalisinin xarici ölkələrə "şopinq" və "kommersiya" məqsədli turların sayı artmışdır. Ölkədə yaradılan yeni turizm şirkətləri əsasən passiv turizmlə məşğul olmaqla, ölkə vətəndaşlarının xarici ölkələrə səfərlərini təşkil edirdilər. Statistik məlumatlara görə, 1991-ci ildə Azərbaycandan xarici ölkələrə əsasən kommersiya məqsədilə 230 mindən çox turist getmişdir. Ölkədə fəaliyyət göstərən 100-ə yaxın turizm şirkətinin və turizmlə məşğul olan müxtəlif büroların, agentliklərin demək olar ki, hamısı passiv turizmə daha çox meyl göstərirdi.



Ölkədə xarici turizmin dövlət tərəfindən tənzimlənməsi və bu sahədə olan fəaliyyəti əlaqələndirmək məqsədi ilə 1991-ci ildə Nazirlər Kabineti nəzdində Xarici Turizm Şurası yaradıldı. Yalnız 1990-cı illərin sonunda turizmin inkişaf tendensiyası ölkənin qanunverici aktlarında öz əksini tapdı. Bu şuranın səlahiyyətlərinə dövlətin turizm siyasətini həyata keçirmək, əlaqələndirmək, turizmlə məşğul olan şirkətlərə lisenziya verilməsi aid edilirdi. 1995-ci ildən sonra turizm sahəsində fəaliyyət göstərən müəssisələrin tədricən özəlləşdirilməsinə başlanmışdı. Əvvəlcə ölkədə fəaliyyət göstərən 6000 yerlik sanatoriya-profilaktika müəssisələri özəlləşdirildi və "Kurortlar" Səhmdar Cəmiyyətinə çevrilmişdir. Həmkarlar İttifaqı nəzdində fəaliyyət göstərən Turizm Səyahətlər və Ekskursiya Şurasına tabe olan turist bazaları təsərrüfat hesablı müəssisələrə çevrildi. Turizm sahəsində özəl sektorun payı artdı. Regionlarda mövcud olan mehmanxanalar, otellər özəlləşdirildi.

Respublikamızda 1990-cı illərin ortalarından ictimai-siyasi vəziyyətin sabitləşməsi, digər sahələrdə olduğu kimi turizm sahəsində də müəyyən nailiyyətlərin əldə olunmasına şərait yaratdı. Belə ki, respublikamızın turizm sahəsində və bu sektorun idarəetmə strukturunda yaranmış problemləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2001-ci il tarixli, 464 saylı fərmanı ilə Gənclər və İdman Nazirliyi Gənclər, İdman və Turizm Nazirliyinə çevrildi. Yeni nazirlik turizm sahəsində yaranmış vəziyyətdən çıxış yolları axtarmağa, Azərbaycanın ümumdünya turizm bazarına inteqrasiyası və beynəlxalq əməkdaşlığın inkişafı sahəsində fəal iş görməyə başladı. Gənclər, İdman və Turizm Nazirliyi yaradılandan sonra qarşıda duran əsas məqsədlərdən biri Ümumdünya Turizm Təşkilatına (ÜTT) üzv olmaq idi. 2001-ci ilin 25 sentyabrında Cənubi Koreya Respublikasının paytaxtı Seul şəhərində ÜTT-nın XIV Baş Assambleyasında bu məqsədə nail olundu. Azərbaycan Respublikası bu beynəlxalq turizm

təşkilatının üzvü oldu.

1995-2001-ci illərdə turizm sənayesi dövlətin iqtisadi siyasətinin əsas sahələrindən sayılmasa da, ölkədə bu sahədə yeni-yeni şirkətlər və turoperatorlar, istirahət mərkəzləri yaradılırdı. Xüsusilə, Bakı şəhərində iqtisadiyyatın canlanması yeni mehmanxanaların, istirahət obyektlərinin tikintisini sürətləndirdi. Bu dövrdə "Naxçıvan" mehmanxanası bərpa olunur, "Avropa" otel, Park İnn, Hyatt Regency, Park Hyatt, Radisson SAS və xarici qonaqlara xidmət göstərə bilən digər obyektlər istifadəyə verilir.

2001-ci ildə yaradılmış Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı (ATSİİ) respublikada turizm xidmətlərindən istifadə edənlərin hüquqlarının qorunması, normativ-hüquqi aktların nizamlanmasına yardım göstərilməsi, beynəlxalq turizm bazarında Azərbaycanın imicinin yüksəlməsi və digər məsələlərə xidmət edir.

Müasir dövrdə Azərbaycanda turizmin inkişafına dövlət tərəfindən xüsusi diqqət yetirilir. Belə ki, bu sahəyə dair qəbul olunmuş proqramlar buna əyani sübutdur. Respublika Prezidentinin 27 avqust 2002-ci il tarixli "2002-2005-ci illər üçün turizmin inkişafının Dövlət Proqramı", Azərbaycan kurortları" Dövlət Proqramı (fevral, 2007-ci il), "2010-2014-cü illər üçün turizmin inkişafının Dövlət Proqramı" (aprel, 2010-cu il), "Azərbaycan Respublikasının regionlarının 2009-2013-cü illərdə inkişafının Dövlət Proqramı", Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramını (fevral, 2009-cu il) təsdiq edən fərmanları bu sahənin inkişafını sürətləndirmişdir. Azərbaycanda turizm sahəsinin inkişaf etdirilməsi üçün turagent və turoperatorların fəaliyyəti vacib şərtlərdəndir. 2015-ci ilin məlumatına görə, Azərbaycanda Mədəniyyət və Turizm Nazirliyi tərəfindən lisenziya almış 277 turizm şirkəti vardır.

BMT-nin Asiya və Sakit Okean regionu üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) "Sosial-iqtisadi inkişafda



və yoxsulluğun azaldılmasında turizmin rolunun gücləndirilməsi" mövzusunda Bakıda keçirilmiş milli seminar bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda turizmlə bağlı problemlərə həsr edilmişdir.

Əgər müstəqilliyin ilk illərindəki Dövlət Proqramlarında diqqət iqtisadi obyektlərin yaradılmasına yönəldilmişdisə, sonrakı inkişaf proqramları sosial yönümlü tədbirlər planı kimi həyata keçirilirdi, bununla yanaşı hər il üçün yeni prioritet inkişaf istiqaməti müəyyən edilir və həmin istiqamət üzrə 2011-ci il "Turizm ili" kimi qeyd olunmuş və buna müvafiq tədbirlər həyata keçirilmişdir. Nəticədə turizm sahəsində pozitiv dəyişikliklər baş vermişdir. Məhz həmin ildə Bakıda bir neçə brend otel inşa edilmiş, turizmə həsr olunmuş regional, beynəlxalq konfranslar keçirilmişdir və s.

AR Mədəniyyət və Turizm Nazirliyi turizmi inkişaf etdirmək məqsədilə paytaxtda və əyalət şəhərlərində (Bakı, Gəncə, Şəki, Lənkəran, Şamaxı, Quba, Xaçmaz, Zaqatala, Naxçıvan) turizm informasiya mərkəzlərinin yaradılması sahəsində də mühüm işlər görmüşdür və bu fəaliyyət davam etdirilir.

## II FƏSİL. TURİZMDƏ TƏBİİ REKREASİYA AMİLLƏRİNİN ƏHƏMİYYƏTİ

### 2.1.Rekreasiya ehtiyatları, potensialı və turizm-rekreasiya sistemlərinin öyrənilməsi

Turizmə aid müasir elmi mənbələrdə "rekreasiya" və "rekreasiya" anlayışları çox işlədilir. Lakin bu anlayışların kateqoriyasının və nəzəri sərhəddinin müəyyən edilməsində dəqiq sədd qoyulmamışdır. Bunlardan təcrübədə istifadə sahəsində dəqiq məlumat yoxdur. Lakin o da məlumdur ki, hər iki anlayış bir-birilə sıx əlaqədardır. Xatırladırıq ki, rus coğrafiyaşünas alimi N.S.Mironenko yazır: "rekreasiya ehtiyatları – təbiətin obyekt və hadisələri, insan fəaliyyətinin nəticəsi olub, istirahət, turizm və müalicə məqsədilə istifadə olunur". O da məlumdur ki, rekreasiya ehtiyatları bir neçə xüsusiyyətə malikdir. Bu xüsusiyyətlər aşağıdakılardır:

- rekreasiya ehtiyatları tarixidir. Belə ki, rekreasiya tələbatının artmasından, texniki-iqtisadi və sosial imkanlardan asılı olaraq dəyişə bilər. Məsələn, bataqlıq, sənaye obyektləri, köhnə texnika və avadanlıq və s. rerkeasiya sərvətinə (turistlər üçün baxış obyektinə) çevrilə bilər;
- rekreasiya ehtiyatları ərazi tutumludur, yəni geniş ərazini əhatə edir. Sosial-iqtisadi hadisə kimi istirahət kənd təsərrüfatı və meşə təsərrüfatında istifadə olunan ərazilərə bərabər sahə tələb edir;
- bu və ya digər ixtisaslaşmaya malik xüsusi rekreasiya məntəqələri, rayonları və zonalarının formalaşmasına təsir edən təşkilatı rola malikdir.

Əsasən iki növ - təbii və tarixi-mədəni rekreasiya ehtiyatlarını ayırırlar.



Təbii rekreasiya ehtiyatları dedikdə, təbii ərazi kompleksləri, onların komponentləri və xüsusiyyətləri (landşaftın cəlbediciliyi, növbələşməsi və tarazlılığı, ekzotikliyi, nadirliyi, obyektlərin ölçüsü və forması, onların görünüş imkanı) başa düşülür.

Tarixi-mədəni abidələrə aid edilir:

- maddi - insanların dərketmə tələbatını təmin edən, cəmiyyətin qiymətli, maddi və istehsal vasitələri (tarix və mədəniyyət abidələri, təsərrüfat sahələri müəssisələri və s.);
- mənəvi - cəmiyyətin, dövlətin ictimai həyatında, elm, mədəniyyət, incəsənətdə nailiyyətləri.

Rekreasiya sərvətləri üçün sosial-mədəni məkan və zaman, nisbilik, insanı əhatə edən mühitin təzadlığı, müxtəlif təbii və mədəni mühitin uyğunluğu səciyyəvidir. İki mühüm meyara cavab verən hər hansı bir ərazi rekreasiya ehtiyatı sayıla bilər: insanı əhatə edən adi mühitdən fərqli yer və təbii cəhətdən iki və çox müxtəlif uyğunluğu olan yer. Müxtəlif mühitin qovuşduğu yer daha cəlbedici sayılır. Məsələn, su-quru, meşə-çöl, təpə-düzənlik və s. Ən mükəmməl nümunə daha çox cəlbedici olan təzadlı mühitin həmahəng təşkil etməsidir (dağlar -düzənliklər, müxtəlif mədəni mühit).

Ərazinin sosial-mədəni cəhətdən mənimsənilməsinə tələbat onun bu və ya digər xüsusiyyətlərinin məcmusunun rekreasiya ehtiyatlarına çevrilməsinin əsas səbəbi və amilidir. Rekreasiya ehtiyatları xeyli dərəcədə əhalinin rekreasiya tələbatından irəli gələrək "törəyir". Rekreant axını mənimsənilmiş regiona istiqamətlənir. Kütləvi səviyyədə belə fikir formalaşır ki, yalnız bu yerlərdə ən mühüm rekreasiya ehtiyatları cəmlənmişdir. Ərazinin mənimsənilməsi prosesi yüksək həddə çatanda, onun rekreasiya ehtiyatlarının əhəmiyyəti azalır. Ərazinin rekreasiya əhəmiyyəti heç vaxt tam inkar edilmir, lakin rekreasiya ehtiyatlarının ilkin yüksək qiymətinə və vəziyyətinə qayıtmaq da mümkün deyildir.

Ümumiyyətlə, resurs (fr. köməkçi vəsaitlər) - hər hansı prosesdə, hər hansı sahənin inkişafı üçün qərar qəbulu məqsədilə istifadə olunan zəruri məlumatlar, mövcud imkanlar, şərait və obyektlərdir. Menecmentdə ehtiyat dedikdə, müsbət nailiyyət qazanılmasında müəssisənin malik olduğu maliyyə, intellektual və maddi vəsaitlərin məcmusu başa düşülür (personal, işin texnoloji və təşkilati-idarəçilik səviyyəsi, informasiya, maliyyə, maddi-texniki baza və avadanlıq).

Turizm ehtiyatları təbii, sosial-mədəni, sağlamlıq resurslarının məcmusudur. Turizm ehtiyatları insanın istirahəti zamanı müxtəlif rekreasiya tələbatlarının öyrənilməsinə xidmət etməlidir.

"Turizm fəaliyyətinin əsasları haqqında" Qanunda göstərilir: Turizm ehtiyatları təbii, tarixi, sosial-mədəni obyektlərdir. Buraya turistlərə göstərmək üçün obyektlər, həmçinin turistlərin mənəvi tələbatını ödəyən, fiziki qüvvənin bərpası və inkişafına təsir edən obyektlər aid edilir.

Turizm ehtiyatları-turizm sahəsində istifadə üçün yararlı tarixi-mədəni, sosial-iqtisadi və təbii obyektlərin məcmusudur. Turizm ehtiyatları bilavasitə və vasitəli olmaqla iki qrupa ayrılır. Birinciyə turistlərin özləri tərəfindən istifadə edilən tarixi-mədəni və təbii ehtiyatlar (cəlbedici landşaft, müalicəvi xüsusiyyətlərə malik rekreasiya yeri, tarixi-mədəni diqqətəlayiq yerlər və s.) aid edilir. İkinciyə (sosial-iqtisadi ehtiyatlar) maddi-texniki baza, maliyyə vəsaiti, əmək ehtiyatları və s. aid edilir.

Turizm ehtiyatlarını digər təsnifata görə üç qrupa ayırırlar: kurortologiya, ümumi sağlamlıq və rekreasiya obyektləri, mədəni-mənəvi obyektlər. Turizm ehtiyatlarının tərkibinə təbiətin bu və ya digər elementinin daxil edilməsi meyarları onlardan istifadənin texniki mümkünlüyü və iqtisadi məqsədəuyğunluğuna, həmçinin onların öyrənilmə səviyyəsinə əsaslanır. Funksional cəhətdən turizm ehtiyatları sağlamlıq, dərketmə və idman növlərinə ayrılır.



Turizm ensiklopediyasında turizm ehtiyatları haqda deyilir: "Turizm ehtiyatları turizm təşkilatlarının daxili imkanları, ehtiyatları, aktivləri, həmçinin təbii və sosial şəraitilə, turistlərin müxtəlif tələbatını kompleks və ayrı-ayrılıqda təmin etməyə yarayan təbii, sağlamlıq, mədəni və digər ehtiyatların məcmusu ilə müəyyən edilən turməhsul istehsalının genişlənməsinə imkan yaradır".

Birjakov M.B. "Turizmə giriş" əsərində yazır: "Turizm ehtiyatları turizm məqsədilə insanların tələbatını ödəyən təbii-iqlim, sosial-mədəni, tarixi və memarlıq, arxeoloji, elmi və sənaye, mənzərə, dini və digər obyekt və hadisələrin məcmusudur".

Turizm ehtiyatları rekreasiya coğrafiyasında çoxdan işlədilən anlayışdır. Bunlara təbii və antropogen geosistemlər daxildir. Bu sistemlər rekreasiya fəaliyyəti üçün istehlak qiymətinə və komfort xüsusiyyətlərə malikdir, müəyyən insan kontingentinin texnologiya və mövcud maddi imkanları ilə müəyyən vaxtda istirahətin və sağlamlığın təşkilində istifadə oluna bilər. Bunların tərkib hissəsini rekreasiya ehtiyatları təşkil edir.

Turizm ehtiyatları sayca məhdud, keyfiyyətcə fərqlidir və şübhəsiz ki, iqtisadi rifah kimi əks olunur. İqtisadi planda turizm ehtiyatları turizm məhsulu istehsalı amili kimi çıxış edir, belə ki, onların differensasiyası təsərrüfat cəhətdən istifadədə müxtəliflik yaradır. Turizm ehtiyatları iqtisadi-coğrafi xarakter daşıdığına görə onun təsnifatında olan təbii elementlər iqtisadi nöqteyi-nəzərdən qiymətləndirilir. Bu ehtiyatların yerləşməsində ərazi amili əsas olduğuna görə mövcud ehtiyat potensialı, turist cəlbetmə imkanı və bölgələr üzrə yayılmasının da öyrənilməsi vacibdir. Turizm ehtiyatlarından istifadə müddəti aşağıdakı amillərdən asılıdır:

- turizm-rekreasiya ehtiyatlarının qiymətləndirilməsi və onların turistləri cəlb etmə imkanlarından;

- bəzi turizm ehtiyatlarının toxunulmazlığı və ərazi üzrə yayılma səviyyəsindən;
- turizm ehtiyatlarının kompakt yerləşməsindən, həmçinin müəyyən ərazi vahidi çərçivəsində miqdarından;
- turizm ehtiyatlarına olan tələbat və mövcud infrastrukturun inkişaf səviyyəsindən.

Turizm ehtiyatlarının uzunmüddətli istifadəsi onun yerləşdiyi ərazinin coğrafi xüsusiyyətlərindən asılıdır. Belə ki, turizm ehtiyatları müəyyən bir ərazidə kompakt şəkildə cəmlənirsə, bunlar rekreasiya təsərrüfatının inkişafı ilə yanaşı onun uzunmüddətli istifadəsinin də təmin olunmasına xidmət edir.

Ərazinin rekreasiya cəhətdən dinamikliyi, həmçinin ətraf mühitin antropogen təsirə az məruz qalması turizm ehtiyatlarından istifadənin səmərəliliyini artırır. Bununla yanaşı, turizm ehtiyatlarından istifadənin uzunmüddətliyi onun orijinallığından, yerləşdiyi ərazinin coğrafi mühitindən və ona yönəldilən kapitalla birbaşa əlaqəli olur.

Son dövrlərdə dünyanın turizm inkişaf etmiş ölkələrində turizm ehtiyatlarının öyrənilməsi sahəsində mühüm elmi-tədqiqat işləri aparılır. Bu, ilk növbədə rekreasiya ehtiyatlarından kompleks istifadə olunması, regional və beynəlxalq turizm əlaqələrinin həyata keçirilməsinə əsaslanır.

Turizm ehtiyatlarından kompleks istifadə *olunmasının* coğrafi cəhətdən tədqiqi daha çox aktuallıq kəsb etməyə başlamışdır. Bu sahədə aparılan tədqiqatlar kompleks iqtisadi-coğrafi problemləri üzə çıxarmaqla yanaşı, turizm strukturları arasında çoxsahəli funksiyaları ifadə edən mürəkkəb prosesləri əhatə edir. Buna görə də turizm ehtiyatlarının iqtisadi, sosial və coğrafi tədqiqinə aid elmi istiqamətlər yaranmışdır ki, həmin istiqamət və mənbələrdə onların təsnifatına dair geniş araşdırmalar aparılır.

Turizm-rekreasiya ehtiyatları təbii şəraitlə birbaşa bağlı olsa da, onların regional səviyyədə mənimsənilməsində və istifadə edilməsində iqtisadi səmərə mühüm əhəmiyyətə malikdir. Bu baxımdan, turizm-rekreasiya sistemlərinin formalaşmasında əhalinin demoqrafik göstəriciləri (milli-etnik xüsusiyyətləri, yaş tərkibi), rekreasiya ehtiyatlarına olan istehlak tələbi nəzərə alınır.



Regionun turizm-rekreasiya ehtiyatları dedikdə, turizm məqsədilə prosesdə insanların tələbatını ödəyə bilən, turizmin inkişafı üçün maddi və təşkilati-iqtisadi baza yaradan iqlim, sosial-mədəni, tarixi, arxeoloji, memarlıq, elmi-sənaye, əyləncə, dini və digər obyektlər başa düşülür.

Turizm-rekreasiya ehtiyatları turizmin idarə olunmasında birinci dərəcəli rol oynayır və regionda turizm biznesinin formalaşmasını müəyyən edir. Xüsusilə, bu ehtiyatlar turizm biznesinin səmərəli inkişafının əsasını təşkil edir.

Turizm-rekreasiya ehtiyatları regionda turizmin inkişaf xüsusiyyətlərini müəyyən edir, turizm məhsulunun istehsalında, regionun maliyyə siyasətinin üstün istiqamətlərinin planlaşdırılmasında əsas mənbə sayılır.

Qeyd edək ki, turizm təsərrüfatının formalaşması ilk növbədə ərazinin rekreasiya ehtiyatlarından kompleks istifadə edilməsi dərəcəsindən asılıdır. Turizm-rekreasiya ehtiyatlarından istifadənin mühüm metodoloji əsasları onların sosial, iqtisadi və coğrafi aspektləri Ümumdünya Turizm Konfransının (Manila,1980), "Turizm deklarasiyası"nın (Yaponiya,1994) sənədlərində göstərilmişdir. Bu sənədlərdə milli turizm biznesinin yaradılması, investisiya qoyuluşu, kadr siyasəti və s. məsələlər beynəlxalq turizm bazarının tələbinə uyğunlaşdırılmışdır. Ona görə də ümumi nəzəriyyəni və turizm biznesinin təşkili təcrübəsini özündə birləşdirən kompleks metodoloji istiqamətlərin müəyyənləşdirilməsi regional turizm-rekreasiya ehtiyatlarının əsas problemlərindən hesab edilə bilər.

Turizm ehtiyatlarının nəzəri və təcrübi əsaslarının öyrənilməsi onların təsnif olunmasını tələb edir və aşağıdakı xüsusiyyətlərini önə çıxarır. Turizm ehtiyatlarının təsnifat prinsipində aşağıdakılar əks olunur:

1.Ehtiyatın yayıldığı ərazinin coğrafi şəraiti;
2.Ehtiyatın turizm sənayesində istifadə olunması;
3.Ehtiyatdan istifadənin iqtisadi səmərəsinin müəyyən olunması.

*Rekreasiya potensialı.* Qeyd etdik ki, rekreasiya ehtiyatları tutuma malikdir, yəni, müəyyən miqdar rekreant qəbul etmək və təbii tarazlığı, ekoloji vəziyyəti pozmayan müəyyən antropogen yükə dözmək qabiliyyətinə malikdir. Təbii ehtiyatların tutumu ilə "rekreasiya potensialı" anlayışı sıx bağlıdır.

Rekreasiya potensialı - turistlərin mövcud rekreasiya ehtiyatları ilə müəyyən edilən faktiki və son dərəcə mümkün sayı arasında əlaqədir.

Qeyd etmək lazımdır ki, turizmdə ehtiyat anlayışı haqda ətraflı məlumat vardır. Lakin "turizm potensialı" haqda fikirlər çox müxtəlifdir. Ensiklopedik mənbələrdə "potensial" (latınca "qüvvə") haqda yazılmışdır:

- potensial - hər hansı məsələnin həlli, müəyyən məqsədə nail olmaq üçün istifadə oluna bilən imkanlar, mənbələrdir;
- potensial - müəyyən sahədə (məsələn, iqtisadi) ayrı-ayrı şəxslər, ictimaiyyət, dövlətin imkanlarıdır.

Son vaxtlaradək turizm sahəsində turizm potensialı nadir halda, rekreasiya potensialı isə daha çox işlədilirdi.

*"Təbii-ehtiyat potensialı"* - turizm sənayesində istifadə olunan və ya istifadə oluna bilən (onların inkişaf tendensiyası nəzərə alınmaqla) ehtiyatların məcmusudur. Ərazinin rekreasiya-ehtiyat potensialı müxtəlif rekreasiya fəaliyyətinin təşkili üçün konkret rayonda formalaşmış tarixi-mədəni və sosial-iqtisadi amillər nəzərə alınmaqla təbii imkanların məcmusudur.

Rekreasiya potensialını müəyyən miqdar rekreant qəbul etmək qabiliyyəti kimi müəyyən etmək olar ki, bu halda təbii və ekoloji tarazlıqda pozğunluq baş vermir. Bəzi müəlliflər göstərir ki, ərazinin rekreasiya potensialı rekreasiya fəaliyyətinin təşkili üçün təbii, tarixi-mədəni, sosial-iqtisadi imkanların məcmusudur, rekreasiya potensialının mühüm tərkib hissəsi isə rekreasiya ehtiyatlarıdır.



Turizm-rekreasiya ehtiyat sistemi coğrafi problemlərin formalaşması, idarə olunması və elmi əhəmiyyətinə görə bəşəri məzmuna malik olmaqla iqtisadi, sosial, ekoloji və digər elmi istiqamətləri əhatə edir. Bu problem üzrə dünyanın aparıcı elmi mərkəzlərində tədqiqatlar aparılır. Səmərəli tədqiqatlar ölkələrdə Milli turizm təsərrüfatlarının yaradılması, idarə olunması və inkişafı prosesində istifadə olunur.

*Rekreasiya sistemi.* Bu, mürəkkəb sosial idarəetmə sistemidir, əsasını turizm subyektləri təşkil edir və ona görə də elmi ədəbiyyatlarda son zamanlar turizm-rekreasiya sistemləri adlandırılır. Turizm- rekreasiya sistemləri yarımsistemlərin əlaqəsindən ibarətdir ki, bunlardan da biri və həm də ən mühümü təbii komplekslərdir.

*Təbii kompleks*- təbii obyekt və hadisələrin qarşılıqlı əlaqəsi olub, həm resurs, həm də insanların rekreasiya tələbatının ödənilməsi şəraiti kimi çıxış edir. Rekreasiya sistemləri təbiətlə əlaqədar olduğundan ətraf mühitin normal vəziyyəti, ehtiyatlarının qorunub təbii halda saxlanılması turizmin inkişafı üçün mühüm şərtdir. Turizm sektoru təbiətin qorunması, təbiətə antropogen təsirin tənzimlənməsi, ətraf mühitin mühafizəsində yeni texnologiyaların tətbiqində çox maraqlıdır.

Turizm- rekreasiya sistemlərində ətraf mühitin mühafizəsi ərazi rekreasiya sistemləri və ərazi rekreasiya kompleksinin səmərəli fəaliyyətini təşkil edir.

*Ərazi rekreasiya sistemləri* qarşılıqlı əlaqədə olan elementlərdən ibarət sosial-iqtisadi sistemdir. Buraya istirahət, təbii və tarixi-mədəni komplekslər, mühəndis tikililər və s. aid edilir.

*Ərazi rekreasiya kompleksi* istehsal və iqtisadi əlaqələrlə, həmçinin ərazinin coğrafi mövqeyi, təbii və iqtisadi ehtiyat-

larından birgə istifadədə sıx birləşmiş rekreasiya və onunla əlaqəli infrastruktur müəssisələrin məcmusudur.

Turizm- rekreasiya fəaliyyəti ərazi rekreasiya sistemləri və ərazi rekreasiya komplekslərinin ixtisaslaşmasına, strukturuna və s. təsir göstərir. Deməli, turizm- rekreasiya fəaliyyətinin inkişaf etdirilməsi bir tərəfdən təbii mühitə müəyyən dərəcədə neqativ təsir göstərirsə, digər tərəfdən, landşaftın cəlbediciliyinin və digər rekreasiya sərvətlərinin qorunması ətraf mühitin təbii halda saxlanılması üçün müvafiq işləri görməyi tələb edir.

Ərazi rekreasiya sistemlərinin daxil olduğu rekreasiya ərazilərinin mühafizəsi və yenidən bərpası dedikdə, təbii kompleksə olan yükün, yəni təsirin normasını müəyyən etmək nəzərdə tutulur. Yaşıl zonaların ayrılması, kurort meşələri zonasının müəyyənləşdirilməsi, meşəsalma tədbirləri, mineral suların və bulaqların mühafizəsi və s. belə normalardandır. Təbii rekreasiya komplekslərində təbii şəraitin özünü bərpa qabiliyyəti də kompleksə olan təsir normalarından asılıdır. Araşdırmalar göstərir ki, əhalinin sayının artması, maddi rifah halının yüksəlməsi istirahətə olan tələbatı da artırır. Bu isə öz növbəsində turizm- rekreasiya məqsədilə istifadə olunan ərazilərin genişlənməsinə zərurət yaradır. Bunun nəticəsində ciddi çətinliklər meydana çıxır. Ona görə də ərazinin turizm-rekreasiya məqsədilə istifadəsində intensiv istiqamətin seçilməsi daha çox məqsədəuyğundur, çünki, bu yolla turizm-rekreasiya sistemləri və turizm-rekreasiya komplekslərində struktur dəyişikliklər etmək olar.

Ərazi rekreasiya komplekslərinin formalaşması üçün həm düzənlik, həm də dağlıq meşələrə böyük qaygı ilə yanaşmaq lazımdır. Məlumdur ki, dağlıq relyef üstünlük təşkil edən ölkələrdə rekreasiya obyektlərinin çoxu dağətəyi və orta dağlıq ərazilərdə yerləşir. Belə rayonların taleyi hündür yamaclarda və ondan da yüksəkdə baş verən hadisələrdən çox asılıdır. Çünki bu rayonlarda mal-qaranın otarılması, torpaqların şumlanması, meşələrin qırılması landşaftın cəlbediciliyinin pozulmasına səbəb olur. Dağlıq ekosistemlər düzənlik ekosistemlərlə müqayisədə çox "kövrək" olur. Bu əraziləri bəzən 8-12 il dincə qoymaq lazım gəlir. Belə ərazilərdə turizm-rekreasiya fəaliyyəti mənfi təzahürlərə səbəb ola bilir. Onu da qeyd edək ki, dağlıq ərazilərdə təbii muhitin meşələrlə əlaqədar pozulması, xüsusilə bu prosesin miqyası, onun rekreasiya fəaliyyətinə təsiri və onun nəticələri kifayət qədər öyrənilməmişdir.

Turizm-rekreasiya sistemləri bir tərəfdən istirahətin təşkilində mühüm əhəmiyyət kəsb edirsə, digər tərəfdən ətraf mühitin çox yüklənməsinə səbəb olur. Bu isə ətraf mühitin mühafizəsi problemi məsələlərinin həllinə zərurət yaradır. Bu məsələlərin həllinə üç istiqamətdə yanaşmaq təklif olunur. təbiətin turizm məqsədləri üçün mühafizə olunması, təbiətin mühafizəsində turizmin rolunun qiymətləndirilməsi, turizmin mənfi təsirindən ətraf mühitin mühafizəsi. Belə kompleks yanaşma turizm-rekreasiya fəaliyyətində ətraf mühitə mənfi təsirin minimuma enməsinə səbəb ola bilər.

Ümumiyyətlə, rekreasiya ehtiyatları və potensialının mahiyyətini, xüsusiyyətlərini bilmədən onun öyrənilməsi, həmçinin qiymətləndirilməsi çətinləşir. Ona görə də rekreasiya ehtiyatlarının tərkibinə aid olan komponentlər ayrı-ayrılıqda öyrənilməlidir.

Azərbaycan alim və coğrafiyaşünasları M.A.Museyibov, Ə.C. Əyyubov, A.H. Salmanov, H.B.Soltanova, V.S.Dərgahov və başqaları turizm fəaliyyətində təbii ehtiyatların öyrənilməsinə daha çox diqqət yetirmişlər. Rekreasiya sərvətlərinin tibbi məqsədlər üçün qiymətləndirilməsi və istifadəsinə M.S. Qasımovun əsərlərində rast gəlinir.

## 2.1.1. Relyef

Relyefin təbii rekreasiya kimi əhəmiyyəti danılmazdır. Ərazinin səth quruluşunun komponentləri (dağlar, çökəkliklər və s.) turizmdə bu və ya digər dərəcədə cəlbediciliyi ilə qiymətləndirilir. Bu baxımdan, Azərbaycanın təbiəti zənginliyi və füsunkarlığı ilə seçilir. Ümumiyyətlə, Azərbaycan ərazisinin 2/3 hissəsini dağlar tutur. Hesablanmışdır ki, respublika ərazisinin 31 %-i 200-1000 metr, 19,5 %-i 1000-2000 metr, 6,5 %-i 2000-3000 metr yüksəkliklər arasında, 1%-i isə 3000 metrdən yüksəklikdə yerləşir (möhtəşəm və əzəmətli Böyük Qafqaz silsiləsi, Kiçik Qafqaz dağları, Talış dağları və b.).

Respublika ərazisinin 11%-ni meşələr əhatə edir. Bu meşələr əsasən dağlarda yayılmışdır. Böyük və Kiçik Qafqaz dağlarının yamacları 500-600 metrdən 1800-2000 metrədək meşələrlə, xüsusilə enliyarpaqlı meşələrlə örtülüdür. Bundan başqa meşə massivləri Talış dağlarının yamaclarında 500-1000 metrdən 1600-1800 metrədək yüksəkliklərdədir. Turizm məqsədləri üçün landşaftın cəlbediciliyinin qiymətləndirilməsi həm nəzəri, həm də təcrübi əhəmiyyətə malikdir. Təbii ərazilərin vizual keyfiyyəti və təbiətin elementlərinin insanın psixo-emosional vəziyyətinə təsirinin müəyyən edilməsi və qiymətləndirilməsi, istirahətin komfortluğu coğrafi elmlər sahəsində aparılan tədqiqatların yeni aspektlərini təşkil edir. İstehlakçı (subyekt) nöqteyi-nəzərindən vizual dərketmənin (qavramanın) əsas elementi hər hansı nöqtədən açılan görünüşdür (mənzərə).

Əksər tədqiqatçılar əsas problemi mənzərənin cəlbediciliyini təmin edən real xüsusiyyətlərini müəyyən etməyin mürəkkəbliyində görürlər. Mənzərə təbii ərazi kompleksi (TƏK) kimi eyni elementlərdən formalaşdığı üçün bu problemin həlli landşaftın komponentlərinin mənzərə əmələgətirmə xüsusiyyətlərinin müəyyənləşdirilməsindən asılıdır.



Məlumdur ki, landşaftşünaslıq baxımından mənzərə şaquli və üfüqi struktura malikdir. Üfüqi struktur elementləri təbii sərhədlərlə (mərz) bir-birindən fərqlənən təbii komplekslərin ranqıdır. Təbii sərhəd müəyyən məsafədə vəhdət kimi qəbul edilir. Ətraf mühitdən fərqlənən ayrı-ayrı sahələrin uyğun xüsusiyyətləri ərazinin məkanca müxtəlifliyini və ya "xarici görünüşün müxtəlifliyini" təmin edir. Bu göstəricilər "mənzərənin ümumi təsirliliyi" kimi səciyyələnir və ərazinin landşaftının strukturunda xüsusi formada qarışıqlıq (mozaik), kiçik konturluq, tipoloji müxtəliflik və s. yaranır.

Mənzərənin strukturunun şaquli elementləri dedikdə, geosistemin komponentlərinin yerli təzahürü başa düşülür. Bunlar təbii komplekslər çərçivəsində qəbul edilir və "daxili mənzərə müxtəlifliyi" yaradır. Bu baxımdan mənzərənin formalaşmasında relyef və bitki örtüyü daha çox əhəmiyyətlidir. Həm də bu relyef mənzərənin bütün görünüşünü müəyyən edən mühüm komponentdir. Su obyektlərinin lokal (yerli) yayılması nadir sayılır və mənzərənin estetik xüsusiyyətlərini birmənalı olaraq yüksəldir.

Beləliklə, mənzərənin estetik əhəmiyyətinin qiymətləndirilməsində nəzərə alınan göstəricilər ümumi formada ərazinin landşaft strukturunun bütövlükdə səciyyəsini təkrar edir.

Ənənəvi olaraq, mənzərə komponentləri və onların uyğun xüsusiyyətləri qiymətləndirilir. Mənzərənin qiymətləndirilməsi parametrləri müxtəlif müəlliflər tərəfindən aparılsa da, bunlar ümumi halda aşağıdakılardır:

1. Relyefin qiymətləndirilməsində ən çox üfüqi və şaquli parçalanma dərəcəsini müəyyən edən xüsusiyyətlərə böyük əhəmiyyət verilir. Bu nisbi hündürlük, dərinlik, erozion parçalanmanın sıxlığıdır. Müstəqil mənzərə əmələgətirmə əhəmiyyətindən başqa, bu amillər xarici mənzərə müxtəlifliyi dərəcəsini-mənzərənin horizontal strukturu xüsusiyyətlərini formalaşdırır. Relyefin şaquli parçalanmasını təbii komplekslərin yüksəklik müxtəlifliyi müəyyən edir: mənzərə görünüşü-

nün olub- olmaması, geniş perspektivliyi və s. Relyefin horizontal parçalanması əyilmə xətləri və nöqtələri və s. ilə bağlıdır. Həm şaquli, həm də üfüqi parçalanma ərazidə təzadlılığı səciyyələndirir və mənzərənin dinamik obrazını yaradır. Parçalanmanın artması bütövlükdə yer səthinin cəlbediciliyini yüksəldir.

Ərazinin xarici görünüşünün formalaşmasında geomorfoloji elementlərin müxtəlifliyi də mühüm rol oynayır. Bu elementlər relyefin ekzotik və nadir formalarını yaradır. Bunlar arasında nival və parlaq formalar, alp tipli yüksəkliklər, dərələrdə müxtəlif formalar daha çox cəlbedici olur. Bunlardan başqa, mağaralar da sərbəst rekreasiya ehtiyatı olub, təbii obyeklər kimi cəlbedicidir.

2.Bitki örtüyünün estetik keyfiyyət göstəricilərini qiymətləndirən bütün göstəricilərə onların cins tərkibinin müəyyən edilməsi, mərtəbənin ayrılması və s. aid edilir. Müəyyən edilmişdir ki, daha çox cəlbedici yetkin qarışıq meşələr (üç illik) nadir sayılır.

3.Su obyektləri cəlbedici effekti ifadə edir və şübhəsiz ki, mənzərədə mühüm mövqe tutur. Sahəvi (göl, dəniz) və xətti (çay) su obyektləri ayrılır. Sahəvi su obyektləri ərazinin mənzərə görünüşünün formalaşmasında özünün qeyri-adiliyi və nadirliyinə görə daha çox əhəmiyyətlidir. Göllərin qiymətləndirilməsində onların "miqyasına", yəni sahəsinin böyüklüyü, həm də suyunun şəffaflığı ərazinin cəlbedicilik səviyyəsinə görə müqayisəsinə əsaslanır. Təbiətin gözəlliyi təbiidir, hər kəsin zövqündən asılı olmayaraq, şübhəsiz, müxtəlif subyektlərdə eyni hissləri yaratmağa qadirdir. Ona görə də estetikliyə bu və ya digər ərazinin emosional cəlbedicilik dərəcəsi kimi baxılır.

Müasir dövrdə ərazinin cəlbediciliyinin qiymətləndirilməsi üç istiqamətdə aparılır. Klassik üsul kimi landşaftın estetik xüsusiyyətlərinin keyfiyyət göstəricisinin qiymətləndirilməsi metodikası sayılır. Bu qiymətləndirmə sistemi onu



təsdiq edir ki, təbii komplekslərin estetik səciyyəsini miqdar göstəricilərinə görə müəyyən etmək mümkün deyildir.

Dağlıq rayonlarda göllərə ənənəvi olaraq cəlbedici təbii obyekt kimi baxılır. Xətti obyektlərin qiymətləndirilməsində yatağın profili, axımın sürəti, meyillilik, şəlalələr, aşırım və s. nəzərə alınır. Su obyeklərinin mənzərənin digər komponentləri ilə həmahəng xüsusiyyətlərini xarakterizə edən göstəricilərin əhəmiyyəti danılmazdır. Ərazi və akvatoriyaların uyğunluğu ətraf zonalar adlanan müxtəlif vasitələrin sərhəddini formalaşdırır.

4.Atmosfer hadisələri bir qayda olaraq, qiymətləndirilmədə nəzərə alınmır. Çünki, bu komponentləri proqnozlaşdırmaq çətindir və qısa müddətlidir. Buna baxmayaraq, atmosfer hadisələri çox vaxt qavrama (dərketmə) mühitini formalaşdırır.

Landşaftın qeyri-estetikliyinin (adiliyinin) qiymətləndirilməsində metodiki əsasları işlənilmişdir. Müasir dövrdə landşaftın estetik xüsusiyyətinə mütləq qiymət vermək əsas məsələ deyil. Qiymət, bir qayda olaraq, tətbiqi istiqamətlidir (istirahət üçün) və təbii ərazilərin cəlbediciliyinə görə müqayisəsinə əsaslanır.

Qiymətləndirmədə sosioloji sorğudan da istifadə edilir, bu daha obyektiv və etibarlı üsuldur. Bu sorğu müxtəlif kateqoriyadan olan rekreantlar arasında aparılır. Landşaftın cəlbediciliyi göstəricilərinin müəyyən edilməsi üsulunun obyektivliyi mübahisəlidir, çünki, sorğunun tərtibi ilə mütəxəssislər məşğul olur. Bu üsulun realizə olunmasında problem isə onun əmək tutumlu olması və böyük maliyyə xərclərinin tələb olunmasıdır.

Ekspert qiymətləndirmə üsullarının işlənilməsi və təkmilləşdirilməsi hazırda daha çox aktual istiqamətdir. Qiymətləndirmədə daha obyektiv meyarlar axtarılır. Bu məqsədlə mənzərənin az və ya çox cəlbedici olduğunu fərdi zövq əsasında deyil, obyektivliyə görə təsnifatlaşdırmaq olar.

Təbii komplekslərin estetikliyinin qiymətləndirilməsinə sistemli yanaşma xüsusilə önəmlidir. Bu məqsədlə aşağıda göstərilən prinsiplər mühüm sayılır:

- bütün təbii komplekslər estetikdir və qiymətləndirilə bilər;
- bütün landşaftlara aid universal göstəricilərə baxılır;
- landşaftın estetikliyinin səciyyəsində təkcə onun"xarici" deyil, həmçinin daxili struktur xüsusiyyətlərinə də baxılır;
- ayrı-ayrı komponentlərin əhəmiyyəti müəyyən mənada onların əlaqəsi ilə müəyyən edilir, ona görə təcrübədə hər bir göstərici fərdi qiymətləndirilir, sonra bütün fərdi göstəricilərin ümumiləşdirilməsi əsasında ümumi qiymətləndirmə aparılır;
- qiymətləndirmədə alınan balların cəmi qiymətləndirmənin son məqsədini deyil, keyfiyyət ölçüsünü bildirir.

Estetikliyin qiymətləndirilməsi üsulunun işlənilməsi və tədbiq edilməsində çətinliklərlə qarşılaşmaq da olur. Landşaftın estetik qiymətləndirilməsi həmin ərazidə təbiətdən istifadənin müxtəlif formaları üçün, xüsusilə turizm fəaliyyətinin genişləndirilməsində böyük əhəmiyyət kəsb edir. Kənd turizm fəaliyyətinin səmərəli təşkilində təbii ərazi komplekslərinin estetikliyinin, cəlbediciliyinin əhəmiyyəti insanlar tərəfindən onun necə qavranılmasından çox asılıdır.

### 2.1.3. İqlim

Mütəxəssislər rekreasiya məqsədilə iqlimin tibbi-bioloji cəhətdən qiymətləndirilməsində ilk növbədə iqlimin insan orqanizminə təsirini, yəni komfortluğunu nəzərə almağı zəruri hesab edirlər.

Məlumdur ki, iqlim hər hansı yer üçün havanın çoxillik rejimidir. Onun insan orqanizminə təsiri meteoroloji şəraitin kompleks qarşılıqlı əlaqəsi kimi başa düşülən konkret hava vasitəsilə baş verir. Troposferin aşağı təbəqəsində müəyyən ərazi və müəyyən vaxt ərzində dəyişikliklərə insanlar, xüsusilə meteohəssas olanlar daha tez reaksiya verir. Hava şəraitinin



insan orqanizminə təsiri kompleks qiymətləndirilərkən effektiv temperaturdan istifadə edilir.

Temperatur və rütubətin təsirini səciyyələndirən kompleks göstərici effektiv(şərti) temperatur; temperatur, rütubət və küləyin sürəti effektiv-ekvivalent temperatur (EET); temperatur, rütubət, küləyin sürəti və günəş radiasiyası radiasiya-ekvivalent temperatur adlanır.

Komfort iqlim və komfort zonası effektiv temperaturla bağlıdır. Coğrafi enlikdən asılı olaraq komfort zonası qanunauyğun halda dəyişir. Bir qayda olaraq bir çox insanlar üçün bu 17-23°C arasında, fəal rekreantlar üçün isə 12-16°C EET arasında təşkil edir.

İqlim ehtiyatlarının tibbi-bioloji cəhətdən qiymətləndirilməsində kompleks meteoroloji şəraitin insan orqanizminə təsirinin öyrənilməsi də xüsusi əhəmiyyət kəsb edir.

Havanı müxtəlifliyinə görə siniflərə ayırırlar. Bunlar şaxtasız, keçid temperaturlu hava və şaxtalı havalardır. Havanın kəskin dəyişməsinə görə çox davamlı (25%-dək) davamlı (25-34%), dəyişkən (35-50%), çox dəyişkən (50%-dən çox) hava rejimi ayrılır. Meteoroloji elementlərin dəyişməsilə orqanizmdə gedən istilik mübadiləsi dəyişir. İnsan fəaliyyətində onun ətraf mühitdən qəbul etdiyi və ona qaytardığı hərarətin nisbətindən asılı olaraq müəyyən dəyişikliklər baş verir.

Komfort vəziyyət o vaxt yaranır ki, daha xoş isti hiss olunur. Belə halda insan nə çox isti, nə soyuq hiss etmir. Yüksək temperatur şəraitində qan damarlarının genişlənməsi insanın ümumi əhvalını korlayır, aşağı temperaturda əksinə, qan damarları daralır, bunun özü də əhval-ruhiyyəyə mənfi təsir göstərir. Yer kürəsində sabit və isti, soyuq qurşaqlar olsa da, kurort-rekreasiya istirahətinin təşkili orta qurşaqda daha əlverişlidir.

Mütəxəssislər 9 hava tipini 5 kateqoriyaya ayırırlar: komfort, isti diskomfort, isti subkomfort, sərin subkomfort,

soyuq diskomfort. İnsan orqanizminin komfort vəziyyəti dərinin temperatutu 31-33° olduqda yaranır və normal havaya uyğun gəlir. Daha çox isti və soyuq havada dərinin temperaturu yüksəlir və ya azalır, istilik tənzimi norması artır. İsti və soyuq hava tiplərində insan orqanizminə havanın əlverişsiz təsiri artır. Komfort havalarda yay istirahəti və turizmin bütün imkanları mümkündür. Subkomfort havalarda rekreasiya və kurort-turizm fəaliyyəti məhdudiyyətlərlə həyata keçirilə bilər. Diskomfort havalar rekreasiya fəaliyyətinin yay formalarının keçirilməsi imkanlarını qeyri mümkün edir. Komfort və subkomfort havalar ümumi halda qəbul edilir. Belə havalar yay istirahəti və mövsümi turizm üçün əlverişl-idir.

Respublikamızın müxtəlif rayonlarında aparılan tədqiqatlar göstərir ki, mülayim isti və rütubətin həddi, yəni komfort zonasının sərhəddi haqqında vahid fikir yoxdur. Məsələn, şimal rayonlarının sakinləri mülayim rütubətli və küləksiz havada 14-15°C temperaturda özlərini komfort şəraitdə hiss edirlər. Eyni meteoroloji şəraitdə orta en dairələrində yaşayanlar sərin, cənublular isə bir qədər soyuq hiss edirlər.

Deməli, komfort zonası coğrafi enliklərdən, yaşayış məntəqəsinin hündürlüyündən, insanın həyat tərzindən, yaşından, orqanizmin isti və soyuğa davamlılığından və s. asılıdır. Komfort zonası müəyyən edilərkən EET-un orqanizmə təsiri nəzərə alınmalıdır. Azərbaycan ərazisində komfort zonası nəinki fəsillər, hətta gün ərzində saatlardan asılı olaraq dəyişir.

Azərbaycanın iqlim xüsusiyyətləri bütün il boyu - yay və qış mövsümündə turizm ehtiyatlarından istifadə etməyə imkan verir. Turizmin inkişafı üçün radiasiya və istilik balansı, havanın temperaturu, qar örtüyü və s. böyük əhəmiyyətə malikdir. Azərbaycanın xeyli hissəsində mülayim iqlim hakimdir. Bu iqlim ehtiyatları turizmin inkişafında, xüsusilə sağlamlıq və müalicə istiqamətində istifadəyə imkan yaradır.



Bəzi tədqiqatlarda Azərbaycanın kurortlarını (İlisu, Şuşa, Hacıkənd və s.) dünyanın məşhur kurortları - Nalçik, Kislovodsk, Karlovi-Vari ilə müqayisə edir və onlara bərabər tuturlar.

Dağlıq və dağətəyi rayonlarda (Şamaxı, Şəki, Zaqatala, Goranboy) komfort iqlim ehtiyatlarından kurort istirahət məqsədləri üçün daha çox istifadə etmək zəruri hesab oluna bilər. Düzənlik ərazilərdə komfort şərait aprel, may və qismən iyunda gündüzlər, iyul-sentyabr aylarında səhər, axşam və gecələr olur. Azərbaycanın Xəzər sahilləri gözəl qumlu çimərliklərə malikdir. Sahil şimaldan cənuba 825 km məsafədə uzanır. Bu sahilləri yay aylarında günəş şüaları sutkada 14 saat işıqlandırır və qızdırır. Bu isə kurort turizmi üçün çox yararlıdır. Çimərlik mövsümü bu sahillərdə 100-120 gün davam edir. Yay mövsümlərində dəniz sahillərində suyun temperaturu 23-25°C olur.

Dağlıq ərazilərdə alçaq dağlıq (400-1000 m), orta dağlıq (1000-2000 m), yüksək dağlıq (2000 m-dən yuxarı) zonalarda komfort şərait olur. Yüksək dağlıq zonada komfort şərait iyul-avqust aylarında gündüzlər olur. Lakin yüksəklik qurşaqlarından asılı olaraq dağlıq, orta dağlıq və yüksək dağlıq zonalarda kurort istirahət turizminin təşkili ürəkaçan səviyyədə deyildir. Böyük Qafqaz, Talış zonalarında dağ iqlim kurortlarından istifadə olunsa da, Kiçik Qafqazın Şuşa-Gədəbəy zonasında komfort iqlim amilinə əsaslanan kurortların müasir vəziyyəti onların erməni işğalı altında olduğundan məlum deyildir.

Respublikamızın iqlim ehtiyatları, onların komfortluluq səviyyəsi müəyyən dərəcədə öyrənilmişdir, lakin həm düzənlik, həm də dağlıq zonalarda iqlimin kurort-istirahət turizmində imkanlarının daha da dərindən öyrənilməsinə ehtiyac vardır.

İqlim komfortluğuna təsir edən amillərdən biri də ərazinin rütubətlənmə dərəcəsidir. İnsanların həyat fəaliyyəti

üçün normal rütubətlənmə 50-60% təşkil edir. Bu rütubətlənmə göstəricilərinin təkrar olunması isə turizm və istirahət baxımından daha çox mənimsənilən ərazilərdə özünü göstərir. Belə ki, Xəzər sahillərində qeyd olunan rütubətlənmə mövsüm dövründə coğrafi mövqeyindən asılı olaraq 50-70%, Qara dənizin Bolqarıstan və Ukrayna sahillərində 65%, Aralıq dənizi sahillərində 60%-ə qədərdir.

Yuxarıda qeyd olunanlarla yanaşı iqlimin komfortluğunda yay və qış turizm mövsümləri də ayrılır. Yay mövsümü üçün əsas göstəricilər kütləvi istirahətin təşkili ilə yanaşı, çimərliklərdən istifadə müddəti, iqlimlə müalicə imkanları nəzərə alınır. Bu baxımdan yay istirahət mövsümü üçün müəyyənləşdirilən iqlim komfortluğunun əsas göstəricilərinə aşağıdakılar aiddir:

- orta aylıq temperatur 18-23° C, orta sutkalıq temperatur 20° C, sutkalıq amplituda 12-15° C-dən çox olmaması;
-rütubətlənmə göstəriciləri 40-60%, o cümlədən, dumanlı və rütubətli havaların təkrarlanmasının mövsüm dövründə 20-30%-dən cox olmaması;
- küləyin sürətinin 3-5 m/san.-ə çatması, 5 m/san-dən çox olan soyuq küləklərin təkrarlanmasının 20%-dən cox olmaması;
- çimərliklərdə dəniz suyunun temperaturunun 20-24°C təşkil etməsi və 17°C-dən az olan temperaturun olmaması.

Qış turizm mövsümü idman tədbirləri və xizəklə gəzinti ilə bağlıdır. Burada qış turizmi üçün müəyyən edilən iqlim göstəriciləri aşağıdakı kimi dəyişir:

- qış mövsümündə qarın qalınlığının 30 sm-dən az olmaması;
- orta aylıq temperaturun -5-15°C-dək dəyişməsi və bu temperaturun mövsüm dövrünün 50%-dən çoxunu əhatə etməsi;
- güclü soyuq küləklərin təkrarlanmasının azlığı, soyuq küləklərin sürətinin 10-15 m/san-dən az olması.

Deməli, komfort zonasını müəyyən edərkən EET-un orqanizmə təsiri nəzərə alınmalıdır.



### 2.1.4. Hidroqrafiya

Azərbaycan daxili sularla zəngindir. Lakin yerüstü (çaylar, göllər, kanallar, su anbarları və s.) və yeraltı sularla təminat səviyyəsinə görə regional fərqlər mövcuddur. Respublikamızda 250-dək göl vardır. Bu göllər düzənliklərdə və yüksək dağlıq qurşaqlarda yerləşir. Əsasən Abşeron yarımadası, Kür boyu zolağı, Kiçik Qafqazın yüksək, qismən də ortadağlıq qurşaqları və Böyük Qafqaz dağlarındadır. Azərbaycanda rekreasiya əhəmiyyətli göl azdır və bu göllər kiçikdir. Lakin Kiçik Qafqaz dağlarında ayrı-ayrı göllər gözəlliyinə görə nəinki Avropanın, həm də dünyanın füsünkar göllərindən sayılır. Bunlar Göy-göl, Maralgöl, Zəligöl və digərləridir. Hacıkənddə istirahət edənlər üçün Göy-göl sahilinə ekskursiya (gəzinti) təşkil edilməsi şübhəsiz ki, çox maraq doğurur.

Respublikada Mingəçevir su anbarından da idman məqsədilə və turizmdə istifadə olunur. Xatırladırıq ki, 2015-ci il iyun ayında Bakıda keçirilən I Avropa idman oyunlarında avarçəkmə üzrə yarışlar Mingəçevir su anbarında təşkil edilmişdi. Burada avarçəkmə, balıqçılıq turistlər üçün bir növ əyləncə kimi geniş miqyasda təşkil oluna bilər.

Respublikada çaylar çoxdur və onların əksəriyyəti dağ çaylarıdır. Çox da uzun olmayan bu çayların bir neçəsi dağlıq relyeflə əlaqədar gözəl şəlalələr əmələ gətirir ki, bu da ərazidə xüsusi mənzərə yaradır (məs., İlisu, Katex, Afurca və b.).

Dağ çaylarının bəzilərində turizmin ekstremal növünü təşkil etmək olar. Lakin respublikada ekstremal turizmə maraq demək olar ki, çox zəifdir. Bunun da səbəbi var. Ekstremal turizm üçün təkcə təbii obyektin olması kifayət deyildir. Bunun üçün müvafiq təchizatın, avadanlıqların, xüsusi hazırlıqlı peşəkar təlimatçıların olması da vacibdir. Nəzərə alsaq ki, kəndlərdə istirahəti seçənlər adətən ailə ilə səfərə çıxırlar, deməli, onlar arasında müxtəlif yaş qrupundan olanlar vardır. Gənclər isə adətən macəra axtardığından onları təbiətin

yaratdığı möcüzəli turizm obyektlərində əylənməyə sövq etmək olar.

Respublikada ən iri çay olan Kür və onun qolu Araz su rekreasiya turizminin inkişafı üçün perspektivlidir.

Turizmin inkişafında təbii-coğrafi amil kimi mineral mənbələr mühüm rol oynayır. Respublikada sutkalıq debiti 1,2-1,5 mln. litr olan 1500-dən çox 200 qrupda mineral termal və mineral su mənbələri vardır. Bunlardan çoxu təkcə yerli deyil, həm də beynəlxalq əhəmiyyətə malikdir. Mineral sular əsasən Naxçıvan MR, Gədəbəy, Kəlbəcər, Şuşa, Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran, Astara, Masallı bölgələrində yayılmışdır. Termal sular isə Lənkəran, Astara, Masallı rayonlarında və Abşeronda yayılmışdır.

Təbii turizm-rekreasiya ehtiyatları kimi mineral su mənbələrinin əhəmiyyəti böyükdür. Mineral və termal sular müalicəvi xüsusiyyəti, kimyəvi tərkibinə və süfrə suyu kimi istifadə olunmasına görə qruplaşdırılır. Mineral sular qruplara bölünərkən onların müalicəvi xüsusiyyətləri ilə yanaşı süfrə suyu kimi istifadə olunması da nəzərə alınır. Naxçıvanda Sirab, Badamlı, Vayxır, Qaxda eyni adlı su, Gədəbəydə Slavyanka mineral suları süfrə suyu kimi qablaşdırılır. Bu baxımdan mineral sulardan hidrokarbonatlı və xlor tərkibi olan karbonlu suların süfrə suyu kimi istifadə olunması geniş yayılmışdır. Mineral və termal sular kimyəvi tərkibinə, müalicəvi xüsusiyyətlərinə görə qruplara bölunur:

1. Karbonatlı və hidrokarbonatlı, tərkibində ayrıca karbon qazları olan mineral sular. Bu sularda minerallaşma dərəcəsi yüksəkdir. Temperaturu 10-30°C-yə çatır. Alp dağları, Karpatın qərb ətəkləri, Bolqarıstan, Rumıniya ərazisində, Türkiyənin Zonquldağ bölgəsində daha çox yayılmışdır.

2. Sulfidli və hidrogensulfidli termal sular. Bu tipli termal sular Rusiyanın Şimali Qafqaz bölgəsində, Krımda, Balkan yarımadasında daha çoxdur. Bu sularda temperatur 16-25°C-dən, yüksək olur (bəzi sularda 80°C-yə çatır). Termal suların əsas müalicəvi xüsusiyyətlərinə dəri, dayaq-hərəkət orqanları, əsəb xəstəliklərinin müalicəsi daxildir. Hidrogensulfidli sulardan müxtəlif dərmanların hazırlanmasında da istifadə olunur. Bu mineral-termal sular Fransa, B. Britaniya, Şimali Qafqaz, Ukrayna, Azərbaycanda isə Abşeron, Lənkəran bölgəsində yayılmışdır.

3. Yodlu-bromlu termal sular. Bu suların yayılması əsasən neftli-qazlı ərazilər üçün səciyyəvidir. Bu növ termal suların ümumi debiti 8 mln. l/sutkaya qədər qiymətləndirilir. Yayıldığı əsas ərazilərə ABŞ-ın Meksika sahili, Şimali Afrika ölkələri, İtaliya, həmçinin Azərbaycanı da aid etmək olar. Bu termal sulardan istifadə müalicəvi xarakterinə görə digərləri ilə müqayisədə azlıq təşkil edir. Bunun da səbəbi bu termal sularda digər qarışıqların çox olmasıdır.

4. Xloridli və ayrıca tərkibində karbon qazının üstünlük təşkil etdiyi sular. Bu sular minerallaşma dərəcəsinin yüksək olmasına görə digər sulardan üstündür. Bu suların bəzilərinin tərkibində hidrogen, kalsium, karbon qazının üstün olması müalicə əhəmiyyəti ilə yanaşı süfrə suyu kimi istifadə olunmasına şərait yaradır. Qeyd olunan mineral suların tərkibində maqnezium və kalsium tərkibli kimyəvi birləşmələrin cox olması onların müalicəvi xüsusiyyətlərini artırır. Yayıldığı əsas ərazilərə Rusiyanın Şimali Qafqaz bölgəsi, Türkiyə, Ukraynanın Karpat hissəsi, Çexiya, Slovakiya, Fransa, İtaliya və s. qeyd etmək olar. Azərbaycanda bu mineral sular Kiçik Qafqaz və Naxçıvanda daha çox yayılmışdır.

Mineral və termal sular turizm ehtiyatı baxımından qiymətləndirilərkən nəzərə alınan əsas amillərə onun debiti, müalicəvi xüsusiyyətləri və digər təbii komplekslərlə birgə istifadə imkanları daxildir. Mineral suların ümumi sutkalıq debiti min litrdən çox olarsa, istifadə üçün yararlı sayılır. Mineral və termal suların ətrafında digər turizm ehtiyatları mövcuddursa, onların kurort-turizm baxımından mənimsənilməsi daha çox səmərəli sayılır.

Azərbaycanda əhəmiyyətli müalicə palçığı, alternativi olmayan naftalan nefti kimi rekreasiya sərvətləri də vardır.

## 2.1.5.Flora və fauna

Azərbaycanın flora və fauna aləmi keçid xarakterdədir. Bu, özündə Şimali Avropa, Aralıq dənizi sahili, Orta Şərq və Mərkəzi Asiyanın fauna və flora elementlərini əks etdirir. Azərbaycanın flora aləmində Qafqaz və digər ölkələrdə yayılmış 4000 növdən artıq bitki yayılmışdır ki, bunların əksəriyyəti endemik növlərdir və yalnız respublikamızda rast gəlinir. Dünyada yalnız bir yerdə, Elyaroğlu dağlarında Eldar çölündə vəhşi relikt eldar şamı, Lənkəranda Talış dağlarında dəmir ağacı, Kür çayının aşağı axarında Xəzər şanagülləsi, süsən və s. bitir.

Azərbaycanın "Qırmızı kitabı"na 140 bitki növü daxil edilmişdir ki, bunlardan da 49-u ağac və kollardır. Bitki aləminin əsasını təşkil edən meşələrin ümumi sahəsi 989,4 min hektardır və respublika ərazisinin 11,0%-ni təşkil edir. Meşələr ölkə ərazisi üzrə qeyri-bərabər paylanmışdır. Respublika meşələrinin 49%-i Böyük Qafqazın, 34%-i Kiçik Qafqazın, 15%-i Talış dağlarının, 2%-i isə Kür-Araz ovalığı ilə birlikdə Naxçıvan MR-nın payına düşür. Azərbaycanda adambaşına 0,12 ha meşə sahəsi düşür. Azərbaycan torpaqları zəngin və rəngarəng floraya malik olsa da, meşəlik baxımından "kasıb" region sayılır. Respublikanın mərkəzində sipər rolunu oynayan Kürqırağı tuğay meşələrinin 75-80%-i məhv olmuşdur. Hal-hazırda dağ və dağətəyi meşələr sistemsiz qırılaraq sıradan çıxır. Təbii bərpa edilməsi imkanları isə çox məhduddur.

Respublikanın meşə sərvəti rekreasiya ehtiyatı kimi yüksək qiymətləndirilir. Meşələrdə olan endemik və relikt bitkilər, "qocaman" palıd və çinar ağacları cəlbedicidir. Düzənlik sahələrində kiçik areallarda, Lənkəranda Qanıx-Əyriçay vadisində, Kür-Araz ovalığında, Kür və Araz çayları vadisinin bəzi yerlərində Tuqay meşələri yayılmışdır. Respublikanın meşələrinin cəmi 3%-i qarışıq meşələrdir (şam,



ardıc). Azərbaycan meşələrinin kurort və istirahət turizmi üçün əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Meşələr turist axınını formalaşdıran təbii amillərdən biridir. Turistləri və istirahət edənləri meşəyə cəlb edən səbəblər müxtəlifdir. Bu səbəblərdən ən mühümü təmiz havada, təbiətlə təmasda olmaqdır. Azərbaycanda dəniz sahili ilə meşə massivlərinin həmahəng təşkil etməsi turist axınının artmasına təsir edir. Məsələn, Xəzər sahillərinin şimalında Yalama-Nabran, cənubunda Astaranın meşə massivləri ərazinin turizm-rekreasiya cəhətdən mənimsənilməsinə imkan yaradır.

Azərbaycanda bir sıra kurortlar və istirahət mərkəzləri dağlıq meşə qurşağında (Şuşa, Şəki, Zaqatala, Hacıkənd) yaradılmışdır və bu zona kənd turizminin inkişafı məqsədilə də prioritet ərazilər sayılır. Bunlardan başqa Azərbaycanda gözəlliyi və kurort-müalicə imkanlarına görə əhəmiyyətli olan meşəli sahələr çoxdur, bu ərazilərdə də istirahət evləri, turist bazaları yaratmaq üçün perspektiv imkanlar var. Belə yerlərə Quba, Qusar, Altıağac, Zaqatala, Lerik, Füzuli, Zəngilan, Kəlbəcər və başqalarını aid etmək olar. Bu rayonlarda turizmin müxtəlif, o cümlədən kurort-istirahət, ekoturizm növlərini (həmçinin kənd turizmi) inkişaf etdirmək olar. Lakin turizm obyekti kimi meşələrdən istifadə edərkən meşə massivlərində ekosistemin qorunması təmin olunmalıdır.

Turizmdə faunanın əhəmiyyətindən bəhs edərkən, dağ turlarının təşkilini xüsusi qeyd etmək lazımdır. İstirahətini kəndlərdə keçirənlər həvəskar ovçuluqla məşğul ola bilərlər. Azərbaycanın meşələrində maral, çöl donuzu, tülkü, nadir halda ayı, canavar, porsuq, dələ, dağ keçisi, qaban olur. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ov heyvanlarının siyahısı təsdiq edilmişdir. Ov turizminin inkişafı imkanları Böyük Qafqaz dağlarında yüksəkdir. Lakin yerli əhali müxtəlif quşları ovlamaq həvəskarlarıdır. Bu da təsadüfi deyildir. Azərbaycan müxtəlif ov quşları ilə zəngindir. Respublika ərazisində bir neçə yerdə (Qızılağac, Ağ göl,

Candar gölü və b.) köçəri quş arealları vardır. Bunlardan başqa Xəzər dənizində Kür çayı və onun qollarında kefal, qızıl balıq, nərə, siyənək, naqqa balığı, ilanbalığı və digər növ balıqlar ovlanılır.

Azərbaycanda 12 qoruq, 24 yasaqlıq, 9 Milli park vardır ki, bunlarda qiymətli təbii landşaft və tükənməkdə olan fauna növləri, nadir flora nümunələri cəmlənmişdir. Bir sıra yeni qoruq və Milli parkların yaradılması haqda da təkliflər hazırlanır. Ümumiyyətlə, qoruq və Milli parklara səfər etməyə qadağa qoyulmur. Lakin bunlarda turizm-rekreasiya fəaliyyətinə məhdudiyyətlər qoyulur. Bunlardan başqa Azərbaycanda təbiətin çox müxtəlif təbii obyektləri mövcuddur.

Görkəmli akademik B.Ə.Budaqov bu obyektləri bir neçə qrupa ayırır:

- geoloji - qədim süxurların çıxıntıları;
- paleontoloji - qədim flora və fauna qalıqları ilə süxur çıxıntıları;
- geomorfoloji - qayalar, qalıq dağlar və s.;
- hidroloji və hidrogeoloji - dağ çayları və gölləri, şəlaləli dərin dərələr və s.;
- landşaft - dağ dərələri, aşırımlar, mağaralar.

Təbiət abidələri. Azərbaycan Respublikasının ərazisində olan ən xarakterik, yaxşı saxlanılmış səciyyəvi landşaftlar, xüsusi gözəlliyi ilə seçilən təbiət düzləri, endemik bitkilər, mağaralar, nadir göllər, dağ relikt, məhv olub aradan çıxan bitki növləri, yüzillik ağaclar, bağ-park, incəsənət nümunələri, süxurların nadir çıxıntıları, paleontoloji qalıqların çökdüyü yerlər, xüsusilə qiymətli ağac-kol cinsləri, ayrı-ayrı meşə sahələri və digər sahələr daxildir.

Nəbatət bağları. Mərdəkan Dendrarisi-1926-cı ildə yaradılmışdır. Burada çoxsaylı subtropik, gövdəli, kollu, çiçəkli, efir yağlı və başqa yerli və xarici floradan təşkil olunmuş bitki kolleksiyası vardır. Məsələn, birmeyvəli retama, lansetəbənzər sumaq, genişyarpaqlı şinus, Malayziya jasmini və s. Dendrarinin bitkiləri Lənkərandan gətirilmiş, torpaq üzərində və süni suvarma şəraitində bitir.

Zooloji və Təbiət Tarixi Kolleksiyaları və muzeyləri. Dünyanın bütün inkişaf etmiş ölkələrində olduğu kimi Azərbaycanda da müxtəlif zooloji kolleksiyalar mövcuddur. Bunlar həm dövlət, həm də şəxsi mülkiyyətdə olan kolleksiyalardır. Bunlardan Bakı şəhər heyvanat parkının, AMEA Zoologiya İnstitutunun zooloji muzeyini, Zərdabi adına paleontoloji muzeyini və başqalarını qeyd etmək olar.

Beləliklə, yuxarıda göstərilənləri ümumiləşdirərək deyə bilərik ki, Azərbaycanda təbii-coğrafi imkanlar istirahət-kurort, ekoloji (o cümlədən kənd turizmi), macəra turizmində turistlərin tələbatını ödəmək iqtidarındadır. Kitabın ikinci fəslində kompakt şəkildə səciyyələndirdiyimiz təbii mühit və onun komponentləri Azərbaycanda turizm cəhətdən cəlbediciliyi formalaşdıran əvəzsiz amillərdir və respublikanın mövcud təbii rekreasiya potensialıdır.

### 2.1.6.Milli parklar

Mövcud təbiət komplekslərini qorumaq, təbiət proseslərinin təbii hərəkətlərini öyrənmək üçün xüsusi mühafizə olunan təbiət əraziləri yaradılmış və fəaliyyət göstərməkdədir. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri Azərbaycan Respublikasının milli sərvətidir və xüsusi ekoloji, elmi, mədəni və estetik dəyərə malikdir. Xüsusi mühafizə olunan təbiət ərazilərinin statusu "Ətraf mühitin mühafizəsi haqqında" və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmişdir.

Azərbaycan Respublikasında Milli parkların yaradılmasına 2003-cü ildən başlanılmışdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həmin ildə Akademik Həsən Əliyev adına Ordubad, Şirvan, Ağ göl, 2004-cü ildə Hirkan,

Altıağac, 2005-ci ildə Abşeron, 2006-cı ildə Şahdağ, 2008-ci ildə isə Göygöl Milli parkları yaradıldı, 2009-cu il 25 noyabr tarixində Azərbaycan Respublikası prezidentinin Sərəncamı ilə Ordubad Milli park ərazisi Şahbuz Dövlət Təbiət Qoruğu, Şahbuz, Culfa, Ordubad rayonlarının torpaqları hesabına genişləndirilərək sahəsi 42797,4 hektara çatdırılmışdır. Eyni sərəncamla Milli parkın adı dəyişdirilərək akademik Həsən Əliyev adına Zəngəzur Milli parkı adlandırılmışdır. 2008-ci ildə Hirkan Milli parkının ərazisi genişləndirilərək 40358 hektara çatdırılmışdır. 2012-ci ildə Almaniya Federal Hökumətinin dəstəyi ilə "Qafqaz təşəbbüsü" proqramı çərçivəsində Xaçmaz rayonunda Rusiya ilə sərhədyanı zonada Samur-Yalama (sahəsi 11,8 ha) Milli parkı yaradıldı.

Bununla yanaşı, yeni Milli parkların, dövlət təbiət qoruqlarının yaradılması istiqamətində müvafiq işlər davam etdirilərək, Qızılağac dövlət təbiət qoruğunun ərazisi genişləndirilərək, dənizkənarı Milli parkının yaradılması nəzərdə tutulmuşdur.

Azərbaycanın təbii sərvətlərinin mühafizəsinə və inkişafına dair tələblərin həyata keçirilməsi ilə əlaqədar xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin və həmin ərazidəki bioloji müxtəlifliyin qorunması sahəsində ardıcıl, məqsədyönlü və intensiv iş aparılır. Hazırda Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən xüsusi mühafizə olunan təbiət ərazilərinin ümumi sahəsinin artırılmasına dair elmi cəhətdən əsaslandırılmış torpaqayırma sənədləri işlənib hazırlanmışdır.

Turizmin sürətlə inkişaf etməsi Azərbaycanda xüsusi mühafizə olunan ərazilərin Milli parklar formasının təşkil edilməsinə və genişləndirilməsinə də əlverişli zəmin yaratdı. Ümumi sahəsi 322,4 min hektar olan 9 Milli park respublika ərazisinin 3,6 %-ni təşkil edir. Milli parklar ayrı-ayrı regionlar və landşaftlar üzrə qeyri-bərabər paylanmışdır (cəd.,2.1).



Cədvəl 2.1

**Azərbaycanın Milli parkları haqqında məlumat**

| | Milli parkların adı | Yerləşdiyi ərazi | Yarandığı il | Ümumi sahəsi, min ha |
|---|---|---|---|---|
| 1 | Akademik Həsən Əliyev adına Ordubad Milli parkı ( 2009-cu ildən Zəngəzur Milli parkı) | Ordubad rayonu | 2003 | 42.8 |
| 2 | Şirvan Milli Parkı | Qaradağ, Salyan və Neftçala inzibati rayonları ərazisində | 2003 | 54.4 |
| 3 | Ağ göl Milli parkı | Ağcabədi və Beyləqan rayonlarının ərazisində, Kür çayının sağ sahilində | 2003 | 17.9 |
| 4 | Hirkan Milli parkı | Lənkəran və Astara rayonlarının ərazisində | 2004 | 40.4 |
| 5 | Altıağac Milli parkı | Xızı və Siyəzən rayonları-nın ərazilərində | 2004 | 11.0 |
| 6 | Abşeron Milli parkı | Bakı şəhərinin Xəzər rayonu inzibati ərazisi, Abşeron yarımadasının cənub-şərq qurtaracağın-da - Şah dili sahəsində | 2005 | 0.8 |
| 7 | Şahdağ Milli parkı | Quba, Qusar, İsmayıllı, Qəbələ, Oğuz və Şamaxı ray onlarının kəsişdiyi dağ silsiləsində | 2006 | 130.5 |
| 8 | Göygöl Milli parkı | Daşkəsən, Goranboy və Göygöl rayonları, Kiçik Qafqaz dağlarının şimal-şərq yamaclarında, Göygöl rayonu ərazisində | 2008 | 12.8 |
| 9 | Samur-Yalama Milli parkı | Xaçmaz rayonunda, Rusiya ilə sərhədyanı zonada | 2012 | 11.8 |

**Mənbə: AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi**

Landşaft tiplərindən Azərbaycanda Milli parklar vasitəsilə ən çox mühafizə olunanları dağ-meşə və dağ-çəmən lan-

dşaftlarıdır. Respublikamızda Milli parkların 70%-i dağ-meşə və dağ-çəmən landşaftlarında təşkil olunmuşdur. Mili parkların ərazisinin 23%-ni arid landşaftlar, 7%-ni isə su-bataqlıq landşaftları təşkil edir. Azərbaycanın dağ-meşə və dağ-çəmən landşaft qurşaqlarında 5 Milli park təşkil olunmuşdur. Bunlardan Şahdağ Milli parkında dağ-meşə, dağ-çəmən, qismən də nival landşaftlar qorunur. Altıağac və Hirkan Milli parklarında meşə landşaftları, Ordubad Milli parkında isə dağ-çəmən, qismən də nival landşaftlar mühafizə olunur. Göygöl Milli parkında dağ-meşə və dağ-çəmən landşaftları qorunur.

*Şirvan Milli parkı.* Şirvan Milli parkının ərazisində relyefin, bitki örtüyü və torpaq örtüyünün müxtəlifliyi burada bir sıra təbii landşaft sahəsinin mövcudluğuna imkan yaradır. Ərazidə düzən və xırda təpəli yovşanlı yarımsəhra və düzən və xırda təpəli şoranotlu yarımsəhra landşaft tipləri üstünlük təşkil edir. Bu landşaft tipləri ceyranlar üçün çox sərfəli sahələr hesab edilir.

Şirvan Milli parkı yarımsəhra zonasında yerləşdiyi üçün burada bulaq və çay yoxdur. Lakin mövcud su mənbələri – parkı şərqdən əhatə edən Xəzər dənizi, şimaldan baş Şirvan kollektoru və digər kollektorlar, Çala gölü ceyranların və digər heyvanat aləminin suya olan tələbatını tamamilə ödəyir. Kollektorların və Çala gölünün suyu qışda donmur, bu isə ceyranlar və quşlar üçün çox əlverişlidir.

Şirvan Milli parkının ərazisində əsasən yovşanlı yarımsəhra, şoranotlu yarımsəhra, yovşanlı-şoranotlu yarımsəhra, qismən səhra, çəmən-çala, dənizsahili-qumlu, su-bataqlıq bitki qruplaşmaları yayılmışdır.

Şirvan Milli parkı yarımsəhra zonasında yerləşsə də, heyvanat aləmi ilə zəngindir. Məməlilərdən ceyran, qunduz, qaban, dovşan, Xəzər suitisi, canavar, çaqqal, tülkü, porsuq, qamışlıq pişiyi və s., sürünənlərdən tısbağa növləri, zolaqlı kərtənkələ, su koramalı; suda-quruda yaşayanlardan qurbağa növlərinə rast gəlinir. Çalagöldə və kanallarda 12 növ balıq yaşayır.



Milli park ərazisində - göldə, Xəzər sahillərində, 3500 hektardan artıq su- bataqlıq sahəsində 65 növdən artıq quş növünə rast gəlinir. Burada turac, ördək və qaz növləri, qaşqaldaq məskunlaşmışdır. Adı "qırmızı kitab"a düşən çəhrayı qutan, qara leylək, bəzgək, dovdaq, soltan toyuğu, ərsindimdik, qızılqaz, qırmızıgöz qaz, fısıldayan və kiçik qu kimi oturaq və köçəri quşlar qorunur.

Milli parkda qorunan əsas məməli heyvan ceyran sayılır. Onun çəkisi 35 kq-a qədər, bədəninin uzunluğu 95-115, hündürlüyü 60-75 sm-ə çatır. Olduqca çevik heyvan olub, saatda 50-60 km sürətlə qaça bilir.

Şirvan qoruğunda ceyranların sayı artmışdır. 1990-cı ildə Bəndovan yasaqlığı ilə birlikdə Şirvan qoruğunda ceyranların sayı 10900-ə çatmışdır. İndiyə qədər Şirvan qoruğunda heyvanat aləminin qorunmasında bir sıra maneələr və nöqsanlar mövcud olmuşdur. Qoruqda Kəlbəcər, Qusar və Salyan rayonlarının onlarla mal-qara fermaları yerləşdirilirdi. Qoyun sürüləri ceyranların təbii yemini yeyir, ferma itləri onların təbii rejimini pozur, ferma işçiləri brokonyerlik edirdilər.

2004-cü ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin gərgin fəaliyyəti nəticəsində fermalar qoruq ərazisindən çıxarılmışdır. Lakin Milli parkın yasaqlıq ərazisində Xəzər dənizinin sahilində 3 balıq vətəgəsi yerləşir. Geniş ərazidə neft sənaye obyektləri mövcuddur. Qoruğun xüsusiyyətlərinə uyğun elmi – tədqiqat işləri lazımi səviyyədə aparılmamışdır.

Hazırda Şirvan Milli parkının fəaliyyətini canlandırmaq məqsədilə AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi bir sıra əsaslı tədbirlərin yerinə yetirilməsini planlaşdırır.

*Ağgöl Milli parkı.* Ağgöl respublikanın iri göllərindən biri sayılır. Gölə axıdılan suyun miqdarından asılı olaraq sahəsi tez-tez dəyişir, maksimum dərinliyi 1,5-2 metr, orta dərinliyi 0,6 metrdir. Yayın sonuna qədər göldə suyun səviyyəsi xeyli aşağı düşür. Gölə cənubdan bir kollektor qovuşur, şərqdən isə o, digər kollektor vasitəsilə Sarısu gölü ilə birləşir.

Ağgöl Milli parkının bitki örtüyündə əsasən cənub qamışı üstünlük təşkil edən su-bataqlıq bitki növləridir, onlardan sünbüllü su lələyi, su qaymaqçıçəyi, qamış və s. göstərmək olar. Adalarda əsasən yulğun kolları bitir. Şorangələrə və dənli bitkilərə də təsadüf olunur.

Milli parkın quru hissəsində şorlaşmış torpaqlarda çəmən-halofit bitkisi geniş yayılmışdır. Burada birillik şoran otlarından duzlaq soğanı, çərən, qışotu, sirkan, həmçinin qamış bitir. Təpəcikli şoranlı sahələrdə yarımsəhra halofit bitkiləri yayılmışdır. Burada efemerlərlə yanaşı Xəzər şahsevdisi, sarıbaş, qaraşoran üstünlük təşkil edir. Quru şoran və şorəkətli torpaqlarda yarımsəhra kserofit- halofit bitkiləri yayılmışdır, yovşan, xostək, qismən də qırtıc və şorangə üstünlük təşkil edir. Ağgöl Milli parkı respublikamızın düzən rayonlarında köçəri və yerli quşların, heyvanların çox məskunlaşdığı su hövzələrindən biridir. Bu göldə və onun ətrafında 140-dan artıq quş növü məskunlaşmışdır. Burada 87 quş növü yumurta qoyub bala verir. Ağgöl və onu əhatə edən sularda 20-yə yaxın balıq növü vardır. Quşlardan turac, sultan toyuğu, qızılqaz, çay qaranquşu, dəniz qartalı, mərmər cürə, vəhşi qaz, bəzdək, qara leylək, çəhrayı qutan, ərsindimdik və s.-nin adları "Qırmızı kitab"a düşmüşdür.

Ağgölün ətrafında məməli heyvanlardan qaban, qunduz, dovşan, canavar, tülkü, porsuq, qamışlıq pişiyi və s. olur. Milli park yaradılarkən heyvanat aləmini daha da zənginləşdirmək üçün bir sıra tədbirlərin gücləndirilməsi nəzərdə tutulmuşdur. Milli parkın ərazisində ovçuluğa yol verməmək, müşahidə qurğuları tikmək, yırtıcı heyvanların sayını normada saxlamaq, sərt qış aylarında quşları dənli yemlə təmin etmək və s.

*Hirkan Milli parkı.* Hirkan qoruğu üçüncü dövrün relikt hirkan florasını və burada məskunlaşan faunanı qorumaq məqsədilə 1936-cı ildə yaradılmışdır. Qoruq Lənkəran və Astara rayonları ərazisində şərqdə Xəzər dənizi yaxınlığında, 22 metr aralı məsafədən başlayıb, qərbdə 980 metrə qədər yüksəklikləri əhatə edir. Qoruğun düzən və dağətəyi hissəsində şabalıdyarpaq palıd, dəmirağac və vələsin üstünlük təşkil etdiyi



meşəliklər yayılmışdır. Onlara ipək akasiyası, Xəzər lələyi, Hirkan ənciri, Qafqaz xurması, azatağac, yalanqoz və s. qarışır, yüksəkliyə qalxdıqca bu meşələr tədricən fıstıq ağacları ilə əvəz olunur. Ərazisində meşə ilə örtülü sahənin 58 faizi fıstıq, 25 faizi şabalıdyarpaq palıd, 14 faizini isə vələs ağacları təşkil edir. Dəmirağac, şabalıdyarpaq palıd, Hirkan ənciri, Hirkan armudu, Xəzər lələyi, ipəkakasiyası, Qafqaz xurması, ürəkyarpaq qızılağac, Hirkan biqəvəri Azərbaycanın "Qırmızı kitabı"na salınmışdır.

Rütubətli şəraitdə palıd, fıstıq və vələs meşələri altında qonur dağ-meşə torpaqlarının podzollaşmış yarımtipi inkişaf etmişdir. Dəniz səviyyəsindən 100-600 metr yüksəklikdə dəmirağac və palıd meşələri altında sarı dağ-meşə torpaqları yayılmışdır. Ərazidə bu torpaqların tipik və podzollaşmış yarımtipləri mövcuddur.

Hirkan qoruğunda vaxtilə çoxlu pələng, bəbir, Qafqaz maralı, cüyür, tülküy, yüzlərlə quş növlərinə rast gəlinirdi. Hazırda isə onların sayı xeyli azalmış, bəzilərinin nəsli kəsilmişdir. Respublikanın "Qırmızı kitabı"na adı düşən Talış qırqovulu, Hirkan arıquşu qorunur. Adları Qırmızı kitaba yazılan toğlugötürən, qıvrımləlәy, qutan, qara leylək, mərmər cürə, dəniz qartalı, məzar qartalı, berkut, laçın, turac kimi quşlara da təsadüf edilir. 2004-cü ildə Hirkan qoruğu ərazisində 21 min hektar sahədə Hirkan Milli parkı yaradıldı.

*Ordubad Milli parkı.* Ordubad yasaqlığı 1969-cu ildə Ordubad və Culfa rayonları ərazisində yaradılmışdır. O, aşağı, orta və yuxarı dağlıq qurşaqların landşaft sahələrini əhatə edir. Qoruğun yaradılmasında məqsəd ərazidəki nadir və qiymətli heyvanları (qayakeçisi) və quşları (turac, qırqovul və kəklik) qoruyub artırmaq olmuşdur. Sahəsi 42,8 min hektardır. Yasaqlıq Zəngəzur dağlarının cənub-qərb yamacında yerləşir. 1000-3900 metr hündürlükləri əhatə edir. Bitki örtüyü sub-nival, qaya, alp, subalp və dağ kserofit bitkilərindən ibarətdir. Burada ibtidai, çimli və torflu dağ-çəmən, bozqırlaşmış dağ-qəhvəyi torpaqlar yayılmışdır. 2004-cü ildə Ordubad yasaqlığı

ərazisinin bir hissəsində 12 min hektar sahədə Ordubad Milli parkı yaradıldı.

*Altıağac Milli Parkı.* Altıağac qoruğu Ataçay hövzəsində (Xızı rayonu) 1990-cı ildə yaradılıb. Qoruq Böyük Qafqazın şimal-şərq yamacının şərq qurtaracağında meşə örtüyünün şərq sərhəddində pozulmuş təbii meşə landşaft kompleksinin mühafizəsini gücləndirmək yolu ilə ilkin bitki örtüyünü və heyvanat aləmini bərpa etmək, torpağın eroziya prosesinin qarşısını almaq məqsədilə yaradılmışdır. Ərazinin 3585 hektarı meşə ilə örtülü olub iberiya palıdı, qafqaz vələsi və şərq fıstığı üstünlük təşkil edir. Bu meşələrə adi göyrüş, ağcaqayın növləri, ağrıovunduran quşarmudu, yabanı meyvələr (alma, armud və s.) qarışır. Qoruq ərazisində əsasən dağ-meşə, çürüntülü karbonatlı dağ-meşə, qəhvəyi dağ-meşə və s. torpaq tipləri yayılmışdır.

Altıağac qoruğu ərazisində digər qonşu regionlara nisbətən heyvanat aləmi çoxdur. Bunun əsas səbəbi qanunsuz ovçuluq olmuşdur. Qoruğun ərazisində hazırda cüyür, qonur ayı, qaban, vaşaq, yenot, dovşan, dələ, canavar və s., quşlardan isə qırqovul, alabaxta, qaratoyuq, bildirçin, çöl qartalı və s.-yə rast gəlmək olar. 2004-cü ildə Altıağac qoruğu bazasında qoruğun ətraf ərazisindəki meşə ilə örtülü sahələri də daxil etməklə 11 min hektar sahədə Altıağac Milli parkı yaradıldı.

*Şahdağ Milli parkı.* Şahdağ Milli parkının Böyük Qafqazın şimal-şərq yamacı və cənub yamacının orta və şərq hissəsində təşkil olunmuşdur. Bura əsasən Quba, Qusar, Şabran, Qəbələ, İsmayıllı və Şamaxı rayonlarının bir hissəsi daxildir. Quba və Qusar rayonlarının aşağı və orta dağ qurşaqlarında yaşayış məntəqələri sıx yerləşdiyindən Milli parka daxil edilmir.

Şabran rayonunun yaşayış məntəqələri olmayan dağlıq hissəsi və qismən Xızı rayonunun ərazisi Milli parka daxil edilir. Bu zona arxeoloji və tarixi abidələrlə zəngindir. Burada mineral və termal sular (Qalaaltı, Xaltan, Cimi, Xaşı və b.)



vardır. Ərazidə yüksək dağlıq zonada turistlər üçün maraq doğuran Xınalıq və Car kəndləri yerləşir.

Geniş flora və fauna növlərinin qorunması üçün Şahdağ Milli parkının ərazisinə Böyük Qafqazın Cənub yamacının Qəbələ, İsmayıllı və Şamaxı rayonlarının dağlıq meşə, alp və subalp kompleksləri də daxil edilmişdir. Bu ərazidə özünəməxsus valehedici biokomponentlərlə yanaşı, müalicəvi termal mənbələr vardır.

Milli parkın turistlər üçün ən maraqlı yerləri Baş Qafqaz silsiləsinin daim qarlı zirvələri Bazar düzü (4466 m), Tufandağı (4206 m), Şahdağ (4243 m), Qızılqaya (3739 m), Babadağ (3632 m) hesab olunur. Milli parkın ərazisi Böyük Qafqazın hər iki yamacını – şimal-şərq yamacdakı Quba, Qusar, Şabran, Xaçmaz rayonlarını, cənub yamacın Qəbələ, Şəki, İsmayıllı, Şamaxı, Ağsu rayonları ilə birləşdirir. Şahdağ Milli parkının ərazisi seçilərkən onun bütün şaquli landşaft qurşaqlarını, nadir biokompleksləri, həmçinin arxeoloji və tarixi-memarlıq abidələri əhatə etməsini, onun ərazisinin rekreasiya üçün əlverişliliyi, istifadəsi və magistral nəqliyyat yollarına, iri və sənaye şəhərlərinə yaxın olması nəzərə alınmışdır.

Beləliklə, Şahdağ Milli parkının yaradılmasında məqsəd canlı və cansız təbiət abidələrini, dağ meşələrini, alp və subalp çəmənlərini, mineral və termal suları, dağ göllərini, şəlalələri, paleontoloji qazıntıları, tarixi-memarlıq abidələri mühafizə etməklə yanaşı, onlardan rekreasiya məqsədilə istifadə edərək turizmi inkişaf etdirməkdir.

Şahdağ Milli parkının ərazisində bitki örtüyü meşə və çəmən landşaftları ilə təmsil olunur. Milli parkın Böyük Qafqazın cənub yamacı hissəsində bitki örtüyü dağ sistemlərinə məxsus şaquli qurşaqlıq qanunauyğun olaraq yayılmışdır.

Milli parkın ərazisində yüksəklik qurşaqlarında ilkin bitki örtüyü dəyişmiş, pozulmuş, onları törəmə tipli bitki

qruplaşmaları əvəz etmişdir. Bitkilərin yüksəklik qurşaqları daxilində yayılması qanunauyğunluğu hər yerdə pozulmuşdur.

Hazırda Şahdağ Milli parkı ərazisində dağ-meşə landşaftı və bulaqlar qoynunda istirahətə gələnlərin sayı ildən-ilə artır. Quba rayonunun Afurca, Çinalar kəndlərinin ətrafında. Qəçrəşdə, Şabran rayonunun Çıraqqala (Qalaaltı) ətrafında, Şamaxı rayonunun Çuxuryurd və Pirqulu, İsmayıllı rayonunun Baskal, Talıstan, Lahıc və s. yerlərinə yüzlərlə ailə yay mövsümündə istirahətə gəlir.

*Göygöl Milli parkı.* 2008-ci ilin 2 aprel tarixində Göygöl dövlət qoruğunun və Azərbaycan Respublikasının Göygöl, Daşkəsən və Göranboy rayonları inzibati ərazilərinin 12755 hektarlıq sahəsində yaradılmışdır. Milli parkın Göygöl qoruq hissəsi Kəpəz dağının (3065 m) şimal yamacında meşə və subalp qurşaqlarında dəniz səviyyəsindən 1100 metrlə 3065 metr yüksəklikdə yerləşir. Onun "Eldar şamı" filialı isə Qabırrı çayının sag sahilindədir. Göygöl Milli parkı ərazisində əsasən fıstıq, vələs və şərq palıdı meşələri yayılmışdır. Dəniz səviyyəsindən 1500-2200 metr yüksəklikdə zəlzələ nəticəsində uçmuş Kəpəz dağının daş qalıqları üzərində şam meşəsi 149 hektar sahə tutur, ona fıstıq, palıd, tozağac, quşarmudu, vələs qarışır. Hazırda şam meşəsi "qocaldıqca" sıradan çıxır və yerini qoruğun əsl "sakini" fıstıqa verir, özü isə zəlzələnin "çılpaq" daş qalıqlarında məskunlaşaraq, Maral gölünə doğru - Kəpəz dağının zirvəsinə tərəf arealını təzələyir. Subalp qurşağında və alp qurşağında çəmənliklər inkişaf etmişdir. Milli Parkın ərazisində kirpi, Qafqaz göstəbəyi, tülkü, porsuq, ayı, meşə pişiyi, samur, vaşaq, cüyür, Qafqaz maralı, quşlardan bildirçin, meşə göyərçini, meşə cüllüdü, göl qağayısı, qara kərkəz, qu quşu, sarı köynək, meşə torağayı, çil qara toyuq və s. yaşayır. Göygöl və Ağsu çayında yalnız qızılxallı balıq yaşayır. Milli parkın "Eldar şamı" filialında özünəməxsus arid meşə landşaftı yayılmışdır. Göygöl Milli Parkının yaradılması onun rekreasiya sərvətindən turizm məqsədləri üçün istifadəyə geniş imkanlar açmasına səbəb oldu. Təəssüflə qeyd edək ki,



bu imkanlardan turizm-rekreasiya məqsədilə kütləvi halda çoxdandır ki, istifadə olunmurdu. Bunun da səbəbi Göygöl Milli parkının antropogen təsirə ifrat dərəcədə məruz qalması idi. Yarandığı vaxtdan AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Milli parkda təbiətin mühafizəsi təşkil edilmişdir. 2015-ci il avqust ayından etibarən Göygöl Milli parkı vətəndaşların istifadəsinə verildi. Lakin Milli parkın daha ciddi mühafizəsi məqsədilə parka girişdə məhdudiyyətlər qoyulmuşdur. Turistlər ərazidə yalnız müəyyən marşrutlar üzrə hərəkət edə bilər, həmçinin müəyyən yerlərdən istirahət üçün istifadə edə bilərlər. Milli parkın təbiətinə biganə olan, parkı çirkləndirənləri, gizli ov edənləri isə cərimələr gözləyir.

*Samur-Yalama Milli parkı.* Yalama-Xudat dəniz sahilləri bir çox rekreasiya növlərinin inkişaf etdirilməsi üçün ən perspektiv zona hesab olunur. Bunun əsas səbəbi sosial-iqtisadi amil, yəni Bakı-Sumqayıt şəhərlərinə yaxın yerləşməsi, avtomobil və dəmir yolu ilə məsafənin qısa (2-3 saatlıq) olmasıdır. Həmçinin burada kənd təsərrüfatı məhsullarının, meyvə bağlarının bolluğu istirahət edənlərin qida məhsuluna olan tələbatını ödənilməsində də əhəmiyyət kəsb edir. Lakin ən mühüm amil bu parkın füsunkar təbiətidir.

Samur-Yalama Milli parkında meşə landşaftı üstünlük təşkil edir. Sahəsi 15 min ha olan "Yalama meşəsi" məşhurdur. Meşəlik dəniz boyu dar zolaq şəklində uzanaraq dəniz səthindən 400 metr yüksəkliyə qədər qalxır. Yalama meşəsində əsas ağac növləri uzunsaplaq palıd və İberiya palıdıdır. Burada palıd meşələri ümumi meşə ilə örtülü ərazinin 2/3 hissəsini təşkil edir (10 min ha-dan çox). Sahəsinin böyüklüyünə görə ikinci yeri vələs meşələri tutur (2,7 min ha). Bu meşələr əsasən törəmə tipli olub palıd meşələrinin yerində əmələ gəlmişdir.

Yalama meşələrində qoruq və kurort zonalarının ayrılması təklif olunur. Qoruq zonasında həmin ərazi üçün qiymətli ağac sayılan palıd və qovaqdan ibarət meşə-düzən landşaftının təbiət abidəsi kimi qorunub saxlanılması, müxtəlif tədbirlər

həyata keçirilməklə bu meşələrin davamlılığı, estetik görünüşü daha da yaxşılaşdırılmalıdır. Kurort meşə zonasında aparılacaq tədbirlər turistlərin rahat istirahət etməsinə imkan yaratmağa doğru yönəldilməlidir. Bu məqsədlə meşələrin normal funksiyası saxlanılmaqla rekreasiya həcmi genişləndirilməlidir. Kurort meşələrinin rekreasiyaya davamlılığını artırmaq məqsədilə meşə sahələrində abadlıq işləri görülür. Piyada marşrut yolları, mənzərəli yerlərə gedən yaxın və uzaq məsafəli gəzinti cığırları salınır.

Qoruq zonasından fərqli olaraq burada istirahət edənlər müxtəlif istiqamətdə gəzintiyə çıxmaq, müəyyən məhdudiyyət daxilində göbələk, meyvə, giləmeyvə, dərman bitkiləri yığmaq imkanına malik ola bilər.

Milli parkın kurort hissəsində meşəbərpa işləri aparılarsa, dekorativ, göz oxşayan ağac və kollar - ipək akasiyası, cökə, şabalıd, qafqaz və yapon xurması, ağcaqayın növləri, çinar, dəmirağac, yemişan, moruq, alça, əzgil, alma, armud və s.-dən istifadənin də əhəmiyyəti ola bilər.

Parkın kurort zonası meşələrinə maral, cüyür, quşlardan qırqovul, turac və s. buraxmaqla, meşələrin heyvanat aləminin daha da zənginləşdirilməsi mühüm məsələdir.



# III FƏSİL
# TARİXİ-MƏDƏNİ AMİLLƏRİN TURİZMDƏ ROLU

## 3.1. Tarixi-mədəni rekreasiya ehtiyatlarının təsnifatı

Rekreasiya ehtiyatları kompleksində tarixi-mədəni ehtiyatlar xüsusi yer tutur. Bu ehtiyatlar ictimai inkişafın keçmiş dövrlərinin irsini əks etdirən amillərdir. Bunlar rekreasiya fəaliyyətinin mədəni dərketmə növlərinin təşkili üçün mənbə rolunu oynayır, rekreasiya fəaliyyətini bütövlükdə optimallaşdırır, mühüm tərbiyəvi funksiyaya malikdir. Tarixi-mədəni obyektlərin məkan təşkili eyni zamanda rekreasiya axınının lokallaşdırmasını, ekskursiya marşrutlarının istiqamətlərini müəyyən edir.

Tarixi-mədəni obyektlər maddi və mədəni olmaqla iki yerə bölünür. Maddi ehtiyatlar tarixin müxtəlif mərhələlərinin inkişafında cəmiyyətin istehsal vasitələri və digər maddi dəyərlərin məcmusunu əhatə edir. Mənəvi ehtiyatlar isə cəmiyyətin təhsil, elm, mədəniyyət sahəsində, dövlət və ictimai həyatın təşkilində, əmək və məişətdə nailliyyətlərinin məcmusudur.

Məlumdur ki, keçmiş irsin heç də hamısı tarixi-mədəni ehtiyat sayılmır. Buraya elmi üsullarla tədqiq olunmuş və ictimai əhəmiyyətinə görə qiymətləndirilən, texniki və maddi imkanların mövcudluğu şəraitində müəyyən vaxt ərzində bir çox insanların rekreasiya tələbatının təmin edilməsində istifadə oluna bilən tarixi-mədəni obyektlər aid edilir.

Tarixi-mədəni obyektlər arasında tarix və mədəniyyət abidələri mühüm rol oynayır. Bunlar daha çox cəlbedici olmasına görə fərqlənir. Tarix və mədəniyyət abidələri mədənidərketmə rekreasiya tələbatının təmin edilməsində başlıca amildir. Tarix və mədəniyyət abidələri təsnifatına görə bölünür:

- şəhərsalma və memarlıq abidələri-memarlıq ansamblı və kompleksləri;
tarixi mərkəzlər, məhəllələr, meydanlar, küçələr, qədim şəhər və digər yaşayış məntəqələrinin qalıqları, vətəndaş, sənaye, ibadət, hərbi memarlıq tikililəri: xalq memarlığı, həmçinin onlarla bağlı əzəmətli təsviri, dekorativ-tətbiqi, bağça-park sənatkarlıq əsərləri, şəhərətrafı landşaft,
- incəsənət abidələri – möhtəşəm, təsviri, dekorativ-tətbiqi və digər incəsənət əsərləri,
- sənədli abidələr – dövlət hakimiyyəti və idarəetmə orqanlarının aktları, digər yazılı və qrafik sənədlər; kino-foto sənədlər və səsyazmalar, həmçinin qədim və digər əlyazma arxivlər; folklor və musiqi yazıları, nadir çap materialları.

Şəhərsalma və memarlıq abidələrinin antropogen turizm ehtiyatı kimi təsnifatında dekorativlik, kompleks, ansambl təşkil etməsi, tarixi-mədəni əhəmiyyət kəsb etməsi və s. nəzərə alınır. Müasir şəhərsalma nümunələrinə misal olaraq Nyuyork, Los-Anceles, San-Paula, Reo-de-Janeyro, Osaka, Şanxay, Sidney və s. qeyd etmək olar. Bu şəhərlər öz möhtəşəmliyi ilə yanaşı, müasir göydələnləri, küçə və meydanları ilə turistləri cəlb edir. Möhtəşəm obyektlərə Azadlıq heykəli (ABŞ), Eyfel qülləsi (Fransa), Kolumbiya cayı üzərində SES kaskadı (ABŞ), Sidneydə (Avstraliya) opera teatrının binası, Sankt-Peterburqdakı Ermitajın binası, Los-Anceles, Sankt-Peterburq, Yaponiyadakı körpülər və s. turizm əhəmiyyəti kəsb edir.

Tarixi abidələrə - öz qədimliyi ilə seçilən tikililər, mühüm tarixi hadisələri özündə əks etdirən məntəqələr, müxtəlif memarlığa malik binalar aid edilir. Tarixi abidələrə xalqın tarixində xüsusi yeri olan şəxsiyyətlərin həyatı və fəaliyyəti ilə bağlı maddi nümunələr də daxil edilir.

Tarixi-mədəni abidələrdən istifadə xüsusiyyətləri iki qurupa ayrılır ki, bunlara da mövcud ehtiyatlardan yalnız səyahət məqsədilə istifadə olunması, digəri isə elmi-təcrübi əhəmiyyət kəsb etməsidir.



Bununla yanaşı tarixi-mədəni obyektlər xüsusiyyətlərinə görə mənəvi və mədəni əhəmiyyət kəsb edir. Mənəvi əhəmiyyət dedikdə, tarixi-mədəni obyektlərin turistlərin və ya ekskursiyada iştirak edənlərin mənəvi tələbatının ödənilməsinə xidmət etməsi nəzərdə tutulur. Mədəni əhəmiyyəti isə bu abidələrin xalqın tarixi və mədəniyyətindəki rolu ilə müəyyən edilir.

Arxeoloji abidələrə - qədim yaşayış məntəqələrinin qalıqları, kurqanlar, qədim insanların yaşadığı mağaralar, müxtəlif antik əşyaların cəmləndiyi ərazilər daxildir. Arxeoloji abidələr daha cox elmi əhəmiyyət kəsb etməklə turizm məqsədilə az istifadə olunur. Arxeoloji abidələrin yayıldığı ərazilər etnoqrafik, elmi əhəmiyyət kəsb edən ərazi kimi qorunur.

Tarix və mədəniyyət abidələrinin tərkib hissələrindən biri də dini abidələrdir. Dini abidələrdən əsasən əhalinin müəyyən dini tədbirlər və ya tarixi hadisələrlə bağlı olan əlamətdar günlərdə istifadə olunur. Dini abidələrin yerləşdiyi ərazi, onun tarixi, əhalinin mənəvi tələbatında oynadığı rol və istifadə üçün yararlılığı əsas götürülür. İl ərzində 200 mln.-a qədər insan dini abidələrdən istifadə edir. Dini abidələrdən istifadə aşağıdakı xüsusiyyətlərinə görə seçilir:
- müxtəlif dini kitablarda qeyd olunan ibadətlərin yerinə yetirilməsi üçün mövcud olan dini abidələr (Məkkə, Mədinə, Kərbəla, Məşhəd, Yerusəlim).
- əsas dini ziyarət yerləri və din tarixində əhəmiyyətli yeri olan abidələr (ziyarətgahlar, məscidlər, kilsələr).
- tarixi memarlığı ilə seçilən gündəlik ibadət yerləri (mədrəsə, məscid və s).

Qeyd etdik ki, tarixi-mədəni potensial dərketmə turizminin əsasını təşkil edir. Lakin turizmin elə növləri vardır ki, bunların birinin obyektləri digər turizm fəaliyyətində baxış *obyekti kimi mühüm əhəmiyyət* kəsb edir. Bu, kənd turizminə də aiddir. Kənd yerlərində istirahət edən turistlər həmin ərazidə

və yaxud istirahət yerinin yaxınlığındakı irs abidələrinə tamaşa etməyi xoşlayırlar. Bu, Avropa ölkələrində kənd turizminin inkişaf etdiyi dövlətlərdə geniş yayılmışdır. Mədəni irs sivilizasiyanın tarixi inkişaf irsi olub, müəyyən ərazidə toplanır. Hər bir dövr özünün izini qoyur və bu, arxeoloji qazıntılarda mədəni təbəqədə aşkar edilir.

Təcrübi olaraq istənilən yer dərketmə turizmi üçün maraq oyada bilər. Lakin insanların çox yaşadığı yerlərdə daha çox maddi mədəniyyət izləri qorunur. Ümumiyyətlə, mədəni irs abidələri ayrılır :

- arxeologiya abidələri;
- dini və vətəndaş abidələri;
- landşaft memarlıq abidələri;
- kiçik və böyük tarixi şəhərlər;
- səciyyəvi kənd yerləri;
- muzeylər, teatr, sərgi zalları və digər sosial-mədəni infrastruktur tikililər;
- etnoqrafiya, xalq sənətkarlığı, dekorativ-tətbiqi incəsənət;
- texniki kompleks və qurğular.

Tarixi-mədəni potensiala adət və ənənələr, məişət və təsərrüfat fəaliyyətinin xüsusiyyətləri ilə birlikdə bütün sosial-mədəni mühit daxildir. Hər hansı bir ölkədə, regionda, rayonda istirahət edən turist mədəni kompleksi bütünlüklə qəbul edir. Mədəni kompleksin tərkib hissəsinə təbiət də daxildir. Şəhərlərdə bu, parklar və bağçalar; həyət və küçələrdə yaşıllıqlar; kənd yerlərində isə həyətyanı sahələr; qədim malikanə və dini yerlərdə mənzərəli parklar və bağlardır.

Tarixi landşaftın pozulması mədəni obyektin cəbediciliyinə mənfi təsir göstərir. Tarixi-mədəni ehtiyatların turizm-rekreasiya sisteminə daxil edilmisinin bir çox növləri vardır. Ən çox yayılmış forma muzey və tarixi ekskursiya marşrutlarının təşkilidir. Mədəni komplekslərin cəlbediciliyi onların



bədii və tarixi dəyərləri, tələbat yerinə görə bədii və əlçatan olması ilə müəyyən edilir.

Rekreasiya məqsədilə (o cümlədən kənd turizmində) təbii komplekslərin qiymətləndirilməsi iki əsas üsulla aparılır.

1.Mədəni kompleksin dünya və milli mədəniyyətdə yerinin müəyyənləşdirilməsi. Bu, ekspert yolu ilə müəyyən edilir. Dünya, federal, regional və yerli əhəmiyyətli obyektlər müəyyən edilir.

2. Baxış üçün zərurət və kifayət qədər vaxtın olması. Bu üsul müxtəlif əraziləri turizm məqsədilə tarixi-mədəni potensialı perspektivliyinə görə müqayisə etməyə imkan verir.

Mədəni kompleks, həmçinin təbii kompleks üçün mühüm səciyyəvi xüsusiyyət etibarlılıq (möhkəmlik) və tutumdur. Mədəni kompleksin etibarlılığı iki amil ilə - rekreasiya yükünə davamlılığı və əhali tərəfindən formalaşmış dəyər meyarlarına uyğunluğun stabilliyinə görə müəyyən edilir.

Birinci amil hər hansı bir mədəni kompleksin turist axınına "dözə biləcəyini" müəyyən edir. Bu, əsasən muzeylər üçün çox əhəmiyyətlidir. Çünki, muzeylərdə eksponatların saxlanılması üçün müəyyən mikroiqlim şəraitinin (temperatur, rütubət rejimi və s.) olması zəruri şərtdir. Bu baxımdan rekreasiya yüklənməsi və ekskursiyaçıların axımının nizamlanması məqsədilə mədəni komplekslərin davamlılığını yüksəldilməsində müasir texniki vasitələrdən istifadə məsələsi də gündəmdə duran məsələlərdəndir.

İkinci amil turistlərin mədəni obyektə marağının uzun müddətliyi ilə bağlıdır. Dünya əhəmiyyətli mədəni irs abidələrinə marağın stabilliyi qalmaqdadır (məs., Misir piramidaları, Afina antik memarlığı, Paris, Roma, Sankt-Peterburq, Bakı və başqa şəhərlərin memarlıq və tarixi-mədəni abidələri).

Mədəni kompleksin tutumu turistlərin burada olan informasiyanı hansı müddətə qəbul edə biləcəyi vaxtının davamlılığı ilə müəyyən edilir. Bu isə iki amildən - baxış

obyektinin cəlbediciliyi və insanın psixo- fizioloji imkanlarından asılıdır. Sonuncu fərdi səciyyə daşıdığına görə fərqlənir və müəyyən hüduda malikdir.

Tarix və mədəniyyət abidələri və onları əhatə edən landşaft milli dəyərlərdir. Azərbaycan bəşər sivilizasiyasının qədim ocaqlarından olduğu üçün çox dəyərli tarixi-mədəni irsə malikdir. Bu irsin nümunələri arxeoloji obyektlərdə, memarlıq abidələrində, ədəbi şah əsərlərdə və s. əks olunur. Mədəni irs abidələrinin təsnifatı haqda qeyd edərkən, bunların müxtəlif növlərə ayrıldığını göstərdik.

Respublikamızda tarix və mədəniyyət abidələri və obyektlər dövlət tərəfindən qorunur və əhəmiyyətinə görə üç qrupa bölünür:

1.Dünya əhəmiyyətli abidələr. Azərbaycanda 65 arxeoloji və memarlıq abidəsi vardır.

2.Ölkə əhəmiyyətli abidələr. Respublikada 418 memarlıq və 1616 arxeoloji abidə vardır.

3.Yerli əhəmiyyətli abidələr. Bunlar mədəniyyət parkı-bağçalar və landşaft abidələrinin də daxil olduğu 3616 memarlıq abidəsi və həmçinin 354 arxeoloji abidədir.

Mühafizə olunan milli ərazilərin sayı 15-dir. Azərbaycanın rayonları, o cümlədən kəndləri üçün tarixi-mədəni abidələrin təsnifatı təkcə mənəvi dəyərlərin qorunması deyil, həm də turist cəlb edilməsində, turizm fəaliyyətinin (o cümlədən kənd turizminin) genişləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Respublikamızın bütün bölgələrində aptropogen rekreasiya obyektləri mövcuddur və bunlarda Azərbaycan xalqının əsrlər boyu yaratdığı dəyərlər qorunur.

Ümumiyyətlə, Azərbaycanda 6000-dən çox memarlıq və arxeoloji abidə qeydə alınmışdır və bunlar dövlətin mühafizəsi altındadır. Müxtəlif tarixi dövrlərə aid edilən bu abidələr aşağıdakı kimi qruplaşdırılır:

- Xocalı-Kəlbəcər mədəniyyəti, eramızdan əvvəl III minillik;



- Naxçıvan mədəniyyəti, eramızdan əvvəl II və I minillik;
- Yaloylutəpə mədəniyyəti, eramızdan əvvəl III əsr eramızın II əsri;
- Bardağ basdırma, eramızdan əvvəl III əsr - eramızın II əsri.

Dünya əhəmiyyətli memarlıq abidələri Atəşgah (XVIII əsr), İçəri Şəhər kompleksi (VI-XIX əsr), Qız Qalası (VI-XII əsr), Şirvanşahlar sarayı kompleksi (XIII-XV əsr), Möminə Xatun mavzoleyi, Beşbarmaq qalası və Çıraqqala və başqalarıdır.

Dünya əhəmiyyətli arxeoloji abidələrə Azıx, Taqlar və digər mağaraları (paleolit dövrü), Qobustanı (mezolit dövrü) misal göstərmək olar. Qobustandakı qayaüstü rəsmlərə oxşar rəsmlər Gəmiqayada da (Naxçıvan) aşkar edilmişdir.

Respublikamızda yerli əhəmiyyətli memarlıq və tarixi abidələr qala və istehkam, məbəd və qala, karvansara, körpü, saray və imarətlər, məscid və mədrəsələr, kilsə və monastr, mavzoley, köhnə hamamlar, atəşpərəstlərin məbədi və s.-dir.

Beynəlxalq siyahıya Azərbaycandan 65 tarixi-mədəni abidə salınmışdır. UNESCO-nun Ümumdünya irsinə Azərbaycandan iki obyekt daxil edilmişdir: Qız Qalası və Şirvanşahlar sarayı. Qobustan abidə kompleksi, Atəşgah Dövlət qoruğu elan edilmişdir.

### 3.2. Tarixi-mədəni abidələrin coğrafiyası

Azərbaycanda tarix və mədəniyyət abidələrinin coğrafi yerləşmə xüsusiyyətləri sübut edir ki, bu abidələrin əksəriyyəti karvan yollarının kənarlarında qədim yaşayış məskənlərində cəmlənmişdir. Azərbaycanda islam mədəniyyətinin yayılması ilə *tarixi-mədəni abidələrin coğrafiyası* genişlənir. Azərbaycanın ərazisində məscidlər, türbələr, həmçinin karvansara tikililərinin sayı çoxalır. Təsadüfi deyildir ki, bu

tikililərin bəziləri turistlər üçün maraqlı tarixi yerlər, yerli əhali üçün isə inanc yerlərinə çevrilmişdir.

Qədim dövrlərə aid memarlıq abidələri ən çox Abşeron (Qobustan qayaüstü rəsmləri - e.ə. VIII minillik, Atəşgah - XVIII əsr), Şəki-Zaqatala, Kəlbəcər-Laçın, Gəncə-Qazax (Alban kilsələri - I-IX əsrlər, müxtəlif dövrlərə aid arxeoloji abidələr) iqtisadi rayonlarındadır.

Azərbaycanda İslam dövrünə aid tarixi-memarlıq abidələri zəngin olması ilə seçilir. XII-XIX əsrləri əhatə edən memarlıq incilərinin əksəriyyəti İslam dövrünə aid olan abidələrdir. İslam dövrünə aid olan məscidlər, türbələr ölkənin hər yerində yayılmışdır. Məscidlər demək olar ki, öz orijinallığını saxlamış və son illər bunların əksəriyyəti bərpa olunarkən əvvəlki vəziyyəti elmi cəhətdən öyrənilmiş, bərpa işlərində nəzərə alınmışdır. İslam dövrünə aid olan abidələrdən biri də qədim türbələrdir. Əsasən orta əsrlərə aid olan türbələrin ən məşhurlarına Mərəzə qəsəbəsi yaxınlığında Diribaba türbəsi (XV əsr), Şamaxıda "Yeddi Gümbəz" türbələr kompleksi, Ağsu şəhərində Şeyx Dursun türbəsi (XV əsr), İsmayıllı rayonunda olan türbələr kompleksi (XV-XVI əsr), Gəncədə İmamzadə türbələr kompleksi (XVII-XIX əsr), Naxçıvanda Möminə Xatun türbəsi və s. qeyd etmək olar. Bu türbələrdən bəziləri inanc yeri kimi ziyarət olunur.

Azərbaycanda şəhərsalma mədəniyyəti eramızdan əvvəl III minilliyə təsadüf etsə də, bu günümüzə qədər gəlib çatan saraylar, qəsrlər, qalalar əsasən XV-XIX əsrlərə aiddir. Bununla yanaşı, ölkədə qədim yaşayış məskənləri, şəhər xarabalıqları da mövcuddur ki, bu da qədim dövrlərdən ölkəmizin coğrafi mövqeyinin əlverişli olması, qədim karvan yollarının buradan keçməsi ilə izah olunur.

Azərbaycanda şəhərsalma mədəniyyətinin bariz nümunəsinin ən məşhuru "İçəri Şəhər" abidələr kompleksidir. Bu kompleksin tarixi müxtəlif mənbələrdə fərqli göstərilsə də, rəsmi sənədlərə əsasən XII əsrə aid edilir. Kompleksdə 44



abidə yerləşir. Bunlardan Şirvanşahlar sarayı (XV əsr), Sınıqqala minarəsi (XI əsr), Qız Qalası (XII əsr), Cümə məscidi (XI əsr), Divanxana (XV əsr), Şah məscidi (XV əsr) və s. qeyd etmək olar. Bu kompleksdə tarixi-memarlıq abidələrinin kompakt yerləşməsi onun turizm əhəmiyyətini artırır. Şirvanşahlar sarayı kompleksinə Divanxana, ibadət zalı, iki gümbəzli məscid, Səid Yəhya Bakuvinin məqbərəsi, hamamlar və s. daxildir.

Müasir dövrlərə qədər qorunub saxlanılmış mühüm tarixi-memarlıq nümunələrindən Şəki Xan sarayı və ətrafında olan qədim tikililər, karvansaralardır. 2500-2600 il yaşı olan və qədim ticarət yolları üzərində yerləşdiyinə görə Şəkidə iri karvansaralar tikilmişdir. Şəki Xan sarayı XVIII əsr Azərbaycan memarlığının incilərindən sayılır. Saraydakı naxışlar və boyalar, müxtəlif dini yazılar, ağac üzərində döyülmüş naxışlar müasir dövrə qədər gəlib çatmışdır. Şəki Xan sarayının yaxınlığında yerləşən XVIII əsrdə tikilmiş Aşağı və Yuxarı karvansaralar bir neçə dəfə bərpa olunsa da, öz qədim görkəmini saxlamışdır. Yuxarı karvansarada olan gümbəz Yaxın Şərqdə ən iri gümbəzlərdən sayılır. Hazırda bu karvansaralardan turist-mehmanxana kompleksi kimi istifadə olunur. Şəki Xan sarayının yaxınlığında olan abidələrin, həmçinin Şəki şəhərindən 4 km şimalda yerləşən "Gələrsən-Görərsən" qalasının bərpası onu turist obyekti kimi daha çox baxımlı edə bilər.

Gəncə şəhəri də qədim tarixə malikdir və Azərbaycanda şərq memarlığının incilərindən sayılır. Gəncə şəhərinin 1500 ildən çox yaşı vardır. Mühüm tarixi-memarlıq tikililəri Gəncə qalasının ətrafında olan abidələrdir. Bunlar Gəncə qalası (XV əsr), Cümə məscidi (XIX əsr), İmamzadələr kompleksi (XVI əsr), Darısultan sarayı (XII əsr), XII əsrə aid olan karvansara, qədim hamamlar, Nizami Gəncəvinin məqbərəsi və s.-dir. Gəncədə tarixi şəxsiyyətlərə aid olan tikililər, həmçinin qədim mədəniyyət mərkəzləri də mövcuddur. Şəhərdə Şah Abbas

məscidi, Cavad xanın türbəsi, Nizami Gəncəvinin məqbərəsi bərpa olunmuşdur.

Qədim şəhərsalma mədəniyyətini əks etdirən yaşayış məntəqələrinə, Naxçıvan, Ordubad, Şuşa, Bərdə şəhərlərini aid etmək olar ki, bunlar da öz qədimliyini müasir dövrümüzə qədər qismən saxlamışlar. Naxçıvan şəhərində 30-a yaxın tarixi-memarlıq və etnoqrafik abidələr vardır. Naxçıvan şəhərinin tarixi eramızdan əvvəllərə aid edilir. Naxçıvanda olan tarixi-memarlıq abidələrinə Möminə Xatun türbəsi (XII əsr), İmamzadələr məqbərəsi (XII-XIII əsrlər), Zəviyyə məscidi (XIX əsr), Cümə məscidi (XIX əsr), İsmayıl xan hamamı (XVIII əsr), Çin hamamı (XIII əsr) və s. aid etmək olar. Bununla yanaşı, Muxtar Respublikada olan qədim mədəniyyət abidələrinin, tarixi-memarlıq abidələrinin bərpasına böyük ehtiyac vardır. Xüsusilə, Əlincə qalasının, orta əsrlərə aid olan məqbərələrin, Ordubaddakı tarixi-memarlıq abidələrinin bərpası Muxtar Respublikada turizmin inkişafına müsbət təsir edə bilər.

Tarixi-mədəniyyət abidələrinin turizm baxımından ərazi üzrə yerləşməsinə (Abşeron, Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran, Naxçıvan, Şirvan, Qarabağ bölgələrində) nəzər saldıqda, onu qeyd edə bilərik ki, bu bölgələrdə (xüsusilə Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran) kənd turizm imkanları da mövcuddur. Həmin bölgələrdə istirahət edən yerli (xüsusilə şəhərlilər), əcnəbi turistlər azərbaycan xalqının müxtəlif tarixi dövrlərə aid mədəni irs nümunələrinin şahidi ola bilərlər. Bu isə öz növbəsində kənd turizmi ilə mədəni-dərketmə turizminin həmahəng təşkilinə və inkişafına səbəb ola bilər.

Ölkədə dini ziyarətgah kimi istifadə olunan pirlər və digər müqəddəs yerlər vardır. Bunlardan Abşeronda Mir Mövsüm Ağanın ziyarətgahı, Şıxdakı Bibiheybət piri. Naxçıvanda Əshabül-Kəf, Gəncədə İmamzadələr kompleksi, Mərəzədə Diri Baba türbəsi, Siyəzəndə Beşbarmaq piri,



Beyləqanda Zəncirli piri və s. qeyd oluna bilər. Abşeronda olan pirlər seyidlər və onların övladları ilə bağlı olan müqəddəs yerlərdən sayılır. Bu pirlərə qonşu ölkələrdən də ziyarətə gəlirlər. Naxçıvan şəhərindən 12 km aralı İlandağ ilə Məhəcir dağları arasındakı təbii mağarada Əshabül-Kəf ziyarətgahı yerləşir. Bu ziyarətgahın ərazisində abadlıq-bərpa işləri aparılmış, məbədə 13 km uzunluğunda rahat yol salınmış, məscid tikilmiş, kitabə qoyulmuşdur.

## 3.3. Milli irs nümunələri

Milli irs nümunələrindən ən mühümü muzeylərin fəaliyyətidir. Bakıda çoxlu muzey vardır ki, bunlardan turizm baxımından ən əhəmiyyətli olanları tarix, incəsənət və xalçaçılıq muzeyləridir. Bu muzeylər geniş kolleksiyaya malik olmaqla, əcnəbi turistlər üçün olduqca cəlbedicidir. Regionlarda tarix-diyarşünaslıq muzeyləri, etnoqrafik, kustar əl işləri muzeyləri fəaliyyət göstərir. Bu muzeylərə regionlara gələn turistlər üçün turlar təşkil etmək məqsədəuyğun olardı. Belə muzeylərdən ən mühümləri Şəki, Gəncə, Qəbələ, Quba, Lahıc və digər bölgələrdə fəaliyyət göstərir.

Milli irsin digər nümunələrindən biri də *toxuculuq mədəniyyəti* ilə bağlıdır. Azərbaycanda qədimdən xalça toxunması, ipək parça istehsalı ənənəvi məşğuliyyət sahəsi olmuşdur. Qədim İpək Yolunun Azərbaycandan keçməsi ipəkçiliyin inkişafına təkan vermişdir. Qədim ipəkçilik mərkəzlərinə Basqal, İsmayıllı, Şəki, Ordubad aiddir. Bu məntəqələrdə milli üslubda ipək parça və baş örtüklərinin (kələğayı) hazırlanmasında hələ də ənənəvi üsullardan istifadə olunur ki, bu məhsulların istehsal prosesi turistləri daha çox cəlb edir. Bu ipəkçilik mərkəzlərinə qədim adət-ənənələrlə tanışlıq və istehsalat məqsədli ekskursiyalar təşkil olunur.

Milli irsin ən mühüm nümunələrindən olan *xalçaçılıq*

qədim adət-ənənələrə əsaslanır. Xüsusilə əl ilə toxunan xalçalar indiki dövrə qədər öz şöhrətini saxlamışdır. Respublikamızın əksər bölgələrində əl ilə xalça toxunması ənənəvi olaraq davam etdirilir. Əl ilə xalça toxuma mərkəzləri Abşeron, Quba, Şamaxı, Şəki, Qazax, Tovuz, Naxçıvan, Ordubad, Şuşa və s. bölgələrdədir. Bu mərkəzlərin əksəriyyətində xalça ilə yanaşı palaz, heybə və müxtəlif suvenir istehsalı da mövcuddur. Xalçaçılıq məktəbinin müxtəlif növlərinin mövcudluğu bu məntəqələrə maraqlı və çoxsahəli ekskursiyaların təşkilinə imkan yaradır.

Kustar üsullarla hazırlanan müxtəlif əl əməyi nümunələrinin geniş siyahısını tərtib etmək mümkündür. Əl əməyinin müxtəlif növlərinə misal olaraq, keramika, daş-qaş, və ağac üzərində işin müxtəlif növlərinə, musiqi alətləri, parça üzərində toxuma, metal döymələr, mis və saxsı qablar, dulusçuluq və s. inkişaf etmişdir. Kustar üsulla hazırlanan müxtəlif məhsullara Abşeronun qəsəbələrində, Lahıcda, Şəkidə, Basqalda, Ordubadda, Lənkəran və Astaranın kəndlərində daha çox rast gəlinir. Burada hazırlanan məhsulların yerli və xarici turistlər tərəfindən müxtəlif suvenir hədiyyələri kimi alınması da əhəmiyyətli sayılır. Lakin əl əməyi nümunələrinin geniş marketinqinin təşkili, təlim mərkəzi olmadığına görə və ya pərakəndə olduğundan turizmdə istifadədə çətinliklər yaradır. Müqayisə üçün qeyd edək ki, qonşu Türkiyə, İran və digər ölkələrdə əl əməyi nümunələri, milli mətbəxləri turizm mərkəzlərində geniş təbliğ olunur, yerli və xarici turistlərin aldığı əsas hədiyyələrdən sayılır. Türkiyənin yalnız Antalya bölgəsində əl əməyi nümunələrinə aid olan 100-ə qədər irili-xırdalı mağazalar mövcuddur. Respublikamızda da əl əməyi nümunələrinin hazırlanmasına maraq artmışdır, çünki, ənənəvi məhsullar turistləri cəlb edir. İçəri şəhərdə, Şəki Xan sarayının qarşısında, otellərdə təşkil edilən satış köşklərində milli əl əməyi nümunələri suvenir kimi əcnəbi turistləri maraqlandırır.

Etnoqrafik abidələr Azərbaycanda yaşayan xalqların



milli, etnik irsini, ənənələrini əks etdirir. Kiçik etnik qrupların ölkədə geniş yayılması etnik turizmin inkişafına əlverişli şərait yaradır. Ölkədə əsas etnoqrafik abidələr geniş türkçülük mədəniyyətini əks etdirməklə yanaşı, Xınalıq, Lahıc, Nic, Basqal, dağ yəhudilərinin məskunlaşdığı Qırmızı qəsəbə və s. yaşayış mərkəzləri xüsusiliyi ilə seçilir. Lahıcda və Basqalda XV əsrdən mövcud olan hamamlar, su sistemləri, kəhrizlər, kanalizasiya xətləri, çay daşları döşənmiş yollar, özünəməxsus mədəniyyət və mətbəxləri milli irsin ən mühüm nümunələrindən sayıla bilər. Xınalıq və Nic kəndlərində məskunlaşan əhalinin təkrarsız özünəməxsus mədəniyyətləri, məişətlərinin müxtəlifliyi həmin yerlərə turist axını üçün şərait yaradır.

Mədəni və milli irs nümunələri - xalqın adət-ənənələrini özündə əks etdirən ehtiyatlara deyilir. Mədəni irs nümunələrinə ənənəvi sənətkarlıq, milli bayram və festivallar, milli kulinariya, foklor nümunələri və s. aid edilir. Mədəni irs nümunələrindən daha çox beynəlxalq turizmdə istifadə olunur.

Mədəni abidələrin və xalq yaradıcılığının turizmdə istifadəsi onların ayrı-ayrı qurupları üzrə aparılır. Mədəni-mənəvi abidələrə etnoqrafiya, xalq yaradıcılığı, suvenir istehsalı, milli mətbəx nümunələri də daxil olduğuna görə onların turizm baxımından birgə istifadəsi mümkündür.

Etnoqrafik abidələrə xalqların adət-ənənələri, milli bayram və dil xüsusiyyətinin müxtəlifliyi daxil edilir. Etnoqrafik abidələr istifadə xüsusiyyətinə görə hər hansı bir xalqın və ya etnik qrupun yayıldığı ərazilərdə, yaşayış məntəqələrində turizm və elmi məqsədli səyahətlərin təşkili ilə bağlı olur.

Etnoqrafik abidələrin turizmdə rolu-mövcud marşrutlarda istifadə olunmasına, kütləvi turizm tədbirlərinin keçirilməsində əhəmiyyətlidir. Belə ki, xalqların milli adət-ənənələrinin, bayramlarının, beynəlxalq və yerli festivalların

keçirilməsi kütləvi turistlərin cəlb olunmasına imkan verir. Azərbaycanda belə etnoqrafik abidələr Xınalıq, Basqal, Lahıc, Şəki və Ordubadda yayılmışdır.

Xalq yaradıcılığının və suvenir istehsalının turizm ehtiyatları kimi əsas əhəmiyyəti bölgələrdə və ya hər hansı bir dövlət daxilində turizm hərəkatının ümumi imkanları ilə birbaşa bağlı olur. Yəni, xalq sənətkarlığının inkişafı birbaşa turistlərin cəlb olunmasına tam şərait yaratmasa da, ölkəyə gələn turistlərin suvenir istehsalı nümunələrinin alınması və hədiyyələr kimi təqdim olunması geniş yayılmışdır. Bu baxımdan milli irs nümunələrinin istehsalı yerli kustar sənətkarlığın genişlənməsinə səbəb olur.

Turizmdə mədəni irs ehtiyatlarına daxil olan digər komponenti milli mətbəx nümunələridir. Turizmdə milli mətbəx nümunələrindən istifadə olunması beynəlxalq miqyasda daha çox yayılmışdır.

Beləliklə, milli irs nümunələrindən turizm məqsədilə istifadənin aşağıdakı istiqamətlərini qeyd etmək olar:
- Milli irs nümunələrinin daha çox yayıldığı ərazilərdən dərketmə turizm məqsədilə istifadə olunması;
-Milli irs nümunələrinin yayıldığı yaşayış məntəqələrində etnoqrafik muzeylərin təşkil olunması yolu ilə beynəlxalq turizmin inkişaf etdirilməsi;
-Yerli və tranzit turizm marşrutlarında milli irs nümunələrindən istifadə olunması;
- Milli irsi nümunələrdən kənd turizmində istifadə olunması.

Turizm sənayesi inkişaf etdikcə kustar sənətkarlıq, suvenir istehsalı genişlənir. Bu, respublikada keçirilən beynəlxalq səviyyəli tədbirlərdə daha çox nəzərə çarpır. Çünki. Azərbaycana gələn turistlər suvenir almağa da maraq göstərir. Suvenir istehsalından əldə olunan gəlirlər isə yerli əhalinin maddi-rifahı üçün əhəmiyyətli rola malikdir.



### 3.4. Milli bayramlar və festivallar

Azərbaycanda milli bayramların, festivalların keçirilməsi milli turizm irsinin, habelə Avropa, Şimali Amerika və Avstraliyada son dövrlərdə geniş yayılmış hadisə turizminin (event tourism) əsasını təşkil edə bilər. Xüsusilə, Novruz bayramına aid olan tədbirlərin keçirilməsi Azərbaycanın turizmində mühüm rolu vardır. Belə ki, Novruz bayramının 4-5 gün davam etməsi ölkə daxilində bu tədbirlərin genişlənməsinə imkan yaradır. Novruz bayramı günlərində əyləncə tədbirlərinin keçirilməsi, qısa müddətli səyahətin təşkili mümkündür. Qeyd edək ki, Novruz bayramı UNESCO-nun qeyri-maddi irs nümunələri sırasına daxil edilmişdir.

Bununla yanaşı regionlarda müxtəlif milli bayramların, şəhərlərin tarixinin qeyd olunması turizm hərəkatının canlanmasına şərait yarada bilər. Belə tədbirlərə misal olaraq, Gəncədə Şəhər günü yubileyinin keçirilməsi, Göyçayda "Nar", Lənkəranda "Çay", "Yerli mətbəx" bayramları, Şəkidə "İpək", "Yerli mətbəx" və ya "Gülüş" bayramına aid tədbirlər və s. xüsusiyyətlər turizmin inkişafına, əsasən də qonşu dövlətlərdən böyük turist axınına təkan verə bilər. Belə tədbirlərin ölkənin müxtəlif bölgələrində keçirilməsi mümkündür.

Qonşu Türkiyə, Avropa ölkələrinin əksəriyyətində (Baltikyanı dövlətlər, İspaniya və s.), Latın Amerikasında milli bayramların, festivalların keçirilməsi xarici turistlərin cəlb olunmasında əsas vasitələrdən sayılır. Müqayisə üçün qeyd edək ki, Braziliyada keçirilən karnavallarda, İspaniyada milli korido oyunlarında milyonlarla turist iştirak edir.

Azərbaycanın zəngin milli mətbəxinin də turizmin inkişafında mühüm rolu vardır. Azərbaycana aid olan milli yeməklər və içkilər regionlar üzrə müxtəlif və çox çeşidlidir. Xüsusilə Lənkəran, Şəki-Zaqatala bölgələri öz mətbəxləri ilə daha çox seçilir. Bölgələrdə fəaliyyət göstərən iaşə

xidmətlərində turistlərə milli mətbəxin nümunələri təklif olunur. Azərbaycanın beynəlxalq kulinariya tədbirlərində fəal iştirakı və mühüm qalib yerlər tutması bu sahənin inkişafına və turizmdə reklamına imkan yaradır. Kulinariya turizm məhsulunun inkişafında və bazarında turizm və peşəkarlar arasında əldə olunan ən yaxşı təcrübənin nailiyyətlərini yayır. Azərbaycanın ayrı-ayrı bölgələrinin milli mətbəx nümunələrinin geniş təbliği, kütləvi turizmin inkişafına təkan verə bilər.

Görməli yerlər turistləri bu və ya digər rayona səfərə cəlb edən obyektlərdir. Turizmin əsaslı inkişafı məqsədilə mədəni ehtiyatları da turizm kimi idarə etmək lazımdır. Yerli incəsənət və xalq sənətkarlığı turistləri cəlb edən əsas amildir və bu, həm də yerli əhali üçün mühüm gəlir mənbəyi ola bilər. Turizm ənənəvi incəsənət və xalq sənətkarlığının dirçəlməsinə də şərait yarada bilər. Burada suvenir istehsalı ilə əsl incəsənət və sənətkarlıq məhsulları fərqləndirilməlidir. Lakin nəzərə almaq lazımdır ki, bunların hər ikisi turizmin inkişafında müəyyən rola malikdir. Yerli rəssam və sənətkarlar üçün xüsusi hazırlıq proqramları təşkil etmək, habelə onların hazırladıqları məhsulların satışı üçün məntəqələr təşkil etmək də lazım gələ bilər. Ənənəvi rəqslər, musiqi və teatr da turistlər üçün böyük maraq kəsb edə bilər. Burada müəyyən təşkilatçılıq işi, bəzən isə xüsusi zal və teatr binalarının tikintisi tələb oluna bilər.

Tamaşaların özünəməxsusluğunu və təbii xarakterini qoruyub saxlamaq lazımdır. Bunun üçün xüsusi hazırlıq və idarəetmə proqramları təşkil olunmalıdır. Ənənəvi tarixi kəndlər və onlarla bağlı mədəni həyat turistləri çox cəlb edir və bu sahə yerli əhaliyə əlavə gəlir gətirə bilər. Turistlərə ənənəvi kənd memarlığını və kənd həyat tərzini nümayiş etdirmək üçün ayrı-ayrı yerlərdə nümunəvi kəndlər seçilməlidir.Turistləri yerli mətbəxtlə tanış etmək üçün səy göstərmək lazımdır. Yalnız standart turist menyularından (bunlar yerli qida məhsullarını və onları hazırlamaq üsullarını qismən əhatə edir) istifadə etmək səmərəli sayılmır.



# IV FƏSİL
# SOSİAL-İQTİSADİ AMİLLƏRİN TURİZMDƏ ROLU

## 4.1 Turizmin inkişafına təsir edən makroiqtisadi amillər

Turizm fəaliyyətində təbii və tarixi-mədəni amillər mühüm rol oynasa da, iqtisadi amillərin əhəmiyyəti danılmazdır. Turizmin sonrakı inkişafı isə ölkədəki siyasi, iqtisadi və sosial vəsiyyətdən asılıdır. Bazar iqtisadiyyatı şəraiti olsa da, turizmin davamlı inkişafını təmin etmək üçün planlaşma aparılmalıdır. Planlaşmada turizmin inkişafına təsir edən iqtisadi amillərin öyrənilməsi və təhlili mexanizmi işlənib hazırlanır.

Turizmin planlaşdırılmasında iqtisadi təhlil iki əsas səviyyədə makro və mikro səviyyədə öyrənilir. Makro səviyyədə təhlil global amillərin öyrənilməsi, mikro səviyyədə təhlil isə ölkədə baş verən iqtisadi dəyişikliklərin öyrənilməsini əhatə edir. Turizmin inkişafında mühüm rol oynayan makroiqtisadi amillərə aiddir: ölkə iqtisadiyyatının idarəedilməsi sistemi; maddi-texniki bazanın vəziyyəti; ölkədə inflyasiyanın səviyyəsi. Azərbaycanda müstəqillik illərinədək iqtisadiyyatın mərkəzləşmiş inzibatı-amirlik idarəetmə sistemi hakim idi. İqtisadiyyatın bütün sahələri mərkəzi hakimiyyətin nəzarəti altında inkişaf etdirilirdi. Turizmin inkişaf üçün təbii, tarixi-mədəni imkanların zəngin olmasına baxmayaraq, respublika bu sahədə Avropa ölkələrindən çox geridə idi. 1990-cı illərdən sonra mərkəzləşmiş sistemin dağılması ölkədə iqtisadiyyatın idarə edilməsi sistemində yeni imkanlar açdı. Həm dövlət, həm də özəl mülkiyyətə əsaslanan qarışıq iqtisadi sistem yarandı. Bu, bazar iqtisadiyyatı münasibətlərinə keçilməsində mühüm rol oynadı.

İqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin təcrübəsi təsdiq edir ki, bazar iqtisadiyyatı uğurlu və demokratik idarəetmə modelidir. Bu idarəetmə sistemində iqtisadiyyatın bütün sahələri, o cümlədən turizm sektorunun inkişafı sürətlənir və azad rəqabət əsasında yeni istiqamətlər meydana gəlir.

Bazar idarəetmə sistemində azad rəqabət mühitinin yaradılması respublikada hər bir hüquqi və fiziki şəxsin azad sahibkarlıq hüququ əldə etməsinə imkan yaratdı. Ölkədə turizm fəaliyyətinin inkişafını təmin etmək üçün şəxslərə azad sahibkarlıq hüququnun verilməsi və turizm bazarında sağlam rəqabət mühiti təmin olunması mühüm şərtdir. Onu da qeyd edək ki, turizm sənayesi müxtəlif turizm məqsədli müəssisələrin məcmusundan ibarətdir. Bu sənayenin inkişafı üçün turizm müəssisələri xüsusi mülkiyyət sistemi ilə idarə olunmalıdır. Xüsusi mülkiyyət sistemi ilə idarə olunan hər bir müəssisə sahibi mənfəətinin daha da çoxalması məqsədilə şirkətini inkişaf etdirərək, istehsal etdiyi mal və xidmətlərə daha çox alıcı cəlb etmək marağında olacaqdır. O, turizm bazarının tələbinə uyğun turpaketlər hazırlayacaq və bu məhsulların rəqabət qabiliyyətli olması üçün turpaketə yeni servis növləri daxil edərək onu istehlakçıya çatdıracaqdır. Bu isə turizm bazarında rəqabətin artmasına təsir edəcəkdir.

Makroiqtisadi amillərdən olan maddi-texniki baza turizmin inkişafının əsasını təşkil etməklə turistləri bütün xidmətlər kompleksi (yerləşdirmə, qidalanma, daşınmalar, müalicə və əyləncə xidmətlərinin təşkili və s.) ilə təmin edir. Turizmin maddi-texniki bazasına daxildir: turizm şirkətləri (turoperatorlar və turagentliklər), mehmanxanalar, turist bazaları, ticarət və ictimai-iaşə müəssisələri, avtonəqliyyat təşkilatları, turizm ləvazimatı və əşyalarının icarə məntəqələri, turist göndəriş vərəqlərini yayan büro, nəzarət - xilasetmə xidmətləri, turist klubları, stansiyalar və s. (turizmin maddi-texniki bazası haqqında kitabın digər bölməsində ətraflı məlumat verilir, bax, V fəsil).



Turizm sənayesi turizm obyekti və turizm subyektlərinin cəmindən formalaşmış bir sistemdir. Bu tərkiblərdən biri olmadıqda turizm fəaliyyəti həyata keçirilə bilməz. Belə ki, turizm subyekti anlayışı – özünün bir sıra tələbatlarını ödəmək üçün istehsal olunmuş xidmətlərdən istifadə etməklə turizm tədbirlərinin iştirakçısı olan şəxs-turist kimi başa düşülür. Turizm obyekti anlayışı isə - turizm subyektlərinin səyahəti zamanı onun maraq dairəsində olan hər bir məkan, istirahət mərkəzləri və s. əhatə edir. Bu anlayışların izahından məlum olur ki, turizm obyektləri və subyektləri vəhdət təşkil edərək turizm fəaliyyətini formalaşdırır.

Turizm fəaliyyəti turizm subyektləri vasitəsilə turizm obyektlərində həyata keçirilir. Turizm obyektləri fəaliyyət məqsədindən asılı olaraq müxtəlif olur. Bütün növ turizm obyektləri birlikdə maddi – texniki bazanın əsasını təşkil edir. Turizm obyektlərinin tərkibinə aşağıdakı əsas xidmətlər daxildir:

1.Turistlərə yerləşmə müəssisələrində xidmət;

2.Turistləri daimi yaşadığı yerdən turməhsulu istehlak etmək üçün müvafiq məkana çatdırılma vasitəsi olan nəqliyyat xidməti;

3.İctimai-iaşə müəssisələrində qidalanma xidməti;

4.Turistlərin mənəvi tələbatını ödəmək məqsədilə (dərketmə turizm obyektlərinə Milli park və qoruqlara, festival və idman yarışlarına) ekskursiyaları təşkil edən turizm şirkətlərinin xidmətləri.

Bunlardan əlavə, turizmin maddi-texniki bazasına digər xidmət müəssisələri də daxildir. Bunlar, ekskursiya bələdçisi yaxud da gid-tərcüməçi xidməti, turistlərin sığortalanması xidməti, təşkilati xidmət (sənədlərin təsdiqi, viza xidmətinin göstərilməsi), informasiya xidmətinin təminatı (valyuta məzənnəsi, bank xidməti, gömrük və sərhəd xidmətində qiymətlər

haqqında məlumat, regionlarda olan turizm resursları və turist üçün olan obyektlər haqqında məlumat və s.) və digər xidmətlərdir.

Turizm fəaliyyətinin həyata keçirilməsində ən mühüm əhəmiyyət kəsb edən turizm obyektlərindən biri yerləşdirmə (və ya yerləşmə) müəssisələridir. Yerləşdirmə xidməti turizmin maddi-texniki bazasında mühüm rol oynayır. Turistləri yerləşdirmə müəssisələrinə mehmanxanalar, motellər, turist bazaları, kempinqlər, istirahət evləri, rekreasiya məqsədilə təsis edilən kurortlar, sanatoriyalar, pansionatlar və s. aid edilir.

Azərbaycanda yerləşdirmə müəssisələrinin sayı getdikcə artır. Mehmanxana xidmətlərində qiymət strategiyası ayrı-ayrı turist kontingentinin aylıq gəlirlərinə uyğun aparılarsa, sosial təbəqələrdən olan turistlər yerləşdirmə müəssisəsi ilə təmin oluna bilər. Yerləşmə müəssisələrində qiymətlərin baha olması turistləri alternativ obyektlərdən (kirayə götürülmüş evlərdən) istifadə etmək məcburiyyətində qoyur. Bu isə mehmanxanaların inşasına hər hansı formada (dövlət, müştərək, fərdi və s.) yatırılan sərmayələrin itməsilə nəticələnir.

Azərbaycanda 1995-2015-ci illər ərzində bu problemlərin həlli məqsədilə yeni mehmanxanaların tikintisi sürətlənmişdir. 1994-cü il sentyabrın 20-də Heydər Əliyev tərəfindən "Əsrin müqaviləsi" sazişinin imzalanması ilə respublikamıza işgüzar səfərlərin sayının çoxalması, 2011-ci ilin "Turizm ili" kimi qeyd olunması, Beynəlxalq "Avroviziya" mahnı festivalının, I Avropa idman oyunlarının Bakıda təşkili ölkəyə turist axınını artırmışdır.

Mehmanxanadan fərqli olaraq digər yerləşdirmə vasitələri olan motellərin, pansionatların sayı ölkəmizdə tələbatın həcmindən aşağı səviyyədə qiymətləndirilir. Belə ki, respublikamızın turizm potensialı zəngin olan bir çox rayonları sərhəd zonda yerləşmişdir. Bu rayonlar Balakən, Astara,



Zaqatala, Xaçmaz, Qax və s.-dir. Bu rayonların inzibati mərkəzlərindən vaxtaşırı keçən avtomobillərin yerləşmə müəssisəsinə ehtiyacı olur. Azərbaycanın müalicə ehtiyatları ilə zəngin olan rayonlarında sanatoriya-kurort müəssisələrinin inşasına böyük ehtiyac vardır. Həmçinin, Naftalan rayonunda yerin təkindən çıxarılan müalicəvi neft, Abşeronun palçıq vulkanları, qumlu çimərlikləri, Masallı rayonunun İstisu müalicəvi bulaqları, Kəlbəcərin, Şuşanın mineral suları və digər təbii müalicə ehtiyatları olan məkanlar respublikamızda çoxdur. Xatırladırıq ki, hələ sovet hakimiyyəti illərində Azərbaycan kurort məkanı kimi tanınırdı və ittifaqın müxtəlif yerlərindən, hətta xarici ölkələrdən rekreasiya məqsədilə respublikamıza gəlirdilər. Bu böyük tələbatı qarşılamaq üçün respublikamızın təbii müalicə ehtiyatı ilə zəngin olan ərazilərində beynəlxalq səviyyəli yerləşdirmə obyektlərinə ehtiyac artırdı.

Turizmin maddi-texniki bazasında turistlərə nəqliyyat xidməti mühüm yer tutur. Turistlər üçün nəqliyyat xidməti infrastrukturunun yaradılması hər bir ölkənin turizm sənayesi üçün vacib hesab olunur. Çünki, hər hansı bir ölkənin regionlarında yaradılmış turizm mərkəzlərinə turpaketi əldə etmək, hələ o istirahəti hiss etmək hesab olunmur. Bu, yalnız həmin istirahət mərkəzində turpaketə daxil olan xidmətlərin qarşılığını aldıqdan sonra baş verir. Bunun üçün də turpaket istehsal edən sahibkarlar özlərinə məxsus turizm şirkətlərini daha çox turpaketin istehlak olunacağı mərkəzə yaxın ərazilərdə yerləşdirməyi vacib hesab edirlər. Həmçinin, turpaketə daxil olan xidmətlərin göstəriləcəyi istirahət mərkəzinə gedən yolun infrastrukturunun yaxşı səviyyədə olması turizm fəaliyyəti üçün iqtisadi amil rolunu oynayır. Nəqliyyat infrastrukturu komfortlu olarsa, məsafədən asılı olmayaraq təşkil olunmuş səyahət daha yadda qalan və təəssüratlı olacaqdır. Bu maneələrin aradan qaldırılması məqsədilə 2009-2013-cü illərdə "Regionaların sosial-

iqtisadi inkişafı haqqında Dövlət Proqramı"na daxil olan sosial yönümlü layihələrin həyata keçirilməsinə dövlət hakimiyyət orqanları tərəfindən ciddi səy göstərilmişdir.

Uzaq regionlarda yerləşən iri şəhərlərdə beynəlxalq hava limanlarının inşası turizmin inkişafını sürətləndirməyə imkan yaradır. Bu isə, hər bir ölkədə turizmin inkişafına təsir göstərə biləcək mühüm iqtisadi amillərdən biri hesab olunur. Respublikamızda bununla bağlı mühüm işlər görülmüşdür. Məsələn, 2004-cü ildə Naxçıvan şəhərində, 2006-cı ildə Gəncə şəhərində, 2008-ci ildə Lənkəran və Zaqatala şəhərlərində istifadəyə verilən beynəlxalq hava limanları ölkədə daxili və gəlmə turizmin inkişafına geniş imkanlar açmışdır. Azərbaycanın turizm potensialı zəngin olan, həmçinin beynəlxalq festivalların keçirildiyi Qəbələ şəhərində də beynəlxalq hava limanı tikilmişdir.

Turizm çoxsahəli fəaliyyət sahəsi olduğundan onun fəal iştirakçıları səyahətlərini daha əyləncəli etmək üçün müxtəlif vasitələrdən istifadə edirlər. Bu vasitələrdən biri də dəmir yolu və su nəqliyyatı ilə olan səyahətlərdir. Turistlərin bu istəklərini qarşılamaq üçün turizm sənayesinin kompleks qurulması vacibdir. Bu iqtisadi amillər turizm fəaliyyətinin inkişafında və ölkədə gəlmə turizmin miqyasının artmasında mühüm rol oynayır.

Hər bir insanın gündəlik zəruri tələbatlarından biri də onun qidalanmasıdır. Buna görə də turizm sənayesinin maddi-texniki bazasının əsasını təşkil edən tərkib hissələrdən biri də ictimai-iaşə müəssisələrinin inşası və orada yüksək səviyyəli xidmətin təşkilidir. Bu amil turizm fəaliyyətinin bir növü olub, onun inkişafında mühüm rol oynayır. İctimai iaşə müəssisələrinə restoran, kafe, mehmanxanaların tərkibində fəaliyyət göstərən bar xidməti, gecə klubları və digər qidalanma və əyləncə xüsusiyyəti daşıyan müəssisələr turistlərin böyük ehtiyac duyduğu xidmət müəssisələridir. Bu



müəsisələrdə beynəlxalq səviyyəli xidmətin təşkili və məhsulların yüksək keyfiyyət standartına malik olması əsas şərtdir.

Müxtəlif turizm destinasiyalarına səyahət edən turistlərin məqsədindən asılı olaraq onların mənəvi tələbatını ödəmək məqsədilə ekskursiyaların təşkili mühüm əhəmiyyət kəsb edir. Bu ekskursiyaların hazırlanması üçün ilk növbədə turizm obyektlərinin olması vacibdir. Hər bir ölkə öz tarixi və mədəni dəyərləri, nadir təbii və antropogen ehtiyatları ilə tanınan bir turizm destinasiyası rolunu oynayır. Bu turizm potensialını aktiv turizm obyektlərinə çevirmək hər bir ölkədə dövlətin turizm siyasətinin əsasını təşkil edir.

Makroiqtisadi amil olan inflyasiya problemi iqtisadiyyatın bütün sahələrinə öz təsirini göstərir. Turizm fəaliyyətində inflyasiya problemi mal və xidmətlərin qiymətinin birdən-birə qalxması, səyahət xərclərinin əvvəlkinə nisbətən çoxalması, xidmətlərin alıcılıq qabiliyyətini itirməsinə səbəb olur. Digər tərəfdən, inflyasiyanın artması ilə mal və xidmətlərin dəyərinin qalxması ölkədə getmə turizminin miqyasının çoxalmasına səbəb olur. Azərbaycanda 1991-1995-ci illər hərbi və iqtisadi xaos dövrü kimi xarakterizə olunur. Bunun əsas səbəbləri Ermənistandan və Azərbaycanın işğal olunmuş ərazilərindən bir milyondan çox azərbaycanlıların qaçqın və məcburi köçkün olaraq qovulması, SSRİ-nin tərkibində olan respublikalar arasında bağlanmış onillik iqtisadi müqavilələrin pozulması və istehsalın kəskin azalması, müəssisələrin fəaliyyətinin məhdudlaşdırılması və tamamilə dayandırılması, işsizliyin çoxalması, insanlara işsizlik səbəbindən verilən sosial müavinətlərin artması və s.-dir. Azərbaycanda bu məlum səbəblər ucbatından baş verən iqtisadi tənəzzül nəticədə ölkədə inflyasiyanın səviyyəsinin daha çox sürətlənməsinə və hiperinflyasiyaya çevrilməsinə səbəb olmuşdu. 1995-ci ildən bu günə qədər ölkədə aparılan iqtisadi islahatlar, iqtisadiyyatın müxtəlif sahələrinin, o cümlədən turizm sənayesinin qurulması və inkişafı bütün iqtisadi

inflyasiyanın qarşısını alan bir vasitə oldu. Qərb mütəxəssislərinin hesablamalarına əsasən ölkədə inflyasiyanın səviyyəsi birrəqəmli ədədlə ifadə olunarsa, bu iqtisadi inkişaf üçün normal element hesab olunur. İnflyasiyanın bu norması turizm sənayesində müəssisələrinin sayının çoxalması, bununla məşğulluğun təmin olunması, turizm bazarında azad sahibkarlığın yaranması ölkədə daxili və beynəlxalq turizm fəaliyyətinin sürətlənməsinə imkan yaratmışdır.

## 4.2.Turizmin inkişafına təsir edən mikroiqtisadi amillər

Mikroiqtisadi səviyyədə turizmin planlaşdırılması zamanı aşağıdakı iqtisadi amillər təhlil olunur:

1.Turizm bazarı və tələb, təklif amilləri;
2.Turizm məhsulları və xidmətlərin dəyəri;
3.Turizm təsərrüfatında vergi göstəriciləri;
4.Turizmin marketinq strategiyası;
5.Turizm sahibkarlığının inkişafı.

*Turizm bazarı və tələb, təklif amilləri.* Bazar - tələb və təklifin görüşdüyü məkandır. Turizm bazarı turizm məhsulunu almaq üçün potensial alıcılıq qabiliyyəti olan istehlakçılar toplumudur. Turizm bazarının formalaşmasında 4 əsas element - turist tələbi, turizm məhsulunun təklifi, qiymətlər və rəqabət mühüm rol oynayır.

Turizm bazarı ölkədə turizmin inkişafını əks etdirən əsas göstərici hesab olunur. Azərbaycanda turizm bazarının müasir durumu onun təşkilati strukturunda (xüsusilə turizm biznesinin yaradılmasında), inkişafının istiqamətləndirilməsində, keyfiyyət və kəmiyyətcə səciyyəsində təzadlarla xarakterizə olunur. Respublikada zəngin təbii ehtiyat imkanlarından turizm məqsədilə istifadə olunmasında əngəlliklərin mövcudluğu, təbii ehtiyat potensialından lazımi



səviyyədə istifadə olunmaması, turizm sənayesi və qonaqpərvərliyin inkişafına təsir edən infrastrukturun hələ yaradılmaqda olması, istirahətin qısamüddətli təşkili, turizm sektoruna yatırım qoymaq istəyən yerli sahibkarların inamsızlığı və digər səbəblər ucbatından turizm bazarının formalaşması ilkin mərhələdədir və bu bazar inkişaf etməkdə olan zəif bazar kimi qiymətləndirilə bilər.

Turizm bazarının digər bazarlarla müqayisədə çox mürəkkəb olması məlumdur, çünki, bu bazarın məhsulu birbaşa satılmır. Turizm bazarının məhsulunun satılmasında vasitəçilər (mehmanxana, turoperator, turagent və b.) mühüm rol oynayır. Turizm bazarının səmərəli təşkili bu vasitəçilərin (xüsusilə turoperator və turagentliklərin) işindən çox asılıdır. Lakin bu sahədə də hələ boşluqlar mövcuddur. Bu vəziyyət turizm bazarında getmə və gəlmə turizminin nisbətində özünü qabarıq göstərir. Belə ki, turizm fəaliyyətilə məşğul olan müəssisələrin xəttilə Azərbaycana gələn turistlərin sayı artaraq 681 nəfərdən (2000-ci il) 23440 nəfərədək (2012-ci il) yüksəlsə də, 2014-cü ildə azalma müşahidə edilmişdir (10657 nəfər). Respublikadan xarici ölkələrə göndərilən turistlərin sayı hələ də yüksək olaraq qalır. Bu göstərici 2000-ci ildə 6861 nəfər olduğu halda, 2014-cü ildə 81648 nəfər təşkil etmişdir.

Azərbaycandan gedən turistlərin gələnlərdən çox olması bir tərəfdən əhalinin sosial həyat səviyyəsinin yaxşılaşmasını göstərirsə, digər tərəfdən respublikadan kapital axınına da səbəb olur.

Azərbaycanda turizm bazarının inkişaf etdirilməsi üçün imkanlar genişdir. Çünki, respublikamızda maddi istehsalla xidmət sahəsini əlaqələndirən "sistem" qurulmuşdur. Lakin turizm bazarının təşkilatçıları olan yerli şirkətlərin maraqları bəzən respublikamızda fəaliyyət göstərən xarici şirkətlərin maraqları ilə toqquşur. Xarici şirkətlərin məhsulları keyfiyyətli, zəngin maliyyə imkanları və qüvvətli infrastruktur ilə fərqləndiyindən güclü rəqabət siyasəti aparırlar. Bu təbii haldır,

çünki, iqtisadiyyatın bütün sahələrində, o cümlədən turizm sektorunda rəqabətsiz inkişaf tempinə nail olmaq qeyri-mümkündür. Ona görə də xarici şirkətlərin bu siyasəti ölkədə turizm bazarının əsasını qoymuş Azərbaycanın turizm şirkətlərinin fəaliyyətini tam məhdudlaşdıra bilməz.

Turizm şirkətlərinin fəaliyyətinə bir çox amillər təsir göstərir. Bu amillər sırasına turizm bazarında yüksək rəqabətin olmaması, zəruri pul vəsaitinin çatışmazlığı, əhalinin alıcılıq qabiliyyətinin aşağı olması və s. daxildir. Aparılan sorğuya əsasən, bu problemlərin meydana gəlməsinin başlıca səbəbi rəqabət zamanı turizm müəssisələrinin menecerləri tərəfindən ədalətsiz və qeyri-qanuni üsullardan istifadə olunması və turizm şirkətləri arasındakı işgüzar münasibətlərdə bazar mədəniyyətinin olmaması faktlarının aşkar olunmasıdır.

Azərbaycanda turizm bazarının inkişafı məqsədilə aşağıda göstərilənlərin həyata keçirilməsi mühüm şərtlərdir:

- Turizm bazarını formalaşdıran amillərin qiymətləndirilməsi və bu amillərdən səmərəli istifadə olunması;
- Turizm sektoruna yatırım qoyulmasında müxtəlif istiqamətlərin seçilməsi;
- Turizm bazarında mühüm obyekt olan turməhsulun keyfiyyətinin yüksəldilməsi;
- Turizm bazarında xidmətin səviyyəsinin yüksəldilməsi;
- Turizm bazarının təşkilatçılarının fəaliyyətinin səmərəli təşkili və s.

Göstərilənlərin reallaşdırılması Azərbaycan Respublikasında turizm bazarının inkişafına imkan yarada bilər.

*Turizm məhsulları və xidmətlərin dəyəri.* Turizm və sosial - mədəni servis müəssisələri qarşısında duran əsas vəzifə məhsulun qiymətinin düzgün müəyyən edilməsidir. Qiymətin düzgün müəyyən edilməsi müəssisənin maliyyə



nəticələrinin yüksəlməsinə və kütləvi turizmin inkişafına əlverişli şərait yaradır. Kütləvi turizm inkişaf etdikcə, yəni ölkə əhalisi turizmə daha çox cəlb olunduqca ölkədə daxili turizmin inkişafı genişlənir, dövriyyədə olan vəsaitin həcmi artır, həmçinin, insanların dünyagörüşü, mədəni səviyyəsi yüksəlir.

Turizm fəaliyyətilə məşğul olan turizm şirkətləri istehsal etdiyi məhsul və xidmətlərin qısa vaxt ərzində satış və istehlakını reallaşdırmağı düşünür. Bunun üçün şirkət əsas marketinq üsulu olan qiymətqoyma strategiyasından yararlanaraq seçdiyi bazarda qarşısına qoyduğu məqsədlərə nail olmağa çalışır.

Qiymətqoyma amilinin turizm fəaliyyəti üçün əhəmiyyəti aşağıdakılardır:

1. Daxili turizm bazarında dinamik inkişafı təmin etmək. Belə ki, hər bir turizm şirkəti istehsal etdiyi məhsullarla daxili bazarda öz payını qorumağa və artırmağa çalışır.

2. Rəqabətə davamlı milli turizm məhsullarına malik olmaq. Bazar mühitində məhsul və xidmətlərin satışına rəqabət böyük təsir göstərir. Bu səbəbdən də, hər bir turizm şirkəti geniş rəqabət mühiti olan bazarda daha çox mənfəət əldə etmək üçün istehsal etdiyi məhsulu yüksək keyfiyyətlə hazırlayır.

3. Turizm ehtiyatlarından səmərəli istifadəni təmin etmək. Hər bir turizm şirkətinin istehsal etdiyi turizm məhsul və xidmətləri müvafiq turizm ehtiyatlarının istifadəsinə əsaslanır. Ehtiyatların istifadəsi isə həm də, onların mühafizəsinə səbəb olur.

4. Ölkənin iqtisadi, mədəni, siyasi imicini dünya miqyasında yüksəltmək. Turizm məhsulunun qiymətləndirilməsində müxtəlif turist qruplarına uyğun güzəştlərin tətbiq edilməsi nəinki yerli, həmçinin xarici turistlərdə böyük tələbat yaradır.

Turizm müəssisəsi qiymət siyasətini düzgün müəyyən etmək üçün satış seqmentini düzgün müəyyənləşdirməli və bazarda öz məhsul və xidmətlərinin rəqabətə davamlı olmasına iddialı olmalıdır.

Qiymətin təyin edilməsində 2 üsuldan istifadə olunur: birincisi, xərclər əsasında qiymətqoyma, ikincisi isə bazar və ya marketinq üsuludur.

Xərclər əsasında qiymətqoyma sadə üsuldur və bu zaman məhsulun maya dəyərinin üzərinə nəzərdə tutulmuş mənfəətin qiyməti əlavə olunur. Bu üsulun tətbiqi zamanı istehlakçının məhsula olan münasibəti və bazarda məhsula olan tələbat nəzərə alınmır. Bu isə turizm bazarı üçün mühüm bir amildir. Çünki, turizm müəssisələrinin fəaliyyəti mövsümi xarakter daşıyır.

Xərclər əsasında qiymətqoyma üsulunda hər bir istehsalçı üçün zərərsiz işləmək və əvvəlcədən nəzərdə tutulmuş mənfəəti əldə etmək məqsədi daha çox əhəmiyyətlidir. Bunun üçün də sabit və dəyişkən xərclər təhlil edilir, zərərsiz nəticə üçün müvafiq plan hazırlanır və məhsulların satışının maksimum təşkili üçün üsullar seçilir. Çünki, turizm məhsul və xidmətlərinin digər istehsal mallarından əsas fərqi, məhz bu məhsulların anbarda saxlanıla bilməməsidir. Çox qısa vaxt ərzində, mövcud şəraitə uyğun turpaket hazırlanır, satışı və istehlakı həyata keçirilir.

Bazar və ya marketinq üsulunun tətbiqi daha məqsədəuyğundur. Çünki, bu zaman bazar öyrənilir. Belə ki, məhsul istehlakçıları, rəqib təşkilatlar, tələbatın təhlili aparılır.

Turizm müəssisələri qiymətqoymaya dair bir sıra marketinq biliklərinə yiyələnirlər və həmin bilikləri öz işlərində də tətbiq etməyə çalışırlar. Şübhəsiz ki, müəssisələr əsas qiymətqoyma üsullarından istifadə edirlər və bu zaman qərara alınan qiymət rəqabət qabiliyyəti yaradır. Hər bir istehsalçı müəssisə rəhbəri bir çox amilləri nəzərə alan



qiymətqoyma strukturunu yaradır. Bu qiymətqoyma strukturu iqtisadi dəyişikliklərdən və mövsümdən asılı olaraq dəyişir. Müəssisələr tərəfindən məhsullara qoyulmuş qiymət onların xərclərində və tələbdə baş verən dəyişikliklərdən, həmçinin də alıcı qruplarının müxtəlifliyindən asılıdır.

Danılmaz faktdır ki, Azərbaycanın turizm bazarına təklif olunan turizm məhsullarının qiyməti baha olması ilə səciyyələnir. Bu, həm xarici vətəndaşların ölkəyə gəlməsinə əngəl yaradır, həm də daxili turizm bazarında turizm fəaliyyətinin zəifləməsinə səbəb olur. Çünki, baha qiymətə təklif olunan turizm məhsulları yalnız kiçik alıcı qrupu üçün münasib hesab olunur. Bundan əlavə, turizm məhsullarına qoyulan baha qiymət göstərilən xidmətin səviyyəsi ilə uyğun gəlmir. Xidmətin səviyyəsinin aşağı olması isə peşəkar kadrların və personalın iqtisadi stimulunun az olmasıdır. Bu mənfi hallar ölkədə turistlərin sayının azalması ilə nəticələnir. Azərbaycanda olan turizm xidmətlərinin qiyməti qonşu dövlətlərin turizm bazarı qiymətlərilə müqayisə edildikdə, bunu aydın müşahidə etmək mümkündür. Məsələn, qonşu Türkiyənin Antalya turizm bölgəsində bir həftəlik turpaketin qiyməti 500-550 manata başa gəlirsə, Azərbaycanın Nabran turizm məkanında (Atlant istirahət mərkəzində) 7 günlük istirahətin xərci 1000-1200 manat təşkil edir (2014-cü il). Türkiyədə turizm məhsullarının qiymətinin münasib olması burada turizm mövsümünün uzunmüddətli olmasına da təsir edir. Azərbaycanda turizm mövsümünün 2-3 ay davam etməsi isə yalnız bahalıq ucbatından deyil, həm də infrastukturun zəif olması səbəbindəndir. Azərbaycanda turizm məhsullarının qiymətinin baha olmasının səbəbləri isə bazarda sağlam rəqabətin təmin olunmaması, inhisarçılığın (təkəlçilik) baş verməsi və turizm fəaliyyətilə əlaqədar vergi güzəştlərinin mövcud olmamasıdır.

*Turizm sənayesində vergi göstəriciləri.* Hər bir turizm şirkəti fəaliyyətini əvvəlcədən hazırladığı biznes plan əsasında

qurur. Biznes planı şirkətin fəaliyyət mexanizmidir. Biznes planın tərkibinə şirkətin bazarda rəqabət mövqeyi, satış kanalları ilə razılaşma sənədi, hüquqi təminatı və maliyyə planı daxildir. Maliyyə planında hər bir turizm müəssisəsinin ödəməli olduğu vergi göstəriciləri öz əksini tapır. Bu göstəricilər aşağıdakı kimidir:

- gəlir vergisi - 22,0 %
- əlavə dəyər vergisi ( ƏDV ) - 18,0 %
- əmlak vergisi - 2,0 %
- nəqliyyat vergisi - 7 -10,0%
- sosial sığorta fonduna verilən vergi - 2,3 %

Məcburi vergi ödənişlərinin yüksək olması turizm fəaliyyətinin məhdudlaşmasına səbəb ola bilər. Çünki, sahibkar kapital qoyduğu hər növ turizm müəssisəsində müəyyən vaxt fəaliyyət göstərməlidir ki, ən azı maya dəyəri əldə edə bilsin. Lakin, sahibkarlardan öncədən lisenziya haqqının və yuxarıda sadaladığımız vergi növlərinin tələb olunması insanları turizm fəaliyyəti ilə məşğul olmaqdan çəkindirir. Dünya təcrübəsinə əsaslansaq, Türkiyədə XX əsrin 1970-80-ci illərində turizm sənayesi yaradılarkən sahibkarlar vergidən tamamilə azad olunmuşdular. Dövlət marağında olduğu turizm sənayesini inkişaf etdirmək üçün müxtəlif maddi stimul və güzəştlərlə yerli sahibkarları bu fəaliyyətə cəlb etdi. Lakin, hazırda Türkiyədə turizm fəaliyyəti kompleks inkişaf etdiyindən dövlət güzəştli vergi qaydaları tətbiq edilmişdir. Qonşu Gürcüstanda isə turizm fəaliyyəti ilə məşğul olan şirkətlər 15 il müddətinə ƏDV-dən azad edilmişlər. Bu səpgidə olan güzəştlərin Azərbaycanda tətbiqinin də vaxtı çatmışdır. Respublikamızda vergi qiymətlərinin yüksək olması turizm fəaliyyətinin inkişafı qarşısında manеələrdən biridir. Vergi güzəştlərinin tətbiq olunması ilə turizm şirkətlərinin xərcləri azalır və onların fəaliyyətini stimullaşır.

*Turizmin marketinq strategiyası.* Turizm fəaliyyətinin sonrakı mərhələləri müəyyənləşmiş mexanizm əsasında idarə



olunur. Bu mexanizm olmadıqda turizm fəaliyyəti düzgün istiqamətdə inkişaf edə bilməz və fəaliyyətin nəticəsi səmərəsiz olar. Buna görə də turizmin marketinq siyasətinin hazırlanması turizm fəaliyyətində mühüm amillərdən biri sayılır.

Məlumdur ki, marketinq iqtisadi prosesdir. Marketinqin əsas prinsipi "tələbatı tapmaq və alıcıya lazım olan malları və xidmətləri istehsal etmək, nəticədə tələbatı ödəmək"dən ibarətdir. Digər sözlə, "marketinq" bazarın potensial tərəfləri arasındakı (alıcı və satıcı) münasibətləri mallar və xidmətlər mübadiləsi ilə tənzimləyir. Turizmi marketinqsiz təsəvvür etmək mümkün deyil. Çünki, turizm bazarı rəqabət mühitində formalaşır və inkişaf edir. Bu bazarda tələbatın müəyyən edilməsi vacib şərtdir. Tələbatın dəyişkənliyi isə marketinq mexanizminin hazırlanmasına istiqamət verən əsas amil hesab olunur. Turizmdə marketinq mexanizminin əsas mahiyyəti turizm müəssisələrinin məhsul və xidmətləri öz imkan və istəklərinə uyğun yox, yalnız alıcının tələbatına uyğun istehsal etməli və bu məhsulu hamıya yox, ancaq ayrı-ayrı turist seqmentinə istiqamətləndirməlidir.

Ölkənin beynəlxalq aləmdə imici müxtəlif səviyyələrdə müəyyən olunur. Bunlar, əhalinin rifah səviyyəsi, sosial-iqtisadi inkişafı və işgüzar səviyyəsidir. Buradan aydın olduğu kimi turizm nəinki iqtisadi, həmçinin sosial, mədəni və siyasi xarakter daşıyır. Bu amillərin ölkədə yüksək səviyyədə inkişafına nail olmaq üçün dünya turizm bazarında milli turizm məhsullarının hərəkətliliyini təmin etmək və əhəmiyyətli marketinq tədbirləri görmək vacibdir. Bu tədbirlər sırasına aşağıdakıları aid etmək olar:

- ölkənin turizm xidmətləri haqqında reklam-məlumat bukletlərinin nəşr edilməsi və turizmlə bağlı əlamətdar günlərin təqviminin hazırlanması;

- milli turizm informasiya mərkəzlərinin, reklam-informasiya şəbəkələrinin formalaşdırılması və maraqı olduğu ölkələrdə xüsusi nümayəndəliklərin yaradılması;
- ölkənin ictimai-siyasi həyatı, tarixi-mədəni irsi, həmçinin elm və mədəniyyət sahəsində əldə edilmiş nailiyyətləri barədə bələdçilər üçün informasiya-metodiki məlumat kitabçasının hazırlanması;
- milli turizm məhsulunun beynəlxalq sərgilərdə nümayiş olunması;
- xarici və daxili kütləvi informasiya vasitələrində ölkənin turizm üçün əlverişli məkan olması barədə reklam-təbliğat kompaniyalarının və turizmlə bağlı müsabiqələrin keçirilməsi;
- turizm şirkətlərinin marşrutları haqqında kataloq və bülletenlərin, mehmanxana təsərrüfatı obyektlərinin, xidmət müəssisələrinin xüsusiləşdirilmiş atlasının hazırlanması.

Bu amillər turizmin inkişafında mühüm rol oynayan iqtisadi amillərdir. Respublikamızda da bu istiqamətdə işlər görülmüş və yeni turizm informasiya mərkəzləri yaradılmış, turizm marşurutlarının siyahısı və xəritəsi tərtib edilmiş, məşhur xarici televiziya kanallarında "National Geographic", "CNN", "Euronews" və s. respublikamızın turizm potensialını əks etdirən reklam çarxları yayımlanmışdır.

*Turizm sahibkarlığının inkişafı.* Sahibkarlıq fəaliyyəti iqtisadiyyatın bütün sahələrində, o cümlədən turizm sektorunda genişləndirilir. Respublikamızda turizm qeyri-neft sektorunda prioritet sahə hesab olunur. Məlumdur ki, prioritetliyin zəruriliyi müxtəlif mövqelərdən qiymətləndirilir:

1.İqtisadi artımı təmin etmək baxımından potensial resurslar kimi formalaşdırılır;

2.Mövcud iqtisadi şəraitdə ən səmərəli investisiya qoyuluşları, onların istifadəsinin əsas istiqamətləri kimi qəbul olunur, layihələşdirilir;



3.Regionların sosial-iqtisadi inkişafını təmin etmək üçün bazarın doldurulması və məşqulluğun təmin olunması təminatı kimi istifadə olunur.

Bu baxımdan turizm sektoru sahibkarlıq fəaliyyəti üçün əlverişli sahədir. Turizm fəaliyyəti özü sahibkarlığın bir növüdür.

Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra, 1990-cı illərdən başlayaraq ölkədə iqtisadiyyatın mühüm sahələrinə, o cümlədən turizm sektoruna xüsusi qayğı və diqqətlə yanaşılır. 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq olundu və turizmin təşkilati idarəetmə strukturunda dəyişiklik edildı. Turizm sektoruna dövlətin qayğısı bu sahədə biznes fəaliyyətinə marağı artmışdır. Hazırda respublikamızda sahibkarlıq fəaliyyəti ilə məşğul olan turizm şirkətlərinin sayı 285-ə çatmışdır (2015-ci il).

Məlumdur ki, turizm şirkətinin fəaliyyətinin əsas məqsədi turizm xidmətləri göstərmək olan, digər fəaliyyət növləri isə köməkçi xarakter daşıyan təşkilatdır. Şirkətin sahibkarlıq fəaliyyətində bir neçə mərhələ fərqlənir:

- ilk növbədə öz imkanlarını bazarın tələbatına uyğunlaşdıra bilmək üçün ideyanın seçilməsi;
- turizm xidmətləri istehsalı və planlaşdırma;
- layihənin icrası, planlaşdırılmış fəaliyyətin həyata keçirilməsi;
- şirkətin idarə edilməsi.

Öz fəaliyyətini bu mərhələlər üzrə quran turizm şirkətinin müvəffəqiyyəti sahibkarlıq mühitindən asılıdır. Sahibkarlıq mühitini iqtisadi, sosial, hüquqi şərtlər formalaşdırır. Respublikamızda sahibkarlıq mühitinin iqtisadi şərtlərinə aid olanlar turizm bazarının və infrastrukturun inkişaf etdirilməsi, turizm xidmətlərinin təklifi və ona olan tələbdir.

Ümumiyyətlə, sahibkarlıq fəaliyyəti dövlət tərəfindən tənzimlənir. Marketoloq F.Kotler qeyd edir ki, sahibkarlıq

fəaliyyətinin tənzimlənməsi bir neçə səbəbdən irəli gəlir. Bunlar aşağıdakılardır:

• şirkətləri bir-birindən müdafiə etmək zərurəti, çünki, rəqabət sahibkarların mənafeyinə toxunduqda onları neytrallaşdırmağa çalışırlar. Yəni, şirkətlər arasında sağlam rəqabət olmalıdır;

• istehlakçının mənafeyini mənasız və əsassız işgüzar təcrübədən müdafiə etmək zərurəti;

•sahibkarların gözlənilməz hərəkətlərindən cəmiyyətin ali məqsədlərini müdafiə etmək zərurəti.

Respublikamızda "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu getdikcə daha da təkmilləşdirilir. Turizm haqqında Qanundakı boşluqlar yenidən işlənilmiş və təsdiq üçün müvafiq quruma təqdim edilmişdir. Bu qanunlardakı maddələr təkcə turizm təşkilatlarının deyil, turizm sektoru və onunla əlaqəli sahələrdə sahibkarların fəaliyyəti üçün hüquqi təminat verir, sağlam rəqabət mühitinin formalaşmasına imkan yaradır.

Ümumiyyətlə, sahibkarlıq fəaliyyətinin 4 növünü fərqləndirirlər: istehsal, kommersiya, maliyyə, məsləhətçi. Turizm xidmətlərinin xüsusiyyətləri ilə əlaqədar turizm təşkilatlarının sahibkarlıq fəaliyyəti şərti olaraq müəyyən bir növə aid edilə bilər. Məsələn, turoperatorun fəaliyyəti əksər hallarda turizm məhsulunun təşkilati hazırlığını, onun qismən istehsalını, turistə (istehlakçıya) doğru irəlilədilməsini və topdansatışını təşkil edir. Ona görə də turoperatorun fəaliyyətini şərti olaraq istehsal sahibkarlığına aid etmək olar.

Turagentlər turların pərakəndə satışını yerinə yetirirlər. Onlar həm də müxtəlif xidmət növlərini (sığorta və s.) icra edirlər. Bu, sahibkarlıq fəaliyyətinin qarışıq növüdür.

Kontragentlər - turizm məhsulu istehlakçılarına xidmətlər göstərən turizm xidmətləri icraçılarıdır (otellər, restoranlar, nəqliyyat vasitələri, ekskursiya büroları və s.).



Onlar xidmətlər istehsalında fəal iştirak edirlər və buna görə də istehsal sahibkarlarına aid edilirlər.

Turizm şirkətləri təşkilati hağırlığı, satışı və xidmətlərin icrasını öz fəaliyyətlərində uzlaşdıra bilərlər. Bu cür hallarda şirkət eyni vaxtda sahibkarlıq fəaliyyətinin bir neçə növünü yerinə yetirir.

Məsləhətçi sahibkarlıqdan turizm sahəsində geniş istifadə olunur. Turizm xidmətlərinin tərkibi nə qədər müxtəlif, keyfiyyətli və yüksəkdirsə, turizm xidmətlərinin yaradılması və reallaşdırılması prosesinə də çox sayda məsləhətçi mütəxəssislər cəlb olunur.

Turizm bazarında rəqabət olduqca yüksəkdir. Şirkətlərin böyük əksəriyyəti alıcılara orta səviyyəli istehlakçıları maraqlandıran standart məhsullar təqdim edirlər. Şirkətin əsas məqsədi sifarişçini razı salmaq və gələcəkdə onun şirkətə yenidən müraciət etməsinə nail olmaqdır. Eyni zamanda alıcının tanış və yaxınlarına həmin turizm şirkətini məsləhət görmək şirkət üçün çox vacibdir. Məhz bu zaman əsas qayda müəyyən olunur: turizmdə əsas kapital yaradan işçilərdir. İşçinin işə olan münasibəti sifarişçinin şirkətə təkrarən müraciət edib-etməməsini müəyyən edir.

Turizm şirkətlərinin fəaliyyətində apardıqları əməliyyata görə müxtəliflik vardır. Bir qayda olaraq, turizm şirkətlərini turoperator (turizm təşkilatçıları) və turizm agentliklərinə (turagent) bölürlər. Turizm sahəsində dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən məlumdur ki, turoperatorlar turizm bazarında turizm məhsulunun (turməhsul) realizə edilməsində çox mühüm rol oynayırlar. Turoperator-turməhsulun topdansatışı ilə məşğul olur, turizm xidmətləri istehsalçıları ilə bu xidmətləri pərakəndə satanlar arasında vasitəçi rolu oynamaqla mühüm funksiya yerinə yetirir. Kütləvi turizm məhsulu (inklüziv turlar) yaratmaq məqsədilə onlar mehmanxana, restoran, nəqliyyat müəssisələrindən iri həcmdə xidmətlər alır,

bu xidmətlərdən müəyyən edilmiş marşrutlar üzrə qrup halda və fərdi səyahətlər üçün turpaketi formalaşdırır.

Turoperatorların əsas vəzifəsi bazarın tələblərini öyrənmək və bu tələbləri təmin etməkdir. Topdansatan turizm şirkətləri öz bizneslərini inkişaf etdirmək üçün xeyli miqdar maliyyə vəsaiti sərf etməlidirlər, şirkətin məhsulunun realizə edilməsi üçün səmərəli və sərfəli istehlak şəbəkəsi yaradılmalıdır.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində lisenziya almış turizm şirkətlərinin çoxu qənaətbəxş səviyyədə fəaliyyət göstərmir. Bu şirkətlər respublikaya turist cəlb etməkdə işlərin ləng getməsini turizm infrastrukturunun müasir vəziyyətində, qiymət və reklam siyasətində, formalaşmaqda olan turizm bazarında və s. görürlər.

Turist tələbatının müasir inkişafı və çox saylı turistlərin istəyini ən iri turizm şirkəti belə öz fəaliyyətində əhatə edə bilməz. Təcrübədə hər bir turizm şirkəti özünə bir və ya bir neçə daha əlverişli, sərfəli tələbat bazarı tapır, bu bazara uyğun turizm məhsulunu formalaşdırır, qiymətlər təyin edir, turməhsulu irəlilətmək və satmaq üçün müvafiq kanallardan istifadə edir. Lakin sahibkar - turizm şirkəti öz fəaliyyətini kortəbii qurursa, uğursuzluqla rastlaşır.

Turizm sənayesində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər bir fiziki və hüquqi şəxs "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununu bilməli və ona əməl etməlididr. Bu Qanun Azərbaycan Respublikasında sahibkarlığın prinsipləri, sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquq və vəzifələrini, onun dövlət tərəfindən müdafiə və təqdir olunmasının forma və üsullarını, sahibkarların dövlət orqanları ilə qarşılıqlı münasibətlərini müəyyənləşdirir. Qanun 15 dekabr 1992-ci ildə qəbul olunmuşdur.



Azərbaycanın turizm bazarında sahibkarlıq inkişaf etdirilir. Lakin bu proses hələ zəif tempi ilə səciyyələnir. Çünki, Azərbaycanda yerli sahibkarlar turizm sektoruna investisiya qoymaqda çox da maraqlı deyil. Səbəbi odur ki, sahibkar bu sahədə qoyduğu vəsaiti qısa müddət ərzində əldə edə bilmir. Ona görə də Azərbaycanda beynəlxalq şəbəkələrə aid otellər, turizm kompleksləri əsasən xarici investorlar tərəfindən inşa edilir. Lakin Azərbaycanda turizm fəaliyyətinin müxtəlif növlərinin (rekreasiya və istirahət, dərketmə, macəra, ekoloji və s.) inkişafı üçün potensial ehtiyatlar zəngindir. Bunların hər birinin əsasında sahibkarlığı inkişaf etdirməklə gəlir gətirən sahələrin yaradılmasına, həm də ehtiyatların mühafizəsinə nail olmaq mümkündür.

Respublikamızda yaranan və fəaliyyətində perspektivlər müşahidə olunan hər bir sektorun dövlət tərəfindən tənzimlənməsi mühüm şərtdir. Bu tənzimlənmə yeni yaranan sektorun inkişafına təkan verir, bu sahədə gəlirləri formalaşdırır, müəssisələrin davamlı inkişafını təmin edir, regionlarda sosial-iqtisadi vəziyyətin yaxşılaşmasına təsir edir. Turizmin idarə sistemi dövlət və özəl olmaqla iki yerə bölünür. Deməli, turizm sahəsində dövlət idarə sistemi turizmin tənzimlənməsinin bir istiqamətidir.

Turizm fəaliyyəti dövlət tərəfində lazımınca qiymətləndirilir və onun inkişafı stimullaşdırılır. Dövlət turizm sahəsində hüquqi bazanın yaradılması, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi, güzəştli vergi şərtlərinin tətbiqinə, turizm infrastrukturunun inkişafına yardım etmək, bu sahəyə yerli və xarici sərmayələr cəlb etməkdə maraqlıdır. Ona görə də turizm şirkətlərinin sahibkarlıq fəaliyyətinin inkişafı perspektiv cəhətdən təhlil edilərkən ilk növbədə bu fəaliyyətin güclü və zəif tərəfləri müəyyən edilməlidir. Araşdırmalardan aydın olur ki, Azərbaycanda turizm şirkətlərində sahibkarlıq fəaliyyətinin inkişafının güclü tərəflərinə ümumi halda aşağıda göstərilənləri aid etmək olar:

• geniş turizm bazarının olması;
• ölkənin son illər formalaşan müsbət imici;
• müştəri seqmentlərinin çoxluğu;
• ölkədə beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı olaraq gələn turistlərin sayının artması;
• daxili turizm tələbatının artmasının regional inkişafa müsbət təsiri;
• getmə turizmində məqsədlərin müxtəlif olması;
• inkaminq turlarda elektron viza sisteminin tətbiqi;
• turizm şirkətlərinə dövlət tərəfindən vergi güzəştləri tətbiq edilməsi və s.

Azərbaycanda turizm şirkətlərində sahibkarlıq fəaliyyətinin inkişafının zəif tərəflərinə aid edilir:
• inkaminq turların təşkili üçün marketinq fəaliyyətinin zəif olması;
• göstərilən xidmətlərlə qiymətlərin uyğun olmaması;
• Bakı şəhəri istisna olmaqla, regionlarda turizm infrastrukturunun zəif olmasının daha çox turist cəlb etməyə imkan verməməsi;
• mövcud olan əsas və əlavə turist marşrutları fəaliyyət göstərmədiyinə görə regionlarda inkaminq turlarının təşkilinin faktiki mümkün olmaması;
• ölkənin turizm potensialının qeydiyyata alınmamasının gəlmə turizmin təşkilinə mənfi təsir etməsi;
• gəlmə turizmində sərhəd-keçid və gömrük nəzarətində mövcud olan bürokratik maneələr;
• turizm şirkətlərinin əsasən bir istiqamət üzrə ixtisaslaşması;
• ölkənin turizm istiqamətləri üzrə reklamının zəif olması;
• xarici ölkə turoperatorlarının Azərbaycana turist göndərməkdə fəal olmaması;
• Azərbaycan üçün münasib turizm bazarı olan ölkələrlə bu sahədə əlaqələrin zəif təşkili;



• regionlardakı yerləşdirmə müəssisələrinin və istirahət mərkəzlərinin yerli şirkətlərlə əməkdaşlığa maraq göstərməməsi;
• regionlarda turizm şirkətlərinin az olması və zəif fəaliyyət göstərmələri və s.

Azərbaycanda turizm şirkətlərinin sahibkarlıq fəaliyyətinin inkişafı perspektiv cəhətdən təhlil edilərkən imkanlar və təhlükələr də müəyyən edilməlidir. Azərbaycanda turizm şirkətlərinin sahibkarlıq fəaliyyətinin inkişafı üçün imkanlara ümumi halda aşağıda göstərilənləri aid etmək olar:
• Azərbaycanın regionda və beynəlxalq aləmdə nüfuzunun artması və 34 ölkə ilə turizm sahəsində müqavilələrin olması;
• Azərbaycanla Avropa Birliyi ölkələri arasında sadələşdirilmiş viza rejiminin tətbiqi imkanları;
• ölkədə əhalinin sosial və iqtisadi vəziyyətinin yaxşılaşması ilə bağlı getmə və daxili turlara maraqlarının artması;
• ali və peşə təhsili müəssisələrində turizm sahəsində ixtisaslı kadrların hazırlanması;
• beynəlxalq turizm marşrutlarının dövlət tərəfindən və yerli orqanlar səviyyəsində dəstəklənməsi;
• ölkədə beynəlxalq və regional əhəmiyyətli turizm marşrutlarının bərpası imkanlarının olması;
• turizm xidməti istiqamətində yeni üsul və standartların hazırlanması və tətbiqi.

Azərbaycanda turizm şirkətlərinin sahibkarlıq fəaliyyətinin inkişafı üçün təhlükələrə aid edilir:
• ölkənin imicini daim aşağı salmaq istəyən bəzi xarici ölkələrin təbliğatı;
• Ermənistanla müharibə şəraitində olması;
• dövlət orqanları arasında lazımi koordinasiyanın olmaması ucbatından gələn turistlərə münasibətlərdə bürokratik

əngəllərin yaradılması hesabına ölkə haqqında mənfi imicin formalaşması;

• gəlmə turizm bazarında beynəlxalq səviyyədə güclü rəqabətin olması;

• qonşu ölkələrin daha ucuz qiymətə turlar təklif etməsi;

•Azərbaycan hava yolları məkanında rəqabətin demək olar ki, olmaması və ekonom avia xidmətlərin göstərilməməsi və s.

Aparılan təhlil əsasında respublikamızda turizm şirkətlərinin sahibkarlıq fəaliyyətinin güclü və zəif tərəfləri, onların fəaliyyətinə təsir edəcək imkanlar və təhlükələr göstərildi. Turizm sahəsində sahibkarlığın inkişafına nail olmaq üçün zəif tərəflər aradan qaldırılmalı, imkanlardan isə daha yaxşı yararlanmaq lazımdır.

### 4.3. Sosial vəziyyət və bunun turizmlə əlaqəsi

Turizmin inkişafında sosial amillərin rolu digər amillər kimi çox əhəmiyyətlidir. Çünki, insanın sosial durumundan onun istirahətinin səmərəli təşkili də asılıdır.

Ümumiyyətlə, sosial vəziyyət dedikdə, əhalinin ümumi və ayrı-ayrı təbəqələrinin həyat fəaliyyətinin kompleks səciyyəsi nəzərdə tutulur. Sosial vəziyyətin yaranmasını şərtləndirən amillər cəmiyyətin struktur hissələrinin inkişafına təsir edən ictimai şəraitdə meydana gələn amillərdir. Əhalinin sosial vəziyyət göstəriciləri məhz bu amillərə, yəni ölkədə baş verən iqtisadi, siyasi, demoqrafik və ekoloji dəyişikliklərə mütənasib olaraq dəyişir. Sosial vəziyyətin təhlilindən əldə edilən nəticələr ölkənin idarəedilməsində, iqtisadi siyasətin formalaşmasında dəyərli elementlər hesab olunur. Bu nəticələri əldə etmək üçün sosial vəziyyət göstəricilərini şərtləndirən əsas amillər təhlil olunur. Bu amillər aşağıdakılardır:

• iqtisadi fəal əhali (işçi qüvvəsi);

• əhalinin yaşayış səviyyəsi;



• sosial müdafiə və sosial təminat;

• əhalinin miqrasiyası;

•təhsil göstəriciləri (əhalinin savadlılıq səviyyəsi, təhsil alanların sayı və s.).

İqtisadi fəal əhalinin sayı əmək qabiliyyətli məşğul olan və işsizlərin cəmindən ibarətdir. Azərbaycan Respublikası üzrə iqtisadi fəal əhalinin sayı bölgələrdən asılı olaraq fərqlənir. 2013-cü ilin statistik məlumatlarına əsasən, bu 4,7 mln. nəfər təşkil edir. Bunlardan 236,6 min nəfəri rəsmi işsiz statusu almışdır. Göstərilənə istinadən qeyd etmək olar ki, Azərbaycanda işsizlik problemi kifayət qədər geniş miqyas almışdır. Bunun aradan qaldırılmasının ən səmərəli yolu yeni istehsal və xidmət müəssisələrinin inkişafını təmin etməkdir.

Əhalinin yaşayış səviyyəsi dedikdə, əhalinin aylıq əmək haqqı ilə onların maddi nemətlərə və xidmətlərə faktiki tələbatının ödənilməsi və mənəvi ehtiyaclarının təmin olunması başa düşülür. Azərbaycanda yaşayış səviyyəsi göstəriciləri əhalinin bütün təbəqədən olanları üçün turizm fəaliyyətinə cəlb olunmasında yetərli deyildir. Müqayisə üçün qeyd edək ki, rəsmi statistikaya görə Azərbaycanda 2014-cü ildə əhalinin gəlirləri 42,3 mlrd. AZN (hər bir nəfərə düşən gəlir 4521 AZN) təşkil etmişdir. Azərbaycanda orta aylıq əmək haqqı 426,4 AZN olduğu halda, adambaşına minimum aylıq istehlak səbəti 116 AZN-dir (əmək qabiliyyətli əhali üçün yaşayış minimumu 125 AZN - 2014-cü il). Deməli, dörd nəfərdən ibarət ailənin aylıq minimum istehlak səbəti 464 AZN təşkil edəcəkdir ki, bu da ailə başçısının aylıq əmək haqqının istehlak səbətini ödəməyə yetərli olmadığını sübut edir. Buradan aydın olur ki, Azərbaycanda yaşayan əhalinin əksər hissəsinin mənəvi ehtiyacları təmin olunmur. Lakin buna baxmayaraq, əhalinin gəlirlərinin ildən-ilə artması ilk növbədə daxili turizmin inkişafına təsir edir.

Qeyd edək ki, Azərbaycan turizminə təsir edən sosial amillər sırasında əhalinin yaşayış səviyyəsinin payı sosial

infrastrukturun təminat səviyyəsindən (28%) sonra ikinci yerdədir və 25% təşkil edir. İşsizliklə əlaqədar əhalinin kütləvi miqrasiyası 21%, qalan hissə isə ekoloji və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə aid edilir.

Əhalinin sosial müdafiəsi bütün dövrlərdə mühüm əhəmiyyət kəsb edən məsələ olmuşdur. Dövlətin formalaşmasında müstəsna rol oynayan əhali kütləsi müəyyən məsələlərlə bağlı olaraq sosial təminat hüququndan istifadə edə bilər.

Azərbaycanda əhalinin sosial təminatını zəruri edən məsələlər müxtəlifdir. Bunlara, müharibə nəticəsində doğma yurdlarından deportasiya olunmuş məcburi köçkünlərin maddi və mənəvi ehtiyaclarının təmin olunması, iş qabiliyyətini itirmiş və təqaüd yaşına çatmış əhalinin yaşayış minimumunun təmin olunması və s. aiddir. Bu sahədə ölkədə sosial siyasət tədbirləri həyata keçirirlir. Bu tədbirlər əhalinin sosial təminatının yaxşılaşmasına istiqamətləndirilib. Sosial təminat siyasəti ünvanlılığın təmin olunmasından, əlillərə, müharibə veteranlarına, əhalinin az təminatlı hissəsinə xüsusi diqqət yetirilməsindən, onların sosial, mənəvi və fiziki tələbatlarının təmin olunmasından ibarətdir. Azərbaycanda bunlarla yanaşı insanların istirahət hüquqlarının təmin olunması məqsədilə onların geniş miqyasda turizm fəaliyyətinə cəlb olunması üçün müəyyən güzəştlər tətbiq olunur ki, bu cür güzəştli turizm fəaliyyəti sosial turizm adlanır. İxtisasa aid mənbələrdə göstərilir ki, sosial turizm sosial tələbatlar fondundan turizm üçün ayrılan vəsait hesabına yaradılan turizm sahəsidir. Buna bəzən imkansızların turizmi də deyilir. Sosial turizm ilk növbədə fiziki cəhətdən qüsurlu olanlar (əlillər) və tənha qocalar üçün nəzərdə tutulur. Yuxarıda göstərilənlərdən də aydın olur ki, əhalinin sosial təminatının yaxşılaşması diqqət mərkəzindədir və bu məqsədlə müxtəlif istiqamətdə mütərəqqi işlər görülür.

Əhalinin miqrasiya prosesi ölkədə sosial vəziyyətin təhlilində mühüm rol oynayır. Çünki miqrasiyanın əsas



səbəbi sosial-iqtisadi problemlərdir. Miqrasiya prosesi iki istiqamətdə baş verir: daxili və beynəlxalq miqrasiya. Azərbaycanda daxili miqrasiya prosesi əhalinin regionlardan Bakı şəhərinə axını,beynəlxalq miqrasiya isə Azərbaycandan xarici ölkələrə edilən miqrasiya istiqamətində müşahidə olunur. Azərbaycanda dinamik inkişaf edən daxili miqrasiya paytaxtda demoqrafik yüklənməyə səbəb olmuş və nəticədə bir çox problemlər (ekoloji, işsizlik və s.) yaratmışdır. Beynəlxalq miqrasiyanın geniş vüsət aldığı Azərbaycan regionlarında bu səbəbdən turizm və aqrar sektorda kadr çatışmazlığı problemi yaranmışdır.

Əhalinin savadlılıq səviyyəsi ölkənin iqtisadi potensialının formalaşmasında mühüm rol oynayır. Savadlı kadrlar ölkədə qiymətli kapital hesab olunur. BMT mütəxəssislərinin insan inkişafı üzrə apardığı tədqiqatın nəticələrinə əsasən hazırlanmış hesabatda göstərilir ki, Azərbaycanda əhalinin savadlılıq səviyyəsi 98% təşkil edir. Savadlı mütəxəssis amili hazırda Azərbaycanın əmək bazarında izlənilən əsas siyasətdir. Turizm sektorunda da əhalinin savadlılıq səviyyəsi və öz sahəsinə uyğun yüksək səviyyəli mütəxəssis kimi yetişməsi zəruri amildir. Lakin Azərbaycanda turizm sahəsi üzrə peşəkar kadrların çatışmazlığı problemi vardır. Buna səbəb respublikamızın turizm-rekreasiya sahəsində işləyən xidmət personalının 80% - dən çoxunun peşə təhsilinin olmaması, yaxud da öz ixtisasları üzrə işləməməsidir. Bu səbəbdən rayon və kənd yerlərində yaradılmış rekreasiya və turizm müəssisələrinə ixtisaslı kadrların cəlb olunması çətinlik yaradır. Bu problemin aradan qaldırılması məqsədilə respublikada görülən işlər öz bəhrəsini verməkdədir. Belə ki, Turizm və Menecment Universiteti, Bakı Dövlət Universiteti və digər ali təhsil müəssisələrində turizm sektoru üçün mütəxəssis kadrlar hazırlanır. Azərbaycanda turizm sənayesinin dinamik inkişaf etdirilməsində problemlər də mövcuddur. Bu problemləri yaradan başlıca səbəb Ermənistanın işğalçılıq siyasəti nəticəsində ölkə ərazisinin 20%-nin işğal altında olmasıdır.

# II HİSSƏ
# AZƏRBAYCANDA TURİZMİN MADDİ-TEXNİKİ BAZASI

## V FƏSİL. TURİZMİN MADDİ-TEXNİKİ BAZASININ TƏRKİBİ

Turizm təsərrüfatı ilə məşğul olan subyektlər davamlı fəaliyyət göstərmək üçün müxtəlif əmək vasitələrinə malik olmalıdırlar. Turizmdə istifadə olunan əmək vasitələrinin məcmusu onun maddi-texniki bazasının əsasını təşkil edir.

Turizmin maddi-texniki bazasına, turizm tikililəri (binalar), onların texniki təchizatı (avadanlıq), nəqliyyat vasitələri və digər əsas fondlar daxildir. Maddi- texniki baza, mütəşəkkil turizmin inkişafının əsasını təşkil edir, belə ki, turistlərə tam kompleks xidmət göstərilməsi (yerləşdirmə, qidalanma, daşınma, müalicə, ekskursiya və s.) üçün bütün zəruri şərait yaradır.

Turizmin maddi-texniki bazasının tərkibinə turizm şirkətləri (turoperatorlar və turagentlər), mehmanxanalar, turist bazaları, iaşə, ticarət, avtonəqliyyat müəssisələri, turist ləvazimatı və avadanlığının kirayə məntəqələri, turist yollayışının (putyovka) satışı büroları, nəzarət-xilasetmə xidmətləri, turist klubları və s. daxildir.

Xidmət növlərinə görə turizm müəssisələrinin aşağıdakı tipləri mövcuddur:

•turistləri bütün xidmət kompleksi ilə təmin edən müəssisələr (öz mehmanxanaları olan turizm şirkətləri);

•turizmin təşkili məqsədi ilə təsis edilən müəssisələr (turagentliklər), səyahət və ekskursiya, yollayış satışı, turist qəbulu büroları;

•turistlərin yerləşdirilməsi, daha doğrusu yaşaması və gecələməsi məqsədi ilə təsis edilmiş müəssisələr (mehmanxanalar, turist bazaları və s.);



•qidalanma müəssisələri (restoranlar, barlar və s.);

•nəqliyyat xidməti müəssisələri;

•turistlərə mədəni xidmətlər göstərən obyektlər (teatrlar, konsert zalları və s.)və ekskursiya xidmətini (ekskursiya büroları) təmin edən müəssisələr.

Maddi-texniki bazaya aid olan obyektləri mülkiyyət növünə görə xüsusi (turizm təsərrüfat subyektinin özünə məxsus olan) və bu subyektin digər subyekt (məsələn, şəhər tabeliyindəki mehmanxanalarda yerlərin icarəsi) və fiziki şəxslərdən icarəyə götürülən (mənzillər, evlər) obyektləridir.

Turizmin hər hansı bir regiondakı maddi-texniki bazası tərkibinə, gücünə, miqdarına və keyfiyyətinə görə turistlərin tələbatına uyğun olmalıdır. Əks təqdirdə, əhaliyə turizm xidmətlərinin səviyyəsi və keyfiyyəti kəskin sürətdə pisləşir, bu da öz növbəsində turist məhsulunun satışı həcminin azalmasına səbəb olur.

### 5.1. Turistləri yerləşdirmə müəssisələri

Turistlərin yerləşdirilməsi məqsədi ilə təsis olunmuş müəssisələrə mehmanxanalar (otellər), turist bazaları, motellər, botellər, kempinqlər və s. aid edilir. Marşrut zamanı qrupların bir gecəlik dayanacaqları üçün turist bazalarının və ya turizm şirkətlərinin nəzdində düşərgələr və ya komalar da yerləşdirmə obyekti ola bilər.

Beynəlxalq təcrübədə turistlərin yerləşdirilməsinin standart təsnifatı qəbul edilmişdir. ÜTT ekspertləri yerləşdirmə vasitələrini iki kateqoriyaya bölürlər: kollektiv və fərdi.

Yerləşdirmənin kollektiv vasitəsi dedikdə, "istənilən obyekt" başa düşülür, belə ki, turistlərə daimi, bəzən otaqda və ya başqa bir yerdə gecələmək üçün yerləşmə imkanı yaradılır, lakin nömrələrin sayı hər bir ölkə tərəfindən müstəqil təyin edilmiş minimumu keçməməlidir (məsələn, Rusiyada 10 nömrə, İtaliyada 7 nömrə). Belə ki, verilən müəssisədə bütün nömrələr rəhbərliyin ixtiyarında olmalı, uyğun xidmətlər və

mövcud qurğular dərəcə və kateqoriyalara görə qruplaşdırılmalıdır.

Turistlərin kollektiv yerləşdirilmə vasitələrinə mehmanxanalar və ona oxşar yerləşmə vasitələri, ixtisaslaşdırılmış yerlər və digər yerləşmə vasitələri aiddir. Oxşar qurumlara pansionatlar və mebellə təchiz olunmuş turist yataqxanaları və yerləşdirmənin digər vasitələri daxildir. İxtisaslaşmış müəssisələr yerləşdirmə xidmətləri ilə yanaşı başqa xidmət də göstərirlər. Bu növ müəssisələrə sağlamlıq ocaqları, əmək və istirahət düşərgələri, konqress mərkəzləri və s. aiddir.

Kollektiv yerləşdirmənin digər vasitələri gündəlik yatağın yığışdırılması, yaşayış yerlərinin təmizlənməsi kimi xidmətləri özündə əks etdirən məhdud mehmanxana xidmətləri göstərirlər. Onlar nömrələrdən deyil, yalnız "yaşayış yeri", "kempinq üçün meydança, yaxud kollektiv yataq yeri" tipli vahidlər ola bilər.

Yerləşdirmənin bütün vasitələri ayrı-ayrı qruplar şəklində təsnifatlaşdırılır. Mehmanxana və oxşar müəssisələr qrupuna – mehmanxanalar, məhəllə tipli yataqxanalar, motellər, çimərlik mehmanxanaları, qalma yeri olan klublar, pansionatlar, mebellə təmin olunmuş otaqlar, turist yataqxanaları və s. daxildir. İxtisaslaşdırılmış müəssisələr qrupu sanatoriyalardan, əmək və istirahət düşərgələrindən, nəqliyyatın kollektiv vasitələrində (qatar, dəniz və çay gəmiləri, yaxtalar) yerləşdirmədən, həmçinin konqress mərkəzlərindən ibarət olur.

Digər kollektiv yerləşdirmə vasitələri qrupu yaşayış üçün təşkil edilmiş, istirahət üçün yararlı olan bina və bunqalo komplekslərindən, çadrlar üçün ayrılmış meydançalardan, təkərlər üstündə evlərdən, kiçik gəmilər üçün yaxtalardan, həmçinin gənclər üçün yataqxanalardan və s. ibarətdir. Yerləşdirmənin bu növləri Azərbaycanda ümumiyyətlə yoxdur.

Fərdi yerləşdirmə vasitələrinə rezidentlər (o cümlədən taymer apartamentləri) tərəfindən istifadə edilən, xüsusi yaşayış yerləri – mənzillər, villalar, bağ evləri, koteclər, əhali



və ya təşkilatlardan icarəyə götürülmüş otaqlar, qohum və tanışlar tərəfindən pulsuz təqdim edilən yaşayış yerləri aiddir.

Azərbaycanda taymer apartamentlərindən başqa, yuxarıda adları çəkilən fərdi yerləşdirmə vasitələrindən çoxu vardır. Yerləşdirmənin bu və ya digər növünə aid olması hər bir ölkənin qanunvericilik aktları və normativ sənədləri ilə təyin edilir.

Azərbaycanda "Turizm haqqında Qanun"da turizm fəaliyyətinin dövlət idarəedilməsi – turizm infrastrukturunun yaxşılaşdırılmasına istiqamətləndirilmiş normativ aktların zəruriliyi də göstərilmişdir. Yerləşmə müəssisələrində müxtəlif kateqoriyalı bölgülər olduğu kimi, mülkiyyət formasına görə bölgü də çox vacibdir. Hazırda Azərbaycanda bələdiyyə mülkiyyətində olan, xarici kapitalla müştərək, xarici mehmanxana şəbəkəsinə məxsus, xarici vətəndaşlara məxsus yerləşmə vasitələri vardır.

Azərbaycanda 17363 nömrəsi olan 535 yerləşdirmə müəssisəsi (və ya obyekti) fəaliyyət göstərir. Mehmanxana xidməti sahəsində 9009 nəfər çalışır. Turistləri yerləşdirmə müəssisələrinin istismarında əldə edilən gəlir 181047,3 min manatdır, ödənilmiş əlavə dəyər vergisi (ƏDV) və digər vergilər 28201,5 min manat, istismar xərcləri 147068,1 min manatdır. Turistləri yerləşdirmə müəssisələrində 672345 turist yerləşdirilmiş, 279555 nəfər ölkə vətəndaşı olmaqla gecələmələrin sayı 1687457-ə çatmışdır. Turist səfərləri istirahət-əyləncə (237506 nəfər), işgüzar (206234), müalicə (70981), digər turizm məqsədilə (35922) və s. (121702) məqsədlər daşımışdır (2014-cü il).

Azərbaycanda yerləşmə müəssisələrinin tarixi və bu sahədə ilk biznesin formalaşması qədim dövrlərə təsadüf edir. Aydındır ki, Azərbaycanda ilk yerləşmə müəssisələri karvansara adlanırdı. Karvansaralar müasir xidmət göstərən otellərdən xeyli fərqlənirdi. Karvansaralar təkcə şəhərlərdə deyil, həmçinin yol kənarlarında da inşa edilirdi. Azərbaycan

ərazisində bu günədək qalan karvansaraların tarixi VI-XIX əsrlərə aid edilir. Qədim karvansaralara Mərəzədə, orta əsr karvansaralarına Bayıl, Siyəzən, Giləzidə və s. rast gəlmək olar. Bəzi mənbələrdə Bakı qalasında 8 karvansara olduğu göstərilir. Bakıda Buxara, Multani, Böyük karvansara, Kiçik karvansara və s. yerləşirdi.

Karvansaraların kompakt ərazidə yerləşməsi təsadüfi deyildi. Çünki, Bakı artıq orta əsrlərdə şərq dövlətlərinin ticarətində dəniz limanı kimi mühüm rol oynayırdı. Xəzər dənizi vasitəsilə və Böyük İpək yolu üzərində yerləşən şəhərlərdən (Şamaxı, Bərdə, Dərbənd) mallar daşınırdı. Karvansaraların tikintisi XIX əsrədək davam etdirilmişdi. Bunların coğrafiyası genişləndirilərək Gəncə, Naxçıvan və digər ərazilərə yayılmışdı.

XIX əsrin ikinci yarısında neft sənayesinin inkişafı ilə əlaqədar Bakının mərkəzi genişləndirilməyə və abadlaşdırılmağa başlanılır. Neft biznesi yerləşmə müəssisələri biznesinə də əhəmiyyətli dərəcədə təsir etdi. XX əsrin əvvəllərində Bakının mərkəzində şəhərin varlı adamları və əcnəbilərə xidmət üçün ilk mehmanxana "Yeni Avropa" (hazırda "Lukoyl"-un Ticarət evinin binası) açılır. Bir neçə il keçdikdən sonra yeni bir "Metropol" (hazırda Nizami muzeyinin binası) mehmanxanası tikilir.

XX əsrin 20-ci illərindən II dünya müharibəsinin sonuna kimi Bakıda yeni mehmanxanaların tikintisi aparılmır. Həmin əsrin 50-60-cı illərində "İnturist" və "Naxçıvan" mehmanxanaları binaları tikilməyə başlanılır. 70-ci illərdə Azərbaycanda yerləşmə müəssisələrinin tikintisi sürətlənir. Bu mərhələdə "Bakı", "Turist", "Azərbaycan" və "Abşeron" mehmanxanaların binaları tikilib başa çatdırılır. Bu mehmanxanalar həm xidmət səviyyələrinə görə, həm də texniki təchizatına görə beynəlxalq standartlara cavab vermirdi. Çünki, 700-dən çox yeri olan mehmanxanalar çətin idarə edilirdi.



"Azərbaycan" və "Abşeron" mehmanxanalarının hər biri 1200 yerə malik olduğu halda, çox vaxt ümumi yerlərin 15 faizə qədəri dolurdu. Bu mehmanxanalarda servisin səviyyəsini yaxşılaşdırmaq əvəzinə, yerləşmə qiymətləri artırılırdı (xatırladırıq ki, bu mehmanxanalar hazırda dünya standartlarına uyğun olmaq şərtilə yenidən inşa edilmişdir).

Həmin illərdə Xəzərin sahillərini ümumittifaq əhəmiyyətli kurort zonasına çevirmək məqsədilə Gəncədə, Qusarda, Şəkidə və Azərbaycanın digər şəhərlərində mehmanxanalar tikildi.

Müstəqillik əldə etdikdən və 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandıqdan sonra neft müqavilələrinin reallaşdırılması, regional və beynəlxalq sərgilərin təşkili, Bakıda infrastruktur dəyişikliklərinə səbəb oldu. Qısa müddətdə Bakıda yeni biznes mühitinin formalaşması 5 ulduzlu "Hyatt", "SAS PLAZA", "Avropa" və dünyanın aparıcı mehmanxana şəbəkələrinin digər təmsilçiləri olan hotellərin inşasına səbəb oldu.

Nabranda "Palermo" turist mərkəzi tikildi, Şıx kompleksində "Kressent Biç" otelində xarici turistlər üçün lazımı şərait yaradıldı. Qubada (Afurca), Şamaxıda (Pirqulu), Şəkidə (Marxal), Zaqatalada, Qəbələdə, Qaxda və İsmayıllı rayonunun Lahıc kəndində pansionat və otellər tikildi.

Hazırda respublikada nömrələrin sayı 17363 olan 535 mehmanxana vardır. Bunlar müxtəlif kateqoriyalı və müxtəlif mülkiyyət formalarına məxsus mehmanxanalardır (cəd., 5.1).

**Cədvəl 5.1.**

**Azərbaycanda mehmanxana və mehmanxana tipli müəssisələrin kateqoriyaları və nömrələrin sayı (2014-cü il)**

| İqtisadi rayonlar | Nömrələrin sayı, vahid | Ölkə üzrə cəmə görə %-lə | o cümlədən | | |
|---|---|---|---|---|---|
| | | | Lüks dərəcəli, % | I dərəcəli, % | Turist dərəcəli, % |
| **Abşeron** | **8084** | **46,5** | **40,6** | **61,5** | **35,1** |
| Bakı | | | 38.2 | 56,9 | 32,56 |
| Sumqayıt | | | 0,8 | 2,7 | 2,47 |
| **Quba-Xaçmaz** | **3544** | **20,4** | **20,09** | **11,4** | **28,36** |
| Xaçmaz | | | 6,69 | 7,96 | 20,8 |
| Quba | | | 10,6 | 1.46 | 3,96 |
| **Gəncə-Qazax** | **1341** | **7,7** | **4,6** | **6,54** | **9,69** |
| Gəncə | | | 1,28 | 1,66 | 4,03 |
| Naftalan | | | 0,78 | 1,8 | 2,32 |
| **Lənkəran** | **1196** | **6,8** | **8,92** | **4,54** | **8,31** |
| Masallı | | | 5,08 | 1,89 | 2,69 |
| Astara | | | 1,03 | 0,08 | 0,80 |
| Lənkəran | | | 1,69 | 1.66 | 2,32 |
| Lerik | | | 0,53 | 0,63 | 1,80 |
| **Şəki-Zaqatala** | **1015** | **5,8** | **7,06** | **3,07** | **7,90** |
| Qax | | | 2,89 | 0.22 | 1,74 |
| Qəbələ | | | 1,36 | 0,55 | 1,59 |
| Zaqatala | | | 1,36 | 0,73 | 0,89 |
| Şəki | | | 0,74 | 0,37 | 3,28 |
| **Aran** | **874** | **5,0** | **5,08** | **6,15** | **4,03** |
| Göyçay | | | 1,48 | 0,18 | 0,23 |
| Bərdə | | | 0,2 | 0,17 | 0,42 |
| Şirvan ş. | | | 1,24 | 0,05 | 0,37 |
| Mingəçevir ş. | | | 0,5 | 1,36 | 1,59 |
| Yevlax | | | - | - | 1,09 |
| **Naxçıvan** | 623 | 3,5 | **4,8** | **3,04** | **3,68** |
| **Dağlıq Şirvan** | **671** | 3,8 | **8,39** | **3,47** | **2,83** |
| İsmayıllı | | | 7,44 | 1,54 | 0,20 |
| Şamaxı | | | 0,95 | 1,92 | 2,06 |
| **Yuxarı Qarabağ** | **15** | **0,08** | - | 0,21 | - |
| **Ölkə üzrə cəmi** | **17363** | 100 | 2419 (13,9%) | 6970 (40,2%) | 7974 (45,9%) |

**Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanmışdır.**



Azərbaycanda yerləşdirmə müəssisələrində birdəfəlik tutum 35652-dir. Bunun 33%-i Bakının, 25,6%-i Quba-Xaçmaz iqtisadi rayonunun payına düşür (2014-cü il). Respublika üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə mövcud nömrələrin 13,9 %-i lüks, 40,2%-i I dərəcəli, 45,9%-i isə turist dərəcəlidir. Mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin sayına görə Abşeron (46,5%), Quba-Xaçmaz (20.4%) və Gəncə-Qazax (7,7%) bölgələri birinci üçlüyü təşkil edir. Lüks və I dərəcəli kateqoriyadan olan mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin sayına görə Abşeron iqtisadi rayonu birinci yerdədir. Şübhəsiz ki, bu göstəricilərə görə Bakı şəhəri üstün mövqeyə malikdir. Turist dərəcəli yerlərin sayına görə Quba-Xaçmaz iqtisadi rayonu birinci yerdədir. Fikrimizcə, turist dərəcəli nömrələrin sayının Bakıda çox olmasına bir o qədər də ehtiyac yoxdur. Əksinə, bölgələrdə 5 ulduzlu, lüks dərəcəli hotellərin tikintisinin genişləndirilməsi səmərəli deyil. Çünki, bu hotellərdə turistlərə xidmət əsasən mövsümi xarakter daşıyır. Zəngin turizm imkanlarına malik Gəncə-Qazax, Aran, Dağlıq Şirvan, Naxçıvan iqtisadi rayonlarında turist dərəcəli yerləşmə müəssisələrinə ehtiyac vardır. Bu kateqoriyalı yerləşmə müəssisələrində qiymətlərin ucuz olması respublikada daxili turizmin inkişafında mühüm rol oynamaqla yanaşı regionların inkişafına da müəyyən təsiri ola bilər.

Azərbaycanda fəaliyyət göstərən yerləşmə vasitələrinə istirahət evləri, kurort, pansionat, istirahət zonaları da aiddir. Azərbaycanın daxili turizm bazarında kurort mülkiyyətinin müxtəlif formaları mövcuddur. Bunlar öz müstəqilliyini 1998-ci ildə "Kurort" Səhmdar Cəmiyyətinin yaradılması ilə itirmiş Həmkarlar Konfederasiyasıdır. Azərbaycandakı kurortlar hələ müstəqil fəaliyyət göstərə bilmir. Xüsusi sektor bu sahəni inkişaf etdirməyə çalışsa da, dövlətin dəstəyi olmadan respublikada kurortlar şəbəkəsini genişləndirmək imkanları məhdudlaşır. Hazırda respublikada İlisu, Naftalan, Qalaaltı

kimi kurortlar fəaliyyət göstərir. Abşeronda "Gənclik" beynəlxalq mərkəzi (2,5 min yerlik) yerləşir. Şüvəlan, Novxanı, Pirşağıda uşaq düşərgələri (ümumi yerlərin sayı 12 min) vardır. Lakin bu yerlərin bəzilərində hələ də doğma yurdlarından didərgin düşmüş köçgünlər qalmaqdadır.

Şamaxı-Zaqatala bölgəsində Şəkidə Marxal istirahət mərkəzi, Qəbələdə turist bazası, İlisuda "İlisu" pansionatı, Pirquluda Fortuna turist bazası yerləşir.

Azərbaycanın Xəzər dənizi sahillərinin rekreasiya amilləri burada turizmin maddi-texniki bazasının inkişaf etdirilməsinə imkan yaradır. Bu baxımdan Yalama-Xudat sahillərində istirahət mərkəzlərini xüsusi qeyd etmək lazımdır. Burada həmkarlar təşkilatına məxsus iki böyük turist bazası - "Dostluq" (400 yerlik) və "Xəzər" (300 yerlik) mövcudur. Zonada digər təşkilatlara məxsus "Şahdağ", "Bulaq", xüsusi pansionatlar (Palermo, Palma, Sahil və s.) rekreantların ixtiyarındadır. Bu zonada gənclər üçün istirahət yerləri də ("İlğım", "Turist", "Araz" və b.) mövcudur.

Qubada dağ-meşə zonasında xarici kapital əsasında yaradılmış "Afurca", "Lonq-Forest" istirahət mərkəzləri fəaliyyət göstərir.

Lənkəran-Astara zonasında "İsti-su" sanatoriyası fəaliyyət göstərir. Bu zonada kurort-sanatoriya şəbəkəsini genişləndirmək üçün rekreasiya amilləri (müalicə əhəmiyyətli bulaqlar, nadir dağ-meşə landşaftı, dəniz iqlimi) ilə zəngindir.

## 5.2. Nəqliyyat vasitələri

Nəqliyyat vasitələri turizmin maddi-texniki bazasının əsas fondlarına daxildir. Azərbaycanın turizm bazarında ən mühüm amillərdən biri bazarın nəqliyyat xidmətləri ilə təmin olunmasıdır. Turizm bazarında avtomobil, dəniz, dəmiryol, çay və hava nəqliyyatının xidmətlərindən istifadə olunur. Bu sahədə ən geniş yayılan avtomobil nəqliyyatıdır.



Respublikada ümumi istifadədə olan avtomobil yollarının uzunluğu 16347 km-dir (2014). Azərbaycanın kurort mərkəzlərini paytaxtla birləşdirən mühüm avtomobil yolları aşağıdakılardır:

Bakı-Sumqayıt-Şabran-Xaçmaz;
Bakı-Siyəzən-Məşrif-Qalaaltı;
Bakı-Ələt-Yevlax-Gəncə-Qazax;
Bakı-Şamaxı-Ağsu-İsmayıllı-Goyçay;
Bakı-Yevlax-Gəncə-Qazax;
Bakı-Yevlax-Şuşa;
Bakı-Salyan-Astara və s.

Şimal, cənub və qərb istiqamətində olan yollar daha çox yüklənmiş olur. Lakin Azərbaycanın avtomobil yollarının heç də hamısı dünya standartlarına uyğun deyil. Bu ilk növbədə bərk örtüklü yolların az olmasında, yolların kənarında infrastrukturun zəif, çox hallarda isə olmamasında özünü göstərir.

Turizm-ekskursiya xidmətlərində Xəzər dənizinin rolu da vardır. Bakı-Türkmənbaşı limanları arasında sərnişin daşımalar ildə 25-30 min nəfər arasındadır. Digər tərəfdən Bakı - Neft Daşları arasında yay aylarında dəniz gəzintiləri də təklif edilir. Hazırda Bakı - Astara limanları arasında da beynəlxalq gəzintilərin təşkil edilməsi üçün layihə hazırlanmışdır.

Respublikada milli hava şirkətlərindən başqa digər ölkələrin hava şirkətlərinin nümayəndəlikləri mövcuddur. Bunlar Rusiya, Ukrayna, İran, Türkiyə, AFR, Pakistan, İsveç, ABŞ, Özbəkistan, Fransa, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri və digər dövlətlərə məxsus şirkətlərdir. Turlar genişləndikcə hava nəqliyyatının əhəmiyyəti artır. Azərbaycanın turizm məhsulu beynəlxalq bazara əsasən hava nəqliyyatı ilə istiqamətlənir. Bakı - hava limanı beynəlxalq statusa malikdir. Müasir avadanlıqla təchiz olunmuş Bakı - hava limanı Azərbaycanı dünyanın bir sıra ölkələri ilə

beynəlxalq əlaqələrinin, o cümlədən turizm əlaqələrinin genişləndirilməsində böyük rol oynayır.

### 5.3. Qidalanma müəssisələri

Azərbaycanda turizmin inkişafında vacib amillərdən sayılan qida sektoru formalaşmış, Milli Kulinariya Mərkəzi yaradılmışdır (1991). "Amburan", "Karvansara", "Bəh-bəh klub", "Mc Donald's", "Pissa-nat", "Dolçe Vita", "Oyster Fish House", "Dəniz" restoranları və başqaları həm yerli əhali, həm də xarici turistlərin ixtiyarındadır. Restoranlarda fəaliyyət göstərən milli, Avropa, türk, hind, Çin mətbəxli restoranların əksəriyyəti Bakıda yerləşir.

Respublikamızda turistlərə qidalanma xidməti əsasən turistləri yerləşdirmə müəssisələri daxilindəki restoranlarda göstərilir. Turislərin qidalanmasının təşkilində qabaqcıl yerləri dünya otellər şəbəkələrinin ölkəmizdə fəaliyyət göstərən mehmanxanaları daxilindəki restoranlar tutur. Beynəlxalq səviyyəli otel və restoranların ölkəmizdə mövcudluğu burada göstərilən xidmətlərin etibarlılığına turistlərdə inam yaradır ki, bu da gəlmə və xarici turizmin inkişafına təkan verən amillərdən biri kimi çıxış edir.

"Holiday Inn Baku Airport" otelinin "Silk Way" (İpək Yolu) adında restoranı əfsanəvi İpək Yolu boyu ölkələrdən olan mətbəxlərin ləziz yeməklər seçimini təklif edir. Otelin əsas restoranı olan "Flavours" sərbəst mühitdə səhər, nahar və şam yeməyini təmin edir. Səhərlər restoranda amerikansayağı səhər yeməyi, gün ərzində isə Aralıq dənizi mətbəxindən olan təzə, ləziz yeməklər təklif edilir. Otelin vestibülündə yerləşən "Cafe Vienna" kafesi, ev şəraitində bişirilmiş şirniyyat və tortlar, eləcə də Vyananın məşhur olduğu qəhvə növlərini təklif edir.

Park İnn Baku otelinin Glory restoranı turistlərə geniş çeşidli səhər yeməyi, lanç və günorta yeməklərindən ibarət beynəlxalq mətbəxi Bakı şəhərində təqdim edir. Burada həmçinin turistlər şəhərin gözəl mənzərəsini seyr etmək imkanı



da əldə edirlər.

Park İnn otelinin tərkibində yerləşən Victor's Bar-da turistlər qəhvə və kokteyl içmək, eləcə də yüngül qəlyanaltılar yeməklə bərabər, şəhərkənarı Parkın mənzərəsini seyr edə bilirlər.

Park Hyatt Baku-nun Grill restoranının menyusuna ABŞ və Avropadan idxal olunmuş yüksək keyfiyyətli ət məhsulları, Azəri kababları, müxtəlif növ spirtsiz və spirtli içkilər, çay, qəhvə aiddir. Hyatt Regency Baku otelinin tərkibindəki Gourmet Shop restoranında turistlərə yeni hazırlanmış qəhvə, müxtəlif sandviçlər, salatlar, gündəlik yeməklər təqdim olunur. Bu oteldə turistlər həmçinin Mezzo, Brittaniua Pub, Café Oasis, Beluga Barın yüksək səviyyəli xidmətlərindən istifadə edə bilərlər.

Grand Europe Otelinin qonaqları "Golden Kaviar" restoranının müxtəlif çeşidli təamlarından, milli və beynəlxalq xörəklərindən dadmaq imkanı əldə edirlər. Turistlərə həmçinin xüsusi Super -səhər yeməyi büfeti və a-la-kart menyusu, axşam vaxtları isə soyuq və isti bufet, Marina Bar və Kaspian Barı təklif edilir. Artıq bir neçə ildir ki, Bakı şəhərində fəaliyyət göstərən "Park Bulvar" hazırda öz əyləncə məkanları, ticarət köşkləri, eləcə də dünya brendi olan restoranları ilə turistlərin diqqətini cəlb edən yerlərdən biridir. Burada turistlər dünyada tanınmış kafe, restoran və fast food-larda qidalanmaq imkanı əldə edirlər. Buradakı qidalanma müəssisələri əsasən dünya səviyyəli restoran və kafelərdən ibarətdir.

KFC restoranı Amerikanın məşhur Fast food şəbəkələrindən biridir. 1952-ci ildə Harland Sanders tərəfindən Kentucky Fried Chicken adı altında əsası qoyulmuşdur. 1991-ci ildən KFC adı ilə məşhurdur. Hazırda dünyanın 120-yə qədər ölkəsində fəaliyyət göstərir. Baş ofisi Kentukkidə (ABŞ) yerləşir. Açıldığı ilk vaxtlardan etibarən 11 bitki və ədviyyatdan istifadə etməklə müxtəlif toyuq yeməkləri təqdim olunur.

2011-ci ilin 16 may tarixində KFC-nin Azərbaycanda ilk

françayzisi fəaliyyətə başlamışdır. Restoran yerli şirkət olan AFK tərəfindən Bakı şəhərində açılmışdır. Həmin restoran müasir texnologiya ilə təchiz olunmuşdur.

"İl Patio" restoranı da ölkəmizə gələn turistlərin qidalanmasının təşkilində mühüm yer tutur. 1990-cı illərin sonlarında "Patio Pitsa" adı ilə fəaliyyətə başlamış bu restoran daha sonra "İl Patio" adlandırılmışdır. Restoranda əsasən ət, dəniz məhsulları və müxtəlif tərəvəzlərdən ləziz təamlar hazırlanır. "İl Patio" zəngin italyan menyusunu turistlərə təqdim edən restoranlar şəbəkəsinin üzvlərindən biridir. Son illərdə Azərbaycanda fəaliyyətə başlamış bu restoranda həm İtaliyadan gələn turistlər onlara tanış olan yeməkləri dada bilər, həm də italyan mətbəxini sevən yerli və digər xarici ölkə turistləri restoranın xidmətlərindən istifadə edə bilir.

Həm yerli əhalinin, həm də ölkəmizə gələn turistlərin sevərək getdiyi məkanlardan biri də dünya brendi olan Mc Donald`s-dır. Qeyd edək ki, bu məkan ən çox uşaqlar və gənclərin sevdikləri yerlərdəndir. McDonald`s dünyanın ən böyük "fast food" şəbəkələrindən biridir. 1940-cı ildə Riçard və Moris McDonald qardaşları Kaliforniyada ilk McDonald`s restoranını açırlar. 1955-ci ildə isə Rey Krok həmin restoranın françazisini əldə edir. Bir müddət sonra isə McDonald's artıq Rey Krokun təşəbbüsü ilə bütün dünyada fəaliyyətini genişləndirir. McDonald`s öz fəaliyyətini həm françaizilər, həm də filiallar formasında bütün dünyada genişləndirir. 1961-ci ildə McDonald`s özünün məşhur loqosunu qəbul edir. Hazırda dünyanın 120-dən çox ölkəsində, həmçinin Azərbaycanda McDonald`s fəaliyyət göstərir. Restoranlar şəbəkəsində hamburger, çizburger, toyuq, fransız qızartmaları, səhər yeməyi menyusu, spirtsiz içkilər, desertlər, saladlar və s. daxildir. McDonald`s -ın reklam siyasətində televiziya, radio kimi ənənəvi reklam vasitələrilə yanaşı, bilbordlar, müxtəlif tədbirlərdə (olimpiya oyunları və s.) sponsorluq, sosial şəbəkələr də mühüm yer tutur. Uşaqlar üçün müxtəlif həvəsləndirici vasitələrin tətbiqi də fəaliyyətin genişlənməsində əvəzedilməz



rol oynayır. Müasir dövrün tələblərinə uyğun olaraq, Mc Donald's bir çox restoranlarında Wi-Fi xidməti təklif edir.

Uzun müddətdir ki, Azərbaycanda da fəaliyyət göstərən Mc Donald's həm yerli əhali, həm də turistlər üçün sevimli fast food məkanıdır. Ölkəmizdə bu restoran şəbəkəsinin bir neçə françayzisi fəaliyyət göstərməkdədir. Burada bir sıra xüsusi menyuların tətbiq olunması, aparılan qiymət siyasəti və s. tədbirlər turistləri bu məkana gəlməyə həvəsləndirir.

Respublikamızda turistlərn sevərək getdiyi restoranlardan biri də Anadolu restoranlar şəbəkəsi hesab oluna bilər. Artıq 20 ildir ki, ölkəmizdə fəaliyyət göstərən bu restoranlarda turistlər şərq və Avropa yeməklərini dada bilərlər. Anadolu restoranı müştərilərinə online və mobil sifariş xidməti təklif etməklə bu sahədə yenilik etmişdir. Bu yenilik sayəsində həmin restoranda qonaqların rahatlığının təmin edilməsi mümkün olmuşdur. Bu kimi tədbirlərin təşkili hər bir restoranın fəaliyyətinə uğur gətirə bilər. Yaxşı düşünülmüş yeniliklər turistlər tərəfindən maraqla qarşılanır. Ölkəmizdə sayı gündən-günə artan beynəlxalq qidalanma müəssisələri ilə yanaşı yerli mətbəximizin təbliği və xarici turistlərə tanıdılması məqsədilə ölkəmizin ayrı-ayrı regionlarının mətbəxlərini təmsil edən restoranların açılmasına böyük ehtiyac vardır. Məsələn, Qarabağ, Şəki, Quba, Lənkəran, Gəncə, Naxçıvan və s. mətbəxləri təmsil edən restoranların açılması və turistlərə yüksək səviyyəli xidmət göstərməsi çox vacib məsələdir. Son zamanlar bu sahədə mühüm işlər görülür.

2012-ci ildə ölkəmizdə keçirilən "Eurovision -2012" beynəlxalq səviyyəli mahnı müsabiqəsi, 2015-ci ildə Bakıda təşkil olunan I Avropa idman oyunları da Azərbaycan mətbəxinin dünyada tanınmasında mühüm rol oynadı. Bunu həmin tədbirlərdə iştirak emək üçün ölkəmizə səfər edən turistlərdən alınan müsahibələr də təsdiq edir. Bütün bunlar restoran biznesinin ölkə iqtisadiyyatında önəmli yer tutacağına şübhə yaratmır. Bu növ tədbirlərin keçirilməsi ölkəyə xarici turist axınına səbəb olur ki, bu zaman da ölkə turizminin

beynəlxalq səviyyədə müsbət imicinin yaradılması üçün bütün tədbirlər görülməlidir. Hər bir turistin zəruri ehtiyacı olan qidalanmanın təşkilinə xüsusi diqqət yetirmək lazımdır. Lakin digər fəaliyyət sahələrində olduğu kimi, restoran biznesinin səmərəli təşkili və inkişafı cəhətdən tənzimlənməyə ehtiyacının olması unudulmamalıdır. Azərbaycan Respublikasında bu funksiyanı dövlət səviyyəsində Mədəniyyət və Turizm Nazirliyi, Milli Kulinariya Mərkəzi, Sanitariya və Standartlaşdırma Xidməti və bu kimi qurumlar icra etdiyi halda, bu sahədə təşkilatlanmaya böyük ehtiyac vardır. Milli Kulinariya Mərkəzi bu sahədəki boşluğu qismən doldursa da, restoran biznesinin təşkili üzərində nəzarəti həyata keçirən QHT və digər bu kimi təşkilatların mövcudluğu və həmin təşkilatların qarşılıqlı rəqabət prinsipi əsasında fəaliyyət göstərməsi bu biznes sahəsinin keyfiyyət baxımından inkişafında böyük rol oynaya bilər. Bu bir tərəfdən müəyyən standartların tətbiqinə stimul yaratmaqla, son nəticədə turistlərin daha etibarlı qidalanmasına, digər tərəfdən, o, keyfiyyətin artırılması ilə milli mətbəximizin dünya səviyyəsində daha layiqli tanınmasına xidmət edə bilər.

Onu da qeyd edək ki, respublikada restoran biznesinin tənzimlənməsində dəyişikliklər hiss olunur. Bu sahədə 1991-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə yaradılmış Milli Kulinariya Mərkəzinin fəaliyyəti xüsusilə seçilir. Belə ki, MKM tərəfindən Azərbaycanda fəaliyyət göstərən restoranlarda reydlər keçirilir, yoxlamalar aparılır, onların fəaliyyətinin standartlara uyğunluğu müəyyən edilir. KİV-də də həmin qurumun nümayəndələri tərəfindən bu sahənin inkişafına yönəldilmiş təbliğat işi həyata keçirilir. Bütün bu fəaliyyəti nəzərə alaraq respublikamızda yaxın gələcəkdə restoran biznesi sahəsində ciddi irəliləyişlərin olacağına ümid bəsləmək olar. Bu isə ölkəmizə səfər edən turistlərə daha keyfiyyətli qidalanma xidməti göstərilməsinə səbəb olacaqdır.



# III H İ S S Ə

# AZƏRBAYCANIN TURİZM BAZARI VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

## VI F Ə S İ L. TURİZM BAZARI VƏ ONUN MAHİYYƏTİ

### 6.1. Turizm bazarı anlayışı

Turizm iqtisadiyyatın mühüm sahələrindən biridir. Onun yaranması və inkişafı müəyyən iqtisadi göstəricilər sistemi ilə səciyyələnir. Bu göstəricilər isə turizm bazarının səciyyəsi və təhlili üçün zəruri sayılır.

Bazar - qədim zamanlardan mövcud olan obyektiv hadisədir. Cəmiyyət inkişaf etdikcə bazar da genişlənmiş, əvvəlcə maddi sahələri, daha sonra görünən və görünməyən məhsul və xidmət sahələrini əhatə etmişdir.

Hər hansı bir məhsul kimi, turizm məhsulunun (turməhsul) da satış bazarı mövcuddur. Turizm bazarı tələb və təklifin görüşdüyü yerdir. Lakin turizm bazarının öz səciyyəvi xüsusiyyətləri vardır. Bu baxımdan turizm bazarına verilən təriflər də müxtəlifdir.

Turizm bazarı - bu gün və ya sabah turizm məhsulunu almaq üçün imkanı olan (potensial alıcılıq qabiliyyəti olan) istehlakçılar toplumudur;

Turizm bazarı - dünyanın təsərrüfat əlaqələri sistemində turizm-ekskursiya xidmətlərinin pula və ya əksinə, pulun turizm ekskursiya xidmətlərinə çevrilmə prosesinin baş verməsidir;

Turizm bazarı - dörd əsas elementin (turist tələbi, turizm məhsulunun təklifi, qiymətlər və rəqabət) qarşılıqlı iqtisadi əlaqələr sistemidir.

Zaman keçdikcə, turizm bazarına verilən təriflər daha da təkmilləşmişdir. Məsələn, turizm bazarı - iqtisadi cəhətdən azad alıcılar və turizm məhsulu satanlar arasında alqı-satqı münasibətləri sistemidir; turizm bazarı - alıcılar və satıcıların maraqlarının razılığı alətidir; turizm bazarı - turizm məhsulunun

irəlilədilməsi və realizə edilməsi sferasıdır. Beləliklə, geniş mənada turizm bazarı alğı – satqı əməliyyatı aparılan yerdir.

Turizm biznesinin təşkili bazar iqtisadiyyatı anlayışı ilə sıx əlaqədardır. Biznesin hər hansı bir növü kimi, turizm biznesi də bazarın iki əsas amilindən asılıdır. Bu amillər azad qiymət sistemi və mülkiyyət hüququdur.

Turizm biznesi əsasən, fərdi kiçik və orta biznesdən ibarətdir. Ona görə də turizm bazarının fəaliyyəti üçün bazar iqtisadiyyatının ümumi və əsas prinsiplərinə riayət etmək vacib şərtdir. Bu prinsiplər aşağıdakılardır:

-istehlakçılar cəmiyyətinin əsas hissəsində birincilik;
-rəqabət prinsipinin hakim olması;
-turizmin maddi bazası üzərində şəxsi əmlak hüququ;
-istehlakçı və müştərilər üçün azad seçim hüququ;
-gəlirlərin insanların əməyinin nəticəsindən və əmək bazarındakı vəziyyətdən asılılığı;
-dövlət tərəfindən fərdi sahibkarlığın, istehlakçıların hüquqlarının hüquqi- normativ qanunvericiliklə dəstəklənməsi və sosial fəaliyyətin həyata keçirilməsi.

Turizm bazarı digər bazarlarla müqayisədə çox mürəkkəbdir. Çünki, bu bazarın məhsulu birbaşa satılmır. Turizm bazarının məhsulunun satılmasında vasitəçilər (mehmanxana - turoperator - turagent - istehlakçı) aparıcı və mühüm rol oynayır.

Turizm xidmətləri yaradılan bir sıra müəssisələr (yerləşmə vasitələri, restoran və kafelər, muzeylər, ekskursiya büroları, nəqliyyat təşkilatları və şirkətləri, müxtəlif növ rekreasiya-müalicə vasitələri və b.) turizm bazarında fəaliyyət göstərir. Digər tərəfdən, bu bazarda turizm sektorunda səciyyəvi olan vasitələr - turoperator və turagentliklər, kompyuter və reklam şirkətləri və s. fəaliyyət göstərir. Bu müəssisələrin hər birinin turistlər (istehlakçılar) üçün bazarda mühüm yer tutan məhsulun formalaşmasında rolu vardır.



Turizm bazarının fəaliyyətinin təşkilində turizm müəssisələrinin işinin əlaqələndirilməsi zəruri şərtdir. Turizm müəssisələrinin işinin əlaqələndirilməsində xidmət standartlarının formalaşmasında, həmçinin turizm bazarının inkişafında dövlət, bələdiyyə və ictimai təşkilatların xüsusi rolu vardır. Bütün bu müəssisə və təşkilatlar qarşılıqlı əlaqədədir və bu əlaqələr turizm bazarının mürəkkəb strukturunu təşkil edir.

Beləliklə, yuxarıda deyilənlərin təhlili göstərir ki, turizm bazarının əmtəə bazarından fərqi ondadır ki, turizm bazarı xüsusi yer və coğrafi zona ilə məhdudlaşmır.

İstehsalçı və istehlakçıların hər birinin iqtisadi maraqları vardır. Bu maraqlar uyğun gəlməyə də bilər, uyğun gəldikdə isə turizm məhsulunun alqı-satqısı baş verir.

Turizm bazarının mahiyyəti onun funksiyasında da əks olunur. Bu funksiyalar aşağıdakılardır:

-turizm məhsulunun istehlak dəyərinin reallaşdırılması;
-turizm məhsulunun istehlakçıya çatdırılması prosesinin təşkili;
-əməyin maddi stimulunun iqtisadi təminatı.

Turizm bazarı tərəfindən birinci funksiya yerinə yetirilərkən qiymətlərin "hərəkəti" baş verir, bu isə turizm məhsulunun pula çevrilməsində əks olunur. Bu proses son nəticədə turizm məhsulunda əks olunan dəyərin reallaşması ilə tamamlanır. Bunun nəticəsində isə ictimai istehsalda dinamiklik müşahidə edilir ki, bu da turizm sənayesinin inkişafı üçün kapitalın toplanmasına səbəb olur.

Turizm bazarı üç mühüm şərtin nəzarəti ilə səmərəli fəaliyyət göstərir:

-istehsalçının azad rəqabəti;
-məhsul buraxılışı və göstərilən xidmətlərə görə keyfiyyət və təhlükəsizlik sahəsində hamı üçün eyni qaydaların olması;
-istehlakçıların azad seçiminin mümkünlüyü.

Bu şərtlərdən birinin olmaması turizm bazarının fəaliyyətinin qeyri-səmərəliliyinə birbaşa təsir edir.

## 6.2. Turizm bazarının xüsusiyyətləri

Turizm bazarı - xidmətlər bazarıdır. Onun səciyyəvi xüsusiyyətləri vardır. Turizm biznesinin təşkili zamanı bu xüsusiyyətlərin nəzərə alınması zəruridir. Bu xüsusiyyətlərə aşağıdakılar aiddir:

1.Turizm xidmətləri ilk növbədə -

•ölçüsü və miqyası cəhətdən "duyulmalıdır". Bu, turizm məhsulunun etibarlı olmasını sübut edir. Turistlər tərəfindən əvvəlcədən ödənilən və ona vəd olunan keyfiyyətli xidmət göstərilməsinə zəmanət verilməsi məsələləri ön plana çəkilir. Turistlərə göstəriləcək xidmət haqqında dolğun və əhatəli məlumatların verilməsi, qiymət və keyfiyyətin əlaqəsi prinsipinə riayət etmək lazımdır. Turizm şirkətinə olan inam onun nüfuzundan, müştərilərin etimadından və bazarın sabitliyindən asılıdır;

•konkret zaman çərçivəsindən kənarda turizm bazarı əhəmiyyətini itirə bilir (müəyyən konkret dövrdə göstərilməyən xidmətin gəliri itirilmiş olur) - burada operativ informasiya və müştərilərin sifarişi ilə görülən iş, həmçinin tələbin dəyişməsi ilə tez reaksiya verən və satışı stimullaşdıran çevik, pilləli qiymətin yaranması çox vacibdir.

•Ayrı-ayrı xidmətlərin keyfiyyəti səyahət zamanı dəyişə bilər. Ona görə də xidmətin keyfiyyətinə görə qiymətlərin dəyişməsi və ya xidmət variantlarının əvəz olunmasından istifadə olunur.

2. Turizm məhsulunun satışı zamanı (bu tur, ekskursiya və ya öncədən bronlaşdırılmış mehmanxana xidməti ola bilər), bir qayda olaraq turizm məhsulunun ödənilməsi faktı və onun istehlakı arasında zaman kəsiyi var. Turist səyahət üçün yollayışı öncədən olaraq turoperator və turagent vasitəsilə marşrutda xidmət göstərən təşkilatların xidmətini əvvəlcədən ödəməli olur (yəni o birbaşa pulu xidmətlər istehsalçısına yox, yollayışı satana verir). Ona görə də burada turizm məhsulunun



və onun həyata keçirilmə kanallarının etibarlılığı, turistə məhsulu satan turizm firmasının məsuliyyəti vacibdir.

3. Turist tələbinin mövsümdən asılı olaraq qiymətin enib-qalxması turizm bazarı üçün səciyyəvidir. Lakin bu enib-qalxmalar turizmin müxtəlif növləri üçün eyni səviyyədə olmur. Qeyri-mövsümi istirahətin formaları, qeyri-mövsümi dövrlərdə turistlərin istirahətinin mükəmməl təmin olunması, turizmin müxtəlif növləri üçün maddi bazadan və mövsümlərdə regional fərqlərdən bacarıqla istifadə olunması- turizm firmasının itkilərinin azalmasına kömək edir.

4. Turizmdə keyfiyyət kifayət dərəcədə icraçılardan, yəni xidmət personalından (gid, ekskursiya bələdçisi, portye, xadimə və s.) turistlə bilavasitə əlaqədə olan peşə sahiblərindən asılıdır. Keyfiyyət personalın dəyişməsi ilə artıb-azala bilər. Ona görə də menecment məsələləri keyfiyyətli əməyin təşkili, çevik turizm məhsulunun yaradılması turizm müəssisələri üçün önəmlidir.

5. Turizm bazarında istehlakçı və istehsalçı arasında ərazi uzaqlığı və əlaqəsizlik olur. İstehsalçının başqa regionlarda öz məhsulunun reklamı və informasiya məsələləri, xarici tərəf müqabili ilə əlaqələri, turizm biznesi üçün az əhəmiyyətli deyil (turizm firmasının, istirahət regionunun müsbət imicinin formalaşması; istehlakçıların ehtiyaclarının təmin olunması ilə əlaqəli aparılan işin rahatlığı üçün, uzaqda olan tərəf müqavilləri ilə operativ əlaqələrin yaradılması).

Turizm bazarı əhəmiyyətli dərəcədə müxtəlif amillərdən asılıdır. Bunlar təbii-ekoloji, sosial-iqtisadi, siyasi, demoqrafik amillərdir.

*Təbii-ekoloji amillər* - hər bir turizm proqramının əsasını təşkil edir. Buraya daxildir:

-əlverişli iqlim və komfort təbii şəraitin olması;

-təbiətdə diqqətəlayiq yerlərin olması;

- inkişaf etmiş hidroqrafik şəbəkənin və təbii su hovuzlarının olması;

-təbiət obyektlərinin təmiz və yararlı vəziyyətdə olması;
-ekoloji mühitin əlverişli olması.

Sosial-iqtisadi amillər turizmin inkişafı üçün mühüm maddi şərtlərdən biridr. Bu amillərə aid edilir:
-əhalinin əsas kütləsinin yaşayış səviyyəsi, yəni turizmin iqtisadi əlverişliliyi;
-vətəndaşların ölkə daxilində və bütün dünya üzrə xarici səyahətlərinə imkan verən sosial azadlıq və hüquqlarının olması;
-beynəlxalq əmək bölgüsü əsasında dövlətlər arasında iqtisadi əlaqələrin fəallaşması, beynəlxalq ticarətin genişlənməsi və nəqliyyat vasitələrinin təkmilləşdirilməsi.

Siyasi amillər turizm bazarının təhlükəsiz fəaliyyəti üçün mühüm şərtdir. Buraya aşağıdakılar daxildir:
-turistlərin yaşadığı ölkənin daxili siyasi stabilliyi;
-turistləri qəbul edən ölkənin daxili siyasi stabilliyi;
-ölkələr arasında dostluq, mehriban qonşuluq, dinc münasibətlər;
-iqtisadi, ticarət, elmi-texniki və mədəni əlaqələr, turist mübadiləsi üzrə dövlətlərarası və hökümətlərarası əməkdaşlıq müqavilələri.

Demoqrafik amillərə aiddir:
-əhalinin artımının dünya turizm potensialına təsiri;
-insanların orta ömür müddətinin artması vətəqaüd yaş həddinin azalması turizmdə üçüncü yaş qrupuna aid olan insanların çoxalmasına səbəb olur;
-etnik turist axını (tarixi yerlərə səyahət, mühacirlər, oxşar dilli xalqlar, qarşılıqlı səfərlərlə maraqlananlar və s.).

Beləliklə, turizm bazarında bu amillərin toplusu onun inkişafına təsir göstərən konkret turizm bazarının növünü və strukturunu formalaşdırır.



## 6.3. Turizm bazarının yaranmasının mühüm şərtləri

Turizm bazarı tutumu, balanslaşdırma səviyyəsi, tələb, təklif və turizm məhsulunun realizə şərtlərilə səciyyələnir.

Turizm bazarının tutumu dedikdə, bazarın bu və ya digər miqdarda turizm məhsulunu "udmaq" qabiliyyəti başa düşülür. Bazarın tutumu əhalinin alıcılıq qabiliyyətinə olan tələbinin həcmi və turizm təkliflərinin ölçüsündən asılıdır. Tutum bazarın mühüm atributu olan qiymətlərin səviyyəsi ilə sıx əlaqəlidir. Turizm məhsulunun qiymətinin səviyyəsindən asılı olaraq eyni tutumlu bazarda turizm məhsuluna olan tələbat müxtəlif ola bilər: qiymət yüksəldikdə o azalır, aşağı olduqda isə tələbat yüksəlir.

Bazarın mühüm kateqoriyası tələb və təklifdir. Turizm bazarında turist tərəfindən turizm məhsuluna *tələb* ilə turizm şirkəti tərəfindən irəli sürülən turizm məhsuluna *təklif* rastlaşır.

Alıcılıq (turist) tələbatı dedikdə, bazarda təklif edilən pulla təmin olunmaqla səyahətə tələb başa düşülür. Tələbin müxtəlif növləri vardır: potensial, formalaşmaqda olan, formalaşmış, mövsümi. Turist tələbatı əksər hallarda mövsümi səciyyə daşıyır. İstehlak tələbi müxtəlif amillərdən asılıdır:

1. Demoqrafik amil - əhalinin sayı, cins və yaş strukturu, ailənin ölçüsü və tərkibi, alıcının mədəni səviyyəsi, urbanizasiya və s.
2. Sosial-iqtisadi amil - məşğulluq, əmək haqqının səviyyəsi, təqaüdlə təminat, əhalinin gəlirinin səviyyəsi və s.
3. Ölkənin mövqeyi və coğrafi xüsusiyyətləri.
4. Alıcıların milli tərkibi.
5. Ölkədə siyasi stabillik.
6. Gələnlərin təhlükəsizliyi.
7. Digər təsadüfi hadisələr (münaqişələr, təbii fəlakətlər və s.)

Turizm məhsuluna əhalinin pul vəsaiti ilə təmin edilən tələbatı alıcılıq qabiliyyəti olan tələb adlanır. Qeyd etmək

lazımdır ki, əhalinin turizm xidmətlərinə olan tələbatı dəyişkəndir. Belə ki, hər bir insanın şəxsi tələbatında turizm muxtəlif mövqe tutur. Hətta hər hansı bir insanın həyatının müxtəlif anlarında turizmə tələbat onun digər tələbləri arasında yerini dəyişir.

Turizm bazarının ikinci mühüm komponenti təklifdir. Təklif subyektin məhsul və xidmətlərə rəqabət münasibətini əks etdirir. Bu məhsul və xidmətlər həmin yerdə və müəyyən səviyyəli qiymətlərlə tələbatın ödənilməsinə xidmət edir. Digər sözlə, bu məhsul və xidmətlər müəyyən vaxtda və müəyyən qiymətlərlə digər bazara çatdırıla bilər.

Turizm bazarında təklifə müəyyən dövr ərzində alıcıya təklif olunan satış üçün nəzərdə tutulmuş istiqamət (gəlmə regionları) və turların həcmi (xidmət) aiddir. Turizmdə təklif bir sıra səciyyəvi xüsusiyyətlərə malikdir. İlk növbədə bir sıra başqa məhsul və xidmətlərdən fərqli olaraq turizm sənayesində məhsul və xidmət üç mənbəyə malikdir:

-təbii ehtiyatlar (hava, günəş, landşaft, su, təbii gözəlliklər və s.);

-yaradılmış ehtiyatlar (memarlıq abidələri, tarixi və mədəni dəyərlər, əmtəə fondunun bir hissəsi və s.);

-turizm xidmətləri (turizmdə insanların tələbatını təmin etməyə yönəldilmiş əmək fəaliyyəti).

Təbii sərvətlər və yaradılmış ehtiyatların bir hissəsi turizm fəaliyyətindən kənarda mövcuddur. Buna baxmayaraq müxtəlif hallarda məhz bu sərvətlər gəzinti üçün əsas amil sayılır.

Turizm məhsulunun təklifi müəyyən amillərlə təyin edilir. Bunlar arasında ən mühümü: turizm məhsulunun istehsalçılarının olması; turizm sənayesinin inkişaf səviyyəsi; turizm ehtiyatlarının həcmidir.

Turizm bazarında tələbin təklifə dəyişdirilməsi turistin turizm məhsuluna dəyişməsi deməkdir. Belə mübadilədə iki tərəfli - alıcı və satıcının tələbatı ödənilir. Turizm məhsulu



istehlakçısının fəaliyyəti tələb və təklif qanunun "işləməsi" ilə müəyyən edilir. Bu qanun qiymət və tələb arasında birbaşa asılılıq yaradır. Yəni, eyni şəraitdə turizm məhsulunun bazar qiymətinin yüksəldilməsi tələbatın həcmini azaldır, bazar qiymətinin azaldılması isə, turizm məhsuluna olan tələbatın həcmini artırır. Eyni zamanda turizm məhsulu və xidmətlərinin təklifinin həcmi qiymətlərin yüksəldilməsi ilə artır, azaldılması ilə aşağı düşür. Turizmdə tələb və təklifin səciyyəvi xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər turizm şirkətlərində marketinqin təşkilinə təsir edir.

# VII F Ə S İ L
# TURİZM BAZARININ MARKETİNQ TƏDQİQATLARI

## 7.1. Turizm bazarının öyrənilməsində marketinq tədqiqatlarının əhəmiyyəti

Azərbaycan Respublikasında turizm sektoru inkişaf etdikcə bu sahədə marketinq araşdırmalarının aparılmasına zərurət yaranır. Azərbaycanın turizmi üçün marketinq araşdırmaları ona görə lazımdır ki, respublikamızda turizm bazarı formalaşır.

Azərbaycanda turizm sektorunda marketinq araşdırmaları aparılmasına xarici şirkətlər daha çox maraq göstərir. Bu, təbii haldır, çünki, turizm sektoruna sərmayə qoyanlar da əsasən xarici investorlardır. Onlar qoyduqları sərmayənin gəlir gətirməsində çox maraqlıdırlar. Digər tərəfdən, marketinq tədqiqatlarının aparılması çox maliyyə vəsaiti tələb edir. Bu baxımdan Birləşmiş Millətlər İnkişaf Proqramının (United Nations Devolopment Proqramme) "Turizm İnkişaf Layihəsi"nin (Tourism Devolepment Project) sifarişi ilə Biznes İnsiqht İnternational Research GROUP (qısa şəkildə "Busness Insiqht") 2010 və 2011-ci illərdə respublikamızda apardığı marketinq tədqiqatları nisbətən az sayda (2010-cu ildə 873, 2011-ci ildə 301 nəfər) və yalnız iri şəhərlərdə (Bakı, Sumqayıt, Gəncə) respondentin cavablarına əsaslansa da, dəstəklənməlidir. Busness Insiqht şirkəti bu layihə üzrə tətbiq etdiyi araşdırma metodlarını ICC/ESOMAR-ın Marketinq və Sosial Araşdırma Təcrübəsi üzrə Məcəlləsində öz əksini tapan ən yüksək peşəkar və etik standartlara, ISO 20252 beynəlxalq standartının tələblərinə və eləcə də müvafiq sahədə əldə etdiyi geniş təcrübəyə əsasən həyata keçirmişdir.

Busness Insiqht şirkətinin apardığı araşdırmaların məqsədini - yerli və xarici turizm bazarları, həmçinin yerli və əcnəbi turistlərin milli və xarici turizm bazarlarında imkan-



larından xəbərdarlıq və istifadə səviyyəsi haqda ətraflı məlumat əldə etmək təşkil etmişdir. Araşdırmalar nəticəsində bir sıra maraqlı faktlar (respondentlərin istirahət üçün Quba-Xaçmaz turizm bölgəsinə daha çox üstünlük vermələri, turoperatorlar haqda kifayət qədər məlumatlı olmadıqları, turizm ölkəsi kimi Türkiyəyə üstünlük vermələri, regionlara səfər edən əcnəbilərin turizm xidmətlərindən razı qalmadıqları, turizm infrastrukturunun zəif olması, turistlərə xidmət tariflərinin yüksək olması və s.) aşkar edilmişdir. Lakin bu araşdırmalar respublikamızda turizm imkanları, servis xidmətindən razılıq, daha çox tələb olunan xidmət növləri, bütövlükdə isə turizmin inkişafı qarşısındakı problemlərin həlli üçün tam təsəvvür yaratmır. Ona görə də turizmdə marketinq araşdırmaları aparılarkən ilk növbədə turizm bazarı öyrənilməklə, marketinqin məqsəd və strategiyasının planlaşdırılması vacib şərt hesab olunur.

Məlumdur ki, turizm bazarı müəyyən yerdə və vaxtda alğı-satqı prosesini təmin etmək üçün tələb və təklifin görüşdüyü məkandır. Turizm bazarının əsas elementlərinə aiddir: turizm bazarının subyektləri - turməhsulun təşkilatçıları və satıcıları (turoperator və turagentlər), onların kontragentləri - turizm xidmətləri istehsalçıları (mehmanxanalar, qidalanma müəssisələri, nəqliyyat təşkilatları, ekskursiya büroları) və turizm xidmətləri alıcıları (istehlakçılar); turizm bazarının obyektləri (turizm məhsulu, ödəmə vasitələri və s.); münasibətlər (mübadilə, tərəfdaşlıq, rəqabət və s.); mühit (iqtisadi, siyasi-hüquqi, sosial-mədəni və s.). Bazarın subyektləri arasında mühüm münasibət turizm məhsulunun əlverişli qiymətə tədavülü təşkil edir. Burada ekvivalentlik satıcı və alıcı arasında qarşılıqlı razılıq nəticəsində yaranır. Belə razılıq tədavül iştirakçılarının tam razılığı əsasında baş verməlidir. Belə halda, konkret istehsalçının (satıcı) və konkret istehlakçının (alıcı) maraqları təmin olunur, digər tərəfdən istehsalın genişlənməsi üçün şərait yaranır. Bu prosesin nəticəsi bazar mexanizminin fəaliyyəti ilə müəyyən edilir. Bunun özəyini isə

tələb və təklifin qarşılıqlı əlaqəsi təşkil edir ki, bu da əhalinin turizm məhsuluna tələbatı formasında meydana çıxır.

Təbiidir ki, ayrı-ayrı turizm şirkətlərini təklif olunan məhsula olan tələb maraqlandırır. Marketinq mövqeyinin başlanğıcını müəyyən bazarın və turizm xidmətlərinə istehlak tələbinin olması təşkil edir. Turizm xidmətlərinə tələb varsa, şirkət marketinq strategiyası və onun realizə planlarını işləyə bilər. Əgər tələb yoxdursa, onu başqa yerdə axtarmaq lazımdır. Bu baxımdan Azərbaycanda marketinq mövqeyinin formalaşmasını təsdiqləyə bilərik. Əgər ölkədə marketinq mövqeyi mövcuddursa, bu halda marketinq prosesinin həyata keçirilməsi zəruri hesab edilir.

Turizm bazarında tələb və təklifi təmin etmək zəruri şərtdir. Bu baxımdan marketinq araşdırmaları aşağıdakı məqsədlərlə aparılmalıdır:
- turizm imkanlarından (təbii, tarixi-mədəni, sosial-iqtisadi) xəbərdar olmaq;
- turizm imkanlarından istifadəni aydınlaşdırmaq;
- turizm xidmətlərinin səviyyəsindən razı qalmaq;
- tələb olunan turizm xidmətlərini aşkar etmək.

Marketinqdə təcrübi olaraq mücərrəd bazar anlayışı yoxdur, o, həmişə konkretdir. Hər bir bazar üçün tələb və təklifin qarşılıqlı əlaqəsini müəyyən edən amil və şəraitin uyğunluğu səciyyəvidir. Ona görə də marketinq tədqiqatlarına başlamazdan əvvəl müəssisənin hansı bazarda işləməsi (və ya işləməyə başlaması) müəyyən edilməlidir. Yalnız bazar dəqiq başa düşüldüyü halda, real və potensial alıcıları, rəqibləri, vasitəçiləri müəyyən etmək olar. Bu isə marketinq fəaliyyətinin səmərəli təşkili üçün çox mühümdür. Bazarın seçilməsi onun strukturuna görə müxtəlif aspektlərə əsaslanır. Ona görə marketinqdə turizm bazarının təsnifatı müxtəlif əlamətlərdən istifadə etməklə həyata keçirilir. Təcrübi cəhətdən əhəmiyyətli olan ən mühümlərini qeyd edək.



ÜTT-nın məsləhətinə görə ölkə üçün aşağıdakı bazarlar ayrılır:
- ölkə daxilində turizm bazarı, daxili və gəlmə turizmini əhatə edir;
- Milli turizm bazarı, daxili və getmə turizmi əhatə edir;
- beynəlxalq turizm bazarı, gəlmə və getmə turizmi əhatə edir.

Marketinq fəaliyyətinin xüsusiyyətləri və məzmununa görə isə aşağıdakı bazarlar ayrılır:

1.Məqsədli - müəssisənin marketinq fəaliyyəti onun qarşısında duran məqsədə yönəldilən bazar;

2.Səmərəsiz - müəyyən xidməti realizə üçün perspektivi olmayan bazar;

3.Əsas- müəssisənin xidmətlərinin əsas hissəsinin realizə olunduğu bazar;

4.Əlavə- bəzi xidmətlərin satışını həyata keçirən bazar;

5.Böyüyən- satış həcminin artım imkanı real olan bazar;

6.Dəyişkən - kommersiya əməliyyatı qeyri-stabilliyi ilə seçilən bazar.

Beləliklə, bu və ya digər cəhətlərə görə aparılan təsnifat hər hansı turizm bazarının dərindən öyrənilməsinə imkan verir, turizm məhsuluna olan tələbatın tam təmin olunması və onun satışının səmərəliliyi üçün imkan yaradır. Bununla əlaqədar olaraq bazarın öyrənilməsinə ilk növbədə onun konyunkturasının (vəziyyətinin) qiymətləndirilməsindən başlanılmalıdır.

### 7.2.Turizm bazarının vəziyyəti və tutumunun öyrənilməsi

Konyunktura (vəziyyət)- bazarda müəyyən vaxtda turizm xidmətlərinə tələb və təklifin nisbətini müəyyən edən amillərin və şəraitin qarşılıqlı nəticəsi kimi iqtisadi vəziyyətdir.

Vəziyyətin öyrənilməsi zərurəti müasir marketinqin mahiyyəti, onun bazarın tələbatının öyrənilməsi istiqamətində əks olunması ilə müəyyən edilir. Bu cəhətdən vəziyyətin qiymətləndirilməsi təkcə bazarın deyil, bütövlükdə marketinq

tədqiqatlarının təhlilidir. Ona görə ki, vəziyyət müəssisənin bütün marketinq fəaliyyətinin məzmununa, onun bazarda mövqeyinə mühüm təsir göstərir. Vəziyyətin araşdırılması prosesində müəssisə bazarda öyrənilən haqda obyektiv imkanlar əldə etmək imkanına malik olur. Bu isə inkişafı proqnozlaşdırmağa, rəqabətdə üstünlük qazanmağa, kommersiya riskini azaltmağa, özünə uyğun bazar seqmenti seçiminə, optimal qiymət səviyyəsi təyin etməyə imkan verir. Bazarın vəziyyəti müxtəlif amillərin təsiri altında formalaşan və dəyişən kəmiyyət və keyfiyyət göstəriciləri sistemi ilə səciyyələnir. Vəziyyətə təsir edən kəmiyyət, xüsusilə keyfiyyət göstəricilərini qiymətləndirmək üçün təsnifatlaşdırılır.

İstehsalın iqtisadi dövriliyi ilə əlaqədar vəziyyət yaradan bütün amillər iki əsas qrupa bölünür: dövri (böhran, depressiya, dirçəlmə, artım və s.) və qeyri-dövri (ETT, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi və s.). Dövri və qeyri-dövri amillərin bazarın vəziyyətinə təsirinin nisbəti dəyişkən xarakter daşıyır. Müxtəlif dövrlərdə bu və ya digər amillər aparıcı rol oynaya bilər.

Davamiyyət təsirinə görə vəziyyət yaradan amillər ayrılır: uzunmüddətli (8-10 ildən çox), ortamüddətli (2-8 il) və qısamüddətli (bir neçə həftədən 2 ilədək). Uzunmüddətli inkişaf tendensiyası bazarın vəziyyətinin proqnozlaşdırılması üçün real təcrübi əhəmiyyətə malikdir. Vəziyyətin ortamüddətli dəyişməsi dövri amillərdən asılıdır. Bazar vəziyyətinin qısamüddətli dəyişməsi siyasi və sosial münaqişələr, təbii fəlakətlər, hökumətin müxtəlif tədbirləri və s. amillərlə izah olunur.

Turizm bazarında vəziyyət yaradan qısamüddətli amillər sırasında mövsümilik mühüm rol oynayır. Mövsümiliyin təsirilə tələb və təklifin il ərzində daim dəyişməsi müşahidə edilir. Turizmdə mövsümiliyin xüsusiyyətlərinə aiddir:

•Turizmin müxtəlif növlərinin olması. Məsələn, dərketmə turizmi üçün mövsümi dəyişiklik rekreasiya turizmi ilə



müqayisədə az rol oynaması ilə səciyyələnir. Sağlamlıq və işgüzar turizmdə tələbatda mövsümi fərq böyük əhəmiyyət kəsb etmir.

•Müxtəlif turizm regionları üçün mövsümi müxtəliflik1ə bağlı olan tələbatın müxtəlif formaları. Ona görə turizm tələbatının xüsusiyyəti haqda ayrı-ayrı yaşayış məntəqəsi, rayon, ölkə, dünya miqyasında baxılmalıdır. Statistik məlumatlara görə Avropada turist səfərlərinin yarısı yay mösümünün 2 ayına təsadüf edir. İqlimin komponentlərində illik dəyişikliklərin az olduğu ölkələrdə turizmdə mövsümilik nəzərə çarpmır.

•İqlim, sosial və psixoloji xarakterli amillərin təsiri böyükdür.

İqlim amilləri onunla izah olunur ki, dünyanın əksər regionlarında səyahət, istirahət, müalicə, idmanla məşğul olmaq ilin aylarından asılı olaraq fərqlidir.

Sosial amillər ona əsaslanır ki, məktəblilərin əksəriyyətinin tətili əsasən yay aylarına təsadüf edir. Ona görə də valideynlər məzuniyyətlərini yay aylarında götürməyə və ailəvi istirahət etməyə maraqlı olur. Digər tərəfdən, Avropa ölkələrində turizm səfərlərinə tələbatın artması iyul-avqust aylarında bəzi müəssisələrin təmirə dayandırılması ilə bağlıdır.

Qabaqcadan xəbərvermə dərəcəsinə görə vəziyyət əmələ gətirən amillər proqnozlaşdırılan və proqnozlaşdırılmayan amillərə bölünür. Qabaqcadan xəbər verilən amilləri qabaqcadan görmək və qiymətləndirmək mümkündürsə, təsadüfi amilləri əvvəlcədən qiymətləndirmək mümkün olmur.

Vəziyyətin öyrənilməsinin əsas məqsədi həm də proqnozun dəqiqliyi və düzgünlüyüdür. Bu məqsədin həllinə bazarın öyrənilməsinə kompleks yanaşmaqla, onun fəaliyyət şəraiti və amillərin tam hesaba alınması ilə nail olmaq mümkündür. Turizm bazarının vəziyyəti aşağıdakı əsas göstəricilərlə səciyyələnir:

- bazarın miqyası (onun tutumu, turməhsulun satış həcmi, bazarda fəaliyyət göstərən müxtəlif tip müəssisələrin sayı);

- bazarın balanslaşma dərəcəsi (tələb və turizm xidmətləri təklifinin nisbəti);
- qiymətlərin səviyyəsi;
-bazarın tipi (rəqabətli, inhisarçı və s.);
- bazarın dinamikliyi (əsas parametrlərinin dəyişməsi);
- rəqabət mübarizəsinin gücü və miqyası (rəqiblərin sayı, onların fəallığı);
- hökumətin bazarı tənzimləmə dərəcəsi;
- bazara çıxışda maneələr;
- turizm xidmətlərini realizə etmək üçün kommersiya şəraiti;
- tələbatda mövsümi dəyişikliklər və s.

Bazarın vəziyyətinin qiymətləndirilməsi bazar indikatorları (göstəriciləri) əsasında aparılır. Bazar indikatorlarına daxildir: turizm xidmətləri təklifi; satış həcmi; qiymətlər; gəlir (rentabellik). Çox vaxt indikatorlar statistik göstəricilər deyil, onların artım tempi (dinamiklik indeksi) sayılır.

Bazarın vəziyyətinin tədqiqində zəruri sayılır:
-bazarda baş verən iqtisadi hadisələrin qarşılıqlı əlaqə və asılılığının nəzərə alınması;
- ardıcıl müşahidə aparılması;
-bazarın öyrənilməsində müəyyən ardıcıllığa riayət edilməsi: hazırlıq mərhələsi, vəziyyətin inkişafına cari nəzarət, vəziyyət haqda məlumatların təhlili, vəziyyətin proqnozunun hazırlanması.

Vəziyyətin səciyyəvi xüsusiyyəti, həm də onun dinamikliyidir. Ona görə bazarın öyrənilməsində təkcə bu və ya digər anda bazarın vəziyyətinin müəyyən edilməsi deyil, həm də onun gələcək inkişafını xarakterizə etmək – proqnozlaşdırmaqdır.

Bazarın öyrənilməsində marketinq tədqiqatlarının ardıcıl aparılmasına ehtiyac böyükdür. Çünki, Azərbaycanda əhalinin yaşayış tərzində, turizm xidmətlərinə olan tələbatında dəyişikliklər aydın nəzərə çarpır. Müqayisə üçün qeyd edək ki, respublikamızda əhalinin minimum əmək haqqı 2013-cü ildə



105 AZN idisə, bu göstərici 2015-ci ildə 125 AZN təşkil etmişdir. Azərbaycanın regionlarında turizm infrastrukturunun genişləndirilməsi Bakı, Sumqayıt, Gəncə və s. şəhərlərin "hay-küyündən" bezənləri məzuniyyətlərini bölgələrdə keçirməyə sövq edir. Quba-Xaçmaz, Şəki-Zakatala, Lənkəran-Astara rayonlarında istirahət edənlərin sayı 2000-ci illə müqayisədə 2015-ci ildə təqribən 3 dəfə artmışdır. Lakin onu da qeyd edək ki, xarici ölkələrə (xüsusilə Türkiyəyə) istirahət məqsədilə gedənlərin sayı da ötən illərlə müqayisədə artmaqda davam edir.

Vəziyyətin proqnozu bazarın perspektiv inkişafını qiymətləndirməyə imkan verir və turizm müəssisələrinin fəaliyyətinin taktika və strategiyasının işlənilməsinin əsası sayılır. Proqnozun keyfiyyəti proqnozun nə qədər dərindən və kompleks aparılması, konyunkturanı (vəziyyəti) formalaşdıran amillərin qiymətləndərilməsi və inkişafı ilə izah olunur. Turizm bazarının gələcəkdə vəziyyətinin mümkünlüyünün elmi əsaslandırılmış təklifləri kimi proqnoz xüsusiyyətlərinə aiddir:
- ehtimal (mümkünlük) xarakteri (proqnozlaşdırma bazarda gələcək vəziyyətə xas olan qeyri-müəyyənliyi tam aradan qaldırmaq iqtidarında deyil);
-alternativlik (bu və ya digər vəziyyət əmələgətirən amillərin üstünlüyündən asılı olaraq mümkün inkişaf variantlarının hazırlanmasının zəruriliyi).

Turizm bazarının vəziyyətinin proqnozlaşdırılmasının əsas prinsiplərinə aiddir:
• sistemlilik, yəni, vəziyyət əmələ gətirən amillərin qarşılıqlı əlaqəsinin maksimal dərəcədə mümkün qeydiyyatı;
• optimallaşdırma, yəni, məntiq əsasında amillərin qarşılıqlı əlaqəsini təhlil etmək;
• proqnozlaşdırma üçün seçim bazası, yəni bazarda ekstrimal vəziyyəti səciyyələndirən məlumatların nəzərə alınması;
• diskont etmək, köhnələrlə müqayisədə yeni informasinın üstünlüyünü müəyyən etmək.

Konyuktur proqnozlar qısa (1 ilədək), orta (1-5 il), uzunmüddətli (5 ildən çox) olur. Müəssisənin operativ tələbatı üçün işlədilən proqnozlar adətən qısamüddətli olur. Bəzi hallarda orta və uzunmüddətli proqnozların təkmilləşdirilməsinə zərurət yaranır. Bu, müəssisənin gələcək inkişafının strategiyasının formalaşması ilə bağlı olur. Belə vəziyyətdə alınan qiymət hər şeydən əvvəl orta xarakter daşıyır və bazar proseslərinin ümumi meylini proqnozlaşdırır.

Bazarın öyrənilməsində mühüm vəzifələrdən biri onun tutumunun müəyyən edilməsidir. Bu göstərici konkret bazarda prinsipial işləmək imkanını nümayiş etdirir.

Bazarın tutumu- bazarda müəyyən dövr (bir qayda olaraq 1 ildə) ərzində realizə edilən turizm xidmətlərinin mümkün potensial həcmidir. O, əhalinin alıcılıq qabiliyyəti tələbinin həcmindən, qiymətlərin səviyyəsindən, turizm təklifinin xarakterindən asılıdır. Bazarın tutumunun hesablanması istehlakçı tələbinə əsaslanır. Burada əhalinin sayının qeydiyyatı, ailənin büdcəsində turizmə ayrılan xərcin payı nəzərə alınır. Bu göstəricilər turizm məhsulu almaq iqtidarında olanların sayını müəyyənləşdirməyə imkan verir.

Bazarın tutumu natural (turistlərin sayı) və dəyərcə (turizmdən daxil olmalar) formada hesablanır. Bazarın tutumunu və buradakı dəyişiklikləri bilməklə turizm müəssisəsi özü üçün bu və ya digər bazarın perspektivliyini qiymətləndirmək imkanı əldə edir. Müəssisənin imkanları ilə müqayisədə tutumu aşağı olan bazarda işləməyin əhəmiyyəti yoxdur. Onu da qeyd etmək lazımdır ki, tutumu yüksək olan bazar heç də həmişə mənimsənilmək üçün əlverişli imkanlara malik olmur. Belə bazarda rəqabət güclü ola bilər, istehlakçıların rəqiblərin xidmətlərinə tələbatı yüksək səviyyədə ola bilər: bazarda daim işləmək üçün nəzərə alınacaq digər amillər də vardır.

Bazarın tutumundan başqa marketinq tədqiqatlarında geniş işlədilən digər göstərici - bazarın payıdır. Bu, müəssisənin marketinq gücünü kifayət qədər həqiqi əks etdirir. Bazarın miqdarca payı müəssisənin məhsulunun satış həcminin həmin bazarda ümumi satışa görə nisbəti faizlə müəyyən edilir. Satışın həcminə görə hesablanan bazarın payı (həm natural, həm də dəyərcə) müəssisənin mənimsədikləri bazar potensialı cəhətdən rəqabətə dözümlülük səviyyəsini qiymətləndirməyə imkan verir. Marketinq konsepsiyasından istifadə edən turizm müəssisəsinin bazarın tutumu və payı haqqında məlumatı olmalıdır. Əks halda, bazar vəziyyətində dəyişikliklərə reaksiya vermək, öz münasibətini bildirmək mümkün olmaz.

Beləliklə, Azərbaycanın turizm bazarında marketinq tədqiqatlarının aparılması məqsədilə aşağıdakıları həyata keçirmək məqsədəuyğundur:

- turizm bazarının növünü marketinq fəaliyyətinin xüsusiyyətinə görə müəyyən etmək;
- turizm bazarında konyunkturanı (vəziyyəti) və onu əmələ gətirən amilləri qiymətləndirmək;
- turizm bazarında vəziyyəti araşdırmaq məqsədilə sorğuda iri şəhərlərlə yanaşı, bölgələrdən də respondentlərin iştirakını təmin etmək;
- turizm bazarının tutumu və payını müəyyənləşdirmək;
- milli turizm bazarında getmə turizminin üstünlük təşkil etməsinin səbəblərini əsaslandırmaq;
- turizm bazarında gəlmə turizmini məhdudlaşdıran maneələri araşdırmaq və s.

Turizm bazarında marketinq tədqiqatları düzgün təşkil edilərsə, bu halda Azərbaycanın turizm bazarının tipi də (səmərəsiz, böyüyən, dəyişkən və s.) aydın olar.

# VIII F Ə S İ L. AZƏRBAYCANDA TURİZM BAZARININ ÜMUMİ VƏZİYYƏTİ

Azərbaycanda turizm bazarının müasir durumu onun təşkilatı strukturunda (xüsusilə turizm biznesinin yaradılmasında), inkişafının istiqamətləndirilməsində, keyfiyyət və kəmiyyətcə səciyyəsində təzadlarla xarakterizə olunur. Respublikada zəngin təbii ehtiyat imkanlarından turizm məqsədilə istifadə olunmasında əngəlliklərin mövcudluğu, təbii ehtiyat potensialından lazımi səviyyədə istifadə olunmaması, turizm sənayesi və qonaqpərvərliyin inkişafına təsir edən infrastrukturun hələ də yaradılmaqda davam etdirilməsi, istirahətin qısamüddətli təşkili, turizm sektoruna yatırım qoymaq istəyən yerli sahibkarların inamsızlığı və digər səbəblər ucbatından turizm bazarı tam formalaşmamışdır. Bu bazar inkişaf etməkdə olan bazar kimi qiymətləndirilə bilər.

Turizm bazarının digər bazarlarla müqayisədə çox mürəkkəb olması məlumdur, çünki, bu bazarın məhsulu birbaşa satılmır. Turizm bazarının məhsulunun satılmasında vasitəçilər (mehmanxana, turoperator, turagent və b.) mühüm rol oynayır. Turizm bazarının səmərəli təşkili bu vasitəçilərin (xüsusilə turoperator və turagentliklərin) işindən çox asılıdır. Lakin bu sahədə də hələ boşluqlar mövcuddur. Bu vəziyyət turizm bazarında getmə və gəlmə turizminin nisbətində özünü qabarıq göstərir. Belə ki, turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin xəttilə Azərbaycana gələn turistlərin sayı artaraq 766 nəfərdən (2000-ci il) 23440 nəfərədək (2012-ci) yüksəlsə də, respublikadan xarici ölkələrə göndərilən turistlərin sayı hələ də yüksək olaraq qalır.



Cədvəl 8.1

**Azərbaycanın turizm bazarının inkişaf dinamikası**

| İllər | Gələn turistlərin sayı, min. nəfər | Turizmdən daxil olmalar, mln. doll. |
|---|---|---|
| 2000 | 766 | 63 |
| 2005 | 861 | 78 |
| 2010 | 1.495 | 657 |
| 2011 | 1.562 | 1.287 |
| 2012 | 1.986 | 2.433 |
| 2013 | 2.130 | 2.365 |
| 2014 | 2.160 | 2.432 |

**Mənbə: UNWTO Tourism Highlights, 2015**

Azərbaycanın əksər rayonlarında zəngin təbii-ehtiyat imkanlarından səmərəli istifadə olunmasında çətinliklər mövcüddur. Respublikada mövcüd təbii ehtiyat potensialından kifayət qədər istifadə edilmir. Bu isə ölkəyə valyuta gətirə bilən mühüm mənbəyə çevrilə bilər. Turizm sənayesi və qonaqpərvərliyin inkişafına təsir edən infrastruktur, qısamüddətli istirahət, biznesmenlərin xarici ölkə alimləri ilə müştərək işləri inkişaf etməmişdir. Bu, həm iqtisadi, həm də elmi-texniki baxımdan çox gəlir gətirə bilər.

Azərbaycanda iqtisadi institutların transformasiyası hələ davam edir. Turizm milli iqtisadiyyatın dinamik inkişafı olmadan yüksələ bilməz. Digər tərəfdən də iqtisadiyyatın inkişafı xidmət sahələrinin, xüsusilə turizm biznesinin inkişafından kənarda qeyri-mümkündür.

Doğrudur, respublika neft istehsalı, neft məhsullarından çox yüksək gəlir götürmək imkanlarına malikdir. Lakin neftlə zəngin olan ölkələrin (Səudiyyə Ərəbistanı, BƏƏ, Küveyt və b.) təcrübəsindən məlumdur ki, neftdən əldə edilən gəlir hesabına xidmət sahələrinin, xüsusilə, turizmin inkişafı bu sahədən yüksək gəlir əldə etməklə ölkə iqtisadiyyatında mühüm yer tutur.

Azərbaycanın turizm bazarı inkişaf etməkdə olan bazardır və bu bazarda hələ yüksək rəqabətdən söhbət gedə bilməz. Bazarın zəif olmasının bir sıra səbəbləri vardır. Bunlar aşağıdakılardır:

- Turizm haqqında AR Qanununda bəzi boşluqlarların olması;
- turizm sənayesinin yüksək və normal inkişafı üçün kapital çatışmaması;
- turizm xidmətləri və turizm məhsulu (turməhsul) istehsalının aşağı səviyyəsi;
- turizm sənayesinə yatırımın zəif olması;
- məhdud gəlir, kapital yığımının az olması;
- turizm xidmətlərinə zəif tələbat və s.

Azərbaycanda turizm bazarının inkişafı məqsədilə aşağıda göstərilənlərin həyata keçirilməsi vacibdir:

- turizm bazarını formalaşdıran amillərin qiymətləndirilməsi və bu amillərdən səmərəli istifadə olunması;
- turizm sektoruna yatırım qoyulmasında müxtəlif istiqamətlərin seçilməsi;
- turizm bazarında mühüm obyekt olan turməhsulun keyfiyyətinin yüksəldilməsi;
- turizm bazarında xidmətin səviyyəsinin yüksəldilməsi;
- turizm bazarının təşkilatçılarının fəaliyyətinin səmərəli təşkili və s.

Göstərilən bu və ya digər təkliflərin reallaşdırılması Azərbaycan Respublikasında turizm bazarının inkişafına imkan yarada bilər.

## 8.1. Gəlmə turizm bazarı

Ötən illərlə müqayisədə 2014-cü ildə Azərbaycana gələnlərin sayı artmışdır. Ölkəyə gələn xarici vətəndaşların sayı 2,2 mln.-a çatmışdır. 2005-ci ildə isə bu göstərici 861 min nəfər təşkil edirdi.



Cədvəl 8.1.1

**Azərbaycana turizm təşkilatlarının xəttilə ölkələr üzrə qəbul edilmiş turistlərin sayı, nəfərlə (gəlmə turizm bazarı)**

| Ölkələr | İllər | | | |
|---|---|---|---|---|
| | **2005** | **2008** | **2010** | **2014** |
| Azərbaycan Respublikası (daxili turizm) | 19191 | 5715 | 5495 | 210 |
| Gürcüstan | - | 152 | 47 | 154 |
| Qazaxıstan | - | 59 | 21 | 26 |
| Rusiya | - | 721 | 7926 | 4192 |
| Ukrayna | - | 84 | 31 | 37 |
| Türkiyə | 1953 | 2143 | 410 | 4174 |
| B.Britaniya | 190 | 122 | 92 | 40 |
| Almaniya | 544 | 190 | 42 | 91 |
| İspaniya | 10 | 72 | 31 | 491 |
| İtaliya | 53 | 194 | 32 | 125 |
| Fransa | 169 | 187 | 24 | 105 |
| Finlandiya | 4 | 17 | 22 | 16 |
| BƏƏ | 154 | 90 | 4 | 12 |
| Misir | 27 | 195 | - | 2 |
| İran | 1567 | 6159 | 1942 | 14 |
| ABŞ | 374 | 299 | 117 | 37 |
| Çexiya Respublikası | - | - | 30 | 4 |
| Çin | - | - | 30 | 9 |
| Digər ölkələr | 3232 | 2889 | 1345 | 918 |
| **Cəmi:** | **28524** | **19288** | **17641** | **10657** |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Xarici ölkələrdən səfər edən turistlərin sayına görə ilk üçlüyə Rusiya, Türkiyə, İspaniya daxildir (cəd., 8.1.1). Xarici ölkələrdən əsasən istirahət və əyləncə turizmi, qohumların, dostların ziyarəti məqsədilə gələnlərin sayı üstünlük təşkil edir (cəd., 8.1.2.)

Cədvəl 8.1.2

**Azərbaycana məqsədinə görə xarici ölkələrdən gələnlərin sayı, min nəfərlə**

| İllər | 2005-ci il | 2008-ci il | 2010-cu il | 2014-ci il |
|---|---|---|---|---|
| Cəmi: | 1282.1 | 1898.9 | 1962.9 | 2297.8 |
| o cümlədən səfərlərin məqsədləri üzrə: | | | | |
| turizm məqsədilə | 692.7 | 1042.5 | 1279.8 | 2159.7 |
| onlardan: | | | | |
| istirahət, əyləncə turizmi | 404.5 | 608.8 | 661.7 | 709.9 |
| işgüzar turizm | 261.8 | 394.1 | 547.6 | 670.5 |
| müalicə turizmi | 7.6 | 11.5 | 14.1 | 46.3 |
| dini turizm | 4.2 | 6.3 | 10.2 | 13.7 |
| qohumların, dostların ziyarəti | - | - | - | 677.1 |
| digər turizm məqsədilə | 14.6 | 21.8 | 46.2 | 42.2 |
| digər məqsədlə | 589.4 | 856.4 | 683.1 | 138.1 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Araşdırmalardan aydın olur ki, Azərbaycana xarici ölkələrdən səfər edənlərin sayı həmişə oldugu kimi respublikamıza gələnlərin sayından yüksəkdir. Rəqabət mühitində Azərbaycanın daxili turizm bazarında qiymətlərin ötən illərə nisbətən aşağı olacağına şübhə yoxdur.

## 8.2. Getmə turizm bazarı

Turizm bazarı genişləndikcə bu bazarda rəqabət mübarizəsi güclənir. Turizm bazarında rəqabət mübarizəsi aşağıdakı istiqamətlər üzrə aparılır:

- yüksək servis səviyyəsi saxlanılmaqla turizm xidmətlərinin maya dəyəri aşağı salınır;
- xarici turistlərin xeyrinə güzəşt kursunun müəyyənləşdirilməsi. Bu, iqtisadiyyatı beynəlxalq turizmdən yüksək dərəcədə asılı olan ölkələr üçün səciyyəvidir;



- orijinal turizm xidmətlərinin işlənilib hazırlanması, etibarlı müştəri tərkibinin qorunub saxlanılması, yaxud turistlərin qəbulu ərazisi üzərində nəzarət edilməsi. Bütün bunlar kiçik turizm agentlikləri üçün xarakterikdir;
- qarşılıqlı əlverişli şərtlərlə müstəqil agentliklərin iri topdansatış satellit (tərəfdar) şəbəkəsinə daxil edilməsi hesabına birliklərin yaradılması;
- turagentlik qrupları tərəfindən xüsusi konsorsiumların yaradılması;
- turagentliklərin fəaliyyətinin artıq formalaşmış firmalara (nəqliyyat şirkətləri, mehmanxana şəbəkələri) tabe edilməsi.

Cədvəl 8.2.1

**Azərbaycandan xarici ölkələrə məqsədinə görə gedənlərin sayı, min nəfərlə**

| İllər | 2005-ci il | 2008-ci il | 2010-cu il | 2014-ci il |
|---|---|---|---|---|
| Cəmi: | 1829,8 | 2162,4 | 3175,6 | 4244.3 |
| o cümlədən səfərlərin məqsədləri üzrə: | | | | |
| turizm məqsədilə | 886,9 | 1048,1 | 1819,6 | 3319.4 |
| onlardan: | | | | |
| istirahət, əyləncə turizmi | 331,7 | 392 | 729,3 | 1014.7 |
| işgüzar turizm | 511,7 | 604,7 | 986,3 | 1277.8 |
| müalicə turizmi | 23,1 | 27,3 | 43,7 | 169.8 |
| dini turizm | 15 | 17,8 | 41,3 | 117.8 |
| qohumların, dostların ziyarəti | - | - | - | 565.0 |
| digər turizm məqsədilə | 5,4 | 6,3 | 19,0 | 174.3 |
| digər məqsədlə | 942,9 | 1114,3 | 1356,0 | 924.9 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Cədvəlin məlumatlarının təhlili sübut edir ki, respublikamızda getmə turizm bazarında sürətli artım mövcuddur. 2005-ci ildə turizm məqsədilə xarici ölkələrə səfər edənlərin sayı 886,9 min nəfər təşkil etmişdirsə, 2014-cü ildə bu göstərici 3,3 mln.-u ötmüşdür. Bu, bir tərəfdən əhalinin gəlirlərinin yüksək

olması, sosial həyat şəraitinin yüksəlməsi kimi qəbul edilsə də, digər məlum səbəblər də vardır.

**Cədvəl 8.2.2**

**Azərbaycandan turizm təşkilatlarının xəttilə göndərilmiş turistlərin ölkələr üzrə sayı, nəfərlə**

| Ölkələr | İllər | | | |
|---|---|---|---|---|
| | **2005** | **2008** | **2010** | **2014** |
| Azərbaycan Respublikası (daxili turizm) | 5802 | 8439 | 7561 | 13200 |
| Gürcüstan | - | 147 | 687 | 1187 |
| Qazaxıstan | - | 179 | 30 | 462 |
| Rusiya | - | 5675 | 14522 | 11181 |
| Ukrayna | - | 138 | 457 | 671 |
| Türkiyə | 1042 | 5033 | 11118 | 31231 |
| B.Britaniya | 152 | 377 | 370 | 804 |
| Almaniya | 127 | 418 | 855 | 1267 |
| İspaniya | 38 | 107 | 302 | 612 |
| İtaliya | 234 | 408 | 483 | 802 |
| Fransa | 197 | 396 | 434 | 617 |
| Finlandiya | 72 | 46 | 532 | 10 |
| BƏƏ | 8516 | 8037 | 7712 | 6376 |
| Misir | 406 | 161 | 570 | 71 |
| İran | 1046 | 7808 | 2266 | 2513 |
| ABŞ | 64 | 159 | 126 | 150 |



**Cədvəl 8.2.2-in davamı**

| | | | | |
|---|---|---|---|---|
| Digər ölkələr | 3327 | 2791 | 2810 | 10494 |
| **Cəmi:** | **21868** | **40319** | **52282** | **81648** |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Azərbaycanın daxili turizm bazarında qiymətlər ötən illərə nisbətən aşağı olmuşdur. Buna baxmayaraq, respublikamızın getmə turizm bazarında Turkiyə, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, İran İslam Respublikasına turist səfərləri edən Azərbaycan vətəndaşlarının sayı yüksək olaraq qalmışdır.

**Cədvəl 8.2.3**

**Azərbaycanın gəlmə və getmə turizm bazarında real vəziyyət (2014-cü il)**

| Ölkələr | Azərbaycana gələn xarici vətəndaşların sayı, nəfərlə | | Xarici ölkələrə səfər edən Azərbaycan vətəndaşlarının sayı, nəfərlə | |
|---|---|---|---|---|
| | **cəmi** | **turizm məqsədilə** | **cəmi** | **turizm məqsədilə** |
| | **2297804** | **2159722** | **4244290** | **3319405** |
| ABŞ | 14 543 | 14 296 | 28 352 | 26 474 |
| Avstraliya | 2 161 | 2 126 | 4 159 | 3 590 |
| Avstriya | 2 884 | 2 806 | 25 126 | 22 438 |
| Almaniya | 13 838 | 13 354 | 89 130 | 74 691 |
| BƏƏ | 821 | 807 | 92 059 | 90 065 |
| Belarus | 9 256 | 8 841 | 78 562 | 64 106 |
| Belçika | 1 908 | 1 837 | 17 402 | 14 356 |
| Bolqarıstan | 2 324 | 2 268 | 36 925 | 31 197 |
| Böyük Britaniya | 33 563 | 32 590 | 91 677 | 82 142 |
| Braziliya | 729 | 729 | 467 | 375 |

**Cədvəl 8.2.3-ün davamı**

| | | | | |
|---|---|---|---|---|
| Venesuella | 248 | 248 | 132 | 122 |
| Vyetnam | 184 | 179 | 3 183 | 2 811 |
| Qazaxıstan | 29 468 | 28 171 | 34 379 | 26 231 |
| Qətər | 292 | 281 | 424 | 335 |
| Qırğızıstan | 2 556 | 2 461 | 7 597 | 5 797 |
| Danimarka | 1 027 | 1 019 | 16 553 | 13 457 |
| Estoniya | 878 | 821 | 13 582 | 10 331 |
| İndoneziya | 686 | 636 | 4 287 | 3 014 |
| İordaniya | 510 | 479 | 8 149 | 5 990 |
| İraq | 738 | 718 | 4 329 | 3 043 |
| İran | 131179 | 126719 | 827 212 | 647 077 |
| İrlandiya | 1 326 | 1 284 | 1 655 | 1 313 |
| İsveç | 1 874 | 1 803 | 20 839 | 18 718 |
| İsveçrə | 1 774 | 1 687 | 29 668 | 26 374 |
| İslandiya | 828 | 780 | 806 | 618 |
| İspaniya | 3 000 | 2 868 | 20 457 | 16 734 |
| İsrail | 7 534 | 7 391 | 53 308 | 41 740 |
| İtaliya | 9 605 | 9 134 | 34 379 | 29 634 |
| Yaponiya | 2 607 | 2 367 | 2 207 | 1 940 |
| Yeni Zelandiya | 450 | 442 | 603 | 450 |
| Yunanıstan | 1 712 | 1 695 | 3 183 | 2 715 |
| Kanada | 2 501 | 2 476 | 3 777 | 2 750 |
| Kolumbiya | 432 | 432 | 42 | 31 |
| Küveyt | 419 | 419 | 1 532 | 1 117 |
| Latviya | 1 750 | 1 687 | 14 982 | 11 361 |
| Livan | 438 | 403 | 382 | 276 |
| Litva | 1 743 | 1 717 | 10 292 | 8 131 |
| Makedoniya | 283 | 273 | 845 | 616 |
| Malaziya | 2 161 | 1 958 | 3 990 | 2 924 |
| Mərakeş | 264 | 255 | 2 334 | 1 837 |
| Macarıstan | 2 536 | 2 397 | 17 529 | 13 480 |
| Misir | 786 | 772 | 212 | 167 |
| Moldova | 5 843 | 5 627 | 12 690 | 9 987 |
| Niderland | 4 425 | 4 283 | 10 144 | 8 247 |
| Norveç | 2 056 | 2 040 | 5 730 | 4 515 |
| Pakistan | 1 817 | 1 699 | 8 955 | 6 152 |
| Polşa | 4 209 | 4 045 | 26 442 | 20 228 |
| Portuqaliya | 735 | 716 | 4 754 | 4 409 |



**Cədvəl 8.2.3-ün davamı**

| | | | | |
|---|---|---|---|---|
| Rumıniya | 2 052 | 1 992 | 19 227 | 15 362 |
| Rusiya Federasiyası | 843 851 | 792 376 | 856 498 | 652 908 |
| Serbiya | 1 573 | 1 573 | 806 | 635 |
| Sinqapur | 501 | 476 | 1 358 | 1 069 |
| Slovakiya | 783 | 737 | 5 560 | 4 854 |
| Suriya | 313 | 282 | 1 301 | 907 |
| Tailand | 324 | 311 | 3 828 | 2 630 |
| Tacikistan | 1 285 | 1 182 | 11 969 | 9 192 |
| Türkmənistan | 5 398 | 4 810 | 13 412 | 10 099 |
| Türkiyə | 314 476 | 304 413 | 602 265 | 472 112 |
| Ukrayna | 58 201 | 54 185 | 76 907 | 61 107 |
| Filippin | 1 488 | 1 443 | 2 547 | 1 928 |
| Finlandiya | 913 | 895 | 21 561 | 19 125 |
| Fransa | 6 858 | 6 666 | 51 313 | 45 566 |
| Xorvatiya | 1 326 | 1 326 | 806 | 635 |
| Çexiya Respublikası | 1 709 | 1 677 | 21 603 | 20 653 |
| Çin | 5 930 | 5 770 | 25 551 | 18 559 |
| Hindistan | 4 853 | 4 853 | 12 988 | 9 987 |
| Cənubi Afrika | 1 048 | 1 048 | 382 | 285 |
| Koreya Respublikası | 3 368 | 3 368 | 1 511 | 1 038 |
| Gürcüstan | 699 532 | 640 072 | 773 310 | 556 836 |
| Özbəkistan | 19 336 | 18 582 | 25 975 | 19 689 |
| Əlcəzair | 121 | 116 | 420 | 300 |
| Səudiyyə Ərəbistanı | 507 | 507 | 6 451 | 5 129 |
| Əfqanıstan | 674 | 653 | 806 | 575 |
| Digər ölkələr | - | 8483 | 30 510 | 24 119 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Respublikamıza gələn əcnəbi ziyarətçilərin arasında qonşu ölkələrin vətəndaşları daha çox olmuşdur. Belə ki, Rusiya Federasiyasından gələnlərin yekunda xüsusi çəkisi 36,7 %, Gürcüstandan gələnlər 29,6 %, Türkiyədən gələnlər 14,1 % və İrandan gələnlər 5,9 % təşkil etmişdir.

2014-cü ildə 4244,3 min nəfər Azərbaycan Respublikası vətəndaşı xarici ölkələrə səfər etmişdir. Ölkə vətəndaşlarının 3319,4 min nəfəri turizm məqsədi ilə səyahətə çıxmışdır. Həmvətənlərimiz digər xarici ölkələrə nisbətən daha çox qonşu ölkələrə səfər etmişlər. Rusiya Federasiyası, Gürcüstan, Türkiyə və İrana gedənlərin ümumi yekunda xüsusi çəkisi 70,2 % təşkil etmişdir (cəd.8.2.3).

### 8.3. Turizm bazarında şirkətlərin fəaliyyəti

Bütün səyahətlər - həm xarici, həm də daxili təşkil olunmuş və təşkil olunmamış növlərə ayrılır. Təşkil olunmuş turizm - şirkətin köməyi və vasitəçiliyi ilə fərdi və qrup şəklində ölkə daxilində və ya xarici ölkələrə olan turlardır.

Təşkil olunmamış turizm - səyahət edənlərin özləri tərəfindən ölkə daxili və ya xarici ölkələrə olan səyahətlərdir. Turizmə aid olan ədəbiyyatlarda təşkil olunmamış turizm "özfəaliyyət turizmi" kimi də adlandırılır. Ümumiyyətlə, təşkil olunmuş və "özfəaliyyət turizmi"nin xüsusi olaraq statistikası aparılmır. Lakin ekspertlərin hesablamalarına görə dünya turizminin ümumi miqdarının 35 faizi təşkil olunmuş turların, 65 faizi isə "özfəaliyyət turizmi"nin payına düşür.

Azərbaycanda gəlmə və getmə turizm göstəricilərinə nəzər saldıqda, onu qeyd etməliyik ki, respublikaya turizm təşkilatlarının xəttilə gələn turistlərin sayı 10657 nəfər, Azərbaycandan xarici ölkələrə gedən turistlərin sayı 81648 nəfər olmuşdur (2014-cü il). Həmin ildə turizm fəaliyyətindən əldə edilən gəlir 26031,0 min manat təşkil etmişdir.

Respublikadan xarici ölkələrə təşkil olunmuş şəkildə səfər edənlərin sayının ölkəyə gələnlərin sayından az olması bir tərəfdən müsbət hal kimi qəbul olunsa da, əvvəlki rəqəmlər onu sübut edir ki, respublikadan xarici ölkələrə gedən turistlərin sayı gələn turistlərin sayından çoxdur. Burada turizm şirkətlərinin fəaliyyəti də mühüm rol oynayır.



Turizm şirkəti (firma) - turizm xidmətlərinin alğı-satqısı sahəsində kommersiya əsasında vasitəçilik əməliyyatları ilə məşğul olan sahibkarlıq strukturudur. Turizm şirkətinin özü turizm xidmətləri istehsal etmir, bunun üçün onun zəruri istehsal vasitələri yoxdur. Turizm şirkəti istehlakçının tələbi ilə istehsalçıdan müxtəlif turist xidmətləri alır, bu xidmətlərin istehlakçısı və istehsalçısı arasında vasitəçi rolu oynayır. Turizm xidmətləri istehsalçıları mehmanxana və digər yerləşmə müəssisələri, iaşə və əyləncə müəssisələri və s.-dir.

Azərbaycan Respublikasında turizm biznesi ilə məşğul olmaq istəyən şirkətlərin sayı ildən - ilə artır. Müqayisə üçün qeyd edək ki, 2004-cü ilin yanvar ayına olan məlumata görə respublikada 128 hüquqi və fiziki şəxs turizm fəaliyyəti ilə məşğul olmaq üçün lisenziya almışdısa, 2014-cü ildə bunların sayı 277-ə çatmışdır. Bu şirkətlər milli qanunvericiliyə uyğun olaraq yaradılır və fəaliyyət göstərir. Lisenziyaların qiyməti 2007-ci ilin yanvar ayından artırılaraq, 500 dollardan 5000 AZN-a çatdırılmışdır. Bu, yerli sahibkarların müəyyən dərəcədə çətinliklərlə üzləşməsinə səbəb olmuşdur. Lisenziyası olan bu şirkətlər turizm üzrə ixtisaslaşmışlar. Xarici ölkələrə turist göndərmək üzrə lisenziyası olan şirkətlər, həm də ölkədən valyuta çıxarma (yəni getmə turizmi) ilə də məşğuldur. Lakin, az da olsa, beynəlxalq səviyyəyə çatmaq üçün müasir şərait və servisi təkmilləşdirmək məqsədilə daxili turizm və kapital yığımı ilə məşğul olan şirkətlər vardır. Bunların fəaliyyəti ilə Azərbaycana gələn xarici turistlərin sayı getdikcə artır. Azərbaycanda Kaspian Travel, İmproteks ekspress, Azərtur, Azal kimi şirkətlər fəaliyyət göstərir.

Respublikamıza xarici ölkələrdən səfər edənlərin ümumi sayı 2014-cü ildə 2297.8 min nəfər olmuşdur, bunların 10657 nəfəri turizm təşkilatlarının xəttilə gələnlərdir. Azərbaycanda turoperatorlar iki yerə ayrılır: inkaminq və insaydinq turoperatorları. İnkaminq turoperatorları öz ölkəsi ərazisində əcnəbi turistlər üçün turları hazırlayır, hərəkət istiqamətini və

təşkilini təmin edir. Əcnəbi turist qəbul edən turopenratorların fəaliyyəti birbaşa onları göndərən turoperatorlarla əlaqəlidir. Əcnəbi turist qəbul edən turoperatorlar onları göndərən turoperatorlar üçün qəbul, yerləşmə, turistlərin müvəqqəti qalma yerlərinə çatdırılması və digər xidmətləri təşkil edir. Yerli hakimiyyət orqanları üçün əcnəbi turistləri qəbul edən turoperatorların fəaliyyəti daha prioritet hesab olunur. Çünki, inkaminq turoperatorların fəaliyyəti turist qəbul edən ölkənin iqtisadiyyatında valyuta daxilolmalarının həcminə, işçi qüvvəsi bazarındakı vəziyyətə, infrastrukturun inkişaf səviyyəsinə və s. təsir edir. Əcnəbi turist qəbulunun təşkili turoperatordan konkret peşəkarlıq səviyyəsi və aşağıdakı problemləri səmərəli surətdə aradan qaldırmaq üçün iş təcrübəsi tələb edir:

-turizm məhsulunun layihələşdirilməsi və planlaşdırılmasında turoperatorun daxili modifikasiya imkanları əcnəbi turistlərin tələbatlarının xüsusiyyətləri ilə uzlaşdırılmalıdır;

-əcnəbi turist qəbulu turoperatorlardan turizm məhsulunun xarici turizm bazarlarında təmsil olunması üçün böyük zəhmət tələb edir;

-əcnəbi turist qəbulu üzrə ixtisaslaşmış turoperatorların fəaliyyəti turist qəbul edən ölkənin dünyadakı imic səviyyəsindən əsaslı surətdə asılıdır.

Öz ölkəsinə əcnəbi turistlərin qəbulu üzrə operatorun əsas funksiyası və onun yerinə yetirilməsi sxemdə göstərilmişdir (şək.1).

Ölkəyə qəbul edilən səfərlərin təşkili texnologiyasına aşağıdakılar aid edilir:

1. Ümumi planlaşdırma: xarici turizm bazarlarının seçilməsi və Azərbaycana səfərlərə olan tələbatın qiymətləndirilməsi. Bu göstəricilər xarici turizm bazarlarının vəziyyətinin öyrənilməsi nəticəsində müəyyən edilir. Marşrutların, proqramların, xidmətlər paketinin tərkibi və dərəcəsinin planlaşdırılması zamanı turist qəbul edən şirkətin maliyyə, maddi-texniki, insan ehtiyatlarının, xüsusilə onun mehmanxanada, nəqliyyatda və nümayiş obyektlərində zəruri xidmətləri təmin etmə imkanlarının nəzərə alınması vacibdir.



2. Xarici ölkələrdə göndərmə üzrə yerli turoperatorlar tərəfindən Azərbaycanın turizm məhsulunu xarici turizm bazarında irəlilətmək və satışı məqsədilə onlarla əməkdaşlıq etmək. Azərbaycanda xarici turistlərin qəbulu və xidmətin konkret şərtləri haqda onlarla razılaşmaq, buraya aiddir:

• xarici turistlərin ümumi sayı, qrupların miqdarı və tərkibinin sayı,

•qrupun gəlmə və getmə tarixi, beynəlxalq nəqliyyat növü,

•Azərbaycanda xarici turistlərin səyahətinin marşrut və proqramı (günlər üzrə),

• təklif olunan xidmət paketi, onun sayı və keyfiyyət tərkibi,

• xidmət paketinin qiyməti,




**Şəkil 1. Qəbul üzrə turoperatorun funksional strukturu**



• viza təminatı, hesablaşma (haqq-hesab) şərtləri, turların bronlaşdırılması və ləğvi, Azərbaycan tərəfindən xidmət şərtlərinin yerinə yetirilməsinə cavabdehlik, reklamasiya (iddia) qaydaları və digər mövcud şərtlər.

3. Xarici tərəflə turun şərtləri haqda sövdələşmə ilə yanaşı qəbul üzrə Azərbaycan turoperatoru yerli turizm xidmətləri tədarükçülərindən həmin xidmətlərin razılaşdırılmış müddət və miqdarda təqdim edilməsinə qəti fakta malik olmalıdır. Bu məqsədlə Azərbaycanın turizm şirkətləri lazımi xidmətlərin tədarükçüləri ilə müvafiq müqavilə bağlayır. Belə müqavilələr bağlayarkən zəruri xidmətlərin yerinə yetirilməsinə, həmçinin xarici turistlərə dəyən ziyan, onların həyatı, sağlamlığı və s. cavabdeh olmaları tədarükçülərlə qabaqcadan şərtləndirilir.

Qəbul üzrə turoperatorlar xarici turistlərə ekskursiya xidməti üçün xarici dildə yaxşı danışa bilən, öz ölkəsinin tarixi, mədəniyyəti və s. nümayiş obyektləri haqda tam məlumatı olan, yüksək ünsiyyət mədəniyyətinə malik olan təcrübəli gid-tərcüməçilərin dəvət olunmasına xüsusi fikir verməlidir.

4.Xarici bazarda turların satışının reklam kampaniyasının keçirilməsinə başlanılmasında qəbul üzrə Azərbaycan turoperatoru satış üzərində nəzarət qoymalıdır. Bu məqsədlə xarici turoperator Azərbaycan tərəfə müntəzəm olaraq brolnlaşdırılmış hər qrup üzrə satılmış turlar haqda məlumat göndərir. Azərbaycan tərəfi də öz növbəsində bronlaşdırılmış hər bir tur üçün xarici turistlərə viza təminatını yerinə yetirməlidir.

5. Xarici turistlərin Azərbaycana gəlməsi ərəfəsində Azərbaycan turoperatoru xarici tərəf müqabilindən avans ödəməsinin vaxtında daxil olmasını yoxlamalıdır. Eyni zamanda Azərbaycan müəssisələrinin xarici turistlərin qəbul üzrə xidmətə hazırlığı yoxlanılır, turistlərin mehmanxanaya gəlməsi vaxtı, onların sayı, iki və ya bir yerli nömrələrdə yerləşdirilməsi siyahısı, qidalanma vaxtı; menyu; qarşılama və yola salma üçün nəqliyyatın verilməsi vaxtı; muzey, teatr və s. biletlərin olması dəqiqləşdirilir.

6. Azərbaycan turoperatorları tərəfindən yerli razılaşdırılmış xidmət şərtləri tədarükçülərinə nəzarət xüsusi əhəmiyyətə malikdir. Bu məqsədlə turizm şirkəti xarici turistlərə xidmətin göstərilməsinə, yaranmış qüsurların cəld aradan qaldırılmasına və turistlərə dəyən ziyanın ödənilməsinə nəzarət edən öz məsul nümayəndəsini təyin edir.

Beynəlxalq turizm qaydalarına görə Azərbaycanda xarici turist qruplarının əksəriyyəti xarici turizm şirkəti nümayəndələrinin müşaiyəti ilə səyahət edir. Müşayiət edən, xidmətin səviyyəsinə nəzarət edir və qarşıya çıxan problemlərin aradan qaldırılmasına kömək edir. Yerli turizm şirkəti ilə xarici tərəf müqabili arasında sövdələşməyə görə müşayiət edən pulsuz qəbul edilir.

7. Azərbaycanda xarici turistlərin səfərinin sonunda yerli turizm şirkətinə tur iştirakçıları arasında anket sorğusu aparılması məsləhət bilinir. Cavablar turizm şirkətinə öz işinin keyfiyyəti haqda obyektiv qiyməti öyrənməyə və gələcəkdə turizm məhsulunu yaxşılaşdırmağa imkan verir. Xarici turistlər tərəfindən xidmətin təşkilinə görə şikayət meydana çıxarsa, ona dəyən ziyanın ödənilməsi üçün bütün mümkün tədbirlər görülür.

Beynəlxalq turların təşkilində ənənəvi (turoperator və turagent) təşkilatı strukturlarla yanaşı bu sferada digər sahələrin təşkilatları da fəal iştirak edir. Bunlara beynəlxalq aviaşirkətlər, mehmanxana şəbəkələri, sığorta cəmiyyətləri və s. aid edilir ki, bunlar öz əsas fəaliyyətləri ilə yanaşı turist xidmətləri satışı ilə məşğul olur. Qloballaşma proseslərinin inkişafı ilə əlaqədar turizm bazarında səyahətlərin təşkilində belə qeyri-ənənəvi təşkilatçıların rolu artır. Bu isə turoperator və turagentlərin fəaliyyətində daha mürəkkəb vəziyyətin yaranmasına səbəb ola bilər. Turizm bazarında öz prioritet mövqeyini saxlamaq arzusunda olan turizm şirkətləri belə vəziyyətlərdən çıxış yolu tapmağa hazır olmalıdırlar.Turist qəbulu üzrə turizm şirkətlərinin fəaliyyətinin səmərəli təşkili məqsədilə xarici ölkələrdə Azərbaycanın turizm nümayəndəliklərinin yaradılmasının və reklam-informasiya işlərinin gücləndirilməsinin vaxtı çoxdan çatmışdır. Bu cəhətdən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin müvafiq rəsmi təşkilatlar və orqanlarla əlaqəli fəaliyyət göstərməsi məqsədəuyğun olardı.



Turist göndərən turoperatorlar getmə turlarının realizə edilməsi və hərəkəti üzrə, yəni, öz ölkəsinin vətəndaşlarının ölkə regionlarına və ölkə hüdudlarından kənara səyahəti üzrə ixtisaslaşırlar. Bu, turoperator fəaliyyətinin ən çətin, böyük zəhmət və çoxlu kapital qoyuluşu tələb edən bir növüdür. Turist göndərən turoperatorlar digər turoperatorların təşkil etdiyi turları satan turagentlərdən fərqli olaraq turizm məhsulunun komplektləşdirilməsi ilə məşğul olurlar. Bu turizm məhsulu ÜTT-nın qəbul etdiyi normalara müvafiq olaraq ən azı üç xidmətdən (yerləşmə, turistlərin daşınması və bunlarla əlaqəli olmayan digər xidmətlər) təşkil olunmalıdır. Klassik turist göndərən turoperator çətin marşrut turlarını formalaşdırır, onları müxtəlif görüş yerlərindəki yerli turoperatorların xidmətləri ilə komplektləşdirir, səyahətin başlanğıc yerinə və geriyə hərəkəti təşkil edir və marşrut daxili nəqliyyat xidmətinin göstərilməsini təmin edir.

Turist göndərən turoperator fəaliyyətinin çətinliyi ilk növbədə satılan istiqamətin hərtərəfli öyrənilməsinin vacibliyindədir. Turoperator həm satılan otel nömrəsi, ekskursiya proqramı, transferlərin təşkili, ölkəyə giriş sənədləşməsinin ardıcıllığı və s. haqqında dolğun informasiyaya malik olmalı, həm də, yerli hakimiyyət orqanlarının siyasəti, ölkənin qanunları, adət və ənənələri, davranış normaları, turistin və onun əmlakının təhlükəsizliyinin təminatı məsələləri, yerli mətbəxin xüsusiyyətləri, istirahət və əyləncə müəssisələrinin işi və s. haqda ətraflı məlumatlara malik olmalıdır.Turist göndərən turoperator, həmçinin, marşrutu maksimal dəqiq bilməli və daha dolğun məlumatları əldə etmək üçün turoperatorluq işçilərini kurort-turizm mərkəzlərinə ezamiyyətə göndərməlidir. Turist göndərən turoperatorun fəaliyyətinin daha bir çətinliyi ondadır ki, turoperator əcnəbi tərəfdaşlarla (meet-kompaniyalar, ekskursiya büroları, nəqliyyat təşkilatları və s.)

işgüzar əlaqələrə malik olmalıdır.Turist göndərən turoperatorların fəaliyyətinin çətinliyini həm də, beynəlxalq hesablaşmaların zəruriliyi və turizm bazarına əsaslı təsirin göstərilməsi (iqtisadi, siyasi, ekoloji vəziyyət və s.) ilə də izah etmək olar.

Turist göndərən turoperator fəaliyyətinin çətinliyini göstərən yuxarıdakı amillərə baxmayaraq, getmə turizmi sahəsində beynəlxalq turoperatorlar arasında kəskin rəqabət şəraiti hökm sürür ki, bu da beynəlxalq turizmin bütün dünyada artım meylini təsdiq edir. Kommersiya maraqları naminə bütün yeni turoperator şirkətləri beynəlxalq getmə turizmi sahəsinə qoşulmağa və bu sahədə öz seqmentlərini yaratmağa çalışırlar.

Turist göndərən turoperatorlar turları iki yolla təşkil edirlər:

1.Turların turizm xidməti tədarükçüləri ilə turda iştirak edənlərin bilavasitə əlaqəsi ilə təşkili;

2.Turların vasitəçinin (vasitəçilərin)–meet-kompaniyanın iştirakı ilə təşkili.

Beynəlxalq getmə turlarının təşkilində hazırda ən böyük problemlərdən biri çox da böyük olmayan turist göndərən turoperatorlarla münasibətdə böyük meet-kompaniyaların lobbilərinin güclənməsi perspektivi hesab olunur. Belə ki, böyük meet-kompaniya hər zaman xidmətlərə aşağı qiymət verir və böyük olmayan turist göndərən turoperatorun onunla işləməkdən başqa çıxış yolu olmur. Belə böyük lobbili meet-kompaniyalar çox vaxt pik mövsümlərdə xidmətlərin qiymətini qaldırır, komission mükafatlandırmanın faizini azaldır, turoperator tərəfindən sifariş olunmuş otel nömrəsini və daşınma vasitələrini dəyişir və s.

Bu mənfi cəhətləri meet-kompaniya menecerləri ilə dost münasibətləri qurmaqla aradan qaldırmaq olar.

Meet-kompaniyalar əcnəbi turist qəbul edən turoperatorlardır. Turoperator fəaliyyətində əcnəbi qarşılayan kompaniyaların xidmətlərindən istifadə olunması otellərin bronlaşdırılması, transferlər, ekskursiya proqramı və s. təşkilindəki çətinliklərin aradan qaldırılmasına imkan verir.



Turist göndərən turoperatorların turları vasitəçi meet-kompaniyalarla təşkil etməsində meydana çıxan bəzi mənfi hallara baxmayaraq, Azərbaycana turist göndərən əksər turoperatorları məhz turların təşkilində əcnəbi meet-kompaniyalarla əməkdaşlıq edirlər.

Turist şirkətlərinin (operatorların) vətəndaşların xarici ölkələrə səfərlərinin təşkilində mühüm funksiyaları və bunların həyata keçirilmə ardıcıllığı sxematik olaraq göstərilir (şək.2). Xarici ölkələrə turların təşkili mərhələlərlə aparılır.

Turist göndərən və turist qəbul edən turoperatorlar öz aralarında müqavilə bağlayırlar. Müqavilədə bir sıra mühüm cəhətlərlə yanaşı planlaşdırılan və əlavə ekskursiyaların təşkili, nümayiş obyektlərinin ziyarəti hərtərəfli razılaşdırılmalıdır.

Etiraf edək ki, Azərbaycanda turoperatorlar əsasən xarici bazar üçün işləyirlər, daxili bazarda fəaliyyət göstərmək onlara sərf etmir. Ona görə ki, daxili turistlərin alıcılıq qabiliyyəti aşağıdır. Digər tərəfdən, ölkə daxilində xidmət səviyyəsi aşağı, qiymətlər isə yuxarıdır. Azərbaycan turoperatorlarının xarici ölkələrə turist göndərmələri valyutanın ölkədən çıxmasına səbəb olur. Respublikamızda turizmin inkişafına sərmayə qoyuluşuna ehtiyacı olduğu bir vaxtda turizm şirkətlərinin fəaliyyətini tam uğurlu hesab etmək yanlış olar. Onu da qeyd edək ki, Azərbaycanın turizm şirkətlərinin maraqları tez-tez ölkəmizin ərazisində fəaliyyəti üçün heç bir məhdudiyyəti olmayan xarici şirkətlərin maraqları ilə rastlaşır. Yaranan vəziyyət turizm xidmətləri bazarından Azərbaycanın turizm şirkətlərinin fəaliyyətini məhdudlaşdırır. Eyni və ya digər yaxşı halda Azərbaycan şirkətləri ilə müqayisədə xarici şirkətlərin tur məhsulları keyfiyyəti, qüvvətli maliyyə imkanları və güclü infrastruktur ilə fərqləndiyindən "təcavüzkar" siyasət aparırlar. Bu təbii haldır. Belə siyasəti "təcavüzkar" adlandırmaq da, nisbi qəbul edilməlidir. Çünki, iqtisadiyyatın bütün sahələrində, o cümlədən, turizm sektorunda rəqabətsiz yüksək inkişaf tempinə nail olmaq mümkün deyildir. Rəqabət isə bazarın mühüm atributlarından biridir.




**Şəkil 2. Göndərmə üzrə turoperatorun funksional strukturu**



Ona görə də xarici şirkətlərin bu siyasəti ölkədə turizm bazarının əsasını qoymuş Azərbaycanın turizm şirkətlərinin fəaliyyətini yaxın gələcəkdə tam məhdudlaşdıra bilməz. Lakin, Azərbaycanda fəaliyyət göstərən xarici turizm şirkətləri yerli turizm şirkətlərindən fərqli olaraq, gəliri ölkədə turizm infrastrukturunun inkişaf etdirilməsinə sərf etməməsi normal sayıla bilməz. Öz ölkələrində mühüm şirkətlərlə əlaqəli sistem onlara yerli vergilərdən qaçmağa da imkan verir. Xarici turizm şirkətləri öz hökumətlərinin dəstəyinə arxalanaraq, azərbaycanlı turistlərə getmə vizaları təşkil edir, bununla da Azərbaycanın turizm şirkətləri qarşısında beynəlxalq turizmin inkişaf etdirilməsində müəyyən mənada sədd yaradır.

# IV HİSSƏ
# AZƏRBAYCANIN İQTİSADİ RAYONLARINDA TURİZMİN VƏZİYYƏTİ

## IX FƏSİL. ABŞERON İQTİSADİ RAYONU

### 9.1. Rayon haqqında ümumi məlumat

İqtisadi rayon Azərbaycan Respublikasının şərqində, Xəzər dənizi sahilində yerləşir. Tərkibinə Bakı, Sumqayıt, Xırdalan şəhərləri, Abşeron, Xızı inzibati rayonları daxildir. Rayonun sahəsi (Bakı şəhəri daxil olmaqla) 5,87 min $km^2$-dir (respublika ərazisinin 6,7%-i). Ərazisinin 34%-i Abşeron yarımadasının payına düşür (cəd., 9.1).

**Cədvəl 9.1.**

**Abşeron iqtisadi rayonunun tərkibi, ərazisi, əhalisi**

| İnzibatı rayon və şəhərlər | Ərazi, min kv. km | Ölkə ərazisinə görə, %-lə | Əhalinin sayı, min nəfər (01.01.2015-ci il) | Ölkənin ümumi əhalisinə görə, %-lə |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası | **86,6** | **100** | **9593,0** | **100** |
| Abşeron iqtisadi rayonu - cəmi: | **5,87** | 6,77 | **2756,0** | **28,7** |
| Bakı şəhəri | 2,14 | 2,47 | 2204,2 | 22,97 |
| Xızı rayonu | 1,67 | 1,90 | 16,1 | 0,16 |
| Abşeron rayonu | 1,97 | 2,27 | 202,8 | 2,1 |
| Sumqayıt şəhər ə/d | 0,09 | 0,1 | 332,9 | 3,47 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**



Abşeron iqtisadi rayonu simal-qərbdən Quba-Xaçmaz, qərbdən Dağlıq Şirvan, cənub-qərbdən Aran iqtisadi rayonları ilə həmsərhəddir. Şimal, şərq və cənubdan isə Xəzər dənizi ilə əhatə olunmuşdur ki, bu da nəqliyyat əlaqələrinin genişləndirilməsinə imkan yaradır. Azərbaycanın ən mühüm dəmiryolu, avtomobil, su və hava xətləri bu rayonun ərazisindən keçir. Rayonun əhalisinin ümumi sayı 2,76 mln. nəfər (respublika əhalisinin 28,7%-i), urbanizasiya səviyyəsi isə 80%-ə qədərdir. Bunun əsas səbəbi kənd və qəsəbələrdən işləmək üçün əhalinin Bakıya kütləvi axınının olmasıdır. Abşeron iqtisadi rayonunda yaşayan əhalinin həyat səviyyəsi, təhsil və mədəni səviyyəsi digər bölgələrə nisbətən yüksəkdir.

İqtisadi rayonun sənaye strukturunda kimya və neft-kimya sənayesi aparıcı yer tutur. Burada qara və əlvan metallurgiya sənayesi də mühüm əhəmiyyətə malikdir. İqtisadi rayonun tikinti sənayesi müəssisələrində şüşə. polimer tikinti materialları və s. istehsal olunur. İqtisadi rayonda kənd təsərrüfatının əsasını şəhərətrafı təsərrüfat kompleksinə daxil olan südlük-ətlik maldarlıq, quşçuluq, qoyunçuluq, tərəvəzçilik, bostançılıq, üzümçülük, gülçülük və quru subtropik meyvəçilik təşkil edir. Aqroiqlim şəraiti zeytun, zəfəran, püstə, badam, əncir, ağ və qara şanı üzüm sortlarının, qarpız və digər kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə imkan verir.

Bu rayonun əlverişli coğrafi mövqeyə, inkişaf etmiş nəqliyyat şəbəkəsinə, kifayət qədər yüksək səviyyəli xidmət sahələrinə, müxtəlif əyləncə imkanlarına malik olması, əsas turist marşrutlarının Bakıdan başlaması və digər üstünlükləri turizmin inkişafı üçün çox cazibədar görünür. Lakin, Abşeron iqtisadi rayonunda müşahidə olunan sosial gərginliklər bu imkanlardan istifadəni müəyyən dərəcədə məhdudlaşdırır. Bu sosial gərginlikləri yaradan səbəblər çoxdur. Belə ki, Azərbaycanın sənaye potensialının 70%- nin bu ərazidə cəmləşməsi, Bakının görkəminin müasirləşdirilməsi və infrastrukturun genişləndirilməsi istiqamətində aparılan quruculuq işləri ilə əlaqədar əmək ehtiyatlarının kütləvi sürətdə paytaxta

miqrasiyası, yüksək urbanizasiya səviyyəsinin və yüklənmənin müşahidə olunması və bir sıra təbii amillər səbəbindən ərazidə ekoloji və sosial gərginliyin artması ilə nəticələnmişdir. Həmçinin, bölgənin ən böyük turizm potensialı olan Xəzər dənizi sahillərinin çimərlik zonasından tam istifadə olunması qeyri-mümkündür. Buna səbəb dəniz sahillərinə çirkli suların axıdılması və neft hasilatı nəticəsində yüksək çirklənməyə məruz qalmasıdır. Bu sosial amillərin həll olunmaması bölgədə turizmin inkişafına mənfi təsir göstərir. Digər tərəfdən, sahillərin xeyli hissəsinin özəlləşdirilməsi onlardan istifadəni məhdudlaşdırır.

2010-cu ilin "Ekologiya ili" və 2011-ci ilin "Turizm ili" kimi elan olunması, 2012-ci ildə Avroviziya beynəlxalq mahnı müsabiqəsinin, 2015-ci ildə I Avropa idman oyunlarının Bakıda keçirilməsi bölgədə turizmin inkişafı üçün geniş imkanlar açmışdır. Turizmin maddi-texniki bazası təkmilləşdirilmiş, ehtiyatlardan səmərəli istifadə olunmaqla ölkəmizin mədəni-tarixi irsi geniş miqyasda tanıdılmışdır.

Abşeron turizm bölgəsi sosial infrastruktur baxımından yüksək səviyyədə təmin olunmuşdur. Magistral yolların beynəlxalq standartlara uyğun inşası, dünya mehmanxana şəbəkəsinə daxil olan beynəlxalq səviyyəli yeni yerləşmə müəssisələrinin fəaliyyətə başlaması bölgənin turizm destinasiyasına çevrilməsinə geniş imkan yaradır.

İqtisadi rayonun turizm üzrə ixtisaslaşması dərketmə, müalicə-sağlamlıq, işgüzar istiqamətindədir. İqtisadi rayon balneoloji sərvətlərlə zəngindir. Təbii rekreasiya ehtiyatları kimi balneoloji iqlim, Masazır və digər göllərin müalicəvi palçığı, Şıx və Suraxanıda isti mineral bulaqlar, Xəzər dənizinin qumlu çimərlikləri, günəşli havası sağlamlıq turizm fəaliyyəti üçün əlverişlidir. Bölgədə Cənnət Bağı istirahət kompleksi (Xızı), sanatoriya-kurort mərkəzləri (Bilgəh, Mərdəkan, Buzovna) fəaliyyət göstərir.

Dərketmə turizmin mühüm mərkəzi Bakı şəhəridir. Şəhərdə gəlmə və getmə turizmi inkişaf etmişdir. Maraqlı tarixi abidələr: Bakıdakı İçərişəhər komplesi, Bibiheybət məscidi, Suraxanıdakı Atəşgah məbədi, Mərdəkan qüllələri və qalaları, Nardaranda dairəvi qüllə və Dövlət Tarix-memarlıq qoruğu, Ramana qalası, Qala Dövlət Tarix-etnoqrafik qoruğu və başqalarıdır. Şəhərdən 70 km cənubda Qobustan Dövlət tarixi-bədii qoruğu yerləşir. Bakının cənub-qərbində "Şıx" kurort kompleksi salınmışdır. Turistlərin Bakıdan 4 istiqamətdə: respublikanın qərb, şimal-qərb, şimal və cənub bölgələrinə səyahətə çıxmaq imkanı vardır. XX əsrin 90-cı illərindən Bakıda işgüzar görüşlər, sərgilər və s. turizm hay-küyünə səbəb olmuşdur. Şəhərdə beynəlxalq standartlara cavab verən müasir mehmanxanalar inşa edilmişdir. Azərbaycan üzrə yerləşmə vasitələrində olan nömrələrin 41,2%-i, birdəfəlik tutumun 30,9%-i Bakının payına düşür. Respublikada fəaliyyət göstərən milli, avropa, türk və hind mətbəxli ictimai yeməkxanaların əksəriyyəti Bakıda yerləşir. Bakıya gələn turistlərin sayı ildən-ilə artır. 2014-cü ildə turizm təşkilatlarının xəttilə Azərbaycana səfər edən turistlərin (10657 nəfər) 98,5%-i Bakının payına düşmüşdür. Bakıya gələnlərin 14,5 mini turizm şirkətlərinin xəttilə olmuşdur. Müstəqilliyin ilk illərindən xarici ölkələrdən (Türkiyə, İran, Rusiya, B.Britaniya və b.) Bakıya əcnəbi turistlər əsasən işgüzar məqsədlə gəlirdisə, sonralar istirahət, müalicə-kurort və digər məqsədlərlə də səfər edirlər. Azərbaycanda beynəlxalq tədbirlərin keçirilməsi Bakıda müasir idman kompleksləri və əyləncə müəssisələrinin yaradılmasına səbəb olmuşdur. Bakı Əyləncə Mərkəzi, Akvapark, Lido, Lunaparkda xarici turistlərə də xidmət göstərilir. Abşeron turizm bölgəsinin perspektivləri genişdir.



### 9.2. Rayonun turizm-rekreasiya ehtiyatları

***Təbii rekreasiya ehtiyatları.*** Abşeron iqtisadi rayonu Abşeron yarımadasını, Cənubi, Mərkəzi, Şimali Qobustanı, Baş Qafqaz silsiləsinin cənub-şərq davamında yerləşən alçaq dağlığı, həmçinin Abşeron yarımadasından şərqdə və cənubda

yerləşən bir sıra adaları (Pirallahı, Çilov, Böyük Tava, Kiçik Tava, Qum, Böyük Zirə, Daş Zirə və s.) əhatə edir. Abşeron iqtisadi rayonunun relyefinin formalaşmasında Böyük Qafqaz dağlarının rolu böyükdür. İqtisadi rayona daxil olan Xızı rayonunun ərazisi tamamilə dağlıqdır. Abşeron iqtisadi rayonunun səthi təbaşir və paleogen dövrlərinin filizli və qumlu-gilli çöküntülərilə örtülüdür. Abşeronun relyefi əsasən təsərrüfat üçün yararlıdır. Belə ki, bütövlükdə rayonun ərazisi üçün şaquli dağlıq, təpəlik və düzənliklərə parçalanma xarakterikdir.

Rayonun səthi əsasən geniş düzənlikdən, bir-birindən dərə və çökəkliklərlə ayrılan tirə, yayla və təpəliklərdən ibarətdir. Abşeron yarımadasının cənub-qərb hissəsini Bakı və Güzdək yaylaları əhatə edir. Burada mütləq yüksəklik 260-310 metrdən çox deyil. Cənub-qərbdə Abşeron yaylası Yasamal dərəsinə söykənir. Bu dərədən vaxtı ilə çay axmışdır. Burada Torağay, Bozdağ, Lökbatan, Axtarma və s. palçıq vulkanları səciyyəvi forma yaradır. Qobustan alçaq dağlıq sahəsi rayonun qərb hissəsini əhatə edir, səthi hamar deyil. Abşeronun şərq hissəsi çox da yüksək olmayan (30-35 m) təpəli düzənlikdir. Düzənliyin dəniz sahili hissəsi okean səviyyəsindən aşağıdır (-28 m). Bakı, Hövsan, Türkan, Zirə, Gürgan depresiyaları okean səviyyəsindən daha aşağıda yerləşir (-33 m). Maksimum hündürlük şimal-qərbdə 2205 metrdir (Dübrar dağı). Müalicəvi əhəmiyyətli mineral suları (Suraxanı, Şıx) vardır. İqtisadi rayon üç tərəfdən Xəzər dənizinin bu hissəsində donmayan ılıq suları ilə, şimal-qərbdən isə Qafqaz dağlarının qalın dağ silsiləsi ilə əhatələnir. Xəzər dənizi ərazinin iqliminə mülayimləşdirici təsir göstərir.

Abşeron iqtisadi rayonunun xüsusi mikroiqlim şəraiti vardır, əsasən Aralıq dənizi tipli quru subtropik iqlim hakimdir. Burada yay isti, quraq, qış əsasən yumşaq, qarsız, günəşli keçir. Lakin rayonda iqliminə görə fərqlənən ərazilər vardır. Düzən yerlərdə iqlim mülayim-isti və quru subtropikdir. Dağlıq yerlərdə iqlim mülayimləşir və tədricən soyuq iqlimə keçir.



İstilik miqdarının çoxluğu, günəşli saatların davamlılığı (ildə 2244 saat) və müsbət radiasiya balansı burada ilboyu şaxtasız havaların üstünlük təşkil etməsinə şərait yaradır. Havanın orta illik temperaturu +13,5°C-14,4°C arasında dəyişir. Yay mövsümündə orta aylıq temperatur 20°C -dən çox olur. İyulun temperaturu şimalda +24,7°C -dən şərqdə +25,6°C -yə qədərdir. Yanvarın orta temperaturu +2,9°C ilə +3,8°C arasında dəyişir. İlin şaxtasız dövrü 268-293 gün davam edir.

Orta aylıq temperatur yanvarda düzənlikdə 3-4°C-dən, dağlıq yerlərdə -4,5°C-yə, iyulda isə müvafiq olaraq 26-dan 19°C-dək olur. Yayda maksimum temperatur 38-40°C təşkil edir. Şaxtalı günlər yanvar-fevral aylarında müşahidə edilir. İllik yağıntılar şimal-qərbdə təqribən 500 mm-dən cənub-şərqə getdikcə 1500 mm-dək azalır. Lakin ərazi üzrə yağıntılar qeyri-bərabər paylandığından bu, bitki örtüyünün yayılmasında aydın müşahidə olunur. Abşeron təbii bitki örtüyü cəhətdən çox yoxsuldur. Yalnız Xızı, Altıağac rayonlarında dağ-meşə və dağ-çöl landşaftı mövcuddur. Rayonda ümumi radiasiyanın miqdarı il ərzində 130-135 kkal/sm² təşkil edir. Abşeronun düzən və dağətəyi yerlərində tez-tez əsən şimal (xəzri) və cənub (gilavar) küləkləri hava şəraitini dəyişdirir. Şimal küləyinin sürəti 6-10 m/san və artıq olur. Bakıda və yarımadadan şərqdə bu küləklərin sürəti bəzən 35-40 m/san-yə çatır. Xəzri əsməyə başladıqda havanın temperaturu 5-6°C, qışda isə bəzən 10-12°C aşağı enir. Xəzri küləklərinin tez-tez təkrarlanması kurort-istirahət mərkəzlərində dincələnlər üçün xoşagələn hal sayılmır. Çayları Ataçay, Sumqayıt çayı, Ceyrankeçməz, Tuqçay və s.-dir. Abşeronda bir neçə şor göl (Böyükşor, Masazır, Mirzələdi və s.) vardır.

İqtisadi rayon üçün yarımsəhra, quru çöl, dağ-meşə və dağ-çəmən landşaftları xarakterikdir. "Binəqədi qəbiristanı"ndan tapılan nəsli kəsilmiş heyvan və bitki qalıqları 35-40 min il əvvələ aid edilir. Bakı şəhəri yaxınlığında Binəqədi kəndindən 1 km cənub-şərqdə bitum yataqlarında

aparılan qazıntı zamanı (1938-ci il) aşkar edilən Binəqədi faunası maraqlı təbii turizm obyektidir. Mütəxəssislərin fikrinə görə "Binəqədi qəbiristanı" heyvan qalıqlarının çoxluğu və müxtəlifliyinə görə Kaliforniyadakı (ABŞ) Rançolya-Brea asfaltlarında aşkar edilmiş dördüncü dövr faunasından zəngindir. Bu qəbrstanlığın yaranması haqqında turistlərə məlumat vermək də maraqla qarşılana bilər.

Rayonda Abşeron - Qobustan qoruğu, Abşeron Milli parkı və Gil adası yasaqlığı yaradılmışdır. Altıağac qoruğu Xızı rayonu ərazisində 4,4 min hektar ərazini əhatə edir. Qoruq 1958-ci ildə təşkil olunmuşdur. Təbii-iqlim və landşaft xüsusiyyətinə görə Altıağac qoruğunda nadir fauna və floraya malik olan landşaft kompleksi mühafizə olunur. Ərazinin 89 faizini təşkil edən meşəliklərdə qiymətli ağac və kol bitkiləri, heyvanat aləmindən isə çöl donuzları ən mühüm eksponatlardan hesab olunur.

Abşeron üçün ən səciyyəvi külək şimal küləyi olan "xəzri"dir. Çox sürətli olması ilə seçilən "xəzri" havanın temperaturunu xeyli aşağı salır. Küləyin orta illik sürəti 6-7 m/san-dir. 15 m/san-dən çox gücə malik küləklər daha tez-tez əsir. Bu küləklərin sayı il ərzində Abşeronun mərkəzi hissəsində 70 gün, şimal hissəsində 139 gündür. Yayda gündüz qızmar havaları mülayimləşdirən briz külərləri əsir.

Dumanlı günlərin sayı ən çox fevral-mart (11-16 gün) aylarına düşür. İqtisadi rayonun cənub hissəsinin dənizlə əhatələnməsi burada martın əvvəlindən sentyabrın axırına qədər çimərlik mövsümünün davam etməsinə imkan yaradır. Həmin vaxtlarda dəniz suyunun temperaturu +20-22°C, maksimum +27,3°C olur. İqtisadi rayonda havanın ən aşağı temperaturu, yəni -13°C yanvar ayında müşahidə olunmuşdur, ən isti temperaturu isə, yəni +40°C avqust ayında qeydə alınmışdır.Yay fəsli dövründə torpağın səth temperaturu +60°C qədər çatır. Abşeron iqtisadi rayonunda yağıntının miqdarı azdır. Yağıntılar əsasən payız-qış mövsümlərində olur.



Abşeronda illik yağıntıların miqdarı 160-250 mm-dir. İqtisadi rayonun şimal hissəsi cənub hissəsinə nisbətən çox yağıntılıdır. Nisbi rütubətlilik ildə orta hesabla 70-73 faizdir. Qar nadir hallarda yağır, qısa müddətli olur, qışda 2-3 gün yerdə qalır. Abşeron iqtisadi rayonu ərazisində və onun ətrafında təbii su mənbələri Xəzər dənizindən və bir neçə kiçik göldən ibarətdir. Bu mənbələr içmək üçün yararlı olmayan şor sulardır. Sumqayıt şəhərindən 5-10 km cənub-qərbdə içməli su ehtiyatı üçünsünü surətdə yaradılmış "Ceyranbatan su anbarı" hövzəsi yerləşir. Sumqayıtın ərazisindən keçən Sumqayıtçay daimi axara malik deyil, ilin çox vaxtı çayda su olmur. Yalnız aprel-may aylarında güclü yağışlardan sonra Sumqayıtçayda su olur. Sumqayıt şəhərinin cənub qurtaracağından "Samur-Abşeron" kanalı keçir. Bu kanalın suyu "Ceyranbatan su anbarı" hövzəsinə axıdılır. Bakı və Sumqayıt şəhərlərinin içməli su ilə təminatında bu hövzə mühüm rol oynayır. Eyni zamanda, şəhər ərazisində əsasən məişətdə və qismən sənaye müəssisələrində "Şollar" su mənbəyinin ehtiyatlarından da istifadə edilir. Abşeron iqtisadi rayonunda bulaq sularından da istifadə olunur. Altıağac soyuq bulaqları mənzərəli Altıağac kəndinin ətrafında, 1100 m yüksəklikdə yerləşir. Suyun temperaturu 8-13°C -dir. Bakıdan 16 km aralıda, Masazır və Novxanı kəndlərinin arasında yerləşən Masazır gölündə müalicəvi palçıq mövcuddur.

Abşeron iqtisadi rayonunun ərazisində müxtəlif həcmdə və əhəmiyyətdə bir sıra göllər vardır. Abşeron gölləri tarixən yerin səthilə axan sular hesabına qidalanmış və formalaşmışdır. Lakin rayonun ərazisi təsərrüfat cəhətdən mənimsənildikcə, göllərə axıdılan təsərrüfat və məişət sularının miqdarı da artmışdır. Beləliklə, onların su ehtiyatı əvvəllər atmosferdə gedən təbii proseslərin təsiri altında, sonralar isə insanların təsərrüfat fəaliyyətinin təsiri altında dəyişmişdir. Abşeron göllərinin böyük təsərrüfat əhəmiyyəti olduğu çoxdan məlumdur. Bu göllərdə uzun illər duz, yod-brom istehsal

olunmuş, balneoloji, rekreasiya sərvəti kimi istifadə olunmuş, palçığı isə müxtəlif xəstəliklərin (revmatizm, yel, dəri) müalicəsində işlədilmişdir.

***Tarixi-mədəni turizm ehtiyatları.*** İqtisadi rayonda dərketmə turizmin mühüm mərkəzi Bakı şəhəridir. Şəhərdə gəlmə və getmə turizmi inkişaf etmişdir. Maraqlı tarixi abidələrindən İçəri şəhər (Bakı qalası) Bakının ən maraqlı yerlərindəndir. Əslində İçəri şəhər açıq səma altında muzey, orta əsrlər memarlığının nadir incisidir. "İçəri Şəhər" abidələr kompleksində 44 abidə yerləşir. Bunlardan Şirvanşahlar sarayı (XV əsr), Sınıqqala minarəsi (XI əsr), Qız Qalası (XII əsr), Cümə məscidi (XI əsr), Divanxana (XV əsr), Şah məscidi (XV əsr) və s. qeyd etmək olar. Bu kompleksdə tarixi-memarlıq abidələrinin kompakt yerləşməsi onun turizm əhəmiyyətini artırır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə (27 aprel 1988-ci il) İçəri şəhərin 350-dən artıq abidəsi dövlət tərəfindən mühafizəyə alınmışdır. Bu abidələr arasında memarlıq inciləri olan "Qız qalası", Şirvanşahlar sarayı, məscidlər, xalq arasında "Sınıq qala" adı ilə tanınan Məhəmməd ibn Əbu-Bəkr məscidinin minarəsi, karvansaralar, şərq hamamları və s. tikililər vardır.

Şirvanşahlar sarayı öz gözəlliyi və əzəmətliliyi ilə seçilir. 1921-ci ildən muzey kimi fəaliyyət göstərən bu saray 1964-cü ildən Dövlət tarixi-memarlıq qoruğu elan olunmuşdur. İçəri şəhərdə yerləşən Cümə məscidi (XIV əsr), Məscid-Mədrəsə (XIV əsr), Hacı Bani məscidi (XVI əsr), Məktəb-Mədrəsə, "Multani" (XII-XIV əsrlər), "Buxara" karvansaralar (XV əsr), Ağa Mikayıl hamamı (XVIII əsr) qiymətli memarlıq abidələridir.

"İçəri şəhər" kompleksi UNESCO-nun xüsusi bülleteninə daxil edilmişdir. Keçmiş xeyriyyə cəmiyyəti və ya "İsmailiyyə" binası (1908-1913; hazırda burada Milli Elmlər Akademiyasının Rəyasət heyəti yerləşir), keçmiş ictimai yığıncaq yay



binası (1911-1912; hazırda burada Azərbaycan Dövlət Filarmoniyası yerləşir), Murtuza Muxtarov sarayı (1911-1912; hazırda burada "Səadət sarayı" fəaliyyət göstərir), Kirxa binası (1896; hazırda burada Kamera və orqan musiqisi zalı yerləşir), keçmiş şəhər Dumasının binası (1900-1906; hazırda burada Bakı şəhər İcra hakimiyyəti yerləşir), Sinematoqraf binası (1910; hazırda burada Dövlət Uşaq Kukla Teatrı fəaliyyət göstərir) Bakının baxımlı memarlıq abidələridir.

Abşeronda dini ziyarətgahlar da turizm əhəmiyyətinə malikdir. Bunlardan Şüvəlanda Mir Mövsüm Ağanın ziyarətgahı, Şıxdakı Bibiheybət piri, Nardaranda Rəhimə Xanım ziyarətgahı və s. qeyd etmək olar. Abşeronda olan pirlər seyidlər və onların övladları ilə bağlı olan müqəddəs yerlərdən sayılır. Bu pirlərə qonşu ölkələrdən, xüsusilə İran İslam Respublikası, Türkiyə Respublikasından ziyarətə gəlirlər. Bəzi pirlərin yaxınlığında uzaqdan gələn zəvvarlar üçün qonaq evləri tikilmişdir.

Abşeron yarımadasında olan qədim çoxsaylı abidələr turistlərin marağına səbəb olur. Onların arasında qədim məscidlər, karvansaralar, hamamlar, məqbərələr, müdafiə tikililəri - keşikçi qüllələrinin, XIII-XIX əsrlərə aid feodal qəsrlərin qalıqları vardır. Abşerondakı XIII-XIV əsrlərə aid olan müdafiə tikililəri - Mərdəkan, Nardaran, Bilgəh, Ramana, Maştağa və digər qala və qəsrlərin qalıqları daha çox maraq doğurur. Mərdəkanda iki qədim qüllə - dairəvi və dördbucaqlı qüllələr (1232), Nardaranda dairəvi qüllə və onu əhatə edən qala divarlarından ibarət olan qəsr (1301), Ramanada təpənin üzərində yerləşən, mükəmməl müdafiə sistemi ilə seçilən qala (XIII əsr) orta əsrlərin tarixi-memarlıq abidələridir.

Bakıdan 70 km cənubda yerləşən Qobustan Dövlət Tarix-Bədii Qoruğu öz zəngin və qədim irsinə görə dünya mədəniyyəti xəzinəsində layiqli yer tutur. Azərbaycan Respublikası Nazirlər Sovetinin 1966-cı ildə qəbul etdiyi qərara əsasən bu ərazidə Qobustan qoruğu yaradılmışdır. Qobustanda aşkar olunmuş 4 mindən artıq qayaüstü rəsmlərdə ev heyvanları,

vəhşi heyvanlar, quşlar, kollektiv əmək, ov rəsm səhnələri təsvir olunmuşdur. Ən qədim təsvirlərin yaşı 10 min ildən çoxdur. Qobustan Dövlət Tarix-Bədii Qoruğu 2007-ci ildə UNESCO-nun ümumdünya maddi-mədəni irs siyahısına daxil edilmışdir.

Bütün dünyada tanınmış, məşhur Norveç səyyahı və alimi Tur Heyerdal dəfələrlə Qobustanda olmuş və qayaüstü rəsmləri tədqiq etmişdir. Onun transokean səyahəti üçün qamışdan hazırlanmış qayığının Qobustanda eyni cür qayaüstü rəsmləri onu heyran etmişdir.

*"Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğu və Arxeoloji-Etnoqrafik Muzey Kompleksi.* Abşeron yarımadasının Xəzər rayonunun Qala qəsəbəsində yerləşir. 1988-ci ildən etibarən Qala qəsəbəsinin tarixi məkan sayılan yerində 156 ha sahədə yaradılmışdır. Qoruğun bugünkü sərhədlərində 300-ə yaxın tarixi, memarlıq, arxeoloji abidələr mövcuddur. Qoruq ərazisində 5 məscid, 3 hamam, ovdanlar, samanlıqlar, sərdabələr, türbələr, yeraltı yollar, qəsr, yaşayış evləri mövcuddur. Ən qədim abidə e.ə. III miniliyə aid olan qədim insan yaşayış məskənidir. Bu qoruq 2012-ci il yanvarın 1-dən "İçəri şəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin tabeliyinə verilmışdır. Elmi araşdırmalar sübut edir ki, bu ərazidə ən azı 5 min il bundan öncə qədim insanlar yaşamağa başlamışlar. Bunu həm arxeoloji tapıntılar, həm də ibtidai insanın ilkin tikinti nümunələri təsdiq edir. 2008-ci ildə UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə Qala qəsəbəsində bir sıra sosial obyektlərin inşası ilə yanaşı, respublikada ilk dəfə olaraq açıq səma altında interaktiv muzey kompleksi yaradıldı. 2008-ci ildən başlayaraq Qala qoruğuna gələn turistlərin sayı hər il 25-30 faiz artır. 2014-cü ilin 6 ayı ərzində 36 mindən çox qonaq Qala qoruğuna ziyarət etmişdir. Daxili və xarici ölkələrdən olam turistlər üçün turlar təşkil edilir. Turistlər "Qala" Arxeoloji Etnoqrafik Muzey Kompleksi, Qala Qəsri, Qoruq ərazisindəki abidələr və Qala Əntiq Əşyalar



muzeyindəki eksponatlar haqqında məlumatlandırılır. Bu isə Abşeronda yaşayış məskənlərinin tarixinin daha qədim , yəni tunc dövrünə aid olduğunu sübut edir.

*"Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu.* Zərdüştlük dünyada ən qədim dinlərdən biridir. Bu din Azərbaycan ərazisində yaranmışdır. Abşeron yarımadası isə, xüsusən neft və qaz yataqları ilə zəngin olan Suraxanı zərdüştilərin təxminən b. e. II-III əsrlərində özlərinə məbəd tikdirmələri üçün ən münasib yer olmuşdur, məbəd isə "Atəşgah", yəni "od yeri", "od səcdəgahı" adlandırılmışdır.

Atəşgah Bakının mərkəzindən 30 kilometr aralıda, Abşeron yarımadasının Suraxanı kəndinin cənub-şərq qurtaracağında yerləşir. Müasir Atəşgah XVII-XVIII əsrlərdə Bakının hindu icması tərəfindən tikilmişdir. Kompleksin indiki tikililərinin tarixi XVII əsrlə müəyyən edilir. Beşguşəli kompleksin mərkəzində atəşpərəstlərin sitayiş yeri olan məbəd-səcdəgahın yerləşdiyi açıq həyət vardır.

Maraqlı və zəngin tarixi olan "Atəşgah" Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2007-ci ildə Atəşgah "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu elan edilmişdir. Azərbaycanın maddi mədəniyyət abidələri sırasında atəşpərəst məbədinin qalıqları üzərində inşa olunmuş və hazırda UNESCO-nun Dünya İrsinin İlkin siyahısına daxil edilmiş "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruğunun özünəməxsus yeri vardır. Qoruq Azərbaycan tarixinin öyrənilməsi ilə yanaşı, Respublikamızda turizmin inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

*"Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu.* Məhəmmədi kəndinin qərb hissəsində, Bakı şəhər mərkəzindən 27 km, kənd mərkəzindən isə təqribən 2 km məsafədə, Məhəmmədi-Digah şose yolunun sol istiqamətində yerləşir.

Ərazidəki yanmalar vulkanik-tektonik proseslərin getməsi nəticəsində, yaranan çatlar vasitəsilə səthə çıxan təbii qaz axınlarının alışıb yanması nəticəsində əmələ gəlmişdir. Dağın yuxarı hissəsinin hündürlüyü 116 metrə çatır və bu, Abşeronda

ən hündür yer hesab edilir. Qafqaz sıra dağlarının son zirvələrindən biri olan "Yanardağ" dəniz səviyyəsindən 86 m hündürlükdədir. Dağın alovunun hündürlüyü bəzən 10 metrə qədər qalxır. 2007-ci ildə prezidentin sərəncamına əsasən "Yanardağ" qorunan abidələr sırasına daxil edilərək qoruq elan olunmuşdur. Qoruq 64,55 ha sahədə yaradılmışdır. Abidə qoruq elan edildikdən sonra xarici ölkələrdən (Norveç, İsveç, Hindistan, Pakistan, Almaniya, İngiltərə, Yaponiya və s.) gələn turistlərin marağına səbəb olmuşdur.

"Yanardağ" hələ qədim dövrlərdə tarixi şəxsiyyətləri heyrətləndirmişdi. Herodot Azərbaycanda olarkən "Yanardağ"ın yaxınlığında yaşayış məskəni olduğunu qeyd etmişdir. Bu dağların varlığına görə hələ qədim dövrlərdən Azərbaycan "odlar yurdu" adlandırılıb. Araşdırmalar nəticəsində abidənin ərazisində qədim qəbiristanlıq və üç tərəfdən alov izləri aşkar olunub. İslam dinindən əvvəl "Yanardağ" yerli və gəlmə atəşpərəstlərin inanc yeri olub. İndi də bu abidəyə "pir", "ocaq" kimi dəyər verənlər çoxdur. Əsasən də xarici ölkələrdən gələn atəşpərəstlər "Yanardağ"-a dini ocaq kimi baxırlar. Bu tarixi abidə ilə əlaqədar bir çox əfsanə və rəvayətlər mövcuddur. Yanardağ Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu maraqlı turizm obyektidir. Fikrimizcə, bu qoruğa turların, xüsusilə interaktiv turların təşkili vacibdir.

### 9.3.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti

Respublikanın paytaxtının Abşeron iqtisadi rayonunda yerləşməsi, rayonun coğrafi mövqeyinin əlverişli olması təbii ki, ölkəmizə səfər edənlərin məqsədindən asılı olmayaraq, əvvəlcə Bakı şəhərində qonaqlamalı olurlar. Qeyd etdiyimiz kimi respublikamıza səfər edən turistlərin təqribən 98.5%-i Bakı şəhərinin payına düşür (2005-ci ildə 85%-i).



**Cədvəl 9.2**

**Abşeron iqtisadi rayonu üzrə qəbul edilmişvə göndərilmiş turistlərin sayı**

| № | İnzibatı rayon və şəhərlər | Qəbul edilmiş turistlərin sayı, nəfərlə | | Göndərilmiş turistlərin sayı, nəfərlə | |
|---|---|---|---|---|---|
| | | 2006 | 2014 | 2006 | 2014 |
| 1 | **Ölkə üzrə-cəmi:** | **14472** | **10657** | **31133** | **81648** |
| 2 | **İqtisadi rayon üzrə - cəmi:** | **12408** | **10657** | **30227** | **67436** |
| 3 | Bakı ş. | 11551 | 10657 | 25380 | 66903 |
| 4 | Sumqayıt ş. | 857 | - | 4847 | 533 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

AR Dövlət Statistika İdarəsinin məlumatlarının təhlili göstərir ki, Abşeron iqtisadi rayonu üzrə qəbul edilmiş turistlərin sayı göndərilən turistlərin sayından hələ də çox geri qalır (cəd., 9.2).

Cədvəl 9.3

**Abşeron iqtisadi rayonu üzrə səfərlərin məqsədinə görə yerləşdirilmiş şəxslərin sayı, nəfərlə (2014-cü il)**

| İnzibati rayon və şəhərlər | Cəmi | Turizm məqsədilə | İstirahət, əyləncə | İşgüzar səfər | Müalicə | Digər turizm məqsədi | Digər məqsədlə |
|---|---|---|---|---|---|---|---|
| **Ölkə üzrə cəmi:** | **672345** | **550643** | **237506** | **206234** | **70981** | **35922** | **121702** |
| **İqtisadi rayon üzrə cəmi** | **438902** | **331235** | **120221** | **160837** | **36240** | **13937** | **107667** |
| Bakı ş. | 432991 | 324858 | 113844 | 160837 | 36240 | 13937 | 107633 |
| Sumqayıt ş. | 2882 | 2882 | 2882 | - | - | - | - |
| Abşeron rayonu | 2284 | 2284 | 2284 | - | - | - | - |
| Xızı | 1245 | 1211 | 1211 | - | - | - | 34 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Bakıya gələn turistlərin sayı ildən-ilə artır. Müstəqilliyin ilk illərində Türkiyə, İran, Rusiya, B.Britaniya və b. ölkələrdən Bakıya əcnəbi turistlər əsasən işgüzar məqsədlə gəlirdisə, sonralar istirahət, müalicə-kurort və digər məqsədlə səfər edənlərin sayı artmışdır (cəd., 9.3).

Bölgənin turistləri yerləşdirmə müəssisələri ilə təminatında sürətli inkişaf XX əsrin 90-cı illərinə təsadüf edir. Bu illərdən başlayaraq Bakıda işgüzar görüşlər, sərgilər və s.



turizm hay-küyünə səbəb oldu. Şəhərdə beynəlxalq standartlara cavab verən müasir mehmanxanalar inşa edildi. "Avropa", "Qrand Otel" , "Hyyat Recensi", "Naxçıvan", "Park Hyyat Bakı", "Meredian", "Redisson SAS Plaza", Hotel Baku", "Four Seasons "JW Marriott Absheron" , "Kempinski Hotel Badamdar", "Hilton", "Fairmont Baku", "Bulvar", "İnturist" və b. Bu sahədə quruculuq işləri hələ də davam edir. Azərbaycan üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə olan nömrələrin 43,1%-i, birdəfəlik tutumun 33 %-i Bakının payına düşür (cəd., 9.4).

Cədvəl 9.4

**Abşeron iqtisadi rayonunda yerləşdirmə müəssisələrinin ümumi iqtisadi göstəriciləri**

| İnzibatı rayon və şəhərlər | Yerləşmə vasitələrində nömrələrin ümumi sayı, vahid | | İstismardan əldə olunan gəlir, min manat | |
|---|---|---|---|---|
| | 2010 | 2014 | 2010 | 2014 |
| **Ölkə üzrə cəmi:** | **14158** | **17363** | **105888,8** | **181047,3** |
| **İqtisadi rayon üzrə cəmi:** | **6032** | **12945** | **80705,5** | **151252,1** |
| Bakı ş. | 5471 | 7491 | 79864,7 | 150200,4 |
| Sumqayıt ş. | 302 | 327 | 424,3 | 438,5 |
| Abşeron rayonu | 178 | 213 | 341,8 | 523,9 |
| Xızı | 81 | 53 | 74,7 | 89,3 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

İqtisadi rayonda, xüsusilə Bakı şəhərində ekskursiya və əyləncə xidmətinin təşkili üçün əlverişli imkanlar yaradılmışdır. Məlumdur ki, mədəni irsin, etnoqrafik abidələrin də turizmin inkişafında xüsusi rolu vardır. Mədəni incəsənət irs nümunələri yerli turistlərlə yanaşı xarici qonaqları da cəlb edən obyektlər və ehtiyatlar sayılır. Milli irs nümunələrindən ən mühümü muzeylərin fəaliyyətidir. Bakıda çox sayda muzey vardır. Bu muzeylərin nadir, diqqətəlayiq eksponatları ilə tanışlıq turistlərdə böyük maraq doğurur. Bunlardan ən əhəmiyyətli olanları Azərbaycan tarixi museyi, R.Mustafayev adına incəsənət muzeyi, Miniatürlər və 2014-cü ildə istifadəyə verilmiş yeni xalçaçılıq muzeyidir. Bu muzeylər geniş kolleksiyaya malik olmaqla, əcnəbi turistlər üçün olduqca cəlbedicidir.

Milli irsin ən mühüm nümunələrindən olan xalçaçılıq qədim adət-ənənələrə əsaslanır. Xüsusilə əl ilə toxunan xalçalar indiki dövrə qədər öz şöhrətini saxlamışdır. Abşeron həm də respublikanın əl ilə xalça toxuma mərkəzlərindən biridir. Abşeronun qəsəbələrində kustar üsulla hazırlanan müxtəlif məhsullar da yerli və xarici turistlər tərəfindən müxtəlif suvenir hədiyyələri kimi alınması əhəmiyyətli sayılır.

Bölgədə milli bayramların, festivalların keçirilməsi milli turizm irsinin əsasını təşkil edə bilər. Xüsusilə, Novruz bayramına aid olan tədbirlərin keçirilməsinin əhəmiyyəti böyükdür.

Azərbaycanda beynəlxalq tədbirlərin keçirilməsi Bakıda müasir idman kompleksləri və əyləncə mərkəzlərinin (Bakı Kristal Zalı, Atletlər kəndi və b.) yaradılmasına səbəb olmuşdur. Bakı Əyləncə Mərkəzi, Akvapark, Lido, Lunaparkda xarici ölkələrdən gələn turistlərə də xidmət göstərilir.

Şəhərin Xəzər sahili boyu yaşıl zolaq kimi uzanan dənizkənarı Parkına 1998-ci ildə respublika prezidentinin fərmanı ilə Milli park statusu verilmişdir. Milli park genişləndirilmiş, abadlaşdırılmış, müasir əyləncə qurğuları və obyektləri ilə təmin olunmuşdur. Dənizkənarı Milli parkda quruculuq işləri davam etdirilir.



İqtisadi rayonun qidalanma müəssisələri ilə təminat səviyyəsinə görə ərazi üzrə yerləşmələrində fəqlər vardır. Belə ki, respublikada fəaliyyət göstərən milli, avropa, türk, hind, çin mətbəxli restoranların əksəriyyəti Bakıda yerləşir. "Amburan", "Karvansara", "Mc Donald's", "Pissa-nat", "Dolçe Vita", "Bəh-bəh klub", "Oyster Fish House", "Avilla", "Neapol", "İpək Yolu", "İzmir", "Tac Mahal" və digər restoranların xidmətlərindən həm yerli əhali, həm də xarici turistlər yararlanırlar.

Turistlərin Bakıdan əsasən dörd istiqamətdə: respublikanın Qərb, Şimal-Qərb, Şimal və Cənub bölgələrinə səyahətə çıxmaq imkanı vardır. Həmçinin, Bakıdan Abşeron iqtisadi rayonunda tarixi-mədəni abidələrlə zəngin olan yerlərə (Suraxanı, Qala, Mərdəkan, Nardaran və s.) turlar və ekskursiyaların təşkili mümkündür.

# X F Ə S İ L. QUBA-XAÇMAZ İQTİSADİ RAYONU

## 10.1. Rayon haqqında ümumi məlumat

İqtisadi rayon Azərbaycan Respublikasının şimal-şərqində yerləşir. Tərkibinə Quba, Xaçmaz, Qusar, Şabran və Siyəzən inzibati rayonları daxildir. İqtisadi rayonun sahəsi 6.96 min km² (respublika ərazisinin 8,3%-i). Rayonun sayı 525,7 min nəfərdir (respublika əhalisinin əhalisinin 5,4% - i). Quba-Xaçmaz əhalinin milli-etnik tərkibinin müxtəlifliyi ilə seçilən region olduğundan, burada adət-ənənələr tarixən qorunub saxlanılmışdır. Təsadüfi deyil ki, regionda qədim tarixə malik olan Xınalıq kəndi ölkə prezidentinin də diqqətindən kənarda qalmamışdır və burada infrastrukturun yaradılmasına başlanılmışdır.

**Cədvəl 10.1**

**Quba-Xaçmaz iqtisadi rayonunun tərkibi, ərazisi, əhalisi**

| **İnzibatı rayon və şəhərlər** | **Ərazi, min kv. km** | **Ölkə ərazisinə görə, %-lə** | **Əhalinin sayı, min nəfər (01.01.2015-ci il)** | **Ölkənin ümumi əhalisinə görə, %-lə** |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası | **86,6** | **100** | **9593,0** | **100** |
| Quba-Xaçmaz iqtisadi rayonu - cəmi: | **6,96** | **8,03** | **525,7** | **5,4** |
| Qusar rayonu | 1,50 | 1,73 | 93,8 | 0,97 |
| Xaçmaz rayonu | 1,06 | 1,22 | 171,2 | 1,77 |
| Quba rayonu | 2,61 | 3,01 | 163,9 | 1,7 |
| Şabran rayonu | 1,09 | 1,25 | 56,3 | 0,58 |
| Siyəzən rayonu | 0,70 | 0,80 | 40,5 | 0,4 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**



Rayonun iqtisadi-coğrafi mövqeyi əlverişlidir. Belə ki, şimal istiqamətində Rusiya və MDB ölkələrinə gedən nəqliyyat və kommunikasiya xətləri bu rayonun ərazisindən keçir. Digər tərəfdən isə o, iqtisadi cəhətdən inkişaf etmiş Abşeron iqtisadi rayonuna yaxındır və Xəzər sahilində yerləşir. Bu isə Quba-Xaçmaz rayonunda turizm fəaliyyətinin inkişafına imkan yaradır.

İqtisadi rayon Bakı-Xaçmaz turizm marşrutu üzərindədir. Rayonun turizm ixtisaslaşması istirahət, dərketmə, əyləncə, müalicə-kurort istiqamətindədir. Təbiətinin səciyyəvi xüsusiyyəti landşaftın rəngarəngliyi, iqliminin saflığı, minaral bulaqları və səfalı dəniz sahillərinin olmasındadır. Böyük Qafqazın yüksək dağlarından Bazar Düzü, Şahdağ, Tufandağ (Heydər Əliyev zirvəsi bu dağdadır) və b. bu bölgədədir. İqtisadi rayonun Bakıya yaxın olması, aqroiqlim şəraiti (meyvə-tərəvəz bolluğu) turizmin perspektiv inkişafı üçün geniş imkanlar açır. Təngəaltı dərəsi, Afurça şəlaləsi, Qəçrəş (Quba), qumlu çimərliklər (Yalama-Nabran) təbiət qoynunda istirahət edənləri cəlb edir. Maraqlı tarixi-memarlıq abidələri möcüzəli Beşbarmaq qayası, Çiraqqalanın qalıqları, türbələr (Siyəzən), orta əsr şəhər abidələri, Gülüstani İrəm (Şabran), Atəşpərəstlər məbədi, Cümə məscidi (Quba) və s.-dir. Bölgədə turistləri yerləşdirmə müəssisələri şəbəkəsi genişləndirilir: Xəzər, Dostluq turist bazaları (Yalama-Nabran), Suvar istirahət bazaları (Qusar), Qalaaltı müalicə-kurort kompleksi (Şabran), müstəqillik illərində tikilmiş Menecer Oteli, Lonq Forest turist bazası (Quba), Palermo, Malibu, Palma, Şəms, Nabran, İstisu, Atlant turistlərin ixtiyarındadır. Bölgənin turist imkanları perspektivlidir.

İqtisadi rayon təbii zənginliklərə malik olduğundan ərazisində yaşayış məskənləri, tarix və mədəniyyət abidələri qədim zamanlardan meydana gəlmişdir. Dünyanın nadir etnik qruplarından olan Şahdağ milli etnik qrupunun nümayəndələri, Azərbaycan aborigenləri hesab olunan ceklilər, qrızlılar, haputlular və digər azsaylı xalqlar bunun bariz nümunəsidir. Regionun fiziki-coğrafi cəhətdən böyük dəniz zolağı ilə hündür dağların arasında yerləşməsi, həmçinin səfalı havası, dağlıq

ərazilərdə olan meşə massivləri onun təbii turizm potensialı baxımından zəngin olduğunu göstərir. İqtisadi rayonun bu potensialından hələ kifayət qədər istifadə edilmir. Regionların sosial-iqtisadi inkişafının Dövlət Proqramlarına müvafiq olaraq, Quba-Xaçmaz iqtisadi rayonunda infrastruktur tikililərin miqyası genişləndirilir.Yeni istirahət mərkəzləri inşa edilir. Respublika prezidenti İlham Əliyevin 2015-ci il avqust ayının 8-də Şabran rayonunda Qalaaltı müalicə-istirahət kompleksinin açılışındakı çıxışında ölkədə turizm sahəsində gedən inkişafı bir daha vurğuladı və bunun respublika üçün böyük əhəmiyyət kəsb etdiyini söylədi.

Turizm bölgəsində yol-nəqliyyat qovşağının təkmilləşdirilməsi istiqamətində tədbirlər görülür, lakin kəndlərə aparan yolların hazırki vəziyyəti qənaətbəxş hesab edilmir. Bu isə turizmin inkişafına maneə yaradan amildir. Bildiyimiz kimi bölgələrə xas olan ən qədim adət-ənənələr, maddi və qeyri-maddi mədəni irs məhz kəndlərdə məskunlaşan əhali tərəfindən yaşadılır. Quba-Xamaz turizm bölgəsinin ən qədim və ecazkar turizm kəndləri sayılan Xınalıq, Qonaqkənd (Quba), Ləzə (Qusar) və digər kəndlər etnoqrafik, ekoloji, dərketmə turizm marşurutlarının əsas mərkəzlərindəndir. Bu dəyərləri nümayiş etdirmək üçün sosial infrastrukturu təkmilləşdirmək və ölkə əhalisinin qədim mədəniyyətini ziyarətçilərə tanıtmaq regionda turizmin inkişafına təkan verə bilər.

Mütəxəssislər Quba-Xaçmaz rayonunun Yalama-Xudat dənizsahili zonasında gələcəkdə Azərbaycan rivyerasının yaradılmasını qeyd edirlər. İqtisadi rayonun infrastruktur imkanlarının genişləndirilməsi bölgənin beynəlxalq turizm mərkəzinə çevrilməsinə səbəb olacaqdır.

### 10.2.Rayonun turizm-rekreasiya ehtiyatları

***Təbii rekreasiya ehtiyatları.*** Quba-Xaçmaz iqtisadi rayonunun ərazisi dağlıq və düzənlik hissələrdən ibarətdir. Dağlıq hissəyə Böyük Qafqaz silsiləsinin dağlıq və dağətəyi zonaları, düzənliklərə isə Xəzər dənizi ilə Baş Qafqaz silsilələri arasında yerləşən Samur-Dəvəçi ovalığı və Qusar maili düzənliyi aiddir. Rayonda maksimal hündürlük Bazardüzü dağındadır (4466 m). Dəniz sahilləri okean səviyyəsindən 28 m-dək alçalır. Samur və Qudyal çayları arasında Şollar düzü yerləşir.



Rayonun dağlıq relyefi müxtəlif istiqamətdə ixtisaslaşmış turizm mərkəzlərinin tanınmasına səbəb olmuşdur. Məsələn, Qubada Xınalıq kəndi, Qusarda Şahdağ turizm kompleksi və s. Düzənlik qurşaq relyefinə görə dalğavaridir, bəzi yerlərdə düzənliyi yarğanlar parçalayır. Xəzər dənizi sahillərində qumların zolaq şəklində yayılması çimərlik turizmi üçün əlverişlidir. Dəniz terrasları sahil zonasının relyefinə xüsusi görkəm verir. Bu, Şabran və Siyəzən şəhərləri ərazisində və Beşbarmaqdan Ələtə qədər sahil zonasında aydın əks olunur.

Quba-Xaçmaz rayonunun iqlimi rekreasiya məqsədi üçün çox əlverişlidir. Rayonun coğrafi mövqeyi, dəniz səviyyəsindən yüksəkliyi, oroqrafik quruluşundan asılı olaraq iqlim göstəriciləri qeyri-bərabər paylanmışdır. Rayon üçün insanın səhhətinə, çimərlik turizmnə faydalı olan iqlim tipləri (yarımsəhra və quru çöl iqlimi, yayı mülayim keçən mülayim isti iqlim, qışı quraq keçən mülayim soyuq iqlim və s.) səciyyəvidir. Ərazisi bol günəş işığı və istisinin təsiri altındadır. Bu ərazidə yay aylarında günün uzunluğu 14-15, qışda isə 10 saatdır. Günəşli günlərin illik miqdarı 190-220-dir. Bunun 75 faizi aprel-sentyabr aylarına düşür. Rayonda ümumi radiasiyanın miqdarı il ərzində 120-148 kkal/sm$^2$ təşkil edir. May-iyul aylarında açıq havada günorta vaxtı radiasiyanın miqdarı dəqiqədə 1,25-1,30 kkal/sm$^2$, qışda isə 0,60-0,70 kkal/sm$^2$-ə çatır. Meşə örtüyü altında ağacların sıxlığından asılı olaraq radiasiya gərginliyi dəyişir. İlin isti fəslində havanın mütləq maksimum temperaturu 20-43°C-dək yüksəlir. İlin soyuq ayında mütləq minimum temperatur 18-30°C-dək aşağı düşür. Rayonda qar seyrək hallarda yağır. Şaxtalı havalar qışda cəmi 2 gün müşahidə edilir. Lakin temperaturu 0°C-dən keçən havaların təkrarlanması yanvar və fevral aylarında 50%-ə çatır. İl ərzində burada 300-1400 mm yağıntı düşür. Bunun da ən çoxu payız fəslinə təsadüf edir.

Belə havalar kurort və istirahət üçün az əlverişlidir. Bu, həm də heliomüalicəyə mane olur.

Soyuq hava kütlələrinin əraziyə daxil olması ilə şimal və şimal-qərb küləkləri üstünlük təşkil edir. Küləyin orta illik sürəti saniyədə 4-5 metrə çatır. Bəzən isə bu göstərici saniyədə 15-20 metr təşkil edir. Metohəssas rekreantlar üçün şimal küləklərinin tez-tez əsməsi o qədər də əlverişli sayılmır. Lakin bu küləklər ən çox yaz və payız aylarında əsdiyi üçün güclü küləklər helio və aeroterapiya tədbirlərinin həyata keçirilməsinə bir o qədər də mane olmur. Bununla belə çimərliklərdə istirahət və müalicə tikililərini layihələşdirən zaman güclü şimal küləkləri nəzərə alınmalıdır.

İqlimlə müalicə tədbirləri həyata keçirilən dövr üçün hava şəraitinin təhlili göstərir ki, günəşli isti və quru havada aero və heliomüalicə daha geniş miqyasda aparıla bilər. Dənizin sahil zolağı çox yerdə dayaz olduğuna görə dəniz vannaları geniş təklif oluna bilər. Sahil sularında suyun şəffaflığı 2-5 metrə, duzluluğu isə 10-12%-ə çatır. Bu isə dünya okeanının duzluluğundan 2-3 dəfə azdır. Yayda suyun orta temperaturu 22-23°C-dən artıq olmur. Qışda isə 5,5-6,3°C arasında tərəddüd edir. Lakin bəzi günlər temperatur 28-30°C-yə çata bilir. Rayonda çimərlik mövsümü təxminən beş ay davam edir ki, bu da dəniz suyunun yuxarı qatının temperaturunda dəyişikliklərə görə təmin edilir. Çimərliklərdə normal halda çimmək üçün suyun temperaturu 16°C və ondan yuxarı olmalıdır.

Rayonun təbii rekreasiya ehtiyatları sırasında hidroloji sərvətlərin (çaylar, göllər, yeraltı sular, mineral sular və s.) əhəmiyyəti də əvəzsizdir. Quba-Xaçmaz rayonunun ən mühüm çayları Qudyalçay, Samur, Qusarçay, Quruçay, Ağçay, Qaraçay, Vəlvələçay, Dəvəçiçay, Gilgilçay, Şabrançay və s.-dir. Bu çaylardan yalnız Qudyalçay, Samur, Qusarçayın uzunluğu 100 km-dən artıqdır. Rayonun çayları qidalanmasına, illik axımın həcminə, su rejiminə görə bir-birindən fərqlənir. Çaylardan turizm məqsədilə də istifadə olunur. Bəzi çayların üzərindəki



şəlalələr təbii turizm obyektləridir. Afurca şəlaləsi təbiət abidəsi kimi maraqlı turizm obyektidir. Vəlvələçay üzərində yerləşən Afurca şəlaləsi 75-80 metr hündürlükdən axır və o, öz qeyri-adiliyi və bənzərsizliyi ilə turistlərin diqqətini cəlb edən təbiət hadisəsidir. Azərbaycandakı ən məşhur şəlalələrdən biri hesab olunur. Bu şəlalə Azərbaycan Respublikasının təbiət abidələrinin siyahısına daxil edilmişdir və dövlət tərəfindən mühafizə olunur. Vəlvələçay üzərindəki Kinxırt şəlaləsi də möhtəşəm təbiət abidəsidir. Bu şəlalələrin yerləşdiyi kəndlər Bakı, Sumqayıt şəhərləri və digər yerlərdən səfər edən turistlərin sevimli istirahət yeridir. Nadir Pirbənövşə şəlaləsində suyun təsiri ilə yonulmuş qaya Minarə formasını almış bir fiquru xatırladır.

Quba-Xaçmaz rayonunda rekreasiya əhəmiyyətli göllər də vardır. Bunlardan ən böyüyü Ağzıbirçala gölüdür (və ya Şabran limanı). Bu göl Şabran rayonunda, Xəzər dənizi sahilində yerləşir və laqun (qalıq) mənşəlidir. Maksimal dərinliyi 26,4 m-dir. Bataqlıq sahədir. Şirin suludur. Su quşlarının ovu məqsədilə istifadə üçün yararlıdır. Göldə quşlardan başqa ov əhəmiyyətli balıqlar da vardır. Bataqlıqdan gölün mərkəzinə qayıqla getmək məqsədilə 1-1,5 km uzunluqda kanal çəkilmişdir. Bura dövlət tərəfindən qoruq elan edilmişdir. Ov etməyə ilin müəyyən vaxtlarında icazə verilir.

Qoşanohur gölü Quba rayonunda Babaçayın sağ qolu Lağlağırçayın mənbəyində (2450 m) yerləşir. Maksimal dərinliyi 3,5 m-dir. Noyabrın axırından aprelin əvvəllərinədək gölün səthi buzla örtülü olur. Yay mövsümündə xoş mənzərə seyr etməklə istirahət üçün yararlıdır.

Bənövşə gölü Qusar rayonunda yerləşir. Göl təmiz dağ havası, sıx meşə landşaftı olan ərazidədir. Gölün suyu çox təmiz və şəffafdır. Gölün ətrafında bitən bənövşə, böyürtkən kolları, müalicə əhəmiyyətli otlar və bitkilər onun rekreasiya əhəmiyyətini artırır. Rayonda buzlaq (Tufangöl), sürüşmə (Girdmançay, Vəlvələçay, Gilgilçay) mənşəli göllərə də rast gəlinir.

Quba-Xaçmaz rayonu mineral su ehtiyatları ilə zəngindir. Şabran rayonundakı Qalaaltı mineral suyunu mütəxəssislər Karpat dağlarının ətəyindəki Turuskavets suları ilə müqayisə edir. Böyük Qafqaz silsiləsinin şimal-şərq yamacında mineral bulaqlardan məşhurları Quba rayonunda Cimi, Xaltan, Balbulaq, Xaşı, Düz Bilici mineral sularıdır. Nabran istirahət zonasında mineral və soyuq bulaqlar təbii rekreasiya ehtiyatı olmaqla kurort təsərrüfatının inkişafı üçün çox əhəmiyyətlidir. Qeyd edək ki, Quba-Xaçmaz rayonunda mövcud olan mineral su ehtiyatının potensial imkanlarından hələ tam istifadə edilmir.

Rayona yerli və xarici investorlar cəlb etməklə pansionatlar və kurort-istirahət mərkəzləri şəbəkəsini genişləndirmək olar.

Quba-Xaçmaz rayonun landşaftı onun əhatə etdiyi ərazidə eyni deyildir. Belə ki, bölgədə bir neçə landşaft qurşağı ayrılır ki, bunların da özünəxas füsunkarlığı vardır. Bunlar arasında enliyarpaqlı dağ-meşə landşaft qurşağında yüksəkliyinə görə fərqli (alçaq, orta, yüksək) zonalar vardır. Quba, Qusar, Şabran rayonlarında alçaq dağ-meşə landşaft zonası rekreasiya və turizm cəhətdən daha çox mənimsənilmişdir. Ümumiyyətlə, Quba-Xaçmaz rayonun ərazisinin təqribən 10-11%-i meşələrlə əhatə olunmuşdur. Şahdağ və Altıağac Milli parklarının bir hissəsi Quba-Xaçmaz rayonunun ərazisindədir. Bu Milli parklarda təbiətin rəngarəngliyi və zənginliyi rekreasiya və turizm fəaliyyətini genişləndirmək üçün təbii imkanlardır.

***Tarixi-mədəni turizm ehtiyatları.*** Quba-Xaçmaz iqtisadi rayonu tarixi-mədəni abidələrlə zəngindir. Bu ərazidə qədim şəhər qalıqları, qalalar, istehkamlar, məqbərələr, türbələr, pirlər, mağaralar və turist baxımlı digər yerlər mövcuddur. Bu tarixi-mədəni abidələr dünya, ölkə və yerli əhəmiyyətli olmaqla təsnifatlaşdırılır.

*Siyəzən rayonu* zəngin tarixə malikdir. Zarat kəndinin yaxınlığında Xızırzində Baba deyilən Beşbarmaq istehkamının xarabaları, Sedan kəndi yaxınlığında isə Dindar qalasına aid olan Qara Dundur istehkamının xarabaları vardır. Bundan əlavə Şıxlar kəndi yaxınlığında XV əsrdə ucaldılmış Şeyx Heydər məqbərəsi və Gil-Gilçay qəsəbəsində XVIII əsrdə tikilmiş Pir Xəlil türbəsi yerləşir.

Siyəzən rayonunda dünya əhəmiyyətli tarixi mədəni abidələrə aid edilir:

- Beşbarmaq müdafiə səddi (IV-VII əsrlər) - bu istehkam Beşbarmaq dağının ətəklərindən Xəzər dənizinə qədər uzanırdı. Səddin bir hissəsi qalmışdır.
- Gilgilçay müdafiə istehkamlar kompleksi (V əsr) - abidə Siyəzən rayonunun Yenikənd, Kolanı, Eynibulaq, Daşlı Çalğan, Qalaaltı kəndlərindən keçərək Çıraqqala ilə birləşir.

Siyəzəndə ölkə və yerli əhəmiyyətli abidələr də çoxdur.

*Quba rayonu.* XIX əsrin ortalarından başlayaraq rayonun ticarət və işgüzar hissəsi olan şəhər mərkəzində Quba hakimlərinin Xan sarayı yerləşirdi. Hazırda Xan sarayının yerləşdiyi meydan Bazar adlandırılır. Şəhərin məşhur tarixi-mədəni abidələrinə Cümə məscidi, Quba qalasının keçmiş hasarları, İnqilab meydanı, tarix muzeyi, A.A.Bakıxanovun ev-muzeyi, Hündür gümbəzli hamam, körpü və s. aiddir. Şəhərin mərkəzində yerləşən Cümə məscidi Qubada ən böyük məsciddir.

Qubada əsl adı Qüdsi olan Səkinə xanım məscidi maraqlı tarixə malikdir. Belə ki, bu məscidi Səkinə xanım A.A.Bakıxanovun şərəfinə tikdirmişdir. Azərbaycanın siyasi diplomatiya tarixində mühüm xidmətləri olan A.A.Bakıxanov 1847-ci ildə Həcc ziyarətinə gedərkən Qubada onun üçün məscid tikdirməyi Səkinə xanıma vəsiyyət edir. Lakin elə həmin il Məkkədə vəfat edən A.A.Bakıxanov orada da dəfn olunur. Səkinə xanım məscidi 1854-cü ildə istifadəyə verilmişdir. Qubada həm də Hacı Cəfər məscidi (XX əsr), Ərdəbil məscidi (XIX əsr), Ağ məscid (XIX əsr) fəaliyyət göstərir.

Quba rayonunun kəndləri də tarixi abidələrlə çox zəngindir. Rayonun kəndlərində mövcud olan tarixi-mədəni ehtiyatlar hələ də qorunub saxlanılmışdır. Quba şəhərinin ətraf kəndlərindəki məscidlər, qüllələr, qalalar tarixi nöqteyi nəzərdən böyük maraq doğurur. Şəhərdən 8 km şimal-şərqdə, Quba-Xudat şosse yolunun kənarında yerləşən Ağbil kəndi mədəniyyət abidələri ilə çox tanınır. Ağbildə səkkizguşəli məscid və düzbucaqlı türbə (XVI əsr) öz cazibədarlıqları ilə seçilən tarixi abidələrdir. Bu abidələr turistlər, ekskursiyaçılar üçün maraqlı dərketmə obyektləridir. Səkkizguşəli məscid 1537-ci ildə II Xəlilullahın hakimiyyəti dövründə Şeyx Məryədin şərəfinə, düzbucaqlı türbə isə 1533-34-cü illərdə B.Dorn tərəfindən Şeyx Bəyazidin şərəfinə tikilmişdir. Ağbildə orta əsrlərə aid kurqanlar da vardır. Muçu kəndində XIX əsrə aid olan türbə, Alpan kəndində XVI əsr Subaba türbəsi, e.ə. I minilliyə aid olan Alpan gərargahı, Söhüb kəndində qüllə, Afurca kəndində Təngəaltı qalası, I Nüqədi kəndində Minarəli məscid (XVIII-XIX əsrlər), II Nüqədi kəndində qədim yaşayış evi, Amsarda məscid və mədrəsə (1854-1868-ci illlər), Yerfi kəndində müdafiə Qüllələri (XI-XII əsrlər), Əlik və Zeyid kəndləri arasında qala, Zıxır kəndində Yeddilər qalası mühüm tarixi-mədəni abidələrdir və bu günədək qorunub saxlanılır. Ümumiyyətlə, kəndlərin əksəriyyətində XIX əsrə aid məscidlər vardır.

Quba şəhəri və yaxın ətraflardakı tarixi-mədəni abidələrə dərketmə turların təşkili üçün imkanlar genişdir.

Quba şəhəri ilə üzbəüz, Qudyalçayın sol sahilində, çayın qədim terrası üzərində ensiz zolaq şəklində sahilboyu uzanan ərazidə Azərbaycanda dağ yəhudilərinin ən böyük icmasının məskunlaşdığı *Qırmızı qəsəbə* yerləşir. O. 1926-cı ilədək yəhudilər qəsəbəsi adlandırılırdı. Qəsəbənin əsasını XVII əsrin sonu və XVIII əsrin əvvəllərində Quba xanı Hüseynəli xan və oğlu Fətəli xan qoymuşdur. Onların Qubaya gəlməsi Nadir şahın dövrünə (1736 – 1747) təsadüf edir.



Sonralar Qırmızı qəsəbəyə Azərbaycanın bir çox yerlərindən, həmçinin İrandan yəhudilər köçüb gəlmişlər. Ona görə də qəsəbədə yerli yəhudilərin kilsələri ilə yanaşı məhəllələri də vardır. Qəsəbədə 11 sinaqoq olmuşdur, hazırda onlardan yalnız 7-si saxlanılmışdır. Bunlardan ən böyüyü Qusar məhəlləsində yerləşən bəzəkli gümbəzi olan sinaqoqdur. Öz xarici görünüşünə görə bu sinaqoq Qubada eyni dövrdə tikilmiş məscidlərə bənzəyir. Onun memarı Qilel bin Xaim olmuşdur.

Qəsəbədəki yaşayış evləri memarlıq üslubuna görə xüsusiliyi ilə seçilir. Burada XIX əsrə aid edilən yaşayış evi memarlıq *abidəsi kimi turistlərə nümayiş etdirilir*. Ümumiyyətlə, Qırmızı qəsəbə Qubaya gələn turistlərdə xüsusi maraq doğurur və onun haqqında ətraflı məlumata sahib olmaq gidin əsas vəzifələrindən biridir.

Qubada tarixi kəndlərdən biri *Xınalıqdır*. Xınalıq kəndi şəhər mərkəzindən 60 km uzaqlıqda, dəniz səviyyəsindən 2300 metr yüksəklikdə, uca dağlar qoynunda yerləşir. Xınalığın yaşı 4000 ildən çoxdur.

Xınalıq kəndi şimaldan, şimal-şərqdən və qərbdən Tufan dağın yüksəkliyi ilə, cənubdan Xınalıq zirvəsi ("Qiblə" dağı), cənub-şərqdən isə Qudyalçayın dərəsi ilə əhatələnir. Kənddən Məkkə istiqamətində uca dağ zirvəsi yüksəlir. Bu dağ elmi ədəbiyyatda Xınalıq zirvəsi adlandırılsa da, yerli əhali ona "Qiblə" dağı deyir. Xınalıqda diqqəti cəlb edən burada məskunlaşmış etnik qrupun dünyada analoqu olmayan bir dildə danışmasıdır. Xınalıqda ən nadir mənzərə evlərin quruluşudur. Burada evlər yüksəklik boyunca pilləkənvari şəkildə tikilmiş və bir evin damı ondan yüksəkdəki evin həyəti vəziyyətindədir. Xınalıqda köçəri tayfaların hücumundan qorunmaq məqsədilə qala divarlarından və bürclərdən ibarət müdafiə sistemi tikilmişdir.

Bürcdə XIX əsrə aid atəşpərəstlər məbədi yerləşir. Bu məbəddə əbədi məşəlin olduğu iddia edilir. Xınalıqlılar atəşpərəst olmuşlar və sonra birbaşa İslam dinini qəbul

etmişlər. Xınalıq dini inancların yüksək olduğu yerdir. Kənddə islam dini XII əsrdə Əbu Müslim tərəfindən təbliğ olunmağa başlanmışdır. Xınalıqda 10 məscid vardır. Bu məscidlərdən 4-ü XIX əsrdə inşa edilmişdir (Şeyx Şahbuz məscidi, Pirəcömərd məscidi, Cümə məscidi və s.). Xınalıqda ən qədim məscid Cümə məscididir. XII əsrdə inşa edilmiş Cümə məscidini yerli əhali Əbu Müslim məscidi adlandırır. Kəndin daha qədim hissəsində zərdüştlərin od məbədinin yerində, b.e. VII əsrində "Bürc" tikilmişdir. Bu məbədə-pirə yalnız müsəlmanların dini bayramlarında ziyarət edilir. Məscidlərin tikintisində əsasən çay daşlarından istifadə edilmişdir. Xınalıqda ekskursiya obyekti kimi əhəmiyyəti olan tarix-etnoqrafiya muzeyi fəaliyyət göstərir.

*Şabran rayonu.* Burada qədim yaşayış məskənlərinin olması məlumdur. Böyük İpək yolu üzərində yerləşən Şabran şəhərinin tarixi qədim olsa da, o, dəfələrlə işğalçıların (monqollar, ərəblər, tatarlar və b.) hakimiyyəti altına düşmüş və dağıdılmışdır. Şabranda 2 qala, atəşpərəstlər məbədi, XI-XIV əsrlərə aid küçələr, məhəllələrin qalıqları aşkar edilmişdir. Şabran şimaldan və cənubdan Gilgilçay və Samur sədləri ilə əhatə olunmuşdur. Gilgilçay istehkamına aid olan Çıraqqala dəniz səviyyəsindən 1500 m yüksəklikdə, sıldırım qayanın üzərində yerləşir. Şabran şəhərindən 25 km aralıqda olan bu qala gözətçi məntəqəsi rolunu oynamışdır. Çıraqqaladan ətrafları seyr etmək maraqlı təəssürat yaradır.

*Qusar rayonu.* Rayonda qədim yaşayış məskənlərinə müxtəlif yerlərdə rast gəlinir. Rayonun ərazisində həyatın b.e.ə. II minillikdən etibarən mövcud olması güman edilir. Burada mövcud qədim yaşayış məskənləri kimi b.e.ə. I minilliyə aid Mahmudtəpə (Gədəzeyxur), Minsar təpələri, Gövduşan təpələri (Bədirqala), tunc dövrünə aid Qəflə təpələri, orta əsrlərə aid Qızılgül və Ağaxan təpələri (Aşağı Ləyər), Qələxur təpələri (Həzrə) və s. göstərmək olar. Rayon ərazisində bir sıra tarixi abidələr də mövcuddur. Rayonun Əniğ kəndində XIII əsrə aid qala divarlarının qalıqları, Həzrə



kəndindəki 1460-cı ildə Şirvanşah I Xəlilullahın qoşunları ilə vuruşmada həlak olaraq burada dəfn olunmuş Ərdəbil şeyxi Şeyx Cüneydin qəbri üzərində tikilmiş türbə (1544-cü il), XVIII əsrə aid Köhnə Xudat, Xuray, XIX əsrə aid Hil, Gündüzqala və Həsənqala kənd məscidləri bu günədək mühafizə edilən qədim tarixi abidələrdəndir.

*Xaçmaz rayonu.* Xaçmazda 60-dan cox tarix və mədəniyyət abidəsi qorunub saxlanmışdır. Rayonun ərazisindəki ən qədim arxeoloji abidələr Sərkərli, Mollabürhanlı, Hülövlü, Qaracik, Həsənqala kəndlərinin yaxınlığındakı tunc dövrünə aid qədim məskənlər və kurqanlardır. Canaxır, Bostançı kəndlərinin yaxınlığında orta əsrlərə aid insan məskənləri də bu qəbildəndir. Çoxsaylı tarix və mədəniyyət abidələri var. Moruqoba, Qalağan, Uzunoba, Tağaroba kəndlərində XX əsrdə tikilmiş məscidlər, Qaraqurdlu kəndində XV-XVI əsrlərə aid Şah Abbas məscid-mədrəsəsi, Şıxlar kəndində Şeyx Yusif məscidi (XV əsr) qorunub saxlanılmışdır. Niyazabad limanı XVI əsrdən Azərbaycanın qonşu ölkələrlə əlaqələrin yaradılmasında mühüm rol oynamışdır.

Beləliklə, region qədim, orta və yeni dövrlərə aid edilən tarixi-mədəni və memarlıq abidələri ilə (kurqanlar, yaşayış məskənləri, məscidlər, ziyarətgahlar və s.) zəngindir. Bu sərvətlərin çoxundan nəinki xarici turistlərin, heç yerli turistlərin də xəbəri yoxdur. Bölgənin tarixi-mədəni rekreasiya ehtiyatlarının turizm fəaliyyətində tanıdılması dərketmə turizminin inkişaf etdirilməsinə səbəb ola bilər.

## 10.3.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti

Quba-Xaçmaz iqtisadi rayonuna əhali həm qısamüddətli, həm də uzunmüddətli istirahət üçün səfər edir. Quba-Xaçmaz rayonuna qısamüddətli (şənbə, bazar günləri) istirahətə əsasən Bakı, Sumqayıt şəhərlərindən gəlirlər. Araşdırmalar göstərir ki, hələ 2000-2005-ci illərdə istirahət məqsədilə kənara çıxan

bakılıların 15%-i Yalama sahillərində istirahətə üstünlük vermişlər. Şübhəsiz ki, bu göstərici hazırda yüksəlmişdir. Bunun bir neçə səbəbi vardır.
İlk növbədə qeyd edə bilərik ki, rayonun təbii turizm-rekreasiya potensialı zəngindir. İkincisi, rayonda turizm obyektləri şəbəkəsi sürətlə inkişaf etdirilir. Üçüncüsü, respublika əhalisinin yaşayış tərzi, sosial təminat səviyyəsi müstəqilliyin 2-ci on illiyindən başlayaraq yaxşılaşmışdır və bu respublika prezidentinin həyata keçirdiyi məqsədyönlü sosial siyasəti nəticəsində davam edir. Bu baxımdan bölgədə əhalinin istirahətinin səmərəli təşkili xüsusi diqqət tələb edir.

**Cədvəl 10.2**

**Quba-Xaçmaz iqtisadi rayonu üzrə qəbul edilmiş və göndərilmiş turistlərin sayı**

| № | İnzibatı rayon və şəhərlər | Qəbul edilmiş turistlərin sayı, nəfərlə | | Göndərilmiş turistlərin sayı, nəfərlə | |
|---|---|---|---|---|---|
| | | 2006 | 2014 | 2006 | 2014 |
| 1 | Ölkə üzrə-cəmi: | 14472 | 10657 | 31133 | 81648 |
| 2 | İqtisadi rayon üzrə -cəmi: | 1854 | - | 75 | 132 |
| 3 | Qusar rayonu | - | - | 75 | - |
| 4 | Xaçmaz rayonu | 1656 | - | - | - |
| 5 | Quba rayonu | 198 | - | - | - |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**



Quba-Xaçmaz rayonuna gedənlərin əksəriyyəti istirahətlərini qeyri-mütəşəkkil şəkildə keçirirlər. Bu səbəbdəndir ki, bölgəyə səfər edənlərin sayı haqqında rəsmi məlumat əldə etmək mümkün deyildir (cəd.,10.2). Rayonun Xəzərsahili zonasında istirahət edənlər əsasən çimərlik turizminə üstünlük verir. Lakin rekreantların təqribən 12-15%-i "sakit" istirahəti seçirlər. Evdar qadınlar və təqaüdçülər əsasən passiv istirahətə üstünlük verir. Ov etmək, balıq tutmaq həvəsilə istirahətə gedənlər də vardır.

**Cədvəl 10.3**

**Quba-Xaçmaz iqtisadi rayonu üzrə səfərlərin məqsədinə görə yerləşdirilmiş şəxslərin sayı, nəfərlə (2014-cü il)**

| İnzibatı rayon və şəhərlər | Cəmi | Turizm məqsədilə | İstirahət, əyləncə | İşgüzar səfər | Müalicə turizmi | Digər turizm məqsədi | Digər məqsədilə |
|---|---|---|---|---|---|---|---|
| **Ölkə üzrə cəmi:** | **672345** | **550643** | **237506** | **206234** | **70981** | **35922** | **121702** |
| **İqtisadi rayon üzrə cəmi** | **42060** | **41879** | **36424** | **3757** | **553** | **1145** | **181** |
| Qusar rayonu | 3992 | 3811 | 3811 | - | - | - | 181 |
| Xaçmaz rayonu | 20444 | 20444 | 16190 | 3701 | 533 | 754 | - |
| Quba rayonu | 16488 | 16488 | 15287 | 56 | - | 1145 | - |
| Şabran rayonu | 1136 | 1136 | 1136 | 160 | 78 | - | - |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

İqtisadi rayonda səfərlərin məqsədinə görə statistik məlumatların təhlilindən aydın olur ki, istirahət və əyləncə üçün gələnlərin sayı Xaçmaz, Quba rayonları üzrə yüksəkdir. Xaçmaz rayonuna müalicə turizmi məqsədilə gələnlər də çoxdur (cəd., 10.4).

Rayonda turistləri yerləşdirmə müəssisələrinin ümumi iqtisadi göstəricilərindən aydın olur ki, son 10 il ərzində bu obyektlərdə nömrələrin sayı xeyli artmışdır (cəd., 10.4). Hazırda regionda turistlərə xidmət göstərən mehmanxana, motel, mehmanxana tipli yerləşmə müəssisələrinin sayı 55-dir. Bu isə respublikada mövcud olan yerləşmə müəssisələrinin 19%-ni təşkil edir. Bu göstəriciyə görə də Quba-Xaçmaz regionu respublikada 2-ci yerdədir.

İqtisadi rayon üzrə yerləşmə müəssisələrinin coğrafiyası, tutumu, onlarda xidmətin səviyyəsi fərqlidir.

**Cədvəl 10.4**

**Quba-Xaçmaz iqtisadi rayonunda yerləşdirmə müəssisələrinin ümumi iqtisadi göstəriciləri (2014-cü il)**

| İnzibatı rayon və şəhərlər | Yerləşmə vasitələrində nömrələrin ümumi sayı, vahid | | İstismardan əldə olunan gəlir, min manat | |
|---|---|---|---|---|
| | 2010 | 2014 | 2010 | 2014 |
| Ölkə üzrə cəmi: | 14158 | 17363 | 105888,8 | 181047,3 |
| İqtisadi rayon üzrə cəmi: | 2921 | 3544 | 13598,5 | 8298,1 |
| Qusar rayonu | 132 | 434 | 174,7 | 1947,7 |
| Xaçmaz rayonu | 2142 | 2376 | 11466,4 | 5055,3 |
| Quba rayonu | 553 | 676 | 1893,1 | 1185,0 |
| Şabran rayonu | 40 | 43 | 64,3 | 100,1 |
| Siyəzən rayonu | 54 | 15 | - | - |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**



*Xaçmaz* rayonunun yerləşmə obyektləri ilə təminat səviyyəsi bölgənin digər rayonları ilə müqayisədə yüksəkdir. Bunun mühüm səbəblərindən biri rayonun meşəyə yaxınlığı, Nabran-Yalama çimərliyinin olmasıdır. Bu təbii imkanlar Azərbaycan hələ sabiq sovetlər ittifaqı tərkibində olarkən rayonda bir neçə turizm bazasının ("Xəzər"-1963-cü il, "Dostluq"-1975-ci ildə yaradılmışdır və b.).

Yerləşmə obyektləri ilə çox zəif təmin olunan *Siyəzən* rayonudur. Siyəzən rayonunda təbii şərait, tarixi mədəni və təbiət abidələri turist baxımlıdır və istirahət üçün əlverişli sayıla bilər. Bu baxımdan Bakı aqlomerasiyası əhalisinin qısamüddətli istirahətini təşkil etmək məqsədəuyğundur. Lakin istirahətin təşkili infrastrukturun olmasını da tələb edir. Bunun isə qısa müddət ərzində yaradılması mümkün deyildir. Nəzərə alsaq ki, Siyəzənə 2,5-3 saat ərzində (avtomobil nəqliyyatı ilə Bakı-Siyəzən avtobusları; qatarla Bakı-Rostov, Bakı-Moskva, Bakı-Yalama) getmək mümkündür, bu halda yerli əhali tərəfindən münasib qiymətə icarəyə verilən evlərdə qalmaq olar.

Müstəqillik illərində iqtisadi rayonda yerli, həmçinin xarici investisiya əsasında yerləşmə müəssisələri şəbəkəsi genişləndirilmişdir. Bu istirahət mərkəzləri və zonalarında yerli turistlərlə yanaşı xarici ölkələrdən (xüsusilə Rusiya, Türkiyə, İran və b.) gələnlər də istirahət edir. Bu cəhətdən Xaçmaz rayonunda, dəniz sahilində 2004-cü ildən fəaliyyət göstərən Atlant istirahət və əyləncə mərkəzi, Qusar rayonunda Şahdağ turizm kompleksi xüsusilə seçilir. 2015-ci ildə Şabran rayonunda istifadəyə verilmiş Qalaaltı Hotel&SPA müalicə-istirahət kompleksi iqtisadi rayonun turizm imkanlarını daha da gücləndirəcək. Dəniz səviyyəsindən 700 m yüksəklikdə yaradılmış yeni kompleks Qalaaltı kurortunun bazasında inşa edilmişdir. Qalaaltı Hotel&SPA kompleksinin sahəsi 7,1 hektardır. Kompleksə eyni vaxtda 354 nəfəri qəbul etmək mümkündür. Kompleksdə ətraf mühitlə həmahənglik təşkil

edən və milli faunanın elementlərini özündə əks etdirən 4 kiçik otel binası ("Lalə", "Zambaq", "Bənövşə" və "Mimoza"), villa ("Kəpəz", "Murov", "Şahdağ") və koteclər inşa edilmişdir. Otellərin hər birində 44 nömrə vardır. Kompleksin ərazisində yaşıllıqlar salınmış, süni çay, şəlalə, fantan və fəvvarələr yaradılmışdır.

Quba-Xaçmaz bölgəsində nəqliyyat xidməti də getdikcə təkmilləşdirilir. Bu rayon nəqliyyat şəbəkəsi ilə yaxşı təmin olunmuşdur. Bölgənin əlverişli coğrafi mövqeyi magistral avtomobil və dəmir yollarının onun ərazisindən keçməsinə, dənizə birbaşa çıxış imkanı yaratmışdır. Rayonun ərazisindən keçən dəmir yolu, avtomobil yolları, qaz və su kəmərləri, telekommunikasiya xətləri təkcə iqtisadi əlaqələr deyil, həm də turizm-rekreasiya fəaliyyəti üçün mühüm amillərdən biridir. Rayonun nəqliyyat infrastrukturu müstəqillik illərində yenidən bərpa olunmuş və genişləndirilmişdir ki, bu da müəyyən dərəcədə yeni rekreasiya zonaları və turizm mərkəzlərinin yaradılmasına stimul yaratmışdır.

Şimal turizm marşrutu üzərində yerləşən Quba-Xaçmaz bölgəsindən respublikanın mühüm magistral Bakı-Xaçmaz-Ərəblinka dəmir yolu və eyni istiqamətdə avtomobil yolu keçir. Bölgə daxilində avtomobil və dəmiryolları ilə təminat səviyyəsinə görə rayonlar arasında fərq vardır. İqtisadi rayon daxilində ümumi dəmiryolunun (123 km) 51%-i Şabran və Siyəzən, 49%-i Xaçmaz rayonunun payına düşür. Bölgədə turist daşımalarında avtomobil nəqliyyatının rolu böyükdür. Bölgədə ümumi istifadədə olan avtomobil yollarının uzunluğu 1741 km-dir (2014-cü il).

Avtomobil yolları ilə təminat səviyyəsinə görə Quba, Xaçmaz və Qusar rayonları seçilir. Bölgədə respublika əhəmiyyətli yollara Gəndob-Xudat-Yalama (67 km), Quba-Qonaqkənd (46 km), Xudat-Nabran-Yalama (47 km), Quba-Qusar-Xəzri (36 km), Qalacıq-Qusar (15 km), Şabran-Quşçu (16 km), Quba-Qəçrəş (12 km) və s.-dir.



Bölgənin bəzi düzən və dağlıq ərazilərində avtomobil yollarının vəziyyəti uzun illər bərbad halda olmuşdur. Bunlardan biri Qubada tarixi kəndlərdən biri Xınalıqa olan yol idi. Quba şəhər mərkəzindən 60 km uzaqlıqda, dəniz səviyyəsindən 2300 metr yüksəklikdə, uca dağlar qoynunda yerləşən Xınalıqda turizm infrastrukturunun, xüsusilə nəqliyyat yollarının bərbad vəziyyətdə olması kəndin turizm fəaliyyətindən "təcrid" halda qalmasına səbəb olmuşdu. Xınalıqda payız-qış mövsümündə gediş-gəliş demək olar ki, kəsildiyindən yerli sakinlərin vəziyyətini çətinləşdirirdi və bir çoxlarının ətraf kəndlərə köçməsinə səbəb olurdu. Bu vəziyyəti nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xınalıqa avtomobil yolunun salınması məqsədilə sərəncam imzaladı. Beləliklə, 2006-cı il oktyabrın 7-də Quba-İspik-Xınalıq avtomobil yolunun (uz. 57 km) açılışı oldu və yol istifadəyə verildi. Turizm infrastrukturunda əsas rol oynayan yolun çəkilişi Xınalığın tarixi kənd kimi tanıdılmasında mühüm rol oynadı.

Qusarda da turizm-rekreasiya əhəmiyyətli ərazilər mənimsənilir. Bu məqsədlə mövcud avtomobil yollarının yenidən bərpası və yenilərinin çəkilməsi istiqamətində mühüm işlər görülmüşür. Bu baxımdan "Sahdağ" turizm kompleksi istiqamətində olan yolu qeyd etmək olar. Dağlıq ərazilərdə turizm komplekslərinin yaradılması kanat yollarının çəkilməsinə də zərurət yaradır. Bu istiqamətdə Sahdağda kanat yollarının çəkilişinin bir hissəsi tamamlanmış və turistlərin ixtiyarına verilmişdir.

İqtisadi rayonda qidalanma xidmətinin vəziyyəti yaxşılaşdırılır. Bölgəyə səfər edən turistlərin qidalanmasını təmin etmək mühüm şərtdir. Quba-Xaçmaz rayonunda hər bir rayonun özünə xas milli mətbəxi vardır. Rayonda turizm inkişaf etdikcə qidalanma xidməti müəssisələri (restoran, kafe, çayxana) şəbəkəsi genişlənir. Hazırda Quba, Xaçmaz, Qusar rayonlarının istirahət mərkəzlərində turistlərə xidmət göstərən restoranlarda milli mətbəxlə yanaşı avropa mətbəxinin yeməkləri təklif edi-

lir. Bölgənin milli mətbəxində hazırlanan ləziz xörəklər və şirniyyatlardan yüksək zövq almaq mümkündür: ləzgi pizzası (ükan), çoban aşı, ləzgi xəngəli, ləzgi qutabları (afarar), ləzgi çörəyi (Qusar), Quba paxlavası, bükmə (Quba) və s.

İqtisadi rayonda fəaliyyət göstərən turizm mərkəzləri və otellərdə qidalanma xidməti müxtəlif formalarda təşkil olunur: bunlara səhər yeməyi (BB), səhər və axşam yeməyi, yəni yarım pansion (HB), tam pansion (FB) aiddir.

Quba şəhərindəki "Çinar", "Aynur" restoranları, Xaçmaz rayonunda "Çoban", " Kamran", Qusar rayonunda "Ləzginka", "Bənövşə", "Cənnət", Siyəzən rayonunda iaşə xidməti müəssisələrindən "Görüş", "Zəfəran", "Çıraq-Qala" restoranları özünəməxsus yüksək xidmət göstərir. Bölgədə istirahət mərkəzlərinə gedən yolların kənarında bir-birindən çox da aralı olmayan kafelər üstünlük təşkil edir. Bu kafelər kiçik bizneslə məşğul olan yerli əhaliyə məxsusdur. Təəssüflə qeyd etməliyik ki, bu kafe sahibləri əksər hallarda burada göstərilən xidmətin keyfiyyəti və ətraf mühitin qorunmasına lazımi səviyyədə nəzarət etmir.

Ekskursiya və əyləncə xidməti. Quba-Xaçmaz iqtisadi rayonunda turistlər üçün daha çox gəzintilər təşkil edilir. Çünki, bölgədə turistləri maraqlandıran, onların istirahətinin və əyləncəsinin səmərəli təşkili üçün geniş təbii, tarixi-mədəni imkanlar vardır. Bu baxımdan bölgədə müxtəlif məzmunlu və istiqamətli turlar və ekskursiyalar təşkil edilir.

Xaçmaz rayonunda turistlər üçün təcrübəli bələdçilərlə meşənin içərilərinə doğru gəzinti təşkil etmək olur. Burada çayların, göllərin kənarında təşkil edilən kiçik pikniklər turistlər üçün maraqlı keçir. İstirahət edənlər rayonda ov edə bilər, həmçinin balıqçılıqla məşğul ola bilərlər, çünki, rayonda Ovçuluq cəmiyyəti fəaliyyət göstərir. "Gülalan" qoruğu bu cəmiyyətin nəzdindədir.

Rayonun Nabran zonası Quba-Xaçmaz bölgəsinin məşhur istirahət zonalarından biridir. Bu zonada yerləşən turizm



obyektlərindən müxtəlif turlar və ekskursiyalar təşkil edilir. "Atlant", "Green Wille", "Mirvari" "Palma", "Sahil" və digər istirahət bazalarında avtobus və ya piyada gəzinti ilə tarixi-mədəni və təbii diqqətəlayiq yerlərə ekskursiyalar, atla gəzinti, meşədəki şəlalə və bulaqlara səyahət, müxtəlif turist yürüşləri turistlərin istirahətinin səmərəli təşkilində böyük əhəmiyyətə malikdir. Ekskursiyalar nəinki rayonun özündəki, həm də Quba, Qusar rayonlarının tarixi-mədəni və təbii abidələrinə də təşkil edilir. Artıq bu rayonlara olan ekskursiyalar turlara çevrilir.

Quba. Rayonda ekskursiyalar təşkil etmək üçün təbiət abidələri çoxdur. Balbulaq, Qızbənövşə, Qəçrəş, dərinliyi 400-600 metrə çatan Təngəaltı yarğanı, əzəmətli Afurca şəlaləsi, nadir Pirbənovşə şəlaləsi, gözoxşayan alma bağları və s. bunlara misaldır. Pirbənövşə şəlaləsində suyun təsirilə yonulmuş qaya mənzərəli görünüşü ilə heyrətamizdir.

Təbiət abidələrinə müxtəlif turlar da təşkil edilir. Quba rayonu yerli və xarici turistlərin ən çox xoşladığı bölgələrdəndir. Turistlər Afurca şəlaləsi, Təngəaltı yarğanı, Kunxirt şəlaləsinə tamaşa etdikdən sonra, ötən əsrin 40-50-ci illərində rayon mərkəzi olmuş Qonaqkəndə, bənzərsiz gözəlliyi ilə seçilən Nohurdüzü, Yelpi kəndlərinə istiqamətlənirlər. Bu yol getdikcə yamac boyu yuxarı qalxır və ətraf landşaft dəyişir. Meşələr seyrələrək kolluqlarla əvəz olunur, yüksəkliklər isə dəniz səviyyəsindən 1000 metrdən yüksəkdir.

Başqa bir tur isə bir qədər yuxarıda, Xaçınçay sahillərindəki kükürdlü su bulaqlarındadır. Buradakı dar yarğandan çıxan qaynar sular müalicəvi əhəmiyyətə malikdir.

Quba şəhəri ilə üzbəüz, Qudyalçayın sol sahilində yerləşən dağ yəhudilərinin yaşadığı Qırmızı Qəsəbə və həmçinin rayon mərkəzindən 65 km aralıda, dəniz səviyyəsindən isə 2500 metr yüksəklikdə yerləşən Xınalıq kəndinə turlar təşkil edilir. Bu ərazilərə olan turlar nəinki rayonun özündə, hətta

Qusar və Xaçmaz rayonlarında yerləşən turizm təşkilatları tərəfindən də həyata keçirilir.

Qusar rayonu Şimal marşrutunun son məntəqələrindən biri olub Quba və Xaçmaz rayonlarının əhatəsində, əsasən dağlıq ərazidə yerləşmişdir, təmiz abu-havalı kurort xarakterli bir rayondur. Qubaya nisbətən Qusarın iqlimi quraqdır və şəhər yaşıllıqların əhatəsindədir. Qusar respublikanın ən yaşıl, təmiz havası olan, bulaq suyu ilə təchiz olmuş rayonlarından biridir.

Turizm və rekreasiya sahələrinin gələcək inkişafında mühüm rolu olan Şahdağ Milli parkı rayon ərazisinin 15 min hektar sahəsini əhatə edir. Urva kəndi yaxınlığında yerləşən, sahəsi 7 hektar olan "Əlistan baba" adlı fıstıq meşəsi isə xüsusi mühafizə olunur. Şahnabaz və Ləzə şəlalələri turistlərin ən çox səfər etdikləri yerlərdir. Rayonun tarixi kəndlərinə (Əniq, Həzrə və s.) ekskursiyalar təşkil etmək mümkündür. Ekoloji turizm bu zonada perspektivli sahədir. Dağ yaylaqları, çimərliklər, onları əvəz edən dağətəyi meşəlik və daha sonra kolluqlar və onların ahənginə qarışan bağlar, üzümlüklər və taxıl zəmiləri əraziyə xüsusi gözəllik verir. Qusarın təbiəti, onun təbii mənzərələri insana heyranedici təsir bağışlayan zənginlikləri rayonda turizm və istirahətin inkişafına, sağlamlığın qorunmasında mühüm rol oynayır.

Ekoloji turizm marşrutları rayonda aşağıdakı istiqamətlər üzrə təşkil edilir:

- Qusar-Qazanbulaq istiqaməti. Bu marşrutda ən məşhur və maraqlı obyekt "Əlistan baba" fıstıq meşəsidir.

- Qusar-Ləzə istiqaməti. Bu istiqamətdə səyahətə çıxan turistlər Əniq kəndindəki tarixi abidələrə və tətbiqi xalq sənəti nümunələri ilə tanış olmaq imkanı əldə edirlər. Marşrutun sonunda "Suvar" dağ istirahət bazasına çatandan sonra alpinizm həvəskarları Şahdağa qalxa bilərlər.

- Qusar- Sudur istiqaməti. Bu istiqamətdə turistlər Həzrə kəndində Şeyx Cüneyd məqbərəsi ilə tanış ola bilərlər. Bundan başqa marşrut boyu turistlər tətbiqi xalq sənəti nümunələri ilə yerli əhalinin adət və ənənələri ilə tanış ola bilərlər. Marşrutun son məntəqəsi olan Sudur kəndi rayon mərkəzindən 75 km aralıda dəniz səviyyəsindən 1800 metr yüksəklikdə Şahdağın yamaclarında yerləşir.



Qusar rayonunun ən inkişaf etmiş istirahət zonası olan "Suvar" dağ-turizm bazasında isə turistlərə iki mühüm tur təklif edilir.

1.Yarıdağa səyahət. Bu istiqamət bir gün ərzində alpinizm üzrə təşkilatçı və həkimin müşayiəti ilə atla olan turdur. Dağın dəniz səviyyəsindən olan hündürlüyü 3500 metrdir. Zirvədə nahar təşkil edilir. Dağa qalxmaq üçün lazım olan alpinizm ləvazimatları turistlərə təklif olunur.

2.Bu istiqamət alpinizm ləvazimatları, çadır, yemək təklif olunmaqla təlimatçı və həkim müşaiyəti ilə Şahdağa 3 günlük turdur. .

Quba-Xaçmaz bölgəsində idman turist marşrutlarının - dağ, piyada, su, avto, moto və velosiped turlarının təşkili üçün də geniş imkanlar vardır. Hazırda bölgədə turizm şirkətləri və təşkilatları bir çox dağ və piyada marşrutlar təşkil edirlər.

"Suvar" dağ-istirahət bazasının təklif etdiyi turlar da dağ marşrutlarına aiddir. Digər idman turları üçün də rayonda perspektivlər vardır. Qudyalçay, Qusarçay, Vəlvələçay, Şabrançay və başqa dağ çaylarında raftinq təşkil etməklə, turistlər bu bölgəyə cəlb oluna bilər. Bu turlar 10-12 nəfər üçün nəzərdə tutulmuş və hava ilə doldurulmuş rezin sal və qayıqlarda səyahətdir.

Avto, moto və velosiped turları üçün tələb olunan asfalt-beton və qar örtüklü yollar bölgənin Xaçmaz və Quba rayonlarında nisbətən çox olduğu üçün turları bu rayonlarda təşkil etmək əlverişli olar.

Bölgədə mühüm dağ turlarından biri də Heydər Əliyev zirvəsinə olan turdur. Bu zirvə Baş Qafqaz silsiləsinin Mıxtökən silsiləsindəki Qızılqaya dağ massivində, dəniz səviyyəsindən 3751 m yüksəklikdə yerləşir. Bu dağlıq massiv Qusar-

çay və Qudyalçay hövzələri arasında uzanan 75 kv. km sahəni əhatə edir. Şimaldan və xüsusilə qərbdən əhatə olunan qayalıq dik sədlər alınmaz və möhkəm qayanı xatırladır. Heydər Əliyevin bürünc barelyefi bu zirvədə Ulu öndərin 75 illiyi şərəfinə qoyulmuşdur. Bu ərazilərə qalxmaq üçün ənənəvi marşrut 2 formada təklif olunur. Birinci marşrut daha uzundur. Bu yol Qusarçayın sağ sahili ilə, massivin qərb səddinin gözəl mənzərəsi boyu Qızılqaya dağ aşırımının altındakı yaşıl meydançayadək olan Ləzə kəndindən 5 km aralı mövqedədir.

İkinci marşrut isə qısadır və o, Xınalıq kəndindən başlayır. Xınalıq dağ keçidinə gedən dağlıq yol bir saat ərzində atəşgah təbii mərkəzinin döngəsinə qədərdir. Yuxarıya doğru qalxdıqca alp çəmənliklərindəki yaşıl təpənin ətəyində yaylağa rast gəlinir. Burada şəffaf sulu kiçik çayların sahilində düşərgə bazası qurmaq mümkündür. Yay fəslində xüsusilə, iyul və avqust aylarında hava daha əlverişli olduğu üçün zirvəyə qalxmaq daha rahatdır. Düşərgə bazasına qalxmaq və enmək adətən 10 saatdan çox vaxt aparmır. Zirvəyə gedən yol əsasən təhlükəsiz silsilələrdən keçir.

Quba-Xaçmaz bölgəsində qeyd edilən turlardan başqa yeni layihələr də hazırlanmışdır. Bunlardan biri bölgədən keçəcək "Aleksandr Düma Qafqazda" marşrutu layihəsidir. Bu mədəni turizm marşrutu Avropa İttifaqı tərəfindən bəyənilmişdir. Marşrutun keçəcəyi yerlərdə çoxsaylı kiçik otellər, motellər, restoranlar və digər obyektlərin tikilməsi nəzərdə tutulmuşdur. "Aleksandr Düma Qafqazda" marşrutu reallaşdıqdan sonra o, beynəlxalq səviyyədə reklam olunacaq, bu isə bölgəyə turist axınını artıracaqdır.

Turistlər üçün təşkil olunan maraqlı turlardan biri də ovçuluq turudur. Bu tur Böyük Qafqaz dağ silsiləsində təşkil edildiyi üçün onun Quba-Xaçmaz bölgəsinə də aidiyyatı vardır. Bu turu respublikamızda fəaliyyət göstərən "Azintourist" turizm şirkəti turistlərə təklif edir. Ovun obyekti şərq Qafqaz keçisidir. Ovun davametmə müddəti iyul ayının 1-dən sentyabrın 15-dəkdir. Böyük Qafqaz zonasında dəniz səviyyəsindən 2500-3600 metr yüksəkliklərdə ovetmə fəaliyyəti həyata keçirilir. Bakı-Quba magistral yolu üzrə nəqliyyat vasitələrinin kirayəsi, ovçuluq evlərində qalmaq, yeməyin təşkili, ovun birinci işləmə mərhələsi, lisenziyanın verilməsi, tərcüməçi, ovçu təlimatçı, gid-bələdçi, aşpaz, dağ alətlərinin kirayəsi xidmətləri həyata keçirilir.



Şabran rayonuna istirahət etməyə gələn turistlər ekskursiyalar və marşrutlardan istifadə edirlər. Burada yerləşən Liman gölünə ekskursiyanın məqsədi qayiqla gəzinti və ovçuluqdur. Xəzər dənizindən 12 km aralıqda yerləşmiş ovçuluq təsərrüfatı sahəsi vardır. Ov həvəskarları üçün bu təsərrüfata ov turları təşkil edilir. Ov zamanı turistləri təcrübəli bələdçilər, təlimatçılar müşaiyət edir, onları zəruri ləvazimatlar və avadanlıqlarla təmin edirlər. Turistlər burada həm balıqçılıqla, həm quş ovu, həm də cəngəlliklərdə yaşayan heyvanların ovu ilə məşğul ola bilərlər. Qayıqla gəzintiyə çıxmaq üçün də şərait vardır. Bunlar yalnız ilin soyuq dövründə daha çox mümkündür. Yayda isə turistlər piyada turlara daha çox üstünlük verirlər. Bu zaman onlar dənizdə çimir və göllərdə qayıqla üzürlər. Həmçinin ekskursiyalarda iştirak edirlər. Bu ekskursiyalar daha çox qədim yaşayış məntəqəsi olan Şabrana və "Keçiqaya" adlanan yerə təşkil olunur. "Keçiqaya"da böyük qayalıqlar arasında kiçik şəlalələr altında müalicəvi əhəmiyyəti olan kükürdlü su bulaqları vardır.

Rayonda ixtisaslaşmış marşrutlardan ən mühümü Çıraqqalaya olan marşrutdur. Bu müdafiə tikilisinin baş qalasından 10 km-lərlə ətrafa mənzərə açılır. Bu mənzərədən turistlər ətrafları və dənizi seyr edə bilir. "Qalaaltı" müalicə-istirahət kompleksinə müalicə olunmağa və istirahətə gələnlər üçün "Çıraqqala" abidəsinə gəzinti təşkil etmək imkanı yaradılmışdır.

Bölgədə turizmin zəif inkişaf etdiyi Siyəzən rayonunda turistlər üçün Beşbarmaq, Çıraqqala, Şeyx Heydər məqbərəsi və digər tarixi abidələrə ekskursiyalar və turlar təşkil edilir.

Rayonda əsaslı infrastruktur yaradıldıqdan sonra təbii, tarixi-mədəni obyektlərə ekskursiya və turları genişləndirmək olar.

Quba-Xaçmaz bölgəsində xalq sənəti nümunələri – xalçaçılıq, ağac üzərində oyma, musiqi alətlərinin hazırlanması, misgərlik inkişaf etmişdir. Qubada toxunan məşhur xalçalar ("Quba", "Qollu Çiçi", "Pirəbədil", "Cimi" və b.) yalnız respublikamızda deyil, Azərbaycandan kənarlarda da tanılır. Bölgədə xalçaçılığın inkişaf etdiyi şəhər və kəndlərə də ekskursiyalar təşkil edilir.

Beləliklə, zəngin turizm-rekreasiya potensialına malik olan Quba-Xaçmaz iqtisadi rayonu respublikamızda həm daxili, həm də xarici turizm inkişaf etmiş bölgələrindəndir. Lakin turizm ehtiyatları və turizm xidməti bu bölgəyə turist axınının gücləndirilməsi üçün kifayət qədər olsa da, insanların istirahətinin təşkili üçün potensial imkanlardan səmərəli istifadə etmək məqsədilə hələ çox işlər görülməlidir. Bölgədə turizmə xidmət edən sahələrin, o cümlədən ticarət, mehmanxana, nəqliyyat infrastrukturunun inkişafı məqsədilə, müvafiq qərar və fərmanlar imzalanmışdır. Azərbaycan Respublikası prezidentinin turizm və onunla əlaqəli sahələr üzrə imzaladığı Dövlət Proqramlarında Quba-Xaçmaz bölgəsində turizmin inkişaf etdirilməsi də öz əksini tapmışdır.

Quba-Xaçmaz bölgəsində kurort kompleksi yaradılması istiqamətində böyük tədbirlər həyata keçirilir. "Azərbaycan kurortları" Dövlət Proqramı, «Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamlarındakı müddəalarda Quba-Xaçmaz bölgəsində bu sahənin inkişafı üçün yararlı istiqamətlər öz əksini tapmışdır. Quba-Xaçmaz bölgəsində kurortların inkişafına yerli sərmayə ilə yanaşı xarici investisiyaların cəlb edilməsi də nəzərdə tutulmuşdur.

Hazırda Nabranda da kurort-sanatoriya işlərinin inkişafı sahəsində böyük işlər aparılır. Burada kurort-sanatoriya müəssisələrindəki avadanlıqlar müasir standartlara cavab verir.



Turizmin beynəlxalq səviyyədə inkişafı üçün Nabran mühüm təbii şəraitə malikdir. Bu sahəni inkişaf etdirmək üçün əlavə stimullaşdırıcı tədbirlərin görülməsinə ehtiyac vardır. Məsələn, bu sektora sərmayə yatırmaq üçün sahibkarları həvəsləndirmək lazımdır.

Hazırda Qusar şəhərinin ətrafında dağ-xizək layihəsinin hazır olunması son mərhələdədir. Beynəlxalq standartlara cavab verən bu kompleksin yaradılmasında respublikamıza Fransa və Avstriya mütəxəssisləri yaxından yardım edir. Kompleksin tam istismara verilməsi yeni iş yerlərinin açılmasına imkan verəcəkdir. Quba-Xaçmaz bölgəsində dənizsahili zonasının rekreasiya rayonlarından olan Nabran-Yalama və Şabran rayonları çimərlik turizminin inkişafında mühüm rol oynayır. Nabran-Yalama rayonu dəniz sahili boyunca 40 km məsafədə uzanan, 5-10 km enində, meşəliyin içərisində, saf dəniz havası, narın qumlu çimərliklər, özünün quru 60-65%-dən yuxarı qalxmayan nisbi rütubətilə sağlamlıq ocağıdır. Lakin burada yaranan bir sıra problemlər turizmin inkişafına mane olur. Belə ki, sanatoriya-kurort və turizm obyektlərinin tikintisi üzrə «Baş layihənin» olmamasından istifadə edən bir sıra şəxslər buranın ən gözəl ərazilərində şəxsi istifadə məqsədilə torpaq sahələri əldə etmişlər. Lakin hazırda bu torpaqlarda müasir turizm kompleksləri tikmək üçün bu torpaqlar ehtiyatda saxlanılmalıdır. Bundan başqa bir sıra turizm obyektlərində kanalizasiya sisteminin olmaması, obyektlərin sıxlığının çox olması landşaftların pozulmasına, dənizin ekoloji cəhətdən çirklənməsinə səbəb olmuşdur. Ona görə də, bu problemlərə xüsusi nəzarətin olması vacibdir.

Aydındır ki, hazırda fəaliyyət göstərən müxtəlif müalicə və istirahət-sağlamlaşdırıcı müəssisələr dənizdən istifadəyə əsaslanır. Məsələn, dənizdə çimmək, sahildə hava və günəş vannalarının qəbul edilməsi və s.. Burada obyektlər dənizə çox yaxın olmamalı, sahildən 2-3 km və daha çox uzaqlıqda yerləşməlidir.

Qeyd etdiyimiz kimi Yalama-Nabran zonasında turizm obyektlərinin sıxlığı meşə ilə dənizin həmahəngliyinin pozulmasına səbəb olmuşdur. Burada sanitariya-mühafizə və rekreasiya zonasının su təchizatını, kanalizasiyasını və sanitariya təmizliyi tədbirləri aparmaq lazımdır.

Rayonda infrastrukturun yaradılması (müalicə-istirahət kompleksi, körpü, Siyəzən-Şabran avtomobil yolu və s.) rayonu turizm mərkəzinə çevirəcəkdir.

Quba-Xaçmaz iqtisadi rayonun yeni inkişaf sxemində (2018-2030-cu illər) turizmin inkişaf etdirilməsi məqsədilə su nəqliyyatı - regionun sahilətrafı əhalisi və turistlərin dəniz nəqliyyatı ilə təmin edilməsi və dəniz gəzintilərinin təşkili məqsədilə sahilboyu zolaqda (Xudat, Xaçmaz, Siyəzən şəhərlərinin hüdudlarında) sərnişin nəqliyyatı üçün liman obyektlərinin tikintisi təklif olunur. Həmçinin, regionun potensialı nəzərə alınaraq onun güclü turizm mərkəzinə çevrilməsi üçün Xaçmazda hava nəqliyyatının fəaliyyətinin təşkil edilməsi zəruri hesab edilmişdir.

Beləliklə, Quba-Xaçmaz regionunda turizm fəaliyyətinin səmərəli təşkili məqsədilə ən mühüm məqamların nəzərə alınması vacibdir: regiondakı turizm-rekreasiya sərvətlərinə (təbii, tarixi-mədəni) biganə yanaşmamaq; əlaqədar strukturlarla razılaşmalara nail olmaq və birgə fəaliyyət göstərmək; zərurət yaranarsa investorlar dəvət etmək və müştərək fəaliyyət göstərmək; regiondakı əsas turizm marşrutlarından başqa düşünülmüş yerli turların təşkili məqsədilə əlavə marşrutlar hazırlamaq; istirahət mərkəzlərində yerli tur və ekskursiyaların siyahısını və sxemini asmaq; istirahət mərkəzlərində yerləşdirmə və qidalanma xidmətilə yanaşı əyləncə sektorunun da genişləndirilməsi turizmin müxtəlif növlərinin (ekoloji, etnik, dərketmə və s.) yaradılması və reklamına nail olunması; regionda turizm infrastrukturunun yaradılması məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi və s. regiondakı turizm-rekreasiya potensialından səmərəli istifadəyə imkan yarada bilər.



# XI FƏSİL
# ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONU

## 11.1. Rayon haqqında ümumi məlumat

Bu rayon Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamacında yerləşir. Şəki-Zaqatala iqtisadi rayonu qədim tarixi və böyük turizm potensialı olan Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala və Balakən inzibati rayonlarını əhatə edir (cəd., 11.1).

**Cədvəl 11.1**

**Şəki-Zaqatala iqtisadi rayonunun tərkibi, ərazisi, əhalisi**

| **İnzibatı rayon və şəhərlər** | **Ərazi, min kv. km** | **Ölkə ərazisinə görə, %-lə** | **Əhalinin sayı, min nəfər (01.01.2015-ci il)** | **Ölkənin ümumi əhalisinə görə, %-lə** |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası | **86,6** | **100** | **9593,0** | **100** |
| Şəki-Zaqatala iqtisadi rayonu - cəmi: | **8,84** | **10,2** | **599,9** | **6,25** |
| Balakən rayonu | 0,94 | 1,08 | 94,9 | 0,98 |
| Zaqatala rayonu | 1,35 | 1,55 | 124,7 | 1,29 |
| Qax rayonu | 1,49 | 1,72 | 55,2 | 0,57 |
| Şəki rayonu | 2,43 | 2,80 | 1810 | 1,88 |
| Oğuz rayonu | 1,08 | 1,24 | 426 | 0,44 |
| Qəbələ rayonu | 1,55 | 1,78 | 11,3 | 1,05 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

İqtisadi rayonun sahəsi 8,84 min $km^2$ (respublika ərazisinin 10,2%-i). Rayonun əhalisinin sayı 599,9 min nəfərdir (respublika əhalisinin 6,2%-i). Rayonun iqtisadi-coğrafi mövqeyi əlverişlidir. Bakı-Balakən turizm marşrutu onun ərazisindən keçir.

Turizm ixtisaslaşması istirahət, dərketmə istiqamətindədir. Şəki-Zaqatala bölgəsində turizm-rekreasiya fəaliyyətinin inkişafına onun yerləşdiyi ərazi, təbiətinin zənginlikləri, əmək ehtiyatları, iqtisadiyyatı, infrastrukturun vəziyyəti və s. böyük təsir göstərir.

Şəki-Zaqatala turizm bölgəsi respublikamızın ucqar şimal-qərb hissəsində yerləşməklə, özünəməxsus iqtisadi və siyasi-coğrafi mövqeyi ilə fərqlənir. Bölgə daxilində inzibati mərkəzlər arasında olan məsafə 30-50 km təşkil edir. Respublikamızın paytaxtı Bakı şəhərindən olan məsafə isə rayonlar üzrə 225 - 394 km arasında dəyişilir. Şəki-Zaqatala bölgəsi Rusiya Federasiyası ilə (Dağıstan Respublikası) 185 km məsafədə yüksək dağlıq ərazilərdən keçən sərhədi respublika üçün istər məkan, istərsə də strateji baxımdan böyük əhəmiyyət kəsb edir. Alazan çayından Baş Qafqaz dağlarının suayrıcına qədər uzanan, təqribən 150 km-ə qədər Gürcüstanla olan sərhəd də mühüm siyasi və iqtisadi əhəmiyyət daşıyır. Yevlax-Balakən və Balakən-Loqodexi Beynəlxalq avtomobil yolunun TRASEKA nəqliyyat sisteminə daxil olması, eyni zamanda burada Balakən gömrük məntəqəsinin fəaliyyət göstərməsi iqtisadi rayonun prespektiv inkişafına yeni imkanlar yaradır.

Regionun təsərrüfat sahələrinin, xidmət sahələrinin inkişaf etdirilməsində onun əhalisi və əmək ehtiyatları aparıcı yer tutur. Abşeron iqtisadi rayonundan sonra əhalisinin milli tərkibinin müxtəlifliyinə görə Şəki-Zaqatala bölgəsi respublikada ikinci yer tutur, bölgənin ümumi əhalisinin 76,38%-ni azərbaycanlılar, 9,53%-ni avarlar, 5,23%-ni ləzgilər, 3%-ni saxurlar, 1,7 % ni gürcülər, qalanlarını isə digər millətlər təşkil edir. Zaqatala və Balakəndə avarlar, Qaxda gürcülər, Qəbələdə ləzgilər, azərbaycanlılardan sonra sayca ikinci yeri tuturlar. Qədim millətlərdən olan udinlər Qəbələdə məskunlaşmışlar. Milli tərkibin müxtəlifliyi onların məişətində, adət-ənənələrinə sadiq qalmalarında aydın müşahidə olunur ki, bu da bölgəyə səfər edən turistlərdə maraq oyadır. Bölgədə şəhər əhalisi 25 % , kənd əhalisi 75 təşkil edir. Sıxlığı isə hər kv. km də 68 nəfərdir. Dağlıq və dağətəyi landşaft, mineral bulaqlar, dağ gölləri, şəlalələr diqqət cəlb edicidir. Bölgənin qeyri-adi gözəlliyi 2000-ci ildən respublikaya gələn investorlar tərəfindən qiymətləndirilərək turizm-rekreasiya cəhətdən perspektivli olduğu göstərilmişdir. Bölgədə qədim dövrlərdə iri ticarət mərkəzi olmuş, sənətkarlığın inkişaf etdiyi Şəki şəhəri yerləşir. Tarixi-memarlıq abidələri - İsfahan, Təbriz, ləzgi karvansaraları, "Gələrsən-Görərsən" qalası və b. (Şəki), qədim qalalar (Qax, Zaqatala), Qafqaz Albaniyasının qədim qəbilələrinə məxsus Yalovlu təpə mədəniyyətinin izləri (Qəbələ), Zaqatala qoruğu maraqlı turizm obyektləridir. Şəki-karvansara otelləri, "Gələrsən-Görərsən", Səadət, Marxal (Şəki), Sahil, Qəbələ istirahət zonaları, Qafqaz, Dağ turist bazaları (Qəbələ), İlisu və Şəfa pansionatları (Qax), Gülüstan turist bazası, Tala və b. (Zaqatala) turistlərin xidmətindədir.

### 11.2. Rayonun turizm-rekreasiya ehtiyatları

***Təbii rekreasiya ehtiyatları.*** Bölgədə turizmin inkişafında təbii rekreasiya ehtiyatlarının rolu böyükdür. Şəki-Zaqatala iqtisadi rayonunun ərazisi təbii şəraiti və relyef xüsusiyyətləri ilə respublikanın digər bölgələrindən fərqlənir. Relyefi kiçik məsafədə (20-30 km) parçalanmaya məruz qalmaqla, ərazisi təbii şəraitinə görə üç sahəyə ayrılır: Böyük Qafqazın cənub yamacı; Alazan-Həftəran vadisi; Orta Kür dağətəyi ərazisi (Acınohur və Turudsarıca düzənliyi və Şəkinin dağlıq hissəsi). Bölgənin ərazisi ümumilikdə dəniz səviyyəsindən 100 metrdən 4466 m-ə qədər hündürlükdə yerləşir. Əsasən dağ-çöl, dağ-meşə, subalp və alp çəmənlikləri nival

sahəsi kimi yüksəklik qurşaqları ilə təmsil olunmuşdur. Relyefindəki xüsusiyyətlər ərazidən müxtəlif təsərrüfat məqsədləri üçün səmərəli istifadə etməyə imkan verir.

Bölgənin iqlimi əsasən mülayim rütubətlidir. Ərazidə il boyu günəşli günlərin miqdarı boldur, 2200-2300 saat və ümumi günəş radiasiyası 120-148 kkal/kv.sm arasında tərəddüd edir. Dəniz səviyyəsindən 500-700 metrə qədər yüksək sahələrdə əsasən subtropik iqlim hakimdir. Havanın orta illik temperaturu Balakəndə 6-14°C, digər inzibati ərazi vahidlərində isə 0-14°C arasında tərəddüd edir. Ərazisinə düşən yağıntıların miqdarına görə bu rayon Lənkəran bölgəsindən sonra respublikada ikinci yeri tutur. Yağıntıların illik miqdarı Acınohurun ətrafında 300-350 mm, Alazan-Əyriçayda 500-700 mm, dağlıq ərazilərdə isə 900- 1300 mm-dir. Əlverişli iqlim şəraiti bölgədə kurort-rekreasiya sistemlərinin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır.

Şəki-Zaqatala bölgəsi respublikada su ehtiyatı ilə zəngin olan regionlardan biri sayılır. Dünyanın ən gursulu və selli çayları olan Katex, Kiş, Şin, Dəmiraparan, Gürmük, Mazım, Muxax və Balakənçay kimi böyük su sisteminin və Qanıx – Əyriçay artezian hövzəsinin iqtisadi rayonun ərazisində yerləşməsi bu çaylardan təsərrüfat sahələrində, o cümlədən turizm-rekreasiya fəaliyyətində daha səmərəli istifadə etməyə imkan verir.

Şəki-Zaqatala bölgəsi mineral sular və bulaqlarla zəngindir. Çimçimarx mineral su bulağı istisna olmaqla, soyuq sulu bulaqlar üstünlük təşkil edir. Təkcə Zaqatalada iki böyük və 20-dən çox kiçik debitə malik olan mineral su yatağı aşkar edilmişdir. Oğlanbulaq, Qızılbulaq, Mosku, Hamambulaq (Qax rayonu), Bum (Qəbələ), Xalxal, Buqusşor və Ağbulaq (Oğuz) və digər bulaqların suyu əsəb, dəri, ürək-damar, əzələ xəstəliklərinin müalicəsi zamanı əhəmiyyətlidir. Qax rayonunun Suskən kəndi yaxınlığındakı bulaqdan istifadə edilərək "Qax" suyu istehsal edilir. Suskən kəndində bu məqsədlə bir



sanatoriya–müalicə müəssisəsi fəaliyyət göstərir. Balakən, Şəki rayonlarında da debiti az olan mineral bulaqlar çoxdur. Bu bulaqların yerləşdiyi ərazilər yerli əhalinin piknik təşkil etdiyi yerlərdəndir.

Təbii rekreasiya ehtiyatları sırasında qoruqlar, istirahət parklarının da əhəmiyyəti danılmazdır.

1929-cu ildə yaradılmış "Zaqatala" Dövlət qoruğu dəniz səviyyəsindən 650-3646 m yüksəklikdə yerləşir və Zaqatala, həm də Balakən rayonlarının ərazisini əhatə edir. Qoruğun ərazisində turistlərin istirahəti üçün münasib yerlər var.

Zaqatala mərkəzi mədəniyyət və istirahət parki-"Heydər parkı" (hazırda Heydər Əliyev parkı) 1947-ci ildə salınmış, 2008-ci ildə parkda yenidənqurma işləri aparılmış və müasir görkəm almışdır. Zərifə Əliyeva adına 2008-ci ildə salınmış bu parkda müasir səhnə, işıqlandırma sistemi, fəvvarələr quraşdırılmışdır.

Dədə Qorqud meydanı Zaqatala əhalisinin sevimli istirahət yeridir. Təbiətin möcüzəsi hesab edilən 800 yaşlı və gövdəsinin diametri 6-7 metr olan Çinar ağacı burada yerləşir. Bu meydandakı fəvvarə və ağaclar axşamlar müxtəlif rəng çalarları ilə işıqlandırılır ki, bu da ətrafda xoş mənzərə yaradır.

Zaqatalada turistləri özünə cəlb edən təbiət abidələrindən biri Katex şəlaləsidir. Mazıx kəndində, Qəbizdərədə yerləşən şəlalə Böyük Qafqazın cənub yamacından Katex çayı hövzəsini formalaşdıran, hündürlüyü 3648 metr olan Quton dağının baş suayrıcından başlanğıcını götürür və cənuba doğru Qanıx çayına daxil olur. Şəlalənin hündürlüyü 14 metrdir. Şəlalənin töküldüyü yerin mənzərəsi və təbiəti insanı heyran edir. Afurca (Quba) şəlaləsi ilə müqayisədə hündürlühü 5 dəfə az olsa da, gur suludur.

Balakəndə 2008-ci ildə salınmış Heydər Əliyev adına mədəniyyət və istirahət parkı da öz xüsusiliyi ilə seçilir. Park ərazisində quraşdırılmış kanat yolunun uzunluğu 1200 m, ən hündür metal dayaq isə yerdən 53 metrlikdədir. Kanat yolu 1 saatda 216 nəfərə xidmət etmək qabiliyyətinə malikdir və 6

kabinəlidir. Qurğulara xidmət tam kompyuterləşdirilmişdir. Balakən şəhərində açıq səma altında muzey yaradılması ideyasının gerçəkləşməsi üçün görülən işlər davam etdirilir.

Oğuz rayonunu təbiətinə görə Azərbaycanın "İsveçrəsi" adlandırırlar. Rayon ərazisinin təqribən yarısını meşələr əhatə edir. Burada çox sayda şəlalə, kükürdlü və termal su bulaqları var. Gözəl təbiəti turizm-rekreasiya fəaliyyəti üçün (ovçuluq, balıqçılıq) əlverişli imkan yaradır.

Şəki rayonunda rekreasiya yeri kimi Marxal istirahət zonası xüsusilə seçilir. Bu gözəl məkan dağlar qoynunda yerləşən Şəkinin yuxarı hissəsindədir. Marxal istirahət zonasında 2015-ci ildə abadlaşdırma və yenidənqurma işləri aparılmışdır.

Rayon ərazisi təbiət abidələri ilə çox zəngindir. Burada mənzərəli qayalıqlara, şəlalələrə, xeyli nəhəng və qocaman ağaclara, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinə rast gəlinir. Ərazinin ən qocaman və nəhəng ağacları "Qoşa Ziyarət Piri" ərazisindəki 300 yaşlı dağdağan, Şəki Xan Sarayının qarşısındakı bir cüt 350 yaşlı şərq çinarları, Şəki avtomobil vağzalı qarşısındakı 500 yaşlı şərq şinarı, Babaratma kəndi kənarında yerləşmiş, məşhur "Babaratma Piri"nin 900 yaşlı şərq çinarı, Qudula kəndindəki 1000 yaşlı şərq çinarı, Şəki şəhəri yaxınlığındakı 1000 yaşlı "səsverən qovaq"dır.

Təbii rekreasiya abidələri sırasında bölgənin turizmində xüsusi yeri olan Qaxın İlisu kəndi xüsusi qeyd edilməlidir. Yaşıllıqları, hündür şəlaləsi və gözəl təbiətli əlverişli coğrafi mövqeyi ilə turistlərin diqqət mərkəzindədir. Rayonun ərazisində "İlisu" şəlaləsi turist cəlb edən təbii obyekdir. O, İlisu Dövlət Qoruğunda yerləşir. Burada mühafizə olunan əsas obyektlər orta dağlıq qurşaqdakı meşələrdir (qoruğun ərazisinin 90%). Qoruqda təqribən 300 növ bitki, o cümlədən, 90 növ oduncaq və kol bitkisi, bir sıra endemik və məhv olmaq həddində olan bitki növlərinə rast gəlmək mümkündür. Qanıq-



Əyriçay vadisi rayonunda heyvan və balıq ovu üçün münasib yerlər vardır.

Qəbələ rayonunda turizm-rekreasiya fəaliyyəti ildən-ilə genişlənir. Bunun üçün rayonda əlverişli təbii imkanlar mövcuddur. Bu imkanlardan rayonun mənzərəli landşaftını, Azərbaycanda "Yeddi gözəl " adı ilə məşhur olan təbiət incisi şəlaləni, buradakı mineral bulaqları qeyd etmək olar. Rayonda xeyli sayda dövlət əhəmiyyətli təbiət abidələri, qocaman ağaclar mövcuddur. Qəbələ şəhərinə gedən şose yolunun kənarında 1100-1200 yaşlı, hündürlüyü 30 m olan qarağac, dəniz səviyyəsindən 850 m yüksəklikdə yerləşən Həmzəli kəndindəki Şeyx Molla Məhəmməd Baba qəbiristanlığında yaşı 1000-1200 il olan qaraçöhrə ağacları bu rayonun təbii zənginliyinin bariz nümunəsidir.

***Tarixi-mədəni turizm ehtiyatları.*** İqtisadi rayonun qədim tarixindən xəbər verən abidələr çoxdur. Rayonun ərazisində Dövlət tərəfindən qorunan 100-ə yaxın abidə qeydə alınmışdır. Bunlardan ən qədimi "Pəri" (V əsr), "Armatay", "Cingöz" (XIV əsr), "Şeytan", "Zaqatala" qalalarıdır. Rayonun kənd yerlərində VI-VIII əsrlərə aid onlarla Alban abidələri mövcuddur: Mazıx və Axaxdərə kəndlərində (XII əsr), Paşan kəndində (XIII əsr), Kebeloba kəndində (XIV əsr) Alban qüllələri qorunub saxlanılmışdır.

Rayonda qədim dövrlərə aid İsfahan, Təbriz, ləzgi karvansaraları, "Gələrsən-Görərsən" qalası, "Yuxarı Baş" tarix-memarlıq qoruğu və b. (Şəki), qədim qalalar (Qax, Zaqatala), Qafqaz Albaniyasının qədim qəbilələrinə məxsus Yaloylutəpə mədəniyyətinin izləri (Qəbələ) və digər tarixi-memarlıq abidələri dərketmə turizminin inkişafı üçün mühüm amillərdir.

Şəki-Zaqatala rayonunun tərkibinə daxil olan hər bir rayonun qədim tarixinin olması bütövlükdə bölgənin turizm potensialına müsbət təsir edir. Tarixi abidləri ilə zəngin olan kəndləri əsasən Kiş, Car, Qəbizdərə, Yuxarı Tala və s.-dir.

Turistlər Zaqatala şəhərindən 6 km şimal-qərbdə yerləşən Car kəndinə getməyi daha çox xoşlayırlar. Bu kəndin təbiəti füsunkar olmaqla yanaşı, burada regiona xas olan nadir memarlıq üslubu və məişət ənənələri qorunub saxlanmışdır. Car kəndi Zaqatala şəhərinin şimalında, Böyük Qafqaz dağlarının cənub ətəklərində yerləşir. Kəndin ərazisindən 2 dağ çayı - Bəkməz və Zilban axır. Üç tərəfi dağlardır. Tarixi abidələrdən Car məscidi (XVII əsr), XVI əsrə aid və müdafiə məqsədləri üçün tikilmiş, hündürlüyü 10-12 metr olan Cigiz qala və s.-dir. Ərazidə "Gülüstan" turist bazası yerləşir.

Qəbizdərə kəndi - Mazıx kəndinin şimalında, Böyük Qafqaz dağlarının cənub ətəyində, Katex çayının sağ sahilində yerləşir. Burada turizm istirahət mərkəzi üçün torpaq sahəsi ayrılmış və tikintisinə başlanılacaqdır. Ərazidə 14 m hündürlükdən tökülən respublikanın bol sulu şəlaləsi vardır.

Rayonda olan digər tarixi yerlər aşağıdakılardır:

1.Sasani dövrünə aid Böyük Sədd - bu qədim tarixi abidənin qalıqları Balakən rayonunun Katex kəndində Bakı-Balakən magistral yolu boyunca yolun şimalındadır. Divarların eni aşağıda 1,5 metrə yaxındır, hündürlüyü 4-5 metr olmuşdur. Sədd V-VII əsrlərdə Azərbaycanı sasanilər işğal etdikdən sonra Sasani hökmdarı I Qubad və Xosrov Ənuşirəvanın göstərişi ilə tikilib. Səddin tikilməsində məqsəd ölkəni dağlıların qəfil hücumundan müdafiə, həmçinin "Hun keçidi"ndən gələn hunların axınının qarşısını almaq idi.

2.Darvaz məbədi - Antik dövr müəlliflərinin qeyd etdikləri kimi, bu məbəd Qanığın (Alazan çayı) sol sahilində, Tuğay meşəsinin ortasında olan düzəngahın mərkəzindədir. Məbəd Balakən rayonunun mərkəzindən 15-16 km cənubda, Qacarçöl adlanan böyük bir düzəngahın yaxınlığında, Darvaz binə deyilən yerdədir.

3.Anlıqbinə məbədi - yerləşdiyi ərazi Balakəndən Gürcüstana gedən magistral yolun sağında, dağın ətəyində, son dərəcə mənzərəli bir yerdə, rayon mərkəzindən 5 km qərbdə, yoldan 1 km şimalda yerləşir. Əsas kilsə binası qismən salamatdır və çox keyfiyyətli kərpiclə tikilmişdir. Təxminən 4 hektar sahədə çay daşı və hasar daxilindəki ərazidə çoxsaylı tikili qalıqları, o cümlədən xeyli qəbirlər vardır.

4.Minarəli məscid - Balakən rayonunun mərkəzində yerləşir. 1867-1877-ci illərdə inşa edilmişdir. Bişmiş kərpicdən tikilmiş məscidin sahəsi 1025 kv. metrdir. Əsas binadan ayrı tikilmiş minarənin hündürlüyü 45 metrdir. Məscidin şimal-qərb fasadında dörd yerdə qabarıq formada ərəb dilində kitabələr həkk edilmişdir.

5.Nur kilsə - bu abidə Talalar kəndində düzən yerdə yerləşir. XIV əsrə aid Nur kilsəsinin uzunluğu 15 m, giriş hissəsinin hündürlüyü 7,6 m olmaqla 2 tərəfli və 6 bucaq şəkillidir. Binanın eni isə 6 metrdir. Iki hissədən ibarət olan binanın giriş hissəsi öndə iki nəhəng sütun üzərində durur, sonra isə ibadət yeri olan hissəyə, otağa giriş qapısı üzərində tağa birləşir.

6.Gül qala - Balakən çayının sağ sahilində Mahamalar kəndində yerləşir. Gül formasında tikilib, 8 güşəlidir.

7.Noxo mağarası - rayon mərkəzindən 18 km şimalda, Qubek qayası deyilən yerdədir. Dəmir dövrünə aiddir. Mağaraya girmək qeyri-mümkündür. Mağaranın qarşısı sıldırımlı aşırımdır. Mağaraya qayanın üstündən alpinist ləvazimatı ilə düşmək mümkündür.

8.Pəri qala - Humbul çayının yatağı istiqamətində olan dağ keçidinin (Hun keçidi) qarşısında tikilən möhtəşəm qaladır. V-VI əsrdə Böyük Sədd ilə eyni vaxtda Hun tayfalarının hücumuna qarşı müdafiə məqsədilə digər qaqalar da tikilmişdir.

*Balakən* rayonunun inzibati mərkəzi olan şəhərin özündə XVII-XIX əsrlərə aid, minarəsinin qeyri-adi dərəcədə hündür olması ilə maraq doğuran məsçid binası salamat qalmışdır. Bütünlükdə rayonun rekreasiya ehtiyatları turizmin çox sahəli inkişafı üçün geniş imkanlar yaradır. Tarixi-

memarlıq abidələri, milli istirahət parkları ilə yanaşı Balakən turizmi üçün xas olan əlverişli təbiət abidələri də vardır.

*Qax* rayonunun ərazisində tarixi abidələr çoxdur. Rayonda aşkar edilmiş kurqanlar bu regionun hələ tunc dövründə məskunlaşmış olduğunu sübut edir.

Tirməçi kəndinin yaxınlığında, qocaman palıd ağacları bitən meşədə Şeyx Şamilin naibi (sərkərdəsi) Hacı Muradın qəbri var.

Qum kəndinin yaxınlığında Qafqaz Albaniyası dövrünə aid abidələr - Sırtqala istehkamı (XVIII əsr), Qum bazilikasının xarabalıqları (V əsr), Dəyirmi məbəd (VII əsr), Ləkit kəndində isə Məbəd kompleksi (XII əsr) salamat qalmışdır.

Abidələrdən İlisu kəndində yerləşən "Sumuq" qalası, "Kürmük" məbədi Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təmir edilmiş, Qum kəndindəki qədim Alban məbədinin yenidən bərpası isə ABŞ Konqresinin qrant layihəsi çərçivəsində həyata keçirilmişdir. Qaxbaş kəndindəki "Həsən xan" qalasının və İçəribazar küçəsində yerləşən Qala qapısı və qala divarlarının əsaslı bərpası ilə bağlı ilkin işlərə başlanılmışdır.

Bölgədə tarixi-mədəni ehtiyatlara görə *Oğuz* rayonunun xüsusi yeri vardır. Rayonda millilikIə yanaşı tarixi abidələrin mövcudluğu da turizmin inkişafına təsir edən amillərdəndir . Arxeoloqlar Kərimli və Qarabaldır kəndlərinin yaxınlığında qədim insan məskənləri aşkar etmişlər. Burada nizələr üçün ucluqlar, tunc silah, daşdan hazırlanmış qadın heykəlləri və əşyalar tapılmışdır. Rayon ərazisində qədim tarix və memarlıq abidələri çoxdur: Calut kəndində məbəd, Xacmaz kəndi yaxınlığındakı Sarısu çayının üstündəki Daşüz körpüsü (XIX əsr), Sincan kəndindəki Məscid (XVIII əsr), Kərimli kəndindəki məqbərə (XV əsr), Muxas kəndindəki üçmərtəbəli qüllə (XIV əsr), Xaçmaz kəndində Qaladağ dağının zirvəsində yerləşən müdafiə təyinatlı Qabur qülləsi (VII-XIV əsrlər) yenə də Qaladağ zirvəsinin yaxınlığında yerləşən, lakin içməli su ilə



təchiz olunan Gavurqala qülləsi (VII əsr), Filfilli çayının yaxınlığında, Qalaçay çayının sahilində yerləşən, çay daşından tikilmiş Surxayxan qülləsi (XVIII əsr) və s. Rayonun inzibati mərkəzi Oğuz şəhərində Alban kilsəsi, məbədi, Azərbaycan ərazisində fəaliyyətdə olan ən qədim məktəblərdən biri(XIX əsr) yerləşir.

*Qəbələ* rayonu bölgənin ən sürətlə inkişaf edən rayonudur. Tarixi keçmişi də təbiəti qədər zəngindir. Qəbələnin əlverişli tarixi-coğrafi mövqeyi onun ərazisinin insanlar tərəfindən qədimdən mənimsənilməsinə və nəticədə zəngin maddi-mədəniyyət abidələrinin yaranmasına səbəb olmuşdur. Rayon ərazisində 90-dan çox tarixi, etnoqrofik, maddi-mədəniyyət abidəsi mühafizə olunur. Həzrə türbələri Qəbələ rayonunun Həzrə kəndində, meşəlik ərazidə orta əsr qəbirstanlığındadır (sahəsi 3,5 ha). Rayonda Came məscidi (1899-1906-cı illər, Qəbələ şəhəri), Alban məbədi (Nic qəsəbəsi), Səkkiz guşəli məscid ( XV-XVI əsrlər, Qəbələ şəhəri) və digər tarix və mədəniyyət abidələri mövcuddur. Qəbələ rayonunun giriş qapısı Bakı - Laqodexi şose yolunun 200-cü kilometrliyinin sol tərəfində, 2005-ci ildə tikilmişdir. Giriş qapısının görünüşü Qəbələ ərazisinə daxil olan hər bir kəsdə bu yerlərin qədimliyi barədə ilkin təəssürat yaradır. Rayonda sovet quruculuğu illərində ucaldılan abidələr də qorunub saxlanılır. Bunlara Ana abidəsi (1985-ci il), Azərbaycan realist nəşrinin banilərindən və ilk Azərbaycanlı generallarından biri İ.B.Qurtqaşınlının məzarı üzərində abidə (1979-cu il) aiddir. Qəbələ rayon tarix diyarşünaslıq muzeyində (1980-ci ildən fəaliyyət göstərir) Qəbələnin, Azərbaycanın 2500 illik tarixini əks etdirən on iki mindən çox tarixi və elmi əhəmiyyətə malik eksponat mühafizə olunur.

*Şəki* Azərbaycanın ən qədim yaşayış məskənlərindəndir. Zəngin tarixi - memarlıq abidələrinin olması ilə seçilən bu qədim diyar Azərbaycan turizminə əvəzolunmaz töhfələr verməkdədir. Xan Sarayı - Şəki xanlarının yay sarayı 1761-

1762-ci illərdə Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi Hüseyn xanın dövründə tikilmişdir. Qala divarları ilə əhatə olunan Xan sarayı ikimərtəbəli olmaqla altı otaqdan, dörd dəhlizdən, iki güzgülü eyvandan ibarətdir. Xan Sarayının maraqlı tarixi vardır. Bu haqda saraya tamaşa etməyə gələn yerli və xarici turistlərə ətraflı məlumat verilir. Rayonun Kiş kəndi ərazisində Alban məbədi yerləşir ki, bu da yalnız Qafqaz Albaniyası ərazisində deyil, ümumiyyətlə, Qafqazda tikilmiş ilk xristian kilsəsidir

## 11.3.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti

Azərbaycanın qədim təbii və tarixi-mədəni turizm-rekreasiya potensialı ilə zəngin olan Şəki-Zaqatala bölgəsinə səfər edən turistlərin sayı ildən-ilə artır. Bölgədə turizmə xidmət edən sahələr (yerləşdirmə, qidalanma, nəqliyyat, ekskursiya) genişləndikcə turizmin müxtəlif növlərinin inkişafına imkan yaranır. Son illərin statistikası və marketinq araşdırmaları bunu deməyə əsas verir ki hər il öz məzuniyyətini Qəbələdə keçirmək və rayonla yaxından tanış olmaq istəyən xarici qonaqların sayı durmadan artır. Onlardan bir çoxu mədəniyyətimizlə tanış olmaq, digərləri Qəbələnin ekzotik təbiəti ilə təmasda olmaq , həmçinin şərq qonaqpərvərliyinin şahidi olmaq üçün bu gözəl məkana gəlməyə çalışırlar. İqtisadi rayona istirahət və əyləncə məqsədilə gələnlərin sayına görə birinci üçlüyə Şəki, Qəbələ, Qax rayonları aiddir. Işgüzar məqsədlə səfərlər üzrə ən çox Şəki, Zaqatala, Balakən rayonları seçilir (cəd.11.2).



Cədvəl 11.2

**Şəki-Zaqatala iqtisadi rayonu üzrə səfərlərin məqsədinə görə yerləşdirilmiş şəxslərin sayı, nəfərlə (2014-cü il)**

| İnzibati rayon və şəhərlər | Cəmi | Turizm məqsədilə | İstirahət, əyləncə | İşgüzar səfər | Müalicə turizmi | Digər turizm məqsədi | Digər məqsədlə |
|---|---|---|---|---|---|---|---|
| **Ölkə üzrə cəmi:** | **672345** | **550643** | **237506** | **206234** | **70981** | **35922** | **121702** |
| **İqtisadi rayon üzrə cəmi** | **32007** | **27868** | **19712** | **4387** | **34** | **3735** | **4209** |
| Balakən rayonu | 3805 | 2962 | 859 | 1071 | - | 1032 | 843 |
| Zaqatala rayonu | 5556 | 3914 | 1198 | 1569 | - | 1147 | 1642 |
| Qax rayonu | 3791 | 2845 | 2108 | 50 | 34 | 653 | 946 |
| Şəki rayonu | 12293 | 12293 | 9700 | 1690 | - | 903 | - |
| Oğuz rayonu | 808 | 30 | 30 | - | - | - | 778 |
| Qəbələ rayonu | 5824 | 5824 | 5817 | 7 | - | - | - |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Yerləşdirmə obyektləri və rayonun xidmətlə təminat səviyyəsi. Qədimdə ipəkçiliklə, kələğayı istehsalı ilə dünyada tanınan Şəkidə tacirlərin yerləşmələri üçün bir çox karvan-saralar mövcud olmuşdur. İsfahan, Təbriz, Ləzgi karvansaraları ilə yanaşı regionun digər rayonlarında da müasir yerləşdirmə müəssisələri inşa edilmişdir. Bölgənin turizmində bu sektor son

illərdə surətlə inkişaf edən xidmət sahəsidir. İqtisadi rayonda yerləşdirmə xidməti ilə təminat səviyyəsinə görə rayonlar üzrə regional fərqlər mövcuddur (cəd., 11.3)

**Cədvəl 11.3**

**Şəki-Zaqatala iqtisadi rayonunda yerləşdirmə müəssisələrinin ümumi iqtisadi göstəriciləri (2014-cü il)**

| İnzibatı rayon və şəhərlər | Yerləşmə vasitələrində nömrələrin ümumi sayı, vahid | | İstismardan əldə olunan gəlir, min manat | |
|---|---|---|---|---|
| | 2010 | 2014 | 2010 | 2014 |
| **Ölkə üzrə cəmi:** | **14158** | **17363** | **105888,8** | **181047,3** |
| **İqtisadi rayon üzrə cəmi:** | **970** | **1015** | **3993,9** | **2556,7** |
| Balakən rayonu | 24 | 87 | 9,4 | 185,6 |
| Zaqatala rayonu | 155 | 155 | 276,0 | 253,4 |
| Qax rayonu | 212 | 225 | 648,4 | 425,2 |
| Şəki rayonu | 269 | 306 | 2210,5 | 1095,9 |
| Oğuz rayonu | 43 | 43 | 132,1 | 27,7 |
| Qəbələ rayonu | 267 | 199 | 717,5 | 568,9 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Yerləşdirmə müəssisələrində nömrələrin sayına görə Şəki, Qax, Qəbələ rayonları iqtisadi rayonda birinci üçlüyə daxildir. İqtisadi rayon üzrə bu göstəricinin 30,1%-i Şəki rayonunun payına düşür.



*Şəki rayonu.* "Gələrsən-görərsən" istirahət zonası Kiş kəndinin şimal hissəsində eyni adlı qalanın yaxınlığında yerləşir. Bina 3 əsas korpusdan ibarətdir. Eyni zamanda 45 nəfər turisti qəbul etmək imkanı vardır. "Şəki-Karvansaray" mehmanxana kompleksi 1989-cu ildən mehmanxana və ictimai iaşə xidməti ilə məşğul olur. Mehmanxanada 38 otaq vardır, eyni vaxtda 75 nəfərə xidmət etmək imkanına malikdir. Otaqların 8-i lüks, 4-ü ikinci dərəcəli, qalanları isə turist dərəcəlidir. Lüks otaqlar 2 mərtəbəlidir. Kompleks AR İqtisadi İnkişaf Nazirliyinin balansındadır.

"Sahil" pansionatının binası 2 mərtəbədən ibarətdir. Birinci mərtəbədə 1 zalı olan yeməkxana, ikinci mərtəbədə isə 6 yataq otağı yerləşir. Pansionat eyni zamanda 16 nəfərə mehmanxana, 60 nəfərə isə iaşə xidməti göstərə bilər.

"Marxal" istirahət mərkəzi ərazisində üç yerləşdirmə binası vardır. Eyni vaxtda Son illərdə genişləndirmə işlərinin nəticəsində eyni vaxtda 60 nəfər qonaq qəbul etmək imkanına malikdir. Nömrələr üçün təklif edilən qiymətlərlərdə hər il dəyişikliklər olur.

Şəkidə mövcud imkanlar nəzərə alınaraq, bir-brindən fərqli, qədimliklə müasirliyin vəhdəti olan yerləşdirmə obyektləri tikilmişdir.

"Şəki-mehmanxana"sı şəhərin mərkəzində yerləşir. Bina 9 mərtəbə və 54 nömrədən ibarətdir. Eyni vaxtda 100 nəfər turisti yerləşdirmək imkanına malikdir. Turizm inkişaf etdikcə yeni tikililərin sayı artır. Heydər Əliyev adına mədəniyyət və istirahət parkının yaxınlığında yerləşən 100 yerlik Qubek otelində 9 lüks və 54 turist dərəcəli nömrə, 80 nəfərlik konfrans zalı, 80 nəfərlik yay və qış restoranları vardır. Oteldə 80 nəfər işlə təmin olunmuşdur.

"Narın Qala" istirahət mərkəzi - Qafqaz dağlarının ətəyində, şam meşəsində, Kiş və Qaynar çaylarının birləşdiyi yerdə, dəniz səviyyəsindən 1050 m. hündürlükdədir. Narın Qala istirahət mərkəzində kommunal şəraiti olan 4 otaqlı kottecələr turistlərin ixtiyarındadır.

*Qax rayonu.* Hazırda rayonda 1 mehmanxana, "Şəfa" istirahət və müalicə pansionatı, İlisu pansionatı, "Yaşıl park", "Ulu", "İmproteks", "Ulu dağ", "Eden" turizm və istirahət mərkəzləri turistlərin ixtiyarındadır.
İstirahət mərkəzlərində turistlərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Hər il rayonda mövcud turizm mərkəzlərində minlərlə turist istirahət edir. "Uludağ turizm və istirahət kompleksi" Qax rayonunun İlisu kəndinin ərazisində, dağın ətəyində 4 ha ərazini əhatə edir və ilboyu kompleksə gələnlərə xidmət göstərilir. Kurmuxçay adlı dağ çayının sahilində, rayon mərkəzindən 10 km məsafədə yerləşən bu pansionatın rahat kotteclərі, yüksək səviyyədə servis xidmətləri təklif edilən mehmanxana kompleksi vardır.

*Qəbələdə* turizm yerləşdirmə obyektlərinin açılması turizmdə prespektiv imkanlar açır. Rayonda 12 turizm obyekti fəaliyyət göstərir. Bunlardan ikisi 5 ulduzludur. "Qafqaz Riverside" otelinin açılışında Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iştirak etmişdir. Qəbələ rayonunda Qəmərvan İstisu müalicə sanatoriyası 260 yerlikdir. Sanatoriyada Avropa standartlarına uyğun müalicə vannaları quraşdırılmış və 2 ədəd müalicəvi su hovuzu mövcuddur. Sanatoriyada revmatizm, oynaq ağrılarının müalicəsi aparılır. Bölgədə son zamanlar gedən inkişafın nəticəsi olaraq xüsusi sektorda turizm-istirahət komplekslərinin sayı sürətlə artmaqdadır. Xüsusi ilə Qəbələ və Qəbələ-Ləzə istiqamətlərində inşa edilmiş yerləşdirmə müəssisələrində ("Qafqaz Resort", "Sərin meşə", "Duyma" "Karvan", "Yeddi gözəl", "Sahil", "Selbasar", "Ay işığı", "Qafqaz", "Xanlar", "Çənlibel", "Soyuq bulaq", "Gilan", "Qəbələ", "Karvan" və s.) turistlərin istirahəti üçün şərait yaradılmışdır.

"Qəbələ Hotel" - Qəbələ şəhərinin mərkəzində Heydər Əliyev Parkının şimal hissəsində yerləşir. Eyni vaxtda 90 nəfərə xidmət etmək imkanı vardır.

"Gilan Hotel" - Qəbələ rayonu Zarağan kəndinin ərazisində yerləşir. Dörd mərtəbəli olan bu otel 21 otaqdan ibarət olmaqla, eyni zamanda 40 nəfər turistə xidmət etmək imkanına malikdir.

"Karvan Hotel" - Qəbələ şəhərinin mərkəzində Heydər Əliyev Parkının cənub hissəsində yerləşir. Otel binasi üç mərtəbəlidir. Nömrələrin sayı 14-dür.

"Çənlibel" istirahət mərkəzi, Dəmiraparan çayının sahilində yerləşən "Ay işığı" pansionatı yerləşir. Bu yerlərdə təbii şəraitin füsunkarlığı istirahət edənlərdə xoş əhval-ruhiyyə yaradır. Burada qonaqların arzusundan asılı olaraq səyahət və ekskursiyalar, piyada və atla dağ gəzintisi və s. təşkil etməyə imkan verir.

"Sahil" istirahət mərkəzi də öz gözəlliyinə görə digərlərindən fərqlənir. Bu obyektin xalq arasında "Nohur" adlanan Nohurqışlaq su anbarının sahilində yerləşməsi qonaqlara xüsusi zövq verir. İstirahət mərkəzində eyni vaxtda 70 nəfər yerləşdirmək olar. "Selbasar" istirahət mərkəzi Vəndam çayının sağ sahilində yerləşir. 30 yerlikdir. "Tərkeş" istirahət evi Qəbələ şəhərinin şimalında, "Ay işığı" ilə "Xanlar" pansionatının arasında, meşə zolağında yerləşir.

İstirahət mərkəzlərində turistlərdə maraq oyadan əlamətlərdən biri onların dizaynının rayonun relyefi və təbiətinə uyğun olmasıdır. Burada şəbəkə şəklində fəaliyyət göstərən otellərdən biri "Qafqaz SPA" sağlamlıq və əyləncə mərkəzidır. Avropa standartlarına cavab verən bu mərkəz cəlbediciliyi ilə istirahətə gələn turistlərdə məmnunluq hissi oyadır.

Qəbələ rayonunun Vəndam kəndində yerləşən "Duyma" idman-sağlamlıq kompleksi dəniz səviyyəsindən 1100 m yüksəklikdə yerləşir. Rahat 4 mərtəbəli mehmanxanası vardır. Sahəsi 5 ha-dır, ərazisi hər tərəfdən sıx meşəliklə örtülü hündür dağlarla əhatə olunmuşdur.

*Zaqatala.* Zaqatala şəhərinin mərkəzində - H. Əliyev prospektində "Zaqatala Hotel"i fəaliyyət göstərir. Bu otel son illər turizmin inkişafı ilə əlaqədar yeniden bərpa edilmişdir. 50 nəfərə yaxın qonağı eyni zamanda qəbul etmək imkanına malik

olan bu oteldə standart, yarımlüks və lüks otaqlar fəaliyyət göstərir.

"Ləzzət" istirahət mərkəzi rayon mərkəzindən 4 km məsafədə, Car kəndi ərazisində, dağ ətəyində yerləşir və 1987-ci ildən fəaliyyət göstərir. Cox əlverişli mövqeyi var, təbiətin gözəllikləri ilə əhatə olunmuş bu istirahət mərkəzi turistlərin diqqətini cəlb edən obyektdir.

"Balıqçılıq" - istirahət mərkəzi Zaqatala rayonunun Makov kəndində yerləşir. İstirahət mərkəzində turistlərin əyləncəsi üçün balıq ovu və səyahətlər təşkil olunur. İstirahət mərkəzində yerləşən motelin birdəfəlik tutumu 20 nəfərlikdir.

Rayonda orjinal memarlığa malik Olimpiya idman kompleksi fəaliyyət göstərir, birdəfəlik tutumu 90 nəfərlikdir. Oteldə çeşidli turizm xidmətləri göstərilir.

"İsoil" hotel şəhər mərkəzinin 1-2 km-də yerləşir. 2005 ci ildə inşa edilən bu otel iki mərtəbəli olmaqla 16 nömrədən ibarətdir. Son illərdə inşa edilmiş "Qafqaz" oteli turizm sahəsində inkişafın bariz nümunələrindən biridir, şəhər mərkəzində yerləşir və 5 ulduzludur.

*Oğuz* rayonunun mərkəzində, dağların əhatəsində "Afra" oteli yerləşir. Otel 5 ulduzludur və müasir avadanlıqlarla (minibar, ikikanallı telefon xətti, seyf, fen, kabel televiziyası və s.) təchiz olunmuşdur. 31 nömrədən və 4 kottecdən ibarətdir.

İqtisadi rayonda nəqliyyat infrastrukturu və xidməti inkişaf etdirilir. Bölgədə avtomobil, dəmir yolu və hava nəqliyyat xidmətləri göstərilir. Regionların sosial-iqtisadi inkişafı Proqramı çərçivəsində yollar abadlaşdırılır, infrastruktur yenidən qurulur. Ümumiyyətlə, bu bölgə Yevlax-Balakən dəmir və şose yollarının üzərində yerləşir. Yolun uzunluğu 162 km-dir, bunun 132 km-i (81.5%) Şəki-Zaqatala iqtisadi rayonu ərazisinə düşür. Dəmir yol xətti əsasən dörd inzibati rayon ərazisindən (Şəki, Zaqatala, Qax, Balakən) keçir. Bakı-Balakən turizm marşrutu da iqtisadi rayonun ərazisindən keçir. Dəmir yol xətti Şəki inzibati rayonun mərkəzindən 10-12 km, Qaxdan 5-6 km, Zaqataladan 3-4 km, Oğuzdan 26-30 km,



Qəbələdən 55- 60 km aralıda yerləşsə də, sərnişin daşımalarının tənzimlənməsində mühüm yer tutur.

Bölgədə ümumi istifadədə olan avtomobil yollarının uzunluğu 1804 km-dir. Müstəqillik illərində Yevlax-Balakən şose yolunun davamı kimi Balakən-Loqodexi xəttinin beynəlxalq əhəmiyyəti artmışdır. Bölgə bu avtomobil şosesi vasitəsi ilə Cənubi Qafqaz və TRASEKA şəbəkəsinə qoşulur. Nəqliyyat şəbəkəsinin genişlənməsinə, Bakı-Yevlax-Balakən və ona paralel Bakı-İsmayıllı-Qəbələ-Balakən avtomobil yollarının rayonun daxili və xarici iqtisadi əlaqələrində mühüm yer tutmasına baxmayaraq, turistlərə xidmət sahəsində onlardan istifadə hələ qənaətbəxş səviyyədə deyildir. Avtomobil və qatarla həyata keçiriləcək turizm səfərləri üçün nəqliyyat vasitələrinin təkmilləşdirilməsinə ehtiyac vardır.

Şəki-Zaqatala iqtisadi rayonun sosial iqtisadi inkişafında hava nəqliyyatı mühüm əhəmiyyət kəsb edir. Zaqatalada yeni aeroportun istifadəyə verilməsi (2007-ci il) sərnişin daşımalarının artırılması ilə yanaşı, regiona turistlərin gediş-gəliş problemlərinin həllində də müəyyən dərəcədə əhəmiyyət kəsb edir.

Şəki-Zaqatala rayonuna səfər edən turistlərə qidalanma xidmətində bölgəyə daxil olan hər bir rayonun özünə xas milli mətbəxi təmsil olunur. Bölgədə turizm inkişaf etdikcə yeni-yeni qidalanma müəssisələri açılmaqdadır. Hazırda Şəki-Zaqatala bölgəsində turistlərə xidmət göstərən restoranlarda nəinki Azərbaycan mətbəxi, hətta bir çox xalqların mətbəxini əks etdirən yeməklər təklif olunur. Bölgədə fəaliyyət göstərən yerləşmə müəssisələri artdıqca qidalanma xidməti də inkişaf edir. Restoran biznesi bölgədə iki istiqamət üzrə inkişaf etməkdədir. Bunlardan biri fərdi olaraq yerləşmə müəssisələrindən kənar fəaliyyət göstərən, digəri isə yerləşmə müəssisələrinin tərkibində olanlardır. Yerləşmə müəssisələrinin tərkibində restoranlarda xidmət beynəlxalq standartlara uyğun (BB,HB,FB) göstərilir. Əsasən 4 və 5 ulduzlu otellərə xas olan ALL və ULTRA ALL xidmət forması da vardır ki, bu işarə altında fəaliyyət göstərən yerləşmə müəssisələrində gün

ərzində istənilən qədər qidalanmaq mümkündür. Şəki şəhərindəki "Soyuq-bulaq", "Qarabağ", "Səadət", Oğuz şosesində "Yeddi gözəl" restoranlarında yüksək xidmət göstərir. Yerləşdirmə müəssisələrinin tərkibində olan restoranlar da özünəməxsus yüksək xidmət göstərir. Turistlərə göstərilən qidalanma xidmətində milli mətbəxin xüsusi təmsil olunması onlarda maraq doğurur. Şəkidə Piti, Şəki halvası, Qaxda qırs, Zaqatalada sülhüllü və s. bu regionun milli mətbəxinin nümunələridir.

Şəki-Zaqatala bölgəsinə səfər edən turistlərin sayı artdıqca bu ərazi daha çox cəlbedici məkana çevrilir. Turistlərə yüksək standartlara uyğun xidmətin göstərilməsi isə bir çox amillərdən asılıdır. Bu cəhətdən turizm xidmətinin ayrılmaz hissəsi kimi ekskursiya və əyləncə xidmətlərinin rolu böyükdür. Bu, həm yerli turistlər, həm də respublikaya səfər edən xarici turistlər üçün eyni dərəcədə əhəmiyyətlidir. Bölgədə müxtəlif istiqamətlərdə və məzmunda ekskursiyalar, turizm marşrutları təşkil olunur.

Balakəndə bir neçə istiqamətdə turizm marşrutu hazırlanmışdır: Balakən- Katex şəlaləsi; Balakən-Qubek-Sudönən; Balakən-"Mirovaya voda"; Balakən- Arılıq; Balakən-Qaraçay-Siltik-Geoloji kəşfiyyat; Balakən-Mazımçay; Balakən- Darvazbinə-Göyəmtala-Qanıx; Balakən-Qabaqçöl-Bağman bulaq-Kubçar bulaq; Balakən-Aviasiya mərkəzi-İmam bulağı; Balakən-İtitala; Balakən-Gərəkli-Zepel bulaq-Pəri qalası; Balakən-Cicixana. Qeyd edək ki, turistlərə təklif olunan turlar və ekskursiyalar zaman keçdikcə daha da təkmilləşir. Bəzilərinin istiqamətləri daimi olsa da, digərləri özünü doğrutmursa, dəyişdirilir. Bu turların mütəşəkkil olaraq təşkil olunması bölgə turizmində əhəmiyyətli rol oynaya bilər.

Qəbələdə istirahət edən turistlər üçün Qəbələ şəhərində "Qafqaz Riverside" otelindən turlar təşkil etmək olar: Nohurgöl-"Yeddi gözəl" şəlaləsi, Qəbələ-Vəndam istiqamətli marşrut, Qəbələ - Oğuz, Qəbələ - Şəki və digər istiqamətlərə təşkil olunan turlarda turistlər təbiətin zənginlikləri ilə yanaşı tarix və mədəniyyət abidələri ilə də tanış ola bilərlər.



2010-cu ildən fəaliyyətə başlayan "Gənclik Mərkəzi" uşaqların və gənclərin əyləncəsi üçün maraqlı obyektdir. Qrup halında istirahət edən turistlərə rayonun görkəmli yerlərinə, muzeylərə, tarixi abidələrə gəzinti marşrutları təşkil edilir. Asudə vaxtlarının səmərəli keçməsi üçün bir neçə turizm-istirahət mərkəzində idman meydançaları quraşdırılmışdır.
Şəkidə istirahət edənlər üçün tarixi memarlıq abidlərinə ekskusiyalar aşağıdakı istiqamətlərdə təşkil edilir:
1.Xan sarayı-Diyarşünaslıq muzeyi-Tarix muzeyi-Şəki qala divarları
2.Kiş kəndi-Alban məbədi, Gələrsən-Görərsən qalası
3.Şəki- Marxal istirahət mərkəzi
4.Şəki-Zəyzid (Alban məbədi )
5.Şəki-Vərəzət (Çələngəz )
Şəki-Zaqatala, Şəki-Qax və digər istiqamətlərdə olan tarixi-mədəni, təbiət abidələri ilə tanışlıq məqsədilə turlar təşkil etmək mümkündür.
Şəkidə macəra turlarının təşkili üçün də təbii imkanlar vardır. Lakin rayonun dağlıq hissələrinə mütəşəkkil turlar təşkil edilmir.

Zaqataladan Car, Maxov, Danaçı kəndinə, Balakən kanat yoluna və s. istiqamətli turlar təşkil etmək bölgədə turizm obyektlərinin tanıdılmasında əhəmiyyətli olar. Bunlardan əlavə olaraq bölgəyə gələn turistlərin asudə vaxtlarını səmərəli keçirməsi üçün mövcud kino-teatrlar, konsert kompleksləri şəbəkəsi daha da inkişaf etdirilməkdədir.

Şəki sənətkarlar diyarıdır, burada sənətkarlığın bir sıra növləri inkişaf etmişdir. Bunu nəzərə alaraq turizmlə bir başa əlaqəli olan, müxtəlif növ suvenirlər hazırlayan sənətkarlıq sahələrinin inkişafına dövlət dəstəyi getdikcə artmaqdadır.

Turizmin inkişafı öz növbəsində bölgədə turizmlə əlaqəli digər xidmət sahələrinin yaranmasına zəmin yaradır. Şəbəkə sənəti, papaqçılıq, dulusçuluq, əl işləmələri və s. Bunlar isə bölgəyə səfər edən turistlərin diqqətinə çatdırılır.

Qaxda rayon Mədəniyyət və Turizm şöbəsi turizm obyektləri ilə sıx əlaqə qurmuşdur. Turizm obyektlərinə turizm

marşrutları haqqında məlumatlar çatdırılmış, turistlərin təbiət və mədəniyyət abidələrinə ekskursiyaları zamanı ixtisaslı bələdçilərdən istifadə olunması təklif edilir. Qax rayonunda əhali tərəfindən xalq sənətkarlığı növlərindən dəmirçilik, ağac və daş üzərində oyma, qalayçılıq, bədii tikmə və s.yaşamaqdadır. Rayona səfər edən turistlər üçün xalq sənətkarlığı nümunələri ilə də tanış olmaq imkanı yaradılmışdır (diyarşünaslıq muzeylərinə ekskursiya və s.).

Beləliklə, Şəki-Zaqatala iqtisadi rayonunda turizm imkanları və müasir vəziyyətin səciyyəsi sübut edir ki, bölgədə turizmin inkişafı üçün geniş potensial imkanalar vardır. Mütəxəssislər bölgənin turizm ixtisaslaşmasını istirahət, dərketmə istiqamətində qeyd edirlər. Lakin bölgənin təbiətinin zənginlikləri yalnız istirahət turizminin inkişafı ilə məhdudlaşmamalıdır. Dünya təcrübəsi də sübut edir ki, ekoloji turizmin inkişafı ətraf mühitdən turizm məqsədilə istifadə böyük əhəmiyyətə malikdir. Bu, bir tərəfdən, əhalinin asudə vaxtının səmərəli təşkilində, digər tərəfdən, ekoloji mühitdə tarazlığın qorunmasında, əhalinin ekoloji cəhətdən maariflənrdirilməsində önəmlidir.

Şəki-Zaqatala rayonunda ekoloji turizmin müxtəlif növlərinin-dağ-macəra (Zaqatala, Şəki), kənd yaşıl (Qax, Şəki, Qəbələ), ovçuluq (Qəbələ, Zaqatala, Balakən) üçün mövcud təbii imkanlar nəzərə alınmaqla inkişafı mümkündür. Regiona daxil olan rayonların turizm imkanları və onların əsasında müvafiq sahənin inkişaf səviyyəsinin müqayisəli səciyyəsindən aydın olur ki, bu cəhətdən regionun daxilində reytinqinə görə seçilən rayonlar vardır. Turizm imkanlarından zəif istifadəyə görə Oğuz rayonu fərqlənir. Lakin, "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi bu rayonda da turizmin inkişafını sürətləndirəcəkdir. Turizmin inkişafı sosial-iqtisadi səviyyənin yüksəlməsindən, abadlıq-quruculuq işlərinin intensivliyindən, həmçinin yol və digər infrastruktur sahələrin inkişafından da çox asılıdır. Bu istiqamətdə Oğuz rayonunda lazımi tədbirlərin həyata keçirilməsi davam etdirilir.



# XII F Ə S İ L
# GƏNCƏ-QAZAX İQTİSADİ RAYONU

## 12.1. Rayon haqqında ümumi məlumat

Bu rayon Azərbaycanın qərbində yerləşir. Gəncə - Qazax iqtisadi rayonu qədim tarixi və böyük turizm potensialı olan Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Şəmkir, Daşkəsən, Göygöl, Samux, Goranboy rayonlarını və Gəncə, Naftalan şəhərlərini əhatə edir (cəd., 12.1).

**Cədvəl 12.1**
**Gəncə-Qazax iqtisadi rayonunun tərkibi, ərazisi, əhalisi**

| **İnzibati rayon və şəhərlər** | **Ərazi, min kv. km** | **Ölkə ərazisinə görə, %-lə** | **Əhalinin sayı, min nəfər (01.01.2015-ci il)** | **Ölkənin ümumi əhalisinə görə, %-lə** |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası | **86,6** | **100** | **9593,0** | **100** |
| Gəncə-Qazax iqtisadi rayonu - cəmi: | **12,30** | **14,2** | **1240,8** | **12,9** |
| Gəncə şəhəri | 0,11 | 0,12 | 328,4 | 3,4 |
| Qazax rayonu | 0,70 | 0,8 | 93,7 | 0,97 |
| Ağstafa rayonu | 1,50 | 1.7 | 84,6 | 0,88 |
| Tovuz rayonu | 1,94 | 2,4 | 168,4 | 1,75 |
| Şəmkir rayonu | 1,66 | 1,9 | 207,0 | 2,1 |
| Gədəbəy rayonu | 1,23 | 1,42 | 97,6 | 1,0 |
| Daşkəsən rayonu | 1,05 | 1,2 | 34,1 | 0,3 |
| Samux rayonu | 1,45 | 1,67 | 55,6 | 0,57 |
| Göygöl rayonu | 0,92 | 1,0 | 61,5 | 0,6 |
| Goranboy rayonu | 1,70 | 1,96 | 100,2 | 1,04 |
| Naftalan şəhəri | 0,04 | 0,04 | 9,7 | 0,1 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

İqtisadi rayonun sahəsi 12,3 min km² (respublika ərazisinin 14,2%-i). Rayonun iqtisadi-coğrafi mövqeyi əlverişlidir. O, şimaldan Gürcüstanla həmsərhəddir, rayonun qərbdən və cənub-qərbdən Ermənistanla həmsərhəd olması onun coğrafi mövqeynin üstünlükləri qarşısında maneədir. Gəncə-Qazax rayonu hərbi münaqişə ərazisinə yaxın zonada yerləşdiyindən daim Ermənistan tərəfindən təcavüzə məruz qalan ərazidir. Bakı-Qazax turist marşrutu onun ərazisindən keçir.

Rayonun əhalisinin sayı 1240,8 min nəfərdir (respublika əhalisinin 12,9%-i). İqtisadi rayonda iri şəhərlərin inkişaf etməsinə baxmayaraq, əhalisinin yarıdan çoxu kəndlərdə yaşayır. Rayonda əhali qeyri-bərabər məskunlaşmışdır. Ən iri şəhəri olan Gəncə şəhərində əhalinin sayı 328,4 min nəfərdir (2015-ci il). Bu göstəriciyə görə o, respublikada üçüncü yerdədir. İnzibati rayonlar arasında intensiv inkişaf edən Şəmkir rayonu əhalinin sayına görə (207,0 min nəfər) bölgədə birinci yerdədir. Əksinə, Daşkəsən inzibati rayonu isə bu göstəriciyə görə sonuncu yerdədir. Gəncə-Qazax rayonu iqtisadi əhəmiyyətinə görə respublikanın ikinci rayonudur. O, respublikanın mineral-xammal ehtiyatları ilə ən zəngin və daha çox mənimsənilmiş rayonlarından biridir.

İqtisadi rayonda kənd təsərrüfatı əsasən kartofçuluq, üzümçülük və taxılçılıq üzrə ixtisaslaşmışdır. Qazax və Ağstafa, Şəmkir və Samux rayonları üzüm istehsalı üzrə, Gədəbəy, Şəmkir, Tovuz rayonları kartof istehsalı üzrə, Goranboy rayonu taxıl və pambıq istehsalı üzrə ixtisaslaşmışdır. Gəncə-Qazax rayonunda, həmçinin bostançılıq, tərəvəzçilik, meyvəçilik və heyvandarlıq sahələri inkişaf etmişdir.

İqtisadi rayonun turizm ixtisaslaşması istirahət-müalicə, dərketmə istiqamətindədir. İqlim şəraiti, dağ meşə landşaftı, mineral suları turizmin inkişafı üçün əlverişlidir. Böyüklüyü və iqtisadi əhəmiyyətinə görə respublikanın ikinci şəhəri olan Gəncədə dahi Nizaminin məqbərəsi, Cümə məscidi, İmamzadə tikililər kompleksi, Şeyx İbrahim məqbərəsi, karvansara və b.



maraqlı turizm obyektləridir. Şəhərdən 25 km cənubda, dəniz sahilindən 1556 m yüksəklikdə füsunkar Göygöl yerləşir. Ətrafdakı meşələrlə birlikdə Göygöl qoruq elan edilmişdir. Gəncədən 48 km cənub-şərqdə yerləşmiş Naftalan kurort şəhəri müalicəvi nefti ilə məşhurdur. Qazax rayonu ərazisində tarixi-memarlıq abidələri çoxdur.

Bütövlüklə, Gəncə-Qazax rayonu kurort-rekreasiya və meşə ehtiyatlarının zəngiliyi ilə fərqlənir. Əlverişli təbii iqlim şəraiti, müalicə əhəmiyyətli mineral suları, nefti və mənzərəli dağ-meşə landşaftı burada mualicə-istirahət mərkəzlərinin yaradılmasına imkan vermişdir. Dəniz səviyyəsindən 1566 m yüksəklikdə yerləşən Göygöl və Hacıkənd istirahət mərkəzləri rayonun rekreasiya potensialının zəngin olmasını bir daha təsdiqləyir. Naftalan mualicəvi nefti, füsunkar təbiəti olan Göygöl-Hacıkənd istirahət zonası, Mingeçevir su anbarının ətraf əraziləri və Kür sahillərində səpələnmiş şəkildə yayılmış tuqay meşəlik sahələri Gəncə-Qazax rayonunu rekreantlar üçün cəlbedici etmişdir.

## 12.2.Rayonun turizm-rekreasiya ehtiyatları

***Təbii rekreasiya ehtiyatları.*** Rayonun təbiəti rəngarəngliyi ilə seçilir. Landşaftların müxtəlifliyi və gözəlliyinə görə bu rayon Azərbaycanda təkrarsızdır. Relyef xüsusiyyətlərinə görə rayonun ərazisi 4 zonaya: maili düzənliklər, dağətəyi, orta dağlıq (dəniz səviyyəsindən 1000-2000 metr yüksəklikdə), yüksək dağlıq (dəniz səviyyəsindən 2000 m yüksəklikdə) zonalara ayrılır. Ərazisinin çox hissəsini Kiçik Qafqaz dağlarının şimal-şərq ətəkləri ilə Kür çayı arasında yerləşən Gəncə-Qazax maili düzənliyi və Ceyrançöl düzü əhatə edir. Gəncə-Qazax maili düzənliyi Kür çayına doğru meyllidir, səthi dalğavari və terraslıdır. Çay dərələri, qobi və yarğanlarla parçalanmışdır. Düzənliyin yüksərliyi 200-

400 metr arasındadır. Yarımsəhra və quru çöl landşaftına malikdir.

Gəncə-Qazax rayonunun cənub hissəsi dağlıqdır. Rayonun dağlıq hissəsi zəngin təbii landşaftlara, mənzərəli dağ meşələri və çəmənlərə, dağ çayları və göllərinə, mineral bulaqlara malikdir. Göygöl, Maralgöl və s. dağ gölləri fıstıq və şam ağacı meşələrində yerləşir. Kəpəzin ətəyində olan bu ərazi yerli və əcnəbi turistlər arasında da məşhurdur. Şahdağ, Murovdağ, Murquz dağlarının şimal yamacları rayonun cənub sərhəddi boyunca uzanır. Bu dağ silsilələri dağ dərələri ilə parçalanmışdır.

Rayonun iqlim şəraiti təbii zonalara müvafiq olaraq müxtəlifdir. Düzənliklərdə yayı isti quraq, qışı mülayim keçən yumşaq quru-çöl iqlimi hakimdir.Yanvar ayının orta temperaturu -3°C-dən +3°C-dək, iyulun orta temperaturu isə 20-27°C olur. Yüksək dağlıq ərazilərdə qışı quraq keçən soyuq iqlim hakimdir. Göygöl, Daşkəsən, Gədəbəy rayonlarında landşaft tipi əsasən dağ çəmənləridir. Burada yay temperaturu respublikanın Aran rayonları ilə müqayisədə 8-10°C aşağı olur. Ona görə bölgədə turizm-rekreasiya fəaliyyəti üçün komfort şərait mövcuddur. Yay kurort mövsümündə istirahət və gəzintini məhdudlaşdıran yeganə meteoroloji amil yağışlardır. Bölgədə illik yağıntıların miqdarı 400-600 mm, bəzi rayonlarda (məs., Göygöldə) 700 mm təşkil edir.

Gəncə-Qazax rayonunda hidroqrafiya şəbəkəsi sıxdır. Ən mühüm çayları Kür, Ağstafa, Tovuz, Şəmkir, Qoşqar, Gəncəçay, Zəyəmçay və başqalarıdır. Kür çayının mühüm təsərrüfat əhəmiyyəti ilə yanaşı balıqla zəngin olması bölgədə balıq ovunu sevənlər üçün də yararlıdır. Çaylar üzərində su anbarları salınmışdır. Bunlar Ağstafaçay (1969-cu il), Şəmkir (1982-ci il), Yenikənd (2000-ci il) su anbarlarıdır.

Turizm obyekti kimi göllərin əhəmiyyəti danılmazdır. Kəpəz dağının ətəyində yerləşən Göygöl və onun ətrafındakı meşəli dağlar əhatəsində zəlzələ uçqun nəticəsində yaranmış



bir qrup göllər maraqlı təbii abidələr və turizm obyektləridir. Göygöl dəniz səviyyəsindən 1556 metr yüksəklikdə yerləşir. Maksimal dərinliyi 93 metrdir. Maralgöl dəniz səviyyəsindən 1899 metr yüksəklikdə yerləşir. Dərinliyi 61 metrdir. Şəmkir Göygölünün dərinliyi 66 metrdir. Çandargöl rayonun şimalında Gürcüstanla sərhəddə yerləşir, tektonik göldür. Dərinliyi cəmi 6 metrdir. Bu göllərin ətrafları təbiətinin füsunkarlığı ilə seçildiyindən əlverişli rekreasiya-istirahət yerləridir.

Bölgə mineral sular və bulaqlarla zəngindir. Mineral sular həm müalicəvi, həm də süfrə suları kimi işlədilir. Aşağı Daşkəsən, Yuxarı Daşkəsən, Narzan, Gədəbəy, Alaxançallı, Qabaqtəpə, Slavyanka məşhur sulardır. Müalicəvi əhəmiyyətli naftalan nefti bu ərazidə çıxarılır.

Gəncə-Qazax rayonunda təbiətin zənginliklərini mühafizə məqsədilə yasaqlıq, qoruq yaradılmışdır. Göygöl Dövlət Təbiət Qoruğu (1925-ci il) Nərimanov (hazırda Göygöl) rayonu ərazisində yaradılmışdır. Qoruğun təşkil olunmasında məqsəd həm də, Kiçik Qafqazın şimal-şərq yamacının kurort-iqlim əhəmiyyətli dağ-meşə və dağ-çəmən biosenozlarını, dağ göllərini, flora və faunasını qorumaqdır.

Şəmkir Dövlət Təbiət yasaqlığı (1964-cü il) Şəmkir və Göygöl rayonları ərazisində yaradılmışdır. Yasaqlıqda qırqovul, kəklik, turac, su, bataqlıq quşları mühafizə və bərpa olunur.

Ümumiyyətlə, bölgəyə daxil olan rayonların hər biri özünə məxsus təbii rekreasiya ehtiyatları ilə zəngindir. Məsələn, Qazax rayonunda turizmin inkişafı üçün əlverişli təbii şərait, geniş turizm-rekreasiya potensialı vardır. Rayon mərkəzindən 20 km qərbdə yerləşən Fərəhli kəndinin saf sulu bulaqları, müalicəvi mineral suyu, dağ-çəmən landşaftı olan geniş meşə massivi rekreasiya turizmi üçün əlverişli hesab olunur. Rayon mərkəzindən 17 km şimalda, Tuqay meşələrinin əhatəsində və Kür çayının sahilində yerləşən Aşağı Salahlı kəndi isə balıq və quş ovçuluğu üçün yararlıdır. Hər iki kəndin

ərazisində balneoloji sanatoriyanın və yerləşdirmə obyektlərinin tikilməsi müalicə və kənd turizminin inkişafına səbəb ola bilər.

Rayonun ərazisində olan təbii rekreasiya ehtiyatlarının mühafizəsi məqsədilə ekoturizmin inkişaf etdirilməsi də məqsədəuyğundur. Onu da qeyd edək ki, rayonda turizm obyekti sayılan təbiət abidələrinə (Göyəzən dağı, Damcılı, Koroğlu mağaraları və s.) turlar və ekskursiyaların təşkili infrastrukturun yaxşılaşdırılmasını tələb edir.

Böyük Qafqaz dağlarının ətəklərində yerləşən Ağstafa rayonu ərazisindən bir neçə kiçik çay və Kür çayının qolu olan Ağstafaçay axır. Candargöl də burada yerləşir. Ağstafa şəhərindən 20 km məsafədə yerləşən Tatlı kəndində Gəlaçma adlı bulaq yerli sakinlər, həm də turistlər tərəfindən istirahət yeri kimi tanılır. Kür çayının sahilində 4,9 min hektar sahədə yerləşən "Qarayazı" dövlət qoruğu Kür ətrafı zonalardakı tuqay meşələrini, Qarayazı ovalığını və Kür çayının orta axarını qorumaq məqsədilə 1978-ci ildə yaradılmışdır. 1923-cü ildə 12,0 min hektar sahədə yaradılmış "Qarayazı-Ağstafa" yasaqlığı da Ağstafa rayonunda yerləşir.

Göygöl rayonu turizm potensialı baxımından ölkənin olduqca əhəmiyyətli yerlərindəndir. Xüsusilə, burada olan Hacıkənd və Göygöl meşələri bölgə əhalisinin sevimli istirahət yerləri hesab olunur. Əsrarəngiz gözəlliyi və xoş təbiəti ilə seçilən Göygöl rayonuna gələnlərə müxtəlif istiqamətlər üzrə turizm marşurutları təklif edilir.

Turizmin inkişafı üçün Tovuz rayonunun təbii rekreasiya potensialı böyükdür. Tovuz rayonu hər tərəfdən dağlarla, meşələrlə əhatə olunduğuna görə, flora və faunası ilə digər rayonlardan fərqlənir. Tovuzun əsas rekreasiya yeri və turizm mərkəzi rayonun dağlıq ərazisidir. Kiçik Qafqazın şimal yamacları Tovuz rayonunun ərazisinə düşür. Əsrik, Qoşa, Fındıqlı, Çataq, Böyük Qışlaq, Kirən kiçik və ya böyük kəndləri ilboyu ən çox turist qəbul edən kəndlərdir. Dağların



hətta ən hündür zirvələrinədək sıx meşələr, sərin sulu bulaqlar (Maral bulağı, Atan bulaq, Fındıqlı bulağı, Turşsu, Böyrək suyu bulağı və s.), dağ yamaclarında il boyu mövcud olan yaşıllıqlar istirahət üçün çox əlverişli imkanlardır.

Daşkəsən rayonu Kiçik Qafqazın şimal-şərqində yerləşir, relyefinə görə səthi şimala doğru alçalan dağlarla əhatə olunmuşdur, dağ çayları ilə zəngin olduğundan təbiəti gözəldir. Rayona xüsusi gözəllik verən yol boyunca uzanan fıstıq, vələs, palıd, cökə, söyüd, göyrüş, qaraağac və s. ağacların üstünlük təşkil etdiyi sıx meşələrdir. Rayonda müalicəvi bitkilər də geniş yayılmışdır ki, bunlar müxtəlif xəstəliklərin müalicəsində istifadə edilir. Rayonun gur çeşməli, şəffaf, müalicəvi əhəmiyyətli bulaqları - Yumurtalı bulaq, Narzan bulağı, Turşsu bulağı, Qiblə bulağı, Qayğı bulağı, Böyrək bulağı, İdris bulağı, Seyid bulağı turistlərin ən çox ziyarət etdiyi məkandır. Təbii gözəlliyi, xoş mənzərəsi, zəngin bitki və heyvanat aləmi Daşkəsəni təkcə yerli turistlər üçün deyil, həm də xarici qonaqlar üçün maraqlı turizm mərkəzinə çevirmişdir. Rayonda "Narzan" ailəvi istirahət mərkəzi, iki hotel fəaliyyət göstərir. Xoşbulaq yaylağı xüsusilə xarici turistlərin özünə istirahət yeri seçdiyi məkandır. Burada istirahət üçün kotteclər fəaliyyət göstərir. Rayonun təmiz havası, alp çəmənlikləri ilə zəngin olan dağ otlaqları və bulaqlar həm turistləri, həm də sadəcə istirahət edənləri buraya cəlb edir. Qalakənd kəndinin yaxınlığında isə məxsusi balıq ovu təsərrüfatı yerləşir. Gədəbəy rayonunun bitki və heyvanat aləmi zəngin və müxtəlifdir. "Qızılağac" qoruğu bu rayonun ərazisində yerləşir. Azərbaycanın təbiət abidələri kimi dövlət tərəfindən mühafizə olunan obyektlərin siyahısına daxil edilmiş bir neçə təbii obyekt - Şamlıq, Qamış, Gödəkdərə, Qovdu meşələri də buradadır. Keçi-keçi, Cüyür, Ayı, Cərgə bulaqları, eləcə də Narzan, Qızılca, Mormor, Çaldaş mineral su bulaqları bu qəbildəndir.

*Tarixi-mədəni turizm ehtiyatları.* Azərbaycanda qədimdən məskunlaşmış ərazilərdən biri də Gəncə-Qazax bölgəsidir. Bu ərazidə aşkar edilmiş çox sayda alban mədəniyyətinin izləri buna sübutdur. Bölgədə dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrinə aiddir: Qazaxda Sınıq körpü (XII əsr) memarlıq abidəsi, Daşsalahlı kəndində Damcılı mağara düşərgəsi (paleolit dövrü), Ağstafanın Aşağı Göycəli kəndində Töyrətəpə yaşayış evi (neolit-tunc dövrü), Daş Kəsəmən kəndində qədim yaşayış evi (tunc-ilk dəmir dövrü), Qazax rayonunun dəmirçilər kəndində Baba Dərviş yaşayış evi (tunc dövrü), Göygöl rayonunda məbəd (tunc-ilk dəmir dövrü), Gədəbəyin Söyüdlü kəndində Böyük Qalaça (tunc-ilk dəmir dövrü), Daşkəsən rayonunda Xoşbulaq kurqanları (tunc-ilk dəmir dövrü), Gəncə şəhəri yaxınlığında köhnə Gəncə (orta əsrlər), Şəmkir şəhəri yaxınlığında qədim Şəmkir şəhəri (orta əsrlər) arxeoloji abidələr qorunub saxlanılmışdır.

Bölgədə ölkə əhəmiyyətli memarlıq və arxeoloji abidələr də vardır. Gəncə şəhərində memarlıq abidələri (XI-XIX əsrlər), Gədəbəy, Goranboy, Ağstafa, Göygöl, Qazax, Tovuz, Samux, Şəmkir rayonlarında qədim dövrlərə aid arxeoloji abidələr daha çoxdur.

Gəncə-Qazax bölgəsinin tarixi-mədəni abidələri haqqında ümumi məlumat verməklə yanaşı bölgəyə daxil olan rayonlar və şəhərlərdə bu ehtiyatlarla təminat səviyyəsini də kompakt halda qeyd etmək məqsədəuyğundur. Çünki, bölgənin turizm-rekreasiya ehtiyatlarının qiymətləndirilməsində, həmin bölgəyə daxil olan rayonların turizm xəritələrinin tərtib edilməsində bunun əhəmiyyəti böyükdür.

*Qazax rayonu.* Burada dövlət tərəfindən qorunan tarixi memarliq və arxeoloji abidələr vardır: II Şıxlı kəndində Sınıq körpü (XII əsr); Yuxari Əskipara kəndində V əsrə aid məbəd; XV əsrə aid Şəkər qala məbədi; meqalit tipli Didevan istehkami; Daş Salahli kəndində Damcili mağarasi, alban



dövrünə aid (VII əsr) məbədlər kompleksi; qala divarlari qaliqlari ilə diqqəti cəlb edən (son orta əsrlər) Göyəzən daği və onun yaxınlığında son vaxtlarda aşkar edilmiş şəhər tipli qədim insan məskənlərinin qalıqları qorunur. Avey dağında, Daş Salahlı və Kəmərli kəndləri arasında, İncəsu çayının vadisində, Kiçik Qafqazın şimal-şərq yamaclarında qədim insanların məskunlaşdığı ərazilər məlumdur.

Qazax istedadlı şairlərin, yazıçıların, görkəmli şəxsiyyətlərin vətənidir. Təsadüfi deyildir ki, Qazax şəhərində görkəmli yazıçı-şairlərin (S.Vurğun, M.P.Vaqif, M.V.Vidadi, İ.Şıxlı), general Əliağa Şixlinskinin əzəmətli abidələri, xatirə-memorial və memarlıq kompleksləri, M.P.Vaqifin xatirə-muzeyi, "Kitabi Dədə Qorqud"un 1300 illiyinə həsr edilmiş monumental abidə kompleksi və s. ekskursiya obyektlərinə çevrilmişdir.

Qazaxda milli irs nümunələrindən xalçaçılıq qədim zamanlardan inkişaf etmişdir. Qazax xalça məktəbinin məhsulları olan "Dağ Kəsəmən", "Qazaxça", "Ağqoyunlu", "Dörd Buynuz", "Damğalı", "Şıxlı", "Çobankərə", "Borçalı", "Faxralı", "Qaymaqlı" xalçalarına dünya bazarında böyük tələbat var.

Mədəni turizmin inkişaf etdirilməsində mühüm önəm kəsb edən məqamlardan biri də tarix və mədəniyyət abidələrinin ziyarətçilərə yüksək səviyyədə təqdim olunmasıdır. Bunun üçün abidələrin ilkin tarixi görkəminin qorunub saxlanması təmin olunmalı, onların yaxınlığına gedən yollar abadlaşdırılmalıdır.

*Ağstafa rayonu.* Rayon ərazisində beynəlxalq, ölkə, yerli əhəmiyyətli çoxsaylı arxeoloji və tarixi abidələr var. Onların arasında Aşağı Göyçəli kəndindəki Töyrətəpə adlı insan məskəni (tunc dövrü) və Dağ Kəsəmən kəndində tunc dövrünün sonu-dəmir dövrünün əvvəlinə aid Çobandaşlı adlı məskən dünya əhəmiyyətli abidələr sırasına daxil edilmişdir. Bu cür abidələrə rayonun başqa yerlərində də rast gəlmək olar.

Köçəsgər kəndinin yaxınlığında Molla Nağı təpəsi (daş dövrü), tunc və dəmir dövrlərinə aid Durnatəpə, Böyüktəpə, Şiş Quzeyi Piri və orta əsrlərə aid Haca Dağ Piri adlı abidələr, Ağstafa şəhərinin yaxınlığında tunc və dəmir dövrlərinə aid Cantəpə, Yastıtəpə qədim yaşayış yerləri, Tatlı, Yuxarı Göyçəli, Həsənsu, Aşağı Göyçəli kəndlərini də qeyd etmək olar.

Arxeoloji qazıntılar zamanı bu ərazidə tapılmış küpələr, boyunbağılar, kasalar, vazalar, müxtəlif məişət əşyaları yerli diyarşünaslıq muzeyində saxlanılır. Memarlıq abidələri xüsusi maraq doğurur: XVII əsrə aid qüllə, Qıraq Kəsəmən kəndində XIX əsrə aid məscidlər, Kolxəlfəli, Qarahəsən, Dağ Kəsəmən və başqa kəndlərdə XIX əsrdə tikilmiş məscidlər və s. Rayonda "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğu yaradılmışdır. Rayon mərkəzində 1993-cü ildən fəaliyyət göstərən Ağstafa rayon tarix-diyarşünaslıq muzeyində e.ə. IV-II minillikdən başlamış eramızın XVII-XIX əsrlərinə qədərki dövrü əhatə edən çoxlu sayda eksponat saxlanılır.

*Göygöl rayonu.* Kiçik Qafqaz dağlarının ətəklərində, Gəncədən bir qədər cənubda yerləşir. Rayonun inzibati mərkəzinə Bakıdan 384 km məsafədə yerləşən Göygöl şəhərinə gələn turistlərə müxtəlif marşrutlarla gəzintilər təklif edilir. Tunc və dəmir dövrünə aid edilən arxeoloji tapıntılar bu şəhərin qədim tarixə malik olmasını təsdiq edir. Göygölün 2013-cü ildə respublikanın "Sənətkarlıq paytaxtı" elan edilməsi mədəni irsin qorunmasına, sənətkarlığın daha da inkişafına və təbliğinə yönəldilmişdir. Rayona gələn turistlərə almanların əraziyə köçmələrinin maraqlı tarixi, onların bu ərazidə məşğuliyyəti, quruculuq işləri (pivə istehsal edən zavod, su dəyirmanı, ilk su elektrik stansiyası, keramit və kərpic istehsalı zavodları) haqqında ətraflı məlumat verilir. Rayonda turizm infrastrukturunun inkişafı istiqamətində də addımlar atılır. Lakin rayonun turizm potensialı böyük olsa da, turizm obyektlərinin sayı yetərincə deyildir. Rayonun yerləşdiyi mühit turizm üçün əhəmiyyətlidir. Bəzi yerləri turistlər üçün təqdim



oluna bilməyəcək ərazilərdə yerləşir. Hacıkənddən bir qədər kənarda hərbi hissə vardır. Hərbi hissəyə qədərki yerlərdə də turist baxımlı ərazilər çoxdur. Hazırda turistlər daha çox fərdi evlərdə qalırlar. Rayonda turistləri yerləşdirmə müəssisələri azdır.

Göygöl rayonunda tarixi əsrlərlə ölçülən abidələr var. Çaykənd kəndində yaşayış evi, Ağ körpü (XII əsr), Qabriel kilsəsi, Türbə (XII əsr), Üç tağlı körpü (Gəncə çayı üzərində), İki tağlı körpü, Şərabçılıq zavodunun zirzəmisi, Anahid məbədi, Birtağlı körpü, Qala (XII əsr) və s. yerli əhəmiyyətli tarixi abidələr var. Göygöl rayonunda Lüteran kilsəsi (1854-cü il), Gəncəçay üzərində iki körpü - "İkigözlü körpü" ( XVI əsr) və "Üçgözlü körpü" (1896-cı il) kimi tarixi-memarlıq abidələri salamat qalmışdır. Göygölün yaxınlığında salamat qalmış abidələrə misal olaraq Zurnabad kəndində XII əsrə aid qalanı, Sarı Qaya kəndində XVI əsrə aid məqbərəni, Topalhəsənli kəndində XII əsrə aid "Ağ körpü"nü, eləcə də Çaykənd kəndindəki bir sıra tarixi abidələri göstərmək olar.

Göygöl qoruğuna Göygöl Milli parkı statusu verilmişdir. Bunun üçün qoruğun ərazisi genişləndirilmişdir. Turistlərin ərazidəki gölləri seyr etmək imkanı var. 2015-ci ilin avqust ayından etibarən müəyyən şərtlərlə Göygöl Milli parkı açıq elan edilmişdir.

*Tovuz rayonu.* Qədim insan məskənlərindən olan Tovuzun ərazisində tarixi abidələr çoxdur. Zəyəmçay hövzəsində tapılmış 300 min il yaşı olan süxurlar, qədim Hunan şəhərinin qalıqları olduğu söylənilən Torpaqqala abidələri, 8-10 min il tarixə malik Köhnəqala və Göytəpə abidələri və s. bu ərazilərin çox qədim tarixə malik olmasını göstərir. Rayon ərazisindəki ayrı-ayrı ərazi və yer adlarının qədim türk toponimlərinə uyğun gəlməsi ərazidə yaşayan köklü əhalinin qədim məskunlaşma tarixini və türk soylarından olmasını sübut edir. Qovlardan Gədəbəy rayonun Saratovka kəndi istiqamətində tarixi Xınna dərəsindəki Alakol kəndində

şəhərgah, Yanıxlı kəndi ərazisində "Alban kilisəsi" (V-VI əsr), Əsrik çayının sol sahilində məbəd kimi qeydiyyata düşmüş "Alban kilisəsi" (V-VII əsr), Yanıxlı kəndində məscid (XVII əsr), Türbə kompleksi (XVII əsr), Yuxarı Öysüzlü kəndində məscid (XIX əsr), Bir tağlı körpü (X əsr), Vahidli kəndində Sultan körpüsü (XIX əsr), 8 guşəli türbə (XIX əsr), Qəribli və Abdal kəndlərində orijinal memarlığa malik qədim Alban məbədləri mühafizə olunur. Eyni zamanda həmin marşrut boyunca "Çinarlı", "Sınaqlı", "Haçaqaya" kimi bir sıra ziyarətgah və pirlər də mövcuddur. Əsrik çayı boyunca Azaplı kəndində "Qərib Seyid" ziyarətgahı yerləşir. Rayondan 12 km məsafədə yerləşən Kür çayının sağ sahilində antik dövrə aid "Torpaqqala" qədim yaşayış məntəqəsi, Vahidli kəndində Axınca çayı üzərində XIX əsr memarlıq abidəsinə aid edilən "Sultan körpüsü", həmin kənddə xüsusi coğrafi görünüşə malik "Qala düzü" adlanan ərazi turistlər üçün maraqlı tarixi abidələrdir. Tovuz şəhərində 1923-cü ildə Alman icması tərəfindən tikilib istifadəyə verilmiş şərab zavodu artıq "Şərab yolu marşrutu" Turizm layihəsinə daxil edilmişdir.

*Daşkəsən rayonu.* Arxeoloqlar bu rayonun Xoşbulaq, Zağalı, Gürbulaq, Əmirvar, Bayan, Dardərya kəndlərinin ərazilərində daş dövrünə aid qədim insan məskənlərinin qalıqlarını aşkar etmişlər. Quşqara çayının üzərindən salınmış iki qədim daş körpü və Əhmədli kəndindəki məqbərə bu günədək salamat qalmış tarix-memarlıq abidələridir. Quşçu kəndində 487-ci ildə tikilmiş monastır hələ dağılmamışdır. Bayan kəndində isə xristian məbədinin (XV əsr) xarabalıqları saxlanılır. Rayonun inzibati mərkəzi Daşkəsən şəhəridir. Bakıdan 397 km məsafədə yerləşən Daşkəsən şəhərinin adından da göründüyü kimi, bu rayon qədim dövrlərdən daş və ağac üzərində oyma sənətinin biliciləri sayılan daşyonan sənətkarları ilə məşhur olmuşdur. Hazırda burada xalq sənətkarlığının xalçaçılıq və corab toxuma növləri yaxşı inkişaf etmişdir. Gəncə şəhərinin sakinləri istirahət etmək üçün Daşkəsən rayonunun Xoşbulaq kəndinə gəlməyi xoşlayırlar.

*Gədəbəy rayonu.* Kiçik Qafqaz dağlarında, o cümlədən yüksək dağlıq (Qoşabulaq zirvəsinin hündürlüyü 3549 metr, Qocadağ zirvəsinin hündürlüyü 3317 m.) və orta yüksəkliyə malik dağlarda yerləşir. Burada ərazinin dəniz səviyyəsindən yüksəkliyinin müxtəlif olması iqlim şəraitinin də müxtəlifliyini şərtləndirir. Dağlıq ərazidəki tundraya xas olan iqlim tədricən qızmar yay ilə müşahidə olunan quru iqlimə keçir. Rayon mərkəzinin Bakıdan məsafəsi 462 km-dir. Gədəbəyə Şəmkirdən, həmçinin, Tovuzun Qovlar stansiyasından getmək olar. Tovuz yolu daha mənzərili olsa da, minik maşınlarının bu yolu keçməsi çətindir. Gədəbəy rayonunda Azərbaycan tarixinə Xocali-Gədəbəy mədəniyyəti adı ilə daxil olmuş qədim mədəniyyət abidələri tunc dövrünə aid tikililər, eləcə də qədim kuzələr, Şah Təhmasibin hakimiyyətdə olduğu dövrə aid (XVI əsr) gümüş pul sikkələri tapılmışdır. Bu pullar Təbrizdən başlamış Şirvana və Gəncəyə qədər geniş ərazidə tədavüldə olmuşdur. Rayon ərazisində salamat qalmış tarixi-memarlıq tikililərinə nümunə kimi Tağlı körpü (XIX əsr), Qala kəndindəki qüllə (XVI əsr), Söyüdlü kəndindəki Qız qalası (və ya Namərd qala, IX əsr), Novosaratovka, Söyüdlü, Çanaxçı və Kiləvi kəndlərində erkən orta əsrlər dövrünə aid xristian məbədlərini göstərmək olar.

*Gəncə şəhəri* Gəncə-Qazax ovalığında Gəncəçay çayının sahillərində yerləşir. Gəncə dünya şöhrətli şair Nizami Gəncəvinin, şairə Məhsəti Xanımın, Mirzəşəfi Vazehin vətənidir. Şəhərdəki tarixi abidələrə aiddir: Cümə Məscidi və onun mədrəsəsi, Şeyx İbrahim türbəsi, Qızıl Hacılı, Ozan, Bala Bağbanlı, Şərəfxanlı və Şahsevən məscidləri, Gəncəçay çayı üzərindən salınmış Böyük Körpü və Kiçik Körpü (XII əsr), karvansara və tikililər kompleksi, göy kaşı günbəzli İmamzadə kompleksi, qədim Şəhər hamamları və s. Gəncə müxtəlif dövrlərdə ölkəmizin tarixində mühüm rol oynamış ən qədim

şəhərlərdən biridir. Turistlərə şəhərin XII əsrdə Gəncə feodal hakimlərinin paytaxtı olması, 1139-cu ildə zəlzələ nəticəsində şəhərin dağılması, XVII əsrdə şəhərin əvvəlki yerindən 6 km şərqdə yenidən inşa edilməsi, dəfələrlə işğalçıların hücumuna məruz qalması və adının dəyişdirilməsi, turizm-rekreasiya imkanları haqqında ətraflı məlumat verilir. Hazırda Gəncənin yaxınlığında Hacıkənd kurort zonası yerləşir. Burada çoxlu turist marşrutları, pansionatlar, turist bazaları və istirahət evləri fəaliyyət göstərir.

*Naftalan şəhəri.* Goranboy şəhərinin yaxınlığında yerləşən kiçik Naftalan ərazi vahidinin əhalisinin sayı 9,7 nəfərdir. Bu kurort şəhərindəki sanatoriya və pansionatlara gələn xəstələr Naftalan nefti və onun əsasında hazırlanan məlhəmlərlə müalicə alırlar. Naftalan neftindən yaraların müalicəsi üçün istifadə edən təkcə yerli sakinlər olmamışdır, vaxtilə Azərbaycana hücum etmiş Makedoniyalı İsgəndərin əsgərləri, Roma legionerləri və vikinqlər, həmçinin alanlar, xəzərlər və digər qəbilələrin nümayəndələri Naftalan neftindən yaraların müalicəsi məqsədilə istifadə etmişlər. Naftalan həm də ixrac məhsulu olmuşdur. Onu karvan yolları ilə başqa ölkələrə - Kiyev Rus dövlətinə, Mərkəzi Asiyaya, Əfqanıstana, Hindistana, İran körfəzi ölkələrinə daşımışlar. Orta əsrlərin məşhur səyyahı Marko Polo Naftalan neftini dəri xəstəliklərinin çarəsi olan sehrli məlhəm kimi təsvir etmişdir.

Bənzəri olmayan müalicəvi əhəmiyyətə malik olan bu neftin dünyada analoqu yoxdur və bundan 70-dən çox xəstəliyin müalicəsində istifadə olunur. Xüsusən naftalanın hərəkət-dayaq, əsəb, uroloji, damar, ginekoloji və dəri xəstəliklərinin müalicəsində böyük əhəmiyyəti vardır. Naftalan nefti Azərbaycanın ən qiymətli təbii sərvətlərindən biridir. Hələ keçmiş sovet məkanından 1980-ci illərdə Naftalana müalicə almağa gələnlərin sayı 70 minə çatmışdı. Hazırda Naftalanın beynəlxalq kurort mərkəzinə çevrilməsi məqsədilə dövlət miqyasında "Azərbaycan Respublikasında kurortların 2009-



2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq Naftalanda geniş tədbirlər həyata keçirilmişdir və bu tədbirlər davam etdirilir. Hazırda Naftalanda 7 özəl istirahət və sağlamlıq mərkəzi və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası "Kurort" Səhmdar Cəmiyyətinin nəzdində "Naftalan" Kurort Birliyi fəaliyyət göstərir. Bu mərkəzlər - Chinar Hotel & Spa Naftalan, "Naftalan Hotel by Rixos", Garabag Resort & Spa, "Möcüzəli" Naftalan, "Şəfa vannaları", Naftalan müalicə və sağlamlıq mərkəzi, "Sehirli" Naftalandır. Həm otel və istirahət, həm də müalicə mərkəzi kimi Naftalana müalicə və istirahətə gələn yerli və xarici qonaqlara yüksək səviyyəli xidmət göstərilməsi məqsədilə burada hər cür şərait yaradılmışdır. Ümumilikdə şəhərdə bir gündə 2000 nəfər turist müalicə ala bilər. Naftalan kurort zonasının bərpası məqsədilə xüsusi plan hazırlanır. Şəhərdə xüsusi kotec və mehmanxanaların inşası, kanat yolunun çəkilməsi, hava limanının inşası və digər quruculuq işlərinin həyata keçirilməsi planlaşdırılır ki, bunların reallaşdırılması nəticəsində Naftalan inkişaf edərək dünyanın ən müasir kurort şəhərlərindən birinə çevrilir.

## 12.2.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti

Cədvəl 12.2

**Şəki-Zaqatala iqtisadi rayonu üzrə səfərlərin məqsədinə görə yerləşdirilmiş şəxslərin sayı, nəfərlə (2014-cü il)**

| İnzibatı rayon və şəhərlər | Cəmi | Turizm məqsədilə | İstirahət, əyləncə | İşgüzar səfər | Müalicə turizmi | Digər turizm | Digər məqsədlə |
|---|---|---|---|---|---|---|---|
| Ölkə üzrə cəmi: | 672345 | 550643 | 237506 | 206234 | 70981 | 35922 | 121702 |
| **İqtisadi rayon üzrə cəmi** | **46697** | **42414** | **3827** | **10796** | **28217** | **74** | **3783** |
| Gəncə şəhəri | 8718 | 8044 | 139 | 7836 | - | 69 | 3783 |
| Qazax rayonu | 2179 | 1399 | 1399 | - | - | - | 780 |
| Ağstafa rayonu | 3861 | 2602 | 1570 | 1022 | 5 | 5 | 1259 |
| Tovuz rayonu | 1905 | 1005 | - | 1905 | - | - | - |
| Şəmkir rayonu | 300 | 24 | 24 | - | - | - | 276 |
| Gədəbəy rayonu | 723 | - | - | - | - | - | 723 |
| Daşkəsən rayonu | 70 | 28 | - | 28 | - | - | 42 |
| Göygöl rayonu | 280 | 280 | 275 | 5 | - | - | - |
| Goranboy rayonu | 449 | 420 | 420 | - | - | - | 29 |
| Naftalan şəhəri | 28212 | 28212 | - | | 28212 | - | - |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**



İqtisadi rayona istirahət və əyləncə məqsədilə səfərlərin sayına görə Ağstafa, Qazax rayonları seçilirsə, Gəncə şəhəri, Tovuz və Ağstafa rayonları işgüzar məqsədlərlə gələnlərin sayına görə fərqlənir. Təbii haldır ki, müalicə turizmi üzrə bölgədə Naftalan şəhəri liderdir (cəd., 12.2). Şəhərə gələn yerli və xarici qonaqların sayı 5 il ərzində 5-6 dəfə artaraq 2014-cü ildə 15 min nəfər olmuşdur. Bunun 3 min nəfəri isə xarici ölkələrdən gəlmişdir.

Cədvəl 12.3

**Gəncə-Qazax iqtisadi rayonunda yerləşdirmə müəssisələrinin ümumi iqtisadi göstəriciləri (2014-cü il)**

| İnzibatı rayon və şəhərlər | Yerləşmə vasitələrində nömrələrin ümumi sayı, vahid | | İstismardan əldə olunan gəlir, min manat | |
|---|---|---|---|---|
| | 2010 | 2014 | 2010 | 2014 |
| **Ölkə üzrə cəmi:** | **14158** | **17363** | **105888,8** | **181047,3** |
| **İqtisadi rayon üzrə cəmi:** | **970** | **1341** | **1137** | **8630,0** |
| Gəncə şəhəri | 511 | 469 | 657,3 | 840,2 |
| Qazax rayonu | 133 | 133 | 29,1 | 389,9 |
| Ağstafa rayonu | 34 | 46 | 31,7 | 80,3 |
| Tovuz rayonu | - | 110 | - | 292,4 |
| Şəmkir rayonu | 24 | 24 | 38,6 | 70,4 |
| Gədəbəy rayonu | 103 | 102 | 72,6 | 69,4 |
| Daşkəsən rayonu | - | 15 | - | 6,0 |
| Göygöl rayonu | 39 | 51 | 73,8 | 35,3 |
| Goranboy rayonu | 35 | 59 | 73,3 | 46,3 |
| Naftalan şəhəri | 91 | 332 | 161,3 | 6799,8 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Turistləri yerləşdirmə müəssisələri ilə təminat səviyyəsinin araşdırılması nəticəsində aydın olmuşdur ki, Azərbaycan üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə olan nömrələrin 7,7%-i, birdəfəlik tutumun 7,8%-i Gəncə-Qazax turizm bölgəsinin payına düşür. Bölgə üzrə turistləri yerləşdirmə müəssisələrində birdəfəlik tutuma görə ilk üçlüyə Gəncə (927), Naftalan (709) şəhərləri və Qazax rayonu (272) aid edilir.

Gəncə-Qazax iqtisadi rayonunun kompleks inkişafında nəqliyyat sistemi əhəmiyyətli rol oynayır. Rayon Azərbaycanı Gürcüstan və Qara Dənizin sahilləri ilə birləşdirən dəmir və avtomobil yolları üzərində yerləşir. Gəncə, Qazax və Ağstafa əsas nəqliyyat qovşaqlarıdır. Bu vəziyyət turizm üçün də əlverişlidir. Bölgədə avtomobil yollarının ümumi uzunluğu 2602 km-dir. Ümumi istifadədə olan avtomobil yollarının uzunluğuna görə Goranboy (413 km), Tovuz (365 km), Gədəbəy (356 km) rayonları bölgədə birinci üçlüyə daxildir.

Bölgədə ekskursiya və əyləncə xidmətinin təşkili üçün təbii coğrafi şəraiti əlverişli olan rekreasiya yerləri, zəngin tarixi-mədəni obyektlər çoxdur. Gəncəyə gələnlər şəhərlə tanışlıqdan sonra müxtəlif istiqamətdə səyahətə çıxa bilərlər. Bu istiqamətlərə aid olanlara misal olaraq aşağıdakıları göstərmək olar.

Gəncə-Samux-Lək kəndi-Eldar şamı Dövlət Təbiət Qoruğu. Turistlər bu marşrut boyunca Gəncə şəhərinin tarixi, tarixi-mədəni abidələri ilə tanış olur, Gəncə və Kür çaylarının sağ sahilində, şəhərdən təxminən 25-30 km məsafədə yerləşən, sak və muğ tayfalarının yaşayış yeri Samux, cəlb edici "Yanar bulaq"ı olan Lək kəndi, Ceyrançöldə yerləşən nadir Eldar şamlarının mühafizə olunduğu Eldar şamı Dövlət Təbiət Qoruğu haqqında ətraflı məlumat alırlar.

Gəncə-Daşkəsən-Xoşbulaq. Bu marşrutda turistlər Daşkəsənin Azərbaycanın "Uralı" olması ilə yanaşı təbii, tarixi-mədəni abidələrlə zənginliyinin də şahidi olurlar.



Daşkəsən rayon mərkəzindən 17 km aralı olan Xoşbulaqa gedərkən mənzərəsi ilə diqqəti cəlb edən Bayan kəndi ilə tanış olmaq mümkündür. Ən maraqlısı isə ərazisində hər hansı turizm infrastrukturu olmasa da, saf bulaqları, gölü, apreldən oktyabr ayının sonunadək yaşıllıqa bürünən çəmənləri olan Xoşbulaq yaylaq yeridir. Yerli əhalinin həftə sonu istirahəti üçün əlverişli məkandır.

Göygöl rayonu-Göygöl Milli parkı. Turistlər rayonun təbiəti, maraqlı tarixi, adının bir neçə dəfə dəyişdirilməsi, təbii və tarixi abidələrlə zəngin kəndləri haqda məlumatlandırılır. Rayonun təbii və tarixi abidələrlə zəngin olan kəndlərinə daxili turist marşrutları təşkil edilir. Turistlər Quşqara-Balçılı (15 km), Çaykənd-Yeni Zod, Toplahəsənli-Zurnabad-Şəhriyar (18 km), Köşkü-Üçbulaq-Nurud (9 km), Aşıqlı-Hacıkənd-Göygöl (56 km) istiqamətlərində olan turlarda təbiətin bəxş etdiyi füsunkar landşaft, tunc və dəmir dövrlərinə aid kurqanlar, Qafqaz Albaniyası tarixinə aid abidələr, mineral mənbələrlə yanaşı yerli əhalinin ləziz yeməkləri olan mətbəxi ilə də tanış ola bilərlər.

Tovuz rayonunda turizm üçün əlverişli və maraqlı marşrutlar vardır. Əsasən Əsrik, Zəyəm çayları və Yuxarı Öysüzlü kəndi istiqamətində olan maraqlı marşrutlar üzrə turistlər ekskursiyalarda iştirak edə bilərlər. Tovuzdan Böyük Qışlaq-Qaralar, Qovlar-Ağbaşlar, Ağdam və Əlibəyli kəndlərinə təyin olunan marşrutlar rayonun görməli yerlərini əhatə edir. Tovuz rayonunda turizm marşrutlarının sayı artırılır. Tovuz şəhəri-Əlibəyli kəndi, Tovuz şəhəri-Vahidli kəndi, Tovuz şəhəri-Əsrik dərəsi, Tovuz şəhəri-Ağbaşlar dərəsi istiqamətində turlar təşkil edilir. Bu marşrutlar üzrə hərəkət edən turistlər rayonun əsrarəngiz təbiəti, zəngin mədəni irsi, maraqlı tarixi abidələri ilə tanış ola bilər. Maraqlı bir faktdır ki, 2015-ci ilin avqustunda Tovuz rayonunun Çobansığnaq kəndində yerli sakinlərdən biri dağlıq ərazidə 25 km məsafə qət etmiş və burada bir-birindən çox da aralı olmayan 7 şəlalənin

axdığının ilk şahidi olmuşdur. Bu sübut edir ki, Azərbaycan təbiətində olan zənginliklərin heç də hamısı mənimsənilməmişdir. Təbiətin insan ayağı dəyməyən guşələri çoxdur.

Gəncə şəhərində turistlər üçün informasiya mərkəzi tərəfindən hazırlanmış marşurutlar vardır. Bunlar avtobusla Daşkəsən, Xoşbulaq və Hacıkənd istiqamətinə olan marşrutlardır.

Bölgənin rayonlarında təşkil edilən əyləncəli tədbirlərdə yerli əhali ilə yanaşı bəzən turistlər də iştirak edir. Məsələn, Göygölün "Azərbaycanın sənətkarlıq paytaxtı" elan edilməsi ilə əlaqədar rayonda mədəniyyət, incəsənət və sənətkarlıq sahəsində müxtəlif yerli və beynəlxalq tədbirlər keçirilir. Əl işlərindən ibarət sərgilər, festivallar, konfranslar, konsert proqramları təşkil edilir və s.

Beləliklə, Gəncə-Qazax bölgəsinin təbii-coğrafi şəraiti (iqlimi, dağ meşə landşaftı, mineral suları), görməli yerləri və maraqlı ekskursiya obyektləri burada turizm fəaliyyətinin bütün növlərini inkişaf etdirməyə imkan verir. Lakin hələ bölgənin turizm üzrə ixtisaslaşması məhdud çərçivədədir. Gəncəyə gələnlər şəhərlə tanışlıqdan sonra müxtəlif istiqamətdə səyahətə çıxa bilərlər.

Böyüklüyü və iqtisadi əhəmiyyətinə görə respublikanın ikinci şəhəri olan Gəncədə maraqlı turizm obyektləri (Nizami Gəncəvinin məqbərəsi, Cümə məscidi, İmamzadə tikililər kompleksi, Şeyx İbrahim məqbərəsi, karvansara və b.), şəhərdən 48 km cənub-şərqdə yerləşmiş Naftalan kurort şəhərinin müalicəvi nefti, Gəncədən 25 km cənubda yerləşən Göygöl, Qazax rayonu ərazisində zəngin tarixi-memarlıq abidələri bölgənin turizminin perspektivliyini sübut edir.



# XIII F Ə S İ L
# LƏNKƏRAN İQTİSADİ RAYONU

## 13.1. Rayon haqqında ümumi məlumat

Lənkəran iqtisadi rayonu Azərbaycanın cənub-şərqində yerləşir. Şərqdə Xəzər dənizi ilə əhatə olunur. Qərbdə və cənubda İran İslam Respublikası ilə, şimaldan Aran iqtisadi rayonu ilə həmsərhəddir. Şimalda bölgə geniş Kür-Araz ovalığına söykənir. Rayonun iqtisadi-coğrafi mövqeyində üstünlüklər ilk növbədə onun Xəzər dənizinə birbaşa çıxışı və İran İslam Respublikası ilə həmsərhəd olmasıdır. Xəzər dənizi sahillərində liman təsərrüfatının təşkili və inkişaf etdirilməsi rayonun Xəzəryanı dövlətlərlə xarici ticarət əlaqələrinin yaradılması imkanı yaradır. Eyni zamanda, Lənkəran rayonunun füsunkar təbii şəraiti onu həm daxili, həm də xarici turistlər üçün cəlbedici diyara çevirir.

Lənkəran bölgəsinin tərkibinə Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı və Lənkəran inzibati rayonları daxildir (cəd., 13.1). Bölgənin sahəsi 6,07 min kv. km –dir(respublika ərazisinin 7%-i). Lənkəran iqtisadi rayonu respublikada əhalinin ən çox məskunlaşdığı ərazilərdən biridir. Bu rayon respublikanın digər bölgələrindən əhalinin yüksək təbii artımı ilə fərqlənir və bu meyl uzun illərdir davam etməkdədir. Təbii artım əsasən dağətəyi zonada yerləşən yaşayış məntəqələri üçün səciyyəvidir. İqtisadi rayonda 893,3 min nəfər əhali (ölkə əhalisinin 9,3%-i) yaşayır. Əhalinin ən sıx məskunlaşdığı ərazilər əsasən düzənlik, sahilyanı zonalardır.

Bölgənin iqtisadiyyatında aqrar sektor inkişaf etmişdir (ümumi məhsul istehsalının 43%-i). Əsasən sərhədyanı ticarət inkişaf etməkdədir. İnzibati rayonları bir və yaxud bir neçə məhsul istehsalı üzrə ixtisaslaşmışdır. Məsələn, Masallı, Lənkəran, Astara rayonlarının ovalıq hissəsi çayçılıq və bostan-tərəvəz məhsullarının istehsalı üzrə ixtisaslaşmışdır. Cəlilabad rayonunda əsasən üzümçülük və taxılçılıq, Lerik və Yardımlı

rayonlarında isə taxılçılıq, heyvandarlıq və tütünçülük inkişaf etmişdir. Lənkəran rayonunun sahilyanı ərazisində məskunlaşan əhali (xüsusilə Sarı adasında) əsasən balıqçılıqla məşğuldur.

Lənkəran iqtisadi rayonunda inkişaf səviyyəsinin yüksək olmasına görə Lənkəran və Cəlilabad inzibati rayonları xüsusilə seçilir. Lerik və Masallı nisbətən geri qalmış dağ rayonlarıdır. Bu rayonlar orta və yüksək dağlıq zonada yerləşdiyindən təbii ehtiyatlar tam mənimsənilməmiş və təsərrüfat sahələri zəif inkişaf etmişdir.

**Cədvəl 13.1**

**Lənkəran iqtisadi rayonunun tərkibi, ərazisi, əhalisi**

| İnzibati rayon və şəhərlər | Ərazi, min kv. km | Ölkə ərazisinə görə, %-lə | Əhalinin sayı, min nəfər (01.01.2015-ci il) | Ölkənin ümumi əhalisinə görə, %-lə |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası | **86,6** | **100** | **9593,0** | **100** |
| Lənkəran iqtisadi rayonu - cəmi: | **6,07** | **7,00** | **893,3** | **9,3** |
| Astara rayonu | 0,62 | 0,71 | 103,9 | 1,08 |
| Lənkəran rayonu | 1,54 | 1,77 | 220,8 | 2,3 |
| Lerik rayonu | 1,08 | 1,24 | 80,8 | 0,8 |
| Yardımlı rayonu | 0,67 | 0,77 | 63,3 | 0,6 |
| Masallı rayonu | 0,72 | 0,83 | 215,2 | 2,2 |
| Cəlilabad rayonu | 1,44 | 1,66 | 209,3 | 2,18 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**



İqtisadi rayonun turizm ixtisaslaşması istirahət, kurort-müalicə, dərketmə istiqamətindədir. Bölgənin təkrarsız təbiəti (subtropik iqlim, endemik ağaclar) vardır. Zəngin mineral suları, balneoloji iqlimi kurort təsərrüfatının inkişafı üçün geniş imkanlar açır. Meşəsu sağlamlıq zonası, Xanbulançay istirahət zonası (Lənkəran), İstisu sağlamlıq kurortu (Astara), İsti su pansionatı (Masallı) fəaliyyət göstərir. Zəngin flora və faunaya malik Qızılağac qoruğu, Hirkan Milli parkı bu bölgədədir. Bölgədə qədim məscidlər, tarixi diyarşünaslıq muzeyləri, Babək qalası, türbələr, karvansaralar mühüm tarixi-memarlıq abidələridir. Dəştvənd istirahət kompleksi, Lənkəran, Masallı mehmanxanaları, Astara, Qala, Rasim otelləri turistlərin ixtiyarındadır. Bölgə turizm cəhətdən perspektivlidir: turizm-istirahət əyləncə mərkəzlərinin yaradılması, dağ turizminin inkişaf etdirilməsi (Lerik), sanatoriya-kurort şəbəkəsinin genişləndirilməsi (Lənkəran,Astara) nəzərdə tutulmuşdur.

Əsrarəngiz təbii landşaft, isti və soyuq mineral sular, əlverişli iqlim şəraiti və inkişaf etmiş nəqliyyat şəbəkəsi bölgədə kurort-müalicə, kənd turizmi üçün çox əlverişlidir. Həmçinin bölgədəki qədim tarixi və memarlıq abidələri, əhalisinin adət-ənənəsi dərketmə turizmi cəhətdən maraqlıdır.

### 13.2.Rayonun turizm-rekreasiya ehtiyatları

***Təbii rekreasiya ehtiyatları.*** Rayonun təbii turizm-rekreasiya potensialı zəngindir. Lənkəran bölgəsi səth quruluşuna görə iki hissəyə-düzənlik və dağlıq əraziyə ayrılır. Düzənlik ərazi əsasən Lənkəran ovalığını əhatə edir. Lənkəran ovalığı bölgənin şərq hissəsini tutur. Ovalıq dağlardan axan çoxsaylı çayların gətirdiyi dəniz çöküntüləri ilə örtülüdür. Ovalıq dənizə doğru meyllidir. Ovalığın sahil hissəsi okean səviyyəsindən 28 m aşağıdadır. Dəniz sahilləri əsasən hamar olub rahat çimərliklərdir.

Şimal-şərqdə ovalığa dayaz Qızılağac körfəzi söykənir. Burada əvvəllər Sarı adası yerləşib. Xəzər dənizinin səviyyəsinin tərəddüdü nəticəsində bu rekreasiya obyekti quru ilə birləşərək yarımadaya çevrilmişdir. Onun mərkəzi hissəsində kiçik bataqlaşmış çökəklik vardır. Bu çökəklik qamışla örtülüdür.

Lənkəranın şimal-qərbində okean səviyyəsindən 1090 metr yüksəkdə Meşəsu mineral bulağı yerləşir ki, bunun da bazasında eyni adlı kurort-müalicə mərkəzi yaradılmışdır. Kurort yerli əhəmiyyətə malik olsa da, mineral Meşəsu suyu müalicəvi xarakterinə görə xüsusilə əhəmiyyətlidir.

Lənkəran bölgəsində oroqrafik xüsusiyyətilə seçilən ikinci sahə Talış dağlarıdır. Talış dağları Xəzər dənizi sahillərinə paralel uzanan 3 silsilədən (Alaşar-Burovar, Peştəsər və Talış) ibarətdir. Silsilələr yüksəkliyinə görə fərqlənir. Bölgədə ən yüksək nöqtə Talış dağlarındakı Gömrügöy zirvəsidir (2493 m). Dağların Xəzərə doğru yamacları enliyarpaqlı sıx meşələrlə örtülüdür. Bu məşhur Talış meşələri bölgənin təbii sərvətlərindən biridir. Meşələrdə hirkan florası qorunur. Məlumdur ki, hirkan florası yer səthində hələ insanın varlığından çox əvvəllər mövcud olmuşdur. Bu flora nümunələri Azərbaycan ərazisində yalnız Talış dağlarında qalmışdır.

Bölgənin cənub-şərqindəki sahil ovalıqda və dağətəyi qurşaqda iqlim Aralıq dənizi tiplidir. Bölgənin iqlim xüsusiyyətləri bir sıra iqlimşünas alimlərin (Ə.A. Mədətzadə, Ə.M. Şıxlinski və b.) əsərlərində çox əhatəli verilmişdir. Lakin respublikamızın kurort-istirahət yerlərinin iqlimi coğrafiyaşünas alim Ə.C. Əyyubovun (1987) əsərlərində xüsusi yer tutur. Ə.C. Əyyubov kurort məqsədləri üçün Azərbaycan ərazisində rayonlaşma aparmışdır. O, rayonlaşmada kurort müalicəsi və istirahətə təsir edən təbii amilləri nəzərə almışdır. Kurort ehtiyatlarının istifadə edilməsində landşaft amili iqlim qədər



əhəmiyyətli olduğundan iqlim-landşaft rayonlaşması aparmışdır.

İqlim göstəriciləri və landşaft xüsusiyyətlərinə görə Azərbaycan ərazilərində ayrılmış 3 kurort-rekreasiya rayonundan biri mülayim rütubətli Lənkəran - Astara bölgəsidir Mülayim rütubətli Lənkəran – Astara rayonu Kür çayının mənsəbindən İran sərhəddinə qədər bütün sahilboyu dar zolağı əhatə edir. Çimərliklərin xeyli hissəsi Qızılağac Dövlət qoruğunun ərazisinə düşür. Sahilin meylliyi az olduğu üçün uşaq sağlamlıq müəssisələrinin yaradılması məqsədilə yararlı ərazidir. İqlimin subtropikliyi burada daha aydın əks olunur. Quraq isti yay, sərin qış, Lənkəran yaxınlığında onlarla km məsafədə uzanan çimərliklər, termal mineral bulaqlar, qış aylarında da yaşıl donunu dəyişməyən düzənlik, meşə parkları bu ərazinin kurort-rekreasiya sərvətlərinin əsasını təşkil edir. Nadir Qızılağac və Hirkan qoruqları bölgənin rekreasiya əhəmiyyətini daha da artırır. Qışın rütubətli keçməsinə baxmayaraq, yayın isti və quraq keçməsi rayonun iqlimini mülayim rütubətli adlandırmağa imkan verir. İlin soyuq dövrü isə burada yağışlı keçir, iqlim kurort ehtiyatlarının istifadə edilməsini xeyli məhdudlaşdırır, balneoloji kurortların fəaliyyətini örtülü müəssisələrdə davam etdirməyi tələb edir. Sentyabr ayının ikinci yarısı və oktyabr ayı ilin ən yağmurlu dövrüdür. Bu müddətdə bəzən 5-6 gün ardıcıl yağışlı havalar olur. Bölgənin ovalıq və dağətəyi ərazilərində havanın orta illik temperaturu 11-14°C, yanvar ayında 1-4°C, iyul ayında isə 22-26°C təşkil edir. Yanvar-fevral aylarında havanın maksimal temperaturu Nərimanabad qəsəbəsində 18-20°C, Lənkəranda 20-22°C, Astarada isə 24-25°C-yə çatır. Günəş radiasiyasının illik miqdarı 125-130 kkal/sm$^2$-dir. Günəşli günlər ilin soyuq dövründə tez-tez təkrarlanır. Ərazidə yay aylarında cənub-qərb və yerli küləklər, qışda qərb və şimal küləkləri əsir. Küləyin orta illik sürəti Lənkəranda 1,5-2,0, Astarada 2,7-3,1 m/san-dir. Rayonun kurort sərvətlərindən geniş istifadə üçün ən əlverişli

vaxt aprel-sentyabr aylarıdır. Bu dövrün quraq və günəşli hava şəraiti tək iqlim deyil, balneoloji ehtiyatlardan da səmərəli istifadə etməyə imkan yaradır.

Ərazinin dağlıq hissəsinin iqlimi də istirahət məqsədləri üçün müəyyən dərəcədə əhəmiyyətlidir.

Bölgənin hidroqrafiya şəbəkəsi inkişaf etmişdir. Ümumiyyətlə, çay şəbəkəsinin sıxlığına görə respublikanın digər bölgələrilə müqayisədə xüsusilə seçilir. Bölgədə müxtəlif uzunluğa malik xeyli sayda çay dərəsi mövcuddur. Çaylardan həm də turizm-rekreasiya fəaliyyətində istifadə olunur. Ən iri çayları Bolqarçay (uz.168 km), Viləşçay (uz.115 km), Lənkərançay (uz.81 km), Göytəpəçay (uz.50 km), Təngərüçay (uz.48 km), Astaraçay (uz.38 km), Bəşərüçay (uz.38 km) və başqalarıdır.

Viləşçay Talışın ərazisindən axan ən uzun çay olub başlanğıcını Talış silsiləsindən götürür və axını boyu Peştəsər və Alaşar-Burovar silsiləsini kəsib keçir. Bu yerlərdə dərin və dar dərələr əmələ gətirir. Çayın ətrafları çox mənzərəlidir.

Təngərüçay başlanğıcını Talış silsiləsinin Şandan qalası zirvəsinin şərq yamaclarından götürür və Şahağac kəndi yaxınlığında dənizə tökülür. Çay dərəsi Peştəsər və Burovar silsilələrini kəsmir. Astaraçay bölgənin cənub-şərq qurtaracağında dövlət sərhəddi boyu axır. Çay başlanğıcını Şandan dağı zirvəsinin cənub-şərq yamaclarından götürür. Astara şəhəri yaxınlığında dənizə tökülür. Yuxarı və orta axını orta və alçaq dağlıq ərazidə yerləşir. Qeyd edək ki, Lənkəran regionu çayla zəngin olsa da, təsərrüfat, rekreasiya məqsədləri üçün su "qıtlığı" mövcuddur.

Lənkəran bölgəsində təbii rekreasiya ehtiyatlarından biri də mineral mənbələr və bulaqlardır. Hafthoni, Vizəhoni, Kiyəhoni, Fabhoni, Xuqəbul, Alaşa, Meşəsu və digər bulaqlar sağlamlıq üçün çox əhəmiyyətlidir.

Alaşa Maşxan bulaqlarının yerləşdiyi sahədə 30-50 metr dərinlikdə qazılmış bulaqlardan 35-50°C temperaturlu termal



sular çıxır. Bulaq və quyu sularının ümumi debiti saniyədə 50 litrdir. Suların tərkibi əsasən xloridli natriumludur. Lənkəran bölgəsinin həm mineral, həm də termal suları kurort ehtiyatları kimi çox əlverişlidir. Lakin bu ehtiyatlardan hələ də lazımi səviyyədə istifadə olunmur.

Bölgənin flora və faunası rəngarəngdir. Meşə örtüyü ərazisinin 25%-ni əhatə edir. Talış meşələri relikt, endemik və kol bitkilərinin xüsusiliyinə görə seçilən təbii-cografi ərazilərdir. Bu meşələrdə dəmirağacı, Lənkəran akasiyası, Qafqaz xurması, şabalıdıyarpaq palıd kimi qiymətli və nadir ağaclar mövcuddur. Azərbaycan Respublikasında təbiət komplekslərini, təbii sərvətlərini, qiymətli, nadir və nəsli tükənmək təhlükəsi olan flora və faunanı elmi əsaslarla qorumaq və nisbətən antropogen təsirlərə az məruz qalmış landşaftların ümumi qanunauyğunluqlarını, onların komponentləri arasındakı əlaqə və asılılıqları tədqiq etmək, rekreasiya əhəmiyyətli sərvətlərdən səmərəli istifadə etmək məqsədilə qoruq, yasaqlıq və Milli parklar yaradılmışdır. Lənkəran bölgəsində də təbii obyektlər mövcuddur. Bunlar Qızılağac Dövlət qoruğu, Hirkan Milli parkıdır.

***Tarixi-mədəni turizm ehtiyatları.*** Lənkəran bölgəsi yalnız landşaft ekzotikliyi və təbiət abidələrinin xüsusiliyi ilə seçilmir. Bölgədə çoxsaylı tarixi-mədəni, memarlıq abidələri mövcuddur. Abidələrin böyük əksəriyyəti rekreasiya əhəmiyyətinə malik olmaqla, əsasən XII-XIX əsrlərə aid edilir. Bölgədəki şəhər xarabalıqları, qədim qəbirlər, türbələr, qalalar, məscidlər və s. mövcuddur ki, bunlar həm respublikamızın digər bölgələri, həm də xarici ölkələrdən gələn turistlər üçün maraqlı rekreasiya obyektləridir.

Bölgənin zəngin tarixi-mədəni abidələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

- turistləri özünə cəlb edən orta əsrlərə aid qalalar, şəhər xarabalıqları, məscidlər;

- bölgədə ayrı-ayrı ərazilərin tarixinin öyrənilməsində əhəmiyyətli olan qədim yaşayış məskənləri;
- Azərbaycan xalqının mənəvi dəyərlərinin qorunmasında müəyyən rolu olan müqəddəs yerlər.

Lənkəran bölgəsinin tarixi qədim olduğundan burada maddi-mədəni abidələr çoxdur. Lənkəran qalası 1726-1727-ci illərdə tikilmişdir. Lənkəran qalası İran qoşunlarından müdafiə məqsədilə inşa edilmişdir. Qələ məhəlləsində yerləşən bu qalanın sahəsi 36 hektardır.

Qızlar qalası Lənkəranın Yuxarı Nüvədi kəndinin yaxınlığında yerləşir. Rəvayətə görə IX əsrdə böyük sərkərdələrin, dövlət adamlarının qadınları və qızlarını düşməndən qorumaq üçün həmin qalada saxlamışlar. Qalanın "Qızlar qalası" adlandırılması da bu səbəbdəndir. Qala həm də meşənin əhatəsində olduğundan cəlbedici turizm obyektidir.

Bəlləbur qalası Lənkəran şəhərindən 9 km cənub-qərbdə yerləşir. Hündürlüyü 4-5 metr, eni 2 metrədək olan bu qala 1 hektar sahəni əhatə edir. Bəlləbur qalası yaxınlığında orta əsrlərə aid saxsı qablar, mis və qızıl bəzək əşyaları aşkar edilmişdir. Bəlləbur qalası dağlıq ərazidə, yüksəkdə yerləşdiyindən ora qalxmaq üçün ən azı bir saat vaxt tələb olunur. Qalanın ən yüksək hissəsində qüllə yerləşir. Üç dairədən ibarət olan qüllədə otaqlar vardır. Bəlləbur qalası hürrəmilərin (IX əsr) dayaq məntəqələrdən biri olmuş tarixi abidədir.

Şandan qalası Astara rayonundan 9 km aralıqda İran İslam Respublikası ilə sərhəddə yerləşir. Sıldırım qayalıqlarda yerləşən Şandan qalası (bəzi mənbələrə görə Şindan) erkən orta əsrlərə aiddir. Şindan qalasına qalxan turistlər İran İslam Respublikasının azərbaycanlılar yaşayan sərhədyanı bölgəsini seyr edə bilər. Şindan qalasının tikilməsi III-IV əsrlərə aid olduğu ehtimal olunur.

Ərkivan qalası nəinki bölgədə, həm də Azərbaycanda məşhur qalalardan biridir. Qala Masallı şəhərindən qərbdə



Viləşçayın sahilində yerləşir. Bu qalanın tikilməsi haqda A. A. Bakıxanovun "Gülüstani-İrəm" əsərində qeydləri vardır.

Öncəqala Masallı rayonunun Öncəkələ kəndinin ərazisində yerləşir. Bu qala X əsrin əvvəllərində tikilmişdir. Öncəqala yerli sakinləri yadelli işğalçılardan dəfələrlə müdafiə etmişdir. Kəndin yaxınlığında qalanın xarabalıqları qalmışdır.

Lənkəran bölgəsinin turist cəlb edən obyektlərindən biri də məscidlərdir. Lənkəran şəhərində böyük bazardakı məscidin XIX əsrə aid olduğu məlumdur. Kiçik bazardakı məscid XX əsrin əvvəllərində 1904-cü ildə tikilmişdir. Bölgənin bir neçə rayonunda da məscidlər olmuşdur. Bunlardan ən qədimi Sütəmurdov kəndindəki Hacı Novruzəli məscididir.

*Cəlilabad* rayonu ərazisində Göytəpə kənd məscidi (XVI əsr), Xamrava kənd məscidi (XVIII əsr), Məmmədzalı kəndindəki Fezi Niftulla oğlunun məscidi (XIX əsr); Lerik rayonu ərazisində Lüləkəran kəndində qədim məscid (XIX əsr). Ərkivan kəndində XIV-XIX əsrlərə aid məscidlər; Yardımlı rayonu ərazisində XVIII əsrə aid olan məscidlər vardır.

Ümumiyyətlə, Lənkəran bölgəsində turizm obyekti sayıla bilən məscidlər çoxdur. Bunların bəzilərinin adlarının qeyd olunmasında məqsəd həmin mənəviyyat ocaqlarının tarixi yerlər kimi qorunmasına münasibəti qiymətləndirmək və bu yerlərə turların təşkilinin mümkünlüyünü göstərməkdir.

Lənkəran bölgəsinin müxtəlif ərazilərində aparılan tədqiqatlar, arxeoloji qazıntılar sübut edir ki, bölgə Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir.

*Cəlilabad* rayonunda aşkar edilən tapıntılar hələ eramızdan əvvəl VI-V minilliklərdə burada əhalinin oturaq həyata keçməsi fikrini söyləməyə imkan verir.

Bölgənin Cəlilabad rayonunda bir neçə kənddə küp qəbirləri və antik dövrə aid yaşayış məskəni və qəbirlər tapılmışdır. Həmin kəndlərin ərazisində tunc dövrünə aid kurqanlar (mağaralar) aşkar edilmişdir.

*Lerik* rayonu ərazisində çoxsaylı tarixi abidələrin aşkar edilməsi ərazinin ən qədim insan məskənlərindən olmasına sübutdur. Xanəgah kəndində Xoca Səid məqbərəsi (XIV əsr) yerləşir. Rayonun Peştəsər silsiləsinin ətəklərində dəniz səviyyəsindən 2438 metr yüksəkdə yerləşmiş Mustan kəndində arxeoloji qazıntılar nəticəsində "Qızlar yurdu" adlı qədim insan məskəni aşkar edilmişdir. Çox qədim dövrlərə aid olan tapıntılar Lerik ərazisində hələ ilk insanların məskən salmasını sübut edir. Burada aşkar edilmiş mağarada olan qədim silahlar, insanların qədim dövrə aid olduğunu sübut edir

*Masallı* rayonu ərazisində Uruz qoruğu adlandırılan yerdə (Yelağac kəndi yaxınlığında) antik dövrə aid yaşayış məskəni, qəbir abidələri aşkar edilmişdir (1986). Niskədərə, Qəriblər, Kolatan, Mahmudavar, Qızılavar, Türkoba, Şıxlar kəndlərində tunc dövrünə aid çoxlu sayda turqanlar aşkar edilmişdir ki, bunlar da həmin yerlərin qədim yaşayış məskəni olduğunu sübut edir (bu məskənlərin 32 – 35 min il əvvəl mövcud olması ehtimalı vardır).

*Astara* rayonu ərazisində Pensər, Telman, Təngərüz, Süvi və digər kəndlərdə tunc və dəmir dövrlərə aid kurqanlar aşkar edilmişdir.

Lənkəran bölgəsində müqəddəs yerlər çoxdur. Peştəsər silsiləsinin yamacında yerləşmiş Monidigah kəndinin ərazisində (Lerik rayonu) Baba İsa türbəsi yerləşir(XV əsr). XIV əsrə aid olan Pir Yusif məqbərəsi də yerli əhalinin ziyarətgahına çevrilmişdir.

Dağlıq kənlərdən biri olan Çəngəmiran (kəndin tarixi VII əsrə aiddir) ərazisində xəlifə Zəkəriyyə məqbərəsi mövcuddur. Bu kəndin ərazisində yerləşən tarixi abidələr bu günədək qorunub saxlanılır.

Masallı rayonu ərazisində Tariyan kəndindəki atəşpərəstlik dövrünə aid olan Babayi Əmir ziyarətgahına yerli sakinlər, həmçinin ətraf kəndlərdən ibadət etməyə gəlirlər.



Astara rayonundakı Baba Rəsul türbəsi müqəddəs şəxsin adını daşıyır. Türbədə onun dəfn olunduğu qeyd olunur. Türbə ətrafında qəbristanlıq salınmışdır. Türbəni hündür ağaclar əhatə edir.

Lənkəran-Astara şose yolu üzərində Penvar kəndi qəbiristanlığında yerli sakinlər tərəfindən "Səyyid Cəmaləddin piri" adlandırılan abidə vardır. Mərmər daşlardan hörülmüş bu abidənin 1918-ci ildə yanğın nəticəsində dağıldığını söyləyirlər. Sonralar bu abidə tarixi müqəddəs yer kimi yenidən bərpa edilmişdir. Türbədə Pir Hüseynin qızının (1408-1409) başdaşı saxlanılır.

### 13.3.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti

Azərbaycanın turizm potensialına görə seçilən bölgələrindən olan Lənkərana hər il yay aylarında gələn turistlər əsasən dənizkənarı çimərliklər və dağətəyi ərazilərdə dincəlməyə üstünlük verirlər. Elə bu səbəbdən də həmin ərazilərdə turistlərin istirahətinin səmərəli təşkili üçün hər cür şərait yaradılır. Lənkərana turistlər əsasən Avropa, Asiya, MDB ölkələrindən gələnlərdir. Avropa ölkələrindən gələn turistlərin sayı nəzərə çarpacaq dərəcədə artmışdır.

Turistlər arasında adətən toxunulmamış təbii ərazilərdə istirahətlə maraqlananlar da çox olur. Lənkəran meşələrində isə belə yerlər vardır.

Lənkəran şəhərinə qonaq gələnlərin əksəriyyəti ölkədaxili turistlərdir. Xarici qonaqların əksəriyyəti isə MDB ölkələri və qonşu İran İslam Respublikasından gələnlərdir. Lənkəranın turizm obyektlərini istirahət məkanı seçənlər arasında yerli turistlər də çoxdur. Onların əksəriyyəti paytaxt Bakıdan olan və ailəvi istirahətə üstünlük verənlərdir. Turistləri Lənkərana cəlb edən isə dəniz-dağ-meşə rekreasiya amilinin olmasıdır.

Lənkəran iqtisadi rayonuna həm qısamüddətli, həm də uzunmüddətli istirahət üçün səfər edirlər. İqtisadi rayonuna gedənlərin əksəriyyəti istirahətlərini qeyri-mütəşəkkil şəkildə keçirirlər. Rayonun Xəzərsahili zonasında istirahət edənlər əsasən çimərlik turizminə üstünlük verir. Ov etmək, balıq tutmaq həvəsilə istirahətə gedənlər də vardır. Hər il Bakı şəhərində təşkil olunmuş ümumrespublika turizm sərgisində Lənkəranın turizm potensialı nümayiş etdirilir. Sərgidə dulusçuluq sənəti nümunələri ilə yanaşı keramikadan hazırlanmış suvenirlər nümayiş olunur. Respublika sərgisində iştirak edən xarici turistlər milli mətbəxə daha çox maraq göstərirlər.

**Cədvəl 13.2**

**Lənkəran iqtisadi rayonu üzrə səfərlərin məqsədinə görə yerləşdirilmiş şəxslərin sayı, nəfərlə (2014-cü il)**

| İnzibati rayon və şəhərlər | Cəmi | Turizm məqsədilə | İstirahət, əyləncə | İşgüzar səfər | Müalicə turizmi | Digər turizm | Digər məqsədlə |
|---|---|---|---|---|---|---|---|
| **Ölkə üzrə cəmi:** | **672345** | **550643** | **237506** | **206234** | **70981** | **35922** | **121702** |
| **İqtisadi rayon üzrə cəmi** | **18088** | **17667** | **9629** | **6702** | **293** | **1043** | **421** |
| Astara rayonu | 305 | 305 | - | 305 | - | - | - |
| Lənkəran rayonu | 8803 | 8494 | 2660 | 4570 | 266 | 998 | 309 |
| Lerik rayonu | 831 | 831 | 831 | - | - | - | - |
| Masallı rayonu | 7586 | 7586 | 6097 | 1489 | - | - | - |
| Cəlilabad rayonu | 563 | 451 | 41 | 338 | 27 | 45 | 112 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**



İqtisadi rayona istirahət və əyləncə məqsədilə səfərlərin sayına görə Masallı, Lənkəran, Lerik rayonları birinci üçlüyə daxildir. İşgüzar məqsədlərlə gələnlərin sayına görə Lənkəran bölgədə liderdir. Müalicə turizmi mədsədilə gələnlərin sayına görə də Lənkəran rayonu fərqlənir (cəd., 13.2).

Bölgədə turizmin inkişafı üçün vacib olan amillərdən biri standartlara uyğun yerləşdirmə obyektləri və burada turistlərə göstərilən xidmətin səviyyəsidir. Turizm infrastrukturunun mühüm sahəsi olan yerləşmə müəssisələri (mehmanxana, motel, kempinq və b.) ilə təminat rayonlar üzrə fərqlidir. Bu fərqlər yerləşmə müəssisələrinin yaşayış sahəsi, bu müəssisələrdə yerlərin ümumi sayı, gecələmələrin sayı, göstərilən xidmətin səviyyəsi və digər göstəricilərdədir. Yerləşmə müəssisələrinə aid göstəricilərin təhlili əsasında bölgənin respublikada yerləşmə müəssisələrinin fəaliyyətinə görə mövqeyi göstərilmişdir.

Maraqlı göstəricilərdən biri odur ki, Azərbaycanda mövcud olan mehmanxana, motel və gəlmələr üçün nömrələrin ümumi sayının 6,88%-i Lənkəran bölgəsinin payına düşür (cəd., 13.3). Lənkəran bölgəsində inzibati rayonlar üzrə nömrələrin sayında fərqlər mövcuddur. Belə ki, bölgədə turistləri yerləşdirmə müəssisələrində nömrələrin ümumi sayının 68.9%-i Masallı və Lənkəran rayonlarının payına düşür.

**Cədvəl 13.3**

**Lənkəran iqtisadi rayonunda yerləşdirmə müəssisələrinin ümumi iqtisadi göstəriciləri (2014-cü il)**

| İnzibatı rayon və şəhərlər | Yerləşmə vasitələrində nömrələrin ümumi sayı, vahid | | İstismardan əldə olunan gəlir, min manat | |
|---|---|---|---|---|
| | 2010 | 2014 | 2010 | 2014 |
| **Ölkə üzrə cəmi:** | **14158** | **17363** | **105888,8** | **181047,3** |
| **İqtisadi rayon üzrə cəmi:** | **1095** | **1196** | **2368,8** | **2712,8** |
| Astara rayonu | 108 | 95 | 103,4 | 64,2 |
| Lənkəran rayonu | 211 | 342 | 403,8 | 1253,3 |
| Lerik rayonu | 192 | 201 | 1367,6 | 241,4 |
| Yardımlı rayonu | 21 | 21 | - | - |
| Masallı rayonu | 496 | 470 | 476,1 | 1125,6 |
| Cəlilabad rayonu | 67 | 67 | 17,9 | 28,3 |

Gözəl və füsunkar təbiətə malik, dağlarla əhatə olunan, nadir ağaclara malik yaşıl meşə örtüyü, saf suları ilə zəngin olan Masallıda turizm sürətlə inkişaf edir. Rayonda 30-a yaxın turizm obyekti qeydə alınmışdır, bir neçə istiqamətdə turizm marşrutu fəaliyyət göstərir. Ümumiyyətlə, bölgənin turizm və istirahət mərkəzlərində nömrələrin sayı 1196-dır. Bunlardan 216-sı lüks, 317-si 1-ci dərəcəli, 663-ü (respublika üzrə nömrə fondunun 6,9%-i) turist dərəcəli nömrələrdir.



"Dəştvənd", "İsti su", "Gülüstan", "Gölüstü" turizm mərkəzlərində və ailə istirahət parkında turist və qonaqların mənalı istirahəti, müxtəlif idman növləri və əyləncəli proqramla məşğuliyyət üçün hər cür şərait yaradılmışdır. Turistlər hər cür şəraiti olan Masallı Olimpiya kompleksinin imkanlarından da istifadə edə bilərlər. Müasir tipli mehmanxana və kotteclər Talış meşələrinin və yaşıllıqların içərisində, Viləş çayının sularına yaxın sahələrdə yerləşmişdir.

"Dəştvənd" istirahət bazası. Bu baza Masallı rayonunun Ərkivan kəndinin qərb hissəsində salınmışdır. Bakıdan 245 km aralı məsafədə yerləşir. "Dəştvənd" - göl kənarı, dəniz kənarı deməkdir. Dəştvənd Ərkivan kəndinin qədim adıdır. Daştvənd rayon mərkəzindən 5 km kənarda yerləşir. O, 5 hektar sahəni əhatə edir. İstirahət zonasına Bakı-Masallı marşrut avtobusu 7 saata çatır. Bazanın içərisində olan və Avropa üslubunda tikilmiş "Dəştvənd" otelində 20 otaq vardır. İstirahət bazasına gələn qonaqlara müasir və qədim şərq xörəklərini təklif edən müasir üslubda tikilmiş 150 nəfərlik restoran, antik üslubda inşa edilmiş 60 nəfərlik bar fəaliyyət göstərir. Zonanın ərazisində sauna, müxtəlif ağaclar və gül kolları salınmış baxça, əsasən nadir quşlarla (qartal, qırqovul, tovuz quşu, sultan quşu və s.) təmsil olunmuş kiçik zoopark yerləşir. İstirahət zonasında hər cür rahatlığı olan mikroavtobusla Yardımlı şəlaləsinə, İstisu sanatoriyasına, Lənkəran və Astara şəhərlərinə, Xəzər sahili çimərliklərə, zonada yerləşən meşələrə, mineral bulaqlara ekskursiyalar təşkil edilir.

İstisu istirahət zonası. Masallı rayonunun Qəriblər kəndi ərazisindədir. İstirahət ocağı Talış dağları ilə meşə zonası arasında salınmışdır. Buraya gələnlər 40 nömrəsi olan pansionatda gecələyə bilərlər. İstirahət zonasında müxtəlif şərq və qərb yeməkləri təklif edən restoran, müxtəlif içkilər və kokteyllər təklif edən bar, stolüstü tennis və bilyard oynamaq üçün müvafiq avadanlığı olan otaqlar, voleybol, basketbol

meydançaları vardır. İstirahət zonasında əyləncəli şou proqramlar da göstərilir.

Lənkəranda yerləşən "Qala" mehmanxanası 8 nömrədən ibarətdir. Oteldə istirahət edənlərə biznes-mərkəz, konfrans zal, restoran, bar və digər xidmətlərdən istifadə etmək təklif edilir. "Qala" mehmanxanası beşulduzludur. Lənkəranda həmçinin dənizsahili çimərlik komplekslərinin tikilməsi üçün işlər aparılır. Burada bir kottec - "Palıdlı sahil" istirahət mərkəzi istifadəyə verilmişdir.

Lənkəranda "Qızıl Tac", "Dalğa" otelləri, "Palıdlı sahil", "Bəşəru", "Xanbulan" turizm-istirahət mərkəzləri, Haftonu qəsəbəsində təbii İstisu pansionatı, Qafqaz-Sahil" mərkəzi və digər istirahət yerləri də fəaliyyət göstərir. Bu obyektlərdə turistlərə xidmət məqsədi ilə müxtəlif gəzintilər də təşkil edilir.

Nəqliyyat xidməti və infrastrukturu ilə rayonun təminat səviyyəsi yaxşılaşdırılır. Regionların sosial-iqtisadi inkişafına yönəlmiş müvafiq dövlət proqramlarına uyğun olaraq, kənd yaşayış yerlərində xüsusən ucqar dağ kəndlərində yeni avtomobil yolları inşa edilir. Dağlıq Lerik rayonunda yeni avtomobil yollarının istifadəyə verilməsi bunun bariz nümunəsidir.

Bölgədə avtomobil yollarının ümumi uzunluğu 1873 km-dir. Dağ rayonu olan Lerikdə yeni yolların çəkilməsi və köhnə yolların abadlaşdırılması ilə rayonun turizm mərkəzi kimi əhəmiyyəti artmışdır. Lerik avtomobil yollarının uzunluğuna görə (494 km) bölgədə birinci yerdədir.

Lənkəran bölgəsinin coğrafi mövqeyi onun nəqliyyat sisteminin əlverişli olmasına səbəb olmuşdur. Bu isə bölgənin kompleks inkişafında nəqliyyat şəbəkəsinin əhəmiyyətli rol oynamasına təsir edir. Bakı-Astara dəmir yolu və ona paralel Bakı-Astara avtomobil yolu yük və sərnişin daşımalarında, həmçinin Azərbaycan ilə İran İslam Respublikası arasında iqtisadi və turizm əlaqələrinin genişlənməsində mühüm rol oynayır. Bakı-Lənkəran hava xətti fəaliyyət göstərir.



Nəqliyyat şəbəkəsinin inkişaf etdirilməsi turizm əlaqələrinin də genişlənməsi deməkdir. Bu məqsədlə dəniz nəqliyyatının da mühüm əhəmiyyəti ola bilər. Ona görə də Astara-Bakı-Nabran arasında dəniz nəqliyyatının fəaliyyəti məqsədəuyğun sayıla bilər. İran İslam Respublikası ilə turizm əlaqələrinin genişləndirilməsində Qəzvin-Rəşt dəmir yolunun Astara ilə birləşdirilməsi nəzərdə tutulmuşdur.

Lənkəranda beynəlxalq hava limanının və dəniz limanının istifadəyə verilməsi turist axınının artmasında mühüm rol oynayacaqdır.

Bölgədə qidalanma xidməti milli kulinariyanın ən çox tanınmış çeşidləri ilə turistlərə təklif edilir. Lənkəranın özünəməxsus nadir mətbəxi də turistlərin diqqətini cəlb edib. Bölgəyə səfər edən əcnəbi turistlərə toyuq və balıq ləvəngisi təklif edilir. Lənkəranın bütün istirahət mərkəzlərində milli kulinariyanı yerli və əşnəbi turistlərə layiqli təqdim etmək üçün səviyyəli aşbazlar cəlb olunur. Hər il Lənkəranda yarmarkalar təşkil edilir. Bu yarmarkalarda yerli milli kulinariyanın növləri (çay, müxtəlif çeşidlərdə plov və s.) nümayiş etdirilir.

Bölgədə ekskursiya və əyləncə xidmətinin təşkili üçün imkanlar genişdir. Dəştvənd istirahət mərkəzinə gələn turistlər üçün Yardımlı şəlalələrinə, Lənkəran çimərliklərinə, "İstisu" müalicəvi bulaqlarına, Xanbulançay su anbarına ekskursiyalar təşkil edilir. İstirahət zonasının ərazisində iki süni göl yaradılmışdır. Turistlər bu göllərdə balıq ovlamaq, qayıq ilə gəzmək imkanına malikdirlər.

Zəngin və özünəməxsus flora və faunası ilə seçilən Lənkəran rayonunda ekoturizmin inkişafı ilə bağlı Hirkan Milli parkına ekoturlar təşkil olunur.

Hər bir xalqın tarixi, mədəniyyəti ilə maraqlanan turist həmin xalqın kompakt yaşadığı yerlərdə muzeylərdə olmağa üstünlük verir. Təsadüfi deyildir ki, muzeylərə turistlər üçün də ekskursiyalar təşkil edilir. Bölgədə yaşayan xalqların tarixini, maddi-mədəni sərvətlərinin nümunələrini nümayiş etdirən

muzeylər çoxdur. Bölgədə Lənkəran tarix-diyarşünaslıq muzeyi, xalq muzeyi, Həzi Aslanovun və Səmədbəy Mehmandarovun ev muzeyi, Astara diyarşünaslıq muzeyi, Ziya Bünyadovun ev muzeyi, Masallı rayon ölkəşünaslıq muzeyi, tarix-diyarşünaslıq muzeyi, Yardımlı diyarşünaslıq muzeyi, Cəlilabadda tarix-diyarşünaslıq muzeyi, Lerikdə diyarşünaslıq muzeyi və s.

Dağ və dənizlə əhatə olunan Lənkəranda turizmin bir sıra növlərini inkişaf etdirmək mümkündür. Burada turizmlə bağlı kompleks işlər görülür. Bir neçə il ərzində şəhərdə bir sıra bağlar və parklar salınıb, yeni istirahət mərkəzləri istifadəyə verilmişdir.

"Xanbulan" istirahət mərkəzində "Lənkəran bu gün" (6 saatlıq, 100 km-lik), "Talış dağları qoynunda" (9 saatlıq, 120 km-lik avtomobillə), "Hirkan" Milli parkına 6 saatlıq piyada ekskursiyalar təklif edilir. Belə marşrutlar "Qala" oteli və "Palıdlı sahil" istirahət mərkəzi tərəfindən də təşkil olunur.

Lənkəranın turizm marşrutlarına daxil olan abidələr sırasında "Şeyx Zahid" türbəsi, tarix-diyarşünaslıq muzeyi, xalq sənətkarlığı şəhərciyi, "Xəlifə" türbəsi "Dairəvi qala" ("Zindan") memarlıq abidəsi də vardır.

Bölgədə turist cəlb edən obyektlərdən biri də Xan evidir. Xan evi, Mirəhməd evi gözəl memarlıq abidələrindən biridir və 1913-cü ildə inşa edilmişdir. Milli memarlıq elementlərindən bacarıqla istifadə olunmuşdur. Onun fasadları əlvan naxışlarla zəngindir. Bu üç mərtəbəli saray şəhərin ilk çoxmərtəbəli binası sayılırdı. Bina "Dostluq" parkının qarşısındadır.

Beləliklə, Lənkəran turizm üçün perspektivli bölgədir. Bölgədəki imkanlar onun turizm üzrə ixtisaslaşmasını (istirahət, kurort-müalicə, dərketmə) məhdudlaşdıra bilməz. Bölgədə dağ-xizək turizminin, ekiloji turizmin (əsasən kənd yaşıl turizmi) inkişaf etdirilməsi çox məqsədəuyğundur. Son zamanlar bir sıra nüfuzlu xarici turizm şirkətlərinin Lənkəran bölgəsinə marağı artmışdır. Təsadüfi deyildir ki, 2014-cü il



iyunun 12-də Lənkəran rayonunun Kənarmeşə kəndində sahibkarlar və sahibkarlıq fəaliyyətinə yeni başlayanlar üçün treninq təşkil edildi. Bu tədbirdə "Cənub regionunda turizmin inkişaf perspektivləri", "Biznes planların və investisiya layihələrinin hazırlanması", "İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər" mövzularını əhatə edən bu treninqdə turizm obyektlərində kadrların peşə hazırlığının artırılması, turistlərin qarşılanmasının, yerləşdirilməsinin və digər xidmətlərin müasir tələblərə uyğun təşkili, kənd turizminin yaradılması və s. barədə məlumatlar iştirakçıların diqqətinə çatdırılmışdır. Bölgənin turizmi üçün əngəl yaradan daha bir səbəb isə Xəzərsahili ərazilərin intensiv çirklənməyə məruz qalmasıdır. Məişət tullantılarının müntəzəm olaraq dənizə axıdılması və sutəmizləyici qurğuların işləməməsi nəticədə ərazinin turizm üçün yararsız hala düşməsinə gətirib çıxarır. Bu isə rayonun yerli icra hakimiyyəti orqanlarının əhalinin sosial vəziyyətinə olan laqeydliyinə dəlalət edir. Turizm baxımından yüksək inkişaf etmiş və zəngin potensiala malik Masallı və Lənkəran bölgəsində müxtəlif yerləşmə və ictimai-iaşə müəssisələrinin olmasına baxmayaraq burada xidmətin səviyyəsi çox aşağıdır. Həmçinin, ərazinin sanitar-epidemioloji vəziyyəti qənaətbəxş deyildir. Xidmətin səviyyəsinin aşağı olmasının əsas səbəbi kadr ehtiyatının çatışmaması və mövcud işçilərin turizm sahəsi ilə bağlı təhsilinin olmamasıdır. Bu isə bölgədə təhsil ocaqlarının nəzarətdənkənar qalması və maddi-texniki bazasının zəif təmin olunması ilə əlaqədar təhsil səviyyəsinin aşağı olmasına dəlalət edir. Deyilənlərlə yanaşı bölgədə turizmin inkişafı üçün əngəllik törədən (Xəzərsahili zonanın mütəmadi olaraq çirklənməsi, dənizin səviyyəsinin tərəddüdü, yerləşdirmə və iaşə müəssisələrinin bəzilərində xidmətin müasir tələblərə cavab verməməsi, peşəkar kadrların az olması) amillər də vardır.

# XIV FƏSİL
# DAĞLIQ ŞİRVAN İQTİSADİ RAYONU

## 14.1. Rayon haqqında ümumi məlumat

Azərbaycan Respublikasının mərkəz hissəsini əhatə edən Böyük Qafqazın cənub-şərq hissəsində yerləşir, ərazisi 6,13 min kv. km-dir. Sahəsinə görə respublika ərazisinin 7,0%-ni təşkil edir. İqtisadi rayonun tərkibinə Ağsu, İsmayıllı, Qobustan və Şamaxı inzibati rayonları daxildir (cəd., 14.1).

Rayonun ərazisi Şirvan düzünü əhatə edir. Dağlıq Şirvan iqtisadi rayonunun mövqeyi əlverişlidir. O, turizm-rekreasiya cəhətdən sürətlə inkişaf edən Abşeron (şərqdən), Şəki-Zaqatala (şimal-qərbdən), Quba-Xaçmaz (şimal-şərqdən) və turizm imkanlarına görə perspektivli olan Aran (cənubdan) iqtisadi rayonları ilə həmsərhəddir. Dağlıq Şirvan iqtisadi rayonunun əlverişli iqtisadi-coğrafi mövqeyi onun nəqliyyatına da müsbət təsir göstərir. Rayonun əsasən respublikanın mərkəzi və şərq hissələrində yerləşməsi onun ərazisinin tranzit əhəmiyyətini artırır. Oradan müxtəlif istiqamətli magistral avtomobil yollarının keçməsinə şərait yaradır və onun başqa regionlarla nəqliyyat əlaqələrini daha sərfəli edir.

Bakıdan respublikanın qərbinə gedən magistral avtomobil yolu Dağlıq Şirvan iqtisadi rayonunun ərazisindən keçir. Bakı şəhərindən rayonun qərb sərhəddinə qədər olan məsafə 160 km-dir. Dağlıq Şirvan iqtisadi rayonunun coğrafi mövqeyinin əsas üstünlüyü isə onun respublikanın mühüm ictimai-siyasi mərkəzi olan Abşeron iqtisadi rayonu ilə, xüsusilə Bakı və Sumqayıt şəhərləri ilə yaxınlıqda yerləşməsidir. Bu da rayonun ən ucqar yaşayış məntəqələrindən belə 3-4 saata respublikanın paytaxtı, əsas sənaye, elm, təhsil, mədəniyyət mərkəzi, ən mühüm nəqliyyat qovşağı olan Bakı şəhərinə getməyə imkan verir.



Dağlıq Şirvan iqtisadi rayonunun mövqeyi əlverişlidir. O, turizm-rekreasiya cəhətdən sürətlə inkişaf edən Abşeron (şərqdən), Şəki-Zaqatala (şimal-qərbdən), Quba-Xaçmaz (şimal-şərqdən) və turizm imkanlarına görə perspektivli olan Aran (cənubdan) iqtisadi rayonları ilə həmsərhəddir. Dağlıq Şirvan iqtisadi rayonunun əlverişli iqtisadi-coğrafi mövqeyi onun nəqliyyatına da müsbət təsir göstərir. Rayonun əsasən respublikanın mərkəzi və şərq hissələrində yerləşməsi onun ərazisinin tranzit əhəmiyyətini artırır. Oradan müxtəlif istiqamətli magistral avtomobil yollarının keçməsinə şərait yaradır və onun başqa regionlarla nəqliyyat əlaqələrini daha sərfəli edir.

Bakıdan respublikanın qərbinə gedən magistral avtomobil yolu Dağlıq Şirvan iqtisadi rayonunun ərazisindən keçir. Bakı şəhərindən rayonun qərb sərhəddinə qədər olan məsafə 160 km-dir. Dağlıq Şirvan iqtisadi rayonunun coğrafi mövqeyinin əsas üstünlüyü isə onun respublikanın mühüm ictimai-siyasi mərkəzi olan Abşeron iqtisadi rayonu ilə, xüsusilə Bakı və Sumqayıt şəhərləri ilə yaxınlıqda yerləşməsidir. Bu da rayonun ən ucqar yaşayış məntəqələrindən belə 3-4 saata respublikanın paytaxtı, əsas sənaye, elm, təhsil, mədəniyyət mərkəzi, ən mühüm nəqliyyat qovşağı olan Bakı şəhərinə getməyə imkan verir.

**Cədvəl 14.1**

**Dağlıq Şirvan iqtisadi rayonunun tərkibi, ərazisi, əhalisi**

| İnzibatı rayon və şəhərlər | Ərazi, min kv. km | Ölkə ərazisinə görə, %-lə | Əhalinin sayı, min nəfər (01.01.2015-ci il) | Ölkənin ümumi əhalisinə görə, %-lə |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası | **86,6** | **100** | **9593,0** | **100** |
| Dağlıq Şirvan iqtisadi rayonu - cəmi: | **61,3** | **707** | **304,0** | **3,1** |
| Qobustan rayonu | 13,7 | 1,58 | 44,0 | 0,45 |
| İsmayıllı rayonu | 20,7 | 2,39 | 84,0 | 0,87 |
| Ağsu rayonu | 10,2 | 1,17 | 76,3 | 0,79 |
| Şamaxı rayonu | 16,7 | 1,92 | 99,7 | 1,03 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Dağlıq Şirvan iqtisadi rayonunun əhalisinin sayı 304,0 min. nəfərdir (respublika əhalisinin 3,1%-i). Dağlıq Şirvan iqtisadi rayonunun əhalisi milli tərkibinə görə demək olar ki, yekcinsdir. Regionun əhalisinin 95,6%-i azərbaycanlı, 2,7%-i, ləzgi, 1,3%-i rus, ukraynalı və digər xalqlardır. Əhalisinin 32%-i şəhərlərdə yaşayır. Dağlıq Şirvan iqtisadi rayonunun coğrafi mövqeyinin əsas üstünlüyü onun respublikanın əsas ictimai-siyasi mərkəzi olan Abşeron iqtisadi rayonu ilə, xüsusilə Bakı və Sumqayıt şəhərləri ilə yaxınlıqda yerləşməsidir. Bu da rayonun ən ucqar yaşayış məntəqə-



lərindən belə 3-4 saata respublikanın paytaxtı, əsas sənaye, elm, təhsil, səhiyyə, mədəniyyət mərkəzi, ən mühüm nəqliyyat qovşağı olan Bakı şəhərinə getməyə imkan verir.

İqtisadi rayon başlıca olaraq əkinçilik, üzümçülük, şərabçılıq və heyvandarlıq üzrə ixtisaslaşmışdır. Əkinçilikdə aparıcı yeri taxılçılıq tutur. Dağlarda yayılan qaratorpaqlarda kartof yetişdirilir, düzən sahələrində pambıq əkilir. Digər əkinçilik sahələri yerli istehlak xarakteri daşıyır. Əhalisinin yerli tələbatının ödənilməsi üçün bostan-tərəvəz məhsulları, meyvə yetişdirilir, barama, arı saxlanılır. Heyvandarlığın başlıca sahəsi maldarlıq və qoyunçuluqdur.

Yerli xammal əsasında yüngül sənaye inkişaf etmişdir. Yüngül sənayedə Şamaxı və İsmayıllı rayonları daha çox seçilirlər. Şamaxı və İsmayıllı şəhərlərində, eləcə də Qalacıq kəndi və Lahıc qəsəbəsində xalçaçılıq, Basqal qəsəbəsində kəlağayı istehsal olunur.

Dağlıq Şirvanın Şamaxı və İsmayıllı rayonları Azərbaycanın ən qədim və özünəməxsus ornament-bəzək, zəriflik və orijinallığı ilə seçilən sənətkarlıq mərkəzidir. Kəlağayı, tirmə şal, zərxara, baftalı yaxalıq, zərli başmaq, çust və xalça istehsalı nəinki Respublikada, eləcə də ondan kənarlarda belə Şirvanı tanıdan məhsullar olmuşdur. Sənətkarlıq məhsulları rayona səfər edən turistləri də maraqlandırır. Təsadüfi deyildir ki, İsmayıllı rayonu AR Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2011-ci ildə "Azərbaycanın sənətkarlıq paytaxtı" elan olunmuşdur.

Rayonun gözəl mənzərəyə, sərin iqlimə, keyfiyyətli şirin və mineral sulara, dağ meşələrinə və s. malik olan bir çox əraziləri yuxarıda qeyd edilən şəhərlərin, xüsusilə də Bakının əhalisinin sevimli istirahət yeridir. Dincəlmək üçün əhalinin rayona axını istirahət günlərində, tətillərdə, xüsusilə də yayda güclənir ki, bu da rayonun sosial-iqtisadi inkişafına, o cümlədən nəqliyyata, xidmət sahələrinə, yerli əhalinin sosial durumuna müsbət təsir göstərir.

### 14.2.Rayonun turizm-rekreasiya ehtiyatları

*Təbii rekreasiya ehtiyatları.* Dağlıq Şirvan iqtisadi rayonu Böyük Qafqaz vilayətinin Şamaxı və Qobustan-Abşeron rayonları ərazisində yerləşir. Böyük Qafqazın cənub yamacı zonası Girdimançay dərəsindən şərqə xeyli genişlənərək Şamaxı-Qobustan sahəsini əmələ gətirir.

Şamaxı-Qobustan alçaqdağlığının oroqrafik quruluşunun ən görkəmli elementləri qərbdə (Girdmançaydan Mərəzəyə qədər) geniş yaylalar (Gürcüvan, Şamaxı, Mərəzə yaylaları) və alçaq tirələrdir (Meysəri tirəsi). Şamaxı yaylasından şimalda isə daha geniş və terraslı çay dərələri ilə kəsilmiş Qızmeydan yaylası (1000-1400 m) yerləşir. Şərqdə bu oroqrafik sahələri Qobustan əvəz edir. Burada tirələr, platolar, çökəklər və çoxsaylı palçıq vulkan dağları relyefin əsas formalarıdır. Şamaxı yaylası mövqeyinə görə qərbdə Girdimandan şərqdə Mərəzə yaylasına qədər 70 km məsafədə uzanır. Şimalda Meysəri tirəsi, Sündü-Qurbançı yaylası ilə, cənubda Ləngəbiz tirəsi ilə əhatələnir.

Şamaxı və Qobustan ərazisində palçıq vulkanları xüsusi morfostruktur tipi kimi geniş yayılmışdır. Palçıq vulkanlarının hamısı yer səthində aydın görünən relyef forması əmələ gətirmir. Bunlardan Şamaxıda Çarhan, Göylər kəndləri ərazisində 50-yə qədər müxtəlif böyüklükdə palçıq vulkanı konusu vardır ki, bunun çoxu fəaliyyətdədir.

Ərazidə relyefin müxtəlifliyi nəticəsində bir-birindən fərqlənən düzənlik, dağətəyi və orta dağlıq, yüksək dağlıq qurşaqlar ayrılır. Düzənliklər rayonda geniş ərazi tutur. Buraya Qobustan ərazisinin demək olar ki, hamısı, Şamaxı və Ağsu rayonunun cənubunun xeyli hissəsi aiddir. Bu zonanın relyefinin düzən xarakteri ərazidə məişət və təsərrüfat obyektlərinin tikintisinin, nəqliyyat yollarının, kəmərlərin. rabitə xətlərinin və s. çəkilişini xeyli asanlaşdırır. Zonanın düzən relyefi bitkiçilik və təbii halda qış otlaqlarından istifadəyə imkan verir.



Dağətəyi və orta dağlıq qurşaq əsasən İsmayıllı rayonunun çox hissəsini, Ağsu və Şamaxı rayonlarının düzən əraziləri istisna olmaqla qalan hissəsini və Qobustan rayonunun əsasən şimal və şimal-qərb zonalarını əhatə edir. Burada çay dərələrinin terrasları ilə yanaşı dağüstü düzənliklər qədim vaxtlardan mənimsənilmişdir. Məsələn, Çuxuryurd (1000-1300 m) və Şamaxı (600-800 m) düzəlmə səthləri və s. Dağlıq Şirvan iqtisadi rayonunun respublika əhəmiyyətli magistral avtomobil yollarının çox hissəsi bu qurşaqda yerləşir. Şamaxı, Ağsu, İsmayıllı, Mərəzə, Göylər, Çarhan, Çuxuryurd, Mədrəsə və s. kimi yaşayış məntəqələri dağətəyi və orta dağlıq qurşaqdadır.

Yüksək dağlıq qurşaq əsasən İsmayıllı rayonunun şimal hissələrini əhatə edir. Rayonun ən yüksək zirvəsi hündürlüyü 3629 m olan Babadağ bu qurşaqdadır. Buradakı dik yamaclar, sıldırım qayalar, keçilməz erozion dərələr, sürüşmələr və s. təbii sərvətlərin mənimsənilməsini, nəqliyyatın işini, əhalinin məskunlaşması qarşısında maneələr olsa da, ərazinin turizm-rekreasiya baxımından əhəmiyyəti danılmazdır.

Dağlıq Şirvan iqtisadi rayonunun təbii rekreasiya sərvətlərinə iqlim, palçıq vulkanları, Pirqulu Dövlət Təbiət qoruğu, İsmayıllı Dövlət Təbiət qoruğu və ovçuluq təsərrüfatlarında qorunan və artırılan flora və fauna aləmi, mineral bulaqları aiddir.Təbii ərazilərin qorunmasının əsas forması olan Milli parklar və təbiət qoruqları mühüm turizm obyektləridir. Pirqulu Dövlət Təbiət qoruğu iqtisadi rayonun ərazisindədir. O, 1968-ci ildə 1521 ha sahədə, Böyük Qafqaz sıra dağlarının şərq qurtaracağında yaradılıb. Şamaxı ərazisində bitən 520 növ çiçəkli bitkini, 50 növdən artıq dərman bitkisini, bölgədəki digər zəngin flora və faunanı qorumaq məqsədilə təşkil edilən qoruq ərazisinə Cəngi, Pirqulu, Bədo meşələri daxildir. Qoruq eyni zamanda Şahdağ Milli Parkı sahəsinə

aiddir. Burada bir neçə istiqamətdə daxili turist marşrutu müəyyənləşdirilmişdir. Böyük Qafqazın cənub yamaclarında yerləşən İsmayıllı dövlət təbiət qoruğu təbii kompleksi qorumaq məqsədilə 1981-ci ildə 16700 ha sahədə yaradılmışdır. Təbii kompleksin ərazisinin 87%-i meşəlikdir. Qoruqda 40 növ məməli, 17 növ sürünən, 4 növ balıq və 104 növ quş mövcuddur. Qoruğun 800-2250 metr yüksəklikdəki hissəsi Topçu, 600-650 metr yüksəklikdəki bölümü Alazan-Əyriçay vadisidir. Qoruğun Qalıncaq hissəsində ov mövsümündə dağ keçisi, dağ kəli ovuna çıxmaq olur. Qoruq ərazisində gəzintiyə çıxarkən Qız Qalasından ətrafa açılan möhtəşəm mənzərəni izləmək mümkündür.

İqtisadi rayonun ərazisində günəşli günlərin sayı çoxdur. Düzənlik sahələrdə, o cümlədən Qobustanın çox hissəsində, Şamaxı və Ağsu rayonlarının cənub hissələrində günəşli saatların miqdarı daha çox olur. Bu ərazilərdə, onu əhatə edən dağ ətəyində və yüksək dağlıqda günəşli saatların miqdarı 2200-2500, daha çox buludlu və dumanlı günləri olan orta dağlıq qurşaqda isə 1900-2200 saata qədərdir. Rayonda illik radiasiyanın cəmi də yüksəkdir. Düzənlik ərazilərdə illik ümumi radiasiya 130-135 kkal/sm$^2$, onu əhatə edən yüksək maili düzənliklərdə 125-130 kkal/sm$^2$, alçaqdağlıqda 120-124 kkal/sm$^2$ təşkil edir. Bu zonadan yüksək dağlığa doğru ümumi radiasiya yenidən artaraq rayonun ən uca zirvələr zonasında 140-145 kkal/sm$^2$-ə bərabərdir.

Rayonda ilin isti yarısında ümumi radiasiyanın miqdarı düzən hissələrdə 90 kkal/sm$^2$, 500-600 m-dən 2500 m hündürlüyə qədər 86-87 kkal/sm$^2$, 3000 m-dən yüksəklikdə isə 90-104 kkal/sm$^2$-ə bərabərdir.

Rayonda temperaturun paylanmasında ərazi fərqlərinin yaranmasında ən başlıca amil ərazinin oroqrafik və hipsometrik şəraiti, yəni, relyefdir. Relyefin təsiri altında dağlıq və düzənlik ərazilər temperatur şəraitinə görə bir-birindən kəskin fərqlənir. Bu fərqlər özünü temperaturun bütün əsas göstəricilərində



büruzə verir. Belə ki, havanın orta illik temperaturu bütün ərazi üçün müsbətdir. Onun ən yüksək göstəricisi 14,5°C olmaqla rayonun düzənlik hissələrində, xüsusilə Qobustanda (şimal-qərb və şimal hissələrinin alçaq və orta dağlıq hissələri istisna olmaqla), Şamaxı və Ağsu rayonlarının cənubunun çox hissəsində müşahidə olunur. Bu zonanın nisbi yüksəkliyi 200-300 m təşkil edir. Bu zonadan dağlıq zonaya tərəf getdikcə temperatur tədricən azalaraq dağətəyi və alçaq dağlıq zonada orta illik temperatur (xüsusilə Babadağ zonasında) 0°C-dək azalır. Rayon ərazisində orta yanvar və orta iyul temperaturunun paylanması müxtəlifdir. Belə ki, iyul ayının orta temperaturu rayonun düzənlik hissələrində 24-25°C olduğu halda orta dağlıqda 20-15°C, yüksək dağlıqda isə 10-5°C-ə qədərdir. Yanvar ayının orta temperaturu rayonun düzən ərazilərində 0-4°C, dağətəyi zonada 0-3°C, orta dağlıqda 5-6°C, yüksək dağlıq qurşaqda isə 6-14°C arasında dəyişir.

Rayonun düzənlik ərazilərində mütləq maksimum temperatur 40-41°C, dağətəyi zonada 37-40°C, orta dağlığın aşağı zonasında 30-37°C, 1500-2000 m yüksəklərdə 27-30°C, yüksək dağlıqda (3000-3500 m-ə qədər) 20-30°C-yə qədər qalxır. Bir qayda olaraq mütləq maksimum temperatur rayonun çox hissəsində iyul ayının ikinci yarısına təsadüf olunur. Temperatur minimumu, o cümlədən minimum temperaturlar əsasən yanvar ayında, qismən fevralda və dekabrın axırıncı on günlüyündə müşahidə edilir. Bəzi illərdə düzənlik, dağətəyi orta dağlıq qurşaqlarda 22°C və daha çox mütləq minimum temperaturlar müşahidə edilir. Yüksək dağlıqda isə temperatur 26-30°C sıfırdan aşağı düşür.

Rayonun su ehtiyatlarına ərazidəki çaylar, göllər, süni su tutarlar və yeraltı sular aid edilir. Ərazinin müxtəlif hissələrinin çay şəbəkəsinin sıxlığı bir-birindən kəskin fərqlənir. İqtisadi rayonun əsas çayları Girdimançay, Ağsuçay, Pirsaatçaydır. Çayların qidalanmasında əsas yeri yağış və yeraltı sular, qismən də qar suları tutur. Buna görə də yay fəslində bəzi

çaylarda su çox azalır, hövzəsi yüksəkdə yerləşən çaylarda axının çox hissəsi yeraltı sular hesabına yaranır. Girdimançay başlanğıcını Babadağ zirvəsinin ətəklərində, 3000 m yüksəklikdən götürür. Pirsaat çayı mənbəyini 2400 m yüksəklikdən, Lahıc dağ sistemindən götürür. Pirsaat çayının suyu çox vaxt Xəzər dənizinə çatmayaraq Ələt ətrafında itir.Ağsu çayı başlanğıcını Lahic dağ sistemində 1750 m yüksəklikdən götürür. Onun suyu Kürə çatmır. Ceyrankeçməz çayı ilin çox vaxtı susuz olur. Onun suyu Xəzər dənizinə nadir hallarda çatır.

Rayonun çayları hidrokimyəvi xüsusiyyətlərinə görə fərqlənir. Rayonun qərb hissəsində yerləşən Ağsuçay, Girdimançay və onların qolları hidrokarbonatlı sulara aid edilir. Bu çayların sularının minerallaşma dərəcəsi 200-500 mq/m-ə qədərdir. Qobustan çaylarının minerallaşma dərəcəsi isə1000 mq-dan artıqdır. Ağsu və İsmayıllı rayonlarının dağətəyi, alçaqdağlıq və ortadağlıq ərazilərinin su təchizatında Ağsuçay, Girdimançay çox mühümdür. Şamaxı rayonunun çay suları ilə təchiz olunmasında Pirsaat və Zoğalavay çayları demək olar ki, yeganə mənbədir.

Qobustan rayonunun çay şəbəkəsi çox zəif inkişaf etdiyindən və ərazinin çay suları ilə təminatı çox aşağı səviyyədə olduğundan ərazidə çay sularından istifadənin də həcmi zəifdir. Burada yalnız bir neçə yaşayış məntəqəsi, o cümlədən Mərəzə, Nərimankənd, Süptü və s. kəndlər suvarmada və məişətdə qismən Pirsaatçayın suyundan istifadə edir. Ceyrankeçməz çayının da təsərrüfat əhəmiyyəti çox azdır.

Rayonda bu problemin həllində çayların rejiminin tənzimlənməsinin, su qovşaqlarının və su anbarlarının, irriqasiya sistemlərinin yaradılmasının böyük əhəmiyyəti vardır. Bu məqsədlə rayonda bir neçə su anbarı yaradılmışdır. Onlardan Yekəxana, Şamaxı, Ağsu, İsmayıllı, Çuxuryurd və s. su anbarlarını qeyd etmək olar.



Girdimançay hövzəsində mənşəyinə görə sürüşmə gölləri olan bir neçə kiçik təbii göl də vardır. Hazırda rayonun göllərində süni balıq yetişdirmənin həcmi az olsa da, gələcəkdə bu işin xeyli səmərəsi ola bilər.

Rayonda yeraltı suların təsərrüfat əhəmiyyəti olduqca böyükdür. Şirvan düzü sahəsinə görə Azərbaycanın ən böyük yeraltı su hövzələrindən biridir. Rayonun yeraltı sularının minerallaşma dərəcəsi müxtəlifdir.

Rayonda əhali hələ qədimdən çay boyu ilə yanaşı yeraltı suların bulaqlar şəklində səthə çıxdığı ərazilərdə özünə məskən salmışlar. Belə bulaqlar rayonun bir çox yaşayış məntəqələrinin, xüsusilə də kəndlərin əhalisinin suya olan tələbatının ödənilməsində yeganə mənbədir. Əhali bu suları içməklə və məişətdə işlətməklə yanaşı, onlardan kənd təsərrüfatında heyvanlarının sulanmasında, həyətyanı sahələrin və bağların suvarılmasında istifadə edir. Bu bulaqların bir hissəsi gözəl mənzərəli, saf havalı sahələrdə yerləşdiyindən əhalinin intensiv istirahət zonalarından sayılır. Rayonun xüsusilə dağlıq zonası müalicə və kurort əhəmiyyətli mineral sularla zəngindir.

Tərkibi əsasən hidrokarbonatla, kükürdlə zəngin olan bulaqların suyundan müalicə və içmək üçün istifadə edilir. Yüksək dağ zonasında yerləşən, meşələrlə əhatə olunmuş Avakıl, Qəleybuğut, Əngəxaran, Dədəgünəş, Çuxuryurd, Sis, Zaratxeybəri, Çobanı (Şamaxı), Diyallı, Basqal, Lahıc, Həftəsiyab, Qalacıq (İsmayıllı) kəndlərinin ətrafı mineral bulaqlarla zəngindir. Bunlardan Zərgəran, Çağan, Qəleybuğurt, Çuxuryurd suları daha məşhurdur. Ən əhəmiyyətlisi Çuxuryurd bulaqlarıdır (suyun temperaturu 15°-17°, gündəlik debiti 200 min litr). Bu suların böyük müalicəvi əhəmiyyəti olduğundan əhali onlardan bir çox xəstəliklərin müalicəsində geniş istifadə edir. Buradakı bulaqların çoxu qədimdən bəri yerli əhali tərəfindən yel, dəri, qadın xəstəliklərinin müalicəsində istifadə olunur.

İsmayıllı və Şamaxı rayonlarındakı kurort-sanatoriya müəssisələrinin inkişafı məqsədi ilə kompleks tədbirlər həyata keçirilir. Aztəminatlı sosial təbəqələrin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə tədbirlər görülür. Səhiyyə xidməti tədbirlərini həyata keçirmək məqsədi ilə Şamaxı rayonundakı Çağan və İsmayıllı rayonundakı Zərgəran mineral sularından istifadə etməklə sanatoriya –müalicə komplekslərinin yaradılması nəzərdə tutulmuşdur.

İqtisadi rayonda təbiət abidələri də vardır. Bunlara palçıqlar, yanar qaz, istisu təzahürləri və digər geoloji və geomorfoloji obyektlər aiddir. Rayonda bu növ geoloji obyektlərin bəzilərinə rast gəlinir. Bu təbii abidələrdən biri Dədəgünəşdir.

İsmayıllıda şəlalələr də çoxdur: Qalacıq kəndinin yaxınlığındakı şəlalənin hündürlüyü 50 metr, İstisu kəndinin yaxınlığındakı şəlalə - 25 metr, Burovdal kəndinin yaxınlığındakı şəlalə - 50 metr, Müdrüsə kəndinin yaxınlığındakı şəlalənin hündürlüyü 25 metrdir. Babadağın yaxınlığında, dəniz səviyyəsindən 3400-3500 metr yüksəklikdə, bir-biri ilə yanaşı yerləşən üç təbii göl, eləcə də Kürdmaşı və Aşıqbayramlı kəndlərinin yaxınlığında yaradılmış iki süni göl bu rayonun inciləridir. Balıq ovu həvəskarları həmin göllərdə balıq tutmaq imkanlarından istifadə edə bilərlər.

***Tarixi-mədəni turizm ehtiyatları.*** Bölgənin dərketmə turizm obyektləri: Şamaxıdakı Cümə məscidi, Gülüstan qalası, Yeddi Gümbəz məqbərəsi, İsmayıllıdakı qədim qalalar, Pirquludakı Astrofizika rəsədxanası, Lahıcdakı tarixi mədəniyyət qoruğu xarici turistləri maraqlandırır. Dağlıq Şirvanda tarixi-mədəni ehtiyatlarla təminat səviyyəsi ayrı-ayrı rayonlar üzrə müxtəlifliyi ilə seçilir. Bunu regiona daxil olan rayonları öyrənməklə aydın müşahidə etmək olar.

*Şamaxı rayonu.* Şamaxının tarixi çoxsaylı arxeoloji və memarlıq abidələri ilə təmsil edilir: Qoşa minarəli Cümə



məscidi (743-cü il), Şahixəndan məqbərəsi (XV əsr), Pirmərdəkan məqbərəsi (XIII-XIV əsrlər), Kələxanı kəndindəki İmamzadə piri, XVII əsrə aid səkkiz məqbərədən ibarət kompleks, Gülüstan qalasının (XI-XII əsrlər) xarabalıqları və s. XIV əsrdə tikilmiş, yeraltı hamamı olan karvansara kompleksi də böyük marağa səbəb olur. Çuxuryurddan 9 km aralıda Qala-buqurt adlı dağ kəndi yerləşir. Bu kəndin ətrafında sanki sal qayaya bitişik olan əfsanəvi Qala-buqurt istehkamının (XV-XVI əsrlər) xarabalıqları qalmışdır. XIII əsrdə Şirvanşah Şahrux hücum etmiş farslardan burada müdafiə olunmuşdur. Qalanın içərisində şahın sarayı vardır. Qala mükəmməl su təchizatı sisteminə malik idi. İstehkam səddinə tağ şəkilli gizli yolla gətirilən suyu saxlamaq üçün daşdan tikilmiş hovuzlar, su qülləsi və su kəməri vardır.

Gülüstan qalasının xarabalıqları Şamaxının yaxınlığındadır. Şirvan hökmdarlarından biri olmuş Mustafa xanın sarayının qala divarlarının qalıqları Fit dağında ucalır. Şirvan xanlarının uyuduğu Yeddi Qümbəz məqbərəsi (XVIII-XIX əsrlər) yaxşı vəziyyətdə qalmışdır.

Şamaxı qalası - Orta əsrlər Şamaxı şəhərini müdafiə etmək üçün inşa edilmiş qaladır. XI-XII yüzilliklərdə Şirvan şəhərlərinin bir çoxu böyüyüb inkişaf etmiş, bəzilərində müdafiə tikililəri yenidən qurulmuşdu. 1045-ci ildə Şirvanşah Qubad (1043-1049) Şirvanın baş şəhəri Şamaxıya yonulmuş ağ daşdan yeni möhkəm qala divarı çəkdirmiş, dəmir qapılar qoydurmuşdur. Arxeoloqların sabiq sovet dövründə Şamaxıda qazıntılar zamanı aşkar etdikləri divar qalığı Şirvanşah Qubadın tikdirdiyi Şamaxı İçqalasının (Bala qala) qalığı sayılır. Həmin dövrdə Bala qalada Şirvanşahların yeni saray kompleksi inşa edilmişdi. Şamaxının ikinci iç qalası olan Gülüstan qalası da XII əsrdə yenidən qurularaq möhkəmləndirilmişdi. Belə geniş quruculuq işlərindən sonra paytaxt şəhərinə çevrilən Şamaxını o dövrün yazarları dəmir qapılı, daş divarlı alınmaz qala, cah-cəlallı gözəl şəhər kimi təsvir edirlər. Şamaxı

rayonunun Mərəzə kəndində, dağın yamacında tikilmiş Diribaba türbəsi ikimərtəbəlidir. Diribaba türbəsi həm də xatirə məscidi kimi inanc yeridir.

Memarlıq üslubunun orijinallığı, tikinti kompozisiyasının təkraredilməzliyi və təbiət ilə sıx əlaqəsi olduğuna görə abidə Azərbaycan memarlığı tarixində xüsusi yer tutur. Binanın mərtəbələrini bir-birindən ayıran dekorativ yazı kəmərində abidənin tarixi hicri 805 (miladi 1402)-ci il kimi göstərilmişdir.

Azərbaycan tarixində mühüm rol oynamış Şirvanşahlar dövlətinin paytaxtı Şamaxı bu bölgədədir. Şəhər haqqında ilk məlumat yunan coğrafiyaşünası K. Ptolomey tərəfindən verilmişdir. O, qədim Qafqaz Albaniyasının yaşayış məskənləri arasında Şamaxı və ya Kemaxeya adını qeyd edir. Rus, ingilis, fransız və holland səyyahları öz yazılarında və çəkdikləri rəsmlərdə Şamaxının keçmişi haqqında maraqlı məlumatlar verirlər.

Şamaxıdan 12 km şimal-şərqdə, dəniz səviyyəsindən 1400 m yüksəkdə Pirqulu qəsəbəsində Astrofizika rəsədxanası yerləşir. Rəsədxananın güzgülü teleskopu öz böyüklüyünə görə (diametri-2 m) Avropada ikincidir. Teleskop alman mühəndisləri və konstruktorları tərəfindən hazırlanmışdır. Qış mövsümündə Pirqulu ərazisində dağ zirvələri və bütün yayla qarla örtüldüyündən burada dağ xizək idmanı ilə məşğul olmaq olar. Rayonun görməli yerlərinə ekskursiyalar, yay və qış mövsümlərində istirahət etmək müvafiq turist təşkilatları tərəfindən təşkil olunur.

*Ağsu rayonu.* Ağsu rayonunun ərazisi tarixi abidələrlə zəngindir. Rayonda 11-i ölkə və 13-ü yerli əhəmiyyətli olmaqla, 24 tarixi mədəniyyət abidəsi vardır. Bu abidələr arxeoloji cəhətdən eneolit dövründən başlayaraq orta əsrlərin sonunadək olan geniş bir tarixi mərhələni əhatə edir. Rayonun Qırlar kəndində yerləşən Qırlartəpə abidəsi bu ərazidə yaşayışın 7 min il bundan əvvəl başlandığını və uzun müddət davam etdiyini göstərir. Rayonun Nuran, Sanqalan kəndləri



yaxınlığında, Bəyimli kəndi ərazisində antik dövr abidələrinin qalıqları aşkar edilmişdir. Ağsu rayonunun ərazisində XIV-XX əsrlərdə tikılmiş tarixi memarlıq abidələri də üstünlük təşkil edir. Bunlara türbələr, qalalar, məscidlər və s. aiddir. Şeyx Dursun (Ağsu şəhərinin şimal-şərqində, 1457-ci il), Şeyx Əmir Əhməd (Mustafalı kəndi, 1722-ci il), Pir Bəxtiyar (Cavanşır kəndi, XVIII əsrin sonu XIX əsrin əvvəlləri) türbələri, Bilal Əfəndi məscidi (Padar və Külüllü kəndləri ərazisi, 1889-cu il), Xəzinə dağı qalası (Padar kəndi) Qırmızı günbəz və Ağ günbəz (Qaraqoyunlu kəndi, XVII-XVIII əsrlər) və b. bunlara misaldır.

Ağsu şəhərindən 3 km aralıda yerləşən Şeyx Dursun məqbərəsi 1382-ci ildə ucaldılmışdır. 1457-ci ildə ucaldılmış Şeyx Mezid məqbərəsinin daha zəngin görkəmi bundan əvvəl adını çəkdiyimiz abidəni memarlıq üslubuna görə kölgədə qoyur. Şeyx Mezid məqbərəsinin hasarının və interyerinin tərtibatında müxtəlif rəngli kaşıdan istifadə edilmişdir. Şəhərdən bir qədər cənub-qərbdə "Ağ Gunbəz" məqbərəsi, Ağsunun şərqində - XVIII əsrə aid tikililərin xarabalıqları, Gürcüvan kəndində isə Qız Qalası turistlər üçün maraqlı obyektlər sayılır.

*İsmayıllı rayonu.* İsmayıllıda turistlərin rayon haqqında, onun tarixi keçmişi barədə geniş təsəvvür yaradılmasına xidmət göstərən Heydər Əliyev Mərkəzi, 2 tarix - diyarşünaslıq muzeyi, Lahıc və Basqal tarix - mədəniyyət qoruqları vardır. Lahıc qəsəbəsində 108, Basqal qəsəbəsində isə 23 tarixi abidə mühafizə olunur. Bütövlükdə rayon üzrə 233 tarixi və mədəniyyət abidəsi qorunub saxlanılır. 1980-ci ildən muzey-qoruğa çevrilmiş Lahıcda həmin illərdən yadigar qalan məhəllə məscidləri, su kəməri və kanalizasiya (kürəbənd), Girdiman qalası qayğı ilə qorunur, sənətkarlıq ənənələri davam və inkişaf etdirilir. Lahıclılar əsasən misgərlik, dəmirçilik, zərgərlik, xalçaçılıq və digər peşələrlə məşğuldurlar.

İsmayıllı ərazisində Lahıc və Basqal kəndlərində tarix-mədəniyyət qoruqları yaradılmışdır. Buradakı tarixi abidələr mühafizə olunur. Basqal kəndində XVII əsrə aid məscid və hamam, Lahıc kəndində isə Bədöyün məscidi, Zəvəro məscidi (1791-ci il), Ağoli məscidi və Zəvəro bulağı mühafizə olunur. Rayonun başqa yerlərində də çoxsaylı qədim abidələr var. Xanagah kəndindəki Qız Qalası (VII əsr), Sulut kəndində adına rəvayətlər qoşulmuş Fitdağ qalası (XVIII əsr) bu cür abidələrdəndir.

Girdmançayın sol sahilində, dəniz səviyyəsindən 1200 m yüksəkdə yerləşən məşhur Lahıc qəsəbəsi respublika hökuməti tərəfindən tarixi-mədəniyyət qoruğu elan edilmişdir. Bu kiçik qəsəbənin sakinləri əsasən misdən və dəridən tətbiqi məişət əşyalarının hazırlanması, xalçaçılıq və kənd təsərrüfatı ilə məşğul olurlar. Miskərlər və qalayçılar öz əcdadlarının qədim sənətlərini davam və inkişaf etdirirlər. Lahıcda minarəli məscid və yaşayış evləri (XVIII-XIX əsrlər) qorunub saxlanılmışdır. Xarici turistlər tez-tez Lahıca ekskursiyaya gəlirlər.

2011-ci ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən İsmayıllı rayonu "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan olunmuşdur.

İsmayıllı rayonu ərazisində yerləşən Cavanşir qalası Qafqaz Albaniyasında Mehranilər sülaləsinin hakimiyyəti dövründə hökmdar Cavanşir tərəfindən tikilib və qala onun adını daşıyır. Qalanın inzibati mərkəz kimi istifadə olunduğu güman edilir. Qala İsmayıllı rayonunun Talıstan kəndindən 4 km şimalda, Ağcaçayın sağ sahilində yerləşir. Əsas hissə və "içqala"dan ibarətdir. Əsas hissənin cənub divarlarının qalınlığı 2 m, hündürlüyü isə 10 m-dən çoxdur. Düzgün olmayan çoxbucaqlıyla "içqala" dağın ən hündür yerində tikilmişdir. Qalanın şimal qurtaracağında eni 2 m, uzunluğu isə 50 m olan divar çıxıntı var. Divar silindirvari bürclə tamamlanır. Cavanşir qalası müdafiə istehkamıdır. Qaladan təqribən 7 km məsafədə



yerləşən "Qız qalası"na (İsmayıllı rayonu Xanəgah kəndində) yeraltı yolun olması güman edilir. Qalanın həyətində heç yanda tapılmayan nadir güllər və bəzək ağacları bitir. Qalanın qərb divarları sürüşmə nəticəsində uçub dağılmışdır. Sahəsi təqribən 2 ha-dır. Qalada diametri 8 m-ə çatan 6 bürc var. Qalaya getmək üçün Talıstan kəndinə qədər avtomobillə, kənddən qalaya qədər olan 4 km məsafəni isə piyada və ya atla qət etmək olur.

Qız Qalası (VII əsr) mərkəzdən 10 km məsafədə, dik dağın zirvəsində tikilmişdir. Qız Qalası İsmayıllının ən məşhur və ən böyük tarixi abidəsidir. Qala Xanəgah kəndi yaxınlığında, Axox çayının sağ sahilində, sərt yamaclar və sıldırım qayalarla əhatələnmiş dağın üstündə inşa edilmiş müdafiə istehkamıdır. Sahəsi 1,5 ha-dır. İsmayıllı Dövlət Təbiət qoruğunun içərisində, yol kənarından 3 km içəridə yerləşir. Yerləşdiyi dağın üstü elə sıx meşəlikdir ki, əraziyə demək olar ki, gün işığı düşmür. Buna görə də qala həmişə qaranlıq və sərin olur. Bu abidədən bəzi bürc, sədd, divarlar və terras qismən salamat qalıb. Qalanın yaşı müxtəlif mənbələrdə VII, XI-XII əsrlərə aid edilir. Qalaya gedən yolun üstündə eyni adlı istirahət mərkəzinə qədər avtomobillə, daha sonra bir km-lik məsafəni isə piyada qət etmək lazımdır. Qız Qalasına qalxmaq üçün sürətlə axan çayı piyada keçmək lazım gəlir. Qalaya qalxarkən ətrafda yaşayan və ya istirahət mərkəzində çalışan personaldan məsləhət almaq lazımdır. Qala ərazisində şəlalə vardır ki, onun da ətrafı sıx meşəlik ərazi ideal piknik yeridir.

Rayon ərazisində yerləşən Xan qalası (XII – XIII əsr) yerləşir. Bu abidədən yalnız bir neçə metr hündürlüyü olan daş divar qalıb. Qalanın içərisində Şirvan hakimlərinin yay iqamətgahı olub. Haram qalası isə Sulut kəndi yaxınlığında, Haram çayının sağ sahilində, çox da hündür olmayan mənzərəli yerdədir. Yerlilər buraya Qırxqız və ya Qırxotaq da deyirlər. Otaqların sayı 40-dan çoxdur. Rəvayət edirlər ki, Şirvan xanları

hər otaqda bir qız saxlayarmış. Hərəmxana kimi istifadə edildiyindən yerin adı da Haram qalasıdır. Kəndə qədər avtomobillə, daha sonra isə atla və yaxud piyada getmək olar. Girdiman çayının üzərindəki əzəmətli körpüdən keçərək dağlara qalxarkən füsunkar mənzərəni aydın müşahidə etmək mümkündür. Dağların ətəklərinə səpələnmiş kəndlər, boğaz göynədən dağ havası, bir-birinə arxa durmuş dağlar insanı heyran edir. İsmayıllı rayonunun qədim tarixi olan kəndlərindən biri Basqala son illər uzaq yerlərdən gələn turistlərin sayı da artmışdır. Bakının İçərişəhərini xatırladan Basqalın səliqəli, təmiz küçələrinə heyranlıqla tamaşa etməmək mümkün deyildir. Qəsəbənin mərkəzi geniş meydan əsrlər boyu Basqalın mədəniyyət və ticarət mərkəzi olmuşdur. İki məscid, XVI əsrin yadigarı olan hamam, qədim tikililər də bu meydanın ətrafındadır. Bazar meydanından Sayad dağına, Fit dağına və ətraf meşələrə gözəl bir mənzərə açılır. "Qaya" istirahət kompleksi Qaraqaya kəndindən 1 km məsafədə yerləşir. Çox əlverişli mövqedə yerləşdiyi üçün turizm, gəzinti və istirahət üçün gözəl imkanlar yaradır. Müasir üslubda inşa edilmiş 1 mərtəbəli koteclərdə və 4 mərtəbəli mehmanxanada hər növ imkanlar var. Burada biznes, banket, toy məclislərinin keçirilməsi, eləcə də istirahət və əyləncə xarakterli səfərə çıxanlar üçün bütün növ rahatlıqlar yaradılmışdır. Kompleks meşə ərazisində yerləşir. Yaxınlıqda olan, açıq səma altında muzeyi xatırladan qədim Lahıc qəsəbəsi həmişə turistlərin marağına səbəb olur. Onu da qeyd edək ki, bölgədə turizm planlı şəkildə inkişaf etdirilir. Turizm istirahət mərkəzlərinin yaradılması, muzeylərin fəaliyyətinin canlandırılması, xatirə-memorial və memarlıq komplekslərinin, tarixi abidələrin qorunub saxlanılması istiqamətində ardıcıl işlər görülür. Hazırda İsmayıllıda 1085 yerlik 26 mehmanxana və 23 mehmanxana tipli istirahət mərkəzi fəaliyyət göstərir. İstirahət mərkəzlərinin əksəriyyətində turistlər üçün açıq hovuz, tennis, bilyard masaları, biznes mərkəzi, diskoteka və s. xidmətlər var.



Hazırda Talıstan kəndi yaxınlığında 202 yerlik doqquzmərtəbəli "Şeraton hotel" istirahət kompleksi tikilir. Bölgə üzrə yeni marşrutların yaradılması istiqamətində işlər davam etdirilir. Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, "Millenium Tourism Congress DMC" şirkətinin təşkilatçılığı ilə "Azərbaycanda yeni turist marşrutlarını kəşf edək!" infotur layihəsi əsasında "Qırxotaq əfsanəsi" və "Fit dağı əfsanəsi" adlı yeni turizm marşrutları açılmışdır. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün "Xalq yaradıcılığı paytaxtları Proqramı"na uyğun olaraq keçirilən müsabiqədə İsmayıllı rayonu 2011-ci il üçün "Azərbaycanın sənətkarlıq paytaxtı" elan olunmuşdur. Bütün bunlar İsmayıllı rayonunun turizm perspektivinin nə dərəcədə yüksək olduğunun əyani sübutudur.

*Qobustan rayonu.* Qobustan rayonu respublikamızın Şirvan tarixi vilayətinin inzibati rayonlarından biridir. Məşhur Şıx düzü kurqanları, b.e.ə. 1-8-ci əsrlərə aid olan, indiki Dağ Kolani kəndinin qədim ticarət yollarında yerləşmiş qədim insan məskənlərinin qalıqları, şəhərin ətrafındakı Diri Baba türbəsi (15-ci əsr); şəhərin mərkəzində yerləşən Şah Abbas karvansarasının qalıqları göstərir ki, bu yerlərdə ən qədim dövrlərdə insan məskənləri olmuşdur.

Qobustan Dövlət tarixi-bədii Milli qoruğu – Azərbaycan ərazisində arxeoloji abidələr kompleksinin mühafizə edildiyi qoruqdur. Milli qoruq Qaradağ rayonunun Qobustan qəsəbəsində, paytaxt Bakıdan 56 km aralıda yerləşir. Qoruq əsasən üç dağın (Böyükdaş, Kiçikdaş və Cingirdağ) yerləşdiyi böyük bir ərazini əhatə edir. Burada həm də muzey fəaliyyət göstərir. Qoruqda əsasən Mezolit (orta daş dövrü) abidələri sərgilənir. Burada mağaralar, bulaqlar və s var. Azərbaycanın ən qədim və zəngin tarixi abidələrindən biri də dünyada qayaüstü təsvirlərlə tanınmış Qobustandır. Qobustanda Böyükdaş, Kiçikdaş, Cingirdağ, Sonqardağ və Şıxqaya dağlarında daş dövrünün və Azərbaycan xalqının ulu

keçmişinin şahidləri olan çoxlu qayaüstü təsvir, düşərgə, yaşayış məskəni, qəbir abidələri və s. vardır. Böyükdaş ərazisində mezolitdən orta əsrlərə qədər bütün dövrlərin abidələrinə rast gəlmək olar. Qobustan abidəsi bir də onunla maraqlıdır ki, burda insan həyatı təxminən eramızdan əvvəl onuncu minilliklərdən başlayaraq ta XVIII əsrə qədər ardı-arası kəsilmədən davam etmişdir.

Qobustan rayonunda çox sayda tarixi abidələr qorunub saxlanır. Onlardan ən mühümləri - Diribaba məqbərəsi (1402-ci il), Şah Abbas karvansarası, Şeyxbərgü abidələri, Şeyx düzü kurqanlarıdır. Mərəzənin mərkəzində yerləşən Şah Abbas karvansaralarının bərpaya ehtiyacı vardır. Şeyxbərgü abidələri b.e.ə. I əsrdən eramızın VIII əsrinə qədər Şamaxı ilə Təbrizi birləşdirən ticarət yolları boyunca mövcud olmuş insan məskənlərinin qalıqlarıdır. Dağ kolanı kəndinin yaxınlığında yerləşən bu xarabalıqlar arxeoloqlar tərəfindən 1961-ci ildə aşkar edilmişdir. Şeyx düzü kurqanları tarixən Şıx düzü adlanan ərazidə yerləşən üç kurqandan ibarətdir.

Beləliklə, Dağlıq Şirvan iqtisadi rayonunda tarixi-mədəni abidələrin rekreasiya baxımından ümumi halda səciyyəsindən aydın olur ki, bu abidələrin müxtəlifliyi, mühafizəsi, turizm fəaliyyətinə daha çox cəlb edilməsinə görə İsmayıllı və Şamaxı rayonları Ağsu və Qobustanla müqayisədə nisbətən daha çox seçilir.

### 14.3. *Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti*

Dağlıq Şirvan iqtisadi rayonuna səfər edən turistlər haqqında son illərdə məlumat yoxdur. Lakin, 2006-cı ildə bu regiona yerləşdirilmiş turistlərin sayının 610 nəfər olduğu göstərilmişdir. Nəzərə alsaq ki, bu bölgədə İsmayıllı, Şamaxı rayonlarında turizmin inkişafı məqsədilə infrastruktur obyektlər şəbəkəsi genişləndirilir, bu halda bölgəyə səfər edən



turistlərin sayının artmasına şübhə qalmır. Səfər edənlərin əksəriyyəti istirahət və işgüzar məqsədlə gələnlərdir (cəd., 14.2). Bu sahədə Şamaxı və İsmayıllı rayonları xüsusilə seçilir.

**Cədvəl 14.2**

**Dağlıq Şirvan iqtisadi rayonu üzrə səfərlərin məqsədinə görə yerləşdirilmiş şəxslərin sayı, nəfərlə (2014-cü il)**

| İnzibati rayon və şəhərlər | Cəmi | Turizm məqsədilə | İstirahət, əyləncə | İşgüzar səfər | Müalicə turizmi | Digər turizm | Digər məqsədlə |
|---|---|---|---|---|---|---|---|
| **Ölkə üzrə cəmi:** | *672345* | *550643* | *237506* | *206234* | *70981* | *35922* | *121702* |
| **İqtisadi rayon üzrə cəmi** | **14619** | **14384** | **12529** | **1855** | - | - | **235** |
| İsmayıllı rayonu | 6132 | 6132 | 4277 | 1855 | - | - | - |
| Ağsu rayonu | 235 | - | - | - | - | - | 235 |
| Şamaxı rayonu | 8252 | 8252 | 8252 | - | - | - | - |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Turistləri yerləşdirmə müəssisələri ilə təminat səviyyəsinə görə Azərbaycan üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə olan nömrələrin 3,7%-i, birdəfəlik tutumun 4,3%-i Dağlıq Şirvan turizm bölgəsinin payına düşür (2014-cü il).

Cədvəl 14.3

**Dağlıq Şirvan iqtisadi rayonunda yerləşdirmə müəssisələrinin ümumi iqtisadi göstəriciləri (2014-cü il)**

| **İnzibatı rayon və şəhərlər** | **Yerləşmə vasitələrində nömrələrin ümumi sayı, vahid** | | **İstismardan əldə olunan gəlir, min manat** | |
|---|---|---|---|---|
| | **2010** | **2014** | **2010** | **2014** |
| **Ölkə üzrə cəmi:** | **14158** | **17363** | **105888,8** | **181047,3** |
| **İqtisadi rayon üzrə cəmi:** | **553** | **671** | **698,8** | **1755,5** |
| İsmayıllı rayonu | 268 | 304 | 291,3 | 599,4 |
| Ağsu rayonu | 45 | 45 | - | 5,7 |
| Şamaxı rayonu | 240 | 322 | 407,5 | 1150,4 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Dağlıq Şirvan iqtisadi rayonunda turistləri yerləşdirmə müəssisələrində nömrələrin sayına görə Şamaxı rayonu (332) liderdir. İqtisadi rayonda istirahət mərkəzləri və yerləşdirmə müəssisələrinin sayı ildən-ilə artır. Mehmanxana və ona oxşar yerləşdirmə müəssisələri sahəsində quruculuq işləri 2011-2015-ci ildə daha sürətlə aparılmışdır. Bunu son 5 ildə iqtisadi rayonda avropa standartlarına cavab verən otellərin ("Palace Platinum By Rixos", "Şirvan Hotel & SPA", "Şato Monolit") tikilib istifadəyə verilməsi sübut edir. Lakin onu da qeyd etməliyik ki, İsmayıllı və Şamaxı rayonlarının kəndlərində 2006-2010-cu illərdə istirahət mərkəzləri və yerləşdirmə



müəssisələri şəbəkəsinin genişləndirilməsində intensivlik olmuşdur.

Dağlıq Şirvanın Ağsu və Qobustan rayonlarında bu sahədə artım tempi hələ zəifdir. Respublika prezidenti İlham Əliyevin Azərbaycanın bölgələrində quruculuq işləri ilə daim maraqlanması, yerləşmə müəssisələrinin açılışında iştirakı Dağlıq Şirvan iqtisadi rayonunda yerləşmə müəssisələri şəbəkəsinin genişləndirilməsi istiqamətində aparılan işləri sürətləndirir. Şübhə yoxdur ki, Ağsu, Qobustan rayonlarında da bu sahədə inkişafı sürətləndirəcək. Dağlıq Şirvan bölgəsində inzibatı rayonlar üzrə yerləşmə müəssisələri ilə təminat səviyyəsinə nəzər salaq.

İsmayıllı Azərbaycanın ən gözəl turizm mərkəzlərindəndir. Turizmin inkişafı ilə əlaqədar Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı 2004-2008-ci illərdə rayonun Sumağallı kəndi yaxınlığında 110 yerlik "Green House", İsmayıllı şəhərində 8 otaqdan ibarət 36 yerlik "Məhsul" və 10 binadan ibarət 40 yerlik "Çıraqban", Talıstan kəndində 60 yerlik "Şahbulaq", Qaraqaya kəndi yaxınlığında 100 yerlik 39 otaqdan ibarət "Qaya" və 30 yerlik "Kələmərc", Xanağah kəndi yaxınlığında 50 yerlik "Qız qalası", Zərgəran kəndində 3 otaqdan ibarət "Zərgəran", İsmayıllı-Qəbələ yolunun kənarında 8 yerlik "Orman" və 5 otaqdan ibarət 20 yerlik "Şəlalə" istirahət mərkəzləri tikilib istifadəyə verilmişdir. Rayonun Talıstan kəndi ərazisində 502 yerlik turizm istirahət kompleksi inşa olunmuşdur. İsmayıllı rayonunda, İlisu kəndi yaxınlığında yerləşən "Green House" kompleksi ailəvi istirahət üçün əlverişli məkandır. Qızmar yay günlərində təbiətin qoynunda, istirahət məqsədli rekreasiya yeridir.

Məkanın ərazisində restoran, hovuz, əyləncə üçün uşaq meydançası, bilyard, tennis, futbol, voleybol meydançaları, avtomobil dayanacağı mövcuddur. "Gaya Resort Centre" İsmayıllı rayonunun Qaraqaya kəndindən bir kilometr

məsafədə yerləşir. Otelin əlverişli mövqeyi dəyərli istirahətdən zövq almağa imkan verir. Müasir tərzdə tikilmiş otel 4 mərtəbəli binadan və istirahət üçün zəruri olan avadanlıqla təchiz olunmuş koteclərdən ibarətdir.

"Şato Monolit" İsmayıllı rayonunda, Hacıhətəmli kəndində yerləşmişdir. Oteldə restoran, bar, banket zalı, hovuz, fitnes klub, trenajor zalı, sauna vardır. Turistlərə həmçinin, ekskursiyalar, atla gəzintilər, balıq ovu, şərabların dequstasiyası təklif olunur. 13 eleqant nömrə və 4 komfortabelli kottec turistlərin ixtiyarındadır.

Şahbulaq istirahət mərkəzi İsmayıllı rayonun Talıstan kəndində yerləşir. 2008-ci ildən fəaliyyət göstərir. Bu istirahət Mərkəzi gözəl təbiəti olan coğrafi məkandadır. və yüksək xidməti ilə turistləri özünə cəlb edir. 15 kottecin hər birində 2 otaq olmaqla 60 nəfər turisti qarşılamaq imkanı var.

Dağlıq Şirvan iqtisadi rayonunda mehmanxana və mehmanxana tipli müəssisələrin əksər göstəriciləri üzrə birinci yerdə olan Şamaxı rayonunda yenidən bərpa olunmuş köhnə mehmanxanalarla yanaşı, həm də yeni dəbdəbəli otellər, istirahət mərkəzləri turistlərə öz xidmətlərini təklif edir. Rayonda "Magic world" cəlbedici istirahət zonasında, Pirqulu qəsəbəsində "Fortuna" turist bazasında istirahət üçün hər cür şərait yaradılmışdır. "Şərədil" istirahət mərkəzində 5 ulduzlu otel, "Fəxriguşə" istirahət mərkəzinin bazasında və Pirqulu zonasında müasir standartlara cavab verən yeni turizm obyektləri tikilmişdir.

Azərbaycanın turizm-rekreasiya imkanlarına görə zəngin olan, həm də respublikamızın tarixi məkanlarından sayılan Şamaxı şəhərinin mərkəzində müasir tələblərə cavab verən yeni "Şirvan Hotel & SPA" inşa edilmışdir. Xüsusi eleqantlıq və müasir dəbdəbənin nümunələrindən olan "Şirvan Hotel & SPA" Bakıdan çox da uzaq olmayıb 120 km məsafədə yerləşir. Otel dəniz səviyyəsindən 749 m. yüksəklikdədir. O, işgüzar turizm və istirahət üçün əlverişli cografi mövqeyə malikdir.



"Şirvan Hotel & SPA" 2012-ci il iyul ayından fəaliyyət göstərir. Bu otel 2 King suit, 28 junior suit, 8 standart otaq olmaqla 38 otaqdan ibarətdir. Oteldə həmçinin qapalı hovuz, idman və sağlamlıq mərkəzi vardır.

Şamaxı rayonunda ikinci dəbdəbəli otel "Şamaxı Palace Platinum By Rixos"-dur. O, respublikamızda fəaliyyət göstərən 3 "Rixos" oteldən biridir: "Rixos Naftalan", "Rixos Quba" və "Şamaxı Palace Platinum By Rixos". Otel altımərtəbədən, 102 otaqdan ibarətdir. Otaqlardan 82-si "Delux", 9-u "Suite", 8-i "King-suite", 3-ü isə "Presidential suite"dir. Palace Platinum by Rixos otelinin açılışı 2014-cü il may ayında olmuşdur. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev bu təntənəli tədbirdə iştirak etmişdir. Otel kompleksi ilə tanışlıqdan sonra respublika prezidenti kollektivlə görüş-müşdür. Dövlət başçısı öz çıxışında oteli saraya bənzətmiş, onun xarici görünüşü, daxili dizaynı, rahatlığının ən yüksək səviyyədə olduğunu vurğulamışdır. O, oteldə ən yüksək standartlar tətbiq edildiyini, otaqların genişliyini, rahatlıq və istirahət üçün gözəl imkanların olduğunu söyləmişdir. Dövlət başçısı "Rixos" kimi dünya miqyaslı şirkətin bu oteldə xidmət göstərəcəyindən öz məmnunluğunu bildirmişdir. Qeyd etmişdir ki, bu, "Şamaxı Palace Platinum by Rixos" Azərbaycanda artıq üçüncü oteldir ki, "Rixos" şirkəti onu idarə edir.

Beləliklə, turistlərin istirahətinin yüksək səviyyədə təmin olunduğu bu oteldə yaradılan şərait bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün ölkə üzrə turizm marşrutlarının müəyyənləşdirilməsi və bölgələrdə bununla bağlı genişmiqyaslı tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Təsadüfi deyildir ki, son bir neçə ildə beşulduzlu otellərin açılması ilə dünyanın ən məşhur otel brendləri Azərbaycana gətirilmiş və bu proses ardıcıl olaraq davam etdirilir.

"Şamaxı Palace Platinum by Rixos" oteli təkcə Şamaxı rayonda deyil, həm də Dağlıq Şirvan iqtisadi rayonu üçün

əhəmiyyətli turizm obyektidir. Mükəmməl infrastruktura malik bu otel kompleksindəki şərait böyük turizm potensialına malik olan Şamaxıda turistlərin yüksək səviyyədə qəbulu üçün geniş imkanlar açmışdır.

Şamaxı rayonunun kəndlərinin təbiəti o qədər gözəldir ki, bu kəndlərin əksəriyyətində istirahət turizmi üçün hər cür imkan yaratmaq mümkündür. "Şərədil" oteli eyni adlı kənddə yerləşir. Otelin yerləşdiyi ərazi təbiətinin füsunkarlığı ilə seçilir. Oteldən ətrafdakı meşələrə açılan mənzərə, saf hava istirahət və əyləncə üçün əlverişlidir. "Şərədil" otelində standart, kotec və VİP otaqlar vardır.

Dağlıq Sirvan iqtisadi rayonunda turizm-rekreasiya potensialı nisbətən zəif olan Qobustan rayonunda da beynəlxalq standartlara cavab verən istirahət mərkəzləri salınır, otellər inşa edilir və istifadəyə verilir. Bunlardan biri də Qobustan Bağ-Bağat Mərkəzidir. İstirahət mərkəzində Qobustan sakinlərinin qonaqların və turistlərin istirahətinin səmərəli təşkili üçün gözəl şərait yaradılmışdır. Ərazidə üç istirahət meydançası yaradılmış, müxtəlif attraksionlar quraşdırılmışdır. Buradakı iki süni göl baxımlıdır və istirahətin maraqlı keçməsinə xidmət edir. Zövqlə əkilmiş göz oxşayan ağac və gül kolları mərkəzdə istirahət edənlərdə xoş təəssürat yaradır. Mərkəzdə gecələmək və yaxud istirahət etmək istəyənlər üçün dördmərtəbəli otel tikilir. İnşası başa çatmaqda olan bu otel ən müasir standartlara cavab verəcəkdir.

Respublika Prezidenti İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində ölkəmizin bütün bölgələri kimi, Dağlıq Şirvan iqtisadi rayonunda da insanların istirahəti üçün şərait yaradılması istiqamətində quruculuq işləri davam etdirilir.

Dağlıq Şirvan regionunda turizmin inkişafı nəqliyyat amili ilə sıx bağlıdır. Nəqliyyat infrastrukturu ilə təminat səviyyəsinə görə Dağlıq-Şirvan iqtisadi rayonu inkişaf edib, geniş nəqliyyat şəbəkəsinə malikdir. Bakı-Tiflis dəmir yol



magistralı MDB ölkələri ilə iqtisadi əlaqələr yaratmağa imkan verir. Dəmir yolunu maqistral və yerli əhəmiyyətli avtomobil yolları tamamlayır. Ölkənin paytaxtını qərb rayonları ilə birləşdirən Bakı-Qazax magistral avtomobil yolu rayon ərazisindən keçir. Avtomobil yollarının ümumi uzunluğu 1276 km-dir. Bu göstəriciyə görə İsmayıllı və Şamaxı rayonları irəlidədir.

Lakin onu da qeyd etməliyik ki, bəzi avtomobil yollarının (xüsusilə rayon mərkəzləri ilə dağ kəndləri arasında) yararsız halda olması (təbii sürüşmə hadisəsi ilə əlaqədar olaraq) turizm üçün əlverişsizdir və bütövlükdə sosial inkişafı ləngidir.

Dağlıq Şirvan iqtisadi rayonunun sosial-iqtisadi inkişafına təsir göstərə biləcək istiqamətlərdən biri də avtomobil yollarının müasir səviyyədə yenidən qurulmasıdır. Əgər bu problem həll olunarsa, iqtisadi rayonun turizm sektoru daha dinamik inkişaf edəcəkdir.

Ümumiyyətlə, Dağlıq Şirvan bölgəsinin turizm imkanları perspektivlidir. Şamaxının turizm potensialı ovçuluq, idman, ekoloji, dərketmə turizm növlərinin inkişafı üçün çox faydalıdır. Çaylarda balıq ovunun təşkili, qədim abidələr, həmçinin Pirqulu qəsəbəsindəki astrofzika rəsədxanası turistlərin diqqətini çox çəkən məkanlardır. Pirqulu qoruğundakı nadir fauna və flora növləri ekoturların təşkili üçün potensial ehtiyatlar hesab olunur.

Əhalinin mədəni istirahətində regionda turizmin böyük rolu vardır. İsmayıllı rayonunun Qaraqaya kəndində "Kələmərc", İsmayıllı şəhərindəki "Məhsul" istirahət mərkəzi yaradılmışdır. Xanagah kəndi yaxınlığında "Qız qalası" istirahət mərkəzi, Sumaqallı kəndində "Grelen House" istirahət kompleksi, Lahıc qəsəbəsində "Lahıc" Turizm İnformasiya Mərkəzi yaradılmışdır. İsmayıllı şəhəri yaxınlığında "Şirin su" turizm kompleksi tikilmişdir.

İqtisadi rayonda aparılan quruculuq işləri yerli təbii imkanlar və sərvətlərdən geniş istıfadə etməklə əhalinin işlə təminatında xeyli dəyişikliklərə səbəb olmuşdur. Ümumi inkişafla əlaqədar 2330 km$^2$ sahədə "Şahdağ parkı" proqramının yerinə yetirilməsi İsmayıllı, Ağsu və Şamaxı rayonlarının dağlıq hissəsində xüsusi ilə idman və dağ turizminin inkişafı nəticəsində 30 min nəfər kənd əhalisinin işlə təmin olunması nəzərdə tutulur. Bu proqrama görə, qiymətli heyvanlar, dərman bitkiləri, ənənəvi sənətkarlıq iş yerlərinin yaradılması, dağ kəndlərinin bərpası, dağ havasının saflığı ilə yanaşı, mineral müalicə sularının istifadəsi də turizm xidmətini genişləndirəcəkdir.

Beləliklə, Şamaxı və İsmayıllı turizmin inkişafı üçün daha zəngin imkanlara malikdir. Bu rayonların Pirqulu, Çuxuryurd (Şamaxı), Lahıc, Baskal (İsmayıllı) və digər kəndlərində ekoturizm fəaliyyəti üçün əlverişli təbii imkanlar vardır. Mənzərəli təbii landşaftları, dağ meşələri, mineral sular və digər rekreasiya ehtiyatları ilə zəngin olan bu rayonlar ekoturizmin bəzi növləri (təbiət, kənd, dərketmə turizmi) üçün perspektivli sayılır. İqtiasdi rayonda maraqlı ekoturlar təşkil etmək imkanı var. Şamaxı, Lahıc, İsmayıllı Milli parkları belə ərazilərdəndir.

Digər tərəfdən, iqtisadi rayonda turizm infrastrukturunun yaradılması hələ davam etdirilir. Rayonda nəqliyyat-rabitə sistemi ecazkar təbiəti və qədim tarixi olan kəndlərdə (Lahıc, Basqal, və s.) qənaətbəxş səviyyədə deyildir. İqtisadi rayonda elə ərazilər vardır ki, perspektivdə həmin yerlərdə turizmi inkişaf etdirmək olar. Qobustan rayonu qədim tarixə malik və turistlər üçün cəlbedici olan maddi-mədəni irslə zəngin ərazidir. Lakin, rayonun turizm baxımından inkişafı uzun illər burada yerləşmə müəssisələrinin olmaması səbəbindən ləngimişdir. Rayonda kirayəyə verilən evlərdə gecələmək mümkündür. Dağlıq Şirvan bölgəsinin Qobustan rayonunda insanların istirahəti üçün şərait yaradılması istiqamətində aparılan tədbirlərdən biri də "Bağ-Bağat" istirahət mərkəzində "Qobuland" otelinin yaradılmasıdır.



# XV FƏSİL
# ARAN İQTİSADİ RAYONU

## 15.1. Rayon haqqında ümumi coğrafi məlumat

Azərbaycan Respublikasının mərkəzi və şərq hissələrini əhatə edən Aran iqtisadi rayonunun ərazisi 21,1 min kv. km-dir. Sahəsinə görə respublika ərazisinin 24,4%-ni təşkil edir. İqtisadi rayonun tərkibinə Ağdaş, Ucar, Göyçay, Kürdəmir, Hacıqabul, Zərdab, Bərdə, Ağcabədi, Beyləqan, İmişli, Saatlı, Sabirabad, Biləsuvar, Salyan, Neftçala inzibati rayonlarının və Yevlax, Mingəçevir, Şirvan şəhərlərinin əraziləri daxildir (cəd., 15.1).

**Cədvəl 15.1**

**Aran iqtisadi rayonunun tərkibi, ərazisi, əhalisi**

| **İnzibatı rayon və şəhərlər** | **Ərazi, min kv. km** | **Ölkə ərazisinə görə, %-lə** | **Əhalinin sayı, min nəfər (01.01.2015-ci il)** | **Ölkənin ümumi əhalisinə görə, %-lə** |
|---|---|---|---|---|
| **Azərbaycan Respublikası** | **86,6** | **100** | **9593,0** | **100** |
| **Aran iqtisadi rayonu - cəmi:** | **21,15** | **24,42** | **1936,0** | **20,1** |
| Göyçay rayonu | 0,74 | 0,85 | 115,8 | 1,2 |
| Beyləqan rayonu | 1,13 | 1,30 | 93,7 | 0,97 |
| Ağcabədi rayonu | 1,76 | 2,03 | 130,3 | 1,3 |
| Bərdə rayonu | 0,95 | 1,09 | 151,2 | 1,57 |

**Cədvəl 15.1-in davamı**

| | | | | |
|---|---|---|---|---|
| Neftçala rayonu | 1,45 | 1,67 | 84,9 | 0,88 |
| Biləsuvar rayonu | 1,36 | 1,57 | 97,4 | 1,0 |
| Salyan rayonu | 1,60 | 1,84 | 131,8 | 1,37 |
| Yevlax rayonu | 1,47 | 1,69 | 124,6 | 1,29 |
| Mingəçevir şəhəri | 0,14 | 0,16 | 101,6 | 1,05 |
| Ağdaş rayonu | 1,02 | 1,17 | 105,5 | 1,09 |
| Ucar rayonu | 0,83 | 0,95 | 84,1 | 0,87 |
| Zərdab rayonu | 0,86 | 0,99 | 56,5 | 0,58 |
| Kürdəmir rayonu | 1,63 | 1,88 | 111,6 | 1,16 |
| İmişli rayonu | 1,89 | 2,18 | 123,6 | 1,28 |
| Saatlı rayonu | 1,18 | 1,36 | 101,8 | 1,06 |
| Sabirabad rayonu | 1,47 | 1,69 | 167,5 | 1,74 |
| Hacıqabul rayonu | 1,60 | 1,84 | 71,2 | 0,74 |
| Şirvan şəhər ə/d | 0,07 | 0,08 | 82,9 | 0,86 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Rayonun ərazisi Kür-Araz ovalığının sərhədlərinə uyğun gəlir. Aran iqtisadi rayonunun mövqeyi əlverişlidir. O, turizm-rekreasiya cəhətdən sürətlə inkişaf edən Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Dağlıq Şirvan iqtisadi rayonları ilə həmsərhəddir. Cənub-şərqdə rayonun ərazisi Xəzər dənizi ilə əhatə olunur. Digər tərəfdən isə cənubda Araz çayı və Muğan düzü vasitəsilə İran İslam Respublikası və Lənkəran iqtisadi rayonu ilə həmsərhəddir. Republikanın mərkəz hissəsində yerləşməklə ölkənin 6 iqtisadi rayonu ilə birbaşa əlaqəsi vardır. Rayonun əlverişli iqtisadi-coğrafi mövqeyi və zəngin təbii



ehtiyatları onun digər iqtisadi rayonlardan üstünlüyünü müəyyən edir. Rayonun əlverişli iqtisadi, siyasi-coğrafi mövqeyi onun sosial-iqtisadi inkişafına, daxili və xarici iqtisadi əlaqələrinin genişlənməsinə, xammal, əmək ehtiyatları və nəqliyyat-kommunikasiya sistemlərindən səmərəli istifadə etməsinə imkan yaradır. Avropa-Asiya nəqliyyat dəhlizinin-tarixi İpək yolunun, Bakı-Tbilisi-Qars dəmir yolunun rayon ərazisindən keçməsi turizm əlaqələrinin genişlənməsində də mühüm rol oynayacaqır.

Aran rayonunun əlverişli nəqliyyat coğrafi mövqeyi onun turizm əlaqələrində də mühüm rol oynayır. Rayon respublikamızın 4 əsas marşrutlarından biri olan Bakı-Qazax turizm marşrutu və həm də tarixi İpək yolu üzərində yerləşir. Respublikamızın qərbinə doğru istiqamətlənmiş və 11 inzibati rayonun ərazisindən keçən bu marşrutun uzunluğu 510 km-dir. Qərb istiqamətində Bakı-Ağstafa-Tbilisi, Bakı-Yevlax-Balakən və s. dəmir yolları rayon ərazisindən keçir.

Aran iqtisadi rayonunun əhalisinin sayı 1,9 mln. nəfərdir (respublika əhalisinin 20,1%-i). Bu göstəriciyə görə Abşeron iqtisadi rayonundan sonra ikinci yerdədir. Əhalinin sayına görə ən iri - Sabirabad (167,5 min nəfər) və ən kiçik - Zərdab (56,5 min nəfər) inzibati rayonlarıdır (cəd., 15.1). Rayonda şəhər əhalisi əsasən Şirvan, Mingəçevir, Yevlax, Salyan və Neftçala yaşayış mərkəzlərindədir.

Bölgədə sənaye və kənd təsərrüfatı sahəsində fərdi sahibkarlıqla məşğul olanların sayı getdikcə artır. Sənaye və kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi üçün xammal və əmək ehtiyatları boldur. Rayonda üzümçülüyün, subtropik meyvəçiliyin, bostançılığın ixisaslaşmış sahə olması bölgəyə səfər edən turistlər üçün də əhəmiyyətli sayılır. Çünki, turistlərə xidmət göstərən iaşə obyektlərində yerli xammaldan istifadə ucuz başa gəlir və bu isə əslində turistin xərcində öz əksini tapmalıdır. Təəssüflər olsun ki, bölgənin əksər rayonlarında, xüsusilə magistral yolların kənarındakı iaşə

müəssisələrində istər yerli, istərsə də əcnəbi turistlər bunun əksi ilə rastlaşırlar.

Turizmin inkişafı sosial infrastrukturun vəziyyətindən də asılıdır. Bu baxımdan Aran iqtisadi rayonunda ticarət və məişət xidməti, kommunikasiya sistemi, mədəni-maarif müəssisələri (diyarşünaslıq muzeyləri, Milli parklar və s.) quruculuğu sahəsində əsaslı dəyişikliklər olmuşdur. Bu isə təkcə turistlər üçün deyil, həm də rayon əhalisinin asudə vaxtlarının və istirahətinin səmərəli təşkilində xüsusilə əhəmiyyətlidir.

## 15.2.Rayonun turizm-rekreasiya ehtiyatları

***Təbii rekreasiya ehtiyatları.*** Böyük və kiçikliyindən asılı olmayaraq hər bir rayonda ehtiyatlar (torpaq, su, bitki örtüyü, müxtəlif tikililər və s.) vardır. Bəzən bunlar çox cəlbedici görünür, bəzən isə əksinə. Deyilənlər ilk növbədə flora, fauna, iqlim, tarixi-mədəni abidələr, hətta insan resurslarına da aiddir. Yerli əhali nəsildən-nəslə bu ehtiyatlardan istifadə edərək, bununla öz tələbatlarını bu və ya digər dərəcədə ödəyirlər. Bəzən bu istifadə düşünülmüş, bəzən isə ifrat dərəcəsində olur. Təbii ehtiyatlardan düşünülməmiş istifadə tuqay meşələrinin qırılmasında daha aydın hiss olunur.

Təbiətinə görə Aran iqtisadi rayonu Böyük və Kiçik Qafqaz dağlarının arasında, Kür-Araz ovalığında yerləşir. Ovalığın səthi hamardır və rayonun Xəzər dənizi sahili əraziləri dünya okeanı səviyyəsindən -28 m aşağıda yerləşsə də, bu ərazidə bir sıra tirələr və təpəliklər vardır (Mişovdağ, Kürsəngi, Düzdağ, Murovdağ, Böyük Hərami silsiləsi, Cənub-Şərqi Şirvanda sönmüş və fəaliyyətdə olan palçıq vulkanları). Kür çayı Kür-Araz ovalığını 2 hissəyə bölür. Kürün sağ sahillərində Şirvan, aşağı axına doğru isə cənub-şərqi Şirvan düzləri yerləşir. Sağ sahilində Qarabağ düzü, Kür və Araz çayları arasında Mil düzü, cənub hissələrində isə Muğan düzü yerləşir. Kürün aşağı



sağ sahili hissəsi Salyan düzünə aiddir. Mingəçevir su anbarının cənubda yerləşən Bozdağ silsiləsinin şərq yarısı Aran iqtisadi rayonunun ərazisinə aiddir. Bozdağın ən yüksək hissəsi Qazam dağı (500 m) buradadır. Mingəçevir su anbarının şimalındakı Xocaşen (609 m) və Xoşaləng silsiləsi, Qaraməryəm tirəsinin qərb kənarları Aran iqtisadi rayonunun ən yüksək ərazilərindəndir.

Aran iqtisadi rayonunun təbii rekreasiya sərvətlərinə Kür çayı hövzəsinin Tuqay meşələri, burada təşkil olunmuş Şirvan və Ağgöl Milli parklarında, Türyançay və Qızılağac dövlət qoruqlarında, yasaqlıqlarda və ovçuluq təsərrüfatlarında qorunan və artırılan flora və fauna aləmi aiddir.

Bəzən elə təsəvvür yaranır ki, aran meşə landşaftı yüksək dağlıq ərazilərin landşaftı ilə müqayisədə rekreasiya cəhətdən cəlbedici ola bilməz. Lakin Azərbaycanın quru subtropik düzənliklərinin yarımsəhra landşaftı arealı daxilində ara-sıra inkişaf edən meşə kompleksləri cəlbedicidir. Görkəmli coğrafiyaşünas alim M.M.Müseyibovun araşdırmalarında göstərilir ki, keçmişdə aran meşələri şimal-şərqi Azərbaycanda Şabran (əvvəlki adı Dəvəçi) limanından Samur çayına qədər sahil ovalığını, Qanıx-Əyriçay vadisini, Şirvan və Qarabağ çaylarının gətirmə konuslarının orta və aşağı hissələrini, Qarayazı düzünü əhatə edirdi. Hazırda isə aran meşələri landşaftının sıradan çıxmasının səbəbi kimi antropogen amilin təsiri göstərilir. Aran meşələrində yayılmış ağac növləri əsasən qovaq, qarağac, uzunsaplaq palıd və s.-dir. Aran meşələri kompleksindən fərqli olaraq, tuqay meşələri yalnız çaylar boyu inkişaf edir və onların mövcudluğu əsasən çayların su rejimindən asılıdır.

Əvvəllər Aran rayonunda xüsusi landşaft-ekoloji sistem yaradan tuqay meşələri XIX əsrin 2-ci yarısından antropogen təsirə məruz qalmağa başlayır. Ona görə də hazırda əsl təbii tuqay meşə landşaftına rast gəlmək çətindir. Aran iqtisadi rayonunda tuqay meşələri talalar şəklində Kür çayının sol və

sağ sahilində, əsasən Yevlax-Körpükənd, az miqdarda Zərdab-Məmmədli, Mollakənd-Hacalı kəndləri arasında, Sabirabaddan aşağıda isə çox məhdud sahələrdə qalmaqdadır və bunlar təbii antropogen komplekslərdir. Kür qırağının tuqay meşələri kompleksindən məhrum olan sahələrində palıd, qovaq ağaclarına, çox yerdə söyüdlüklərə, yeraltı suların çox dayazda yerləşdiyi sahələrdə yulğunluqlara rast gəlmək mümkündür.

İqlimin rekreasiya və kurort cəhətdən əhəmiyyətini nəzərə almaqla rayonun iqlim şəraiti və onun istirahətin təşkilində rolu xüsusi əhəmiyyətə malikdir.

Azərbaycanda kurort iqlimşünaslığının inkişaf etdirilməsi haqqında ötən əsrin 1985-1990-cı illərində iqlimşünas alim Ə.C.Əyyubov öz əsərlərində fikirlərini qeyd edərək sübut etməyə çalışırdı ki, respublikada sağlamlıq ocaqlarının iqlimi lazımi səviyyədə öyrənilməlidir. Lakin əfsuslar olsun ki, bu problemlə hələ aidiyyatı olan elmi-tədqiqat müəssisələrində tədqiqatlara başlanılmamışdır. Məlumdur ki, Kür-Araz ovalığı subtropik zonada yerləşir. Geniş ərazi tutmasına baxmayaraq kurort ehtiyatlarından hələ zəif istifadə edilir. Bunun əsas səbəblərindən biri həmin ərazidə yay aylarında isti diskomfort şəraitin üstün olmasıdır. İl ərzində günəşli günlərin sayına görə zona Abşeron yarımadasından geri qalmır. Lakin iqlimi kontinental olduğuna görə yayı daha isti, qışı isə nisbətən soyuqdur, ən əlverişli hava şəraiti aprel-iyun və sentyabr-oktyabr aylarında olur. Həmin aylarda az buludlu hava (30-55%) üstünlük təşkil edir. İsti aylarda günəş radiasiyası gərginliyinin artması ilə əlaqədar olaraq azbuludlu hava tədricən isti və quraq havalarla əvəz olunur.

İsti və quru havalar ən çox Yevlax, Mingəçevir şəhərləri arasındakı ərazidə müşahidə edilir. Məsələn, Yevlaxda may ayının 9 günü, iyunun 18, iyulun 25, avqustun isə 24 günü isti və quraq keçir. Rayon ərazisində orta illik temperatur 14,5°C-14°C arasında tərəddüd edir. İyunun orta temperaturu 25-27°C, yanvarınkı isə 0°-3°C-dir. İl ərzində rayonun ərazisində 50-70



gün isti və quru küləklər əsir. Rütubətlənmə göstəricisinə görə Aran rayonun yarımsəhra landşaftlı ərazisi quraq sayılır.

Aran rayonunda qısamüddətli istirahət üçün əlverişli mikroiqlim şəraitini Kür və Araz çayları, onların qolları, Mingəçevir su anbarı sahillərində, süni göl və meşə salınan yerlərdə yay aylarında da tapmaq olar. Yağıntılı qış və yay aylarından sonra başdan-başa yaşıl dona bürünən Kür-Araz ovalığının çox hissəsi qısamüddətli istirahət yerlərinə çevrilir. İstilər artdıqca efemer ot bitkiləri saralır. Mayın axırları və iyunun əvvəllərində ovalıq öz mənzərəsini dəyişir, termik amilin məhdudlaşdırıcı təsiri artır. Rayon ərazisindəki Şirvan, Ağgöl Milli parkları və bir sıra ovçuluq təsərrüfatları yerli əhəmiyyətli rekreasiya obyektləri kimi istifadə edilə bilər.

Rekreasiya sərvəti kimi rayonun hidroqrafiyası, mineral mənbələri əhəmiyyətlidir. Məlumdur ki, su obyektləri cəlbedici mənzərə yaradır və şübhəsiz ki, ətraf mühitin mənzərəsində mühüm rol oynayır. Aran rayonunda mövcud su obyektləri - çaylar, Kür çayı, Hacınohur, Sarısu gölləri və s.-dir.

Sarısu gölünün sahilboyu ərazisini qamışlıq və bataqlıq təşkil edir. Həcmi təqribən 60 mln. $m^3$, orta dərinliyi 1 m, maksimal dərinliyi 6 m, orta eni 3 km təşkil edir. Gölün akvatoriyasının açıq hissələrində dərinliklər 1-3 m, sahilə yaxın hissələrində 0,1-0,9 m arasında dəyişir. Bəzi illərdə Kür çayının daşqın suları gölün həcmini 3-5 dəfə artırılır. Göldə suyun həcminin artması əsasən yaz və payız aylarında müşahidə olunur. Ötən illə müqayisədə cari ildə suyun səviyyəsi təqribən 40% azalmışdır. Sarısu gölündə donma hadisələrinin orta çoxillik davamiyyəti 23 gündür və sahil buzu formasındadır. Gölün səthi bəzi illərdə buzla örtülsə də, 10-11 gündən sonra əriyir. Sarısu gölü İmişli və Sabirabad rayonları ərazisində Kür çayının sahili boyunca şimal-qərbdən cənub-şərqə doğru 22 km uzanan və bir-biri ilə əlaqəli dörd göldən biri olmaqla, çay-dərə eroziya mənşəlidir. Sarısu gölünün faunası əsasən balıqlardan (çəki, sazan, karp, vobla),

heyvanlardan (çöl donuzu, bataqlıq donuzu) ibarətdir. Bundan başqa əlverişli şərait göldə hər il 300-350 min müxtəlif növ quşların (ördək, qaşqaldaq, qaz, sultan toyuğu, balkan, boz vağ) qışlamasını təmin edir. Gölün ərazisində Allahmədətli yaşayış məntəqəsinin yaxınlığında fəaliyyət göstərməyən balıq vətəgələri vardır. Sarısu gölünü şimaldan Kür çayı, yaşayış məntəqələrindən avtomobil yolu kimi istifadə olunan torpaq bənd ayırır, bu da gölün yaşayış məntəqələrindən axıdılan tullantılarla çirklənməsinin qarşısını alır.

Mingəçevir su anbarı rekreasiya-turizm məqsədilə geniş miqyasda istifadə olunmasa da, perspektivdə ondan istifadəni təsərrüfat fəaliyyətinin bu növünə istiqamətləndirmək olar.

Aran rayonunda mineral mənbələr də vardır ki, bunlardan yerli əhali istifadə edir. Kürdəmir, Salyan, Neftçala və digər rayonlarda temperaturu yüksək olan yeraltı suların bəziləri yerli əhali tərəfindən oynaq və revmatizm, dəri-zöhrəvi xəstəliklərin müalicəsi üçün istifadə olunur. Belə suları yerli əhali "isti sular" adlandırır.

Kürdəmir rayonu ərazisində Kürün sahilində rayon mərkəzindən 25 km-də Mollakənd kəndində "Şəfqət" sanatoriyası Carlı deyilən yerdə çıxan isti radon su bazası əsasında fəaliyyət göstərir. Eyni vaxtda 50 nəfər rekreanta xidmət edə biləcək bu sanatoriyada dincəlmək üçün üzgüçülük hovuzu tikilmişdir.

Salyan şəhəri ətrafında olan xlorid tərkibli soyuq mineral bulaqlar hidrogen-sulfid və karbohidrogen qazları ilə zəngindir. Salyan rayonu mərkəzindən 5 km aralıqda Babazənən palçıq vulkanından çıxan müalicəvi əhəmiyyətli palçıq çoxlarını cəlb edir.

Bərdə şəhərindən 3 km aralıqda qaynar kükürdlü su bulağı - İstisu yerləşir. İstisu bazasında fəaliyyət göstərən müalicəxanada vanna qəbulu üçün şərait mövcuddur. Lakin bu müalicəxananın müasirləşdirilməsinə ehtiyac vardır.



Aran iqtisadi rayonunda təbii landşaftların antropogen landşaftlarla əvəz olunması ilə əlaqədar ilkin bitki örtüyü və heyvanat aləminin yoxa çıxmasını nəzərə alaraq az-çox təbii halını saxlamış Şirvan qoruğu və Bəndovan yasaqlığında qoruq rejimini gücləndirmək, düzgün təşkil etmək şərtilə ərazidən rekreasiya məqsədilə istifadə etmək, kiçik zooparklar və botanika bağları salaraq fauna və flora növlərini nümayiş etdirmək üçün 2003-cü ilin oktyabrında adı çəkilən qoruq və yasaqlıq birləşdirilərək 54374 hektar sahədə Şirvan Milli parkı yaradıldı (bax, II fəsil, 2.1.6).

Rayon ərazisində yerləşən Ağgöl Milli parkı 2003-cü ilin oktyabrında Ağgöl dövlət qoruğu və Ağgöl yasaqlığının əsasında yaradılmışdır. Mövcud qoruğun və yasaqlığın ətrafındakı sahələr də əlavə olunaraq Milli parkın sahəsi 18 min hektara çatdırılmışdır. Onun 2,1 min hektarı su akvotoriyası (çox hissəsini qamış cəngəlliyi), qalan sahə isə şoranotlu yarımsəhradan ibarətdir. 20 hektar sahəni isə adalar təşkil edir.

Milli park yaradıldığı vaxtdan onun təbii mühitinin qorunması və zənginləşdirilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilir (Milli parkın ərazisində ovçuluğa yol verməmək, müşahidə qurğularının tikilməsi, yırtıcı heyvanların sayını normada saxlamaq və s.).

Qızılağac qoruğu eyni adlı körfəzdə və Salyan düzünün bir hissəsində 1930-cu ildə yaradılmışdır. Sahəsi 88,4 min hektardır və bu göstəriciyə görə respublikanın ən iri qoruğu sayılır. Qoruğun xeyli hissəsi Lənkəran rayonu ərazisindədir. Salyan düzündəki hissəsi isə Aran iqtisadi rayonuna düşür. Qoruq oturaq və köçəri su, bataqlıq və göl quşlarının qorunması və çoxaldılması, həmçinin təbii su-bataqlıq landşaft sahələrinin mühafizəsi məqsədilə təşkil olunmuşdur. Qoruğun sahəsinin 59%-i su akvatoriyası, 20%-i qamış cəngəllikləri, 2%-i quru sahələrdir. Belə landşaft tipləri qoruqda bataqlıq və quru mühitdə yaşayan köçəri və oturaq quşların, quru və

bataqlıq heyvanlarının, balıqların məskunlaşmasına şərait yaratmışdır. Qoruğa dünyanın müxtəlif yerlərindən çoxsayda quşlar gəlir. Lakin son illər qoruğun ətrafında aparılan işlər (aqrar təsərrüfatla intensiv məşğul olmaq, qanunsuz ovçuluq və s.) onların sayının azalmasına səbəb olmuşdur. Qoruqda məməlilər (canavar, çaqqal, porsuq, tülkü və s.), su hövzəsində 30-dan çox balıq növü məlumdur.

Türyançay qoruğu Bozdağ massivi, Ağdaş və Yevlax rayonları ərazisində 1961-ci ildə yaradılmışdır. Qoruq respublikamızın ən geniş ardıc, saqqız meşəsi olan arid meşə landşaft kompleksini qorumaq məqsədilə yaradılmışdır. Qoruğun sahəsi 9813 hektardır, bunun 6445 (51,8%) hektarı meşə ilə örtülüdür. Qoruğun ərazisində ən çox ardıc və saqqızağacı üstünlük təşkil edən meşə landşaftı yayılmışdır. Onlar arasında iberiya palıdı və ağcaqayınına da rast gəlinir. Seyrək meşəli və meşəsiz ərazilərdə yabanı gilas, qaratikan, nar, sarağan yayılmışdır. Çay vadilərində qızılağac, ağyarpaq qovaq, uzunsaplaq palıd, söyüd ağacları bitir. Türyançay qoruğu fauna aləminə görə də zəngindir (qaban, qonur ayı, tülkü, dələ, çaqqal, vaşaq və s.). Qoruqda oktyabr ayından başlayaraq Böyük Qafqazın cənub yamacından bir çox məməlilər və quşlar qışlayır.

***Tarixi-mədəni turizm ehtiyatları.*** Rayonda tarixi-mədəni ehtiyatlardan rekreasiya məqsədilə istifadə olunması dərketmə, ekoloji turizmdə mühüm əhəmiyyətə malikdir. Aran bölgəsində dünya, ölkə və yerli əhəmiyyətli tarixi-mədəni abidələr çoxdur.

*İqtisadi rayonda dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələr* qrupuna memarlıq abidəsi kimi Bərdə şəhərindəki "Allah-Allah" türbəsi (1322-ci il) daxil edilmişdir. Beyləqan rayonunda Kəbirli kəndindəki Örənqala yaşayış yeri (orta əsrlər), Bərdə rayonundakı Köhnə Bərdə (orta əsrlər) arxeoloji abidələrdir.

*Ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələri* qrupuna daxil edilmiş abidələr həm rayon mərkəzləri, həm də kəndlərdə



yayılmışdır. Bunlar Mingəçevir şəhərində Mingəçevir Dram Teatrının binası, Bərdə şəhərində Bəhmən Mirzənin türbəsi (XVIII əsr), Axsadan baba türbəsinin xarabalıqları (XIV əsr), İbrahim məscidi və qəbirstanlığı, Hacıqabul rayonunun Qayalı Baloğlan kəndində Pir Hüseyn xanəgahı (XIII əsr) memarlıq abidələridir.

Ağcabədi şəhərində Üçtəpə və Şaxtəpə kurqanları, şəhərin 20 km-də Gültəpə, Sarıbaştəpə kurqanları (tunc dövrü) arxeoloji abidələrdir. Ağcabədi rayonunun Boyat, Kələbədin, Hindarx, Hacılar, Hacıbədəlli, Salmanbəyli, Üçtəpə, Əmirvar, Xoşbulaq və digər kəndlərində eneolit və tunc dövrlərə aid kurqanlar, yaşayış yerləri, qalalar və ölkə əhəmiyyətli digər arxeoloji abidələr mövcuddur.

Göyçay rayonunun I Ərəbcəbirli kəndində küp qəbirləri nekropolu, yaşayış yeri (ilk orta əsrlər) arxeoloji abidə kimi qorunur.

Hacıqabul rayonunun Uludu kəndində kurqanlar, Güngörməz müdafiə qalası (orta əsrlər), Poladlı kəndi yaxınlığında tunc, eneolit dövrlərinə aid kurqanlar, yaşayış yerləri arxeoloji abidələrdir.

Beyləqanın Aşağı Çəmənli kəndində qədim yaşayış yerləri, Bərdə şəhərində körpü, qala (VII-IX əsr), Şatırlı kəndində antik dövrə aid yaşayış yeri, Yevlax rayonunun Qaraməmmədli, Yolacaq, Bozayran, Porzova, Arvana və digər kəndlərində antik dövr, ilk olra əsrlərə aid kurqanlar, yaşayış yerləri, küp qəbirlər, Kürdəmirin Sığırlı kəndində Qaratəpə yaşayış yeri (ilk orta əsrlər) kimi arxeoloji abidələr vardır.

İmişli rayonunda Muxurtəpə yaşayış yeri (XI-XIV əsrlər), ilk orta əsrlərə aid yaşayış yerləri (Qızıltəpə, Abiştəpə), kurqanlar (Yedditəpə və s.), Neftçala rayonunun Boyat, Xoll Qaraqaşlı kəndlərində II-XVII əsrlərə aid eyni adlı yaşayış yerləri arxeoloji abidə kimi qorunur.

Saatlı rayonunun Azədkənd, Qaralar, Məmmədabad kəndlərində nekropollar (antik dövr, e.ə.II-I əsr), Sabirabadın

Cavad kəndində Cavad şəhərgahı (III-XVIII əsr), Cavad nekropolu (e.ə.III - e.II əsr), Salyan rayonunda I Babacanın yaşayış yeri (e.ə. I minillik), Marışlı yaşayış yeri, Mahmudabad yaşayış yeri, Ucar rayonunun Bərküşad kəndində Baqman Bərküşad nekropolu (antik dövr), Zərdab rayonunun Xanməmmədli kəndində küp qəbirləri nekropolu (I əsr) ölkə əhəmiyyətli arxeoloji abidələrdir.

Mingəçevir, Şirvan, Yevlax şəhərlərində mədəniyyət və istirahət bağı bağ-park, xatirə və monimental abidələr qrupuna aid edilir.

Aran rayonunda *yerli əhəmiyyətli tarix və mədəniyyət abidələr* qrupuna əsasən tarix diyarşünaslıq muzeyləri, məscidlər, türbələr, qala qalıqları, karvansaraylar, körpülər daxil edilmişdir. Yerli əhəmiyyətli tarix və mədəniyyət abidələri sırasında bağ-park, monimental və tarixi abidələrə Qələbə meydanı (Mingəçevir şəhəri), Böyük Vətən müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidəsi (Ağdaş, Ağcabədi, Beyləqan, Göyçay, Neftçala, Sabirabad, Kürdəmir, Zərdab), Müciriddin Beyləqaninin heykəli (Beyləqan), Azad qadın heykəli (Kürdəmir), H.Zərdabinin heykəli (Zərdab) və s. aid edilir.

Tarixi-mədəni abidələrin təsnifat dərərəcəsinə görə bölgüsü haqda əldə edilmiş rəsmi məlumatlardan aydın olur ki, turizm cəhətdən zəif mənimsənilmiş Aran iqtisadi rayonunda bu abidələrin yayılma coğrafiyası genişdir. Tarixi inkişafın müxtəlif mərhələləri və dövrlərinə aid olan bu sərvətlər turizm fəaliyyətinə hələ ki, çox zəif cəlb edilmişdir.

Mingəçevir Bakı şəhərindən 280-300 km qərbdə yerləşir. Şəhərin adının mənası haqqında müxtəlif əfsanələr mövcuddur. 4500 ildən çox tarixə malik olan bu yerin mənasını vaxtilə akademik Z.Bünyadov belə izah etmişdir: "Bu ad 839-cu ildə yaşamış və xəlifəyə qarşı mübarizə aparmış Minqiçevir əl Fəqaninin adı ilə bağlıdır". Mingəçevirin yerləşdiyi ərazi hələ e.ə. III minillikdə yaşayış məskəni olmuşdur. Arxeoloji



qazıntılar zamanı aşkarlanan qədim sikkələr burada qədim dövrdə şəhər mədəniyyətinin mövcud olduğunu, ticarətin inkişaf etdiyini göstərir. Məşhur türk səyyahı Övliyə Çələbinin "Səyahət" əsərində Mingəçevirin Kür çayının sağ sahilindəki hissəsində olan yaşayışdan və burada olan toxuculuqdan və s. bəhs edilir. Mingəçevirin indiki yerində əvvəllər şam və vələs meşəliyinin olması da bildirilir. Burada yeni şəhər salmaq fikri isə XX əsrin 30-cu illərində yaranmışdır. 1938-ci ildə burada su elektrik stansiyasının tikilməsi üçün araşdırmalar aparılmış, lakin məlum səbəblər ucbatından bu iş dondurulmuşdur. Müharibədən sonra SES-in tikintisinə başlanılmışdır. Mingəçevir 1948-ci ildə şəhər statusu almışdır. Hazırda Mingəçevir əhalisinin sayına görə respublikanın dördüncü böyük şəhəridir (101,6 min nəfər). Mingəçevirin böyük turizm potensialı var. Mingəçevir şəhər mədəniyyət və turizm şöbəsinin məlumatına görə "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" qəbul edildikdən sonra şəhərdə turizm sektorunun inkişaf planı hazırlanmışdır.

Mingəçevirdə 7 turizm obyekti vardır, bunlardan 5-i Mədəniyyət və Turizm Nazirliyinin rəsmi lisenziyası əsasında fəaliyyət göstərir. 2011-ci ildə Mingəçevirdə şəhər ekskursiya və səyahətlər bürosunun fəaliyyəti gücləndirilmiş, turistlərin hərəkətini asanlaşdırmaq məqsədilə şəhərin turizm xəritəsi hazırlanmışdır. Mingəçevirdən Hacıkənd, Gəncə, Qəbələ, Xaçmaz, Quba və s. istiqamətlərdə müxtəlif turlar təşkil edilir. Bu turlarda 1200-1400 nəfər iştirak edir. Mingəçevirə təşkil edilən ekskursiya zamanı infotur iştirakçıları şəhər haqqında maraqlı məlumatlar əldə edir. Kür çayının, Mingəçevir su anbarının, şirin sulu çimərliyin imkanlarından daha səmərəli istifadə edilməsi nəzərdə tutulur.

## 15.3.Rayonda turizm xidmət sahələrinin müasir vəziyyəti

Azərbaycan müstəqillik qazandıqdan sonra respublikamızın regionlarının davamlı inkişafı hökumətin iqtisadi siyasətinin mühüm istiqamətini təşkil edir. Bu məqsədlə respublika Prezidenti ardıcıl olaraq fərmanlar imzalanmış və onların icrası davam etdirilir. "Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Aran iqtisadi rayonunda turizmin inkişafına dair tədbirlər digər rayonlarla müqayisədə çox az idi. Tədbirlər planında Mingəçevir şəhərində "Kür" Olimpiya tədris idman kompleksinin qurulması və Mingəçevir avarçəkmə üzrə idman bazasının bərpası nəzərdə tutulurdu. Bu isə idmançıların fasiləsiz təlim-məşq toplantılarının təşkili, turizmin inkişafı, yay istirahət düşərgələrinin təşkilinə xidməti nəzərdə tuturdu. Hələ 2004-cü ildə Mingəçevir avarçəkmə üzrə idman bazasının bərpası ilə bağlı layihə və biznes-plan hazırlanmış və müvafiq qurumlara təqdim olunmuşdu.

İqtisadi rayona daxil olan Ağcabədi, Biləsuvar, Sabirabad rayonlarında idman komplekslərinin tikintisi nəzərdə tutulmuşdu. Bu tədbirin məqsədi adı çəkilən rayonlarda idmanın, turizmin inkişafı, yeni iş yerlərinin açılması idi. Bu tədbirlər demək olar ki, artıq yerinə yetirilmişdir. Qeyd edək ki,"Kür" Olimpiya kompleksi 2015-ci ildə avropa standartlarına müvafiq xidmət göstərməyə başladı və I Avropa idman oyunlarının avarçəkmə üzrə yarışları burada küçirildi.

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda qarşıda duran prioritet istiqamətlərdən biri kimi turizmin inkişafının təmin edilməsi göstərilmişdir. Dövlət Proqramında Aran iqtisadi rayonunda həyata keçiriləcək tədbirlər həm ümumi, həm də bölgəyə daxil olan rayon və şəhərlər üzrə verilmişdi. Burada Mingəçevir, Şirvan, Yevlax şəhərlərində sosial-iqtisadi inkişafın müxtəlif seqmentləri üzrə tədbirlər sırasında turizm



sektorunun inkişafına yönəldilən istiqamətlər vardır. Bunlar şəhərlərdə mədəniyyət, idman-sağlamlıq obyektlərinin yenidən qurulması və inşası idi.

İqtisadi rayona daxil olan bütün rayonlarda idman-sağlamlıq obyektlərinin təmir-bərpası və tikintisi, mədəniyyət obyektlərinin əsaslı təmir və tikintisi nəzərdə tutulmuşdu. Ağdaş, Bərdə, Göyçay, Neftçala rayonlarında tarix-mədəniyyət obyektlərinin bərpası nəzərdə tutulmuşdu. Bütün iqtisadi rayonlarda olduğu kimi Aran bölgəsində də nəqliyyat infrastrukturunun, kommunal xidmət sektorunun inkişafına xüsusi önəm verilir. Bunlar həm də turizmə xidmət edən sahələrdir.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi sahəsində görülən işlər, sosial-iqtisadi inkişafın səviyyəsi ilə əyani tanış olmaq məqsədilə respublika Prezidenti İlham Əliyev bir neçə dəfə Aran bölgəsində səfərdə olmuş, yerlərdə vəziyyətlə tanış olmuşdur.

**Cədvəl 15.2**

**Aran iqtisadi rayonu üzrə səfərlərin məqsədinə görə yerləşdirilmiş şəxslərin sayı, nəfərlə (2014-cü il)**

| İnzibatı rayon və şəhərlər | Cəmi | Turizm məqsədilə | İstirahət, əyləncə | İşgüzar səfər | Müalicə turizmi | Digər turizm məqsədi | Digər məqsədlə |
|---|---|---|---|---|---|---|---|
| Ölkə üzrə cəmi: | 672345 | 550643 | 237506 | 206234 | 70981 | 35922 | 121702 |
| İqtisadi rayon üzrə cəmi | 19298 | 14622 | 8030 | 4908 | - | 1684 | 4670 |
| Göyçay rayonu | 1453 | 1141 | - | 1141 | - | - | 312 |

**Cədvəl 15.2-nin davamı**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Beyləqan rayonu | 652 | 652 | - | 652 | - | - | - |
| Ağcabədi rayonu | 369 | 369 | - | 252 | - | 117 | - |
| Bərdə rayonu | 617 | - | - | - | - | - | 617 |
| Biləsuvar rayonu | 1170 | 1185 | - | - | - | 1185 | 85 |
| Salyan rayonu | 753 | - | - | - | - | - | 753 |
| Mingəçevir şəhəri | 8906 | 7502 | 7005 | 115 | - | 382 | 1404 |
| Ağdaş rayonu | 717 | 92 | - | 92 | - | - | 625 |
| Zərdab rayonu | 201 | 201 | - | - | - | - | - |
| Kürdəmir rayonu | 1900 | 1020 | 1020 | - | - | - | 880 |
| Sabirabad rayonu | 5 | 5 | 5 | - | - | - | - |
| Hacıqabul rayonu | 2455 | 2455 | - | 2455 | - | - | - |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Təhlil göstərir ki, istirahət məqsədilə yerləşdirilmiş turistlərin sayı Mingəçevir şəhəri ilə Kürdəmir rayonu, işgüzar səfərlərə görə isə Hacıqabul, Göyçay, Beyləqan rayonları irəlidədir (cəd., 15.2) .

Yerləşdirmə obyektləri və xidmətlə rayonun təminat səviyyəsi. Məlumdur ki, Azərbaycanda nömrələrin sayı 17363 olan 535 mehmanxana vardır. Araşdırmalar göstərir ki, yerləşdirmə müəssisələrinin bəzilərinin yenidən bərpaya ehtiyacı vardır. Bəziləri isə minimal rahatlıq şəraitinə də malik deyldir. Bu vəziyyət həm də Aran iqtisadi rayonuna aiddir.

Mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin sayına görə Aran iqtisadi rayonunun payına 2005-ci ildə ölkə üzrə mövcud göstəricinin 8,7%-i (10661) düşürdüsə,



2014-cü ildə bu rəqəm 5,0% olmuşdur. Göründüyü kimi nömrələrin sayında azalma müşahidə olunmuşdur.

**Cədvəl 15.3**

**Aran iqtisadi rayonunda yerləşdirmə müəssisələrinin ümumi iqtisadi göstəriciləri (2014-cü il)**

| İnzibatı rayon və şəhərlər | Yerləşmə vasitələrində nömrələrin ümumi sayı, vahid | | İstismardan əldə olunan gəlir, min manat | |
|---|---|---|---|---|
| | 2010 | 2014 | 2010 | 2014 |
| **Ölkə üzrə cəmi:** | **14158** | **17363** | **105888,8** | **181047,3** |
| **İqtisadi rayon üzrə cəmi:** | **948** | **874** | **796,8** | **1192,7** |
| Göyçay rayonu | 12 | 68 | 7,8 | 81,9 |
| Beyləqan rayonu | 17 | 57 | 12,8 | 42,5 |
| Ağcabədi rayonu | 30 | 30 | 2,7 | 5,3 |
| Bərdə rayonu | 75 | 51 | - | 115,3 |
| Neftçala rayonu | 32 | 32 | - | - |
| Biləsuvar rayonu | 45 | 45 | 9,6 | 21,1 |
| Salyan rayonu | 94 | 88 | - | 66,3 |
| Yevlax rayonu | 87 | 87 | - | - |
| Mingəçevir şəhəri | 302 | 234 | 211,9 | 715,2 |
| Ağdaş rayonu | 5 | 13 | - | 17,9 |
| Ucar rayonu | 19 | - | - | - |
| Zərdab rayonu | 11 | 11 | 15,2 | 12,7 |
| Kürdəmir rayonu | 87 | 67 | 339,2 | 39,6 |
| İmişli rayonu | 7 | 7 | 1,3 | - |
| Saatlı rayonu | 65 | 16 | 152,4 | - |
| Sabirabad rayonu | 4 | 4 | 18 | 17,6 |
| Şirvan şəhər ə/d | 56 | 64 | 25,9 | 57,3 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Nömrələrin sayında artım tempinin müşahidə olunmaması onunla izah olunur ki, Aran rayonunda bu sahəyə diqqət digər iqtisadi rayonlarla müqayisədə zəif olmuşdur. İqtisadi rayonda mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin sayının bölgə üzrə göstəriciyə görə birinci beşliyə Mingəçevir

şəhəri, Salyan, Yevlax, Göyçay, Kürdəmir rayonları daxildir (cəd.,15.3).

Yerləşdirmə müəssisələrində xidmətlərə və qiymətlərə görə ilk beşliyə daxil olan Mingəçevir, Yevlax şəhərləri daxili turizm bazarında zəif də olsa, rəqabət apara bilər.

Nəqliyyat xidməti və infrastrukturun vəziyyəti cəhətdən rayonun təminat səviyyəsi dəmir və avtomobil nəqliyyatı, hava nəqliyyatı və çay nəqliyyatı ilə təmsil olunur. İqtisadi rayonun daxili, digər regionlar və Bakı şəhəri ilə nəqliyyat əlaqələrinin olması yalnız iqtisadi deyil, həm də turizm əlaqələrində mühüm əhəmiyyət kəsb edir. Qərb istiqamətində Bakı-Ağstafa-Tbilisi, Bakı-Yevlax-Balakən, Yevlax-Ağdam, cənub istiqamətində Osmanlı-Astara dəmir yol xətlərinin iqtisadi rayonun ərazisindən keçən hissəsi turizm cəhətdən Aran bölgəsinə nisbətən inkişaf etmiş Gəncə-Qazax, Lənkəran, Naxçıvan Muxtar Respublikası ilə əlaqələrində mühüm rol oynaya bilər.

Avtomobil nəqliyyatı turist daşımalarında əlverişli və sürətli olmasına görə seçilir. İqtisadi rayon ərazisindən keçən beynəlxalq və respublika əhəmiyyətli avtomobil yolları magistral dəmir yollarına paralel çəkilmişdir. Hava nəqliyyatı sahəsində Yevlaxda yerləşən aeroportundan kütləvi turizm məsədləri üçün hələ istifadə edilmir.

Respublikada ümumi istifadədə olan avtomobil yollarının 2,6%-i Aran rayonunun payına düşür. Ümumi uzunluğu 4395 km olan avtomobil yollarının 43%-i respublika, 57%-i yerli əhəmiyyətlidir. Bakı şəhəri ilə iqtisadi rayonun mərkəzləri arasında müntəzəm olaraq sərnişin daşımaları həyata keçirilir.

Aran iqtisadi rayonunda hava nəqliyyatı ilə sərnişin daşımaları əsasən Yevlax şəhərindəki aeroport vasitəsilədir. Kür çayının mənsəbindən Yevlax şəhərinin mənsəbinə qədər olan hissəsi gəmiçilik üçün yararlı olsa da, bu imkandan iqtisadi, həm də turizm məqsədləri üçün istifadə edilmir.



Bölgənin turizmində qidalanma xidməti turistləri yerləşdirmə müəssisələrindəki vəziyyətdən çox asılıdır. Aran iqtisadi rayonunda isə mehmanxanalarda lüks və I dərəcəli nömrələrin sayı az olduğu üçün otaq servisi xidmət növü kimi çox az hallada tətbiq edilir. Rayonda qidalanma obyektləri növlərinə görə mehmanxana və istirahət mərkəzləri, qonaq və şadlıq evləri, rayon mərkəzindəki restoranlar, kafe və qəlyanaltılarla təmsil olunur. Bölgənin inzibati rayonlarında bu obyektlərlə təminat və xidmətin səviyyəsi təbii ki, eyni deyildir. Mehmanxana və istirahət mərkəzlərində restoranların xidmətindən istifadəyə görə Neftçala, Saatlı, Sabirabad rayonları, Mingəçevir, Bərdə, Şirvan şəhərləri seçildiyi halda, rayon mərkəzində olan restoranlar, kafe və qəlyanaltılar demək olar ki, bölgənin bütün rayonlarında mövcuddur.

Yerləşdirmə müəssisələrinin tərkibində olan qidalanma xidməti göstərən restoranlarla yanaşı müstəqil qidalanma xidməti göstərən restoran, kafe, qəlyanaltılar və s. qeyd edilməlidir. Məlumdur ki, bu rayonlara səfər edən turistlər yerli əhalinin istirahət üçün təklif etdiyi evlərdə də qalırlar. Onlar rayon mərkəzindəki restoranların xidmətindən istifadə etməklə yanaşı, çox hallarda sahibinin və ya özlərinin hazırladığı yeməklə qidalanırlar.

Yolüstü kafe, qəlyanaltı, çayxanaların xidmətindən də istifadə edilir. Lakin bu xidmətlər çox hallarda arzu edilən səviyyədə olmur. Bu vəziyyətə nəinki Aran rayonunda, respublikamızın digər turizm bölgələrində də təsadüf edilir.

Turizm məkanında turistə gecələmə və qidalanmadan başqa, gəldiyi yerin tarixi, memarlıq abidələri, təbiəti, əhalinin milli xüsusiyyətləri, adət və ənənələri ilə tanış olmaq imkanı, həmçinin istirahət və əyləncə üçün şərait olmalıdır. Bu şərait haqda ilk növbədə turizm şirkəti məlumatlı olur. Ekskursiyalar, yürüşlər və gəzintilər şirkətin menecerləri və ekskursiya bələdçiləri tərəfindən hazırlanarkən – dəqiqlik, icra olunarkən-təcrübə və yüksək peşəkarlıq tələb edilir. Məlumdur ki, Salyan,

Neftçala rayonları, Şirvan, Mingəçevir şəhərlərində yerli əhalinin mətbəxində balıq məhsullarından hazırlanan yeməklər çeşidinə görə çox müxtəlifdir. Bu rayonlara səfər edən turistlərin menyularına həmin yeməklərdən salınması da məqsədəuyğun olardı.

İqtisadi rayonda turistlərin marağına səbəb olan xüsuslardan biri də hər il Göyçay rayonunda nar bayramının təşkil edilməsidir.Bu çox yaxşı haldır. Lakin onun reklamının genişləndirilməsinə ehtiyac vardır.

Respublikamızın turizm inkişaf etmiş iqtisadi rayonlarında (Abşeron, Şəki-Zaqatala, Quba-Xaçmaz) xüsusi tədbir və festivalların, idman oyunlarının və s. keçirilməsi üçün imkanlar yaradılmışdır və bu sahələrin daha da genişləndirilməsi məqsədilə böyük işlər görülür. Misal olaraq Qəbələ rayonunda hər il keçirilən Beynəlxalq musiqi festivalını göstərmək olar. Aran iqtisadi rayonunda da turistləri cəlb edən tədbirlər təşkil etmək olar: Mingəçevir su anbarında avarçəkmə üzrə, Kürdili adasına qayiqla gəzinti, Sarısu gölü sahilində, İmişlidə, Bərdədə balıqçılıq, ovçuluq və s.

Həm maddi, həm də qeyri-maddi mədəniyyət daxil olmaqla mədəni irslə tanış etmə metodikası geniş inkişaf etmiş və son illərdə rəngarəng formalar almışdır. Dünyanın bir sıra ölkələrində inkişaf etmiş və tarixi irsi öyrənmək üzrə ixtisaslaşmış turizm buna misal ola bilər.

Ekskursiyaların mahiyyəti, xüsusiyyəti, növləri, keçirilmə metodikası və texnikasına əsaslanaraq, iqtisadi rayonda müxtəlif istiqamətlərdə və müxtəlif məzmunda ekskursiyalar təklif edilir.

Mingəçevir-Göyçay və Yevlax-Göyçay. Bu ekskursiya təbiət abidələrinə həsr olunur. Məqsəd Göyçay rayonunun Çəyirli kəndində yaşı 400 ildən çox olan çinar, Bığır kəndində isə yaşı 500 ildən çox olan palıd ağaclarına tamaşa etməkdir.

Şirvan şəhəri-Hacıqabul-Qayalı Baloğlan və Şirvan şəhəri-Hacıqabul-Udulu. Ekskursiyanın məqsədi dərketmə turizm obyekti olan tarixi yerlərlə tanışlıqdır. Qayalı Baloğlan



kəndində Pir Hüseyn xanəgahı (XIII əsr) memarlıq abidəsi, Udulu kəndində kurqanlar, Güngörməz müdafiə qalası (orta əsr) tarixi abidələrdir. Bu istiqamətdə təbiət ekskursiyaları təşkil etmək mümkündür. Kür və Araz çaylarının qovuşduğu yerə, meşəlik ərazilərə ekskursiya həm də ekoloji yönümlüdür.

Şirvan şəhəri-Sarısu gölü, Sabirabad-Sarısu gölü, Saatlı -Sarısu gölü, İmişli-Sarısu gölü, Zərdab-Sarısu gölü. Ekskursiyanın məqsədi turizmdə su rekreasiya obyekti kimi əhəmiyyəti olan Sarısu gölünə yaxından tamaşa etmək və ondan zövq almaqdır.

Aran rayonunda ovçuluq və balıqçılıq həvəskarları üçün İmişli, Bərdə, Kürdili adasına ekskursiyalar təşkil etmək məqsədəuyğundur. Kürdili adasına ekskursiya qayıqla mümkündür.

Aran iqtisadi rayonu ilə sərhəd rayonlardan, Bakı şəhərindən Neftçala şəhərinə ekskursiya təşkil etməklə nərə balıqlarının yetişdirilməsi ilə məşğul olan Kür təcrübə müəssisəsi ilə tanış olmaq mümkündür. Bu müəssisənin laboratoriyasında körpə nərə balıqları yetişdirilir və qiymətli balıq növlərinin təkrar istehsalı üçün Kür çayına buraxılır.

Ekskursiya xidməti əsasən turizm marşrutları istiqamətində aparılır. Lakin bölgədə elə təbii və tarixi-mədəni rekreasiya ehtiyatları ola bilir ki, bu obyektlərə baxış üçün xüsusi tur hazırlanır. Bu turlar hazırlanarkən bölgədəki rekreasiya yerləri və rekreasiya rayonları haqda ətraflı məlumatın olması vacibdir.

Mingəçevir şəhərində turizmi inkişaf etdirmək üçün imkanlar vardır. Bu imkanlardan ən mühümü Mingəçevir su anbarıdır. Mingəçevir su anbarında hələ sabiq sovetlər dövründə avarçəkmə idman növü inkişaf etmişdi. Hazırda su anbarının yanında "Kür Hotel" mehmanxana kompleksi inşa edilmiş, abadlıq işləri aparılmışdır. Kompleks Mingəçevirdə istirahət üçün ideal yer hesab edilir. Otelin üstünlüyü buradakı otaqların hamısının birbaşa Kür çayının mənzərəsinə açılmasıdır. Kür otel kompleksinə daxil olan yüksək səviyyəli xidmətlərdən biri də 39 metr hündürlükdə yerləşən "Qüllə" restoranıdır. Restorandan Kür çayına gözəl mənzərə açılır.

Xüsusilə əcnəbi turistlərin çox xoşladığı bu restorandan Mingəçevir şəhərinin füsunkar mənzərəsini seyr etmək mümkündür. Şəhərə gələn turistlərin sayı isə ildən-ilə artır. 2015-ci ildə Azərbaycanda keçirilmiş I yay idman oyunlarının avarçəkmə üzrə növü Mingəçevir su anbarında təşkil edildi. Mingəçevir şəhərinə turları, həm də ekskursiyaları bir neçə istiqamətdə təşkil etmək mümkündür: Bakı-Mingəçevir, Şəki-Mingəçevir, Balakən-Mingəçevir, Yevlax-Mingəçevir, Şirvan-Mingəçevir və s. Göstərilən istiqamətlərdə turlar və ekskursiyalarla yanaşı Aran bölgəsindən, həmçinin respublikamızın digər rayon mərkəzlərindən Mingəçevir su anbarı sahilində qısamüddətli istirahət məqsədilə ekskursiya təşkil oluna bilər.

Mingəçevirin yerləşdiyi coğrafi ərazi turistlərə şəhərlə yanaşı respublikamızın Şəki, Zaqatala, Qəbələ, Naftalan, Gəncə-Hacıkənd, İsmayıllı-Lahıc kimi qədim tarixə malik, gözəl təbiəti olan yerlər ilə də tanış olmaq imkanı verir.

Aran bölgəsini respublikamızın digər bölgələri (Quba-Xaçmaz, Şəki-Zaqatala, Gəncə-Qazax, Lənkəran) ilə müqayisə etdikdə aydın olur ki, bu rayonda turizmin inkişafı çox zəifdir. Bölgədə ilk növbədə daxili turizmi inkişaf etdirmək lazımdır. Rayona turist cəlb etmək üçün maraqlı turproqramların hazırlanmasına ehtiyac vardır.

Turproqramlar piyada və atüstü ekskursiyaları, ənənəvi avtobus və avtomobil səfərlərini, çay, göl və su anbarlarında gəzinti və s.-ni əhatə edə bilər. Məsələn, çay gəzintiləri turistlərə heç bir başqa nəqliyyat növü ilə getmək mümkün olmayan uzaq kəndləri görmək imkanı verə bilər, bu da yerli sakinlərə maddi gəlir gətirər. Bəzi bölgələrdə təyyarə və helikopterlə səfərlər də geniş yayılmışdır. Turproqramlar hazırlanarkən bu imkanlar da nəzərə alınmalıdır.

Aran bölgəsində ilk növbədə təbiət yönümlü turların təşkili maraqlı ola bilər. Ümumiyyətlə, təbiət yönümlü turlardan ən mühümü ekoturizmdir. Ekoturizm dedikdə, “rayonun davamlı inkişafını təmin edən və yerli mədəni-sosial mühitin qorunmasına qayğı göstərən, təbiətlə mehriban münasibətləri formalaşdıran, ekologiya təhsili və maarifçiliyinə istiqamətləndirilmiş təbiətə ziyan vurmayan turizm ” başa



düşülür. Turizmin bu növü Aran bölgəsi üçün də maraqlı ola bilər.

Respublikamızın turizm inkişaf etmiş iqtisadi rayonlarında (Bakı-Abşeron, Şəki-Zaqatala, Quba-Xaçmaz) xüsusi tədbir və festivalların, idman oyunlarının və s. keçirilməsi üçün imkanlar yaradılmışdır və bu sahələrin daha da genişləndirilməsi məqsədilə böyük işlər görülür. Aran bölgəsində də turistləri cəlb edən tədbirlər təşkil etmək olar: Mingəçevir su anbarında avarçəkmə üzrə, Kürdili adasına qayiqla gəzinti, Sarısu gölü sahilində, İmişlidə, Bərdədə balıqçılıq, ovçuluq və s. Həm maddi, həm də qeyri-maddi mədəniyyət daxil olmaqla mədəni irslə tanış etmə metodikası geniş inkişaf etmişdir. Xüsusi tədbir və festivallar turistləri cəlb etmək və yerli əhalini maraqlandırmaq üçün mühüm amil rolunu oynaya bilər. Əgər bölgədə əvvəllər belə tədbirlər keçirilməyibsə, onların təşkilinə başlamaq yerinə düşər.

Aran iqtisadi rayonunda ilk növbədə təbiət yönümlü turların təşkili maraqlı ola bilər. Turizmin bu növünün fərdi və ya kütləvi olması, məhdud təbiəti mühafizə istiqamətli və ya kommersiya məqsədli olması, Aran kimi tənəzzüllü iqtisadi rayon üçün əlverişli olub-olmaması, turlar təşkil etməyin nə dərəcədə məqsədəuyğun olması və s. nəzəri cəhətdən öyrənilməli və sonra təcrübədə tətbiq edilməlidir.

Aran rayonunda elə ərazilər vardır ki, perspektivdə həmin yerlərdə turizmi inkişaf etdirmək olar. Rekreasiya ehtiyatına görə seçilən ərazilərə turlar təşkil etməklə həmin rayonlara turist cəlb etmək olar. Turist baxımlı yerlərdən biri Sarısu gölüdür. Bu göl turizmin inkişafı üçün perspektivli rekreasiya yeri kimi qiymətləndirilir.

Aran rayonunda turizm məqsədilə perspektivli ərazilərdən biri də Şirvan Milli parkıdır. Sirvan parkında xarici tusristlərin qəbul edilməsi üçün hər cür şərait yaradılmışdır. Eyni zamanda Salyan şəhəri ətrafında Kür çayı sahillərində gələcəkdə balıq ovunu sevən turistlər üçün çay balıq ovu (river fish) turizminin perspektivləri barəsində təkliflər verilmişdir.

# XVI FƏSİL
# NAXÇIVAN İQTİSADİ RAYONU

## 16.1. Rayon haqqında ümumi məlumat

Naxçıvan MR iqtisadi-coğrafi mövqeyinə görə respublikanın digər iqtisadi rayonlarından fərqlənir. Azərbaycanın yeganə iqtisadi rayonudur ki, hər tərəfdən xarici ölkələrlə həmsərhəddir. O, cənubdan Türkiyə (13 km) və İranla (204 km), şimaldan və şərqdən Ermənistanla (246 km) həmsərhəddir. Naxçıvan respublikanın Türkiyə ərazisinə çıxışını təmin edən yeganə bölgədir.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın inzibati ərazi bölgüsündə çox fərqli yer tutur. Azərbaycanın əsas ərazisi ilə birbaşa əlaqəsinin olmaması və nisbətən kiçik ərazidə yerləşdiyindən onu Naxçıvan iqtisadi-coğrafi rayonuna aid edirlər. Naxçıvan MR-nin tərkibinə Naxçıvan şəhəri, 7 inzibati rayon - Babək, Culfa, Sədərək, Şahbuz, Şərur, Kəngərli və Ordubad daxildir.

Naxçıvan MR-nın mövcud iqtisadi-coğrafi mövqeyi onun sosial-iqtisadi inkişafında müvafiq çətinliklər yaratmışdır. Belə ki, Qafqaz regionunda ilk dəfə məhz Naxçıvan MR Ermənistan tərəfindən 1988-ci ildə nəqliyyat blokadasına salınmış və vəziyyət bu günə qədər həllini gözləməkdə qalmaqdadır. Regionda cərəyan edən siyasi və sosial-iqtisadi proseslər daha çox Naxçıvan MR-nın inkişafına təsir etmişdir. Naxçıvan MR-nın Ermənistan tərəfindən nəqliyyat blokadasına salınması, onun iqtisadi əlaqələrinin Türkiyə və İran istiqamətlərində genişlənməsinə səbəb oldu.

Naxçıvan iqtisadi rayonunun ümumi sahəsi 5,5 min kv.km, əhalisinin sayı 435,3 min nəfərdir. Azərbaycan ərazisinin 6,3%-i, əhalisinin 4,6%-i Muxtar Respublikanın payına düşür. İqtisadi rayonda əhalinin sayına və sıxlığına görə inzibati rayonlar arasında böyük fərqlər vardır. Bu baxımdan,



Şərur və Şahbuz rayonlarında vəziyyət kəskin şəkildə fərqlənir. Əgər Muxtar Respublikada Sərur rayonu əhalisinin sayına görə (111,2 min nəfər) irəlidədirsə, Şahbuz rayonunda bu göstərici Muxtar Respublika üzrə ən aşağıdır (cəd., 16.1).

**Cədvəl 16.1**

**Naxçıvan iqtisadi rayonunun tərkibi, ərazisi, əhalisi**

| İnzibatı rayon və şəhərlər | Ərazi, min kv. km | Ölkə ərazisinə görə, %-lə | Əhalinin sayı, min nəfər (01.01.2015-ci il) | Ölkənin ümumi əhalisinə görə, %-lə |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası | **86,6** | **100** | **9593,0** | **100** |
| Naxçıvan iqtisadi rayonu - cəmi: | **5,50** | **6,35** | **439,8** | **4,58** |
| Naxçıvan şəhər ə/d | 0,19 | 0,21 | 90,3 | 0,94 |
| Sədərək | 0,16 | 0,18 | 15,4 | 0,16 |
| Şərur | 0,87 | 1,00 | 112,3 | 1,17 |
| Babək | 0,76 | 0,87 | 72,3 | 0,75 |
| Şahbuz | 0,84 | 0,96 | 24,6 | 0,25 |
| Culfa | 1,00 | 1,15 | 45,1 | 0,47 |
| Ordubad | 0,98 | 1,13 | 48,8 | 0,50 |
| Kəngərli | 0,70 | 080 | 31,0 | 0,32 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Naxçıvan MR-nın ərazisinin nisbətən kiçik olmasına baxmayaraq, o, zəngin mineral-xammal ehtiyatlarına malik bölgədir. Naxçıvan MR ərazisində sənaye ehtiyatları təsdiq edilmiş mineral xammal yataqları əsasən Şərur və Ordubad rayonlarındadır. Naxçıvan MR ərazisində müalicəvi əhəmiyyətli mineral su mənbələri də (Badamlı, Sirab, Vayxır və s.) vardır. İstehsal olunan mineral sular həm respublika daxilində istehlak edilir, həm də xarici ölkələrə ixrac olunur.

İqtisadi rayonda 200-dən çox qiymətli mineral bulaqlar yayılmışdır.

İqtisadi rayonda sənaye, kənd təsərrüfatı, ticarət və tikinti sahələri inkişaf etdirilir. Kənd təsərrüfatı sahələri əsasən Şərur və Babək inzibati rayonlarında, sənaye sahəsi Naxçıvan şəhərində inkişaf etmişdir. Əkinçilik əsasən üzümçülük, meyvəçilik və taxılçılıq sahələri ilə təmsil olunmuşdur. İqtisadi rayonda şəkər çuğunduru, tərəvəz və bostan məhsulları da becərilir. Heyvandarlıq nisbətən zəif inkişaf etmiş və ətlik-yunluq, ətlik-südlük maldarlıq, südlük qoyunçuluq üzrə ixtisaslaşmışdır.

Naxçıvanın davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə onun nəqliyyat əlaqələrinin genişləndirilməsi və sahibkarlığın inkişafı üçün yeni imkanlardan istifadə zəruridir. Bu baxımdan, gələcəkdə Türkiyə (Sədərək rayonu) və İran (Culfa rayonu) sərhədlərində xüsusi iqtisadi zonaların yaradılması Naxçıvan MR-nın sosial-iqtisadi inkişafına əhəmiyyətli dərəcədə səbəb ola biləcəkdir.

İqtisadi rayonun turizm ixtisaslaşması - dərketmə, müalicə istiqamətindədir. Dərketmə turizm mərkəzlərindən Naxçıvan şəhəri Qafqazın və Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən olduğundan, tarixi abidələrlə zəngindir.

Möminə Xatun məqbərəsi, Fəzlullah Nəiminin məqbərəsi, məscidlər, "Qızlar bulağı" kompleksi, Əlincə qalası (Culfa), maraqlı turizm obyektləri olan Ordubad bu bölgədədir. Ordubadın memarlıq üslubunun zirvəsi Cümə-məscid hesab olunur. Bu tikili özündə XVI əsrdə İrəvan, Şuşa, Şəki memarlığında geniş yayılmış ideyaları əks etdirir. Ona görə də 1977-ci ildə Bakının İçəri şəhəri, Suşanın və Şəkinin memarlıq abidələri ilə yanaşı Ordubadın tarixi hissəsi də memarlıq qoruğu statusu aldı. Batabat, Qanlı göl sahilində istirahət zonası yaradılmış, pansionat, mehmanxana inşa edilmişdir.



Bölgəyə ziyarətə və ticarət məqsədilə gələnlərin sayı ildən - ilə artır, dini və şop turizm inkişaf edir. Bölgədə irili-xırdalı 30 yerləşmə obyekti, 60 iaşə müəssisəsi fəaliyyət göstərir. Qədim Naxçıvan diyarının memarlıq abidələri, mineral suları, nadir relyef formaları (İlandağ, Əzhabi-kəhf, Nəhacir, Gəmi qaya) bölgədə turizmin inkişafı üçün geniş imkanlar açır.

## 16.2.Rayonun turizm-rekreasiya ehtiyatları

***Təbii rekreasiya ehtiyatları.*** Muxtar Respublikanın relyefi əsasən dağlıqdır (1000 metrdən yuxarı). Səth quruluşunu Zəngəzur və Dərələyaz dağ silsilələri, tirələr arasında Araz çayına doğru uzanan düzənlik sahələri tutur. Ərazisi əsasən dağlıq sahələrdən ibarət olmasına baxmayaraq, burada təbii-iqlim şəraiti meşə zonasının çox az yerlərdə yayılmasına səbəb olmuşdur. İqtisadi rayonun ərazisinin yalnız 0,5%-i meşələrlə örtülmüşdür. Ərazisinin 1/3 hissəsi Arazboyu düzənliklərdən (Şərur, Sədərək, Naxçıvan, Böyükdüz, Culfa, Ordubad) ibarətdir. Düzənliklərin orta yüksəkliyi 700-800 metrdir.

Muxtar Respublikanın turist baxımlı əsrarəngiz təbiətə malik, rekreasiya yeri kimi xüsusilə seçilən məkanı Batabatdır. Batabat - Naxçıvan şəhərindən 62 km şimal-şərqdə, Kiçik Qafqazın yamaclarında, dəniz səviyyəsindən 1700 m yüksəklikdə yerləşən müalicə əhəmiyyətli iqlim kurort zonasıdır. Batabat gölü və Biçənək aşırımı ərazilərində 2003-cü il iyul ayının 16-da Şahbuz Dövlət Təbiət Qoruğu yaradılmışdır. Qoruğun rəsmi açılışı 2004-cü ilin 18 sentyabr tarixində olmuşdur. Buradakı Batabat su anbarı eyniadlı üç göldən ibarətdir. Ümumi su tutumu təqribən 3 mln. $m^3$-dir. Anbarın suyu əsasən Zorbulaq çayı və qismən atmosfer çöküntüləri hesabına formalaşır. Burada əsasən, dağ, göl və dağ-çəmən landşaftı inkişaf edib. İqlimi subtropikdir, qarlı,

mülayim qışı, quru, çox da isti olmayan yayı vardır. Təbiətin gözəl guşələrindən biri olan Batabat yaylağı gül-çiçəkli çəmənlikləri, təbii gölü, təmiz dağ havası, meşələri, Zorbulaq, Südlübulaq kimi şirin suları və "Narzan" tipli mineral suları ilə məşhurdur. Mülayim iqlimi, şirin suyu olan göl, mənzərəli görkəmi və alp çəmənliklərinə məxsus zəngin bitki aləmi insan orqanizminə xoş təsir göstərir və ürək, əsəb və s. xəstəliklərin müalicəsi üçün çox münasibdir. Batabat gölü bu gün turistlərin ən çox diqqətini cəlb edən yerlərdəndir. İsti yay günlərində buraya xeyli sayda insan gəlir.

Naxçıvan MR-in özünəməxsus iqlim şəraiti vardır. Bu iqlim özünün kəskin kontinentallığı ilə Azərbaycanın digər ərazilərinin iqlim xüsusiyyətlərindən fərqlənir. Muxtar Respublikanın iqliminə onun coğrafi mövqeyi - ərazinin hər tərəfdən dağ silsilələri (Koqnur-Alangöz, Zəngəzur və Dərələyəz) ilə əhatə olunması və iri su hövzələrindən (Qara dəniz, Xəzər dənizi) uzaqda yerləşməsi çox təsir göstərir. Ərazinin iqlimi 5 tipə ayrılır:

1. Yayı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl iqlimi-Arazboyu düzənlikləri və qismən alçaq dağlıq sahələri (600-1100 m) əhatə edir. Burada orta illik temperatur 10-14°C, orta illik yağıntı 300 mm-dək, mümkün buxarlanma 1200-1400 mm-dir. Ən isti ayın (iyul) orta temperaturu 29°C, ən soyuq ayın (yanvar) orta temperaturu isə -3-6°C-dir. Bu, helioterapiya üçün şərait yaratsa da, qızmar günəş iqlimlə müalicə imkanlarını məhdudlaşdırır. İl ərzində qar örtüyü 20-40 gün davam edir.

2. Qışı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl iqlimi-alçaq dağlıq qurşağın yuxarı, orta dağlıq qurşağın aşağı hissəsini (1100-1600 m) əhatə edir. Orta illik temperatur 8-10°C, orta illik yağıntı 300-350 mm, mümkün buxarlanma 800-1100 mm-dir. Ən isti ayın (iyul) orta temperaturu 21-26°C, ən soyuq ayın (yanvar) orta temperaturu -4-6°C-dir. Komfort havaların tez-tez təkrarlanması kurort turizminin inkişafı üçün



əlverişli şərait yaradır. Bu iqlim tipi əsasən vərəm, yuxarı nəfəs yolları, ürək - damar sistemi xəstəlilərinin müalicəsi üçün faydalıdır.

3. Yayı quraq keçən soyuq yarımsəhra və quru çöl iqlimi-orta dağlıq qurşağın yuxarı, yüksək dağlıq qurşağın isə aşağı hissəsini (1600-2600 m) əhatə edir. Orta illik temperatur 6-10°C, ən isti ayın (iyul) orta temperaturu 15-20°C, ən soyuq ayın (yanvar) orta temperaturu -6-10°C-dir. Orta illik yağıntının miqdarı 400-800 mm arasında dəyişir; bunun 300-400 mm-i ilin isti yarısında, 200-400 mm-i soyuq yarısında düşür. Təmiz və seyrək dağ havası qan azlığı, vərəm və digər ağciyər xəstəlikləri üçün məsləhət görülür.

4. Yayı quraq və sərin keçən soyuq iqlim-yalnız Zəngəzur silsiləsinin cənub-qərb yamacında, yüksək dağlıq qurşağın mərkəz zolağında, 2600-3200 m yüksəkliklərdə yayılmışdır. Burada yağıntının orta illik miqdarı 600-700 mm-dir. Havanın orta illik temperaturu 1-3°C, ən isti ayın (avqust) orta temperaturu 8-12°C, ən soyuq ayın (yanvar) orta temperaturu -10-13°C-dir.

5. Dağlıq tundra iqlimi-ərazinin yüksək dağ zirvələrini (3200 m-dən yuxarı) əhatə edir, qışın və yayın soyuq keçməsi, yağıntının isə özündən əvvəlki tipə nisbətən az olması və ifrat rütubətlənmə ilə səciyyələnir. Orta illik temperatur -3-8°C, ən soyuq ayın orta temperaturu -13-16°C-dir.

Sonuncu iki iqlim tiplərinin hakim olduğu ərazilərdəki günəş radiasiyasının ümumi miqdarı (150-160 k/kal $sm^2$) bütün Cənubi Qafqaz regionu üçün maksimum miqdar hesab edilir. Ərazidə yüksəklik artdıqca havanın temperaturu azalır. Ən aşağı temperatur yanvar ayında müşahidə olunur. Temperatur fevraldan marta doğru artmağa başlayır. Yayda temperatur daha müntəzəm dəyişir. Havanın maksimum temperaturu avqust ayında olur; sentyabrdan başlayaraq temperatur intensiv surətdə aşağı düşür. Mütləq minimum temperatur -31°C (Dərvişlər), mütləq maksimum temperatur 44°C-dir (Culfa). Bu,

eyni zamanda ölkə ərazisində ən alçaq və ən yüksək temperaturlardır.

Muxtar Respublikanın ərazisi, xüsusilə Araz dərəsi böyük su hövzələrindən uzaq düşdüyündən buraya rütubətli hava kütlələri daxil olmur, ona görə də Azərbaycanın digər regionları ilə müqayisədə bu ərazi atmosfer yağıntılarının məhdudluğu ilə səciyyələnir. Yağıntının çox hissəsi yaz mövsümündə, az hissəsi isə yay mövsümündə düşür; iyul, avqust və sentyabr ayları demək olar ki, yağmursuz olur. Güclü leysan yağışları çox təsadüfi hallarda baş verir, əsasən yerli, dağ-dərə küləkləri əsir. Onların istiqaməti çox vaxt relyefin xüsusiyyətlərindən asılı olur. Küləyin orta illik sürəti 2-4 m/san-dir. Küləklər, əsasən yayda şərq və cənub-şərq, qışda qərb istiqamətli olur.

Muxtar Respublika ərazisinin 1500 m-dən yüksəkdə yerləşən dağlıq hissəsində qar oktyabr - noyabrda düşür və martadək yerdə qaldığı halda, 2000 m-dən yüksəkliklərdə bu hal aprelin axırı-mayın ortalarınadək davam edir. Ərazinin düzənlik hissəsində qar dekabrda yağmağa başlayır və martadək yerdə qalır; burada qar örtüyünün qalınlığı 0,15-0,20 sm-dir.

Naxçıvan müalicəvi ehtiyatlarla zəngindir. Muxtar Respublikada 250-dən çox mineral su mənbəyi qeydə alınmışdır. Azərbaycandakı mineral su ehtiyatlarının 60%-i, karbon qazlı suların isə 35%-i Naxçıvan MR ərazisində yerləşir. Ərazidə suların təbii formalaşmasında relyefin, çay şəbəkəsinin, geoloji mühitin, iqlimin böyük rolu vardır. Naxçıvanın müalicəvi suları müxtəlif tərkibli və yaşlı çöküntülərdən çıxır və bu onların kimyəvi-balneoloji xassələrini müəyyənləşdirir. Muxtar Respublikada mineral suların 6 tipi, 16 sinfi və 33 müxtəlif növü mövcuddur. Bu suların tərkibi hidrokarbonatlı, xloridli, kükürdlü və karbon qazlıdır. Onların əksəriyyətinin temperaturu 8-22°C-dir. "Sirab" və "Darıdağ"da buruq quyularında hərarəti 50°C və daha yuxarı olan sular aşkar edilmişdir.



Naxçıvan ərazisində yerləşən bulaqların böyük əksəriyyəti Şərqi Arpaçay, Naxçıvançay, Əlincəçay, Gilançay, Ordubadçay, Qaradərə və Əylis çaylarının vadilərində və yaxınlıqlarındadır. Onlardan təsərrüfatda, içməli su təchizatında, müalicə məqsədilə və sənayedə istifadə edilir. Mineral sular sırasında məşhur müalicə əhəmiyyətli olanları Şahbuz rayonunda "Narzan" tipli "Badamlı", Culfa rayonunda "Mineqorsk" tipli "Darıdağ", "Nəhəcir", Babək rayonunda "Borjomi" tipli "Sirab", "Pyatiqorsk" tipli "Vayxır", Ordubad rayonunda "Tivi" və başqalarıdır. Bulaqlar əsasında "Badamlı", "Darıdağ" balneoloji müalicəxanaları fəaliyyət göstərir. Muxtar Respublikanın inzibati rayonları üzrə mineral su mənbələrinin yerləşməsində fərqlər vardır.

Şahbuz rayonu. Ərazisindəki çay vadiləri boyu 40 $km^2$ sahədə 50-dək mineral su mənbəyi kəşf olunmuşdur. Rayonun mineral bulaqları arasında məşhur "Badamlı" mineral sular qrupu xüsusi yer tutur.

"Badamlı" mineral suyunun mənbəyi Naxçıvan şəhərinin 30 km-də, Badamlı kəndinin kənarında, badam meşəliyi və üzümlüklə örtülmüş gözəl vadidə, dəniz səviyyəsindən 1274 m yüksəklikdə yerləşir. Bu yer gündəlik debiti 2,5 mln. litrə çatan karbonatlı narzan bulaqları sayəsində məşhurlaşmışdır. Badamlı mineral su yatağı bir neçə bulaqdan ibarət qrup təşkil edir. Suyun kimyəvi tərkibi karbon qazlı, hidrokarbonatlı-xlorlu, natriumlu-kalsiumludur. Badamlı suyunun tərkibində həmçinin yod, brom, mis, borat turşusu vardır. Bu sular olduqca şəffaf, iysiz və rəngsizdir.

Şahbuz rayonunda *"Gömür" mineral bulağı* eyni adlı kənddən 3 km cənub-qərbdə, Gömür çayının sol sahilində, dəniz səviyyəsindən 1700 metr yüksəklikdə yerləşir. Bu yerin iqlimi mülayim-soyuqdur, qışı yumşaq, yayı sərin keçir. Burada olduqca zəngin mineral su yataqları aşkar edilmişdir.

Mineral su yeddi bulaqdan ibarətdir. Bulaqdan intensiv surətdə hidrogen-sulfid qaışığı ilə birlikdə karbon qazı ayrılır.

Suyun temperaturu 15,4-20°C, debiti 230 $m^3$/gün, sərbəst karbon qazının miqdarı 1,3 q/l-dir. Yeraltı sular qədim karst süxurlarını, kükürdlü süxurları yuyaraq hidrogen-sulfid ionları ilə zənginləşir. Ona görə də buradakı mineral sular dodaq büzücü xarakterlidir və xoşagəlməz dada malikdir. Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı, kalsiumlu-natriumlu-maqneziumludur. "Gömür" mineral suyundan vannalar şəklində revmatizm, dəri və digər xəstəliklərin müalicəsində istifadə olunur. "Gömür" istirahət zonası sinir sisteminin funksional xəstəlikləri, yorğunluq, mədə-bağırsaq və tənəffüs yolları xəstəliklərinin müalicəsi üçün xüsusilə əlverişlidir. Bu yerin iqlimi mülayim-soyuqdur, qışı yumşaq, yayı sərin keçir.

*"Biçənək" mineral su bulağı* Biçənək kəndindən 2 km aralıda, meşəlik ərazidə yerləşir. Bir neçə xırda çıxışdan ibarətdir. Mineral su orta eosenin qumdaşıları içərisindəki çatlardan yer səthinə çıxır. Müalicəvi suyun tərkibi karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı-sulfatlı-natriumludur. Debiti 12 $m^3$/gün, temperaturu 10° C-dir. "Biçənək" mineral suyundan mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə olunur.

*"Karvansara" mineral su bulağı* Gömür kəndindən 7 km şimal-şərqdə, dəniz səviyyəsindən 2260 m hündürlükdə yerləşir. Gömürçaym mənbəyində neogen çöküntülərindən səthə çıxır. Bulağın iki çıxışı vardır. Ultra bərk qatılığa malik, zəif minerallaşmış, sulfatlı-hidrokarbonatlı, kalsiumlu-natriumlu-maqneziumlu soyuq sudur. Hidrogen-sulfidin miqdarı 600 mq/l -ə qədərdir. "Karvansara" mineral bulağı Muxtar Respublika ərazisində ikinci hidrogen-sulfidli bulaqdır. Debiti 50 $m^3$/gün, temperaturu 80°C-dir. Mineral su müalicəvi əhəmiyyətə malikdir.

Babək rayonu. Rayonun 1200 $km^2$ ərazisi daxilində 50 mineral su mənbəyi öyrənilmiş, onların 27-si buruq quyuları vasitəsilə aşkar edilmişdir. Müalicə əhəmiyyətinə görə *"Sirab", "Qahab", "Vayxır", "Cəhri"* bulaqları üstündür.



*"Sirab"* Borjomi növlü məşhur müalicə-süfrə suyudur. Suyun mənbəyi Naxçıvan şəhərindən 18 km şimal-şərqdə, Sirab kəndindən 3 km şimalda, dəniz səviyyəsindən 1100 m hündürlükdə yerləşir. Kütləvi şəkildə suyun istifadəsinə 1950-1951-ci illərdən, "Sirab" mineral sudoldurma sexi tikildikdən sonra başlanılmışdır. "Sirab" mineral suyu süfrə suyu olmaqla yanaşı, həm də müalicəvi əhəmiyyətə malikdir. "Sirab" mineral suyu Azərbaycanda çıxan karbon qazlı içməli müalicə sularının ən yaxşı nümunəsi hesab olunur. "Sirab" mineral suyundan müalicə məqsədilə iki yolla istifadə olunur (içmək və vannalar qəbul etməklə).

*"Vayxır"* Yesentuki növlü, karbonatlı, duz-qələvili suların olduqca zəngin yatağı olub, Naxçıvan şəhərindən 18 km şimalda, Vayxır kəndinin şimal-şərqində, dəniz səviyyəsindən 1100 m hündürlükdə yerləşir. 1985-ci ildə Naxçıvan şəhərində illik istehsal gücü 200 mln. ədəd şüşə olan mineral sudoldurma zavodu tikilmiş, Vayxır-Naxçıvan mineral su kəməri çəkilib istifadəyə verilmişdir. "Qızılvəng" eyni adli dəmiryolu stansiyasından 2 km, Araz su anbarının bəndindən 300 m aralıdır. Araz su qovşağının tikintisi ilə əlaqədar bulaqların bir hissəsi su altında qalmışdır.

Rayonda *"Qızılvəng"*, *"Əshabi-kəhf"* mineral su yataqları da vardır ki, bunlar da müalicəvi əhəmiyyətə malikdir.

Culfa rayonunda 900 $km^2$ sahədə 85 mineral su bulağı qeydə alınmışdır. Onlardan 42-si buruq quyuları vasitəsilə aşkar edilmişdir. Bu sular qiymətli karbonatlı-mərgümüşlü olub mineral suların karbonatlı-mərgmüşlü-dəmirli, xlorlu-hidrokarbonatlı-natriumlu tipinə aid edilir.

Dünyanın nadir müalicə sularından sayılan *"Darıdağ"* mərgümüşlü mineral bulağı (Əlincəçay vadisində) bir qədər kənarda yerləşir. "Darıdağ", karbonatlı mərgümüşlü mineral suların təbiətdə təsadüf edilən nadir mənbəyidir. Culfa şəhərindən 8 km şimal-şərqdə, Darıdağın ətəyində, dəniz

səviyyəsindən 800-900 m hündürlükdə yerləşir. Qədim zamanlardan "Darıdağ" mineral sularından müalicə vasitəsi kimi istifadə edildiyi məlumdur. Bu sular vasitəsilə müxtəlif əzələ, oynaq, sümük və dəri xəstəlikləri müalicə olunur. 1978-ci ildə "Darıdağ" mineral su yatağının bazasında balneoloji müalicə mərkəzi yaradılmışdır.

*"Nəhəcir"* Naxçıvan şəhərindən 17 km aralıda, Nəhəcir kəndi yaxınlığında, dəniz səviyyəsindən 1700 m hündürlükdə, Nəhəcir dağının yamacında yerləşən müalicəvi əhəmiyyətli kurort yeridir. Kurort ehtiyatlarının əsasını karbonatlı dəmir hidrokarbonat-natriumlu, minerallaşma dərəcəsi 6 q/l olan su mənbələri təşkil edir. Mineral su kimyəvi tərkibinə görə "Yesentuki" tipli olub, mədə-bağırsaq xəstəliklərində əvəz-olunmaz vasitədir.

Culfa rayonunda mineral su bulaqları vardır ki, bunların da müalicəvi təyinatı müxtəlif istiqamətdədir. Bunlara "Gülüstan", "Ağsal", "Dərəşam", "Dərəlik", "Qazançı" ,"Teyvaz" bulaqları misal ola bilər.

Ordubad rayonunda təqribən 1000 km$^2$ sahədə 29 mineral su bulağı mövcuddur. Onların tərkibində suların müalicə xassələrini müəyyənləşdirən qələvilər mühüm rol oynayır. Rayonun qələvili-hidrokarbonatlı sularının bir qismi məşhur "Narzan"dan geri qalmır, digərləri isə müalicə qabiliyyətinə görə daha üstündür. "Bist", "Dəstə", "Ələhi", "Biləv", "Tivi", "Gənzə" bu qəbildən olan mineral su bulaqlarıdır.

Sədərək rayonu. Rayonda bir neçə müalicə əhəmiyyətli bulaq vardır ki, bunların arasında "Bahasu", "Sədərək" mineral bulaqları daha məşhurdur. "Bahasu", "Şərur","Sədərək", "Dəhnə" mineral su bulaqları əsasən az minerallaşmış hidrokarbonatlı-sulfatlı, kalsiumlu-natriumlu-maqneziumlu və natriumludur.

Kəngərli rayonunda mineral bulaqlar azdır. Nisbətən əhəmiyyətli olanı "Şahtaxtı" mineral su yatağıdır. Şahtaxtı



kəndinin cənub-şərqində, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. Tərkibinə görə Muxtar Respublika ərazisində, əsasən yeganə olan hidrogen-sulfidli, az minerallaşmış, sulfatlı-hidrokarbonatlı kalsiumlu-natriumlu-maqneziumlu su tipinə aid edilir. Bu su Rusiya Federasiyasındakı "Pyatiqorsk" kükürdlü mineral suyunun analoqudur. Mineral su revmatizm və digər xəstəliklər zamanı vanna şəklində qəbul edilir.

Şərur rayonu da mineral su bulaqları baxımından çox zəngin deyildir. 1316 km$^2$ ərazidə cəmi 7 mineral su mənbəyi öyrənilmişdir.

Muxtar Respublikanın yeraltı sərvətlərindən şirin su mənbələri də xüsusi qeyd edilməlidir. Bu mənbələrdən sular müxtəlif vasitə və üsullarla səthə çıxarılır ki, bunlardan da ən maraqlısı kəhrizlərdir. Naxçıvanda kəhrizlərin yaşı çox qədimdir və turist baxımlı obyektlər kimi də çox əhəmiyyətlidir.

Muxtar Respublikanın əsas müalicəvi ehtiyatlarından biri də məşhur duz yataqlarıdır. Naxçıvan qədim zamanlardan duz ehtiyatlarına görə məşhur olmuşdur. Ehtimallara görə, 3 min il əvvəl bu ərazilərdən duz əldə etmişlər. Çıxarılan duz həmçinin mübadilə vasitəsi olmuş, ticarət məqsədilə Şərq və Qərb ölkələrinə daşınmışdır. Naxçıvanın duz ehtiyatları əsasən "Duzdağ", "Nehrəm" və "Püsyan" duz yataqlarında toplanmışdır.

Naxçıvan "Duzdağ" yatağı Naxçıvan şəhərindən 12 km şimal-qərbdə, Kəngərli rayonu ərazisində yerləşir. Bu dağ ölkəmizdə təkcə saf və təmiz duzuna görə deyil, həm də şəfaverici xüsusiyyətinə görə tanınmışdır. "Duzdağ"dan açıq üsulla duz çıxarılması XX əsrin ortalarına qədər mövcud olmuşdur. Naxçıvan duz mədəni bazasında Naxçıvan Respublikası "Duz-Dağ" fizioterapiya xəstəxanası 1979-cu il dekabr ayının 29-dan fəaliyyət göstərir. Burada insanların müalicəsi və istirahəti üçün hər cür şərait yaradılmışdır. Muxtar respublikanın Babək rayonu ərazisində "Nehrəm" daşduz

yatağı, Şərur rayonu ərazisində "Püsyan" daşduz yatağı yerləşir ki, bu yataqlardakı duzların müalicəvi əhəmiyyəti yoxdur.

***Tarixi-mədəni turizm ehtiyatları.*** Naxçıvan Muxtar Respublikasında "Yusif Küseyir" və "Möminə Xatun" türbələri, "Nəimi" türbəsi, Əlincə qalasi, Gilan şəhərinin xarabalıqları, qədim körpülər və s. daxil olmaqla 1162 tarixi-mədəni abidə mövcuddur ki, bunlardan 58-i dünya əhəmiyyətli, 455-i ölkə, 649-u isə yerli əhəmiyyətlidir.

Naxçıvan şəhərinə gələn turistlər burada XII yüzilliyin böyük memarı Əcəmi İbn Əbubəkrin əsərlərindən "Yusif İbn Küseyir" ("Atababa" günbəzi), "Möminə xatun" türbələri, minarəli Cümə məscidi, həmçinin "İmamzadə" türbəsi, "Xan evi" abidəsi və digər abidələrlə tanış ola bilərlər. Qala məhəlləsi deyilən yerdə salınmış açıq səma altında muzey olan "Əcəmi seyrangahı" mədəniyyət və istirahət parkında hər bir eksponat Azərbaycan tarixinin zənginliyindən xəbər verir. Bununla yanaşı şəhərdə fəaliyyət göstərən Mədəniyyət sarayı, Dram teatrı, Kukla teatrı, Heydər Əliyev muzeyi, Xalça muzeyi, Ədəbiyyat muzeyi, Tarix muzeyi, yazıçı-dramaturq Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin ev-muzeyi və digər görməli yerlər də turistlər üçün maraqlı ola bilər.

Gəmiqaya ilə qonşuluqda yerləşən Batabat yaylağı ərazisində arxeoloji qazıntılar zamanı aşkar edilən əmək alətləri və s. maddi mədəniyyət nümunələri Naxçıvanın ən qədim zamanlardan ibtidai insanların yaşadığı ərazilərdən biri olduğunu sübut edir. Batabat yaylağında aparılan tədqiqatlar nəticəsində mustye mədəniyyətinə, tunc, ilk dəmir dövrünə, orta əsrlərə aid abidələr, yaşayış məskənləri, qalalar, ibadətgahlar, qayaüstü rəsmlər, qoç, daş heykəlləri və s. aşkar edilmişdir.

Muxtar Respublikada 1 tarix-memarlıq qoruğu, 1 tarixi bədii qoruq, 2 ziyarətgah kompleksi, 2 tarix-mədəniyyət qoruğu, 3 teatr vardır. Muxtar Respublikada 21 muzey fəaliyyət göstərir.



## 16.3.Rayonda turizm xidmət sahələrinin *müasir vəziyyəti*

Muxtar Respublikada on illərdə infrastrukturun yaxşılaşdırılması istiqamətində xeyli işlər görülmüş, şəhər və rayonlarda milli və müasir memarlığın nailiyyətlərini əks etdirən istirahət parkları və bulaq-abidə kompleksləri istifadəyə verilmiş, müasir tələblərə cavab verən mehmanxanalar tikilmişdir. Həmçinin dünyada analoqu olmayan "Duz-Dağ" və "Badamlı" fizioterapiya xəstəxanaları və "Darıdağ" arsenli su müalicəxanası müasir tələblər səviyyəsində yenidən qurulmuşdur.

2006-cı il dekabrın 21-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunda "Duz-Dağ" sanatoriyasının təməli qoyulmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev bu təntənəli mərasimdə iştirak etmişdir. "Gəmiqaya" şirkəti altımərtəbəli binanı qısa müddətdə inşa etmişdir. Tikinti ilə paralel olaraq, Naxçıvançay vadisindən sanatoriya binasına içməli su xətti çəkilmişdir. Hər il minlərlə xəstənin şəfa tapdığı təbii duz mağarasında müasir tələbələrə uyğun infrastruktur yaradılmışdır.

2008-ci ilin iyun ayında görkəmli açılış mərasimi ilə istifadəyə verilən "Duz-Dağ" sanatoriya kompleksində müayinə, müalicə və istirahət üçün hər cür şərait yaradılmışdır. Prezident İlham Əliyev və Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan "Duz-Dağ" fizioterapiya mərkəzinin açılışında iştirak etmiş, burada yaradılan şəraitlə tanış olmuşlar. Dövlət başçıları kompleksdə yaradılan şəraiti yüksək qiymətləndirmişlər.

"Duz-Dağ" fizioterapiya mərkəzi dəniz səviyyəsindən 1173 m yüksəklikdə yerləşir. Sanatoriya binası zirzəmi ilə bilikdə 7 mərtəbədən ibarətdir. Yeni təyinatlı səhiyyə-sağlamlıq müəssisəsində yerləşən 165 otaqda 287 nəfər üçün normal şərait yaradılmışdır.

2008-ci ilin iyununda duz dağlarının qoynunda "Duz-Dağ" fizioterapiya mərkəzindən 2 km aralıda öz müasirliyi ilə seçilən 5 ulduzlu "Duzdağ" oteli fəaliyyətə başlamışdır. Bu oteldə xəstələrlə yanaşı turistlər də qalırlar. Oteldə "Duzdağ"a gələnlərin istirahəti üçün hər cür şərait yaradılmışdır. 324 yerlik mehmanxana 100 standart, 35 junior suit, 8 suit, 1 king suit və 7 villa olmaqla 151 deluxe nömədən ibarətdir. Bütün nömrələr "Duzdağ" və ya Araz çayı mənzərələri ilə müasir şəkildə dizayn edilmişdir. Mehmanxananın istər dəhlizlərində, istərsə də otaqlarında yaradılan şərait müalicənin keyfiyyətinə müsbət təsir göstərir. Bütün nömrələrdə peyk yayımlı televiziya, internet, telefon, isti və soyuq mərkəzi kondisioner sistemi, minibar, seyf və digər avadanlıqlar quraşdırılmışdır.

"Duzdağ" otelində fəaliyyət göstərən 400 nəfərlik "Araz" restoranında qonaqlara açıq bufet şəklində həm milli, həm də dünya mətbəxinin müxtəlif yeməkləri təklif olunur. Burada həmçinin 50 nəfərlik kafe, TV-salon və kitabxanadan ibarət kompleks, 250 nəfərlik konfrans zalı və konqress mərkəzi fəaliyyət göstərir. Oteldə yerləşən aqua-parkda, acıq və qapalı hovuzlarda, basketbol, futbol meydançalarında, tennis kortlarında və sağlamlıq mərkəzlərində qonaqlara yüksək xidmət göstərilir. "Duzdağ"a Türkiyə, Rusiya, İran, Gürcüstan, Qazaxıstan, Özbəkistan və digər ölkələrdən xəstələr gəlir. Qeyd etmək lazımdır ki, ildən-ilə sanatoriyaya müraciət edənlərin sayı artır.

"Darıdağ" balneoloji müalicəxanası Culfa şəhərinin 8 km-də, "Darıdağ" mineral su yatağı ərazisindədir. Müalicəxana mineral su yatağının əsasında 1978-ci ildə yaradılmışdır. "Darıdağ" mineral suyu ilə müxtəlif ürək-damar sistemi xəstəlikləri, dayaq-hərəkət orqanları, periferik əsəb sistemi, dəri, ginekoloji və s. xəstəliklər, daxilə qəbul etməklə anemiya müalicə olunur. "Darıdağ"a şəfa tapmaq üçün qonşu İran və Türkiyədən çoxlu sayda xəstələr gəlir.



Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq Muxtar Respublikada həyata keçirilən geniş-miqyaslı quruculuq tədbirləri sırasında "Darıdağ" arsenli su müalicəxanası da vardır. Burada yeni müalicəxana obyekti tikilib istifadəyə verilmişdir. Hər gün onlarla xəstə bu balneoloji müalicəxanadan istifadə edir.

"Badamlı" fizioterapiya xəstəxanası Şahbuz rayonu ərazisində, dəniz səviyyəsindən 1274 m hündürlükdə yerləşən "Badamlı" mineral su yatağı əsasında 1980-ci ildə təşkil olunmuşdur. Xəstəxanada mədə-bağırsaq, sidik yolları və qara ciyərin bəzi xəstəlikləri müalicə olunur.

"Badamlı" mineral suyunun istifadədə olan bulaqları əsasında Qafqazda ən böyük mineral sudoldurma zavodlarından biri fəaliyyət göstərir. Zəngin tarixə malik "Badamlı" zavodu 1947-ci ildən Şahbuz rayonunda fəaliyyət göstərmişdir. 1990-ci ildə "Badamlı" zavodu yenidən işə salındı. 2004-cü ildə özəlləşdirilən müəssisə tədricən əvvəlki şöhrətini bərpa etməyə başladı.

"Sirab" mineral suyunun da istifadə olunan mənbələri əsasında sudoldurma zavodu fəaliyyət göstərir. Kütləvi şəkildə mineral suyun istifadəsinə 1950-1951-ci illərdən, "Sirab" mineral sudoldurma sexi tikildikdən sonra başlanılmışdır. "Sirab" mineral sudoldurma zavodu əvvəllər Azərbaycanın iqtisadiyyatında önəmli yerlərdən birini tutmuşdur. "Sirab" mineral su zavodunun fəaliyyəti dayandığından, o, uzun illər baxımsız qalmış, zavodda olan avadanlıqlar tam sıradan çıxmışdı. Ölkəmizdə sahibkarlığın inkişafına yaradılan şərait burada müasir istehsal texnologiyalarına əsaslanan yeni tipli müəssisənin yaradılmasına imkan vermişdir. Hazırda zavodda məhsul istehsal edən iki sex fəaliyyət göstərir. Həmin sexlərdə 5 texnoloji xətt quraşdırılmışdır ki, bu xətlərdə dünya standartlarına uyğun olaraq keyfiyyətli məhsul istehsal olunur.

Naxçıvan Muxtar Respublikasında yeni sosial infra-struktur obyektlərinin istifadəyə verilməsi, müasir yolların

çəkilməsi və bərpası, digər sahələrlə yanaşı turizmin inkişafına da xidmət edir. Müasir dünya standartları səviyyəsində qurulan hər obyekt, yaradılan şərait isə adamlara yeni mədəniyyət aşılayır. Bu yeniliyin təsiridir ki, bu gün Naxçıvanda küçə və meydanlar, park və xiyabanlar öz təmizliyi ilə daha çox seçilirlər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasının ötən dövrdə ardıcıl şəkildə həyata keçirilməsi Respublikada sosial-iqtisadi inkişafın davamlılığını təmin etmiş, xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəlməsinə təkan vermiş, iqtisadiyyata investisiya qoyuluşlarının artmasında mühüm rol oynamışdır. Bu inkişafda özünəməxsus yeri olan Naxçıvan Muxtar Respublikasında həyata keçirilən çoxşaxəli tədbirlər ictimai həyatın bütün fəaliyyət istiqamətlərində, o cümlədən turizm sahəsində də əsaslı nailiyyətlərin əldə olunmasını təmin etmişdir.

İstirahət mərkəzlərində turistlərə göstərilən xidmətin keyfiyyət standartlarına uyğun olması da mühüm əhəmiyyət kəsb edir. Belə ki, xidmətin yüksək keyfiyyəti maddi imkanları olan müştərilərin cəlb olunması üçün mühüm zəmin yaradır, bu da öz növbəsində ölkəyə valyuta daxilolmalarının artmasında böyük rol oynayır. Turizmdə keyfiyyət, bu sahənin inkişafının ən aktual problemlərindən biridir. Beynəlxalq turizm bazarında xidmətin keyfiyyəti rəqabət üçün güclü silahdır. Hər hansı bir ölkənin mehmanxanalarında, restoranlarında, xidmət bürolarında, turizm komplekslərində xidmətdən razı qalan turistlər onların fəal təbliğatçıları olurlar. Onların təkrarən bu yerlərə səfəri turist axınının artmasına və eyni zamanda turizm bölgəsinin şöhrətinin daha da yüksəlməsinə səbəb olur. Nəticədə xidmətin keyfiyyəti turizmin iqtisadi səmərəliliyini artırır.

Beləliklə, Azərbaycanın qədim torpağı olan Naxçıvanın zəngin təbii abidələri, böyük turizm potensialı vardır və Muxtar respublika hər il minlərlə əcnəbi turisti özünə cəlb edir.



Naxçıvan Muxtar Respublikasına gələn turistlərin sayı ildən-ilə artır. Muxtar respublikaya təxminən 60 min nəfər turist gəlmişdir ki, bunun da yarısı xarici ölkə vətəndaşlarıdır (2013). Bunlar əsasən İran İslam Respublikasından və Türkiyədən gələn turistlərdir. Muxtar respublikaya turistlər əsasən istirahət və əyləncə məqsədilə səfər edirlər (cəd., 16.2).

**Cədvəl 16.2**

**Naxçıvan iqtisadi rayonu üzrə səfərlərin məqsədinə görə yerləşdirilmiş şəxslərin sayı, nəfərlə (2014-cü il)**

| İnzibati rayon və şəhərlər | Cəmi | Turizm məqsədilə | İstirahət, əyləncə | İşgüzar səfər | Müalicə turizmi | Digər turizm | Digər məqsədlə |
|---|---|---|---|---|---|---|---|
| Ölkə üzrə cəmi: | 672345 | 550643 | 237506 | 206234 | 70981 | 35922 | 121702 |
| İqtisadi rayon üzrə cəmi | 60074 | 60074 | 27134 | 12992 | 5644 | 14304 | - |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Turistlərin yerləşdirmə vasitələri ilə təminatında əsaslı irəliləyişlər olmuşdur. Muxtar Respublikada beynəlxalq və yerli əhəmiyyətli mehmanxanalar da tikilib istifadəyə verilmişdir. Yuxarıda göstərilən "Duzdağ" otelindən başqa hazırda Muxtar Respublikada yüksək səviyyəli digər mehmanxanalar da fəaliyyət göstərir. Bunlardan Naxçıvan şəhərində "Qrand-Naxçıvan", "Ukrayna", "Təbriz", "Nəqşi-Cahan", "Qartal", "Azər", "Gənclik", "Xəyal" mehmanxanalarını, Culfa şəhərində "Araz", Şərur şəhərində "Muğan" və "Şərur", Şahbuz şəhərində "Şahbuz" mehmanxanalarını göstərmək olar. Ümumiyyətlə, hazırda

Naxçıvan MR-də 22 otel və mehmanxana fəaliyyət göstərir ki, bunlardan 10-u Naxçıvan şəhərindədir.

Naxçıvan şəhərində Dədə Qorqud meydanında "Təbriz" mehmanxanası yerləşir. Mehmanxana 5 ulduzlu, 13 mərtəbəlidir. 95 nömrəsi var və eyni zamanda 100 nəfər qonaq qəbul edə bilir. Burada turistlərin və digər qonaqların qəbulu üçün hər cür şərait yaradılmışdır. Mehmanxanada 150 nəfərlik kiçik və 550 nəfərə xidmət göstərən böyük banket zalı fəaliyyət göstərir.

"Qrand-Naxçıvan" mehmanxanası Naxçıvan şəhərində Nağı Əliyev küçəsində yerləşir. Mehmanxana 4 mərtəbəlidir, 28 nömrəsi var və 56 nəfər qonaq qəbul edə bilər. Mehmanxanada müştərilərin istirahəti üçün gözəl şərait yaradılmışdır.

"Nəqşi-Cahan" yerləşdirmə müəssisəsi Naxçıvan şəhərinin 2-3 km-də, Babək rayonunun Şəkərabad kəndində, Naxçıvançayın kənarında, gözəl təbiətə malik bir sahədə yerləşir. Onun 9 nömrəsindən ikisi lüks, yeddisi adi nömrələrdir. Nömrələrdə yaradılmış rahat şəraitlə yanaşı, qonaqlar təbiətin qoynunda dincələ bilərlər. Oteldə biri 120, digəri 180 nəfərlik iki banket zalı vardır. Burada həmçinin kiçik zoopark, çay kənarında istirahət üçün kotteclər mövcuddur.



**Cədvəl 16.3**

**Naxçıvan iqtisadi rayonunda yerləşdirmə müəssisələrinin ümumi iqtisadi göstəriciləri (2014-cü il)**

| İnzibati rayon və şəhərlər | Yerləşdirmə vasitələrin də nömrələrin ümumi sayı, vahid | | İstismardan əldə olunan gəlir, min manat | |
|---|---|---|---|---|
| | 2010 | 2014 | 2010 | 2014 |
| Ölkə üzrə cəmi: | 14158 | 17363 | 105888,8 | 181047,3 |
| İqtisadi rayon üzrə cəmi: | 654 | 623 | 2582,9 | 4639,3 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Blokada şəraitində yaşayan Muxtar Respublikada nəqliyyat sektorunun inkişaf etdirilməsinin əhəmiyyəti böyükdür. Muxtar Respublikada əsasən avtomobil, hava və dəmir yolu nəqliyyatının xidmətlərindən istifadə olunur.

Avtomobil nəqliyyatı Muxtar Respublika daxilində sərnişin daşınmalarında istifadə olunan əsas nəqliyyat növüdür. Muxtar Respublikanın əksər kəndləri və rayon mərkəzləri marşrut avtobusları ilə təmin edilmişdir.

Qonşu ölkələrlə əlaqələrin möhkəmləndirilməsi və sərnişin daşınmasında da avtomobil nəqliyyatının rolu böyükdür. Belə ki, İran İslam Respublikasının "Didari Seyri Giti" və "Nil Çeşmi Qostar" nəqliyyat şirkətləri ilə Naxçıvan-Təbriz-Tehran, Naxçıvan-Urmiya və əks istiqamətlərdə marşrutlar üzrə sərnişin daşıma üçün müqavilələr bağlanmışdır. Azərbaycanın əsas ərazisi ilə gediş-gəlişi asanlaşdırmaq məqsədilə 2007-ci ilin sonlarından etibarən İran ərazisindən keçməklə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə müntəzəm avtobus reysləri işləyir.

Türkiyə Respublikasının "İqdırlı Turizm" və "Can İqdır" avtomobil şirkətləri ilə bağlanmış müqavilələrə əsasən Türkiyənin İstanbul, Ankara, İzmir, Antalya və digər böyük şəhərlərinə sərnişin daşıma xidməti göstərilməkdədir. Azərbaycanı Türkiyə ilə birləşdirən yeganə quru yolu olan Naxçıvan-Sədərək magistralı (uz. 82 km) Kəngərli, Şərur və Sədərək rayonlarını əlaqələndirir.

Naxçıvanda daxili yol infrasturkturu da inkişaf edir. Avtomobil nəqliyyatının inkişafı mövcud yolların vəziyyətindən xeyli dərəcədə asılıdır. Rayon mərkəzləri ilə ən ucqar dağ kəndləri arasında əlaqələri yaxşılaşdırmaq məqsədilə Muxtar Respublikada dövlət proqramı həyata keçirir. Naxçıvan Muxtar Respublikası "Avto Yol" Dövlət Şirkəti sərhəd kəndlərinə gedən yolları abadlaşdırır. Şirkət hazırda 1473 km avtomobil yoluna nəzarət edir. Bu yolların 274 km-i respublika əhəmiyyətli, 1199 km-i isə yerli əhəmiyyətli yollardır. Avtomobil yollarının müasir dünya standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilməkdədir.

Naxçıvanın Türkiyə və İran İslam Respublikası istisna olmaqla digər ölkələrlə nəqliyyat əlaqələri blokada ilə əlaqədar əsasən hava nəqliyyatı vasitəsilə mümkündür. 2004-cü ildə istifadəyə verilən Naxçıvan Beynəlxalq Hava Limanı ən müasir standartlara uyğun tikilmişdir. Hava Limanının ölkədaxili və xarici əlaqələri də genişlənmişdir. Hazırda bu hava limanından Azərbaycanın Bakı və Gəncə şəhərlərinə təyyarələr yola salınır. Eyni zamanda Naxçıvan-Moskva, Bakı-Naxçıvan-İstanbul və əks istiqamətlərdə reys edən təyyarələr vasitəsilə beynəlxalq sərnişin daşıma xidmətləri göstərilir.

Qeyd edək ki, bu reyslərdən ən çox şopturizmlə məşğul olanlar istifadə edir. Naxçıvan Hava Limanında təyyarələr vasitəsi ilə həmçinin sərnişinlərin yola salınması və yük daşınması işi də yaxşılaşdırılmışdır. Hər gün Naxçıvandan Bakıya 3 reyslə sərnişin və yük daşınması təmin edilmiş və nizamlanmışdır.



Muxtar Respublikada dəmir yolu nəqliyyatı da sərnişin daşınmasında mühüm əhəmiyyət kəsb edir. Ermənistanın təcavüzkar siyasəti nəticəsində Muxtar Respublikanı Azərbaycanla əlaqələndirən dəmir yolunun fəaliyyəti 1992-ci ilin əvvəllərindən tamamilə dondurulmuşdur. Hazırda Azərbaycan dəmir yolu Naxçıvan bölməsi tərəfindən Naxçıvan-Ordubad və Naxçıvan-Şərur istiqamətində daxili sərnişin daşıma xidmətləri göstərilir. Araz çayı boyunca Bakı-İrəvan dəmir yolu xəttinin 190 km-ə qədəri Muxtar Respublika ərazisindən keçir. Bu dəmir yolu xəttinin Culfadan keçən hissəsindən İran İslam Respublikasının Təbriz şəhəri istiqamətində qol ayrılır. Naxçıvan-Təbriz və əks istiqamətdə sərnişin qatarlarlarının hərəkəti üçün İran İslam Respublikası ilə müqavilə bağlanmışdır və bu istiqamətdə sərnişin qatarları həftədə 2 dəfə hərəkət edir.

Muxtar Respublikada istirahət və əyləncə zamanı iaşə xidməti göstərən obyektlərdən "Naxçıvan", "Təbriz", "Xəyal", "Azər", "Qala", "Gülüstan", "Ukrayna", "Araz" restoranlarını, "Qarabağ", "Sünbül", "Kosmos", "Külək", "Baykanur", "İstanbul", "Dörd qardaş" kafelərini göstərmək olar.

Muxtar Respublikada asudə vaxtın səmərəli təşkili, yeni idman-sağlamlıq obyektlərinin tikintisi də diqqətdən kənarda deyil. Naxçıvan şəhərində beynəlxalq standartlara cavab verən əyləncə mərkəzi istifadəyə verilmiş, Kəngərli rayon mərkəzində stadion və minifutbol meydançası inşa olunmuşdur. Şərur şəhərindəki Olimpiya-İdman kompleksi də istifadəyə verilmişdir. Muxtar Respublikada həmçinin aşağıdakı və istirahət obyektləri- "Gənclik" ticarət və istirahət mərkəzi, Heydər Əliyev adına uşaq-gənclər istirahət parkı, "Əcəmi seyrəngahı", "Qızlar bulağı" kompleksləri, "Qarabağ" meydanı, İstirahət parkı da fəaliyyət göstərir.

Naxçıvan MR-də bir neçə istiqamətdə həm uzunmüddətli müalicə turları, həm də bir günlük sağlamlıq turları təşkil etmək mümkündür.

Muxtar Respublikada uzunmüddətli müalicəvi turların təşkil oluna biləcəyi əsas müalicə mərkəzləri "Duz-Dağ" fizioterapiya mərkəzi, "Badamlı" fizioterapiya xəstəxanası və "Darıdağ" balneoloji müalicəxanasıdır. Bu turların müddəti müalicə kurslarından asılı olaraq bir həftədən 3 həftəyədək uzana bilər. Bir günlük turlar isə əsas müalicəvi mineral suların ətrafına və orada yerləşən istirahət mərkəzlərinə təşkil oluna bilər. Belə ki, turistlər Naxçıvan şəhərində müasir tipli otellərdə yerləşdirildikdən sonra, bir günlük sağlamlıq turlarında iştirak edə bilərlər. Bu turlar müalicəvi mineral suların mənbəyinə və yaxınlıqda yerləşən tarixi-memarlıq abidələrinə təşkil oluna bilər.

Beləliklə, turistlər həm mineral sular, həm də ətraf ərazilərdə yerləşən memarlıq və təbiət abidələri, ziyarəgahlarla tanış olmaq imkanı əldə edirlər. Həmçinin, müalicə mərkəzlərinə yaxın ərazidə yerləşən tarixi-memarlıq, mədəni, arxeoloji və təbiət abidələrinə turlar təşkil etmək olar.

Respublikada bir günlük turlar aşağıdakı istiqamətlərdə təşkil oluna bilər: Naxçıvan-Sirab-Naxçıvan; Naxçıvan-Vayxır-Badamlı-Naxçıvan; Naxçıvan-Culfa-Qazançı-Nəhəcir-Naxçıvan; Naxçıvan-Şahbuz-Gömür-Naxçıvan; Naxçıvan-Culfa-Darıdağ-Naxçıvan; Naxçıvan-Qahab-Naxçıvan; Naxçıvan-Şahbuz - Bataba t-Naxçıvan, Naxçıvan-Ordubad-Gənzə.

Naxçıvan-Şahbuz-Gömür-Naxçıvan marşrutu istiqamətində hərəkət edən turistlər Şahbuz şəhərində diyarşünaslıq muzeyi, "Fərhad evi" abidəsi ilə tanışlıqdan sonra olduqca zəngin mineral su yataqları olan "Gömür" istirahət zonasında; Naxçıvan-Şahbuz-Batabat-Naxçıvan istiqamətində hərəkət edən turistlər isə Batabat müalicəvi iqlim kurort zonasında ola bilərlər.

Naxçıvan-Qahab-Naxçıvan marşrutu ilə hərəkət edən turistlər Qahab kəndinin yaxınlığında yerləşən "Əshabi-kəhf" mineral bulağı ilə yanaşı yaxınlıqda yerləşən "Əshabi-kəhf" ziyarətgahına da baş çəkə bilərlər.

Naxçıvan-Vayxır-Badamlı-Naxçıvan marşrutu turistlərə gün ərzində iki müalicəvi mineral bulağa tamaşa etmək imkanı verir.

Naxçıvan-Sirab-Naxçıvan marşrutu üzrə hərəkət edən turistlər "Sirab" mineral bulağı ilə tanış olduqdan sonra "Sirab" mineral sudoldurma zavoduna təşkil olunmuş kiçik ekskursiyada iştirak edə bilərlər.

Naxçıvan-Culfa-Qazançı-Nəhəcir-Naxçıvan marşrutu ilə hərəkət edən turistlər Culfa şəhərində qədim məqbərələri ziyarət etdikdən sonra Qazançı kəndinə yönəlməklə, burada XV-XVI əsrlərə aid edilən və xalq arasında "Qozbel körpü" adlanan Qazançı körpüsünü gördükdən sonra isə Əlincəçayın hövzəsində yerləşən Qazançı mineral bulağını seyr edə bilərlər. Daha sonra isə turistlər Nəhəcir dağının yamacında yerləşən, 2 bulağı olan müalicəvi əhəmiyyətli kurort yerinə yollana bilərlər.

Naxçıvan-Culfa-Darıdağ-Naxçıvan marşrutu üzrə hərəkət edən turistlər isə Culfa şəhəri ilə tanış olduqdan sonra, şəhərdən 8 km şimal-şərqdə yerləşən "Darıdağ" mərgümüşlü mineral suyu və onun əsasında inşa edilmiş Darıdağ balneoloji müalicəxanası ilə tanış olmaq imkanı əldə edirlər.

Naxçıvan-Ordubad-Gənzə marşrutu ilə hərəkət edən turistlər Ordubad şəhərində orta əsrlərə aid Cümə məscidi, Dilbər məscidi, XVIII əsrə aid Əfqan qalası, "Qeysəriyyə" deyilən günbəzli, üstüörtülü ticarət kompleksi (XIX-XX əsrlər) kimi qədim abidələrlə, həmçinin diyarşünaslıq muzeyi və Ordubad ipək kombinatı ilə tanış ola bilərlər. Şəhərdən Gənzə kəndi istiqamətində yola düşən turistlər burada şəffaf və xoş tamlı suyu olan "Gənzə" bulağının ətrafında dincələ bilərlər.

Kurort-sağlamlıq turproqramları müxtəlif olsa da, belə turların təşkilinə ümumi tələblər vardır. Turizm məhsulunu hazırlayarkən nəzərə almaq lazımdır ki, bu turlar, öz

sağlamlığını bərpa etmək və istirahət etmək istəyən insanlar üçün hazırlanır.

Muxtar Respublikada turizmin imkanları onun əlverişli coğrafi mövqeyi, özünəməxsus mətbəxi və yüksək qonaqpərvərlik ənənələri ilə də ölçülür. Naxçıvan diyarı əlverişli coğrafi mövqeyə malikdir. Tarixi İpək Yolu üzərində yerləşən Muxtar Respublikanın Türkiyə və İranla həmsərhəd olması bu bölgəyə gələcəkdə turist axınının perspektivindən xəbər verir. Məhz buna görə də, bir çox xüsusiyyətlərinə görə həm qonşu dövlətlərin, həm də dünyanın güc mərkəzlərinin maraqlarının kəsişdiyi, əlverişli geosiyasi mövqeyi olan Naxçıvanın turizm imkanlarının vaxtında qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Naxçıvanın malik olduğu digər mühüm xüsusiyyətlərindən biri isə bu bölgənin zəngin tarixi keçmişə malik olmasıdır.

Sərhədyanı ticarətin genişlənməsi, İran və Türkiyəyə çıxış imkanının rahat olması Naxçıvanın turizm əlaqələrini genişləndirən amillərdəndir. Əhalinin həyat səviyyəsinin yüksəlməsi iş adamlarını biznesin daha geniş və cəlbedici formaları ilə məşğul olmağa sövq edir. Bu baxımdan da beynəlxalq turizm bölgə əhalisi üçün gələcəkdə daha çox fayda götürə biləcəyi bir sahəyə çevrilə bilər.

Naxçıvanda turizmi bir çox istiqamətlərdə inkişaf etdirmək mümkündür. MR-da gələcəkdə ekoturizm, müalicə-sağlamlıq turizmi, dini turizm, kənd-yaşıl turizminin inkişafına ümidlə baxmaq olar.

Naxçıvanda müxtəlif məzmunlu beynəlxalq tədbirlər də təşkil edilir. 2006-cı ilin noyabrında Naxçıvan şəhərində "Turizm, inkişaf və perspektivlər" mövzusunda keçirilmiş beynəlxalq konfrans Muxtar Respublikada turizm sektorunun inkişaf etdirilməsi istiqamətində uğurlu addım olmuş və yeni layihələrin hazırlanmasına təkan vermişdir. Naxçıvan şəhər İcra hakimiyyətinin binasında baş tutan tədbirdə Türkiyə və İran İslam Respublikasından gələn nümayəndə heyətləri



tərkibində turizm şirkətlərinin nümayəndələri, Qars, Ərzurum və İqdır mədəniyyət və turizm şöbələrinin rəhbərləri, o cümlədən yerli nümayəndələr iştirak etmişlər. Beynəlxalq konfransda Naxçıvan Muxtar Respublikasının turizm imkanları mövzusunda çıxışlar edilmiş, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

2008-ci il 20-22 may tarixində isə Naxçıvanda Turizm Nazirlərinin V İslam Konfransında Azərbaycan Respublikasının sədrliyi çərçivəsində "Dini və sağlamlıq turizmi: mənəvi və fiziki istirahətin təşkili" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Tədbirdə Azərbaycanın müxtəlif bölgələri ilə yanaşı Türkiyə, İran, Qazaxıstan, İordaniya, Misir, Qabon, Mərakeş və başqa ölkələrin nümayəndələri də iştirak etmişlər. Konfransın əsas məqsədi İslam dünyasında dini turizm və ziyarətlərin əhəmiyyəti üzrə təcrübə mübadiləsindən, din və sağlamlıq ocaqlarının mahiyyəti, onun turizm məqsədləri üçün səmərəli idarə edilməsindən, həmçinin davamlı inkişaf üçün dini və sağlamlıq turizmi çərçivəsində dövlət dəstəyinə dair qarşılıqlı müzakirələrin aparılmasından ibarət olmuşdur. Konfrans nəticəsində dini və sağlamlıq turizm istiqamətləri üçün infrastrukturun inkişaf etdirilməsi, təbliğat vasitələrinin genişləndirilməsi, İslam dünyasında dini və sağlamlıq turizmi haqqında məlumat bazasının yaradılması, qarşılıqlı infoturların təşkili, insan resurslarının inkişaf etdirilməsi, dini və sağlamlıq turizminin layihələrində dövlət və özəl sərmayələrin cəlb edilməsi və s. tövsiyələr xüsusilə qeyd edilmişdir.

Beləliklə, Naxçıvan turizm bölgəsinin həm ecazkar təbiətə, həm də qədim tarixə malik olması onun turizm imkanlarının genişlənməsinə səbəb olmuşdur. Burada intensiv baş verən tektonik proseslər nəticəsində uçqun və dağılma hadisələri sürətlənmiş, nəticədə ecazkar görünüşlü göllər yaranmışdır. "Üzən ada" kimi məşhur olan Batabat, Qanlı göl ekoturizmin təşkili üçün potensial ehtiyatlar

hesab edilir. Həmçinin, Naxçıvan turizm bölgəsinin minerallarla zəngin bulaqları, duz mağaraları müalicə-sağlamlıq turizminin inkişafı üçün əlverişli şərait yaradır. Bu sahənin geniş inkişaf etdirilməsi məqsədilə bölgədə dünyada ilk sayılan Duz oteli inşa edilmişdir. Bunlarla yanaşı Naxçıvan turizm bölgəsində turizm sənayesinin inkişaf etdirilməsi üçün böyük siyasi, iqtisadi və sosial problemlər mövcuddur. Bu problemləri yaradan başlıca amil isə Ermənistanın apardığı işğal siyasəti nəticəsində Naxçıvan turizm bölgəsinin blokadaya alınmasıdır. Blokada şəraiti bölgənin kommunikasiya imkanlarını məhdudlaşdırmış, nəticədə təsərrüfatın bir çox sahələrinin, o cümlədən turizmin inkişafını ləngitmişdir. Bunları aradan qaldırmaq üçün dövlət miqyasında layihələr həyata keçirilir. İlk öncə bölgədə azad sahibkarlığın inkişafı üçün zəruri olan nəqliyyat vasitələrindən sərbəst istifadənin məhdudlaşdırılması, ərazinin kommunal xidmətlərlə təmin olunmasında bir çox çətinliklərin yaranması və siyasi baxımdan gərgin ərazidə yerləşməsi turizmin inkişafına əngəl yaradan əsas amillərdir. Bu amillər öz növbəsində bölgədə yaradılmış turizm sənayesinin inkişafına mane olur, qarşıya qoyulan strategiyanın tam reallaşdırılmasında əngəlliklər yaradır və nəticədə yatırılmış investisiyanın özünü doğrutmamasına gətirib çıxarır. Bölgədə turizmin inkişafının zəif olması sosial baxımından bir çox problemlərin yaranmasına səbəb olmuşdur. Belə ki, əhalinin yaşayış səviyyəsi aşağı düşdüyündən, immiqrasiyanın miqyası artmış və nəticədə ailələrdə sosial gərginliklər artmışdır.



# XVII FƏSİL
# YUXARI QARABAĞ İQTİSADİ RAYONU

## 17.1. Rayon haqqında ümumi məlumat

Yuxarı Qarabağ iqtisadi rayonu Kiçik Qafqazın şərq və cənub-şərq hissəsində - dağlıq, dağ ətəyi və düzən ərazilərdə yerləşir. O, cənubdan İran İslam Respublikası, şimaldan Gəncə-Qazax, qərbdən Kəlbəcər-Laçın və şərqdən Aran iqtisadi rayonları ilə həmsərhəddir. Yuxarı Qarabağın Ermənistana yaxın ərazidə yerləşməsi onun iqtisadi və nəqliyyat-coğrafi mövqeyinin xeyli gərginləşməsinə səbəb olmuşdur.

Yuxarı Qarabağ iqtisadi rayonunun tərkibinə Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları və Xankəndi şəhəri daxildir. 1991-1993-cü illərdə iqtisadi rayonun Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl rayonları və Xankəndi şəhəri tamamilə, Ağdam və Füzuli rayonlarının əraziləri isə qismən (Ağdamın hazırda yalnız 10 kəndi Azərbaycanın nəzarəti altındadır) və Füzuli (rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd vardır) Ermənistan tərəfindən işğal olunmuşdur. Bu da iqtisadi rayonun ərazisinin təxminən 90%-ni təşkil edir (cəd., 17.2).

Rayonun sahəsi 7,33 min kv. km (respublika ərazisinin 8,46%-i), əhalisi 653,5 min nəfərdir (ölkə əhalisinin 6,8%-i). Ərazisinin böyüklüyünə görə Xocavənd birinci, Füzuli rayonu ikinci yerdədir. Əhalisinin sayına görə Ağdam, Füzuli rayonları irəlidədir (cəd., 17.1). İşğal olunmuş ərazilərdən köçkün düşmüş soydaşlarımızın bir hissəsi Ağdam və Füzuli rayonlarının erməni işğalına məruz qalmayan ərazilərində və respublikanın digər rayonlarında məskunlaşmışlar.

Yuxarı Qarabağ iqtisadi rayonu Bakı-Şuşa turizm marşrutu üzərindədir. Turizm ixtisaslaşması - sağlamlıq-müalicə, dərketmə istiqamətində olmuşdur.

Cədvəl 17.1

**Yuxarı Qarabağ iqtisadi rayonunun tərkibi, ərazisi, əhalisi**

| İnzibati rayon və şəhərlər | Ərazi, min kv. km | Ölkə ərazisinə görə, %-lə | Əhalinin sayı, min nəfər (01.01.2015-ci il) | Ölkənin ümumi əhalisinə görə, %-lə |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası | **86,6** | **100** | **9593,0** | **100** |
| Yuxarı Qarabağ iqtisadi rayonu - cəmi: | **7,33** | **8,46** | **653,5** | **6,8** |
| Cəbrayıl rayonu | 1,05 | 1,21 | 76,6 | 0,79 |
| Füzuli rayonu | 1,39 | 1,60 | 125,4 | 1,3 |
| Ağdam rayonu | 1,15 | 1,32 | 191,7 | 1,99 |
| Tərtər rayonu | 0,96 | 1,10 | 101,8 | 1,06 |
| Xocalı rayonu | 1,00 | 1,15 | 27,5 | 0,28 |
| Şuşa rayonu | 0,31 | 0,35 | 32,1 | 0,33 |
| Xocavənd rayonu | 1,46 | 1,68 | 42,9 | 0,44 |
| Xankəndi şəhər ə/d | 0,01 | 0,01 | 55,5 | 0,55 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**



Cədvəl 17.2

**Yuxarı Qarabağ iqtisadi rayonu haqqında bəzi məlumatlar**

| Rayon və şəhərin adı | Sahəsi, min kv.km | Əhalisi,min nəfər (01.01.2015-ci il) | İşğal olunduğu tarix | Dağıdılmış tarixi abidələrin sayı |
|---|---|---|---|---|
| Xankəndi | 0,01 | 55,5 | 1991-ci il, 26 dekabr | 103 |
| Ağdam | 1,15 | 191,7 | 1993- cü il, 23 iyul | 27 |
| Xocavənd | 1,46 | 42,9 | 1992-cü il, 2 oktyabr | 15 |
| Xocalı | 1,00 | 27,5 | 1992-cü il, 26 fevral | - |
| Susa | 0,31 | 32,1 | 1992-ci il, 8 may | 17 |
| Cəbrayıl | 1,05 | 76,6 | 1993-cü il, 23 avqust | - |
| Füzuli | 1,39 | 125,4 | 1993-cü il, 23 avqust | 15 |

Yuxarı Qarabağ rayonunda iqtisadiyyatın əsasını işğal olunanadək kənd təsərrüfatı təşkil edirdi. Kənd təsərrüfatının başlıca sahələri üzümçülük, taxılçılıq, meyvəçilik, pambıqçılıq və tütünçülük idi. Regionda həmçinin meyvə, kartof, bostan-tərəvəz məhsulları becərilirdi. Rayonda barama saxlanması üçün geniş sahələrdə tut bağları salınmışdı. İqtisadi rayonda heyvandarlıq, əsasən ətlik-südlük, yüksək dağlıq sahələrdə isə ətlik-yunluq istiqamətlərində inkişaf edirdi. İqtisadi rayonun sənayesi yerli kənd təsərrüfatı xammalının emalına əsaslanırdı.

## 17.2.Rayonun turizm-rekreasiya ehtiyatları

***Təbii rekreasiya ehtiyatları.*** Yuxarı Qarabağ iqtisadi rayonunun ərazisi müxtəlif təbiət abidələri, rəngarəng fauna və flora aləmi yeraltı və yerüstü sərvətlər və s. ilə zəngindir.

Relyefinə görə ərazisi dağlar və düzənliklərdən ibarətdir. İqtisadi rayonun şimal hissəsini Murovdağ silsiləsinin yamacları, mərkəz, qərb və cənub hissəsini Qarabağ silsiləsinin yamacları, şimal-şərq və şərq hisəsini düzənliklər tutur. Ərazidə Murovdağ və Qarabağ silsilələri Qarabağ və Mil düzlərinə tərəf alçalan bir neçə yan qola ayrılmışdır. Silsilələr və onların yan qollarının çaylarla parçalanması nəticəsində dərin və sıldırım yamaclı dərələr əmələ gəlmişdir. Orta dağlıqda çay dərələrinin genişləndiyi sahələrdə mənzərəli dağarası çökəkliklər (Dovşanlı, Xankəndi və s.) vardır.

Dağətəyi və orta dağlıq zonada əsasən, qışı quraq keçən mülayim isti, yüksək dağlıq zonada isə qışı quraq keçən soyuq iqlim hakimdir. Düzən və dağətəyi yerlərdə Orta temperatur yanvarda 2-0,5°C, yüksək dağlıqda -5-13°C-yə qədərdir. İyul ayında isə bu göstərici müvafiq olaraq 25-26°C və 15-14°C təşkil edir. İllik yağıntı düzən və dağətəyi yerlərdə 500-600 mm, yüksək dağlıqda 800-950 mm-dir. Murovdağ silsiləsinin yüksək zirvələri bəzən il boyu qarlı olur. Bu qış turizmi üçün əlverişlidir. Çayları Kür (Tərtər, Qarqar) və Araz (Köndələnçay) hövzələrinə aiddir. Bölgənin yeraltı və yerüstü sərvətləri, xüsusilə müalicə əhəmiyyəti olan mineral sulardır. Burada 120-dən artıq mineral bulaq vardır. Mineral su mənbələrindən ən mühümləri Şuşa rayonu ərazisindəki Turşsu, Şırlan bulaqlarıdır. Turşsu mineral bulağı Şuşa şəhərindən 17 km-lik məsafədə yerləşir və bulağın suyu kəmər vasitəsi ilə Şuşa şəhərinə axıdılırdı. Florası zəngindir. Düzən yerlərdə çöl və yarımçöl bitkiləri, dağ yamaclarında kolluqlar və enliyarpaqlı meşələr (fıstıq, palıd, vələs və s.) geniş yer tutur. Yuxarı Qarabağ bölgəsi respublikamızın meşəli ərazilərindən-



dir. Ərazisinin 30%-i meşələrdir. 2000-2300 m yüksəklikdə subalp və alp çəmənlikləri yayılmışdır.

Bölgənin meşələri, dağları, mineral bulaqları, balneoloji iqlim şəraiti və s. kurort-sağlamlıq təsərrüfatının inkişafına imkanlar açır. İqtisadi rayonda balneoloji dağ-iqlim kurortu (Şuşa), istirahət zonası (Gülablı) vardır. Uzun illər ərzində Şuşada fəaliyyət göstərmiş dağ-iqlim kurortunda komfort iqlim, mineral sular insanların müalicə və istirahətinin səmərəli keçməsinə imkan yaradırdı.

Qafqaz konservatoriyası adlandırılan Qarabağ Azərbaycanın xalq musiqisi və poeziyası diyarıdır. Turşsu və İsa bulağı tarixən Qarabağın poeziya və musiqi məclislərinin təşkil edildiyi ocaq kimi də tanınırdı. Azərbaycanda yeganə olaraq Şuşa rayonu ərazisində bitən nadir Xarı bülbül çiçəyi Qarabağın musiqi və gözəllik rəmzinə çevrilmişdir.

***Tarixi-mədəni turizm ehtiyatları.*** Yuxarı Qarabağ bölgəsi tarixi-mədəni abidələrlə zəngindir. Bölgədə dünya əhəmiyyətli memarlıq və arxeoloji abidələr vardır. Dünya əhəmiyyətli memarlıq abidələrinə Ağdam rayonunun Xaçın Türbəli kəndində türbə (XIX əsr), Cəbrayıl rayonunda 11 tağlı (XI-XII əsrlər) və 15 tağlı (XIII əsr) Xudafərin körpüləri; dünya əhəmiyyətli arxeoloji abidələrə Füzuli rayonunda Azıx, Tağlar mağaraları (paleolit dövrü), Ağdam rayonunun Əfətli kəndində Çalağantəpə yaşayış yeri (eneolit dövrü), Quzanlı qəsəbəsində Leylantəpə yaşayış yeri (eneolit dövrü), Ağdam şəhərində Üzərliktəpə yaşayış yeri (tunc dövrü), Tərtər rayonunda Borsunlu kurqanları (tunc və ilk dəmir dövrü), Xocalı rayonunda Xocalı kurqanları (tunc-ilk dəmir dövrü), Cəbrayıl rayonunun Xubyarlı kəndində Niftalı kurqanları (tunc dövrü) aid edilir.

Bölgədə ölkə və yerli əhəmiyyətli tarix və mədəniyyət abidələrinin sayı daha çoxdur. Ümumi halda qeyd edə bilərik ki, ölkə əhəmiyyətli memarlıq abidələrindən alban məbədləri ilə Xocavənd (16 alban məbədi), Xocalı (6 alban məbədi)

rayonları daha zəngindir. Xocavənd rayonunda ən qədim tarixə malik alban məbədi IV-VI əsrlərə aid edilir (Süsənlik kəndi). Şuşada XVIII əsrdə yaşamış xanların evləri, sarayları, qəsrləri, məscidlər, türbələr (XVIII-XIX əsr) çoxdur. Cəbrayıl, Füzuli, Ağdam rayonlarının tarixi kəndlərində çox sayda qala, məscid və digər inanc yerləri vardır. Əfsuslar olsun ki, bölgənin bütün sərvətləri, o cümlədən turizm-rekreasiya ehtiyatları erməni işğalçıları tərəfindən istismar edilir və dağıdılır.

Ümumiyyətlə, işğal olunandan sonra iqtisadi rayona turizm məqsədilə səfər edən olmamışdır. Digər məqsədlərlə səfər edənlərin sayı isə 530 nəfər təşkil etmişdir (2014-cü il). Bölgədə balneoloji dağ-iqlim kurortu (Şuşa), istirahət zonası (Gülablı) yerləşir. Zəngin və cəlbedici turizm obyektləri: məqbərələr, məscidlər, karvansaralar, qüllələr (Ağdam), Azıx mağarası (Füzuli), Ağgöl qoruğu (Ayrıca) və başqalarıdır.

Şuşa mühüm turizm mərkəzidir. Şəhərin coğrafi mövqeyinin xüsusiyyəti, təbiətinin gözəlliyi və tarixi abidələrinin zənginliyi rus diyarşünası V.İ. Seqalın yazılarında, Vereşaq Genin və Timin rəsmlərində əks edilmişdir. Şuşada qədim qala divarları, Qarabağ xanlarının iqamətkahları, X.Natəvanın ev muzeyi, M.P.Vaqifin məqbərəsi, Daşaltı dərəsi, Xəzinə Qala mağarası, Alban kilsələri turistləri cəlb edən obyektlər olmuşdur. Uzun illər Şuşa sanatoriya dağ kurort birliyi, Şəfa turizm kompleksi, 9 mərtəbəli Qarabağ mehmanxanası turistlərin ixtiyarında olmuşdur. Erməni işğalı nəticəsində bu obyektlərin böyük əksəriyyəti dağıdılmışdır. Zəbt olunmuş rayonlarda uzun illər fəaliyyət göstərən vahid nəqliyyat-kommunikasiya sistemi Ermənistanın təcavüzü nəticəsində dağıdılmışdır.

Yuxarı Qarabağ işğal altında olduğundan iqtisadi rayonda turistləri yerləşdirmə obyektləri, xidmətlə təminat səviyyəsi, eskursiya və əyləncə xidməti haqqında məlumat vermək təbii ki, mümkün deyildir. Yalnız Tərtər rayonunda turizmlə əlaqədar bəzi göstəriciləri qeyd etmək olar. Tərtər



rayonunda mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin sayı 15-dir. Bu müəssisələrin istismarından əldə olinan gəlir 2005-ci ildə 2,7 min, 2014-cü ildə isə 10,1 min manat olmuşdur.

Ümumiyyətlə, Yuxarı Qarabağ Azərbaycanın ən zəngin turizm potensialına malik bölgəsidir. Burada incəsənət, qədim tarix və mədəniyyət, füsunkar təbiət nümunələri turizm kompleksinin yaradılması üçün yararlıdır. Lakin ərazinin işğal altında olması bu imkanlardan istifadəni mümkünsüz etmişdir. Yuxarı Qarabağ iqtisadi rayonunda işğal olunmuş ərazilər azad edildikdən sonra həmin ərazilərin bütövlükdə sosial-iqtisadi inkişafı məqsədilə, o cümlədən turizmlə bağlı xüsusi layihələr həyata keçiriləcəkdir.

# XVIII FƏSİL
# KƏLBƏCƏR-LAÇIN İQTİSADİ RAYONU

## 18.1. Rayon haqqında ümumi məlumat

Kəlbəcər-Laçın iqtisadi rayonu Azərbaycanın cənub-qərbində yerləşir. Tətkibinə Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları daxildir. Kəlbəcər-Laçın iqtisadi rayonunun ərazisinə daxil olan bütün inzibati rayonlar erməni işğalı altındadır. İqtisadi rayon qərbdən Ermənistan, şərqdən Yuxarı Qarabağ, şimaldan Gəncə-Qazax iqtisadi rayonu, cənubdan İran İslam Respublikası ilə həmsərhəd olduğu üçün coğrafi mövgeyinə görə respublikanın ən əlverişsiz bölgəsinə çevrilmişdir.

Sahəsi 6,42 (Azərbaycan ərazisinin 7,4 %-i), əhalisi 244,0 min nəfərdir (respublika əhalisinin 2,5%-i). Əhalinin əksəriyyəti azərbaycanlılardır, eyni zamanda iqtisadi rayonda (əsasən Kəlbəcər və Laçın) kürdlər də vardır. Ərazisi Ermənistan tərəfindən işğal olunduğundan, yerli sakinlər köçkün şəraitdə, respublikanın müxtəlif bölgələrində məskunlaşmışlar.

Əlverişli təbii şəraiti və zəngin ehtiyatları, bol günəş istisi, yaxşı su təminatı, müxtəlif mineral xammalları turizm təsərrüfatının inkişafı üçün əlverişli sayılır. Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq təşkil edirdi. Qoyunçuluq, maldarlıq, arıçılıq, tütünçülük, üzümçülük, meyvəçilik, taxılçılıq kənd təsərrüfatının inkişaf etmiş sahələrindən olmuşdur. Meşə təsərrüfatı sahəsi ilə yanaşı bu rayonda arıçılıq da inkişaf edirdi.

Kəlbəcər-Laçın iqtisadi rayonu müxtəlif mineral-xammal ehtiyatları ilə də zəngin rayondur. Sənaye müəssisələri aqrar bölmənin xammalının emalına əsaslanırdı. İqtisadi rayonda ət-süd məhsulları emal edilir, xalça toxunurdu. Ermənistanın



təcavüzü nəticəsində Kəlbəcər-Laçın rayonunda təsərrüfat sahələrinin fəaliyyəti donduruldu.

Cədvəl 18.1

**Kəlbəcər-Laçın iqtisadi rayonunun tərkibi, ərazisi, əhalisi**

| İnzibatı rayon və şəhərlər | Ərazi, min kv. km | Ölkə ərazisinə görə, %-lə | Əhalinin sayı, min nəfər (01.01.2015 -ci il) | Ölkənin ümumi əhalisinə görə, %-lə |
|---|---|---|---|---|
| **Azərbaycan Respublikası** | **86,6** | **100** | **9593,0** | **100** |
| **Kəlbəcər-Laçın iqtisadi rayonu cəmi:** | **6,42** | **7,41** | **244,0** | **2,5** |
| Kəlbəcər rayonu | 3,05 | 3,52 | 88,3 | 0,92 |
| Laçın rayonu | 1,84 | 2,12 | 74,1 | 0,77 |
| Qubadlı rayonu | 0,80 | 0,92 | 38,9 | 0,40 |
| Zəngilan rayonu | 0,73 | 0,84 | 42,7 | 0,44 |

**Cədvəl 18.2**

**Kəlbəcər-Laçın iqtisadi rayonu haqqında bəzi məlumatlar**

| Rayonun adı | Sahəsi, min kv.km | Əhalisi,min nəfər (01.01.2015-ci il) | İşğal olunduğu tarix | Dağıdılmış tarixi abidələrin sayı |
|---|---|---|---|---|
| Kəlbəcər | 3,05 | 88,3 | 1993-cü il 2 aprel | 87 |
| Laçın | 1,84 | 74,1 | 1992-ci il 18 may | 12 |
| Qubadlı | 0,80 | 38,9 | 1993-cü il 31 avqust | 12 |
| Zəngilan | 0,73 | 42,7 | 1993-çü il 30 oktyabr | 13 |

**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

## 18.2.Rayonun turizm-rekreasiya ehtiyatları

***Təbii rekreasiya ehtiyatları.*** Rayonun təbii şəraitində dağlıq landşaft üstünlük təşkil edir. Eyni zamanda, onun cənub hissəsi, yəni, İranla həmsərhəd olan zona Arazboyu maili düzənliklərdən ibarətdir. İqtisadi rayonun dağlıq zonası əsasən Kəlbəcər və Laçın rayonlarını əhatə etdiyi halda, Zəngilan və Qubadlı rayonları ərazilərində düzən və dağətəyi sahələr yayılmışdır.

İqtisadi rayon ərazisində İstisu, Minkənd, Tutqunçay kimi mineral bulaqlar, iqlim-balneoloji şərait, dağ meşələri kurort-rekreasiya məqsədləri üçün istifadə edilə bilər.

Rayonun təbii şəraitinin başlıca xüsusiyyəti onun rəngarəngliyidir. Ərazisində dağ silsilələri və yaylalar üstünlük təşkil etsə də, dərin dərələr, dağarası çökəkliklər, düzənliklər bir-birini əvəz edir. Rayonun şimalında enlik istiqamətində Murovdağ (rayonun ən hündür zirvəsi Camış 3724 m burada yerləşir), şərqində Qarabağ silsiləsi, qərbində Ermənistanla olan dövlət sərhəddinin bilavasitə suayrıcıları boyunca keçən



Şərqi Göyçə silsiləsi və Araz çayı boyunca İranla olan dövlət sərhədi yerləşir.

Rayonun coğrafi mövqeyi, relyefi iqliminə təsir göstərmişdir. Havanın orta sutkalıq temperaturu 10°C-dən yuxarı olan günlərin sayı düzənliklərdə 210, orta dağlıqda 190, yüksək dağlıqda 50-120 gün arasında dəyişir. İllik günəş radiasiyası düzənlik və orta dağlıq zonalarda 132-136 kkal/sm$^2$-dan başlayaraq yüksək dağlıqda 140-144 kkal/sm$^2$-dək artır. İllik günəş radiasiyası şaquli istiqamətdə düzənlik və dağətəyi zonalarda 3000-3800°C, dağlıq ərazilərdə 800-200°C arasında dəyişir. İqtisadi rayonda rütubət yüksək deyildir. Düzənlik və orta dağlıq ərazilərdə 300-600 mm, yüksək dağlıq zonada 700-800 mm yağıntı düşür.

Kəlbəcər-Laçın iqtisadi rayonunda hidroqrafik şəbəkə inkişaf etmişdir. Rayonun Araza tökülən ən iri çayları Həkəri, Oxçuçay, Tərtər və başqalarıdır. Azərbaycanda yeganə olan vulkan mənşəli göllər Laçın və Kəlbəcər rayonları ərazisində yerləşir. Bunlar Böyük və Kiçik Alagöllər, Qaragöldür ki, bunların da turizm-rekreasiya sərvəti kimi əhəmiyyəti böyükdür.

İqtisadi rayon mineral su ehtiyatları ilə zəngindir. Qarabağ vulkanik yaylasında toplanan mineral su ehtiyatları kimyəvi tərkibinin müxtəlifliyinə görə fərqlənirlər. Azərbaycanda olan mineral suların ümumi ehtiyatının 33%-i Kəlbəcər-Laçın iqtisadi rayonunun payına düşür. İqtisadi rayonda mineral suların ümumi ehtiyatı 7393 m$^3$/gün təşkil edir, bunun isə 58%-i Laçının, 42%-i Kəlbəcərin payına düşür. Mineral su mənbələrinin iri yataqları Yuxarı və Aşağı İstisu, Turxun, Keşdək, Qoturlu (Kəlbəcər), Minkənd soyuq su tipli mineral bulağı (Laçın) və b. Alternativi olmayan İstisu bulaqları müalicəvi əhəmiyyətə malikdir. Bu bulaqların potensial ehtiyatı, yerləşdiyi ərazinin təbiətinin cəlbediciliyi kurort-müalicə kompleksinin yaradılması üçün əlverişli təbii amillərdir. 1990-cı illərədək burada İstisu kurort-müalicə

sanatoriyası fəaliyyət göstərirdi. İqtisadi rayon həm də respublikanın geotermik su ehtiyatlarına malik bölgəsidir. Rayonda termal suların temperaturu 60-100°C-dir.

İqtisadi rayonun landşaftında alp və subalp çəmənlikləri, meşələr üstünlük təşkil edirdi. Nadir ağacları olan meşələrin sahəsi 92 min ha idi (respublika meşələrinin 9%-i). Bunun 72%-i Kəlbəcər və Laçın inzibati rayonlarında yerləşən turizm-rekreasiya əhəmiyyətli dağ meşələridir. Əfsuslar olsun ki, bu sərvətlər erməni işğalçılarının "əsarətindədir".

***Tarixi-mədəni turizm ehtiyatları.*** Kəlbəcər-Laçın bölgəsi tarixi-mədəni abidələrlə zəngindir. Bölgədə dünya əhəmiyyətli memarlıq və arxeoloji abidələr vardır. Dünya əhəmiyyətli memarlıq abidələrinə Kəlbəcər rayonunun Vəngli kəndində Gəncəbasar monastrı (XIII əsr), Tərtər çayının sahilində Xudavəng monastrı (XIII-XVII əsrlər) aid edilir. Bölgədə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələrinə Kəlbəcərin Çıldıran, Qarnakar, Qocaqot, Həsənriz kəndlərində alban məbədləri, ilk və orta tunc dövrünə aid yaşayış yerləri, hekropollar; Qubadlı rayonunun Əliquluuşağı kəndində Göy qala (V əsr), mağara məbədi, Dəmirçilər kəndində türbələr (XIV əsr), Balahəsənli kəndində sığınacaqlar (IV əsr); Laçın rayonunda Cicimli kəndində türbələr (XIV və XVIII əsrlər), kurqanlar (dəmir dövrü), Qoçaz kəndində mağara məbədi (V əsr) Zəngilan rayonunun Əmirxanlı kəndində Qız qalası (XII əsr), Yenikənd və Şərəfan kəndlərində sərdabələr (XIII-XIV əsrlər), Məmmədbəyli kəndində səkkizguşəli türbə (XIV əsr) aid edilir. Kəlbəcər-Laçın bölgəsində həmçinin yerli əhəmiyyətli tarixi-mədəni abidələr də çoxdur (məscid, məqbərə, qədim yaşayış yeri və s.).

Kəlbəcər-Laçın iqtisadi rayonu tamamilə erməni işğalçıları tərəfindən zəbt olunduğundan 1992-ci ildən sonra bölgədə turizm fəaliyyəti dondurulmuşdur və ona görə də kitabda bölgənin turistləri yerləşdirmə vasitələri, nəqliyyat imkanları, turizmə aid digər xidmətlər haqqında məlumat verilmir.



# V HİSSƏ
# AZƏRBAYCANDA TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Kitabın əvvəlki fəsillərində Azərbaycanın turizm imkanları, bu imkanlar əsasında formalaşmaqda olan turizm bazarı, mövcud turizm infrastrukturu əhatəli şəkildə xarakterizə olunmuşdur. Respublikada ümumi vəziyyətlə yanaşı iqtisadi rayonlar üzrə mövcud vəziyyət öyrənilmişdir. Bunları ümumiləşdirərək, respublikada turizmin inkişaf perspektivlərini müəyyənləşdirmək məqsədilə tərəfimizdən SWOT təhlili aparılmışdır:

Azərbaycanda turizm sektorunun *üstün* (güclü) cəhətləri:

- özünəməxsus sosial-mədəni xüsusiyyətlərin olması;
-əlverişli iqlimin (quru, rütubətli subtropik iqlimdən dağ tundurasına qədər 8 iqlim tipi) mövcudluğu;
-ölkənin zəngin tarixi-mədəni abidələri və milli irsi;
-şərq və qərb memarlıq üslubunu özündə əks etdirən tikililər (İçərişəhər, qədim yaşayış məskənləri, göydələnlər və s.);
-zəngin flora və fauna növlərinin geniş arealı (dünyada yalnız Azərbaycanda rast gəlinən nadir bitki və heyvan növləri);
-xüsusi dəyərlərə malik adət-ənənələr, xalqın qonaqpərvərliyi;
-Avropa və Asiya arasında tranzit coğrafi mövqedə yerləşməsi və qədim "İpək Yolu"nun bu ərazidən keçməsi;
-hidroloji təbii rekreasiya ehtiyatlarının (mineral bulaqlar, göllər, çaylar, şəlalələr və s.) zənginliyi, qeyri-adi təbiət abidələrinin (palçıq vulkanları, mağaralar və s.) mövcudluğu;
-Milli parklar və istirahət zonalarının olması;
- kustar sənətkarlığın inkişafı və əl sənəti nümunələrinin nümayişi üçün imkanların mövcudluğu;
-əlverişli coğrafi mövqe və inkişaf edən nəqliyyat infrastrukturu (avtomobil, hava, dəniz və dəmir yolu);

-Bakıda və regionlarda brend mehmanxanalar şəbəkəsinin genişləndirilməsi imkanları;
- asudə vaxtın səmərəli təşkili üçün əyləncə mərkəzləri, milli və xarici ölkələrin mətbəxini təmsil edən qida müəssisələrinin (restoran, kafe) olması;

Azərbaycanda turizm sektorunun inkişafı qarşısında *çətinliklər* (zəif tərəflər):
-regionlarda turizm potensialından optimal səviyyədə istifadə olunmaması (Aran iqtisadi rayonunda turizm ehtiyatlarının zəif mənimsənilməsi, Naxçıvan MR -nın blokada şəraitində olması, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında mövcud vəziyyət);
-təbii, tarixi və mədəni irsin təbliğinin zəif olması;
- Bakı şəhərində demoqrafik yüklənmənin və ekoloji gərginliyin artması;
-regionlarda tarixi kəndlərin nəqliyyat infrastrukturu, rabitə və kommunikasiya sistemi ilə zəif təmin olunması;
- turizm-informasiya mərkəzlərində bölgələrin turizminə aid statistik məlumatların (gələn turistlərin sayı, məqsədləri, yerləşdirmə imkanları və s.) olmaması;
-ölkə tanıtımının, reklam-təbliğat kampaniyalarının yetərincə təşkil olunmaması (Azərbaycanla bağlı lazımi informasiyaları əks etdirən bukletlər, turist atlasları, broşurların qıtlığı);
-dəniz və çimərlik imkanlarından optimal istifadə olunmaması (yaxta turizmi, gəmi ilə səyahətlərin təşkilinə imkan yaradılmaması).
-bölgələrdə turizm və ekskursiya xidmətlərində bələdçilər, gidlərə olan ehtiyacların tam ödənilməməsi, turlar və ekskursiya proqramlarının zəngin olmaması.

Azərbaycanın turizm sektoru üçün *imkanlar:*
-Respublikada beynəlxalq tədbirlərin keçirilməsi üçün geniş imkanların olması;
-Mədəniyyət və Turizm Nazirliyinin BMT-nin İnkişaf Proqramına qoşulması və "Ölkədaxili turizmin səmərəli inkişafına kömək etməklə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması məqsədilə xüsusi layihənin həyata keçirməsi;
-ölkəyə gələn turistlərin əsasən sənaye sektoru ilə bağlı yüksək biznes strukturlarını təmsil etməsi;
-turizm sənayesini maliyyə vəsaiti ilə təmin etmək üçün büdcə imkanları;
-ölkədə neftlə bağlı şirkətlərin, digər böyük yerli və xarici kampaniyaların öz əməkdaşlarının sağlamlıqlarının qorunmasına və bərpasına olan maraq;
-yerli və xarici investorların turizm sektoruna cəlb olunması;
-Azərbaycanın Avropa Birliyi ilə "yeni qonşuluq siyasəti" çərçivəsində olan əməkdaşlığı;
-Azərbaycan Republikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən regionlarda səmərəli turizm strategiyasının qurulması və ölkənin turizm siyasətinə uyğun tədbirlərin həyata keçirilməsi;
-ölkədə sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması çərçivəsində respublika hökumətinin yeritdiyi siyasət.

Azərbaycanın turizm sektoru üçün *təhlükələr:*
-Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20%-nin işğalı, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması, həmçinin müharibənin başlaması təhlükəsi;
-regionlarda yoxsulluğun hələ də mövcud olması (iş yerlərinin məhdudluğu və s.);
-respublikada ekoloji gərginliyin yüksək olması;
-ölkədə getmə turizminin miqyasının artması və qonşu dövlətlərin turizm şirkətlərinin təklif etdiyi beynəlxalq səviyyəli xidmət və aşağı qiymətli turizm xidmətlərinə marağın artması və s.

Beləliklə, Azərbaycanda turizmin müxtəlif növlərinin (mədəni, biznes, kurort-sağlamlıq, ekoturizm) inkişaf etdirilməsinə böyük ehtiyac vardır. Turizm sektorunun multiplikator rolunu nəzərə alaraq, onun inkişaf etdirilməsi ilə iqtisadiyyatın digər sahələrinin də inkişafına nail olmaq mümkündür.

## XIX F Ə S İ L
## AZƏRBAYCANDA DÖVLƏTİN TURİZM SİYASƏTİ VƏ ONUN İSTİQAMƏTLƏRİ

Qeyd etdik ki, Azərbaycan Respublikasının əlverişli geosiyasi və coğrafi mövgeyi, təbiətinin cəlb ediciliyi və landşaftının müxtəlifliyi, müalicəvi əhəmiyyəti olan mineral suları, palçıqları, narın qumlu çimərlikləri olan dəniz sahilləri, komfort iqlimi, qədim tarixi-mədəni abidələri və zəngin irsi, azərbaycan xalqının milli adət-ənənələri və digər amillər turizmin inkişafı üçün geniş imkanlar açır. Bununla yanaşı dünya ölkələrinin təcrübəsindən də məlumdur ki, bu amillər ölkədə turizmin səmərəli təşkili və davamlı inkişafı üçün təminatın hamısını təşkil etmir. Təminatın qalan hissəsi dövlətin iqtisadi potensialından və turizm siyasətindən asılıdır.

Azərbaycanda turizm sahəsində əsaslı dəyişikliklər XXI əsrin əvvəllərinə təsadüf edir. Respublika Prezidentinin 27 avqust 2002-ci il tarixli 1029 saylı sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq edilməklə, turizm potensialından səmərəli istifadə olunmasına şərait yarandı. Respublikada beynəlxalq standartlara cavab verən turizm marşrutlarının yaradılması işinə başlanıldı.

"Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə inkişafının Dövlət Proqramı"nda zəngin turizm potensialına malik bölgələrdə Abşeron (Xızı), Gəncə-Qazax (Goranboy), Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Naxçıvanda (Batabat) turizm industriyasının inkişaf etdirilməsinə aid müddəalar öz əksini tapdı. Dövlət Proqramında həyata keçiriləcək tədbirlər sırasında kurort-sanatoriya obyektlərinin tikilməsi, bölgələrdəki turizm obyektlərinin, o cümlədən sanatoriyaların əsaslı təmiri, dağlıq rayonlarda (Lerik, Qusar, Şamaxı və s.) dağ turizminin inkişafı, tarixi abidələrin bərpası (Lənkəran, Şamaxı, Quba, Şəki) nəzərdə tutulmuşdu. Bu



istiqamətdə çox mühüm işlər artıq başa çatdırılmışdır. Lakin Azərbaycanda kurort-istirahət turizminin inkişafı hələ 1970-80-ci illərdəki səviyyədə də deyildir. Respublika Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Kurortları" haqqında sərəncamı da (27 fevral 2007-ci il) bu zərurətdən irəli gəlmişdir. Sərəncamda Azərbaycanda kurort amilləri, bölgələrdə kurortlar şəbəkəsinin əvvəlki və hazırkı vəziyyəti vurğulanmış və Azərbaycanın zəngin təbii müalicə ehtiyatların əhalinin sağlamlığının qorunmasında əhəmiyyəti nəzərə alınmışdır.

Müalicə-sağlamlıq mərkəzlərinin inkişafını sürətləndirmək məqsədi ilə Respublika Prezidenti "Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı" haqda sərəncam imzaladı (6 fevral 2009-cu il). Bu sərəncam "Azərbaycan Kurortları" Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 fevral tarixli 2002 saylı sərəncamının icrasını təmin etmək məqsədilə qərara alınmışdır. Proqramda kurort işi sahəsində mövcud vəziyyət, kurortların təsnifatı, Dövlət Proqramının həyata keçirilməsinin istiqamətləri və mərhələləri, gözlənilən nəticələr və s. haqda məlumat verilir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) çərçivəsində həyata keçirilən tədbirləri davam etdirmək məqsədilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı "nda (14 aprel , 2009-cu il) qarşıda duran prioritet istiqamətlərdən biri kimi turizmin inkişafının təmin edilməsi göstərilmişdir. Dövlət Proqramında kurort-sanatoriya və turizm komplekslərinin yaradılması (Naxçıvan, Quba-Xaçmaz iqtisadi rayonları), kurort müəssisələrinin yenidən bərpası və yenilərinin inşası, avadanlıqlarla təchiz olunması (Gəncə-Qazax iqtisadi rayonu), mədəniyyət-turizm obyektlərinin tikintisi, tarix-mədəniyyət abidələrinin bərpası, qorunması tədbirlərinin davam etdirilməsi

(Naxçıvan, Quba-Xaçmaz, Şəki-Zaqatala iqtisadi rayonlarında) və s. tədbirlər öz əksini tapmışdır.

Respublika Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" (6 aprel 2010-cu il) da turizm sektorunun dayanaqlı inkişafını təmin etmək və turizmin ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsinə nail olmaq məqsədi ilə imzaladığı sərəncam da öz bəhrəsini verməkdədir. Dövlət Proqramında turizmi iqtisadiyyatın gəlirli sahəsinə çevirmək, sosial və ekoloji tələblərə cavab verəcək səmərəli və rəqabət qabiliyyətli müasir turizm kompleksləri yaratmaq və bu sahədə yeni iş yerlərinin açılmasını təmin etmək qeyri-neft sektorunun inkişafı istiqamətində qarşıda duran mühüm vəzifələrdən olduğu göstərilmişdir.

Azərbaycan Respublikasında turizm sektorunun inkişafı istiqamətləri aşağıdakılardan ibarətdir:

- rəqabət qabiliyyətli turizm infrastrukturu və turizm industriyasınm yaradılması;
- turizm obyektlərinin beynəlxalq standartlara uyğunlaşdırılması;
- turizm xidməti istiqamətində yeni üsul və standatların hazırlanması və tətbiqi;
- respublikada turizm-rekreasiya zonalarının hüquqi statusunun müəyyən ediməsi;
- respublika ərazisində turizm zonalarının və turizm marşrutlarının müəyyən olunması;
- turizm sahəsində zəngin təcrübəsi olan ölkələrlə otelçilik və kadr hazırlığı sahəsində əməkdaşlığın genişləndirilməsi və s.

Turizm mütəxəssisləri, bu sahə ilə əlaqəli qurumlar, təşkilatlar üçün ən maraqlı hadisələrdən biri də 2011-ci ilin yanvar ayında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrinə həsr olunmuş iclasda ölkə



Prezidenti cənab İlham Əliyevin 2011-ci ili "Turizm ili" elan etməsi və bu haqda 15 fevral 2011-ci ildə sərəncam verməsi olmuşdur. Sərəncam Azərbaycan Respublikasında turizmin daha da inkişaf etdirilməsi və turizm fəaliyyəti üçün əlverişli şəraitin yaradılması zərurətini nəzərə alaraq, turizm ehtiyatlarından səmərəli istifadə olunmaqla, zəngin landşafta malik ölkəmizin təbiət abidələrinin və eləcə də xalqımızın qədim mədəni-tarixi irsinin geniş miqyasda tanıdılmasını təmin etmək məqsədini daşıyır. Bununla əlaqədar dövlət qurumları və təşkilatlarda, turizm fəaliyyəti ilə məşğul olan şirkətlər və müəssisələrdə, turizm sektoru üçün mütəxəssis kadr hazırlayan peşə və ali təhsil ocaqlarında, turizmə xidmət edən əlaqəli təşkilatlarda xüsusi tədbirlər həyata keçirildi və iri miqyaslı layihələr hazırlandı.

Azərbaycanın turizm bazarına nəzər salsaq, respublikaya müxtəlif ölkələrdən gələn turistlərin sayının ildən-ilə artmasının şahidi olarıq. Əgər 2005-ci ildə Azərbaycana 692.7 min turist səfər etmişdisə, 2009-cu ildə bu göstərici 1,0 mln. nəfər olmuşdur. 2010-cu ildə turistlərin sayının 1.9 mln., 2014-cü ildə isə 2,2 mln. nəfər olduğu göstərilir. Maraqlı bir faktı qeyd edək ki, əgər əvvəllər Azərbaycandan xarici ölkələrə turizm məqsədilə gedənlərin sayı respublikaya həmin məqsədlə gələnlərin sayından 2-2,5 dəfə çox idisə, hazırda bu vəziyyət dəyişmişdir. Belə ki, ölkədən gedən Azərbaycan vətəndaşları və ölkəyə gələn xarici turistlərin sayında nisbət getdikcə azalır. Məsələn, 2005-ci ildə bu fərq 194,2 min nəfər idisə, 2014-cü ildə bu göstərici 70,5 min nəfər olmuşdur. Bunun əsas səbəblərindən biri Azərbaycanda daxili turizmin inkişaf etdirilməsi sahəsindəki uğurlardır. Belə ki, respublikamızda Avropa standartlarına cavab verən otellərin tikilməsi, yeni istirahət zonalarının, mərkəzlərinin və turizm komplekslərinin yaradılması əhalini doğma diyarımızda istirahət etməyə sövq edir. 2013-cü ilin qış mövsümündə "Şahdağ" qış-yay turizm kompleksində istirahət edənlərin sayının 30 min nəfərə çatması

(26 mart 2013-cü ilə olan məlumata görə) sübut edir ki, respublikada daxili turizmə maraq artır. Azərbaycan hökuməti qeyri-neft sektorunda turizm industriyasının inkişafında maraqlıdır və bu sahədə davamlı siyasət həyata keçirir. Şübhə yoxdur ki, bütün bunlar respublikamızda turizmin inkişafını sürətləndirəcək və Azərbaycanın dünya turizm bazarında turist qəbul edən dövlət kimi tanınmasında mühüm rol oynayacaqdır. Çünki, Azərbaycanın turizm industriyasında qazanılan nailiyyətlərin təməlini qoymuş ulu öndər Heydər Əliyevin siyasətini İlham Əliyev uğurla davam etdirir.



# XX F Ə S İ L
# AZƏRBAYCANDA TURİZMİN PRİORİTET İSTİQAMƏTLƏRİ

## 20.1.Ekoloji turizm

XX əsrin 80-ci illərində səyahət edənlərin məqsədləri daha aydın və qabarıq nəzərə çarpmağa başladı. Hay-küylü şəhərlərdən ənənəvi kənd yerlərinə, isti və günəşli yerlərdən sərin meşəliklərə istiqamətlənən turistlərin sayı sürətlə artdı. Bu isə ekoloji turizmin fenomenə çevrilməsi haqda fikir söyləməyə imkan yaradır.

Ekoturizm təbiət turizminin mühüm tərkib hissəsidir, turizmin konkret forması olmaqla onun ətraf mühitə təsiri də müxtəlif formada təzahür edə bilər.

Ekoturizm anlayışı xüsusi mühafizə olunan ərazilərdə müasir fəaliyyətdə geniş istifadə olunur. Son 15 il ərzində dünyada turizmin bu növünün sürətlə inkişafı təkcə ətraf mühitin vəziyyətinin korlanması ilə deyil, populyar istirahət rayonlarının (dağ kurortları, isti dəniz sahilləri) daha çox mədəniləşdirilməsi ilə izah olunur. Alimlər və turizm mütəxəssisləri tərəfindən ekoturizmin xüsusiyyətləri nəzərə alınaraq, ona verilən təriflər müxtəlifdir.

Ekoturizm, ilk növbədə bütün dünyada milli və təbiət parkları, qoruqlar və digər mühafizə olunan təbii ərazilər kimi tanılan yaxşı saxlanılmış təbii ərazilərə səyahətlər və səfərlərdir.

İkincisi, ekoturizm ətraf mühitə mənfi təsirin zəif olması ilə fərqlənir. Ona görə də onu "yumşaq turizm" adlandırırlar. Məhz bu xüsusiyyətinə görə ekoturizm xüsusi mühafizə olunan təbii ərazilərdə təbii ehtiyatlardan səmərəli istifadədə təcrübi cəhətdən turizmin yeganə növü sayılır.

Üçüncüsü, ekoturizm müəyyən, kifayət qədər ciddi davranış qaydaları olmasını tələb edir ki, bunlara riayət

edilməsi həmin sahənin müvəffəqiyyətlə inkişafı üçün əsas şərtdir.

Dördüncüsü, ekoturizm yerli icmalara təkcə xidməti personal kimi işləmək deyil, həm də mühafizə olunan ərazilərdə yaşamaqda davam etməyi, təbiətdən istifadəni təmin edən ənənəvi təsərrüfat fəaliyyəti ilə məşğul olmağı təklif edir. Təbiidir ki, ekoturizm əhali üçün müəyyən gəlir gətirir və sosial-iqtisadi inkişafa təsir edir.

Ekoturizmi adi turizmdən fərqləndirən beşinci xüsusiyyət irəli sürülür. Belə ki, ekoturizm səyahətçilər üçün istirahət, əyləncə və ekoloji təhsilin vəhdəti olan turizmdir. "Ekoturizm - nisbətən toxunulmamış təbiətə ekosistemin bütövlüyünü pozmadan, həmin ərazinin təbii və mədəni-etnik xüsusiyyətləri haqda təəssürat əldə etmək məqsədilə səyahətdir ki, bu da təbiətin mühafizəsi yerli əhali üçün əlverişli olduqda iqtisadi şərait yaradır". Deməli, ekoturizm iqtisadi cəhətdən məqsədəuyğun və əlverişlidir.

Rus ədəbiyyatlarında ekoloji turizm və turizmin ekolojiliyi terminləri də işlədilir. Ekoloji turizm - ekoloji ehtiyatlara istiqamətlənməni, turizmin ekolojiliyi isə ekoloji təhlükəsizlik və ya dayanaqlılığı ifadə edir.

Ekoturizmi növlərinin müxtəlifliyinə görə iki əsas qrupa bölmək olar.

1.Xüsusi mühafizə olunan təbii ərazi və akvatoriyaların sərhəddində ekoturizm. Belə ərazilərdə təşkil edilən turlar təbiət turizmində ənənəvi istiqamətdir.

2.Xüsusi mühafizə olunan təbii ərazi və akvatoriyaların sərhəddindən kənarda ekoturizm. Bu tip turları təbiət istiqamətli turizmin geniş sektoruna aid etmək olar. Aqroturizmdən başlamış komfortlu kruiz səfərləri ekoturların xüsusi qrupunu təşkil edir.

Məlumdur ki, ekoturizmi istənilən yerdə təşkil etmək və inkişaf etdirmək olmaz. Ekoturizm və ekoturların təşkili zəruri imkanlar və şərait tələb edir. Bunlara aiddir:



1. Xüsusi mühafizə olunan ərazilərin olması;
2. Ərazidə ekosistem və landşaftın estetik müxtəlifliyi, həmçinin onların ekoloji və bioiqlim cəhətdən əlverişliliyi;
3. Məskunlaşma mərkəzlərindən uzaqlıq;
4. Nəqliyyat imkanları və infrastrukturun olması;
5.Regionun və marşrutların tanılmış və perspektivli olması. Bu parametrlərlə həmin ərazilər istehlakçılar tərəfindən fərqləndirilir. Bəziləri "vəhşi" (təşkil olunmamış) piknik məqsədli turistlər, digərləri isə reklam vasitəsilə informasiya alan istehlakçılardır.
6.Ekoturizmdə xidmət sxeminin müəyyən edilməsi,

Ekoturizmin təbiət turizmi, aqroturizm, əyləncə turizmi, macəra turizmi, elmi, dərketmə, rekreasiya, yaşıl turizm (bəzi mənbələrdə kənd yaşıl turizmi), kənd turizmi və digər növlərini ayırırlar.

Təbiət turizmi - obyekti istənilən təbiət, həm canlı, nəm də cansız (məsələn, mağara, dağlar, hovuzlar və s.) olan turizmdir. Ümumdünya Turizm Təşkilatı tərəfindən ekoturizmə daxil olan əyləncəli turizm termini daha geniş anlayış kimi işlədir. Lakin ekoturizm əyləncəli elementlərə malik olsa da, əyləncə heç də həmişə ekoturizmdə "xalis" formada başa düşülmür. Ona görə də daha doğru olar ki, "əyləncə turizmi"nin "ekoturizm"i üstələmədiyi başa düşülsün və qəbul edilsin.

Ekoturizmin nəqliyyat növlərinə görə də təsnifatı mövcuddur. Nəqliyyat növlərinə görə piyadə, xizəklə, atla, velosipedlə, avtomobillə, hava ilə (planer, aerostat), ekoloji su turizmini (yelkənli qayıqla, yüngül idman qayığı ilə) ayırırlar. Son zamanlar aqroturizm və ya aqroekoturizm növləri daha geniş yayılmışdır. Bu, kənd yerlərində olan turizmdir ki, turistlər öz istirahət vaxtlarında ferma və xutorlarda kənd həyat tərzini yaşayırlar. Turizmin bu növü daha çox Qərbi Avropa ölkələri, ABŞ, Braziliya, Meksika üçün səciyyəvidir. Bu ölkələrdə aqroturizmin inkişafı təbii landşaftların daha çox olması və

kənd təsərrüfatı cəhətdən mənimsənilmiş ərazilərin yüksək səviyyəsi ilə izah olunur.

İtaliyada ekoloji turizm milli parklarda inkişaf etdirilir. Son zamanlar dayanaqlı və yaşıl turizm terminləri də işlədilir. Bunlar texnologiyadan istifadə etməklə ətraf mühitə təsiri minimal səviyyəyə endirən turizm kimi başa düşülür. Lakin hər hansı dayanaqlı turizm ekoturizm sayıla bilməz. Belə ki, ekoloji texnologiya çimərlik turizminin təşkilində, iri şəhərlərdə mehmanxana işində və hətta aviadaşımalarda istifadə oluna bilər.

Bir qayda olaraq, turist səfər zamanı bir tərəfdən müəyyən həcmdə öyrənmək, digər tərəfdən təbiət qoynunda dincəlməyi arzulayır. Bu məqsədlə ekoturizmin elmi, dərketmə və rekreasiya növünü ayırırlar.

Elmi ekoturizmlə turistlərin nisbətən az hissəsi məşğul olur. Lakin turizmin bu növü uzaq və az öyrənilən rayonlar haqda informasiya mənbəyidir ki, bu da həm elm üçün, həm də ekoturizmin inkişafının planlaşdırılması üçün zəriridir.

Təcrübi olaraq hər birilərin ekosəyahət dərketmə məqsədi daşıyır. Dərketmə turizminin elmi ekoturizm kimi obyektləri bioloji növlərin müşahidəsi nöqteyi-nəzərindən çox maraqlıdır.

Ekoturistləri xüsusi diqqətəlayiq cansız təbiət obyektləri də çox maraqlandırır. Bunlar geomorfoloji, hidroloji və digər obyektlərdir (dağlar və vadilər, mağaralar, göl və çaylar). Burada dərketmədən başqa ekoturizmin rekreasiya elementləri reallaşdırılır ki, bu da idman turizmi, alpinizm, xizək, at, su və piyadə yürüşlər, fəal və passiv istirahətin müxtəlif növlərini əhatə edir. Nəhayət, dərketmə ekoturizm obyektlərinə çox hallarda mədəni, tarixi və ya etnoqrafik xüsusiyyətlər (təbii mühitdən təcrid olunmayan) aid edilir.

Ekoturizm fəaliyyətinin çox yayılmış növlərinə piyadə yürüşlər, quşların müşahidəsi, kino və fotoçəkilişləri, ekosafari, çadır şəhərciklərində istirahət, dağlara səfər və alpinizm, balıq



ovu, su turizmi, botaniki ekskursiya, arxeoloji turizm, speleoturizm, estetik kəpənəklərin müşahidəsi və s. aid edilir.

Azərbaycan Respublikasının təbii coğrafi zənginlikləri ekoturizmin müxtəlif növlərinin inkişafı üçün geniş imkanlar açır. *Lakin prioritet istiqamət kimi ilk növbədə* potensial imkanlardan istifadə edərək, ekoturizmin hansı növünü inkişaf etdirməyi və regionun bu sahə üzrə ixtisaslaşmasını müəyyən etmək lazımdır.

Quba-Xaçmaz iqtisadi rayonunun həm düzən (*mənzərəli meşələri, gözəl çimərlikləri olan sahil zonası*), həm də dağlıq hissəsində ekoturizm (təbiətdə ov, dağ-piyada turizmi, rekrea - siya, mədəni-etnik turizm) müəyyən səviyyədə inkişaf etdirilir.

Şəki-Zaqatala rayonunda coğrafi şəraitin müxtəlifliyi ekoloji turizm növlərini (dağ-payadə, macəra, rekreasiya, dərketmə) inkişaf etdirməyə imkan verir. Bölgənin iqlim şəraiti maydan oktyabradək olan müddətdə dağətəyi zonada avtomobil, piyada və su turizm marşrutları üçün əlverişli dövrdür. Təbii landşaftlar, mənzərəli meşələr, subalp və alp çəmənləri, zəngin heyvanat aləmi, çaylar və mineral bulaqlar, şəlalələr rayonun toxunulmamış ərazilərinə turistləri cəlb edir. Zaqatala qoruğunda flora və fauna ilə tanış olmaq imkanı var. Bu ərazilərə təbiət turlarını mütəşəkkil təşkil etmək olar.

Gəncə-Qazax rayonun dağlıq hissəsi zəngin təbii landşaftlara, mənzərəli dağ meşələri və çəmənlərə, dağ çayları və göllərinə, mineral bulaqlara malikdir. Göygöl, Maralgöl və s. dağ gölləri fıstıq və şam ağacı meşələrində yerləşir. Kəpəzin ətəyində olan bu ərazi yerli və əcnəbi turistlər arasında da məşhurdur. Landşaftların müxtəlifliyi və gözəlliyinə görə bu rayon Azərbaycanda təkrarsızdır. Bu imkanlardan istifadə edərək təbiət turizmini inkişaf etdirmək olar.

Lənkəran-Astara rayonunda Lənkəran ovalığı və onu əhatə edən orta dağlıq ərazi çox mənzərəlidir. Burada kənd turizmini, rayonun Xəzər dənizi sahillərində su turizmini, Hirkan və Qızılağac qoruqlarında foto-ovçuluq turizmini

inkişaf etdirmək olar. Talış dağları çətin keçilən, bəzi yerlərdə isə sıldırım yamaclıdır. Lakin Talış dağlarının sarmaşıqlarla sarılmış meşələrinə ekoloji turlar təşkil etməklə, həmin yerlərin landşaftının gözəlliyinin şahidi olmaq mümkündür.

Şirvan rayonunda Pirqulu, Çuxuryurd, Lahıc, Baskal və digər yerlərdə ekoturizm fəaliyyəti üçün əlverişli təbii imkanlar vardır. Mənzərəli təbii landşaftları, dağ meşələri, mineral sular və digər rekreasiya ehtiyatları ilə zəngin olan bu rayon ekoturizmin bəzi növləri (təbiət, kənd, dərketmə) üçün perspektivli sayılır. Rayonda maraqlı ekoturlar təşkil etmək imkanı var. Şamaxı, Lahıc, İsmayıllı, Şirvan Milli parkı belə ərazilərdəndir.

Ümumiyyətlə, Azərbaycan Respublikasında toxunulmaz təbiətə malik ərazilər çoxdur. Təəssüflə qeyd etməliyik ki, ekoturizm və onun müxtəlif növləri respublikamızda hələ arzu olunan səviyyədə inkişaf etməmişdir. Azərbaycanın turizm bazarında ekoturizmi inkişaf etdirmək üçün təbii imkanların reklamı da çox zəif işıqlandırılır. Ekoloji turizm təbiətin və ənənəvi mədəniyyətin mühafizəsinə xidmət edir. Təbiət abidələri ilə tanışlıq turistlərin daxili aləmini zənginləşdirir və onları təbiəti mühafizə etməyə sövq edir. Turizmin bu seqmentinə tələbatın artması yeni, xüsusi mühafizə olunan təbii ərazilərin, ilk növbədə Milli və təbii parkların yaradılmasına səbəb olur. Əgər, 2003-cü ildə Azərbaycanda 3 Milli park var idisə, 2015-ci ildə bunların sayı 9-a çatmışdır. Bir çox ərazilərdə ekoloji turizm ixtisaslaşmış sahəyə çevrilə bilər ki, bu da təsərrüfat fəaliyyəti nəticəsində təbiətin dağıdılmasına qarşı alternativ rəqabət hesab oluna bilər.

Hazırda respublikada 9 Milli park, 14 dövlət təbiət qoruğu, 20 dövlət təbiət yasaqlığı, yaşı 100-dən yuxarı 2083 ağac, 37 geoloji və paleontoloji obyekt və 15 min hektar endemik və qiymətli meşə növü sahələri vardır.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri Azərbaycan Respublikasının milli sərvətidir və xüsusi ekoloji,



elmi, mədəni və estetik dəyərə malikdir. Xüsusi mühafizə olunan təbiət ərazilərinin statusu "Ətraf mühitin mühafizəsi haqqında" və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmişdir.

## 20.2.Kənd turizmi

Kənd turizmi dünyada məşhur olan istirahət növlərindən birinə çevrilmişdir. Kənd turizmi-müxtəlif növ turizmi birləşdirən turizm sektoru olub, kompleks regional turist məhsulu yaratmaq üçün kənd yerlərinin təbii, tarixi, sosial-mədəni obyektləri və digər ehtiyatlardan geniş istifadə etməyə istiqamətləndirilir.

Kənd turizmi – (xarici ədəbiyyatlarda tez-tez "aqroturizm, "fermer turizmi", rus mənbələrində "kənd turizmi" kimi istifadə edilir) turizmin alternativ formalarından biri olub ekoloji turizmin tərkib hissəsidir. Kənd turizmi kənd yerlərində istirahətlə yanaşı, burada göstərilən xidmət dəstinə - turistlərin yerləşdirilməsi, qidalanma, dərketmə və əyləncə tədbirlərinin təşkili, digər xidmətlər daxildir. Bu xidmətlərin sayı fermerlərin imkanları və müştərilərin vəziyyətindən asılıdır.

Rus alimi M.B. Birjakovun əsərində kənd turizmi (rural tourizm) turoperator və turagentliklərin vasitəçiliyi ilə kənd yerlərində fərdi – turistlərin istirahətinin təşkili kimi qeyd edilir.

"Yaşıl turizm" anlayışı müəlliflər tərəfindən müxtəlif cür qeyd edilir. Bəzi tədqiqatçılar onu kənd turizminə yaxın olan anlayış kimi göstərir (şəhərlilərin ailəsi ilə birlikdə şəhərdən kənarda - əsrarəngiz təbiəti olan yerdə yerli sakinlərin ailələri ilə birlikdə istirahət).

Digər tərəfdən, kənd turizmi yalnız turistlərin kənd evlərində yaşaması deyildir, həm də bir neçə infrastrukturların

əlaqəli fəaliyyət göstərməsidir. Bunlar yaşayış məntəqələri arasında rahat nəqliyyat əlaqələri, asudə vaxtın keçirilməsi üçün yerlər, təbii və tarixi-mədəni məlumat mərkəzləri, restoranlar, kafelər, yeməkxanalar, xidmət və ticarət müəssisələri, ənənəvi sənətkarlıq emalatxanaları və s.-dir. Ona görə də hər bir qonaq (kənd turizmində turisti qonaq adlandırırlar) həmişə rahatlığı hiss etməli və ona qarşı fərdi diqqət yüksək olmalıdır.

Son 20 ildə bu sektor Avropa ölkələrində daha çox inkişaf edir və turizm sənayesinin gəlirli sahələrindən birinə çevrilmişdir. Hazırda Avropanın bir sıra şərq ölkələrinin kəndlərində yaranmış gərgin iqtisadi vəziyyətdən çıxış yolunu və turizm sektorunun gələcək inkişafını kənd turizmində görürlər. Kənd turizminin inkişafının nəticələri artıq Baltikyanı dövlətlərdə, Belarus və Ukraynada məlumdur. Rusiyada da kənd turizminin inkişafına xüsusi maraq vardır.

Ümumiyyətlə, respublikamızda Lənkəran bölgəsi üçün kənd turizmi yeni istirahət növü ola bilər. Bu turizm Azərbaycan kəndlərində bir sıra problemlərin - sosial, iqtisadi, ekoloji və b. həllinə imkan verə bilər. Kənd turizminin inkişafına səbəb ola biləcək amillər aşağıdakılardır:

-əlverişli təbii iqlim şəraiti və ehtiyatlar;
-aqrolandşaftın cəlbediciliyi;
-nisbətən böyük olmayan investisiyalarla turistləri cəlb edən kiçik və orta təsərrüfatlar;
-zəruri infrastruktur;
-əlverişli ekoloji vəziyyət;
-Azərbaycan xalqının qonaqpərvərlik ənənələri.

Lənkəran bölgəsində kənd turizminin seçimi üçün əsas səbəblər kimi aşağıdakıları ayırmaq olar:

-bahalı dəbdəbəli kurortlarda istirahət üçün imkanların olmaması;
-həkimlərin məsləhəti ilə mövcud iqlim şəraitində sağlamlığın bərpa edilməsi;



-təbii aləmə yaxınlıq, meşədə təmiz hava, göldə, dəniz kənarında və s. daha çox vaxt keçirmək arzusu;
-ekoloji cəhətdən təmiz və ucuz məhsullarla qidalanma imkanları;
-özünün zövqü üçün kənd təsərrüfatı işlərinə qarışmaqda real imkanların olması (məsələn, sitrus meyvələri toplamaq, çay yığmaq və s.);
-kənd həyatını fərqləndirən sakit həyat tərzinin zəruriliyi;
-yerli bayramlar və əyləncələrdə mədəniyyət və ənənələrlə tanışlıq imkanları və s.

Kənd turizminin inkişafı kənd yerlərinə xas olan bir sıra problemlərin həllinə təsir edə bilər. Bu problemlər aşağıdakılardır:

1. Kənd yerlərində sosial – iqtisadi inkişafın aşağı səviyyədə olması;
2.Kəndlərdən əhalinin şəhərlərə axınının davam etməsi;
3.İri ərazi vahidlərində birləşməyə və müasirləşdirməyə yaramayan kiçik və orta təsərrüfatların olması;
4.Bazar üçün heç bir məhsul istehsal etməyən və digər fəaliyyətlə məşğul olmaq imkanı olmayan çox kiçik və imkansız təsərrüfatların mövcudluğu;
5.Daxili kənd ərazilərinin xidmət mərkəzlərindən uzaqlığı;
6.Daxili turizmin təşkilinin aşağı səviyyəsi.

Kənd turizminin inkişafı yerli ehtiyatların müəyyən edilməsi və onlardan səmərəli istifadəyə əsaslanır. Bu mövcud və yerli infrastrukturun maksimum istifadəsinə təsir edir. Öz ehtiyatları bazasında təşkil edilmiş, öz xüsusiyyəti ilə fərqlənən kənd turizmi yerli iqtisadiyyatı, kənd yerlərinin çoxfunksiyalı inkişafını canlandıran amillərdən birinə çevrilə bilər.

Turizmin səmərəli inkişafının mühüm şərtlərindən biri ətraf mühitin vəziyyətidir. Turizm təbii mühit olmadan mövcud ola bilməz. O, landşaftın vəziyyətinə xüsusi diqqət tələb edir. Təbiət, turizmin əsas ehtiyatıdır. Hazırda məşhur turizm

mərkəzlərinin əksəriyyətinin nailiyyəti ətraf mühitin təmizliyindən, onun qorunmasında səmərəli tədbirlərdən və yerli mədəniyyətin bənzərsizliyindən asılıdır.

Deməli, kənd turizminin motivləri - təbiətlə tənha qalmaq, təmiz hava, ekoloji təmiz ərzaq məhsulları, mühiti dəyişmək, digər stil və mədəni həyat, kənd təsərrüfatı işləri və bağçılıqla müvəqqəti məşğul olmaqdır. Kənd turizmindən məktəbəqədər və məktəb yaşlılar səmərəli istifadə edə bilər. Belə şəraitin yaradılmasının 2 mühüm təşkili forması vardır:
1.Kiçik evlərin və ya mənzillərin, gözəl yerlərdə tikilmiş kənd otellərində və ya kotteclərdə otaqların icarəyə verilməsi,
2.İstirahət edənləri kənd evlərində - ailədə yerləşdirilməsi.

Kənd turizmi qonaqlara kənd həyat tərzini hiss etməyə, yeni adamlarla tanış olmağa, maraqlı adətləri öyrənməyə, təsərrüfat işlərində iştirak etməyə, bir stol arxasında qidalanmağa imkan yaradır. Aydındır ki, ev sahibi üçün müəyyən dərəcədə narahatlıq yarana bilər. Lakin bu, həm də ona gəlir də gətirir. Qonaqlar üçün xüsusi ev və ya bir neçə otaq ayrılır. Bu otaqlarda turistlər üçün zəruri olan avadanlıqlar (yataq dəsti, müəyyən əşyalar və s.) olmalıdır. Qeyd etmək lazımdır ki, turizm təşkilatlarının iştirakı ilə istirahətin bu növü də dövlətə gəlir gətirə bilər (vergilər və s. yolu ilə).

Kənd turizminin inkişafına təbii turizm-rekreasiya ehtiyatları (iqlim və onun komponentləri; çay, göl, dəniz sahilləri, fauna və flora və s.), tarixi-mədəni rekreasiya ehtiyatları (tarix, arxeologiya, memarlıq, incəsənət, sənədli abidələr), mədəni irs abidələri, landşaftın cəlbediciliyi, əlverişli ekoloji mühit təsir göstərir, bunların hər biri digəri ilə əlaqədə kənd turizmini formalaşdırır.

Respublikada kənd turizminin inkişafında güclü tərəflər, əlverişli imkanlar, zəif və təhlükəli cəhətlər hərtərəfli araşdırılmalıdır. Bundan sonra Azərbaycanın hansı bölgəsində



kənd turizminin gəlirli sahəyə çevrilə biləcəyi sübut oluna bilər.

Turizm və onun müxtəlif növlərinin, o cümlədən kənd turizminin inkişafı əlverişli ekoloji mühitin olmasına zərurət yaradır. Məlumdur ki, cəmiyyət və təbiət arasında münasibətlər və qarşılıqlı əlaqələr çox əhatəlidir. Bu əlaqələr dərinləşdikcə bir sıra mühüm problemlər meydana çıxır. Bu prblemlər bilavasitə təbiətə insanlar tərəfindən təsirin artması ilə bağlıdır.

Xarici ölkələrdə turizm "dalğasının" güclənməsi ixtisaslaşmış turizm-rekreasiya zonalarının, turizm-rekreasiya sistemlərinin formalaşmasına səbəb olmuşdur. Bu isə turizm inkişaf edən bir sıra ölkələri (İspaniya, Fransa, İsveçrə, ABŞ, Türkiyə və b.) turizm və rekreasiya fəaliyyətinin ekoloji mühitə mənfi və ya müsbət təsirini əvvəlcədən nəzərə almağa, bu məqsədlə tədbirlər proqramı hazırlamağa vadar etmişdir.

Kənd turizmi təbiətlə əlaqədar olduğundan, təbii mühitin "işlək" və normal vəziyyətinin olması, onun mühafizə olunması ən mühüm və vacib şərtlərdən biridir. Turizmin bütün sahələri, ilk növbədə təbiətlə bağlı növləri (o cümlədən kənd turizmi) təbiətlə "ehtiyatla" dolanmağı, ona qayğı göstərməyi tələb edir.

Turizm fəaliyyəti məqsədilə təbii ərazilərin yaxşılaşdırılması, onun estetik xüsusiyyətlərinin artırılması zamanı onun daha çox "yüklənməsinə" imkan verilməməlidir. Ekoloji mühitin qorunması və ondan kənd turizm fəaliyyətində məqsədəuyğun şəkildə səmərəli istifadə edilməsi məsələləri bir-birilə əlaqədardır.

Təbii ərazi kompleksləri, təbii ərazi sistemlərində təbiəti mühafizə həmin ərazilərdə ekoloji tarazlığın qorunmasında mühüm əhəmiyyətə malikdir. Kənd turizm fəaliyyətində təbiətin mühafizəsi bütövlükdə həmin ərazilərdə turizmin normal təşkili üçün imkan yaradır. Ümumiyyətlə, turizm-rekreasiya, o cümlədən kənd turizm fəaliyyəti bir tərəfdən landşafta müəyyən dərəcədə ziyan vurur, digər tərəfdən isə

təbii mühitin qorunması və mühafizəsi üçün çox mühüm işlər görməyi tələb edir.

Kənd turizminin motivlərindən biri də bu istirahət növünü seçənlərin ovçuluğa marağıdır. Qeyd etdiyimiz kimi kənd turizmi təbii landşaftı zəngin ərazilərdə daha məqsədəuyğun sayılır. Belə təbii ərazilərdə ovçuluq turizm fəaliyyəti də genişlənir və son illər turizmin bu növü dünya miqyasında inkişaf etməkdədir.

Ovçuluq turizmi Avropa, Afrika, Asiya, Avstraliyada geniş yayılmışdır. Çexiya, Polşa, Rumıniya, İspaniya, Bolqarıstan, Rusiya, Slovakiya və digər ölkələrdə, xüsusilə meşə ilə örtülü ərazilərdə, dağətəyi kənd məskənlərində turizmin bu növü inkişaf etmişdir.

Azərbaycanda ovçuluq təsərrüfatının düzgün təşkili təbii sərvətləri n turizm məqsədilə mühafizəsində və ekoloji mühitin qorunmasında mühüm əhəmiyyət kəsb edə bilər. Azərbaycanda kənd turizminin yaradılmasından söhbət gedirsə, respublikada ovçuluq təsərrüfatlarının perspektiv inkişafı da planlaşdırılmalıdır.

Azərbaycanda ovçuluq əhəmiyyətli 35 növ məməli, 128 növ quş qeydə alınmışdır. Sayca az olan bəzi növlər "Qırmızı kitab"a düşmüşdür. Respublikada ovçuluq təsərrüfatları turizmin perspektiv inkişafı baxımından yenidən öyrənilməli, fauna sərvətlərindən səmərəli istifadə etmək və onların mühafizəsi məsələləri araşdırılmalıdır.

Ümumiyyətlə, Azərbaycanın bir sıra bölgələri – Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran üçün kənd turizmi yeni istirahət növü ola bilər. Xatırladaq ki, respublikada turizmin davamlı inkişafı siyasəti həyata keçirilir. Bu məqsədlə USTDA (ABŞ) tərəfindən maliyyələşdirilən proqram sənəd hazırlanmışdır. Bu sənəddə Quba-Xaçmaz, Şəki-Zaqatala bölgələrində olmuş tədqiqat qrupunun tövsiyyəsi öz əksini tapmışdır. Tədqiqat qrupu bu 2 bölgənin turizmin inkişafı üçün əlverişli imkanlara malik olduğu haqda rəylərini bildirmişlər.



Kənd yerlərində turistlərin yerləşdirilməsi müxtəlif ola bilər. Bütün evi turistlərin ixtiyarına vermək, evin bir hissəsini turistin ixtiyarına vermək, ayrı-ayrı mənzilləri turistin ixtiyarına vermək, sahibin evində ayrı-ayrı otaqları turistin ixtiyarına vermək və s.

Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran bölgələrinin təbii və tarixi-mədəni potensialı, turizm sektoru üçün nısbətən əlverişli infrastrukturu, həm daxili, həm də xarici turistləri cəlb etmək imkanına malikdir. Bu bölgələrdə kənd turizminin imkanlarının qiymətləndirilməsi və perspektiv inkişafını müəyyən etmək məqsədilə SWOT-un işlənilməsi mühüm əhəmiyyətə malikdir. SWOT - kənd turizminin inkişafına müsbət və mənfi təsir edən amillərin oxşar sxemini ifadə edir.

"S" (Strengths) - kənd turizminin inkişafının güclü tərəfləridir: əlverişli coğrafi mövqe; -əlverişli və müxtəlif təbii, tarixi-mədəni turizm- rekreasiya ehtiyatları; bol əmək ehtiyatları, -xalqın qonaqpərvərliyi, əlverişli ekoloji vəziyyət.

"W" (Weaknesses) – kənd turizminin zəif tərəfləridir:

-mövsümilik amili;

-komunikasiya təminatı – kənd yerlərində təklif edilən əyləncə imkanlarının məhdudluğu, nəqliyyat şəbəkəsinin zəifliyi, kənd yerlərinə aparan yolların bərbad vəziyyəti;

-sosial – kənd əhalisinin turistlərə xidmət göstərmək sahəsində bacarıq, bilik və təcrübəsinin zəifliyi, gələnlərə qarşı əhalinin münasibətinin birmənalı olmaması;

-tarixi - mədəni obyektlərin lazımi vəziyyətdə olmaması, diqqətəlayiq yerlərin baxımsız qalması və bunların turist-ekskursiya proqramlarını, ekskursiya marşrutlarını məhdudlaşdırması;

-maliyyə - şəhərlilərin sanitar-gigiyena və estetik tələblərini ödəmək məqsədilə qonaq evlərinin malikanələrində təmir və təmizlik işlərinin zəruriliyi;

çivəsində dağ turizminin inkişafı xüsusi maraq doğurur. Bu təbiidir, çünki Azərbaycanın zəngin fauna və florası, şəfalı iqlimi, saf sulu gur dağ çayları dağ turizminin inkişafı üçün mühüm təbii amillərdir.

Müqayisə üçün qeyd edək ki, Avstriya, qonşu Türkiyə Respublikası və digər ölkələrdə dağ turizmi inkişaf etdirilir. Bu baxımdan Avstriya, Türkiyə kimi ölkələrin təcrübəsindən yararlanmaq olar. Təsadüfi deyildir ki, turizm sənayesi inkişaf etmiş Avstriyadan olan ekspert qrupu bir neçə dəfə Azərbaycanda olmuş, bölgələrə səfər etmişlər. Ekspertlər Qusar və digər rayonlarda dağ-xizək turizminin inktişafı məqsədilə layihə işləri aparmış və onu reallaşdırmışlar.

Ümumiyyətlə, Azərbaycanda dağ turizminin inkişafı üçün təbii imkanlar mövcuddur. Çünki, respublika ərazisinin 2/3 hissəsini dağlar tutur. Hesablanmışdır ki, Azərbaycan ərazisinin 31%-i 200-1000 metr, 19,5%-i 1000-2000 metr, 6,5 %-i 2000-3000 metr yüksəkliklər arasında, 1%-i isə 3000 metrdən yüksəklikdə yerləşir (möhtəşəm və əzəmətli Böyük Qafqaz silsiləsi, Kiçik Qafqaz dağları, Talış dağları və b.).

Digər tərəfdən, dağ turizminin inkişafında ərazinin iqlim xüsusiyyətlərinin mühüm əhəmiyyəti vardır. Dağlıq ərazilərdə müalicə-sağlamlıq, istirahət, dağ-xizək turizmi məqsədilə kurort-iqlim ehtiyatları ümumi halda qiymətləndirilmişdir. Burada maraqlı cəhətlərdən biri dağlıq ərazilərdə qar örtüyünün qalınlığı və davamlılığıdır. Çünki qış turizmi üçün qar örtüyünün qalınlığı və davamlılığı mühüm şərtdir. Böyük Qafqazın orta dağlıq qurşağında (1000-2000 m) qar örtüyünün qalınlığı 20-50 sm, yüksək dağlıq qurşaqda (2000-3000) 70 sm-dən artıq, cənub yamacında isə 1,5 metrə çatır. Kiçik Qafqazda ortadağlıqda bu göstərici 20-30 sm, yüksəkdağlıqda isə 40-50 sm-ə qədərdir. Naxçıvan Muxtar Respublikası və Lənkəran bölgəsinin dağlıq ərazilərində qar örtüyünün qalınlığı 20-30 sm-dir. 1300-1500 metr yüksəklikdən yuxarıda yerləşən davamlı qar örtüyü zonasında maksimum qalınlığı Böyük



Qafqazın cənub yamacında 1,5 metr, Kiçik Qafqazda 70-80 sm-ə çatır.

Qar örtüyü respublikamızın ovalıq və dağətəyi sahələrində dekabr və yanvarda, ortadağlıq qurşağında noyabrın başlanğıcığında, yüksəkdağlıq qurşaqda isə oktyabrın birindən yaranır. Qar örtüyünün tam əriməsi düzənliklərdə qışın ortalarında, dağlarda isə yüksəkliyə qalxdıqca gecikir və yüksəkdağlıqda iyunun 1-ci ongünlüyünə təsadüf edilir.

Qar örtüklü günlərin sayı dağətəyi zonada 20, orta dağlıq qurşaqda 80-120, yüksəkdağlıqda isə 160-250-dən artıqdır. Böyük Qafqazın 3900 m-dən hündür dağlarında qar örtüyü daim qalır. Kiçik Qafqazın yüksəkdağlıq qurşağında dağ örtüklü günlərin sayı xeyli azdır və daimi qar örtüyü isə olmur.

Qış turizmi üçün Böyük və Kiçik Qafqazın ortadağlıq qurşağı əlverişlidir. Bu qurşaqda xizək yolu salmaq imkanı daha çoxdur (daimi qar örtüklü günlərin sayı 90-120 gün davam edir).

Azərbaycanın oroqrafiyası və iqliminin bəzi elementlərinə istinad edərək, qeyd edə bilərik ki, dağ-xizək turizmi üçün perspektivli rayonlardan biri Qusardır.

Qusarın daxil olduğu subtropik və mülayim iqlimli Şəki-Quba zonası dağlıq ərazidə yerləşir. Bu zona dəniz səviyyəsindən 800-1000 metrədək olan dağətəyi hissəni əhatə edir. Azərbaycanın düzənlik rayonlarından fərqli olaraq burada həm rütubət, həm də temperaturun paylanmasında fərq vardır. Ortadağlıq ərazi ilə birlikdə burada iqlim və balneoloji kurortların yaradılması üçün böyük perspektivlər vardır və landşaft şəraitinin əlverişliliyinə görə Balakən-Qəbələ və Quba-Qalaaltı rayonları xüsusilə seçilir.

Təbii-coğrafi və rekreasiya cəhətdən çox əlverişli olan Qusar rayonunda hazırda dağ turizm kompleksi yaradılmışdır və bu sahədə bəzi işlər hələ də davam etdirilir.

Qusarda qış mövsümü dənizsahili zonaya nisbətən soyuq keçir. Burada yanvarın orta temperaturu aşağıdır. Lakin

şaxtalı havalar az olduğuna görə, həm də dənizdən əsən rütubətli havanın təsirindən qar örtüyü davamsızdır. Bu, dağ xizək turizminin inkişafında müəyyən dərəcədə maneə sayılsa da, bunun qarşısının alınması əvvəlcədən düşünülmüşdür. Belə ki, turizm kompleksinin yaradıldığı ərazinin ətrafındakı göllərdən istifadə edilir.

Şahdağ Milli parkı ərazisində olan Baş Qafqaz silsiləsinə aid daimi qarlı zirvələri - Bazardüzü (4466 m), Tufandağ (4206 m), Şahdağ (4243 m), Qızılqaya (3739 m), Babadağ (3632 m) dağ - idman turizminin, alpinizmin inkişafı üçün əlverişli şərait yaradır.

Təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulmuş və Azərbaycan tarixində ilk dağ-xizək kurortu olan "Şahdağ" Qış-Yay Turizm İstirahət kompleksi Qusar rayonunun mərkəzindən 30-32 km şimalda, dağlıq Alayan kəndi ərazisində Şahdağ zirvəsinin ətəyində yerləşir. Bakıdan 210 kilometr aralı məsafədədir. Kompleksin tikintisi 4 mərhələdən ibarət olmaqla tamamlanması 8-10 ilə planlaşdırılmışdır. Kompleksdə inşaat işləri yüksək standartlara uyğun olaraq həyata keçirilir. 2012-ci il 20 dekabr tarixində bir sıra obyektlərin açılışı olmuşdur. Kompleksdə "Zirvə" Otel və kiçik apart "Qaya" Otel açılmışdır. 2013-cü ilin iyun ayında 364 yerlik dörd ulduzlu "Şahdağ Resort SPA" oteli istifadəyə verilmişdir. Hazırda "Zirvə" otelində - 40 nömrə, personal üçün 3 otaq, restoranlar, bar, kafe və s. fəaliyyət göstərir.

"Şahdağ" Qış-Yay turizm istirahət kompleksinə gələnlərin sayı ildən-ilə artır. 2013-cü ilin mart ayında "Şahdağ" turizm kompleksinə 50 min turistin gəldiyi qeyd edilir. Gələnlərin əksəriyyəti daxili turistlərdir. Getdikcə xarici ölkələrdən gələnlərin sayının artdığı da müşahidə edilir. Bu da ondan irəli gəlir ki, respublikamızda turizmin reklamı getdikcə genişləndirilir. Onu da qeyd edək ki, Azərbaycan Turizm Assosiasiyası xarici tərəfdaşlarından Qusarda yerləşən



Şahdağ Qış-Yay turizm kompleksinə turist səfərləri ilə bağlı müraciətlər qəbul etməyə başlamışdır. Bu müraciətlər əsasən Rusiya və MDB-nin digər ölkələrindəndir. Azərbaycanda fəaliyyət göstərən bütün turizm şirkətləri Şahdağ kompleksinə səfərlər təşkil edə bilərlər. Respublikamızda inşa olunan turizm obyektləri sırasında Şahdağ Qış-Yay turizm kompleksinin geniş perspektivləri vardır. Kompleksin fəaliyyətə başlaması ölkəmizdə dağ turizminin inkişafına və daha kütləvi xarakter almasına imkan yaradır.

Dağ turizminin inkişafı üçün perspektivli rayonlardan olan Şamaxının rekreasiya sərvətlərindən hazırda həm yay, həm də qış mövsümündə əhalinin qısa müddətli istirahətində istifadə olunur. Qış mövsümündə Pirquluya istirahətə gedənlərin (xüsusilə Bakıdan) sayı ildən-ilə artır. Bu onunla izah olunur ki, Pirqulu dəniz səviyyəsindən 800-2100 metr yüksəklikdə dağlıq sahəni əhatə edir (sahəsi 1,5 min ha). Burada yanvar ayının orta temperaturu -0,6 dərəcədən aşağı olur. Qar örtüyünün qalınlığı 50 sm, bəzən daha çox, davamlılığı isə 20-40 gün təşkil edir. Digər tərəfdən, Pirquluda qış mövsümündə istirahət üçün şərait yaradılmışdır. Lakin dağ turizminin inkişafı üçün infrastrukturun genişləndirilməsinə, xüsusilə yolların abadlaşdırılması, turistləri yerləşdirmə, qidalanma xidmətinin yaxşılaşdırılmasına hələ də ehtiyac vardır.

Qış iqlim ehtiyatlarına görə Zaqatalanın daxil olduğu Balakən-Qəbələ rayonunu İsveçrənin məşhur Montre kurortu ilə müqayisə edirlər. Zaqatalanın iqliminin səciyyəvi xüsusiyyəti rayonda təkcə dağ xizək turizminin deyil, həm də dağ kurort istirahətinin təşkili üçün çox əlverişli olmasıdır. Bu rayonda yağıntıların əsasən yay aylarında gecə düşməsi və gündüz havaların açıq olması ətraf mühitin abu-havasını yaxşılaşdırır, rayonun kurort sərvətlərindən istifadəyə imkan yaradır.

Ümumiyyətlə, Azərbaycan Respublikasında dağ – turizm komplekslərinin yaradılması üçün geniş təbii imkanlar mövcuddur. Lakin təbii imkanların olması hələ kifayət deyildir. Dağ turizm kompleksini inkişaf etdirmək istəyiriksə, bu komplekslərdə turistlərə göstərilən xidmətlər də beynəlxalq standartlara cavab verməlidir. Yəni, dağ-turizm komplekslərində yerləşmə müəssisəsi, tibb məntəqəsi, peşəkar təlimatçılar, bələdçilər, xizək avadanlığı kirayə verən məntəqə və s. yaradılmalıdır. Bu sahədə "Şahdağ" kompleksindəki təcrübədən yararlanmaq olar.

Dağ turizm komplekslərində bu şəraitin yaradılması isə ilk növbədə kompleks, həm də böyük quruculuq işlərinin reallaşdırılmasını tələb edir. Bunlara aiddir:

-dağ turizmi üçün yararlı olan ərazilərin düzgün seçilməsi;

-dağ turizm növlərinin yerli şəraitə uyğun müəyyənləşdirilməsi;

-dağ turizm kompleksləri yaradılarkən ərazinin ekoloji vəziyyətinin öyrənilməsi və nəzərə alınması;

-dağ turizmini inkişaf etdirərkən dağlıq ərazilərdə ekosistemin qorunması;

-dağ turizm komplekslərində xidmət göstərə biləcək kadrların hazırlanması;

-infrastrukturun yaradılması;

-dağ turizm komplekslərinin yaradılmasında yerli iş adamları ilə yanaşı xarici investorların cəlb olunması və s.

## 20.4. Kurort-müalicə turizmi

Kurort-müalicə turizmi təbii müalicəvi amillərə görə fərqlənir. Bu amillər əsasən iqlim, müalicəvi palçıq, mineral sulardır. Müalicəvi kurort turizminin (rekreasiyanın) şərtləri tibbi-bioloji normalara uyğun olmalıdır. Bunlar daha çox turizm-ekskursiya xidmətləri də daxil olmaqla müəyyən marşrutlar üzrə profilaktik müalicə məqsədilə həyata keçirilən səfərlərdir.



Rekreasiya turizminin bu növü insan orqanizminə müxtəlif təbii-müalicəvi vasitələrin (iqlim, müalicəvi neft, palçıq, mineral su və s.) müəyyən dərəcədə təsirinə əsaslanır. Kurort-sanatoriya müəssisələrində müalicə və sağlamlığın bərpası bir həftədən bir ayadək davam etdirilir. Bu cəhətdən kurort-müalicə müəssisələri uzunmüddətli turizm fəaliyyətinə aid edilir. Kurort-sanatoriya müəssisələrində istirahət edənlərə qoyulmuş diaqnozdan asılı olaraq, onlardan istifadə müddəti dəyişir.

Kurort-sanatoriya müəssisələrində xidmətlərin qiyməti digər turizm növlərinə nisbətən yüksək olur. Bunun da səbəbi müalicə və sağlamlığın bərpasının uzunmüddətli olması, tibbi diaqnoza uyğun müalicənin aparılmasıdır. Əksər ölkələrdə kurort müəssisələrinin rentabelliyini təmin etmək üçün sosial turlara üstünlük verilir. Belə turların təşkili daha çox yerli əhaliyə istiqamətlənir.

Kurort-müalicə müəssisələrində mövsümilik probleminin olmaması onun başlıca xüsusiyyətlərindən biridir. Dəniz-iqlim kurortlarından başqa digər balneoloji və palçıqla müalicə kurortlarında mövsümilik az müşahidə olunur. Bəzi ölkələrdə balneoloji kurortlar mövsümlər arası dövrdə daha çox fəaliyyət göstərir. Kurort-müalicə müəssisələrində mövsümiliyi aradan qaldırmaq üçün kütləvi tədbirlər həyata keçirilir. Kurort-sanatoriyalara olan tələbat əsasən orta və yaşlı nəsil arasında formalaşır. Buna görə də sanatoriya xidmətlərindən istifadə daha çox fərdi tələbatlar arasında formalaşır. Bu cəhətdən kurort-sanatoriya xidmətlərinə tələbat ilboyu formalaşa bilər.

Kurort-sanatoriya müəssisələrinin tiplərinə daxildir: balneoloji, palçıq və iqlim kurortları. Balneoloji kurortlarda müalicə vannaları və mineral sulardan süfrə suyu kimi istifadə etməklə müalicə prosesi aparılır. Balneoloji kurortların ən çoxu Bolqarıstan, Çexiya, Rusiya, Balkan ölkələrində, Fransa, İtaliya və digər ölkələrdə yayılmışdır. Azərbaycan respublikasında balneoloji kurort ehtiyatları bol olsa da, bu sektor hələ lazımi səviyyədə inkişaf etməmişdir.

Müalicəvi palçıq kurortlarında vannalardan istifadə olunur. Palçığın müalicəvi əhəmiyyətini artıran amil onun yapışqanlığı və temperaturunun yüksək olmasıdır. Palçıqla müalicə kurortları ən çox Rusiya, Ukrayna, Avstriya, Yeni Zelandiya, ABŞ-da və digər ölkələrdə yayılmışdır. Palçıqla müalicə sadə üsullarla Azərbaycanda da aparılır.

İqlim kurortları dəniz sahillərinə yaxın ərazidə yerləşdirilir. İqlim kurortları üçün əsas müalicə amili günəş vannaları və qumlu çimərliklərdir. İqlimlə müalicənin aero və helioterapiya növləri vardır. İqlim kurortları daha çox Aralıq, Qara, Egey, Qırmızı, Xəzər və digər quru iqlimə malik olan dənizlərin sahillərində fəaliyyət göstərir.

Azərbaycanda kurortlar şəbəkəsinin mütəşəkkil təşkili XX əsrdən etibarən həyata keçirilmişdir. Əlverişli iqlim şəraiti, müxtəlif mineral sular, müalicəvi palçıq və neft ehtiyatlarından asılı olaraq, respublikamızın ayrı-ayrı iqlim zonalarında yerləşən zəngin müalicəvi əhəmiyyətə malik təbii kurortların təsnifatı müəyyənləşdirilmiş və bununla bagh müvafiq infrastruktur yaradılmışdır. 1936-cu ildə Kurortoligiya və Fizioterapiya İnstitutunun təşkili ilə təbii kurortların elmi cəhətdən tədqiqində yeni mərhələ başlamışdır.

XX əsrin ikinci yarısında Azərbaycanda artıq formalaşmış kurortlar şəbəkəsi mövcud idi. Həmin dövrdə yaradılan sanatoriya, pansionat və istirahət evləri sistemi Azərbaycanın demək olar ki, bütün ərazisini əhatə edirdi. Kurort-müalicə imkanları çox geniş olan Naxçıvan MR, Abşeron yarımadası, Gəncə-Hacıkənd-Göygöl, Şəki-Zaqatala, Şuşa-Turşsu, Quba-Xaçmaz-Nabran, Lənkəran-Astara və digər regionlarda müalicə və istirahətin təşkili üçün lazımi şərait yaradılmışdı.

Azərbaycan kurortlarının inkişafına 1970-ci ildən başlayaraq xüsusi diqqət yetirilmişdir. Məhz həmin ildə SSRİ hökumətinin qərarı ilə Abşeron yarımadası, Naftalan və İstisu kurortları ümumittifaq əhəmiyyətli kurortlar siyahısına daxil edildmişdir.



1980-ci illərdə isə hökumətin xüsusi qərarına əsasən, Azərbaycanın kurortlar şəbəkəsinin genişləndirilməsi, o cümlədən Xaçmaz-Nabran zanasında iri miqyaslı layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulsa da, cərəyan etməyə başlayan mürəkkəb proseslər bu planın həyata keçirilməsinə imkan vermədi.

1990-cı illərin iqtisadi və sosial böhranı kurort zonalarının inkişafına olduqca mənfi təsir göstərmişdir. Sanatoriya və istirahət evlərinin bir qismi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində erməni silahlı birləşmələri tərəfindən işğal olunan ərazilərdə qalmış, bir qismi isə məcburi köçkün və qaçqınlarin yerləşdirilməsi üçün istifadə edilmişdir. Hazırda regionların inkişafı çərçivəsində ayrı-ayrı bölgələrdə kurortların bərpası istiqamətində müəyyən tədbirlərin həyata keçirilməsinə baxmayaraq, aparılan işlərin səviyyəsi müasir tələblərə cavab vermir.

Azərbaycan Respublikasında kurort təsərrüfatına təsir edən amillərin mövcudluğu və ərazi üzrə yerləşməsi həm daxili, həm də xarici turizmin inkişaf etdirilməsində mühüm şərtlərdən sayılır. Təbii amillər – mineral sular, narın qumlu dəniz sahilləri, komfort iqlim şəraiti, müalicəvi palçıq və neft respublikada kurort-sanatoriya təsərrüfatının inkişafı üçün mövcud və əvəz olunmaz imkanlardır. Bu imkanlar coğrafi baxımdan müxtəlif ərazilərdə yerləşir və kurort amilləri adlanır.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarında respublikamızın ayrı-ayrı bölgələrində turizmin potensial imkanları nəzərə alınaraq xüsusi tədbirlər həyata keçirilməsi göstərilir. Azərbaycanın zəngin turizm-rekreasiya ehtiyatlarına malik olan bölgələri Abşeron (Xızı), Gəncə-Qazax (Goranboy), Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Naxçıvanda (Batabat) həyata keçiriləcək bu tədbirlərdən ən mühümü kurort-sanatoriya obyektlərinin tikilməsidir. Bölgələrdəki turizm obyektlərinin, o cümlədən sanatoriyaların əsaslı təmiri nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasında turizmin inkişafı kurort-rekreasiya sərvətlərindən səmərəli istifadəni tələb edir. Təsadüfi deyildir ki, respublika əhalisi sağlamlığını bərpa etmək və istirahət məqsədilə Şimali Qafqaz, həmçinin Avropanın digər kurortlarına getməyi üstün tutur.

Kurort-rekreasiya sərvətlərindən qısa və uzun müddətli istirahətin təşkilində lazımi səviyyədə istifadə olunmamasının səbəbləri kimi aşağıdakıları göstərmək olar:

-kurort-sanatoriya müəssisələrində çarpayı fondunun mövcud tələbatı ödəməməsi,

-kurort-sanatoriya müəssisələrinin əksəriyyətində xidmətin Avropa standartları səviyyəsində olmaması,

-nəqliyyat infrastrukturunun fəaliyyətinin müasir tələblərə cavab verməməsi,

-kurort-sanatoriya müəssisələrində məcburi köçkünlərin yerləşdirilməsi,

-əksər hallarda qiymətlərin sərfəli olmaması və rekreantların respublikadan kənarda müalicə və istirahəti üstün tutması,

-kurort-sanatoriya müəssisələrinin əksəriyyətinin Xəzər sahillərində, bakılıların qısa müddətli istirahət yerlərində (Şıx, Buzovna, Bilgəh, Mərdəkan, Pirşağı) olması və s.

-kurort-sanatoriya müəssisələrindəki vəziyyətin və respublikada turizmin inkişafının günün tələblərinə tam cavab verməməsi.

Ölkə əhalisinin kurort-sanatoriya müalicəsi və uzunmüddətli istirahətə olan tələbatının yerli ehtiyatlar hesabına ödənilməsi üçün Xəzərsahili, Quba-Xaçmaz, Naxçıvan, Lənkəran bölgələri perspektivlidir. Respublikada kurort-müalicə turizminin inkişafı və onun coğrafiyasının genişləndirilməsi də kurort amilləri ilə zəngin olan perspektivli ərazilərdən səmərəli istifadə olunmasından asılıdır. Respublikamızda hələ sovetlər dövründə "Abşeron", "Qaranquş" "Günəşli" (Mərdəkan qəsəbəsi), "Bilgəh" (Bilgəh qəsəbəsi), "Araz" (Şüvəlan), "Şıx" (Bakıda, Xəzər dənizi sahili), "Xəzər" (Buzovna qəsəbəsi), "Lənkəran" (Lənkəran rayonu) ,"Çinar" (Naftalan kurort birliyinə daxil olan), "Qalaaltı" (Şabran



rayonu) və digər sanatoriyalar fəaliyyət göstərirdi. Bu sanatoriyalarda nəinki yerli əhali, həmçinin ittifaqın müxtəlif yerlərindən və bəzi xarici ölkələrdən gələrək istirahət edir və müalicə olunurdular. Xəzərsahili sanatoriyalarda istirahət etməyə üstünlük verənlər çox idi. Lakin məlum səbəblər ucbatından 1990-cı illərdə bu sanatoriyaların fəaliyyəti demək olar ki, donduruldu. Sanatoriya və pansionatlara erməni təcavüzü nəticəsində doğma yurdlarından didərgin düşmüş soydaşlarımız yerləşdirildi.

Respublika Prezidentinin "Azərbaycan kurortları" Dövlət Proqramı haqqında (27 fevral, 2007-ci il) sərəncamında, "Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamında (6 fevral, 2009-cu il) kurort-müalicə imkanları zəngin olan bölgələrdə müasir vəziyyət, bununla bağlı problemlər də öz əksini tapmışdır. Respublikanın zəngin müalicə ehtiyatlarının əhalinin sağlamlığının qorunmasında böyük əhəmiyyəti nəzərə alınaraq bu proqramlar tədricən reallaşdırılır. Bu isə kurort-müalicə turizminin prioritet istiqamətlərdən olduğuna şübhə yaratmır. Pespublika prezidentinin 2015-ci ilin avqust ayında Şabran rayonunda möhtəşəm "Qalaaltı" kurort-istirahət kompleksinin açılışında söylədikləri də bunu sübut edir.

# ƏLAVƏ 1.

## "Turizm haqqında" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyən edir və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını müəyyənləşdirir.

Maddə 1. **Əsas anlayışlar**

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

turizm - Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələri (səyahətləri);

turist - istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə, 24 saatdan 12 ayadək müddətdə müvəqqəti olan şəxs;

tur - konkret müddətdə konkret marşrut üzrə fərdi və ya qrup halında səfərdən ibarət olan, turizm məhsulunun vauçer şəklində satılan forması;

turizm yollayışı - ciddi hesabatlı blank olub, proqramla nəzərdə tutulmuş xidmətlərin ödənildiyini təsdiq edən sənəd;



turizm vauçeri - xarici turistlərə xidmət göstərilməsi və firma ilə qarşılıqlı ödəmələr aparılması üçün əsas olmaqla, turun tərkibinə daxil olan xidmətlər üzərində turistin hüququnu müəyyənləşdirən və xidmətlərin göstəriləcəyi faktını təsdiq edən sənəd;

turoperator - turların komplektləşdirilməsi, turizm məhsulunun formalaşdırılması, hərəkətə gətirilməsi və satışı ilə məşğul olan turizm təşkilatı;

turaqent - turoperator tərəfindən turların satışı, turizm məhsulunun hərəkətə gətirilməsi və satışı üzrə vasitəçilik fəaliyyəti göstərən fiziki və ya hüquqi şəxs;

turaqentlik - turizm və ekskursiya yollayışlarının satışı, habelə turizm -ekskursiya fəaliyyətinin təşkili üzrə (informasiya, reklam, marketinq və s.) digər xidmətlər göstərilməsi ilə məşğul olan vasitəçi təşkilat;

turizm məhsulu - turistlərə göstərilən xidmətlər kompleksi (turistlərin yerləşdirilməsi, daşınması, yeməyi üzrə xidmətlər kompleksi, ekskursiya, həmçinin bələdçi (bələdçi-tərcüməçi) xidmətləri və səfərin məqsədlərindən asılı olaraq göstərilən digər xidmətlər);

turizm fəaliyyəti - turoperator və turaqent fəaliyyəti, habelə səyahətlərin təşkili üzrə digər fəaliyyət;

ekskursiya fəaliyyəti - turoperatorun müddəti 24 saatdan çox olmayan və turistlərin yerləşdirilməsi (gecələməsi) xidmətini nəzərdə tutmayan turizm məhsulunun formalaşdırılması, hərəkətə gətirilməsi və satışı üzrə fəaliyyəti;

daxili turizm - Azərbaycan Respublikasında yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudları daxilində səyahətləri;

xarici turizm - Azərbaycan Respublikasında yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin başqa ölkəyə səyahətləri;

gəlmə turizm - Azərbaycan Respublikasında yaşamayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudları daxilində səyahətləri;
sosial turizm - sosial ehtiyaclar üçün dövlətin ayırdığı vəsaitdən yardımlanan səyahət;
öz fəaliyyət turizmi - yerdəyişmənin aktiv üsullarından istifadə olunmaqla, turistlər tərəfindən sərbəst təşkil edilən səyahətlər;
turizm ehtiyatları - səfər edilən ölkənin (yerin) təbii, mədəni, tarixi, sağlamlaşdırma obyektləri və turistlərin ayrı-ayrılıqda və ya kompleks halında tələb və ehtiyaclarını təmin edə bilən, onların fiziki və mənəvi qüvvələrinin bərpası və inkişafına kömək edə bilən digər obyektlər məcmusu;
turizm infrastrukturu - turizm məhsulu istehsalı təşkilinin kompleksli sistemi və yaxud mehmanxana və digər yerləşdirmə-yerdəyişmə, nəqliyyat vasitələrinin, ictimai iaşə, əyləncə obyektləri və vasitələrinin, tanış olma, idraki, iş-peşə, sağlamlaşdırma, idman və digər təyinatlı obyektlərin, turoperator və turaqent fəaliyyətini həyata keçirən ixtisaslaşdırılmış müəssisə və təşkilatların, həmçinin ekskursiya və bələdçi (bələdçi-tərcüməçi) xidmətləri göstərən təşkilatların məcmusu;
turizm məhsulunun hərəkətə gətirilməsi - turizm məhsulunun satışına yönəldilmiş tədbirlər kompleksi (reklam, ixtisaslaşdırılmış sərgilər, yarmarkalarda iştirak, turizm məhsulunun satışı üzrə turizm informasiya mərkəzlərinin təşkili, kataloqların, bukletlərin və s. nəşri);
turizm və rekreasiya zonaları – xüsusi ekoloji, rekreasiya, tarixi, mədəni əhəmiyyət daşıyan təbiət və mədəniyyət komponentlərinin yerləşdiyi, təbiəti mühafizə, milli və mədəni irsi qoruma, maarifçilik, elmi və digər məqsədlər üçün istifadə olunan, qanunvericiliyin tələbləri nəzərə alınmaqla turizmin təşkili və inkişafı məqsədilə ayrılan əlverişli turizm potensialına və müvafiq turizm infrastrukturuna malik olan ərazilər.



Maddə 2. **Turizm haqqında qanunvericilik**

Turizm haqqında qanunvericilik Azərbaycan Respublikası Konstitusiyasına əsaslanır və bu Qanundan, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Maddə 3. **Turizm fəaliyyətinin dövlət tənzimlənməsi**

1. Dövlət turizm sahəsində:
1.1. Turizm fəaliyyətinə kömək edir və onun inkişafı üçün əlverişli şərait yaradır;
1.2.turizm fəaliyyətinin üstün istiqamətlərini müəyyən edir və onun həyata keçirilməsinə kömək edir;
1.3.Azərbaycan Respublikası haqqında turizm üçün əhəmiyyətli bir ölkə kimi təsəvvür formalaşdırır.
2.Turizm fəaliyyətinin tənzimlənməsinin əsas məqsədləri aşağıdakılardır:
2.1.turistlərin səyahətləri zamanı istirahət, yerdəyişmə azadlığı və digər hüquqlarını təmin etmək;
2.2. ətraf mühiti (təbiəti) qorumaq;
2.3.turistlərin səyahətləri zamanı onların tələbatlarını təmin edən turizmin infrastrukturunu inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, dövlətin və onun vətəndaşlarının gəlirlərini artırmaq;
2.4.beynəlxalq əlaqələri inkişaf etdirmək, turizm baxış obyektlərini qoruyub saxlamaq, təbii, tarixi və mədəni irsdən səmərəli surətdə istifadə etmək.
3.Turizm fəaliyyətinin dövlət tənzimlənməsinin üsulları aşağıdakılardır:
3.1.turizm infrastrukturu sahəsində münasibətlərin təkmilləşməsinə yönəldilmiş normativ hüquqi aktların qəbul edilməsi;
3.2.daxili və dünya turizm bazarlarında turizm məhsulunun hərəkətə gətirilməsinə kömək göstərilməsi;
3.3.turistlərin hüquq və maraqlarını müdafiə etmək, onların təhlükəsizliyinin təmin edilməsi;

3.4.turizm infrastrukturu sahəsində xüsusi razılığın verilməsi, standartlaşdırma və turizm məhsulunun sertifikatlaşdırılması;
3.5.turizmin inkişaf etdirilməsi üzrə məqsədli dövlət proqramlarının işlənib hazırlanması;
3.6.turizm infrastrukturuna investisiya qoyuluşu, o cümlədən xarici investorların cəlb olunması üçün əlverişli şərait yaradılması;
3.7. turizm fəaliyyəti sahəsinin kadr təminatına kömək edilməsi;
3.8.turizm infrastrukturu sahəsində elmi tədqiqatların inkişaf etdirilməsi;
3.9.Azərbaycan turistlərinin, turoperatorlarının, turaqentlərinin və onların birliklərinin beynəlxalq turizm proqramında iştirakına şərait yaradılması;
3.10.Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər üsullar.

Maddə 4. **Turizm sahəsində dövlətin vəzifələri**

1.Turizm sahəsində dövlətin vəzifələri aşğıdakılardır:
1.1.turizm sahəsində dövlət siyasətinin əsaslarını və bu sahənin əsas istiqamətlərini müəyyənləşdirmək;
1.2.turizmin inkişafına dair dövlət proqramını işləyib hazırlamaq;
1.3.turizmin normativ bazasını işləyib hazırlamaq;
1.4.turizmdə sahələrarası və regionlararası fəaliyyəti əlaqələndirmək;
1.5.Azərbaycan Respublikasını xaricdə əhəmiyyətli turizm ölkəsi kimi tanıtmaq məqsədilə informasiya şəbəkəsi yaratmaq;
1.6.beynəlxalq turizm təşkilatlarında Azərbaycan Respublikasının nümayəndəliyini təşkil etmək, turizmin inkişafına dair beynəlxalq proqramın işlənib hazırlanmasında iştirak etmək, turizm sahəsində əməkdaşlıq üzrə müqavilələr bağlamaq və onların həyata keçirilməsi mexanizmini işləyib hazırlamaq;



1.7.ərazi-turizm ehtiyatları kimi qəbul edilmiş obyektlərin qorunmasını və fəaliyyətini təşkil etmək;
1.8.turizm sahəsində peşə-ixtisas təhsili üzrə istiqamətləri və ixtisasların siyahısını müəyyən etmək;
1.9.turizm qanunvericiliyinin icrasına nəzarət etmək;
1.10.turizm sahəsində standartlaşdırma və sertifikatlaşdırma qaydalarını hazırlamaq;
1.11.turizm təşkilatlrının reyestrini aparmaq;
1.12.mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, turizm fəaliyyəti ilə məşğul olan və turistlərə xidmət göstərən bütün müəssisələrdə xidmətlərin dövlət standartlarına riayət olunmasına nəzarət etmək.

Maddə 4-1. **Turizm və rekreasiya zonaları**

4-1.1.Turizm fəaliyyətinin dövlət tənzimlənməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının təklifi əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən turizm və rekreasiya zonaları yaradıla bilər.
4-1.2.Turizm və rekreasiya zonaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən idarə olunur.
4-1.3. Turizm və rekreasiya zonaları haqqında nümunəvi əsasnamə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Maddə 5. **Turizm sahəsində xüsusi razılığın verilməsi, standartlaşdırma və turizm məhsulunun sertifikatlaşdırılması**

1.Turizm fəaliyyəti sahəsində standartlaşdırmaya aşağıdakılar aiddir:
1.1.turizm müəssisələrinin və turizm məhsullarının təsnifatı;
1.2.turizm məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin təmin edilməsi;
1.3.turizm məhsullarının turist tələbatına uyğunluq parametrlərinin müəyyənləşdirilməsi;

1.4. turizm müəssisələrinin işçilərinə verilən ixtisas tələbləri;
1.5. turizm müəssisələrinin ofislərinə verilən tələblər.
2. Turizm fəaliyyəti sahəsində standartlaşdırma obyektləri müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.
3. (Çıxarılıb)
4. (Çıxarılıb)
5.(Çıxarılıb)
6.Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması müvafiq icrahakimiyyəti orqanı tərəfindən aparılır. Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 6. **Turistin hüquqları**

1.Turist səyahətə hazırlaşarkən, habelə tranzit də daxil olmaqla, bütün səyahət müddətində aşağıdakı hüquqlara malikdir:
1.1.nəzərdə tutulan proqrama müvafiq getdiyi ölkəyə (yerə) daxil olma, orada qalma qaydaları, yerli əhalinin adətləri, dini mərasimlər, müqəddəs yerlər, xüsusi mühafizədə olan təbiət, tarix, mədəniyyət abidələri və digər turizm obyektləri, ətraf mühitin vəziyyəti barədə zəruri və dürüst informasiya almaq;
1.2.getdiyi ölkədə (yerdə), mövcud olan məhdudiyyət tələbləri nəzərə alınmaqla, hərəkət-yerdəyişmə hüququndan, turizm ehtiyatlarından sərbəst istifadə etmək;
1.3.həyatının və sağlamlığının qorunması üçün təxirəsalınmaz tibbi yardım alınması hüququna malik olmaq;
1.4. turizm məhsulunun pərakəndə alqı-satqı müqaviləsi şərtlərinin turoperator və ya turaqent tərəfindən yerinə yetirilmədiyi hallarda ona dəymiş maddi və mənəvi zərərlərin əvəzinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada ödənilməsini tələb etmək;
1.5.getdiyi ölkənin (yerin) hakimiyyət və yerli özünüidarə orqanlarından hüquqi və digər təxirəsalınmaz yardım növləri göstərilməsində kömək almaq.



Maddə 7. **Turistin vəzifələri**

1.Azərbaycan Respublikasından xarici ölkəyə gedən turistin tranzit də daxil olmaqla, səyahət vaxtı aşağıdakı vəzifələri var:
1.1.getdiyi ölkənin (yerin) qanunlarına riayət etmək, onun sosial quruluşuna, adətlərinə, ənənələrinə, dini etiqadlarına hörmət etmək;
1.2.müvəqqəti olduğu ölkədə (yerdə) ətraf mühitin mühafizə qaydalarına riayət etmək, təbiət, tarix və mədəniyyət abidələrinə qayğı ilə yanaşmaq;
1.3. müvəqqəti getdiyi ölkədə (yerdə), habelə yolboyu keçdiyi ölkələrdə gəlmə, getmə qaydalarına riayət etmək;
1.4.səyahət zamanı şəxsi təhlükəsizlik qaydalarına riayət etmək.
2. Azərbaycan Respublikasına gəlmiş turist yuxarıdakı müddəalara əməl etməklə bərabər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş ölkəyə (müvəqqəti olduğu yerə) gəlmə və ölkədən (müvəqqəti olduğu yerdən) getmə, habelə orada qalma qaydalarına riayət etməlidir.

Maddə 8. **Turizm məhsulunun formalaşdırılması və hərəkətə gətirilməsi**

Turizm məhsulu turizm bazarının vəziyyəti ilə əlaqədar olaraq və yaxud da turistin konkret sifarişi üzrə formalaşdırılır.
Turoperator ayrı-ayrı xidmətlər göstərən və yaxud tura daxil olan bütün xidmət növlərini təmin edən turist qəbulu üzrə turoperatorla müqavilələr əsasında tura daxil olan xidmətlər üzərində hüquqlara malik olur.
Turoperator turizm məhsulunu formalaşdırır (hazırlıyır), göndərir və onun satışını birbaşa və ya turaqent vasitəsilə həyata keçirir.
Turizm məhsulu haqqında yazılı informasiyada müqavilənin Azərbaycan Respublikasının Mülki Məcəlləsində, həmçinin bu Qanunda nəzərdə tutulmuş bütün vacib şərtləri varsa və turoperatorun və ya turaqentin təklifdə göstərilmiş şərtlərlə

müqavilə bağlamaq iradəsi ifadə olunarsa, belə təklif müqavilə təklifi kimi qəbul olunur.

Maddə 9. **Turizm məhsulu satışının təşkili qaydaları**

1.Turizm məhsulunun satışı müqavilə əsasında həyata keçirilir. Müqavilə yazılı formada bağlanır və o, Azərbaycan Respublikasının qanunvericiliyinə, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyə uyğun olmalıdır.

2.Müqavilənin vacib şərtləri aşağıdakılardır:

2.1.turizm fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş lisenziya barədə məlumatlar göstərilməklə turoperator haqqında informasiya, onun hüquqi ünvanı və bank rekvizitləri;

2.2.turist (alıcı) haqqında turizm məhsulunun satışı üçün zəruri olan həcmdə məlumat;

2.3.turizm fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş xüsusi razılıq barədə məlumatlar göstərilməklə turaqent (satıcı) haqqında informasiya, onun hüquqi ünvanı və bank rekvizitləri;

2.4. səyahətin proqramı və marşrutu barədə məlumat göstərilməklə turizm məhsulunun istehlak xassələri, turistlərin təhlükəsizlik şərtləri, turizm məhsulunun sertifikatlaşdırılmasının nəticələri haqqında düzgün məlumat;

2.5. səyahətin başlanmasının və qurtarmasının tarixi və vaxtı, onun müddəti;

2.6.turistlərin qarşılanması, yola salınması və müşayiət olunması qaydası;

2.7.tərəflərin hüquqları, vəzifələri və məsuliyyəti;

2.8.turizm məhsulunun pərakəndə qiyməti və onun ödəniş qaydası;

2.9.qrupda turistlərin minimal sayı, qrup üzvlərinin çatışmazlığı üzündən səyahətin olmayacağı barədə turistin məlumatlandırılması müddəti;



2.10.müqavilənin dəyişdirilməsi və pozulması şərtləri, bununla əlaqədar əmələ gəlmiş mübahisələrin tənzimlənməsi və tərəflərə dəymiş ziyanların ödənilməsi qaydası.

3.Müqavilənin digər şərtləri tərəflərin razılığı ilə müəyyən edilir. Turistin turoperatordan və ya turaqentdən tura daxil olan bütün xidmətlərin göstərilməsini tələb etmək hüququ var.

4.Tərəflərin hər birinin, səyahət vaxtı şəraitin əsaslı dəyişikliyi ilə əlaqədar olaraq, müqaviləni dəyişdirməyi və ya onu pozmağı tələb etmək hüququ var.

5.Şəraitin əsaslı dəyişikliyinə aşağıdakılar aiddir:

5.1.səyahətin şərtlərinin pisləşməsi, səyahətin müddətində dəyişiklik;

5.2.səyahətin baş tutması üçün müqavilədə göstərilmiş qrupda turistlərin minimal sayının natamamlığı;

5.3.nəqliyyat tariflərinin gözlənilmədən artması;

5.4.turoperatorun və ya turaqentin maliyyə vəziyyətini kəskin pisləşdirən yeni vergi və vergitutma qaydalarının tətbiqi və ya mövcud olanların artırılması;

5.5.milli valyuta kursunun kəskin dəyişilməsi.

6.Müqavilə pozulduqda, zərərin ödənilməsi tərəflərin çəkdikləri faktiki xərclərə uyğun surətdə həyata keçirilir. Zərərin əvəzi kimi ödənilən məbləğ turizm məhsulunun dəyərinin iki mislindən artıq ola bilməz.

7.Səyahətin konkret şərtləri, turizm məhsulunun pərakəndə qiyməti turistə turoperator və ya turaqent tərəfindən verilən turizm yollayışında göstərilir.

8.Turizm yollayışı müqavilənin ayrılmaz hissəsi olmaqla, turoperatorun və ya turaqentin turizm məhsulunun satışına yazılı razılıq və onun satıldığı faktını təsdiqləyən ilkin hesabat sənədidir.

9.Turist göndərən turoperatorla və ya turaqentlə turist qəbul edən turoperator və ya tura daxil olan konkret xidmətləri təklif edən şəxslər arasında qarşılıqlı ödəmələr turizm vauçeri əsasında həyata keçirilir.

Maddə 10. **Turoperatorların, turaqentlərin və turistlərin birlikləri**

1.Turoperatorlar və turaqentlər özlərinin sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, həmçinin ümumi əmlak maraqlarının təmsili və müdafiəsi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada birliklər yarada bilərlər.

2.Turizm birliklərinə turizm sahəsinə aid olan təşkilatlar və müəssisələr daxil ola bilərlər.

3.Turistlər, səyahət vaxtı istirahət, hərəkət-yerdəyişmə azadlığı hüquqlarını və başqa hüquqlarını həyata keçirmək məqsədilə maraq birliyi əsasında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada ictimai birliklər yarada bilərlər.

4.Turistlərin birliyinin fəaliyyəti turizmin və özfəaliyyət turizminin təşkilinə və inkişafına, əhalinin turizm sahəsində maarifləndirilməsi, turistlərin huquq və marağının müdafiəsi, turizmin infrastrukturu sahəsində təşkilatların fəaliyyəti barədə ictimai rəyin formalaşdırılması və digər vəzifələrin həllinə kömək etməyə yönəldilə bilər.

Maddə 11. **Azərbaycan Respublikasının turizm ehtiyatları**

Azərbaycan Respublikasının turizm ehtiyatlarının təsnifatı və qiymətləndirilməsi, onların mühafizəsi rejimi, Azərbaycan Respublikasının turizm ehtiyatlarının bütövlüyünün saxlanılması və onların bərpası üzrə tədbirlər, ətraf mühitə yol verilə bilən təsirin həddi nəzərə alınmaqla, turizm ehtiyatlarından istifadə qaydaları Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyənləşdirilir.

Maddə 12. **Turistlərin təhlükəsizliyinin təmin edilməsi**

Turistlərin təhlükəsizliyi - səyahət müddətində turistlərin şəxsi təhlükəsizliyi və onların əmlakının qorunmasıdır. Turistlərin sığortalanması Azərbaycan Respublikasının qanunvericiliyinə



uyğun olaraq həyata keçirilir. Turizm sahəsində müvafiq icra hakimiyyəti orqanı turistlərin getdikləri ölkədə (müvəqqəti olacaqları yerdə) onların həyatını təhlükə altında qoya biləcək hər bir amil haqqında turoperatorlara, turaqentlərə və turistlərə məlumat və təlimat verir. Təsisçilər dövlət orqanları olan kütləvi informasiya vasitələri turizm sahəsində müvafiq icra hakimiyyəti orqanına turistlərin həyatı üçün təhlükə qorxusu barədə təcili məlumat verməyə imkan yaradırlar.

Turoperatorlar və turaqentlər turistlərə səyahətlərin xüsusiyyətləri, habelə səyahət zamanı onların rast gələ biləcəkləri təhlükələr barədə müfəssəl məlumat verməyə qabaqcadan turistlərin təhlükəsizliyinin təmin edilməsinə yönəldilmiş tədbirlər görməyə borcludurlar.

Turoperatorlar və turaqentlər səyahət zamanı turistlərin qatlaşdığı (üzləşdiyi) fövqəladə hadisələr, həmçinin səyahətdən qayıtmamış turistlər barədə müvafiq icra hakimiyyəti orqanına və turizm fəaliyyəti ilə bilavasitə bağlı olan şəxslərə təxirə salmadan məlumat verməlidirlər.

Yoluxucu xəstəliklər təhlükəsi olan ölkəyə (yerə) göndərilən turistlər beynəlxalq tibbi tələbatlara müvafiq surətdə lazımi tibbi yoxlamadan keçməli və təhlükəli yoluxucu xəstəliklərə qarşı peyvənd olunmalıdırlar. Turist qruplarını müşayiət edən şəxslərin proqram əsasında minimum tibbi hazırlığı, tibbi ləvazimatı və ilkin yardım üçün tibb çantası olmalıdır. Sayı 100 nəfərdən artıq olan turist qrupları ixtisaslaşdırılmış həkim tərəfindən müşayiət olunmalıdır.

Maddə 13. **Turistlərin sığortalanması**

Turistlərin getdiyi, müvəqqəti olacağı ölkənin (yerin) qanunvericiliyi ilə həmin ölkədə müvəqqəti olan şəxslərə göstərilən tibbi yardım üçün xərcin ödənilməsinə zəmanət verilməsi tələbi müəyyən edilmişdirsə, turoperator (turaqent) belə zəmanətləri verməlidir. Turistlərin qəflətən xəstələnməkdən və bədbəxt hadisələrdən sığortalanması belə

zəmanətlərin əsas formasıdır. Sığorta şəhadətnaməsində turistlərin getdiyi, müvəqqəti olacağı ölkədə (yerdə) sığorta hadisəsi olduqda, onlara tibbi yardım xərclərinin və bu hadisə ilə bağlı digər xərclərin ödənilməsi nəzərdə tutulmalıdır. Sığorta şəhadətnaməsi Azərbaycan dilində və turistlərin getdiyi ölkənin və ya ölkələrin dövlət dilində tərtib olunur. Turistlərin tələbi ilə turoperator (turaqent) səyahətin keçirilməsi ilə bağlı digər hallar (nəqliyyatın ləngiməsi, şəxsi əmlakın itirilməsi, izafi xərclər və s.) üzrə sığorta xidmətləri göstərilməsinə kömək edir.

Maddə 14. **Turistlərin təhlükəsizliyinin təmin edilməsi üzrə ixtisaslaşdırılmış xidmətlər**
Azərbaycan Respublikasının ərazisində bədbəxt hadisələrə uğramış turistlərə axtarış-xilasetmə xidməti lazımi yardım göstərir və onların təhlükəsizliyini təmin edir. Axtarış-xilasetmə xidməti yerli icra hakimiyyəti, səhiyyə, rabitə, daxili işlər orqanları, meşə təsərrüfatı, hidrometeorologiya, mülki aviasiya və s. xidmət idarələri ilə müvafiq qaydada qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərir.

Maddə 15. **Azərbaycan Respublikasının hüdudlarından kənarda fövqəladə vəziyyət yarandığı hallarda Azərbaycan turistlərinin maraqlarının müdafiəsi**
Fövqəladə vəziyyət yarandığı hallarda dövlət Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan turistlərinin maraqlarının müdafiəsi üzrə, o cümlədən onların müvəqqəti olduqları ölkədən köçürülməsi üzrə tədbirlər görür.

Maddə 16. **Azərbaycan Respublikasının hüdudlarından kənarda turizm nümayəndəliyi**
Azərbaycan Respublikasının turizm sahəsində müvafiq icra hakimiyyəti orqanı dünya bazarında turizm məhsulunun hərəkətə gətirilməsi, yayılması, satışı məqsədilə Azərbaycan Respublikasının hüdudlarından kənarda qanunvericiliklə müəyyən edilmiş qaydada turizm nümayəndəlikləri yaradır.

Maddə17.**Turizm haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasına görə məsuliyyət**
Turizm haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulması Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyətlə nəticələnir.

**AzərbaycanRespublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 4 iyun 1999-cu il

№ 674-IQ

## ƏLAVƏ 2

**Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramının təsdiq olunması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ölkədə turizmi inkişaf etdirmək və turizm ehtiyatlarından səmərəli istifadə etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 avqust 2002-ci il
№ 1029

**Azərbaycan Respublikası Prezidentinin 2002-ci il "27" avqust tarixli, 1029 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir**



**Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair**

### DÖVLƏT PROQRAMI

Nadir təbii-iqlim şəraiti olan Azərbaycan Respublikasında planetin 11 iqlim qurşağından 9-u mövcuddur. Ölkənin fauna və flora aləmi müxtəlif və zəngindir. Azərbaycanda 12 təbii və tarixi qoruq, 17 müvəqqəti qoruq və ovçuluq təsərrüfatı vardır. Xəzər dənizi boyunca 7 istirahət zonası yerləşir. Ölkə ərazisində 6 mindən artıq memarlıq və mədəniyyət abidələri qorunub saxlanılır. Ölkənin təbii, mədəni və tarixi irsi onun beynəlxalq turizm bazarına daxil olmasına real zəmin yaradır.

Azərbaycan Respublikasından turizmin inkişafında Bakı şəhəri mühüm yer tutur. Əcnəbilərin 90%-dən çoxu ölkə paytaxtına gəlir. Neft kontraktlarının işə düşməsi ölkəyə gələn xarici iş adamlarının axınının artmasına şərait yaratmışdır. Bakıda zəngin memarlıq abidələri, çoxlu muzey, teatr, müasir və tarixi binalar, dini obyektlər xarici ölkələrdən gələn turistlərin diqqətini cəlb edir. Hazırda Bakıda 50 turizm agentliyi, 10 mehmanxana vardır. Son vaxtlar Bakıda ictimai iaşə müəssisələrinin sayı xeyli artmışdır. "Makdonalds", "Pizza-Nat", "Patio-pizza" kimi xarici firmaların restoranları, Türkiyə, İtaliya, Çin və başqa ölkələrin mətbəxləri yaradılmışdır.

Ölkədə, xüsusilə Bakı şəhərində beynəlxalq standartlara cavab verən mehmanxanaların, ayrı-ayrı rayonlarda kempinqlərin, motellərin, digər turizm obyektlərinin tikintisi, ölkəyə gələn və xarici ölkələrə gedən turistlərin, habelə fəaliyyət göstərən turizm təşkilatlarının sayının artması bu sahənin inkişafına xüsusi diqqət yetirilməsini, onun maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir.

## 1. PROQRAMIN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramının əsas məqsədi "Turizm haqqında" Qanunda, habelə digər müvafiq normativ hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara uyğun olaraq turizm sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkənin sosial-iqtisadi inkişafını təmin edən vasitələrdən biri kimi turizm resurslarından səmərəli istifadə olunmasını təmin etməkdən ibarətdir.

Proqramın əsas vəzifələri aşağıdakılardır:

ölkənin turizm potensialından səmərəli istifadə etməklə Azərbaycan Respublikasında turizmin inkişafına nail olmaq;

turizm sahəsində sahibkarlığı, ilk növbədə kiçik və orta sahibkarlığı inkişaf etdirmək;

rəqabətə davamlı turizm bazarı yaratmaq;

turizmdən dövlət və yerli büdcələrə daxil olan vəsaitin həcmini artırmaq;

turistlərə xidmətin keyfiyyətinin yüksəldilməsini, onun beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin etmək;

turizm infrastrukturunu, onun maddi-texniki bazasını möhkəmləndirmək;

turizm fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsini həyata keçirtmək;

xarici investorları turizm sahəsinə cəlb etmək;

turist müəssisələrinin beynəlxalq turizm proqramlarında iştirakı üçün əlverişli şərait yaratmaq.

## 2. AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

2002-2005-ci illərdə ölkədə turizmin inkişafını aşağıdakı əsas istiqamətlərdə həyata keçirtmək nəzərdə tutulur:

turizm ehtiyatlarının öyrənilməsi və onların genişləndirilməsi;

turistlərin istirahəti, onların tələbatının ödənilməsi üçün zəruri olan xidmətlərin, ekskursiya və digər mədəni tədbirlərin çeşidinin genişləndirilməsi və müasir standartlara uyğunlaşdırılması;

mehmanxanaların və digər turizm obyektlərinin tikintisinin genişləndirilməsi, turizm marşrutlarının artırılması;

milli adət-ənənələri, Azərbaycan xalqının tarixi-mədəni irsini, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması;

milli sənətkarlıq və suvenir məhsullarının istehsalının və satışının genişləndirilməsi;

Azərbaycanı turizm biznesi üçün əlverişli şəraiti olan ölkə kimi dünyada tanıtmaq məqsədi ilə reklam - təbliğat və məlumat - sorğu fəaliyyətinin canlandırılması;

turizm inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi.

## 3. GÖZLƏNİLƏN NƏTİCƏLƏR

Proqramda yerinə yetirilməsi nəzərdə tutulan tədbirlər aşağıdakı nəticələri əldə etməyə imkan verəcəkdir:

fəaliyyət göstərən turizm obyektlərinin müasir tələblərə uyğun qurmaq;

beynəlxalq və daxili bazarda ölkənin rəqabət qabiliyyətini artıra bilən turizm infrastrukturu yaratmaq;

ölkə ərazisində turizm zonalarının və turist marşrutlarının müəyyən olunmasını təmin etmək;

turizm xidməti üzrə mütərəqqi üsulların və standartların hazırlanmasına və tətbiq edilməsinə nail olmaq;

turizm ehtiyatlarının qorunmasını təmin etmək və bu ehtiyatlardan istifadənin səmərəliliyini artırmaq.

**Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi**

**TƏDBİRLƏRİ**

| Sıra №-si | Tədbirlər | İcraçılar | İcra müddəti |
|---|---|---|---|
| | **1. NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ** | | |
| 1.1 | Turizmlə bağlı normativ hüquqi aktların layihələrinin hazırlanması | Nazirlər Kabineti, Gənclər, İdman və Turizm Nazirliyi, Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi | 2002-2005-ci illər |
| 1.2 | "Daxili turizmin inkişafına dair tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetin qərar layihəsinin hazırlanması | Nazirlər Kabineti, Gənclər, İdman və Turizm Nazirliyi | 2002-ci il |
| 1.3 | Turistlərin gediş-gəlişi zamanı rəsmiləşdirmə (viza, gömrük və s.) qaydalarının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması | Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Gömrük Komitəsi, Gənclər, İdman və Turizm Nazirliyi | 2002-ci il |
| 1.4 | Tarix, mədəniyyət və təbiət abidələrinin, habelə turizm infrastrukturuna daxil olan turist komplekslərinin, mehmanxanalarının və s. obyektlərin mühafizəsinin gücləndirilməsi | İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, yerli icra hakimiyyəti orqanları | mütəmadi |



| | | | |
|---|---|---|---|
| 1.5 | Turizmin inkişafına dair ölkə və dövlətlərarası məqsədli proqramların, sahə və ərazi proqramların layihələri üzrə təkliflərin hazırlanması | Nazirlər Kabineti, Gənclər, İdman və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Milli Elmlər Akademiyası | 2002-2004-cü illər |
| 1.6 | Turistlərin təhlükəsizliyini təmin edən turizm-səyahət xidmətlərinin göstərilməsi qaydalarının hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi | 2003-cü il |
| 1.7 | Turizm məhsullarının standartlaşdırılması və sertifikatlaşdırılmasının normativ bazasının yaradılması | Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi, Gənclər, İdman və Turizm Nazirliyi | 2002-2003-cü illər |
| 1.8 | Turizm yollayışının vahid nümunəvi formasının hazırlanması və təsdiq edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2002-ci il |
| 1.9 | Turizm sahəsində xarici ölkələrlə əməkdaşlıq haqqında hökumətlər və idarələrarası saziş layihələrinin hazırlanması | Xarici İşlər Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Ədliyyə Nazirliyi | 2002-2004-cü illər |
| 1.10 | Turizm sahəsində təhlükəsizliyin təmin olunmasına dair kompleks tədbirlər sisteminin hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi | 2002-ci il |

| | | | |
|---|---|---|---|
| **2. TURİZM FƏALİYYƏTİNİN TƏŞKİLİ VƏ TURİZMİN İNKİŞAFININ İDARƏ OLUNMASI** | | | |
| 2.1 | Turizm xidmətlərinin standartlaşdırılması və sertifikatlaşdırılmasına dair kompleks tədbirləri görülməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi | 2002-ci il |
| 2.2 | Turizm sahəsində istehlakçıların hüquqlarının qorunmasına dair tədbirlərin görülməsi | İqtisadi İnkişaf Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi | 2002-2004-cü illər |
| 2.3 | Ümumdünya Turizm Təşkilatının (ÜTT) tövsiyələrini və BMT Statistik Komissiyasının qərarlarını nəzərə alaraq turizm sahəsində statistik sistemin dünya standartlarına uyğunlaşdırılması, turizmin bütün sahələrini əhatə edən yeni statistika sisteminin yaradılması və təkmilləşdirilməsi | Dövlət Statistika Komitəsi, Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı, Xarici İşlər Nazirliyi | 2002-2004-cü illər |
| 2.4 | Beynəlxalq turizm sərgilərinin və turizmin investisiya layihələri sərgilərinin təşkilində və keçirilməsində iştirak etmək, vahid milli stendin yaradılması, beynəlxalq əməkdaşlıq, Azərbaycan ərazisində turizm sərgilərinin təşkili və keçirilməsini təmin etmək | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı, Ticarət-Sənaye Palatası, Xarici İşlər Nazirliyi | 2002-2005-ci illər |



| | | | |
|---|---|---|---|
| 2.5 | Turizmin inkişafı problemləri ilə bağlı ölkə və beynəlxalq elmi-praktiki konfransların keçirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi, Milli Elmlər Akademiyası | 2002-2005-ci illər |
| **3. MARKETİNQ TƏDBİRLƏRİ** | | | |
| 3.1 | Azərbaycanın görməli yerləri və təklif olunan turist marşrutları barədə beynəlxalq informasiya qovşağı-İNTERNET şəbəkəsi vasitəsi ilə turistlərə məlumat verilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Mədəniyyət Nazirliyi, Milli Elmlər Akademiyası | mütəmadi |
| 3.2 | Ölkənin ictimai-siyasi həyatı, mədəni-tarixi irsi, əsas qanunları, humanitar elmlər və mədəniyyət sahəsində əldə edilmiş nailiyyətləri barədə ekskursiya bələdçiləri üçün informasiya-metodiki məlumat kitabçasının hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Mədəniyyət Nazirliyi, Milli Elmlər Akademiyası | 2002-ci il |
| 3.3 | Bakı şəhərində hər il ənənəvi "Böyük İpək Yolu" Beynəlxalq turizm yarmarkalarının təşkil edilməsi və turizm mərkəzi olacaq rayonlarda xalq sənəti nümunələrindən ibarət sərgilərin təşkili | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı, Mədəniyyət Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Ticarət-Sənaye Palatası, Xarici İşlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları | mütəmadi |

| | | | |
|---|---|---|---|
| 3.4 | Turizmin yeni növlərinin inkişaf etdirilməsi: tarixi, ekoloji, ekzotik, təbiət, idman, mədəni turizm və s. | Gənclər, İdman və Turizm Nazirliyi, Ekologiya və Təbii Sənətlər Nazirliyi, Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | 2002-2005-ci illər |
| 3.5 | Milli turizm məhsullarının dünya turizm bazarına çıxarılması ilə bağlı reklam-məlumat üzrə tədbirlərin həyata keçirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Mədəniyyət Nazirliyi, Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı | mütəmadi |
| 3.6 | Daxili və xarici kütləvi informasiya vasitələrində Azərbaycanın turizm üçün əlverişli ölkə olması barədə reklam kampaniyasının keçirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı, Xarici İşlər Nazirliyi | mütəmadi |
| 3.7 | Turizm məlumatı bülleteninin, turizm firmalarının marşrutları haqqında kataloqların, mehmanxana təsərrüfatı obyektlərinin, turist xidmətlərinin və Azərbaycan atlasının hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı, Milli Elmlər Akademiyası | 2002-ci il |
| 3.8 | Azərbaycan ərazisində vahid turist-məlumat şəbəkəsinin yaradılması və onun analoji beynəlxalq şəbəkələrə inteqrasiyası | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı, Xarici İşlər Nazirliyi | 2002-2004-cü illər |



| | | | |
|---|---|---|---|
| 3.9 | Ölkədə turizm obyektlərinin tikintisi və yenidən qurulmasına dair təşkilati işlərin aparılması və maliyyə mənbələrin müəyyənləşdirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi | 2002-2003-cü illər |
| 3.10 | Turizm obyektlərinin investisiya layihələri haqqında məlumat bankının yaradılması | İqtisadi İnkişaf Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi | 2002-ci il |

### 4. TURİSTLƏRƏ XİDMƏTİN BEYNƏLXALQ STANDARTLAR SƏVİYYƏSİNƏ ÇATDIRILMASI, TURİZMİN İNFRASTRUKTURUNUN FORMALAŞDIRILMASI

| | | | |
|---|---|---|---|
| 4.1 | Mədəni və tarixi obyektlərdə xalq yaradıcılıq və sənətkarlıq nümunələrinin satışı üçün köşklərin təşkili, xalq adət-ənənələrini və mədəni turizmin inkişafını nümayiş etdirən videofilmlərin çəkilməsi | Mədəniyyət Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, yerli icra hakimiyyəti orqanları, bələdiyyə orqanları | mütəmadi |
| 4.2 | Muzey kolleksiyaları və arxeoloji qazıntı nümunələrinin surətlərindən suvenir istehsalının təşkili | Mədəniyyət Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | mütəmadi |
| 4.3 | Turist obyektlərində mədəni turizmin və xalq adət-ənənələrinə baxışın təşkili | Mədəniyyət Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, yerli icra hakimiyyəti orqanları | mütəmadi |

| | | | |
|---|---|---|---|
| 4.4 | Müəyyən olunmuş qaydada turist təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı | mütəmadi |
| **5. KADR TƏMİNATI** | | | |
| 5.1 | Turizm sahəsində vahid fasiləsiz təhsil sisteminin yaradılmasına dair təkliflərin hazırlanması | Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Milli Elmlər Akademiyası | 2002-ci il |
| 5.2 | Turizm sahəsi üzrə ixtisasların müəyyən edilməsi və turizm sahəsində işləmək üçün mütəxəssislərin hazırlanmasına dair müvafiq metodikalarının hazırlanması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Milli Elmlər Akademiyası | 2002-2003-cü illər |
| 5.3 | Turizm sahəsində çalışan bütün işçilərin peşə və ixtisas səviyyələrinin artırılması üçün metodik vəsaitlərin işlənilməsi | Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi | mütəmadi |
| **6. ELMİ TƏMİNAT** | | | |



| | | | |
|---|---|---|---|
| 6.1 | Azərbaycan Respublikasının ərazisində təbii və mədəni-tarixi potensialın daha səmərəli istifadə olunması məqsədi ilə Azərbaycanın turist bazarının inkişafı vəziyyətinin kompleks təhlili və proqnozu | İqtisadi İnkişaf Nazirliyi, Mədəniyyət Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Milli Elmlər Akademiyası | 2002-2003-cü illər |
| 6.2 | Azərbaycan Respublikasının ərazisində turizm zonaları və obyektlərinin inkişafı və yerləşdirilməsi baş sxeminin hazırlanması. Ölkə ərazisində tarixi və mədəni abidələrin xəritələşdirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Milli Elmlər Akademiyası, Mədəniyyət Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 2002-2003-cü illər |
| 6.3 | Azərbaycanda turizmin xüsusi növlərinin yaradılması proqramının hazırlanması (ekoloji, sosial, mədəni turizm, uşaq-gənclər, idman-sağlamlıq, mədəni-maarif, təbiət və s.) | Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Mədəniyyət Nazirliyi, Səhiyyə Nazirliyi | 2002-2004-cü illər |
| **7. DAXİLİ TURİZMİN TƏŞKİLİ ÜÇÜN TƏDBİRLƏR** | | | |

| | | | |
|---|---|---|---|
| 7.1 | Regionlarda mədəni-maarif, tarix və təbiət abidələrinə ekskursiyaların təşkili | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2002-2003-cü illər |
| 7.2 | Ölkənin regionlarında turist zonalarının və marşrutlarının təşkil edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2002-2004-cü illər |
| 7.3 | Ətraf mühitin, ekoloji tarazlığın və tarix-memarlıq abidələrinin qorunması və təbliğ edilməsi məqsədi ilə milli parkların yaradılması | Nazirlər Kabineti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Milli Elmlər Akademiyası | 2002-2005-ci illər |
| 7.4 | Turist zonalarının obyektlərində göstərilən turist xidmətləri üçün təbliğat və reklam mərkəzinin yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2002-2003-cü illər |



# ƏLAVƏ 3.

## "Azərbaycan kurortları" Dövlət Proqramı haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda qədim dövrlərdən müalicə-profilaktik məqsədlərlə təbiətin şəfaverici amilləri olan mədən sularından, müxtəlif növ neft və vulkanik palçıqlardan geniş istifadə edilmişdir. Ölkəmiz əsrlər boyu tarixi İpək Yolu vasitəsilə nadir dərman kimi ixrac edilən müalicəvi nefti ilə məşhur olmuşdur. XIX əsrdən etibarən Azərbaycanın müxtəlif guşələrində müalicə əhəmiyyətli təbii resursların elmi tədqiqinə başlanmışdır. Aparılan araşdırmaların nəticələri Azərbaycanı kurortlar diyarı adlandırmaq imkanı vermişdir.

Azərbaycanda kurortlar şəbəkəsinin mütəşəkkil təşkili XX əsrdən etibarən həyata keçirilmişdir. Əlverişli iqlim şəraiti, müxtəlif mineral sular, müalicəvi palçıq və neft ehtiyatlarından asılı olaraq respublikamızın ayrı-ayrı iqlim zonalarında yerləşən zəngin müalicəvi əhəmiyyətə malik təbii kurortların təsnifatı müəyyənləşmiş və bununla bağlı müvafiq infrastruktur yaradılmışdır. 1936-cı ildə Kurortologiya və Fizioterapiya İnstitutunun təşkili ilə təbii kurortların elmi cəhətdən tədqiqində yeni mərhələ başlamışdır.

XX əsrin ikinci yarısında Azərbaycanda artıq formalaşmış kurortlar şəbəkəsi mövcud idi. Həmin dövrdə yaradılan sanatoriya, pansionat və istirahət evləri sistemi Azərbaycanın, demək olar ki, bütün ərazisini əhatə edirdi. Kurort-müalicə imkanları çox geniş olan Naxçıvan Muxtar Respublikası, Abşeron yarımadası, Gəncə-Hacıkənd-Göygöl, Şəki-Zaqatala, Şuşa-Turşsu, Quba-Xaçmaz-Nabran, Lənkəran-Astara və digər regionlarda müalicə və istirahətin təşkili üçün lazımi şərait yaradılmışdı.

Azərbaycan kurortlarının inkişafına 1970-ci ildən başlayaraq xüsusi diqqət yetirilmişdir. Məhz həmin ildə SSRİ hökumətinin qərarı ilə Abşeron yarımadası, Naftalan və İstisu kurortları ümumittifaq əhəmiyyətli kurortlar siyahısına daxil edilmişdir. 1980-ci illərdə isə hökumətin xüsusi qərarına əsasən Azərbaycanın kurortlar şəbəkəsinin genişləndirilməsi, o cümlədən Xaçmaz-Nabran zonasında irimiqyaslı layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulsa da, cərəyan etməyə başlayan mürəkkəb siyasi proseslər bu planın həyata keçirilməsinə imkan verməmişdir.

1990-cı illərin iqtisadi və sosial böhranı kurort zonalarının inkişafına olduqca mənfi təsir göstərmişdir. Sanatoriya və istirahət evlərinin bir qismi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində erməni silahlı birləşmələri tərəfindən işğal olunan ərazilərdə qalmış, bir qismi isə məcburi köçkün və qaçqınların yerləşdirilməsi üçün istifadə edilmişdir. Halhazırda regionların inkişafı proqramı çərçivəsində ayrı-ayrı bölgələrdə kurortların dirçəldilməsi istiqamətində müəyyən tədbirlərin həyata keçirilməsinə baxmayaraq, aparılan işlərin səviyyəsi müasir tələblərə cavab vermir.

Azərbaycanın zəngin təbii müalicə ehtiyatlarının əhalinin sağlamlığının qorunmasında böyük əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Respublikasının Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla "Azərbaycan kurortları"

Dövlət Proqramının layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Bu Sərəncamın 1-ci bəndində qeyd olunan Proqram layihəsinin hazırlanması zamanı tabelik və mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan kurortlarının inkişafına yerli sərmayə ilə yanaşı xarici sərmayələrin cəlb olunması, həmçinin belə ərazilərdə Azərbaycan və xarici ölkə vətəndaşlarının müalicəsi və istirahəti üçün müasir standartlara cavab verən infrastrukturun formalaşdırılması məsələləri və 2007-2017-ci illərdə müalicə-istirahət ocaqlarının mərhələli inkişaf strategiyasının nəzərə alınması təmin edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 fevral 2007-ci il

№ 2002

## ƏLAVƏ 4.

**Azərbaycan Respublikası Prezidentinin 713 nömrəli Fərmanı ilə təsdiq edilmişdir**

# TURİZM VƏ REKREASİYA ZONALARI HAQQINDA NÜMUNƏVİ ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Turizm və rekreasiya zonaları insanların əyləncəsini, istirahətini, müalicəsini və sağlamlığını təmin edən, müvafiq turizm infrastrukturuna malik olan, xüsusi ekoloji, rekreasiya, tarixi, mədəni əhəmiyyət daşıyan təbiət və mədəniyyət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, milli və mədəni irsi qoruma, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmə, maarifçilik, elmi və digər məqsədlər üçün istifadə olunan, regionların sosial-iqtisadi inkişafına kömək edən və müvafiq idarəetmə qurumlarına malik ərazilərdir.

1.2. Turizm və rekreasiya zonaları turizm zonası, rekreasiya zonası və turizm və rekreasiya zonası formalarında yaradıla bilər.

1.3. Turizm və rekreasiya zonalarına Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin daimi istifadəsinə verilmiş torpaqlarla yanaşı, zonanın hüdudları daxilində yerləşən məqsədli təyinatından və hüquqi rejimindən asılı olmayaraq digər dövlət torpaqları, habelə torpaq sahələri üzərində mövcud olan müvafiq hüquqlara xitam verilmədən bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan torpaq sahələri də daxil edilə bilər.

1.4. Turizm və rekreasiya zonalarından Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə müəyyən olunmuş tələblərə əməl etmək şərti ilə istirahət, əyləncə, rekreasiya, turizm fəaliyyəti, təbiətin qorunması, milli-mədəni irsin saxlanılması, elmi tədqiqat, təlim-tərbiyə, turizm statistikası və



turist xidmətinin keyfiyyətinə nəzarət məqsədləri üçün istifadə edilə bilər.

1.5. Turizm və rekreasiya zonalarında turizm obyektlərinin, təbiət və mədəniyyət komplekslərinin qorunması və bərpası, inkişaf planlarına uyğun infrastrukturun yaradılması zamanı bu Əsasnamədə müəyyən edilmiş tələblərə zidd olmayan digər fəaliyyət növləri də həyata keçirilə bilər.

1.6. Turizm və rekreasiya zonalarının ərazisində turizm və (və ya) rekreasiya xidməti obyektləri, habelə turistlərə göstərilən xidmətlər kompleksinə daxil olan digər xidmət obyektləri Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq fəaliyyət göstərirlər.

1.7. Turizm və rekreasiya zonalarının ərazisində yerləşən və üzərindən tədris-məşq, turist cığırlarının və yolların keçdiyi torpaq sahələrinin mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq müvafiq kompensasiya ödənilir.

### 2. Turizm və rekreasiya zonalarının yaradılmasının məqsədləri

2.0. Turizm və rekreasiya zonalarında aşağıdakılara nail olunmalıdır:

2.0.1. istehlakçıların təhlükəsizliyinin təmin edilməsinə;

2.0.2. turizm, istirahət və rekreasiya üçün münbit şəraitin yaradılmasına;

2.0.3. turizmin davamlı inkişafının və yerli sosial-iqtisadi layihələrdə turizm və rekreasiya zonalarının iştirakının təmin edilməsi vasitəsilə regionlarda sosial-iqtisadi inkişafa və milli-mədəni irsin saxlanılmasına nail olunmasına;

2.0.4. turizmin köməyi ilə tarix və mədəniyyət abidələrinin, nadir təbiət mənzərələrinin, spesifik turist xidməti obyektlərinin, milli-mədəni irsin qorunmasının və təbliğinin təmin edilməsinə;

2.0.5. ətraf mühitin qorunması və ekoloji tarazlığın saxlanmasına şərait yaradan müxtəlif turizm növlərinin yaradılması və təbliğinə;

2.0.6. müvafiq turizm və (və ya) rekreasiya zonasına daxil olan torpaq sahələri üzərində hüquqları olan şəxslərlə razılaşdırılaraq beynəlxalq standartlara cavab verən və keyfiyyətli turist xidməti göstərə bilən turizm infrastrukturunun yaradılmasına;

2.0.7. turizm və rekreasiya zonalarının ərazisində rəqabət qabiliyyətli və əhalinin bütün təbəqələrinə turist xidməti göstərə bilən turizm bazarının yaradılmasına;

2.0.8. turizm sahəsində statistikanın, marketinq və digər araşdırmaların aparılmasına;

2.0.9. daxili və xarici sərmayəçilərin (investorların) cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasına;

2.0.10. turizm bazarının tələbinə uyğun olaraq turizm məhsullarının yaradılması və mövcud olan imkanların genişləndirilməsinə;

2.0.11. turizm və rekreasiya zonalarında turizm xidməti sahəsini yaxşılaşdırmaq məqsədi ilə nəqliyyat, kommunikasiya və informasiya vasitələrinin inkişaf etdirilməsinə;

2.0.12. turizm və rekreasiya zonalarında fəaliyyət göstərən müəssisələrin iştirakı ilə ərazinin sosial-iqtisadi inkişafına istiqamətləndirilmiş layihələrin həyata keçirilməsinə;

2.0.13. turizm və rekreasiya zonalarında yeni iş yerlərinin yaradılması, əhalinin sosial-iqtisadi durumunun yaxşılaşdırılmasına;

2.0.14. turizm və rekreasiya zonaları sahəsində dövlət tənzimlənməsi və nəzarətinin həyata keçirilməsinə.

**3. Turizm və rekreasiya zonalarının yaradılması**

3.1. Turizm və rekreasiya zonaları bu Əsasnamənin 1-ci bəndində nəzərdə tutulmuş tələblərə uyğun gələn və turizmin müxtəlif növlərinin inkişafı üçün əlverişli olan ərazilərdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təqdimatına əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə yaradılır.

3.2. Turizm və rekreasiya zonalarına Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən edilmiş aşağıdakı zonalara aid sahələr daxil edilə bilər:

3.2.1. arxeoloji, memarlıq abidələri və onların qalıqları müəyyən olunmuş zonalar;

3.2.2. meşə fondu zonaları;

3.2.3. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi (zonası);

3.2.4. dağ zonaları;

3.2.5. qanunvericilikdə nəzərdə tutulmuş hallarda digər ərazilər.

3.3. Turizmin davamlı inkişafını təmin etmək üçün turizm və rekreasiya zonalarına yaxın ərazilərdə istənilən növ turizm və (və ya) rekreasiya üzrə fəaliyyətin həyata keçirilməsi zərurəti yarandıqda, həmin ərazilər hesabına müəyyən olunmuş qaydada turizm və (və ya) rekreasiya zonasının sahəsi genişləndirilə bilər.

**4. Turizm və rekreasiya zonalarında tətbiq edilən mühafizə rejiminin xüsusiyyətləri**

4.1. Turizm və rekreasiya zonalarında mövcud olan təbiət, tarix-mədəniyyət, şəhərsalma və memarlıq, təsərrüfat xüsusiyyətləri nəzərə alınaraq, qanunvericiliyə uyğun olaraq xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq oluna bilər. Bu fəaliyyət zonalarına aşağıdakılar daxildir:

4.1.1. tarix və mədəniyyət abidələrinə və arxeoloji qazıntılara aid edilən, xüsusi mühafizə rejimi tətbiq olunan zonalar;

4.1.2. milli parkların və qoruqların ərazisindəki turizm sahələri, təbiət abidələri və meşə örtüyü olan xüsusi mühafizə rejimi tətbiq edilən zonalar;

4.1.3. müalicə və rekreasiya zonaları;

4.1.4. turist bazalarının, qış dağ-xizək düşərgələrinin, istirahət mərkəzlərinin, sanatoriyaların, mehmanxanaların və ona bərabər tutulan yerləşdirmə obyektlərinin fəaliyyət göstərdiyi zonalar, o cümlədən kurortlar.

4.2. Xüsusi mühafizə rejimi tətbiq edilən ərazilər və orada yerləşən obyektlər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qorunan obyektin xarakterinə uyğun mühafizə olunur.

4.3. Turizm və rekreasiya zonalarına istirahət və rekreasiya məqsədləri üçün gələn istehlakçılara həmin zonada təklif olunan bütün növ turist və rekreasiya xidmətindən istifadə etmək imkanı yaradılır.

4.4. Turizm və rekreasiya zonalarında müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif, vətənpərvərlik ruhunda təlim-tərbiyə və sınaq-təcrübə tədbirləri keçirilə bilər.

4.5. Turizm və rekreasiya zonalarında xüsusi mühafizə rejimini və qaydalarını pozan şəxslər qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

4.6. Turizm və rekreasiya zonalarının ərazisində (bu Əsasnamənin 4.1-ci bəndində nəzərdə tutulmuş bütün fəaliyyət zonalarında) aşağıdakılar qadağan edilir:

4.6.1. təbiət komplekslərinin, tarix və mədəniyyət abidələrinin, mehmanxana və ona bərabər tutulan yerləşdirmə obyektlərinin təhlükəsizliyini təhdid edən hər hansı bir fəaliyyətin həyata keçirilməsi və ya hərəkətə yol verilməsi;

4.6.2. geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

4.6.3. xüsusi ekoloji təhlükə yaradan kimya sənayesi, metallurgiya, nüvə energetikası ilə bağlı və bu qəbildən olan digər fəaliyyət növlərinin həyata keçirilməsi;

4.6.4. qanunvericiliyə uyğun olaraq dövlət ehtiyacları üçün zəruri hesab edilən hallar istisna olmaqla, turizm və rekreasiya zonalarının ərazisində Baş inkişaf planında nəzərdə tutulmamış, turizm və ya rekreasiya fəaliyyəti ilə bağlı olmayan bərk örtülü yolların, boru kəmərlərinin, elektrik, neft buruqları və onların infrastrukturu və digər kommunikasiya xətlərinin çəkilməsi;

4.6.5. turizm və rekreasiya zonalarının ərazisində Cari inkişaf planında nəzərdə tutulmamış və ya zonanın idarəetmə orqanı ilə razılaşdırılmamış yerlərdə treyler yaşayış-istirahət qəsəbələrinin, piyada marşrutların yaradılması, dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması;

4.6.6. müvafiq fəaliyyət növünə xüsusi razılığı (lisenziyası) olmayan və Baş inkişaf planında nəzərdə tutulmayan mehmanxana və ona bərabər tutulan yerləşdirmə obyektlərinin fəaliyyəti;

4.6.7. ətraf mühitə dəyən ziyanı minimuma endirən müvafiq avadanlıqlarla təchiz olunmayan tikili və obyektlərin istifadə edilməsi;

4.6.8. yerli fauna və flora növlərinə mənfi təsir edən fəaliyyət növləri;

4.6.9. dövlət ekoloji ekspertizasının müsbət rəyi olmadan təsərrüfatdaxili layihələrin həyata keçirilməsi.

4.7. Turizm və rekreasiya zonalarında aidiyyəti dövlət orqanının rəyi nəzərə alınmaqla, ərazilərin ekoloji, sanitariya-epidemioloji, elmi, estetik, mədəni, turizm və rekreasiya dəyərlərini aşağı sala bilən digər fəaliyyət növləri də qanunvericiliyə uyğun məhdudlaşdırıla və ya qadağan edilə bilər.

**5. Turizm və rekreasiya zonalarının elmi tədqiqat və marketinq-araşdırma fəaliyyəti**

5.1. Turizm və rekreasiya zonalarında elmi tədqiqat rekreasiya məqsədi ilə istifadə olunan şəraitdə ekoloji, sanitariya-epidemioloji vəziyyətin proqnozlaşdırılmasına, qiymətləndirilməsinə, səciyyəvi, nadir təbiət və şəhərsalma, memarlıq komplekslərinin elmi əsaslandırılmış üsullarla qorunmasına yönəldilir.

5.2. Turizm və rekreasiya zonalarında elmi tədqiqatlar Azərbaycan Milli Elmlər Akademiyası, elmi tədqiqat institutları, aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları, turizm, şəhərsalma və memarlıq sahəsində çalışan tədqiqatçılar tərəfindən aparıla bilər.

5.3. Marketinq-araşdırma və proqnozlaşdırma fəaliyyəti ilə bağlı turizm və rekreasiya zonasının hər birində turizm informasiya mərkəzləri yaradılır. Həmin mərkəzlər vasitəsilə zonanın turizm və (və ya) rekreasiya potensialının öyrənilməsi, turist xidmətlərinin təşviqi həyata keçirilir və turizm-məlumat bazasının yaradılması təşkil olunur.

5.4. Turizm və rekreasiya zonalarının rəhbərliyinə turizm və rekreasiya zonalarının ərazisində yerləşən turist xidməti obyektləri tərəfindən marketinq - araşdırma və proqnozlaşdırma işlərinin aparılması üçün statistik məlumatların verilməsi məcburidir.

**6. Turizm və rekreasiya zonalarının idarə olunması**

6.1. Turizm və rekreasiya zonalarının idarə olunması həmin zonalarda turizm fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsindən, turizm fəaliyyətinin dövlət tənzimlənməsindən, habelə bu fəaliyyətin istiqamətləndirilməsindən ibarətdir və heç bir halda həmin ərazidə mülkiyyət və digər əşya hüquqlarının məhdudlaşdırılmasına yönəldilə bilməz.

6.2. Turizm və rekreasiya zonaları Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən bu Əsasnaməyə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq idarə olunur.

6.3. Turizm və rekreasiya zonalarının, o cümlədən ictimai əsaslarla və (və ya) təsərrüfathesabı prinsipi ilə idarə edilməsi üçün aşağıdakı üsullardan istifadə oluna bilər:

6.3.1. turizm və (və ya) rekreasiya zonasında bilavasitə idarəçiliyin tətbiq edilməsi;



6.3.2. turizm və (və ya) rekreasiya zonası Şurasının (bundan sonra - Şura) yaradılması və həmin Şuranın fəaliyyətinin təmin edilməsi;

6.3.3. turizm və (və ya) rekreasiya zonasının idarəetməyə verilməsi.

6.4. Turizm və rekreasiya zonaları bu Əsasnamənin 6.3.1-ci yarımbəndinə uyğun olaraq idarə edildikdə, turizm və rekreasiya zonalarında turizm fəaliyyətinə dövlət nəzarətinin və tənzimlənməsinin həyata keçirilməsi və turizm fəaliyyətinin istiqamətləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri tərəfindən təsdiq edilmiş Əsasnamə əsasında fəaliyyət göstərən xüsusi struktur vahidi yaradılır. Turizm və (və ya) rekreasiya zonalarını idarə edən müvafiq qurum kommersiya fəaliyyəti ilə məşğul ola bilməz.

6.5. Turizm və rekreasiya zonaları bu Əsasnamənin 6.3.2-ci yarımbəndinə uyğun olaraq idarə edildikdə, müvafiq turizm və (və ya) rekreasiya zonası yaradıldığı gündən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müəyyən edilmiş müddətdə kollegial orqan olan Şura yaradılır.

6.6. Şuranın tərkibinə aşağıdakı şəxslər daxil edilirlər:

6.6.1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri;

6.6.2. turizm və (və ya) rekreasiya zonasının əhatə etdiyi torpaq sahələrinin yerləşdiyi ərazilər üzrə bələdiyyə nümayəndələri;

6.6.3. zəruri hallarda turizm və (və ya) rekreasiya zonasına daxil olan torpaq sahəsinin mülkiyyətçisi və ya onun nümayəndəsi, mülkiyyətçi dövlət olduqda müvafiq dövlət orqanının nümayəndəsi, torpaq sahəsinin əlavə olaraq sahibi, istifadəçisi və ya sərəncamçısı olduqda, həmin şəxslər və ya onların nümayəndəsi;

6.6.4. turizm və (və ya) rekreasiya zonasının inkişafına sərmayə (investisiya) qoymuş şəxslər (belə şəxslər yalnız onların sərmayə qoyuluşu haqqında təklifləri layihə şəklində müvafiq olaraq Şura və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edildikdən sonra Şurada təmsil olunmaq hüququ qazanırlar).

6.7. Eyni bir şəxsin, habelə dövlət və ya bələdiyyə orqanının bir neçə əsasla Şurada təmsil olunmaq hüququ olduqda, o, bir və ya bir neçə üzvlə təmsil oluna bilər.

6.8. Şura aşağıdakı səlahiyyətlərə malikdir:

6.8.1. turizm və (və ya) rekreasiya zonasının Baş inkişaf planının layihəsinin hazırlanması və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə təqdim edilməsi;

6.8.2. turizm və (və ya) rekreasiya zonasının Cari inkişaf planının qəbul edilməsi və həmin planın bir nüsxəsinin Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə təqdim edilməsi;

6.8.3. potensial sərmayəçilərin (investorların) müvafiq zona üzrə layihələrin həyata keçirilməsinə cəlb edilməsi və sərmayə (investisiya) qoymaq arzusunda olan şəxslərlə danışıqların aparılması;

6.8.4. dövlət və bələdiyyə orqanları, digər müəssisə və təşkilatlarla və ayrı-ayrı sərmayəçilərlə birgə layihələrin hazırlanması və ya təklif olunan layihələrin müzakirəsi;

6.8.5. turizm və (və ya) rekreasiya zonasının pasportunun hazırlanması;

6.8.6. müvafiq turizm və (və ya) rekreasiya zonasında həyata keçirilən fəaliyyətin öz səlahiyyətləri daxilində yoxlanılması və təhlil edilməsi (monitorinq);

6.8.7. müvafiq turizm və (və ya) rekreasiya zonasında həyata keçirilən fəaliyyətlə bağlı məlumatların (o cümlədən monitorinq nəticələrinin) qanunvericiliyin tələbləri nəzərə alınmaqla dərc edilməsi;



6.8.8. turizm və (və ya) rekreasiya zonasında icra orqanları yaradıldıqda, bu orqanlara icrası məcburi olan göstərişlərin verilməsi;

6.8.9. turizm və (və ya) rekreasiya zonasının idarə edilməsi sahəsində müvafiq qayda və təlimatların hazırlanması və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təsdiqinə təqdim edilməsi;

6.8.10. zəruri hallarda, turizm və (və ya) rekreasiya zonasında müvafiq layihəni həyata keçirən şəxslə (şəxslərlə) torpaq üzərində hüquqları olan şəxslər arasında müvafiq müqavilənin bağlanılmasının təklif edilməsi;

6.8.11. Şuranın öz təşəbbüsü ilə hazırlanmış layihələr üzrə müsabiqələrin keçirilməsi, maliyyə mənbəyinin tapılması üçün tədbirlərin görülməsi;

6.8.12. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş, eləcə də Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Şuraya həvalə edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.

6.9. Zərurət olduqda, Şuranın təklifi əsasında turizm və (və ya) rekreasiya zonasının cari idarə edilməsinin həyata keçirilməsi məqsədilə turizm və (və ya) rekreasiya zonasının icra orqanları yaradıla bilər.

6.10. Şura və turizm və (və ya) rekreasiya zonasının icra orqanları Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilən Əsasnaməyə uyğun fəaliyyət göstərirlər.

6.11. Bu Əsasnamənin 6.3.3-cü yarımbəndinə uyğun olaraq, turizm və rekreasiya zonalarının idarə olunması və inkişaf etdirilməsi, qanunvericiliyə uyğun olaraq müsabiqə keçirilməklə kənar idarəçiyə həvalə edilə bilər.

6.12. Bu Əsasnamənin 6.11-ci bəndində nəzərdə tutulmuş halda, Şuranın rəyi əsasında, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi müvafiq kənar idarəçi ilə turizm və (və ya) rekreasiya zonalarının idarə olunmasına və inkişafına dair müqavilə bağlayır. Azərbaycan

Respublikasının Mədəniyyət və Turizm Nazirliyi kənar idarəçinin fəaliyyətinə nəzarət edir və həmin kənar idarəçinin müvafiq qərarlarını ləğv etmək hüququna malikdir.

6.13. Kənar idarəçi turizm və (və ya) rekreasiya zonalarının idarə olunması üçün əqdlər bağlayır, zonada həyata keçirilən fəaliyyətlə bağlı marketinq işini və zonaya daxil olan obyektlərin mühafizəsini təşkil edir, layihələr hazırlayıb Şuraya təqdim edir, sərmayəçiləri zonanın inkişafına cəlb edir, qanunvericiliklə qadağan edilməyən səlahiyyətləri zonanın idarə olunmasına və inkişafına dair müqaviləyə uyğun həyata keçirir.

**7. Baş və Cari inkişaf planları. Turizm və rekreasiya zonasının pasportu**

7.1. Baş və Cari inkişaf planları turizm və (və ya) rekreasiya zonalarının inkişafı məqsədi ilə tərtib edilir.

7.2. Baş inkişaf planı müəyyən dövr ərzində ərazinin mövcud potensialına uyğun olaraq turizm və (və ya) rekreasiya zonasının inkişafını, burada tikililərin və qurğuların inşasını və yerləşdirilməsini, avtomobil və digər bərk örtüklü yolların çəkilməsini və zonada əhəmiyyətli dəyişikliklərə səbəb ola bilən digər mühüm işlərin görülməsini nəzərdə tutan, bu Əsasnamənin

7.4-cü bəndi ilə müəyyən edilmiş qaydada təsdiq edilən sənəddir.

7.3. Baş inkişaf planında müvafiq turizm və (və ya) rekreasiya zonasının mövcud potensialına uyğun olaraq aşağıdakı istiqamətlərdə inkişafı nəzərdə tutulmalıdır:

7.3.1. müvafiq standartlara cavab verən turist xidməti (yerləşdirmə, iaşə, nəqliyyat, ekskursiya, təşviqat və məlumatlandırma) infrastrukturunun yaradılması;

7.3.2. turizm bazarının tələbatına uyğun turizm növlərinin yaradılması və genişləndirilməsi;

7.3.3. turizm və (və ya) rekreasiya zonasının inkişafı və idarə edilməsi üçün maliyyə mənbələrinin müəyyən edilməsi və aidiyyəti üzrə sərmayənin (investisiyanın) cəlb olunması;

7.3.4. turistlərin təhlükəsizliyini təmin edən tədbirlərin həyata keçirilməsi;

7.3.5. müasir turizm bazarında rəqabətə davamlılığı təmin edən marketinq siyasətinin qurulması;

7.3.6. turizmin davamlı inkişafını, yerli əhalinin sosial-iqtisadi durumunu və regionlarda yeni iş yerlərinin yaradılmasını təmin edən fəaliyyətin genişləndirilməsi.

7.4. Baş inkişaf planı Şuranın təklifinə əsasən, dövlət proqramlarının və Azərbaycan Respublikasının normativ hüquqi aktlarının turizm sahəsinə dair müddəaları nəzərə alınmaqla, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilir. Baş inkişaf planı 5 illik dövrü əhatə edir.

7.5. Cari inkişaf planı müəyyən dövr ərzində turizm və (və ya) rekreasiya zonasında piyada və mexaniki nəqliyyat vasitələrinin konkret marşrutlarını, cığırların və digər bərk örtüyü olmayan yolların çəkilməsini, yüngül konstruksiyaların və reklam lövhələrinin quraşdırılmasını, onların yerləşdirilməsini və zonada əhəmiyyətli dəyişikliklərə səbəb olmayan digər az əhəmiyyətli işlərin görülməsini nəzərdə tutan, Şura tərəfindən təsdiq edilən sənəddir.

7.6. Cari inkişaf planı 1 illik dövrü əhatə edir. Cari inkişaf planları Baş inkişaf planına uyğun olaraq, Baş inkişaf planının təsdiq edildiyi gündən sonra 3 aydan gec olmayaraq qəbul edilir.

7.7. Hər bir turizm və (və ya) rekreasiya zonası pasportla təmin edilir. Zonanın pasportunda mövcud turist xidməti obyektlərinin və turizm və (və ya) rekreasiya zonasında yaradılması nəzərdə tutulan obyektlərin yerləşdirilməsi, nəqliyyat yolları, piyada və mexaniki nəqliyyat vasitələrinin marşrutları göstərilməlidir.

7.8. Turizm və (və ya) rekreasiya zonasının pasportu 3 bölmədən ibarət aşağıdakı qaydada tərtib və təsdiq edilir:

7.8.1. Birinci bölmə müvafiq turizm və (və ya) rekreasiya zonasında mövcud olan vəziyyəti əks etdirir. Bu bölmənin layihəsi Şura tərəfindən qəbul edilib, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin təsdiqinə təqdim edilir. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həmin layihəni təqdim edilmiş məzmunda qəbul edə və ya ona əlavə və dəyişikliklərin edilməsini, o cümlədən müvafiq araşdırmaların aparılmasını təklif edərək, Şuraya geri qaytara bilər;

7.8.2. ikinci bölmə Baş inkişaf planından, habelə ona əlavə olunan qrafik və digər sənədlərdən ibarətdir;

7.8.3. üçüncü bölmə Cari inkişaf planından və ona əlavə olunan yekun qrafik və digər sənədlərdən ibarətdir. Cari inkişaf planı təsdiq edildikdən sonra inkişaf planları nəzərə alınmaqla, planları əks etdirən yekun qrafik və digər sənədlər (sxemlər, xəritələr, təsvirlər və s.) hazırlanır və Şura tərəfindən təsdiq edilərək müvafiq turizm və (və ya) rekreasiya zonasının pasportuna əlavə edilir;

7.8.4. pasportun yekun redaksiyası bütün əlavə və qoşmalarla birlikdə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınır və zonanın müvafiq məsul şəxsində saxlanılır.

7.9. Pasporta əlavə və dəyişikliklər onun düzəlişlərə məruz qalan hissəsi üçün nəzərdə tutulmuş qaydada tətbiq edilir və pasportun yeni redaksiyası dövlət qeydiyyatına alınır.

**8. Turizm və rekreasiya zonalarına dövlət nəzarəti**

8.1. Turizm və rekreasiya zonalarına dövlət nəzarətinin məqsədi həmin ərazilərin vəziyyətinə, mühafizəsi, qorunması, bərpası və istifadəsi üzrə tədbirlərin yerinə yetirilməsinə nəzarət etmək, qanunvericiliklə müəyyən edilmiş qaydalara və tələblərə əməl olunmasını təmin etməkdir.

8.2. Turizm və rekreasiya zonalarında həyata keçirilən idarəetmə və turizm fəaliyyətinə dövlət nəzarəti Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən həyata keçirilir.



ƏLAVƏ 5

## Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı

Azərbaycan Respublikası Prezidentinin
2010-cu il 6 aprel tarixli
sərəncamı ilə təsdiq edilmişdir

### 1. Ümumi əsaslar

**1.1. Mövcud vəziyyət**

Qeyri-neft sahələrinin yüksəlişi ilə davamlı iqtisadi inkişafın təmin edilməsi müasir dövrdə ölkəmizdə qarşıda duran mühüm vəzifədir. Çoxsaylı tədqiqatlar göstərir ki, turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur.

Hazırda turizm planetar miqyasda sürətlə inkişaf edən biznes sahələrindəndir. Dünya üzrə ümumi milli məhsulun 10 faizi, ixracatın 8 faizi beynəlxalq turizmin payına düşür, göstərilən xidmətlərin təqribən üçdəbiri beynəlxalq turizm vasitəsilə həyata keçirilir. Dünyada əməkqabiliyyətli əhalinin 8,1 faizi turizm industriyasında və onunla bağlı iqtisadiyyat sahələrində məşğuldur.

Zəngin mədəni-tarixi irsə və əlverişli təbii şəraitə malik olan Azərbaycan turizm sahəsində böyük inkişaf perspektivlərinə malikdir. Ölkəmizdə turizmin əksər növlərinin (kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman, dini, xüsusi maraq kəsb edən və s.) inkişafı üçün geniş imkanlar mövcuddur.

Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası

qoyulmuş, milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəlmişdir.

Azərbaycanda turistlərin yerləşdirmə biznesi dinamik surətdə inkişaf edir. 2002-ci ildə ölkədə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 94 olduğu halda ötən dövr ərzində onların sayı 4 dəfə artaraq 370-ə çatmışdır. Bu obyektlərdə ümumi yerlərin sayı da 2002-ci illə müqayisədə təxminən 3 dəfə çoxdur.

Turizm sahəsində çalışanların peşə hazırlığının artırılması məqsədilə 2006-cı ildə Turizm İnstitutu yaradılmış, onun nəzdində müxtəlif peşələr üzrə daimi fəaliyyət göstərən kurslar açılmış, eyni zamanda, Ümumdünya Turizm Təşkilatının və Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə müxtəlif təlim proqramları həyata keçirilməkdədir.

2002-ci ildən başlayaraq hər il Azərbaycanda beynəlxalq turizm sərgisi təşkil olunur. Ölkədə turizmin əhəmiyyətini artırmaq, turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədilə tematik nəşr məhsulları (kitab, buklet, CD və DVD-lər və s.) hazırlanır və yayılır, dünyanın müxtəlif televiziya kanallarında reklam çarxı nümayiş etdirilir, həyata keçirilən yeni layihələr barədə reklam və elanlar verilir, bu istiqamətdə internet imkanlarından və digər elektron daşıyıcı vasitələrindən də geniş istifadə edilir.

Görülən kompleks işlərin nəticəsi olaraq ölkəyə gələn turistlərin sayı ilbəil artır, ölkədə fəaliyyət göstərən turizm şirkətləri şəbəkəsi genişlənir. Hazırda respublikada 123 turizm müəssisəsi lisenziya əsasında fəaliyyət göstərir və 2002-ci ilə nisbətən onların sayı 3 dəfədən çox artmışdır.

Bununla yanaşı, turizmin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi bu gün Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur. Son illər Azərbaycanda əldə olunmuş sosial-iqtisadi irəliləyiş bu vəzifənin yeni imkanlara adekvat səviyyədə həllinə şərait yaradır.



"Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsi və turizm sahəsinin daha da inkişaf etdirilməsinin təmin edilməsi üçün hazırlanmışdır.

### 1.2. Məqsəd və vəzifələr

Dövlət Proqramının başlıca məqsədi Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsidir.

Bu məqsədə nail olunması aşağıdakı əsas vəzifələrin həllini nəzərdə tutur:

- ölkədə turizm infrastrukturunun yüksək beynəlxalq tələblər səviyyəsində qurulmasına istiqamətlənmiş məqsədyönlü fəaliyyətin həyata keçirilməsi;
- daxili və xarici investisiyaların turizm sahəsinə cəlb edilməsi məqsədilə bu sahədə təşviqləndirici investisiya və biznes mühitinin formalaşdırılması;
- turizm sahəsində qabaqcıl beynəlxalq təcrübədən istifadə edilməklə səmərəli dövlət tənzimlənməsi və idarə edilməsi mexanizmlərinin yaradılması;
- ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması.

### 1.3. Dövlət Proqramının fəaliyyət istiqamətləri

Dövlət Proqramı aşağıdakı istiqamətlərdə məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

- turizm sahəsində normativ hüquqi bazanın və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi;

- turizm və rekreasiya zonalarında müvafiq infrastrukturun yaradılması;
- ölkənin turizm potensialından istifadə imkanlarının genişləndirilməsi;
- ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması;
- turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi;
- turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, yeni turizm marşrutlarının yaradılması;
- turizm xidmətlərinin keyfiyyətinin artırılması məqsədilə mütərəqqi üsulların və standartların hazırlanması və tətbiq edilməsi;
- mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi;
- turizm sahəsi üçün kadr hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi, xarici dövlətlərdə məqsədli təhsil üzrə layihələrin həyata keçirilməsi;
- Azərbaycanın milli-tarixi, mədəni və mənəvi irsinin, milli adət-ənənələrin dünyada təbliği, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması, müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi;
- milli sənətkarlıq və suvenir məhsullarının istehsalının və satışının təşviqi;
- turizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi.

### 1.4. Dövlət Proqramının maliyyələşdirilməsi

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaitləri, o cümlədən dövlət büdcəsində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi üçün nəzərdə tutulmuş vəsaitlər, habelə qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.



## 2. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı

| № | Tədbirlərin adı | İcra müddəti (illər üzrə) | İcraçılar |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | 2.1. Turizm haqqında qanunvericiliyin təkmilləşdirilməsi | | |
| 2.1.1. | Turizm sahəsində idarəetmənin yaxşılaşdırılması və sahənin səmərəliliyinin artırılması məqsədi ilə qanunvericilik bazasının təkmilləşdirilməsi | 2010 - 2011 | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Ədliyyə Nazirliyi |
| 2.1.2. | Turizm və rekreasiya zonalarının müəyyən edilməsi, bu zonalarda müxtəlif növlər üzrə turizm fəaliyyətinin təşkilinə dair normativ hüquqi bazanın təkmilləşdirilməsi | 2010 - 2011 | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Ədliyyə Nazirliyi |
| 2.1.3. | Daxili turizm üzrə xidmətlərin sertifikatlaşdırılması üçün müvafiq standartlara dair normativ sənədlərin hazırlanması | 2010 - 2014 | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi |
| 2.1.4. | Turizm sahəsində dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi üçün müvafiq təkliflərin hazırlanması | 2010 - 2012 | Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi |
| 2.2. | Turizm və rekreasiyazonaları | | |

| | | | |
|---|---|---|---|
| 2.2.1. | Turizm və rekreasiya zonalarında müvafiq infrastrukturun, mehmanxana və digər turizm xidmətləri göstərən obyektlərin yaradılması ilə bağlı təşviqi tədbirlərin həyata keçirilməsi | 2010 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi |
| 2.2.2. | Tarix və mədəniyyət abidələrinin, qədim arxitekturaya malik binaların turizm məqsədləri üçün istifadəsinə dair təkliflərin hazırlanması | 2010 - 2011 | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, yerli icra hakimiyyəti orqanları |
| 2.2.3. | Ətraf mühitin, tarix və mədəniyyət abidələrinin qorunması üzrə tədbirlərin həyata keçirilməsi | 2010 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyətiorqanları bələdiyyə orqanlarını cəlb etməklə |
| 2.3. | Turizmin müxtəlif növlərinin inkişafı | | |
| 2.3.1. | Mədəni turizm obyektlərinin reyestrinin hazırlanması və təsdiqi | 2010 - 2011 | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, yerli icra hakimiyyəti orqanları |
| 2.3.2. | Mədəni turizm marşrutlarının yaradılması və tətbiqi | 2010 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi |



| | | | |
|---|---|---|---|
| 2.3.3. | Tarix-memarlıq və mədəniyyət qoruqlarının ərazilərində müasir turizm infrastrukturunun yaradılmasının dəstəklənməsi | 2010 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, yerli icra hakimiyyəti orqanları |
| 2.3.4. | Milli parklarda və ekoloji turizm üçün yararlı olan digər ərazilərdə ekoturizm fəaliyyətinin təşkili, ərazi turizm inkişaf planlarının hazırlanması | 2010 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 2.3.5. | Rekreasiya turizmi üzrə kurortlar və sanatoriyalar (rekreasiya-yerləşdirmə obyektləri) barədə rekreasiya planlarının hazırlanması | 2011 | Mədəniyyət və Turizm Nazirliyi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 2.3.6. | Müalicəvi su və digər təbii mənbələrin olduğu ərazilərdə müasir tələblərə uyğun rekreasiya-yerləşdirmə obyektlərinin tikintisinin planlarının hazırlanması | 2010 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi, Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 2.3.7. | Sağlamlıq imkanları məhdud şəxslərin, əlillərin, aztəminatlı əhalinin, uşaq və tələbələrin sosial turizmdən istifadəsinin təmin edilməsinə dair təkliflərin hazırlanması | 2010 - 2012 | Mədəniyyət və Turizm Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasını cəlb etməklə |
| 2.3.8 | Kənd, idman, əlavə, xüsusi maraq kəsb edən və digər turizm növlərinin inkişafına dair tədbirlər həyata keçirilməsi | 2010 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi, yerli icra hakimiyyəti orqanları bələdiyyə orqanlarını cəlb etməklə |
| 2.4. | İnvestisiyaların cəlb edilməsi | | |

| | | | |
|---|---|---|---|
| 2.4.1. | Turizm potensiallı iqtisadi-coğrafi rayonlarda turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi və təşviqi | 2010 - 2014 | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Vergilər Nazirliyi |
| 2.4.2. | Turizm sahəsində kiçik və orta sahibkarlığın təşviqi üzrə tədbirlərin həyata keçirilməsi | 2010 - 2014 | İqtisadi İnkişaf Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi |
| 2.4.3. | Təbiət ərazilərində, həmçinin milli parklarda həyata keçirilə biləcək turizm fəaliyyətlərinin araşdırılması və bu yerlərin turizm məqsədləri üçün istifadəsi imkanlarının genişləndirilməsi | 2010 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 2.4.4. | Tarix, memarlıq və mədəniyyət abidələrinin bərpasına və turizm məqsədləri üçün istifadəsinə investisiyaların cəlb edilməsi | 2010 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Milli Elmlər Akademiyası |
| | 2.5. Beynəlxalq əlaqələr | | |
| 2.5.1. | Beynəlxalq turizm bazarında Azərbaycan Respublikası üçün prioritet hesab olunan ölkələrin müəyyən edilməsi və həmin ölkələrdə Azərbaycan turizminin təbliği üzrə tədbirlərin görülməsi | 2010 - 2014 | Nazirlər Kabineti, Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi |
| 2.5.2. | Beynəlxalq turizm bazarında Azərbaycan Respublikası üçün prioritet hesab olunan ölkələrlə əməkdaşlığın genişləndirilməsi | 2010 - 2014 | Nazirlər Kabineti, Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi |
| 2.6. | Kadr təminatı | | |



| | | | |
|---|---|---|---|
| 2.6.1. | Turizm sahəsinə aid olan işçilərin Vahid Tarif İxtisas Sorğu Kitabçasının təsdiq edilməsi | 2011 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi |
| 2.6.2. | Turizm İnstitutunun nəzdində turizm üzrə milli təlim mərkəzinin yaradılması | 2012 | Mədəniyyət və Turizm Nazirliyi,Təhsil Nazirliyi |
| 2.6.3. | Turizm üzrə mütəxəssis hazırlayan ali, orta ixtisas və texniki peşə təhsili müəssisələrində müvafiq tədris proqramlarının təkmilləşdirilməsi | 2010 - 2011 | Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi |
| 2.6.4. | Turizm xidməti sahəsində çalışan şəxslər üçün xüsusi kurslar, seminarlar və digər tədbirlərin keçirilməsi | 2010 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi |
| 2.6.5. | Turizm obyektlərində sanitariya və gigiyena tədris proqramının həyata keçirilməsi | 2010 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi, Səhiyyə Nazirliyi |
| 2.6.6. | Turizm sahəsində təhsillə bağlı yeni vasitələrin araşdırılması və beynəlxalq təcrübə nəzərə alınmaqla tətbiqi barədə təkliflərin hazırlanması | 2011 - 2012 | Mədəniyyət və Turizm Nazirliyi |
| 2.6.7. | Ölkənin turizm potensialının xarici ölkələrdə təbliği məqsədi ilə Azərbaycan Respublikasının diplomatik missiyalarının əməkdaşları üçün müvafiq təlim-seminarların təşkili | 2011 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi |
| | 2.7. Statistika və tədqiqat | | |
| 2.7.1. | Turizm sahəsi üzrə statistik məlumatların toplanılması sisteminin və metodologiyasının beynəlxalq təcrübəyə uyğunlaşdırılmaqla təkmilləşdirilməsi | 2010 - 2011 | Dövlət Statistika Komitəsi, Mədəniyyət və Turizm Nazirliyi |
| 2.7.2. | Ölkə üzrə turizm fəaliyyətinə dairillik statistik toplunun hazırlanması | Mütəmadı | Dövlət Statistika Komitəsi, Mədəniyyət və Turizm Nazirliyi |

| | | | |
|---|---|---|---|
| 2.7.3. | Ölkəyə gələn və ölkədən gedən turistlərin sayı, məqsədləri və xərcləri barədə statistik məlumatların əldə edilməsi | 2010 - 2014 | Dövlət Statistika Komitəsi, Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Miqrasiya Xidməti |
| | 2.8. Tanıtma və marketinq | | |
| 2.8.1. | Xarici turistlər üçün milli mətbəx, incəsənət, sənətkarlıq və Azərbaycanın tarixi-mədəni abidələri haqqında məlumat toplusunun yaradılması və təbliği | 2010 - 2014 | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası |
| 2.8.2. | Milli sənətkarlıq və suvenir məhsulları-nın istehsalının təşviqi | 2010- 2014 | Mədəniyyət və Turizm Nazirliyi, yerli icra hakimiyyəti orqanları bələdiyyə orqanlarını cəlb etməklə |



## ƏLAVƏ 6

**"Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan kurortları" Dövlət Proqramı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 fevral tarixli 2002 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 fevral 2009-cu il

№ 125

Azərbaycan Respublikası Prezidentinin
2009-cu il 6 fevral tarixli 125 nömrəli
Sərəncamı ilə təsdiq edilmişdir

# 1. ÜMUMİ ƏSASLAR

## 1.1. Mövcud vəziyyət

Kurort işi Azərbaycan Respublikasında ənənəvi olaraq dövlətin sosial-iqtisadi siyasətinin mühüm tərkib hissəsini təşkil etmişdir. Bu sahədə aparılmış dövlət siyasəti nəticəsində inkişaf etmiş və kütləvi tələbatı ödəyən kurort kompleksi yaradılmışdır. Kurort işinin təşkili iqtisadi və sosial əhəmiyyətli fəaliyyət olaraq ölkənin bir çox regionlarının inkişafını, infrastrukturunun yaradılmasını, əhalinin məşğulluğunu, xidmət sahələrinin inkişafını təmin etmişdir. Ölkədə yaradılmış sanatoriya-kurort sistemi insanların istirahətinin, sağlamlaşdırılmasının və müalicəsinin təşkili baxımından olduqca vacib ümummilli sosial-iqtisadi funksiyaları da yerinə yetirmişdir.

Keçən əsrin 80-ci illərinin sonunda - 90-cı illərin əvvəllərində, Azərbaycanın siyasi, iqtisadi və sosial həyatında baş verən proseslər kurort kompleksinin təşkili, idarə edilməsi, maliyyələşdirilməsi, insanların istirahətinin, müalicəsinin və sağlamlaşdırılmasının təşkili, kurort texnologiyalarının tətbiqi, kadr təminatı sahəsinə təsirsiz ötüşməmiş, nəticədə mərkəzləşdirilmiş kurort kompleksinin və sanatoriya-kurort xidmətlərinin ümumdövlət sisteminin ahəngdar fəaliyyəti pozulmuşdur.

Bu kompleksə olduqca böyük zərər Ermənistanın Azərbaycan Respublikasına təcavüzü nəticəsində vurulmuşdur. Azərbaycanın 20 faiz ərazisi işğal olunmuş, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, həmin ərazilərdə unikal təbii xüsusiyyətlərə malik kurort yerləri dağıdılmış, daimi yaşayış yerlərindən didərgin düşmüş soydaşlarımız yaşayış yerləri ilə təmin edilmək məqsədi ilə sovet dövründə inşa edilmiş sanatoriya-kurort müəssisələrindəki çarpayı fondunun təxminən 50 faizi nisbətində ölkənin digər ərazilərində yerləşən sanatoriya, pansionat və istirahət evlərində məskunlaşdırılmışdır.

Hazırda Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" çərçivəsində ayrı-ayrı bölgələrdə kurortların dirçəldilməsi istiqamətində həyata keçirilən tədbirlərlə yanaşı, aparılan işlərin səviyyəsinin müasir tələblərə uyğunlaşdırılmasına ehtiyac vardır.

Təcrübə göstərir ki, sanatoriya-kurort müalicəsi əhalinin sağlamlığının qorunması sahəsində olduqca mühüm yer tutur. Bu sağlamlıq ocaqlarında aparılan müalicə nəticəsində xəstələrdə reabilitasiya prosesi sürətlənir, xəstəliklərin kəskinləşməsi prosesinin qarşısı alınır və xəstələr normal həyata qayıtmaq imkanı əldə edirlər. Səmərəli sanatoriya-kurort müalicəsi böyüklərdə və uşaqlarda xəstəliklərin kəskinləşməsi hallarını, habelə sanatoriyalarda reabilitasiya keçmiş xəstələrdə əmək qabiliyyətinin müvəqqəti və daimi itirilməsi hallarının sayını dəfələrlə azaldır.

Sanatoriya-kurort müalicəsinə əlillərin, xəstələrin, ekoloji cəhətdən çirkli zonalarda yaşayanların, uşaqların xüsusilə böyük ehtiyacı vardır. Əhalinin bu kateqoriyalarının sanatoriya-kurort müalicəsinə tələbatı sanatoriya-kurort şəbəkəsinin inkişafında nəzərə alınmalı, uşaq sanatoriyaları və istirahət düşərgələri şəbəkəsi genişləndirilməli, mövcud uşaq sanatoriyaları müasir avadanlıqlarla təmin olunmalı, onların maddi-texniki bazası sanitar norma və qaydalara uyğunlaşdırılmalı, xəstə və sağlamlıq imkanları məhdud uşaqların tibbi, psixoloji və sosial reabilitasiyası üçün optimal şərait yaradılmalıdır.

Azərbaycan Respublikasında mövcud sanatoriya-kurort şəbəkəsinin yenidən təşkili və yaradılacaq müəssisələrin fəaliy-

yətinin müasir beynəlxalq tələblər səviyyəsində qurulması mühüm vəzifələrdəndir. "Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"nda (bundan sonra - Dövlət Proqramı) həmin vəzifələrin yerinə yetirilməsi ilə bağlı kompleks tədbirlər nəzərdə tutulmuşdur.

## 1.2. Azərbaycan kurortlarının təsnifatı

Kurort təbii müalicə ehtiyatlarına malik olan və həmin ehtiyatlardan bərpa, profilaktika və müalicə məqsədi ilə istifadə etmək üçün zəruri şəraiti olan ərazi hesab olunur. Azərbaycanın ərazisi kurortlarla zəngindir.

Belə ərazilərdə istirahət və müalicəni təmin edən müəssisələr (sanatoriyalar, istirahət evləri, pansionatlar, balneoloji və palçıq müalicə ocaqları, kurort poliklinikaları, bərpa mərkəzləri və s.), sanitariya mühafizə zonaları və digər kurort infrastrukturu təşkil olunur.

Təbii müalicə ehtiyatlarına görə Azərbaycanda kurortların balneoloji, iqlim, müalicəvi palçıq kurortları və Naftalan nefti kurortu kimi növləri mövcuddur.

Balneoloji kurortlara əsasən təbii mineral sulardan istifadə olunan kurortlar aiddir. Azərbaycanın ərazisində müalicəvi xüsusiyyətlərinə görə dünyada qəbul olunan səkkiz qrup mineral suyun hər biri mövcuddur.

İqlim kurortları müalicəvi iqlimə malikdir. İqlim kurortları üçün səciyyəvi olan müalicəvi amillər (dəniz suyu, günəş vannaları, isti qum vannaları, dağ iqlimi və s.) bir çox xəstəliklərin profilaktikası və müalicəsi baxımından əhəmiyyətli hesab olunur.

Müalicəvi palçıq kurortlarında palçıqdan, əsasən lil palçığından (Masazır və Zığ gölünün palçıqları) və təpə (vulkan) palçıqlarından istifadə yolu ilə müalicə aparılır.

Naftalan nefti kurortunda unikal müalicə amilli olan və yüksək təsirə malik Naftalan nefti ilə müalicə aparılır.

Coğrafi yerləşməsinə görə Azərbaycanın kurort resursları aşağıdakı zonalara bölünür:



Böyük Qafqaz zonasında otuzdan artıq termal və soyuq müxtəlif konsentrasiyalı kükürdlü və üzvi maddələr tərkibli zəif minerallaşmış mineral su yataqları mövcuddur. Azərbaycanda geniş yayılmış palçıq vulkanları da bu zonada yerləşir.

Kiçik Qafqaz zonası əsasən karbon turşulu mineral sularla zəngin balneoloji kurortlarla fərqlənir. Şəfalı iqlimə malikdir. Bu zonada nadir təbii müalicə amili kimi tanınan Naftalan nefti mədənləri yerləşir.

Xəzər dənizinin sahil zonası iqlim və balneoloji xüsusiyyətlərinə görə üç kurort sahəsinə bölünür. Xudat-Yalama zolağı (Nabran kurortu) qumlu çimərliklər, meşələr, yod-bromlu su ehtiyatları ilə zəngindir. Abşeron yarımadası Mərdəkan, Bilgəh, Zuğulba, Buzovna, Suraxanı kurortlarını əhatə edir. Həmin ərazidə dəniz iqlimi ilə yanaşı Şıx termal sulfidli suyu, çoxsaylı yodlu-bromlu sular kimi müxtəlif mineral sularla müalicə aparılır. Suraxanı kükürdlü suları, Masazır və Zığ lil palçıqları da müalicə üçün istifadə olunur. Lənkəran-Astara subtropik zolağı termal mineral su bulaqları ilə zəngindir.

Mineral sularla zəngin bölgədə (150 su bulaqları) kurort müalicəsi üçün əhəmiyyətli olan Naxçıvan Muxtar Respublikasının Sirab, Badamlı, Vayxır, Darıdağ və Batabat kurortları yerləşir.

Kür-Araz çökəkliyində balneoloji kurortlar yerləşir və mövcud olan metanlı, azotlu, yüksək və çox yüksək minerallaşmış, silisiumlu, yodlu-bromlu termal su ehtiyatları müalicəvi əhəmiyyətə malikdir.

## 1.3. Dövlət Proqramının əsas məqsədi və vəzifələri

Dövlət Proqramının əsas məqsədi Azərbaycanda kurortların, müalicə-sağlamlıq və istirahət ocaqlarının inkişaf etdirilməsindən, onların fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə və tələblər əsasında təşkil olunmasından, ölkə

ərazisində mövcud təbii müalicə ehtiyatlarından səmərəli istifadənin təmin edilməsindən ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıda göstərilən vəzifələrin yerinə yetirilməsi zəruridir:

- kurort fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi;

- kurortların inkişafı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı tədbirlərin görülməsi;

- kurort müəssisələrinin fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi;

- kurort sahəsində özəl sektorun fəaliyyətinin dəstəklənməsi;

- kurort şəbəkəsinin zəruri infrastrukturla, ilk növbədə elektrik enerjisi, qaz, istilik və içməli su ilə təmin edilməsi, kanalizasiya sistemlərinin yenidən qurulması, kurortların yerləşdiyi bölgələrə gedən yolların əsaslı təmir edilməsi;

- kurort müəssisələri üçün yüksək ixtisaslı kadrların hazırlanması, mövcud mütəxəssislərin əlavə təhsili ilə bağlı tədbirlərin görülməsi; [i]

- kurortologiya sahəsində elmi-tədqiqat işlərinin genişləndirilməsi;

- beynəlxalq kurort xidmətləri bazarına çıxışın təmin edilməsi üçün reklam-marketinq və digər işlərin həyata keçirilməsi.

### 1.4. Dövlət Proqramının həyata keçirilməsinin əsas istiqamətləri və mərhələləri

Dövlət Proqramının əsas məqsəd və vəzifələrinin həyata keçirilməsinin başlıca istiqamətləri aşağıdakılardır:

- sanatoriya-kurort şəbəkəsinin maddi, elmi, təbii və kadr bazasının inkişaf etdirilməsi;

- sanatoriya-kurort və istirahət ocaqlarının müasir standartlara cavab verməsinin və dünya sanatoriya-kurort xidmətləri bazarına çıxışının təmin edilməsi;



- sanatoriya-kurort şəbəkəsinin müasir mütərəqqi üsullarla idarə olunmasının təmin edilməsi;

- ölkə əhalisinin yerli kurortlardan istifadəsinin genişləndirilməsi, xarici ölkə vətəndaşlarının müalicə və istirahət məqsədi ilə Azərbaycan Respublikasına gəlməsinin təmin edilməsi üçün sanatoriya-kurort müalicəsinin səmərəliliyinin artırılması, həmçinin göstərilən xidmətlərin kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəldilməsi;

- ölkə ərazisində mövcud təbii müalicə ehtiyatlarının öyrənilməsi və onlardan səmərəli istifadə olunmasının təşkil edilməsi;

- ölkə ərazisində mövcud təbii müalicə ehtiyatlarından istifadə olunması işinə yerli və xarici investorların cəlb olunması;

- əhalinin, o cümlədən aztəminatlı ailələrin ölkə ərazisində sanatoriya-kurort və istirahət ocaqlarından istifadə imkanlarının genişləndirilməsi.

Dövlət Proqramının iki mərhələdə həyata keçirilməsi planlaşdırılır:

birinci mərhələ 2009-2011-ci illəri əhatə edərək ölkədə sanatoriya-kurort şəbəkəsinin inkişaf etdirilməsi sahəsində ilk ən vacib tədbirlərin həyata keçirilməsindən ibarətdir;

2012-2018-ci illəri əhatə edəcək ikinci mərhələdə digər zəruri tədbirlərin, o cümlədən birinci mərhələ üzrə tədbirlərin icrasının nəticələrinə görə müvafiq tədbirlərin həyata keçirilməsi və tamamlanması nəzərdə tutulur.

### 1.5. Dövlət Proqramının maliyyə təminatı

Dövlət Proqramının maliyyə təminatı aşağıdakı maliyyə mənbələri hesabına həyata keçiriləcəkdir:

- dövlət büdcəsinin vəsaitləri;
- dövlət fondlarının vəsaitləri;
- yerli və xarici investorların maliyyə dəstəyi;
- qanunvericiliyə zidd olmayan digər mənbələr.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasına yönəldilən dövlət büdcəsi vəsaitlərinin həcmi növbəti illər üçün dövlət büdcəsinin tərtibi prosesində müəyyənləşdiriləcəkdir.

### 1.6. Gözlənilən nəticələr

Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlər nəticəsində aşağıdakılara nail olunması gözlənilir:

- Azərbaycan Respublikasının təbii müalicə ehtiyatlarından səmərəli istifadənin təmin olunması;
- ölkənin sanatoriya-kurort və istirahət ocaqlarının beynəlxalq sanatoriya-kurort xidmətləri bazarına çıxışı;
- ölkənin sanatoriya-kurort şəbəkəsinin cəlbedici imicinin formalaşması və nəticədə onun xidmətlərindən əhalinin, o cümlədən aztəminatlı şəxslərin, ailələrin və xarici ölkə vətəndaşlarının geniş istifadə etməsi;
- əhali arasında müvəqqəti və davamlı əmək qabiliyyətinin itirilməsi hallarının azalması;
- sanatoriya-kurort müəssisələrində profilaktika tədbirlərinin həcmi və keyfiyyətinin artırılması hesabına ürək, qan-damar, nevroloji, periferik sinir sistemi, sümük-əzələ, mədə-bağırsaq, vərəm və digər xəstəliklərin azalması;
- sanatoriya-kurort şəbəkəsinin gəlirliyinin artaraq kurort və sanatoriyalar yerləşən zonalarda, habelə ətrafda yaşayan əhalinin məşğulluğuna və sağlamlığına müsbət təsir göstərməsi, sanatoriya-kurort şəbəkəsi ilə əlaqədə olan iqtisadiyyatın digər sektorlarının inkişafı.



## 2. DÖVLƏT PROQRAMININ HƏYATA KEÇİRİLMƏSİNƏ DAİR TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcra müddəti (illər və mərhələlər üzrə) | İcraçı qurumlar |
|---|---|---|---|
| **2.1. Kurortların fəaliyyətinin normativ hüquqi bazasının və idarə edilməsinin təkmilləşdirilməsi** | | | |
| 2.1.1. | Kurort xidmətlərinin sertifikatlaşdırılması ilə bağlı təkliflərin hazırlanması | 2009-2011<br>I | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Səhiyyə Nazirliyi |
| 2.1.2. | Sanatoriya-kurort müəssisələri üçün bina və qurğuların inşası, infrastruktur təminat, qidalanma, sanitar-gigiyenik, ekoloji və digər normativlərin hazırlanması və təsdiqi | 2009-2011<br>I | Nazirlər Kabineti, Səhiyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi; Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla) |
| 2.1.3. | Azərbaycan Respublikasının kurort fondunun (təbii müalicə ehtiyatlarının, müalicə-sağlamlaşdırma yerlərinin və kurortların) dövlət uçotunun təşkili, təbii müalicə ehtiyatlarının, müalicə-sağlamlaşdırma yerlərinin və kurortların, o cümlədən müalicəvi palçıq yataqlarının, Naftalan nefti, yatağının, termal su mənbələrinin qorunması ilə bağlı tədbirlərin görülməsi onların istismarına nəzarətin gücləndirilməsi | 2009-2018<br>I, II | Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla) |
| 2.1.4. | Təbii müalicə ehtiyatlarının, müalicə- | 2009-2018 | Səhiyyə Nazirliyi |

| | | | |
|---|---|---|---|
| | sağlamlaşdırma yerlərinin və kurortların sanitariya mühafizəsinin təmin edilməsinə nəzarətin gücləndirilməsi | I, II | |
| 2.1.5. | Kurort xidmətlərinin marketinqi, ölkə daxilində və xarici ölkələrdə reklamı ilə bağlı tədbirlərin həyata keçirilməsi | 2009-2018 I, II | Səhiyyə Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla) |
| 2.1.6. | Kurortların yerləşdiyi ərazilərdə tarixi abidələr, digər görməli yerlərlə bağlı turist marşrutlarının müəyyən edilməsi, məlumat kitabçalarının çap olunması | 2009-2018 I, II | Mədəniyyət və Turizm Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| **2.2. Kurortların və sanatoriya-kurort müəssisələrinin yaradılması, yenidən qurulması və inkişafı** | | | |
| 2.2.1. | Böyük və Kiçik Qafqaz zonalarında, Xəzər dənizinin sahil zonasında, Naxçıvan Muxtar Respublikasının ərazisində və Kür-Araz çökəkliyində müasir tələblərə cavab verən balneoloji, iqlim, müalicəvi palçıq kurortlarının yaradılmasının dəstəklənməsi | 2009-2018 I, II | İqtisadiyyat və Sənaye Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi |
| 2.2.2. | Sanatoriya-kurort müəssisələrində məskunlaşmış qaçqın və məcburi köçkünlərin mərhələlərlə yeni salınan qəsəbələrə köçürülməsi üçün zəruri tədbirlərin görülməsi | 2009-2011 I | Nazirlər Kabineti, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və digər aidiyyəti orqanlar (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla) |



| | | | |
|---|---|---|---|
| 2.2.3. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan sanatoriyalarda təmir, bərpa və yenidənqurma işlərinin aparılması, zərurət yarandıqda, həmin obyektlərin qanunvericiliyə uyğun olaraq özəlləşdirilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi | 2009-2018 I, II | Səhiyyə Nazirliyi, Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi |
| 2.2.4. | "Naftalan" kurortunun yenidən qurulması ilə bağlı müvafiq şəhərsalma sənədlərinin təsdiqi və həmin ərazidə beynəlxalq tələblərə cavab verən sanatoriya-kurort müəssisələrinin yaradılması ilə bağlı tədbirlərin həyata keçirilməsi | 2009-2018 I, II | Nazirlər Kabineti, İqtisadiyyat və Sənaye Nazirliyi, Səhiyyə Nazirliyi (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla) |
| 2.2.5. | Mövcud kurort müəssisələrinin yenidən qurulması, idarə edilməsi və xidmətlərin təşkili işinə yerli və xarici investorların cəlb edilməsi | 2009-2018 I, II | İqtisadiyyat və Sənaye Nazirliyi, Səhiyyə Nazirliyi (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla) |

| | | | |
|---|---|---|---|
| **2.3. Sanatoriya-kurort müəssisələrinin infrastruktur təminatının yaxşılaşdırılması** | | | |
| 2.3.1. | Sanatoriya-kurort müəssisələrinin etibarlı elektrik enerjisi, qaz, isti və soyuq su, istilik təchizatı. kanalizasiya sistemlərinin bərpası, yenidən qurulması və inşası sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi | 2009-2018 I, II | "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti, Dövlət Neft Şirkəti, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti, yerli icra hakimiyyəti orqanları |
| 2.3.2. | Sanatoriya-kurort müəssisələrinə gedən yolların bərpası. yenidən qurulması, müvafiq yaşayış məntəqələrində müasir tipli avtovağzalların inşası, yol boyu məlumat nişanlarının quraşdırılması | 2009-2018 I, II | Nəqliyyat Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 2.3.3. | Sanatoriya-kurort müəssisələrinin yaxınlığında nəqliyyat vasitələrinin saxlanması üçün zəruri texniki xidmətin göstərilməsi şərti ilə avtodayanacaqların, yanacaqdoldurma məntəqələrinin təşkilinin dəstəklənməsi | 2009-2018 I, II | Əmlak Məsələləri Dövlət Komitəsi, Nəqliyyat Nazirliyi, Energetika Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 2.3.4. | Kurort ərazisində yerləşən yaşayış məntəqələrində müasir tələblərə cavab verən müvafiq səhiyyə xidmətlərinin təşkili | 2009-2018 I, II | Səhiyyə Nazirliyi |
| 2.3.5. | Kurort ərazisində yerləşən yaşayış məntəqələrində məişət tullantılarının utilizasiyası müəssisələrinin yaradılması ilə bağlı tədbirlərin görülməsi | 2009-2018 I, II | İqtisadiyyat və Sənaye Nazirliyi, yerli icra hakimiyyəti orqanları |



| | | | |
|---|---|---|---|
| **2.4. Sanatoriya-kurort müəssisələrinin kadr və elmi təminatının gücləndirilməsi** | | | |
| 2.4.1. | Sanatoriya-kurort müəssisələrində çalışan həkim, orta tibb işçiləri və digər xidmət personalı üçün ixtisasartırma kurslarının təşkili | 2009-2011 I | Səhiyyə Nazirliyi |
| 2.4.2 | Sanatoriya-kurort müəssisələri üçün mütəxəssislərin hazırlanması məqsədi ilə ali təhsil müəssisələrinə qəbul və mütəxəssislərin hazırlanması planlarında müvafiq ixtisasların nəzərdə tutulması | 2009-2011 I | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi |
| 2.4.3. | Kurortologiya elminin inkişaf etdirilməsi, müasir standartlara cavab verən yeni müalicə texnologiyalarının hazırlanması və tətbiqi | 2009-2018 I, II | Səhiyyə Nazirliyi |
| 2.4.4. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun yenidən qurulması, maddi-texniki bazasının genişləndirilməsi, elmi tədqiqatların aparılması məqsədi ilə kurortlarda elmi-metodik kabinetlərin yaradılması | 2009-2018 I, II | Səhiyyə Nazirliyi |
| 2.4.5. | Kurort fondunun genişləndirilməsi və ondan istifadənin səmərəliliyini artırmaq məqsədi ilə elmi tədqiqatların aparılmasının təşkili | 2009-2018 I, II | Səhiyyə Nazirliyi |
| 2.4.6. | Kurort işinin təşkili və inkişafı üzrə elmi-praktik konfransların və digər tədbirlərin keçirilməsi | 2009-2018 I, II | Səhiyyə Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi |

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 10 noyabr 2009-cu il tarixli 183 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ("Azərbaycan" qəzeti 11 noyabr 2009-cu il, № 252, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 11, maddə 886)
2. 2 iyul 2010-cu il tarixli 291 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, № 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 7, maddə 610)
3. 15 fevral 2011-ci il tarixli 381 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 85)
4. 10 fevral 2014-cü il tarixli 105 nömrəli Azərbaycan Respublikasının Fərmanı ("Respublika" qəzeti, 12 fevral 2014-cü il, № 30, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 112)
5. 14 may 2014-cü il tarixli 164 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Azərbaycan" qəzeti 16 may 2014-cü il, № 101



# DİOQRAMLAR




**Şəkil 1. Azərbaycanda turizm şirkətlərinin sayı**






**Şəkil 2. Azərbaycanda mehmanxana və ona uyğun yerləşmə müəssisələrinin sayı**




**Şəkil 3. Mehmanxana və ona uyğun yerləşmə müəssisələrinin gəlirləri (min man.)**






**Şəkil 4. Azərbaycana gələn xarici ölkə vətəndaşlarının sayı**




**Şəkil 5. Xarici ölkələrə səfər edən Azərbaycan vətəndaşlarının sayı**






**Şəkil 6. Səfərlərin məqsədinə görə Azərbaycana gələn turistlərin sayı (2014-cü il), min nəfərlə**




**Şəkil 7. Səfərlərin məqsədinə görə Azərbaycandan gedən turistlərin sayı (2014-cü il), min nəfərlə**






**Şəkil 8. Azərbaycanda mehmanxanaların xidmətindən gəlirlər (%-lə)**




**Şəkil 9. Nəqliyyat növləri üzrə xidmət göstərilmiş turistlərin sayı (%-lə)**



## İSTİFADƏ OLUNMUŞ VƏ TÖVSİYƏ EDİLƏN ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Qanunvericiliyi toplusu. I cild, Bakı: "Avrasiya press", 2011, 521 s.

2.Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş tarix və mədəniyyət abidələri. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Qanunvericiliyi toplusu. II cild, Bakı: "Avrasiya press", 2011, 500 s.

3.Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). "Respublika" qəzeti, 13 fevral 2004-cü il.

4."Azərbaycan kurortları" Dövlət Proqramı. "Xalq" qəzeti, 28 fevral, 2007-ci il.

5.Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial –iqtisadi inkişafı Dövlət Proqramı. "Respublika" qəzeti, 16 aprel , 2009-cu il.

6.Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. "Respublika" qəzeti, 7 fevral 2009-cu il.

7.Azərbaycanda turizm. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. "Səda", 2014, 247 s.

8. Azərbaycanın iqtisadi və sosial coğrafiyası. Ali məktəblər üçün dərslik./ prof. V.Ə.Əfəndiyevin redaktəsi ilə. - B.: "Bakı Universiteti" nəşriyyatı, 2010, 496 s.

9.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2005-ci ildə mehmanxana fəaliyyətinə dair əsas göstəriciləri. Bakı, 2006, 156 s.

10.Azərbaycanda turizm strategiyasının inkişafı üçün texniki yardım. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Bakı. 2006.

11. Azərbaycanda turizm strategiyasının inkişafı üçün texniki yardım. Bakı: 2006, 188 s.
12.Azərbaycanın əsas və əlavə turist marşrutlarının təsdiq olunması haqqında Gənclər, İdman və Turizm Nazirliyinin qərarı. Bakı, 2003, 36 s.
10. Azərbaycan. Bələdçi kitabı. Bakı: 2003, 255 s.
11.Ağakərimov M.M., Babazadə S.İ. Ekskursiya və ekskursiya rəhbəri. Bakı: "Oskar", 2006, 171 s.
12.Ağakərimov M.M. Otel. Bakı: "R.N. Novruz-94", 2008, 327 s.
13.Ağakərimov M.M. Mehmanxanada Ön büro. Bakı: "Aypara nəşriyyatı", 2013, 272 s.
14. Axundov Ş.Ə. Marketinq. Bakı: "Əbilov, Zeynalov və oğulları", 2003, 589 s.
18.Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Bakı: "Avrasiya Press" 2006, 416 s.
19.Azərbaycanın Milli Parkları. Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Bakı, 2007, 37 s.
20. Bağırov F.A. Naxçıvanın təbii sərvətləri. Naxçıvan: AzTU, 2008, 196 s.
21.Bilalov B.Ə. Turizmin menecmenti. Bakı: "Mütəcim", 2005, 372 s.
22.Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı: "Mütəcim", 2006, 280 s.
23.Bilalov B.Ə. Turizmin tarixi. Bakı: "Mütəcim", 2008, 328 s.
24.Bilalov B.Ə., Qəhrəmanov Y.M. Səyahət agentlikləri və turoperatorluq. Bakı: "Mütərcim", 2012, 227 s.
25. Budaqov B.Ə. Azərbaycanın müasir təbii landşafları. Bakı: Elm, 1988,135 s.
26.Budaqov B.Ə. Sovet Azərbaycanın təbiəti. Bakı: "Elm", 1988, 126 s.
27.Budaqov B.Ə. Azərbaycanın təbiət abidələri. Bakı: "Elm",1990, 180 s.



28.Dərgahov V.S. Azərbaycanın Xəzərsahili bölgəsinin rekreasiya-turizm ehtiyatları. Bakı: "Sabah", 2003, 138 s.
29. Dərgahov V.S. Rekreasiya-turizm ehtiyatları. Bakı: "MBM", 2008, 214 s.
30.Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq turizm hüququ. Bakı: "İSBN", 2011, 475 s.
31.Əfəndiyeva F.P. Şəfalı palçıqlar. Bakı: "Elm", 1984, 64 s.
32.Əliyev H.Ə. Həyəcan təbili. Bakı: "Elm", 2007, 204 s.
33.Əliyev H.Ə. Təbiətin keşiyində. Bakı: "Elm", 1993, 309 s.
34.Əlirzayev Ə.Q., Aslanova S.İ. Turizmin inkişafının sosial-iqtisadi problemləri. Bakı: "Adiloğlu", 2006, 139 s.
35.Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: İqtisad universiteti, 2011, 494 s.
36.Əyyubov Ə.C. Azərbaycan SSR-nin kurort və istirahət yerlərinin iqlimi. Bakı: "Azərbaycan Dövlət Nəşriyyatı", 1987, 93 s.
37. Filipp Kotler. Marketinqin əsasları. Bakı: Ergün, 1993, 559 s.
38.Qafarov N.C. Turizmin iqtisadiyyatı. Bakı: "Kooperasiya" nəşriyyatı, 2012, 440 s.
39.Heydərov Ş.Ə. Turizmdə nəqliyyat xidmətlərinin təşkili. Mingəçevir, "MMC", 2011, 148 s.
40. İsmayılov Ç.N. İqtisadi və sosial coğrafiyanın əsasları. B.: TEAS Press nəşriyyat evi, 2015, 160 s.
41.Qasımov M.S. Abşeron yarımadası əhalisinin rekreasiya təminatı. Bakı: "Qismət", 2007, 328 s.
42.Məmmədov Q.Ş., Xəlilov M.Y. Azərbaycan meşələri. Bakı: "Elm", 2002, 472 s.
43.Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası. Bakı: "R.N.Novruz-94", 2002, 547 s.
44.Məmmədov C.A., Rəhimov S.H. Turizm termin və anlayışlarının ensiklopedik lüğəti. Bakı: "Mütərcim", 2003, 207 s.
45. Məmmədov C.A., Bilalov B.Ə. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları. Bakı: 2004, 212 s.

46.Məmmədov C.A., Rəhimov S.H. Turizm və onunla əlaqəli sahələrdə işlədilən termin və anlayışların izahi lüğəti. Bakı: Qanun 2000, 272 s.
47.Məmmədov Q.Ş., Xəlilov M.Y. Ekologiya və ətraf mühitin mühafizəsi. Bakı: "Elm", 2005, 879 s.
48.Məmmədov Z.S. XXI əsr iqtisadi inkişafın nəqliyyat faktoru. Bakı: "Kooperasiya", 2002, 386 s.
49. Museyibov M.M. Azərbaycanın fiziki coğrafiyası. Ali məktəblər üçün dərslik. B.: "Maarif", 2008, 398 s.
50. Nadirov F.T., Qəhrəmanov M.K. Kənd yaşıl turizmi. Bakı, "Adiloğlu", 2004, 112 s.
51.Naxçıvan Ensiklopediyası. Bakı: "Ensiklopediya", 2002, 594 s.
52. Rəhimov S.H. Beynəlxalq turizm texnoloji terminlərinin izahlı lüğəti. Bakı: "Mütəcim", 2003, 208 s.
53.Rəhimov S.H. Turizm-ekskursiya işinin təşkili. Bakı: "Mütəcim", 2004, 312 s.
54.Rəhimov S.H. Turların təşkili: nəzəriyyə və təcrübə. Azerbaican tourizm news, №3 (19), 2008.
55.Rzayev B.Z. Naxçıvan Muxtar Respublikasının mineral sərvətləri və onların istifadə perspektivləri. Naxçıvan: Əcəmi, 2003, 88 s.
56.Soltanova H.B., Ağakərimov A.A., Babazadə S.İ. Mehmanxana təsərrüfatı. Bakı: "Parni iz Baku", 2005, 220 s.
57.Soltanova H.B., Hüseynova Ş.H. Turizmin əsasları. Bakı: Mütərcim, 2007, 316 s.
58.Soltanova H.B., Zeynalov C.V. Otelçilik fəaliyyətinin əsasları. Bakı: AzTu-nun mətbəəsi.2013, 410 s.
59.Soltanova H.B. Azərbaycan Respublikasında turizmin müasir problemləri // Bakı Universitetinin Xəbərləri. Təbiət elmləri seriyası. Bakı, 2007, №1, s.133-138.
60.Soltanova H.B. Azərbaycan Respublikasında dağ turizm kompleks yaradılması imkanları// "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya" II Beynəlxalq konfransı. Bakı, 02-05 may, 2007, s.546-549.
61.Soltanova H.B. Turist marşrutlarının təkmilləşdirilməsi// H.Əliyevin 85 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Bakı, 2008, s.331-335.
62.Soltanova H.B. Azərbaycan Respublikası regionlarında turizmin inkişafının aktual problemləri. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi problemləri. Bakı: 2005, s. 66-69.
63.Soltanova H.B. Turizm-rekreasiya sistemlərinin öyrənilməsinin nəzəri əsasları.// Azərb.Coğr.Cəm. BDU filialının əsərləri II cild. Azərbaycanda müasir ekocoğrafi şəraitin dəyişməsində antropogen amilin rolu. BDU-nun 90 il.yub. həsr olunmuş elmi konfransın materialları, Bakı, 2009 s.737-741.
64.Soltanova H.B., Əhmədova İ.İ. Azərbaycanda yerləşmə müəssisələri: regional problemlər// Azərbaycanda "Turizm ili"nə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Bakı, 2011 s. 450-457.
65.Turizmin davamlı inkişafı. Yerli planlaşdırma üzrə mütəxəssislər üçün vəsait. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Bakı: 2012, 59 s.
66.Turizm sektorunda çalışanlar üçün məlumat kitabçası. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Bakı: 2011, 142 s.
67.Şəkuri.B.Q. Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onların qorunması. Bakı: "MBM" MMC, 2005, 344 s.
68. Şükürov T.Ş. Marketinq tədqiqatları. Bakı: 2003, 228 s.
69. 1."Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu (4 iyun 1999-cu il, №497-15-IQ). Azərbaycan Respublikasının mədəniyyət və turizm qanunvericiliyi toplusu. "Avrasiya press", 2011, 522 s.
70. Zülfüqarova S.M. Abşeron Azərbaycan Respublikasının mühüm turizm mərkəzi kimi.// Bakı Universitetinin xəbərləri. Təbiət elmləri seriyası. 2006, №1, s.132-137.

**Rus dilində:**


71.Абрамов М.А., Солтанова Г.Б. Проблемы территориальной организации курортно-туристических комплексов на побережье Каспийского моря. Вестник Бакинского Университета. Изд. Бакинского Университета №3, 1998, с.176-184

72.Балабанов И.Т., Балабанов А.И. Экономика туризма. М.: «Финансы и статистика», 2003, 116 с.

73.Биржаков М.Б. Введение в туризм. СПб «Издательский дом Герда», 2007, 576 с.

75.Голубков Е.П. Маркетинговые исследования: теория, методология, и практика. М.: Финпресс, 2000, 464 с.

76. Дж. Р.Уокер. Введение в гостеприимство. М.: ЮНИТИ, 2008, 711с.

77.Гусейнов М.М. Курортные ресурсы Азербайджана. Баку: «Элм», 1979, 120 с.

78. Дурович А.П. Маркетинг в туризме. М.: ИНФРА-М, 2012, 316 с.

79. Дурович А.П. Основы маркетинга. М.: ИНФРА-М, 2012, 286 с.

80. Дурович А.П. Организация туризма. Питер Пресс, 2009, 318 с.

81.Ильина Е.Н. Туроперейтинг. Организация деятельности. М.: "Финансы и статистика", 2001, 204 с.

82.Ильина Е.Л. Деятельность туристских агентств: Туристский рынок и предпринимательство. М.: «Советский спорт», 2004, 64 с.

83.Квартальнов В.А. Туризм. М.: «Финансы и статистика», 2002, 320 с.

84.Квартальнов В.А. Экономика туризма. М.: «Финансы и статистика», 2002, 376 с.

85.Квартальнов В.А. Туризм как вид деятельности. М.: 2002, 288 с.

86.Котляров Е.А. География отдыха и туризма: формирование и развитие территориальных рекреационных комплексов. М.: «Мысль», 1978, 238 s.

87.Кусков А.С., Голубева В.Л., Одинцова Т.Н. Рекреационная география. М.: "Флинта", 2005, 493 с.

88.Рагимов С.И. У Азербайджанского туризма большое будущее. AİTT News, Баку, 2003,№2.

89.Салманов А.А. География курортного хозяйства приморской зоны Азербайджана.: Автореферат. к.г.н. Баку, 1973, 19 с.

90.Тагиев И.И., Ибрагимова И.Ш., Бабаев А.М. Ресурсы минеральных и термальных вод Азербайджана. Баку: «Чашыоглу», 2001, 214 с.

91.Ушаков Д.С. Прикладной туроперейтинг.М.: Изд.центр «Март», 2006, 448 с.

92.Экономика и организация туризма: международный туризм.//Под ред.И.А.Рябовой. М.: «КНОРУС», 2005, 576 с.

93.Десяткова Н.Н., Корневец В.С. Организация сельского туризма. Калининград, 2003.

94.Солтанова Г.Б. Курортно-туристские ресурсы Азербайджанской Республики и перспективы развития курортной системы. Сб. География и туризм. Вып 1. Пермь: «ПГУ», 2005, с. 206-216

95. Сергеева Т. К. Экологический туризм. Учебник. М., Финансы и статистика, 2004.

96. Тарасенок А.В. Виды экологического туризма. //Туризм и отдых, 2000, №21.

**İnternet resursları:**

http:// http://www.stat.gov.az/source/tourizm/
www.tourism.edu.az
http://www.unwto.org/statistics/index.htm
www.azerbaijan.travel.az
www.bakutourism.az
www. az.wikipedia.org/wiki/Naftalan
http://www.shahdag.az/page4.html
http://www.eco-tourism.aznet.org
http://ekoturizm.az/home.htm
https://www.google.az/search?q=Qalaaltı
https://az.wikipedia.org/wiki/Qalaaltı_Hotel_%26_SPA
http://www.duzdag.com/duzdagaz.html
http://www.nakhchivan.az/portal-1/tebiet.htm



## Development of tourism in Azerbaijan Republic
## Annotation
**Habiba Soltanova**

This monograph is dedicated to tourism which is a priority field in non-oil sector and to its development. According to the structure, this book consists of mainly 5 parts and 20 chapters, as well as the appendices. In this monograph natural, historical- cultural and social –economic factors of development of tourism in Azerbaijan, as well as tourism market of the republic and its development directions, tourism potential according to economic regions, perspectives of tourism in the country are investigated. Natural wealth of Azerbaijan, its ancient historical and cultural recourses, the state of tourism infrastructure, investigation of tourism market both for incomers and outgoers, modern state of tourism in separate regions and their development directions, tourism policy of the state, priority directions of tourism (ecological tourism, rural tourism, hiking, beach and resort tourism) are analyzed in the chapters.

The President's decrees of different contents on State Programs on development of tourism are shown at the end of this book as "appendices", and the essence of the activities born out of them, as well as the information on their implementation are also stated there.

This monograph can be used by bachelors, masters, doctors studying tourism specialty, as well as those who get vocational education on this specialty and those working in the related establishments.

## Soltanova Həbibə Bayraməli qızı



1948-ci ildə Bakının Maştağa qəsəbəsində doğulub. 1966-1971-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) geologiya-coğrafiya fakültəsində təhsil alıb. Əmək fəaliyyətinə Azərbaycan Dövlət Universitetində başlamışdır. 1972-ci ildən BDU-nun "Xarici ölkələrin iqtisadi və siyasi coğrafiyası" kafedrasında (2004-cü ildən "Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm" kafedrası adlanır) baş laborant, 1980-ci ildən assistent, 1985-ci ildən baş müəllim, 1988-ci ildən dosent vəzifələrində çalışmışdır. 1996-cı ildən həmin kafedranın müdiridir. 1986-cı ildən coğrafiya elmləri namizədidir.

H.B.Soltanova Azərbaycanda 2000-ci illərdən sonra turizm sektorunun inkişafına təkan verildiyindən xarici ölkələrin bu sahədə təcrübəsindən istifadə edərək kafedrada elmi tədqiqatların aparılmasına rəhbərlik edir.

Azərbaycanın görkəmli coğrafiyaşünas alimi, Əməkdar elm xadimi prof.Hadı Bədəl oğlu Əliyevin yaratdığı elmi məktəbin davamçılarındandır. Elmi marağı Yaxın və Orta Şərq ölkələrinin iqtisadi-siyasi və sosial problemlərinin öyrənilməsi, turizm və otelçilik istiqamətindədir.

O, 9 dərslik və dərs vəsaitinin, 2 monoqrafiya, 100-dək elmi və publisistik məqalənin, çox saylı metodik göstəriş, tədris proqramlarının müəllifi, xeyli sayda monoqrafiya və tədris-metodiki vəsaitlərin elmi redaktorudur. Rəhbərliyi altında 3 elmlər namizədi hazırlanmışdır.

Elmi əsərləri iqtisadi-siyasi və sosial coğrafiyanın müxtəlif sahələri, xüsusilə ölkəşünaslıq və turizm istiqamətindədir. 1990-cı ildən sonra regional coğrafiya və turizm istiqamətində iri həcmli əsərləri çap olunmuşdur: "Ərəb ölkələrinin coğrafiyası" (dərslik, Bakı Universiteti nəşriyyatı. 1992. prof. C.A.Məmmədovla müştərək), "Beynəlxalq turizmin coğrafiyası" (dərs vəsaiti, Bakı "Novruz-94" nəşriyyatı. 2002, prof. C.A.Məmmədov və S.H.Rəhimovla müştərək), "Mehmanxana təsərrüfatı" (dərs vəsaiti, "Parni iz Baku", 2005, Ağakərimov M.M., Baba-zadə S.İ. ilə müştərək). "Turizmin əsasları" (dərs vəsaiti, Bakı: "Mütərcim", 2007, Ş.H.Hüseynova ilə müştərək), "Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası" (dərslik, Bakı Universiteti Nəşriyyatı. 2008, C.A.Məmmədovla müştərək), "Dünyanın iqtisadi və sosial coğrafiyası" (dərslik, Bakı: AzTu-nun mətbəəsi, 2011), "Otelçilik fəaliyyətinin əsasları" (monoqrafiya, Bakı: 2013, C.V.Zeynalovla müştərək).

Azərbaycan Respublikası Təhsil Nazirliyində Coğrafiya bölməsi üzrə Metodiki Şuranın, Coğrafiya fakultəsinin Elmi Şurasının üzvüdür. Coğrafiya fakültəsində Tədris-Metodik Şurasının sədridir. Azərbaycan Respublikasında Turizmin İnkişafı Dövlət Proqramının layihəsinin hazırlanması məqsədilə işçi qrupunun tərkibində olub. Azərbaycan Coğrafiya Cəmiyyətinin Rəyasət Heyətinin üzvü və Coğrafiya Cəmiyyətinin BDU filialının sədridir.

AR Təhsil Nazirliyi, AR Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanlarına, "Qızıl Qələm" mükafatına, Azərbaycan Bayrağı" fəxri diplomuna layiq görülüb.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.



**Mətbəə müdiri:** *Əvəz İdrisoğlu*
**Texniki redaktor:** *Ramin Vidadioğlu*

*Çapa imzalanıb 30.10.2015-ci il*
*Sayı 200. Həcmi 30 ç.v.*
*Formatı 60x84 1/16. Əla növ kağız*

*AzTU-nun mətbəəsi. H.Cavid pr.25.*
*Tel: (+012) 539-14-52*
*E.mail: aztumetbee@yahoo.com*